**بسم الله الرحمن الرحيم**

**MEHRİBAN VƏ BAĞIŞLAYAN ALLAHIN ADI İLƏ**

# QURANDA İSLAMİ TƏFƏKKÜR TEZİSİ

**Ayətullah əl-üzma Seyid Əli Xamenei**

## İŞARƏ

1974-cü ilin yay fəslinin son günləri Məşhəd şəhərinin Sərşur bazarının qurtaracağında “İmam Həsən Müctəba (ə)” adlı kiçik və yarıtəmirli məscidin imamı yeni metodla fəaliyyətə başlayır. Uca boya, nüfuzlu gözlərə sahib olan otuz beş yaşlı Seyid Əli Xamenei mübarək Ramazan ayında, hər gün zöhr və əsr namazlarından sonra əlinə Quran alıb tribuna arxasına keçərək “Quranda islami təfəkkür tezisi” mövzusuna dair bir saat söhbət etməyi qərara alır.

Məclisin başlaması ilə Məşhəd şəhərində çaxnaşma yaranır. Adətən, yay günlərində, zöhr namazı ərəfəsində şəhərə sükut çökür, hamı bir neçə saatlıq istirahətə çəkilirdi. Lakin şəhərin bir guşəsinə qəribə canlanma, xüsusi şövq hakim olmuşdu; gənc-yaşlı, kişi-qadın – dodaqları qurumuş oruc insanlar günortanın qızmar istisində şəhərin uzaq və yaxın məntəqələrindən İmam Həsən Müctəba (ə) məscidinə doğru addımlayırdılar. Hamı gənc Seyidin Allah ayında sərdiyi bərəkətli maarif süfrəsindən bəhrələnmək və susuzluğunu yatırmaq üçün müştaqcasına özünü məscidə çatdırırdı.

Bu gənc ruhaninin dinləyicilərinin sayı günü-gündən artır, məclisdə sıxlıq yaranırdı, hətta məscidin arxasındakı böyük parkinqdə məclis iştirakçılarının oturması üçün yer düzəldildi. Göz gəzdirdikdə, müxtəlif yaş qruplarına aid insanları görmək olurdu. Hamı – şagird, tələbə, tacir, məhəllə sakinləri, kişi və qadın əyləşmişdi və çoxu da gənc nəsil idi. Tibb tələbələrindən bir neçəsi digər tələbələrin məclisdə iştirakı üçün də bir neçə avtobus kirayələmişdi. Avtobus tələbələri universitetin önündən mindirib məscidə aparırdı.

Seyid Əli Xameneinin məclisinə yenilik hakim idi; məclis

başlanmamış hər kəsə gündəlik söhbətin xülasəsindən ibarət kserekopiya olunmuş bir vərəq verilirdi. Xətib ənənənin əksinə, mənbərdə yox, tribuna arxasında dayanır, hər gün oruc ağızla bir saat çıxış edirdi. Söhbətdən sonra isə Quran qarisi öncədən mənbərdə hazırlanmış yerdə əyləşib məclisdə qeyd olunmuş ayələri gözəl səslə tilavət edirdi. Məclis mənbər söhbətindən daha çox, dərs sinfinə oxşayırdı.

Pəhləvi rejiminin diktaturası, zülmkarlıq və istibdadı uzun illər idi ki, davam edirdi. İmam Xomeyninin sürgün edildiyi həmin vaxtlarda dini yığıncaqlarda zalım hakim rejimin həssas olduğu mövzulara kiçik işarələr belə etmək hər kəsin işi deyildi. İqtidarın zirvəsində olan SAVAK-ın casusları hər yerdə fəaliyyət göstərirdi. Cihad və mübarizə ayələrini oxumaq qadağan edilmiş və cinayət sayılırdı. Bəni-İsrail ifadəsi işlənən ayələrə toxunan və İsrailə işarə edən xətibin məclisinə xitam verilir, özü də həbs olunurdu. Bütün bunlara rəğmən, “İmam Həsən Müctəba (ə)” məscidinin gənc ruhanisi mübarizə meydanının pəhləvanı idi. O, SAVAK məmurlarının şərindən amanda qalmaq üçün necə çıxış etməli və məclisi necə idarə etməli olduğunu yaxşı bilirdi. Cənab Xamenei son dərəcədə zəka və şücaətlə Qurandan uzaq qalmış ümmətin qəlbinə Allah kəlamının nurunu çatdırmaq üçün bir körpü salır, tam diqqət və zərafətlə islami etiqadlar məcmusunu Qurana istinadən elə bəyan edirdi ki, insanlar Quran maarifi sayəsində öz etiqadlarını yeniləməklə islami rejim haqqında da düşünməyə başlayırdılar. Gənc Seyid ilk söhbətini “iman” mövzusu ilə başlayır, sonra isə Ramazan ayının sonuna qədər “tövhid”, “nübuvvət” və “vilayət” bəhslərini yekunlaşdırır. O, bu məclislərdə Məşhəd gənclərinin qəlblərində agahlığa əsaslanan iman toxumunu əkməklə onları Quranla munis edir, müqəddəs Quranı taxçalar qürbətindən, nikah süfrələrindən, hüzür məclislərindən çıxarıb gənclərin ixtiyarında qoyur.

Uzun illər dini düzgün dərk etməyən bir qrup öz quru düşüncəsi ilə “Quranı hər kəs başa düşə bilməz; Quranı yalnız savab məqsədilə oxumaq lazımdır” və bu kimi müxtəlif bəhanələrlə insanları Qurandan uzaqlaşdırmışdı. Həqiqətdə, hakim dairələr də bu sözləri xoş qarşılayırdılar. Lakin Seyid Əli Xamenei yaxşı bilirdi ki, bu sözlər ya düşmənin hiyləsidir, ya da həmin insanlar nadanlıq içində çapalayırlar. Onun özü Quran aşiqi, Quran fədaisi idi və Quranın qəribliyini aradan qaldırmaq üçün ciddi çalışırdı. Möhkəm və əzmlə, coşğun və tutarlı

sözləri ilə əlində Quran tribuna arxasına keçib bütün varlığını ilahi kəlamlara vəqf edirdi. Həqiqi İslam təfəkkürünü ilahi mətnin daxilindən yenidən dirçəltmək, Quranı müsəlman xalqın qəlbi və əməlinə qaytarmaq istəyirdi. O, sonuncu Peyğəmbərin (s) əbədi möcüzəsinin möhtəvasının tamamilə sıradan çıxmasına, onun elə cild və vərəqlər üzərində həbs edilməsinə cəhd göstərən zalımların üstünə belə fəryad edirdi:

"İnsanları Qurandan uzaqlaşdıranların vay halına! Müxtəlif bəhanələrlə insanları Quranı anlamaq məqsədilə açmağa qoymayanların vay halına! Qardaşlar və bacılar! Bilin ki, bizim bugünkü işimiz Quranladır. Necə ki, Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

اِذَا التَبَسَت عَلَيكُمُ الفِتَنُ، كَقِطَعِ الَّيلِ المُظلِمِ فَعَلَيكُم بِالقُرآنِ

***"Fitnələr qaranlıq gecə tək sizə üz gətirdikdə (və sizin həyatınıza kölgə saldıqda), Qurana sığının."***[1]

O gün haçandır? Gecə tək qaranlıq fitnələri görmürükmü? Yaxınlığınızdakı və gözlərinizin önündəki kələ-kötür yolları görmürsünüzmü? Açıq gözlər hər tərəfdən hücuma keçən oğruları və quldurları görmürmü? Onda, haçan Qurana üz tutacağıq? Haçan? İmam Zaman (ə.f.) gəldikdən sonramı? Axı, onun özü natiqi-Qurandır. Bax, elə bu gün Qurana üz tutmalıyıq."

Nəhayət, "İmam Həsən Müctəba (ə)" məscidində "Quranda islami təfəkkür tezisi" sona yetdikdən sonra və onun ardınca "Nəhcül-bəlağə"nin şərhi ilə bağlı məclisin gedişatı ərəfəsində Seyid Əli Xamenei saxlanılır və zülm paytaxına – o günün ən ağır işgəncələr ocağına (Təxribat əleyhinə birgə mübarizə komitəsi) yola salınır.

"Quranda islami təfəkkür tezisi" adlı hazırkı kitab bu günümüzü və sabahımızı işıqlandırmaq üçün zalım rejimin zülmət qaranlıq illərindən yadigar qalmış bir xəzinədir. Bu kitab Ayətullah Seyid Əli Xameneinin İnqilabdan öncə, 1975-ci ildə çap edilmiş beşinci əsəridir. Bu kitab Ayətullah Seyid Əli Xameneinin 1974-cü ildə "İmam Həsən Müctəba (ə)" məscidində mübarək Ramazan ayı boyunca etdiyi çıxışların və xülasə şəkildə məclis iştirakçılarına payladığı kserekopiya vərəqlərinin məcmusundan ibarətdir. Diqqəti cəlb edən odur ki, bu vərəqlərdə qeyd edilən mətləblərin xülasə olmasına rəğmən, dinin fərdi və ictimai parametrləri yanaşı düzülür, Quranla bağlı yeni təfəkkür tərzi aşılanır;

1. "Kafi", c.2, səh.598.

vərəqlər zahirən müxtəsər olsa da, özündə dərin məzmunu ehtiva edir.

Bunlardan əlavə, Ayətullah Seyid Əli Xameneinin özü də kitabın çapından öncə ona bir müqəddimə yazmış və həmin müqəddimədə Quranda islami təfəkkür tezisinin zəruriliyini, onun hədəf və nəticələrini çox gözəl şəkildə izah etmişdir.

Ümid edirik ki, İmam Rzanın (ə) diqqət və duası sayəsində bu kiçik töhfə o Həzrətin əziz övladı Sahibəz-Zamanın (ə.f.) razılığına səbəb olacaqdır.

## MÜQƏDDİMƏ

İslam prizması insanlara ictimai həyatı töhfə verən və bir-biri ilə səsləşən vahid prinsiplərə malik olan sosial bir konsepsiya kimi dini təfəkkürün ən təxirəsalınmaz zərurətlərindən biridir.

Bundan öncə islami tədqiqatlar, əsasən, bu iki mühüm xüsusiyyətdən məhrum qaldığından, tədqiqatçılar İslamın müasir sosial məktəb və məsləklərlə müqayisədə layiqincə səmərəli nəticəsinə nail olmamış, ümumiyyətlə, vahid ayin planını təqdim etməkdə, onun digər məktəb və ayinlərlə nisbətini fərqləndirməkdə aciz qalmışlar. Həm də ümumilikdə rasional araşdırmalara üstünlük verdikləri, praktiki və ictimai təsir sahəsindən kənarda qaldıqları üçün əqli mərifətdən artıq bir nəticə verməmiş, insanların birgə həyat tərzi, xüsusən, vahid cəmiyyətin formalaşmasında heç bir öhdəlik, mükəlləfiyyət və hətta aydın bir nəzəriyyə irəli sürməmişlər.

İslamın qəti və onda şübhəyə yer olmayan sənədi – Qurani-Kərim çox zaman aydınlatma payından kənar saxlanılmış, onun əvəzində daha çox yarırasional araşdırmalara, zənnə əsaslanan məlumat və müddəalara yer verilmiş və nəhayət, Qurana etinasız yanaşılımış, ondan uzaq etiqadi təfəkkürlər formalaşmış, inkişaf etmişdir. Bəlkə də Qurana etinasızlıq, ona ehtiyacsızlıq və yaxud düzgün istifadə imkanından ümidsizlik hissi nəticəsində Quran ayələri üzərində düşünmək öz yerini səthi, diqqətsiz və nəticəsiz qiraətlə əvəz etmiş və bu ilahi kitabdan daha çox maddi mükafatlar güdülmüş, gəlir mənbəyi kimi istifadə edilmişdir.

Bu həqiqətə rəğmən, islami təfəkkürlə bağlı araşdırmalar və məlumatlarda üç önəmli xüsusiyyət zərurətə malikdir ki, agah mütəfəkkirlər ondan kənara çıxmamalıdırlar:

1. İslam maarifi və islami təfəkkür sistemi mücərrədlik və abstraktlıqdan çıxmalı, bütün ictimai məktəblər kimi, əməli vəzifələrə, xüsusən, ictimai həyata yönəlməli, nəzəri mövzular daha çox insan həyatının proqramları, hədəfləri və bu hədəflərə nail olmaq baxımından araşdırılmalıdır.

2. İslamda etiqadi məsələlər vahid quruluşun tərkib hissələri tək ayrıca mütaliə olunmalı, insanın müxtəlif şaxəli həyatı ilə mütənasib kamil ideologiya şəklində din və dini prinsiplərlə ümumi və hərtərəfli tanışlıq əldə edilməlidir.

3. İslam prinsipləri şəxsi zövq və nəzərlərə deyil, dinin əsas mətn və mənbələrinə istinadən başa düşülməli, araşdırılmalı və nəticədə, həqiqi İslam öyrənilməlidir. Bu məqsədin həyata keçməsində ən kamil və etibarlı sənəd Qurani-Kərimdir; ona batil yol tapa bilməz və onda hidayət və tərbiyə ilə bağlı hər bir məsələ aydın şəkildə izah edilmişdir.

Əlinizdəki kitab bu məqsədin təmini istiqamətdə silsilə söhbətlər qəlibində İslam haqqında məlumat verən bir qrafikdir.

Bu söhbətlərdə islami etiqadın ən mühüm əsasları, qurucu və həyati əhəmiyyətli prinsipləri Qurani-Kərimin aydın ayələrinə istinadən araşdırılmış, uyğun ayələr dərin təfəkkür sayəsində dinləyicilərə aşılanmış, əlavə məlumat vermək üçün lazımi yerlərdə də Peyğəmbər (s) və onun məsum Əhli-beytindən (ə) nəql olunan düzgün rəvayətlərdən istifadə edilmişdir.

Sonda qeyd edilən mətləblərin dinləyicilərin zehnində yaxşı həkk olması və onların özlərinin müstəqil olaraq həmin mətləblər üzərində dərindən düşünmələri üçün hər söhbətin xülasəsi bir vərəqdə qeydə alınır və hər gün məclis iştirakçılarına təqdim olunurdu.

İndi isə sizə təqdim olunan bu kitab həmin xülasə mətləblərin məcmusundan ibarətdir və faydalı olacağı və qəbul ediləcəyi ümidilə oxucuların məntiqi və məqbul istəklərinə lazımi cavabdır.

25/Oktyabr/1974

# BİRİNCİ MƏCLİS

## İMAN-1

Cümə axşamı – 1974/09/19
Mübarək Ramazan ayının 2-i.

بسم الله الرحمن الرحيم

وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ. وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ. الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

***“Allaha və Peyğəmbərə itaət edin ki, rəhm olunasınız! Rəbbiniz tərəfindən olan bağışlanmağa və genişliyi göylərlə yer üzü qədər olan, təqvalılar üçün hazırlanmış Cənnətə doğru tələsin. O təqvalılar ki, bolluqda da, qıtlıqda da (mallarını Allah yolunda) infaq edər, qəzəblərini udar və insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevir.”***

“Ali-İmran” surəsi, ayə 132-134.

Məsihi rahibləri günaha düşməmək üçün rahiblik və asket həyat tərzinə üz tutub mağaralara, dağlara və alaçıqlara sığındılar. Qurani-Kərimdə buyurulur:

وَرَهْبَانِيَّةً ابْتَدَعُوهَا مَا كَتَبْنَاهَا عَلَيْهِمْ

"***Onlar özlərindən rahiblik (tərki-dünyalıq) icad etdilər. Biz onu (rahibliyi) onlara vacib etməmişdik."***[1]

İslam aliminin xüsusiyyətlərində isə rahiblik, tərki-dünyalıq, bir guşəyə çəkilmək yoxdur. İslam alimi suda boğulmaqda olan insana nicat verən bir kəsdir. Ayıq və müsəlman şəxs də belədir (müsəlman olmaqla məsuliyyətli olmaq bir-birini tamamlayan iki kateqoriyadır): O, boğulan və xəstəliyə yoluxana nicat verməyə çalışır. Bu da guşənişinliklə bir araya sığmır. Təqvalı olmağa səy edir; günah müqabilində lazımi təchizatı və zirehi əyninə geyinib günah məntəqəsinə qədəm qoyan və günahkarı yaxalayan şəxsə təqva sahibi deyilir. Bir sözlə, təqva budur!

Görəsən, bu mənanı daşıyan təqva qələbə üçün müqəddimə və vasitədirmi? Bəli, onun çox asanlıqla qələbə vasitəsi olduğunu görə bilərsiniz. Bu məntəqədə xəstəliyə qələbə çalmaq istəyən şəxs virusun onun cisminə nüfuz edəcəyindən qorxacaqsa, xəstəlik və infeksiyaya yoluxmuş şəxslərə necə nicat verə bilər? Odur ki, buna hazır və özündən arxayın olmalı, sonra isə infeksiyanın yayıldığı məntəqəyə qədəm qoymalı və başqalarına nicat verməlidir. Bu zaman qələbəyə nail olacaq və işini rahatlıqla yerinə yetirəcəkdir.

وَاتَّقُواْ اللّهَ لَعَلَّكُمْ تُفْلِحُونَ

***"Allahdan qorxun, təqvalı olun ki, qələbə çala, səadət və qurtuluşa çatasınız."***

1. "Hədid" surəsi, ayə 27.

وَاتَّقُواْ النَّارَ الَّتِي أُعِدَّتْ لِلْكَافِرِينَ

***"Kafirlər üçün hazırlanmış oddan (Cəhənnəmdən) qorxun!"***

وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

***"Allaha və Peyğəmbərə itaət edin ki, rəhm olunasınız!"***[1]

Əgər ***"Allaha itaət edin"***lə ***"Peyğəmbərə itaət edin"*** ifadəsinin arasında fərq yoxdursa, onda, nə üçün ***"Allaha itaət edin"*** – deyə buyurduqdan sonra ***"Peyğəmbərə itaət edin"*** – deyə buyurulur. Görəsən, hər ikisinin qeyd edilməsi "əlavə söz" deyilmi? Əgər yalnız ***"Allaha itaət edin"*** deyilsəydi, Peyğəmbər (s) nümunə olaraq göstərilməsə və ona itaətin vacibliyi qeyd olunmasaydı, Peyğəmbərə (s) qarşı çıxanlar **"Elə biz də Allaha itaət edirik!"** – deyə iddia edə bilərdirlər. İddia meydanı geniş olduğundan, hamı aşkar şəkildə din, iman və təqvadan danışa və hamı Allahın bəndəsi və Ona müti olduğunu idda edə bilər.

Peyğəmbərin (s) zamanında həm Peyğəmbər (s) Allaha itaət və bəndəçilik iddiası edirdi, həm də ona müxalif olan, maneçilik törədən və onunla döyüşənlər – məsihi rahibləri və böyükləri, yəhudi alimləri – bunların hamısı iddia edirdilər.

وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَى نَحْنُ أَبْنَاء اللّهِ

***"Yəhudilər və məsihilər dedilər: "Biz Allahın oğullarıyıq.""***[2]

Onların iddiası Peyğəmbərin (s) iddiasından da üstün idi; Peyğəmbər **"Mən Allahın bəndəsiyəm!"** – deyirdisə, onlar **"Biz Allahın oğulları və övladlarıyıq!"** – deyirdilər. Onlar Allaha itaətin yalnız onların ixtiyarında və onlara məxsus olduğunu düşünürdülər, əslində, onlar düşünmürdülər, əksinə Allaha boyun əyməyən bəzi şəxslər özlərini Allaha müti olanlar kimi göstərirdilər. Bəziləri xəlvətə çəkildikdə, əməl dəftərlərinin qara və danışdıqlarının tamamilə yalan olduğunu anlamalarına baxmayaraq, yenə də özlərini Allahın yaxşı bəndələri, itaətkar və həqiqi abidlər kimi qələmə verirlər. Belələrinin cərgəsi həqiqi haqpərəst insanların cərgəsindən ayrılmalıdır. Burada Allah-Taala möminlərin Ona itaətinin vacibliyini bəyan edərkən belə buyurur:

وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ

***"Allaha və Peyğəmbərə itaət edin!"***

Əgər Allah-Taala burada Peyğəmbərin (s) adını çəkməsəydi, Peyğəmbərin düşmənləri **"Allaha itaət edənlər bizik!"** – deyəcəkdilər.

---

1. "Ali-İmran" surəsi, ayə 130-132.
2. "Maidə" surəsi, ayə 18.

Odur ki, "Allaha itaət"in mənası açıqlanmalı idi. Özlərini Allahın bəndəsi bilən, amma Allahın qanununa təslim olmayan və əməl etməyənlər bəndəçilik statusuna şamil deyillər. Belə olduğu halda, onlar necə **"Biz Allahın bəndələriyik!"** – deyə bilərlər?

وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

***"Allaha və Peyğəmbərə itaət edin ki, Allahın rəhməti sizə şamil olsun!"***

Allahın mərhəməti və rəhmətinə şamil olmaq nə deməkdir? Burada Quranın bəyanı ilə avam düşüncələr arasında bir müqayisə aparın: Əgər biz günahkar olduğumuzu, Allaha üsyan etdiyimizi, vacib əməllərə, əhd-peymanlara və vəzifələrə əməl etmədiyimizi deyir, Allahın qadağan olunmuş məntəqələrindən geri çəkilməmişiksə, yalnız bir ümid yerimiz qalır. O nədir? O, Allahın rəhmətidir. Yəni, ümidimiz Allahın bizimlə Öz rəhməti ilə rəftar və bizə rəhm etməsidir. Bu, bizim iddiamız və sözümüzdür, yəni bizim sıravi cəmiyyətimiz və xalq kütləsinin sözüdür. Allahın rəhməti haçana aiddir? Əməl etmədiyimiz, əmrə boyun əymədiyimiz, Allahın qadağan olunmuş məntəqəsinə daxil olduğumuz, ilahi vəzifə və əhdləri unutduğumuz zamana aiddir. Belə hallarda deyirik: "Əməl etmədik, Allah bizə rəhm etsin!" Biz burada əməl etmədiyimizin yerini Allahın rəhmi və rəhməti ilə doldururuq. Quran ayəsi isə bunun əksinədir. Buyurur: ***"İtaət edin ki, Allahın rəhmətinə şamil olasınız."*** Allahın rəhməti bir xalqın öz vəzifəsinə əməl etdiyi zamana aiddir. Bu zaman Allah Ona itaət edən, öz vəzifələrini yerinə yetirən xalqa rəhm edəcək. Yeddi yüz milyon müsəlman[1] "Allahın rəhmətinin onların üzərinə yağacağı"nın intizartında əyləşmək və "Onun rəhmətinə ümidvar olmaq" adı ilə namus oğruları və din qarətçilərinin hər şeyi götürüb aparmaları üçün yolu açıqmı qoymalıdırlar? Bu xam xəyalla hələ də əyləşin və intizar çəkin!

وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

***"Allaha və Peyğəmbərə itaət edin ki, rəhm olunasınız!"***

**"Allaha itaət edin"** nə deməkdir? **"Allaha itaət"** necə olmalıdır? Bütün ilahi məsuliyyət və yükü çiynimizə almalı, öhdəmizə düşənlərə əməl etməliyik. Qurani-Kərimin şərif ayəsində buyurulduğu kimi:

لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ
وَيُسَلِّمُواْ تَسْلِيمًا

---

1. 1974-cü ilin statistikası.

***“Ey Peyğəmbər! Möminlər öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə kamil bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar.”***[1]

Həqiqi mömin belə olmalıdır; Allahın əmrinə təslim olan bir millət və ümmət Onun sonsuz lütf və mərhəmətinə də layiq olacaq. Bu zaman həmin ümmətin başı ucalacaq, insanlıq təkamülünə yüksələcək, əlləri və ayaqlarından əsarət qandalları açılacaq, ilahi rəhməti qazanacaq.

وَأَطِيعُواْ اللّهَ وَالرَّسُولَ لَعَلَّكُمْ تُرْحَمُونَ

***“Allaha və Peyğəmbərə itaət edin ki, Allahın rəhmətinə şamil olasınız!”***

وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ

***“Rəbbiniz tərəfindən olan bağışlanmağa tələsin!”***

Bura müsabiqə və yarış meydanıdır; Allahın bağışlamasına doğru irəli addımlayın, sürətinizi artırın.

وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ

***“Genişliyi göylərlə yer üzü qədər olan, təqvalılar üçün hazırlanmış Cənnətə doğru tələsin.”***

Bu ayədə təqvanın həm əlamətləri, həm də nəticəsi qeyd olunmuşdur.

Ey filan ərazidə bir qarış torpaq və bir qədər sudan ötrü canfəşanlıq edən, başqalarını geridə qoymaq üçün tələsən, hansısa torpaq sahəsini, sərmayə və dükanı, məmləkətin hansısa bir guşəsindəki ərazini ələ keçirmək və maddi imtiyazlara daha çox sahib olmaq üçün bütün güc və qüvvəsini səfərbər edən insan! Bunlara görə şərafət və fəzilətlərin ayaqlanmasına rəğmən, yarışmaq üçün tələsmək və başqalarını geridə qoymağa həmişə hazırsan. Ey insan! Sənə “tələsmə”, “evdə yat” və “iş görmə” deyən yoxdur, amma “din” adı ilə bu sözü deyən yalan danışır, bilmir. Din demir ki, çox iş görmə, çox irəli keçmə, çox yarışma, amma nəyə doğru? Bir ovuc su və bir qarış torpağa, dəyərsiz pula yox, sənə layiq olana doğru! Maddi dünya həyatı nə qədər çox olsa belə, sənin dəyərin müqabilində həddən artıq kiçik və azdır. İnsan bu dünyanın ən ali varlığıdır, Allahdan sonra ən böyük və əzəmətli varlıq bu kiçik və məhdud bədəndə təcəlli edib. Ey böyük insan! Müsabiqə apar, sürətini artır, amma nəyə doğru?

إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ

1. “Nisa” surəsi, ayə 65.

***“Rəbbiniz tərəfindən olan bağışlanma və Cənnətə doğru.”*** Bütün səmalar onun müqabilində kiçik, bütün yer üzü onunla müqayisədə az olan o ilahi Cənnətə doğru addımla. Bu nə deməkdir? Yaxşı dərk etmək üçün Quran ifadələrinə diqqət yetirin. Quranda buyurulur: Əgər sən nəyəsə təşəbbüs göstərmək istəyirsənsə, yer və göy sənin üçün az və dəyərsizdir, daha üstün və dəyərli şeylərə nail olmaq üçün çalış. Ey böyük insan! Bağışlanma sənin üçün daha önəmlidir, hər şeydən üstün budur. Allahın səni bağışlamasından sonra isə göylər və yer üzündən daha dəyərli və böyük olan Cənnətdir.

Bağışlanma nədir? Filankəsə “üzr istəyirik”, “sizə nalayiq söz dedim, məni bağışlayın” demişik. O da naz-qəmzə ilə, məğrurluqla, yaxud gülərüz və xoş əxlaqla bağışladığını bildirir. Belə şeyləri çox görmüşük.

(Başqa bir misal:) Hansısa bir məntəqədə səhvən bir cinayət baş verir. İnsan haqq sahibinin başına dolanıb ona “lütf edin, bağışlayın” – deyə yalvarmağa başlayır. O da “Yaxşı, sizi bağışladım!” – deyir.

Filan dövlət və hökumət idarəsində doğru və ya yanlış olan müxtəlif səbəblər ucbatından sizə müəyyən qədər vergi təyin edirlər. Siz də ona yalvarır, şirindillik və yaltaqlıq edib ehtiram göstərir və yaxud özünüzlə bir vasitəçi aparır, məktub yazır, yaxud da telefonla xahiş edib təyin olunan verginin ləğvini istəyirsiniz. İdarədən isə sizə müəyyən məbləğin bağışlandığını bildirirlər. Biz bu sayaq güzəştlər gördüyümüz üçün Rəbbin bağışlamasının da bu qəbildən olduğunu güman edirik. Həqiqət belədir ki, zülm edən, cinayət törədən, günaha qurşanan, yer üzündə fitnə-fəsad törədən kəs ilahi əzaba layiq görüləcək. Görəsən o, azca göz yaşı axıdıb raz-niyaz və təvəssül etdiyi üçün Allah da Qiyamət günü “eybi yoxdur, indi ki belədir, sənin təqsirlərindən keçir və səni bağışlayırıq” – deyəcəkmi? Allahın məğfirət və bağışlaması budurmu? ***“Rəbbinizin bağışlamasına doğru tələsin.”*** – ifadəsi bunu deyirmi?

Bağışlanmanın mənası haqqında çox danışmışam. Təkrar deməkdə məqsədim odur ki, bəhslərimizdə çox vaxt iştirak edənlər öz yaddaşlarına müraciət etsinlər və dediklərimi yaddaşlarından çıxarmasınlar. Bağışlamaq, yəni “sağaltmaq” və “bir boşluğu doldurmaq” deməkdir. Misal üçün, sizin bədəniniz, qolunuz və yaxud ayağınız dərin yara bağlayır, ət-ətdən aralanır. Yaranıza məlhəm yaxılır, dərman sürtülür, iynə vurulur və vitamin qəbul etməli olursunuz ki, yara sağalsın, yeni dərialtı toxuma qatları ilə əvəz edilsin və beləcə, orqanizm fəaliyyətə və

yeni dəri qatı ilə uzlaşmağa və yara boşluğu dolmağa başlasın. Yaranın sağalma prosesini nəzərinizdə çanlandırmağa çalışın ki, məğfirət və bağışlanmanın mənasını dərk etmək üçün ona təşbeh edəcəyəm.

Əgər sizin ruhunuzu təmsil və təşbeh məqamında cismə bənzətsək, qurşandığınız hər bir günah ruhunuza zərbə endirir və bir yara əmələ gətirir. Axı, nə üçün deyirik ki, günah ruhu zədələyir? Axı, ruh yüksəlməli, təkamülə çatmalıdır. Günah isə insan ruhunu təkamüldən bir pillə saxlayır. Təmsil və təşbeh məqamında günah yara rolunu ifa edir, insan ruhunda çatlar yaradır. İnsan günaha qurşandıqda, qüsurlara yol verdikdə, Allah eləməmiş, xalqın malını mənimsədikdə, şərab içdikdə, zina etdikdə, yalan danışdıqda, iftira yaxdıqda – bunların hər biri onun ruhunda çatlar yaradır, ruhunu zədələyir. Onun ruhu zədələnib yara bağladığı zaman arzuların sonu olan təkamüldən uzaqlaşacaq; indi isə bu günah bağışlanmaya tuş gəlməlidir.

Bağışlanma nədir? Bağışlanma, yəni insan ruhunda yaranan boşluq və zədənin, yara və qüsurun aradan qaldırılması. Buna "bağışlanma" deyilir. Bu, necə aradan qaldırılır? Günah vasitəsilə sənin ruhunda yaranan qüsurlar necə aradan qaldırılır? Onun yerini doldurmaq və bərpa etməklə. Bir günahla öz ruhunu təkamül zirvəsi və yüksək insanlıq nöqtəsindən bir qədər uzaqlaşdıran insan təkamülə çatdığı zaman həmin irtica və geriləmənin yerini doldurmuş olur.

Başqa bir misal çəkim: Avtomobildə gedirsiniz, əlli kilometrdən sonra maşın xarab olub dayanarsa, siz gecikməli olacaqsınız. Gecikməmək üçün nə etmək lazımdır? Məqsədə vaxtında çatmaq üçün bir qədər sürəti artırmalı, dayanmaqdan və istirahət etmədən irəliləməlisiniz. Yoxsa, orada oturub "ilahi, səhv eləmişəm" deməklə, məqsədə çata bilməyəcəksiniz. Əgər indi bu səhv baş veribsə, sürəti artırmaqla itirilən o bir saatın yerini doldurmaq lazımdır. Allahın bağışlaması da belədir!

Allah-Taala demir ki, sən günah etdiyin üçün nə qədər yaxşı iş görsən də, həmin günahı əsla bağışlayan deyiləm! Allah-Taala inadkarlıq etmir və buyurur:

وَإِنِّي لَغَفَّارٌ

***"Şübhəsiz ki, Mən çox bağışlayanam!"***[1] Biz baş vermiş günah və qüsurları əfv etməyə hazırıq; bir şərtlə ki, bərpa edilsin, onun yeri

1. "Taha" surəsi, ayə 82.

doldurulsun. Demirik ki, bir səhvə görə yüz yaxşı iş görsəniz də bu yaxşılıqlar əbəs və yetərsizdir, xeyr, وَإِنِّي لَغَفَّارٌ – ***“Biz çox bağışlayanıq.”***

Biz boşluqları dolduranıq, yaralara məlhəm yaxanıq. Amma kimin boşluq və yaralarını?

لِّمَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا ثُمَّ اهْتَدَى

***“Tövbə edib iman gətirəni, yaxşı işlər görüb sonra da doğru yolu tutanı!”***

Tövbə nədir? Yəni, geri dönmək. Siz yolun o tərəfindən gedirdiniz, təkamül yolunuz isə yolun bu tərəfində idi. Sizi bağışlamağa hazıram. Haçan? O zaman ki, təkamül tərəfə, yenidən doğru yola tərəf geri dönəsiniz. Tövbə, yəni dönmək, qayıtmaq, imanı gücləndirmək və saleh əməl etmək. Əməl! Əməldən qafil olmamalı, boş-boş danışıb özümüzə təsəlli verməklə kifayətlənməməliyik.

Bir sözlə, insan ruhunun yaralardan ibarət boşluqlarının doldurulması “bağışlanma” (məğfirət) adlanır. İnsan onları doldurmaqla təkamülə çatır. Bu, elə bir yoldur ki, insan onun üçün çalışmalı, müsabiqə aparmalı və sürətini artırmalıdır. Məğfirət olduqca önəmli məsələdir. Məğfirət Allah-Taalanın hesab-kitabsız, Öz istəyi ilə kimisə ilahi rəhmətə doğru can atmadan, yersiz lütfünə şamil etməsi anlamında deyil.

وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ

***“Rəbbiniz tərəfindən olan bağışlanmağa və genişliyi göylərlə yer üzü qədər olan, təqvalılar üçün hazırlanmış Cənnətə doğru tələsin.”***

Bu məşhur cümlə – “Siz Cənnət əhlisiniz və Cənnətə gedəcəksiniz!” çox dəyərli bir sözdür. İnşallah, sizi Cənnətə buraxarlar! Hamımız Cənnət arzusundayıq, dualarımızda Cənnət istəyirik; bəzən, yalnız Cənnət istəməklə kifayətlənmirik, onun xüsusiyyətlərini – Hurul-Eyni[1], ləzzətli yeməkləri, quş əti[2] və s. nemətləri də bir-bir sadalayırıq. Lakin Allah Özü buyurur ki, Biz bu Cənnəti təqvalı insanlar üçün hazırlamışıq, bu süfrəni xas zümrələr üçün sərmişik, onun kənarında yalnız onlar əyləşəcək və bu məntəqəyə yalnız onlar daxil oacaqlar. Onlar kimdir? Təqvalılar!

Təqvalı kimdir?

الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء

***“Təqvalılar bolluqda da, qıtlıqda da (mallarını Allah yolunda) infaq***

1. “Vaqiə” surəsinin 21-ci ayəsinə işarədir.
2. Hurilər, Cənnət qadınları.

***edənlərdir.”***[1]

Bu, təqvalı olmağın bir şərtidir: Allah yolunda infaq etmək.

“İnfaq” sözünü indiyə qədər bir neçə dəfə məna etmişik. Bir də təkrar etməyin eybi yoxdur. Çünki belə sözlər, adətən, təzəlikcə qulağınıza dəyir və təkrar olunduqca, qəlbə daha çox hopur. İnfaqın xərcləməklə fərqi vardır. Xərcləmək odur ki, insan müəyyən məbləğdə pulu xərcləsin. İnfaq xərcləmək mənasını daşısa da, hər növ xərcləməyə aid edilmir. Müəyyən boşluğu dolduran, həqiqi ehtiyacı aradan qaldıran xərcə “infaq” deyilir. Haradadır zahirdə yaxşı işlər üçün millyonlar xərcləyənlər?! Quranın ifadəsi ilə desək, onlar ən bədbəxt insanlardır. Çünki işləri infaq hesab edilmir:

قُلْ هَلْ نُنَبِّئُكُمْ بِالْأَخْسَرِينَ أَعْمَالًا. الَّذِينَ ضَلَّ سَعْيُهُمْ فِي الْحَيَاةِ الدُّنْيَا وَهُمْ يَحْسَبُونَ أَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا.

***“(Ey Peyğəmbər!) De: “Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?” O kəslər ki, onların dünyadakı zəhməti hədər getmişdir. Halbuki onlar yaxşı işlər gördüklərini zənn edirlər.”***[2]

Onların xərclədiyi pullar, bir qrup ac camaatın boynuna asdığı zinət əşyaları, hədsiz və yalançı bərbəzəklər infaq deyil. Nə üçün? Çünki bu xərclər heç bir boşluğu doldurmur.

Əgər cibində yüz ədəd bir manat olan, hələ digər yüz ədəd bir manat da qazanmaq imkanına sahib olan bir şəxsə bir manat yardım etsəniz, bu, infaq sayılmaz. Əgər onu bir ədəd çörək almaq və qarnını doyurmaq üçün bir manat intizarında olan bir şəxsə versəydiniz, infaq sayılardı. Əlbəttə, bu sözlərdə məqsədim bu deyil ki, aclara və dilənçilərin qarnını doyurmaq üçün daim bir manat verəsiniz. Xeyr! Bəzən acın qarnını doyurmaq belə infaq adını daşımaz. Bəzi hallarda bu həqiqətdir; bəzən aclıq və yoxsulluq alaq otları tək yer üzündə hədsiz dərəcədə artmağa başlayır. Bu zaman bir acın qarnını doyurmaq, sanki alaq otunu qayçılamağa bənzəyir. Səhralıqda alaq otunun qiyməti nə qədərdir? Səhralıqda qayçılanan bir alaq otu yalnız göz qabağından azalacaqdır, amma bu, nə qədər məntiqəuyğun və maraqlıdır? Çox az və dəyərsiz!

Demək, infaq bir boşluğu doldurmaq və bir ehtiyacı aradan qaldırmaqdır. Əgər bu gün suya və havaya ehtiyacı olan bir xalqa başqa

1. “Ali-İmran” surəsi, ayə 134-136.
2. “Kəhf” surəsi, ayə 103-104.

bir sahədə yardım edərsənsə, buna infaq deyilməz, pulunu hədər etmisən. Bir sözlə, infaq hər kəsin deyil, zəkalı insanların – boşluqları və ehtiyacları anlayan, onları yerli-yerində aradan qaldırmağı bacaranların işidir. İnfaq olduqca önəmlidir.

الَّذِينَ يُنفِقُونَ فِي السَّرَّاء وَالضَّرَّاء

***"Təqvalılar bolluqda da, qıtlıqda da (mallarını Allah yolunda) infaq edənlərdir."***

İnfaq təqvalıların əlamətlərindən biridir, onlar həm bolluq, həm də qıtlıq zamanı xərcləyərlər.

وَالْكَاظِمِينَ الْغَيْظَ

***"Qəzəblərini udarlar."***

Qəzəbi udmaq nə deməkdir? Yəni, onlar öz hisslərinə qapılmır, hər zaman ağıla əsaslanırlar. Bəzən ağıl düzgün qəzəblərlə birgədir. Məgər, Quranın belə buyurduğunu görmürsünüz:

أَشِدَّاء عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ

***"Kafirlərə qarşı sərt, öz aralarında isə mehribandırlar."***[1]

Qəzəbi udmağın mənası bu deyil ki, bir insan və bir cəmiyyət qəzəbə layiq görülənlərə qarşı qəzəbini boğmalıdır. Əksinə, Quran demir ki, burada qəzəbinizi udun, deyir ki, qəzəb əsasında bir iş görməyin. **وَالْكَاظِمِينَ الْغَيْظَ (Vəl-kaziminəl-ğəyz),** qəzəblərini unudarlar deyil, əksinə ***"qəzəblərini udarlar"*** mənasındadır. Qəzəb udulduğu zaman insan şüurlu şəkildə layiq olan işi yerinə yetirməlidir.

وَالْعَافِينَ عَنِ النَّاسِ

***"İnsanları əfv edərlər."***

Onların xəta və günahlarından keçərlər. İnsanları bağışlamaq, onların xətaları, səhv və günahlarından keçmək lazımdır, amma elə xəta və günah var ki, ondan keçmək olmaz. Allah da belə ağır günahdan keçmir. Bilə-bilə və inadkarlıq üzündən yerinə yetirilən dinəzidd və qeyri-qanuni işə göz yummaq olmaz. Lakin cəmiyyətin işlərində tez-tez rast gəlinən qüsur və xətalar bağışlanılası və əfvolunasıdır.

وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

***"Təqvalılar insanların xətalarından keçərlər və Allah yaxşılıq edənləri sevir."***

Təqvalıların başqa əlaməti nədir?

وَالَّذِينَ إِذَا فَعَلُواْ فَاحِشَةً أَوْ ظَلَمُواْ أَنْفُسَهُمْ ذَكَرُواْ اللّهَ فَاسْتَغْفَرُواْ لِذُنُوبِهِمْ

---

1. "Fəth" surəsi, ayə 29.

***“O təqvalılar ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yad edər (qəflət vadisində yatıb qalmaz, dərhal ayılıb) günahlarının bağışlanmasını istəyərlər.”***[1]

Quranda Allahı yad etməklə bağlı maraqlı məqamlar var. Təqvalılara aid bir ayədə buyurulur:

إِنَّ الَّذِينَ اتَّقَواْ إِذَا مَسَّهُمْ طَائِفٌ مِّنَ الشَّيْطَانِ تَذَكَّرُواْ فَإِذَا هُم مُّبْصِرُونَ

***“Allahdan qorxanlara (təqvalılara) bir dəstə Şeytandan vəsvəsə (zərər) toxunduğu zaman onlar (Allahı) xatırlayarlar və dərhal (gözləri açılıb) görən olarlar.”***[2]

Geniş mənada bir qrup şeytan və şeytansifət təqvalı bir insanı zəlalətə salmaq, haqq yoldan azdırmaq və ona Allahı unutdurmaq üçün dövrəyə alarlar. Lakin onlar dərhal Allahı yad edərlər. Allahın xatırlanması şeytanlara və zirək düşmənlərimizin hiylə və mənfur planlarına qarşı əlimizdə olan bir silah və vasitədir. Allahın yad edilməsi olduqca qiymətli və dəyərlidir.

ذَكَرُواْ اللّهَ – Təqvalılar çirkin bir işə əl atdıqda və yaxud özlərinə zülm etdikdə, Allahı yad edərlər.

فَاسْتَغْفَرُواْ لِذُنُوبِهِمْ – Allahdan günahları üçün məğfirət və bağışlanma diləyərlər, günahlarının məhv olma yolunu arayıb-axtararlar. Amma bu da Allahın köməyi olmadan mümkün deyildir.

وَمَن يَغْفِرُ الذُّنُوبَ إِلاَّ اللّهُ – Axı, günahları Allahdan başqa, kim bağışlaya bilər?

Səndən hərəkət, Allahdan isə bərəkət! Əmək bizdən, qəbul isə Allahımızdan! Deməli, əməyi öz iş planlarımızdan çıxarmağa haqqımız yoxdur.

وَلَمْ يُصِرُّواْ عَلَى مَا فَعَلُواْ وَهُمْ يَعْلَمُونَ – Təqvalılar etdiklərinin günah olduğunu bildikdə, bir daha ona qayıtmazlar.[3]

أُوْلَـئِكَ جَزَآؤُهُم مَّغْفِرَةٌ مِّن رَّبِّهِمْ – Belələri əməl və çalışmaqdan yorulmazlar. Günahlarının bağışlanmasını diləyər, haqqa zidd olan yola bir daha dönməzlər. Onların mükafatı Öz Rəbbi təfəfindən məğfirət və bağışlanmaqdır.

وَجَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ – Ağacları altından çaylar axan cənnətlərdir.

خَالِدِينَ فِيهَا وَنِعْمَ أَجْرُ الْعَامِلِينَ – Onlar orada əbədi qalacaqlar və yaxşı işlər

1. “Ali-İmran” surəsi, ayə 135.
2. “Ali-İmran” surəsi, ayə 135.
3. “Əraf” surəsi, ayə 201.

görənlərin mükafatı necə də gözəldir![1]

Yenə burada yaxşı işlər görənlər və əməl edənlərdən söz açılır. Əməl etmək də ən mühüm məsələlərdəndir.[2]

---

1. "Ali-İmran" surəsi, ayə 136.

2. (İnşallah, Quran bəhsləri və tilavətindən ibarət İslam maarifi ilə bağlı sislsilə söhbətlərimizdə Ramazan ayının sonuna qədər tərtiblə bəyan edəcəyimiz mövzulardan biri də "Əməl" məsələsidir.)

**Xülasə**

**Cümə axşamı –Ramazan ayının 2-ci günü**

**İMAN-1**

İnsanın varlıq fəlsəfəsindən ibarət olan təlaş və hərəkətinin başlanğıc nöqtəsi var... O da imandır.

İman, yəni inam – insanın qəbul etdiyi, bağlı qaldığı, onu mənzil başına çatdırdığı işlərdə təlaş və ciddilik göstərmək.

İman olmadan hər bir fəaliyyət və hərəkət qeyri-sabit, nəticəsiz, ölü və ruhsuzdur.

Quran "iman"a əsaslanaraq onu insanın ən dəyərli və ən üstün xüsusiyyəti kimi tanıtdırır.

Aşağıdakı ayədə başda iman olmaqla İslamın ən üstün dəyərlər mündəricatına nəzər salaq və onların üzərində düşünək:

لَّيْسَ الْبِرَّ أَن تُوَلُّواْ وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ – ***Yaxşı əməl heç də (ibadət vaxtı) üzünü güncıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir.***

وَلَـكِنَّ الْبِرَّ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَالْمَلآئِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ – ***Yaxşı əməl sahibi, əslində, Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə iman gətirən kəsdir.***

وَآتَى الْمَالَ عَلَى حُبِّهِ ذَوِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينَ وَابْنَ السَّبِيلِ وَالسَّآئِلِينَ وَفِي الرِّقَابِ – ***Çox sevməsinə baxmayaraq, malını yaxınlarına, yetimlərə, yoxsullara, yolda qalanlara, dilənçilərə və qullara bəxş edən kəsdir.***

وَأَقَامَ الصَّلاةَ – ***Namaz qılandır.***

وَآتَى الزَّكَاةَ – ***Malının zəkatını verəndir.***

وَالْمُوفُونَ بِعَهْدِهِمْ إِذَا عَاهَدُواْ – ***Əhd etdikdə, əhdinə sadiq olanlardır.***

وَالصَّابِرِينَ فِي الْبَأْسَاء والضَّرَّاء وَحِينَ الْبَأْسِ – ***Dar ayaqda, çətinlikdə***

***(yoxsulluq və xəstəlik zamanı) və cihad meydanında dözümlü olanlardır.***

أُولَـئِكَ الَّذِينَ صَدَقُوا – ***Sözü və əməlində doğru olanlardır.***

وَأُولَـئِكَ هُمُ الْمُتَّقُونَ – ***Təqvalılar da onlardır!***

(“Bəqərə” surəsi, ayə 177.)

Buna görə də, doğru yolda olmağı yəhudi və yaxud məsihiliklə əlaqələndirən kitab əhlinin cavabında Qurani-Kərim iman məsələsinə toxunur, hidayət və doğru yolun səbəbini tanıtdırır:

قُولُواْ آمَنَّا بِاللّهِ وَمَآ أُنزِلَ إِلَيْنَا – ***Belə deyin: Biz Allaha, bizə nazil olan şəriətə,***

وَمَا أُنزِلَ إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ وَيَعْقُوبَ وَالأسْبَاطِ – ***İbrahimə, İsmailə, İshaqa, Yəquba və övladlarına göndərilən ayinlərə,***

وَمَا أُوتِيَ مُوسَى وَعِيسَى – ***(Allah tərəfindən) Musaya və İsaya verilənlərə,***

وَمَا أُوتِيَ النَّبِيُّونَ مِن رَّبِّهِمْ – ***Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə inanmışıq.***

لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّنْهُمْ – ***(Peyğəmbərlik və ilahi missiya baxımından) onlardan heç birini digərindən fərqləndirmirik.***

وَنَحْنُ لَهُ مُسْلِمُونَ – ***Biz Ona (Allaha) təslim olanlarıq!***

فَإِنْ آمَنُواْ بِمِثْلِ مَا آمَنتُم بِهِ فَقَدِ اهْتَدَواْ – ***Əgər onlar da iman gətirdiyiniz kimi (Allaha) iman gətirsələr, həqiqətdə, hidayət olunmuşlar.***

(“Bəqərə” surəsi, ayə 136-137)

## İKİNCİ MƏCLİS

## İMAN-2

Cümə günü – 1974/09/20
Mübarək Ramazan ayının 3-ü.

بسم الله الرحمن الرحيم

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ. الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ. أُوْلَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا لَّهُمْ دَرَجَاتٌ عِندَ رَبِّهِمْ وَمَغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ

***“Möminlər yalnız o kəslərdir ki, Allah yad edildikdə, qəlbləri qorxudan titrəyər, Allahın ayələri onlara oxunduqda, həmin ayələr onların imanlarını daha da artırar, onlar öz Rəbbinə təvəkkül edərlər; o kəslər ki, namazı bərpa edər və verdiyimiz ruzidən infaq edərlər. Onlar həqiqi möminlərdir. Onların öz Rəbbi yanında dərəcələri vardır. Onları bağışlanma və şərafətli (zillətsiz, əziyyətsiz, minnətsiz) ruzi gözləyir!”***

“Ənfal” surəsi, ayə 2-4.

يَسْأَلُونَكَ عَنِ الأَنفَالِ (Yəs`əlunəkə ənil-ənfal) – Ey Peyğəmbər! Səndən “qənimətlər”, qənimətlərin kimə çatması və kimin haqqı olması ilə bağlı soruşurlar.

Qəniməti qısa şəkildə belə tərcümə etmək olar: Qənimət bütün müsəlmanlara məxsus sərvətlərdən ibarətdir. Müharibədə müsəlmanlara nəsib olan xas gəlirləri, o cümlədən, mədənləri, yeraltı sərvətləri, meşələri, düzənlikləri və dağların zirvələrini buna misal göstərə bilərik. Bir sözlə, bir fərdə və yaxud müəyyən bir zümrəyə aid olmayan sərvətlər ümumilikdə xalqa aiddir. Qeyd etdiyimiz kimi, döyüşlərdə müsəlman ordusunun qəhrəmanlarına nəsib olan xas gəlirlərdir. Müsəlmanlar ilk dəfə bu məsələ ilə Bədr döyüşündə tanış oldular. Onlar bu qənimətlərin kimə çatacağı ilə bağlı bir-birilə mübahisə edirdilər. Onların arasında ixtilaf düşdükdə, Peyğəmbəri-Əkrəmə (s) müraciət edib məsələni soruşdular. Quran ayəsi ilə cavab Peyğəmbərə ilham edilir:

قُلِ الأَنفَالُ لِلّهِ وَالرَّسُولِ

***“De: “Qənimətlər Allahın və Peyğəmbərinindir.””***

“Allahındır” nə deməkdir? Yəni, Allah bəndələrindən müəyyən bir qrupa aid deyil. Allaha aid olan və Allahın adını daşıyan sərvət mütləq ilahi hədəflər uğrunda sərf olunmalıdır. Aydındır ki, Allahın sərvəti ilahi avadanlıqlar üçün xərclənmir, çünki Onun avadanlığı yoxdur və bunun təmini üçün Onun sərvətinin xərclənməsinə ehtiyac da yoxdur. Allaha aid olan sərvət, həqiqətdə, Allahin bəndələrinə məxsusdur və mütləq Allah-Taalanın müəyyən etdiyi məsləhətlər uğrunda sərf olunmalıdır. Demək, ***“qənimətlər Allahındır”*** – dedikdə, bu məna nəzərdə tutulur.

وَالرَّسُولِ – “Peyğmbərindir” nə deməkdir? Məgər Peyğəmbər Allah müqabilində dayanan bir məqamdırmı? Xeyr! Hər kəs Allahın sərvətininin istifadəsində özünü haqlı hesab edə bilər; hər kəs “bu,

Allahın sərvətidir, biz də Allahın bəndəsiyik" – deyərək, zahirdə xoş görünən və diqqəti çəkən avamcasına sözlərlə ümumi gəliri şəxsi mənafelərini təmin etmək üçün xərcləyə bilər. Düzdür, Allahın sərvəti müsəlmanların və Onun həqiqi bəndələrinin mənafeləri yolunda xərclənməlidir, lakin bu, "hər kəsin öz istədiyi kimi xərcləməsi" mənasında deyildir. Bunun üçün "Allahın nümayəndəsi" və "xalqın qəyyumu" adını daşıyan qüdrətli bir mərkəz olmalıdır. O kimdir? O, Allahın elçisidir. Burada elçi "nübuvvət" və "peyğəmbərlik" yox, "ilahi hakimiyyət" anlamındadır. Yəni, Peyğəmbər əbədiyyətə qovuşduqdan sonra, qənimətlərə məsul şəxs İmamdır. İmam, yəni ilahi hakim. Məsum imamın xalqa hakimiyyətinin olmadığı dönəmdə qənimətlərin və ümumi sərvətlərin bölgüsünü Allah tərəfindən xalqa rəhbərlik edə bilən şəxs aparmalıdır.

Ümumiyyətlə, bu sərvətlər – mədənlər, meşələr, düzənliklər, düşməndən alınan vergilər, qiymətli əşyalar və digər qənimət nümunələri bütövlükdə xalqa aid olsa da, "İslam hakimi" adını daşıyan ilahi bir qüdrətin ixtiyarında olmalıdır. O kimdir? Peyğəmbərin zamanında Allah Rəsulu (s) özü, ondan sonra məsum imam, ondan sonra isə ədalətli ilahi rəhbər, yəni İslam hakimiyyətinə rəhbərlik edən şəxs qənimətlərə görə məsul şəxsdir.

Qeyd edilənlər sözügedən ayənin ilk hissəsinə aiddir və əlbəttə, əsas bəhsimiz ayənin bu hissəsi deyil.

Qənimətlərin kimə çatacağı ilə bağlı məsələ aydınlaşdıqdan sonra, ayədə buyurulur:

فَاتَّقُواْ اللّهَ وَأَصْلِحُواْ ذَاتَ بِيْنِكُمْ وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ إِن كُنتُم مُّؤْمِنِينَ

Əgər möminsinizsə, bu üç işi yerinə yetirməlisiniz:

Birincisi, فَاتَّقُواْ اللّهَ – ***Allahdan qorxmalı və təqvalı olmalısınız.***

İkincisi, وَأَصْلِحُواْ ذَاتَ بِيْنِكُمْ – ***aranızdakı münasibətləri düzəltməli və ixtilafları aradan qaldırmalısınız.*** Haqsız danışanlar haqqın xeyrinə geri çəkilməli, çəkişmələrə son qoymalı, cüzi məsələlər üzərində bir-birinin canına düşməməli və bunun üçün bəhanə axtarmamalıdırlar. Daim öz dost və düşmənləri ilə savaşmaq bir qrup insanın xasiyyətidir və onlar yersiz bəhanələrlə dava salır, ixtilaf yaradırlar. Allah və Peyğəmbər (s) onlara nəsihət verir ki, dostlarınızla savaşmaq üçün bəhanə axtarmaq əvəzinə, düşmənlərlə döyüşmək üçün bu bəhanələri bir kənara qoyun, döyüş əhlisənsə, düşmənlə döyüş, axı qardaşın və dostunla nə üçün

döyüşürsən?

وَأَصْلِحُواْ ذَاتَ بِيْنِكُمْ – ***Aranızdakı münasibətləri düzəldin.***

Bu iki böyük tövsiyədir!

Üçüncü tövsiyə isə ümumi xarakter daşıyır və bütün yaxşı işlərin yerinə yetirilməsi və pis işlərdən çəkinilməsinə aiddir:

وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ – ***Allaha və Onun Peyğəmbərinə itaət edin!***

إِن كُنتُم مُّؤْمِنِينَ – ***Əgər möminsinizsə!***

İman məsələsi; hansısa bir mətləbə, bir şəxsə və bir mərkəzə qəlbi inanc, ideoloji, psixoloji və əqidəvi bağlılıq "iman" adlanır. Əlbəttə, iman yalnız qəlbi inancla yekunlaşmır, insanda həqiqi iman ona (inanca) əsaslanaraq əməl etdiyi zaman yaranır. İnsan həqiqi mömin olduğunu imanın şərtləri və öhdəliklərinə bağlı olduğu zaman iddia edə bilər. İnsan "Mən Allaha inanıram və etiqadlıyam" ifadəsini o zaman deyə bilər ki, onun həyat tərzi və gerçək varlığı Allahı inkar edən şəxsdən seçilsin. Bu gün Allahı inkar edənlə Allaha iman gətirdiyini idda edənin əməli arasında nə fərq var? – Hər ikisi haqsızlıq edir, hər ikisi maddiyyat içərisində çapalayır, hər ikisi neçə günlük həyatında öz nəfəsi və qidası ilə ətraf mühiti çirkləndirir, neçə günlük rahat yaşamaq üçün bütün dəyərləri ayaqlayır; bu fərqlə ki, biri Allaha inanmadığını açıq-aşkar dilinə gətirir, digəri isə Allaha iman gətirdiyini iddia edir. Axı, bu necə imandır?! Bu məsələdə Quranın ayəsi açıq-aşkardır, şübhə altına atılan əqli arqumentlərdən fərqlidir. "Əgər möminsinizsə, bu işləri yerinə yetirməlisiniz: Birincisi, Allaha və Peyğəmbərə (s) itaət etməli, onların əmrlərinə təslim olmalısınız."

Allahın əmri nədir? Hər nədirsə, aydındır ki, Allah insanların həm malı, canı, ömrü ilə bağlı, həm də onların bir-birilə, həmçinin Allah, heyvanlar və bitkilərlə münasibətlərinə dair öhdəlik və məsuliyyətlər, mükəlləfiyyət və vəzifələr təyin etmişdir. Bu məsələlərdə də Allaha itaət etsəniz, "biz möminik" deyə bilərsiniz. Yoxsa, insanın müəyyən bir məsələyə qəlbən bağlanması, amma əməldə – əli, ayağı, dili və digər əzalarında – bu bağlılığın qığılcımlarının görünməməsi faydasızdır və ümumiyyətlə, İslam baxımından ona "iman" adı şamil edilmir. Bu, Quranın məntiqidir.

وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ – ***Allaha və Onun Peyğəmbərinə itaət edin!***

إِن كُنتُم مُّؤْمِنِينَ – ***Əgər möminsinizsə!***

Növbəti ayədə "mömin" adı ilə bağlı imanın şərtləri və möminlərin

xüsusiyyətlərindən söz açılır:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى
رَبِّهِمْ يَتَوَكَّلُونَ. الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ. أُوْلَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا

***"Möminlər yalnız o kəslərdir ki, Allah yad edildikdə, qəlbləri qorxudan titrəyər, Allahın ayələri onlara oxunduqda, həmin ayələr onların imanlarını daha da artırar, onlar öz Rəbbinə təvəkkül edərlər; o kəslər ki, namazı bərpa edər və verdiyimiz ruzidən infaq edərlər. Onlar həqiqi möminlərdir. Onların öz Rəbbi yanında dərəcələri vardır. Onları bağışlanma və şərafətli (zillətsiz, əziyyətsiz, minnətsiz) ruzi gözləyir!"***

"Ənfal" surəsi, ayə 2-4.

Bu ayələrdə həqiqi mömінin beş xüsusiyyətindən danışılır. Ola bilər, danışan və dinləyən şəxs bu beş xüsusiyyətə sahib olmasın, amma kimsə bu beş xüsusiyyəti özündə formalaşdırmaq üçün çalışırsa, deməli, iman yolu və iman hədəfi uğrunda addımlayır, mömin adına layiq görülür. Həqiqi mömin bu beş xüsusiyyətə sahib olan kəsdir.

Birinci:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ

***"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə, qəlbləri qorxudan titrəyər."***

Qəlblərin qorxudan titrəməsi nə deməkdir? Allahdan qorxmağın mənası nədir? Bu, günahkarın hakim qarşısında qorxması kimidir, yoxsa fərqli və daha lətifdir? Ola bilsin ki, kimsə "Mən günah etmirəm, Allahdan da qorxmuram!" – desin. Bəli, əgər insanın günahı yoxdursa, cəza hökmü verən qazı və hakimdən qorxmaması, əlbəttə ki, təbiidir. Amma Allah dərgahında günahsız olduğuna arxayın olan varmı?

Mərifətdən qaynaqlanan bir növ qorxu var. İnsan böyük əşyalar və həqiqətlər qarşısında, təbii ki, dəhşət və heyrət hissi keçirir. Bu, insanın varlıq xüsusiyyətidir, onun cismani və ruhani tərkibi bunu tələb edir; belə ki, insan həddən artıq böyük bir əşya ilə qarşılaşdıqda, dəhşətə gəlir. Bu dəhşət halının səbəbi qorxu deyil, həmin əşyadan heç qorxmaması da mümkündür. Burada dəhşət hissi günahdan yox, onun böyüklüyü, özünün isə onun müqabilində kiçik olması hissindən qaynaqlanır. Allahdan bu cür qorxmağın yeri var və bu qorxu zəruri və faydalıdır. Özünü Allah müqabilində kiçik, naqis və həqir bilən, Allahı özünə aid bütün işlərində hakim və nəzaraətçi görən şəxs Allahın təyin etdiyi doğru

xətdən çıxmamaq, başqa yolla hərəkət etməmək üçün çalışacaqdır. Bu, müsəlman bir şəxs və müsəlman bir cəmiyyətin əməl, əmək və fəaliyyətində ən böyük icraedici zəmanətdir.

Əmirəlmöminin Əli (ə) gecə yarısı, Ramazan ayının gecələrində özünə qısılıb göz yaşı axıdırsa, İmam Səccad (ə) ah-nalə edirsə, Peyğəmbəri-Əkrəm (s) o məqamı və əzəməti ilə Ramazan ayının üçüncü ongünlüyündə yatağının yığışdırılmasını istəyirsə və həmin gecələrin yuxu deyil, Rəbbin dərgahında ibadət, dua və raz-niyaz gecələri olduğunu deyirsə, bütün bunların süni olaraq yerinə yetirildiyini güman etmə. İmamın "Əbu Həmzə Somali" duasını özünə aid etmədiyini və yalnız camaata öyrətmək istədiyini deyən şəxs necə də məlumatsız və naqisdir! İmamın göz yaşlarının, ağlayıb ah-nalə etməsinin təlim xarakterli olduğunu, yəni mənim və sənin öyrənməyin üçün süni göz yaşları axıtmasını deyənlər saleh bəndələrin duasının həqiqəti və Allahla münacatının keyfiyyətindən necə də qafil və xəbərsizdirlər! Bu yanlışdır! Onlar həqiqətdən də ağlayırdılar. Nə üçün ağlayırdılar? Çünki Allaha olan mərifətləri çox idi. Əmirəlmöminin Əli (ə) Rəbbin müqəddəs varlığında əzəməti görür; bizim yaxını görən gözlərimiz isə bu əzəməti görə bilmir.

تو بزرگی و در آیینه کوچک ننمایی

**"Sən böyüksən, kiçik aynaya sığmazsan."**[1]

Bizim kiçik ruh aynamız o qəribə əzəməti özündə əks etdirə bilməz. Lakin Əmirəlmöminin Əlinin (ə) ruh aynası necə? O bacarır və bu əzəməti dərk edir. Bu səbəbdən də özünə qısılıb göz yaşı axıdır.

Allahı xatırlamaqdan söz düşdükdə, mömininin qəlbinə Allahın əzəməti müqabilindəki kiçiklik hissindən baş qaldıran dəhşət, heybət və qorxu hissi hakim kəsilir:

إِذَا ذُكِرَ اللّٰهُ وَجِلَتْ قُلُوبُهُمْ –Allah adı çəkiləndə, qəlbi qorxudan titrəyir, onun üçün Allahın zatı təsəvvürlərdəki yanlış obrazdan, Allahın adı da adət formasına düşmüş zikr halətindən çıxır. Məclisdə əyləşən bir şəxs "Lə iləhə illəllah" kimi müqəddəs kəlməni yorğunluqla, əsnəyə-əsnəyə deyirsə, bu, onun Allahın adı, yad edilməsi və əzəməti qarşısında etinasızlığını, diqqətsizliyini və qeyri-həssaslığını aşılayır. Allaha mərifəti olan və Onun əzəmətini dərk edən bir şəxsin qəlbi belə

---

1. Sən o qədər böyüksən ki, böyük cisimlər kiçik aynaya sığmadığı üçün aynada görünmədiyi kimi, yadlar da Səni görə bilmir. (Sədi.)

halətlərdən xaricdir.

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ – Möminlər yalnız o kəslərdir ki, Allahın adı çəkiləndə, qəlbləri qorxudan, vəhşətdən, Allahın əzəmətini dərk etdiyindən, özündə kiçiklik və zillət hissi duyduğundan və bu hisslərlə dolduğundan titrəyər. Bu, birinci xüsusiyyət!

وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا – Möminin digər xüsusiyyəti odur ki, ***Allahın ayələri oxunduğu (özləri və yaxud başqaları oxuduğu) zaman həmin ayələr onların imanlarını daha da artırar,*** onun qəlbi və ruhunda toxum tək cücərər, boy atan bitki, kökü və gövdəsi möhkəmlənən və yerdən qoparılması mümkün olmayan ağac tək inkişaf edər. Möminin varlığında durğun suya bənzəyən iman mənasızdır. Uşaqlıqda bir söz öyrənən, yetkinlik həddinə çatdıqda həmin sözün doğruluğunda şəkkə qapılan bir şəxsin gözündə həmin söz kiçilib dəyərsizləşərsə, müxtəlif hadisələr nəticəsində ruhunda imanı və qəbul etdiyi həqiqətlərdə süstlük yaranar və günü-gündən zəifləyərsə, bir gün də belə bir iman insanın əlindən asanlıqla çıxar. Möminin imanı əmanət və ticarət rolunu oynamır. Həqiqi mömin o kəsdir ki, qəlbi dini maarif və ilahi həqiqətlərlə dolu olan bir söz üzərində düşündükcə, araşdırma apardıqca, imanı daha da möhkəmlənər və ona imansızlıqdan nicat verər. Həqiqi mömin bu xüsusiyyətə sahibdir.

Sözügedən ayədən belə başa düşülür ki, möminin imanı Quran tilavəti ilə artmalıdır. Diqqət yetirin, Allahın kəlamı bir sənəddir. Quranın tərcümə, məna və təfsir edilməsinə qarşı çıxanlar və "Bizim ağlımız Quranı dərk etmir." – deyənlərə səslənirik: "Əgər biz Quranı başa düşə bilməyəcəyiksə, onda Quranı oxumaqla imanımız necə artar?" Görünür ki, Quran sirli kitab deyil, əksinə onu anlamaq və imanı artırıb möhkəmlətmək məqsədilə oxumaq lazımdır: وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا – Mömin o kəsdir ki, ***onlara Allahın ayələri oxunduğu zaman, həmin ayələr onların imanlarını daha da artırar.*** Bu, imanın ikinci şərti və möminin ikinci xüsusiyyətidir.

Ayənin davamında buyurulur: وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ – Möminin digər xüsusiyyəti odur ki, ***onlar ancaq öz Rəbbinə təvəkkül edər, güvənərlər.*** Təvəkkül etmək nə deməkdir? Əli əl üstə qoyub, "Hər şeyi Allah Özü düzüb-qoşacaq." – deməkdirmi? Xeyr! Təvəkkülün mənası bu deyil. Heç nə etməyən, vəzifələr, öhdəliklər və məsuliyyətlər müqabilində öz gücünə arxalanmaq və özünü məsul bilmək əvəzinə ilahi möcüzəni

məsululiyyətli fərz edən kəs bilməlidir ki, Quran bu düşüncəyə qarşıdır; belə ki, İsrail oğulları Həzrət Musaya: فَاذْهَبْ أَنتَ وَرَبُّكَ فَقَاتِلا إِنَّا هَاهُنَا قَاعِدُونَ – ***"...Sən və Rəbbin gedib düşmənlərlə vuruşun. Biz isə burada oturacağıq."***[1], mənim öz ifadəmlə, "Biz divarın kölgəsində oturub gözləyəcəyik, haçan qələbə çalsanız, bizə də xəbər ver, gələk." – dedikləri üçün onların ağzına möhkəm şillə vurur. Quran bu düşüncəni rədd edir. Bu, insanlıq yolundan uzaq düşmüş, din və imanın ləzzətlərindən məhrum qalmış İsrail oğullarının metodudur və müsəlmana yaraşmır. Təvəkkül bu məna da deyildir.

Qoy deyim, hamı bilsin, hamı eşitsin. El arasında bu söz məşhurdur, deyirlər ki, Allah Özü düzəltsin, bəndənin əlindən bir iş gəlmir. Bu yanlışdır. Əgər bəndənin əlindən bir iş gəlmirsə, əgər fəsad və əxlaqsızlığın kökünün kəsilməsi üçün insan iradəsi və gücü yetərli deyilsə, Allah peyğəmbər göndərməzdi, insanları peyğmbərlərə itaət etməyə dəvət etməz, onları ağır vəzifələrlə döyüş meydanına yollamazdı. Əgər Allah fəsadın aradan qaldırılması üçün bəşərin özündən kimlərisə göndərirsə, bilməlisiniz ki, bəşərin əli ilə törədilən fəsadın kökünü elə bəşər özü kəsməlidir.

Təvəkkülün mənası nə oldu? Təvəkkül, yəni hər zaman Allaha güvənib ümid bəsləməlisən. Əgər doğru-düzgün incələsəniz, diqqətinizə çatdırdığım bu ifadənin – hər zaman Allaha güvənib ümid bəsləməlisən – insanı süstlük halətindən çıxardığını, stimul verdiyini və mühərrik rolunu oynadığını görəcəksiniz.

Bəzilərinin həyatın çətinlikləri və böhranlı vəziyyətlərində, bütün vasitələrdən əlləri üzüldükdə nə etdiklərini görüb eşitmisinizmi? Onlar bu işlərdən birini yerinə yetirirlər: Ya düşmənə təslim olub "Bacarmıramsa, nə etməliyəm?" – deyə düşünür, ya da adi həyat yoluna davam edir, düşmən qarşısında diz çökmək istəmir, hakimliyindən də əl çəkmir, çalışır, fəaliyyət göstərir, həqiqətdə həyatın adi cərəyanına təslim olduğunu unudur. Belələri zahirdə düşmən qarşısında diz çökməməsinə baxmayaraq, batində diz çökmüşdür. Bu vəziyyət əksər insanların böhranlar zamanı tutduğu mövqedən ibarətdir. Növbəti çıxış yolu isə həyata son qoymaqdır; belə ki, hakimiyyətə çatan bir şəxs, misal üçün, kənardan beynəlxalq güclərin bəhanələri, bu gün-sabaha salınan vədləri ilə üzləşib təngə gəldikdə, hər gün məmləkətin müxtəlif yerlərindən

1. "Maidə" surəsi, ayə 24.

əleyhinə etiraz səslərini eşitdikdə, özünü çarəsiz, zəlil, yorğun və bədbəxt gördükdə, həyatına son qoyur, intihara əl atır.

Bunlar dinsiz və allahsız insanın çətinliklər zamanı tutduğu yollardır. Bir çətinliklə üzləşdikdə, küçənin bağlı olduğunu gördükdə, çıxış yolunun olmadığını düşünürsən. Burada sıravi insanlar üç yolla üzləşirlər: düşmənə təslim olmaq, həyatın adi hadisələrinə təslim olmaq və intihara əl atıb rahatlanmaq, eyni zamanda peşmançılıq yaratmaq. Allah adamı üçün isə böhranlar zamanı başqa bir qapı açılır ki, dəyərləri ayaqlayan digər qapıları bağlayır. O, hansı qapıdır? Allaha təvəkkül qapısı. O, bağlı qapı ilə üzləşdikdə deyir: Mənim tanıdığım Allah bağlı qapını da açır. Allah üçün bağlı qapı nədir ki?! Allah üçün bağlı qapı yoxdur. Bütün bağlı qapılar Allahın qüdrət əli ilə açılasıdır. Demək çıxış yolu varmış.

Ühüd döyüşündən də böyük böhran varmı? İslamın sayılı qoşunu qənimət yığarkən, qəflətən hər iki tərəfdən hücuma məruz qalır. Bir neçə əsgərin səhlənkarlığı nəticəsində bir qrup öndən, bir qrup da arxadan hücuma keçir. Atlarından düşən, qılıncları və silahlarını yerə atan bu əsgərlər, gözlənilmədən iki silahlı, yırtıcı və qəzəbli dəstənin onlara hücum etdiyini görürlər. Əliboş, silahsız qoşunun belə bir şəraitdə nə edəcəyi bəllidir; qaçıb aradan çıxmaq. (Digər tərəfdən,) Şeytan və şeytansifətlərin dili ilə Peyğəmbərin (s) öldürüldüyü şaiyəsini yaydılar. Şeytan həmişə belə işlərə əl atır. Onun aşkar və faş olmuş planlarından biri də budur: ilahi və rəhmani cəbhənin məğlubiyyətə uğramasını vaxtından tez elan etməli və Peyğəmbərin (s) öldürülməsini car çəkməlidir. Belə ağır və böhranlı şəraitdə mömin bir şəxs nə etməlidir? Bundan da ağır böhran?! Silahlar yerdə, qurtuluş yolları tamamilə bağlı, silahlı düşmən isə başının üstünü almışdır. Burada imdada çatan yalnız allahpərəstlərin qapısıdır: Allaha güvənmək. Burada bağlı qapıdan söz gedə bilməz. Bağlı qapı nədir? Peyğəmbər (s) dünyadan getsə də Peyğəmbərin Allahı ki, dünyadan getməyib! Mükəlləfiyyət ki, qüvvədədir! Bu vəziyyətdə Allaha sığınan insan hansı şəxslər kimi rəftar etməlidir? Əmirəlmöminin Əli (ə), Əbu Dəccanə[1] və digər iki-üç əsgər

---

1. Əbu Dəccanə adı ilə məşhurlaşan Səmmak ibn Xərəşə böyük səhabələrdəndir. O, Peyğəmbərin (s) vəfatından sonra 11-ci h.q. ilində Yəmamə döyüşündə şəhadətə yetdi. Ühüd döyüşündə şücəat və qəhrəmanlıq göstərdiyi üçün, "Səff" surəsinin 4-cü ayəsi onun, Əmirəlmöminin Əlinin (ə), Həzrət Həmzənin və digərlərinin məqam və fəziləti

kimi. Bunlar Allaha təvəkkül edənlər idi. Bəs, Allaha təvəkkül etməyənlər kimlər idi? Ühüd dağından Mədinəyə qədər arxalarına dönüb baxmayanlar; onlar düz şəhərin darvazasına qədər qaçdılar. Bildinizmi təvəkkül nədir?

Təvəkkülü naməlum və zəhmətsiz gələcək ümidilə əli qoynuna qoyub oturmaq, imanı öz gücündən ayırmaq, insan iradəsi və gücünə xətt çəkmək kimi məna edənlər; beləəri ya təvəkkül ifadəsi və İslamla tanış deyillər, ya da tanış olsalar da şərafətdən uzaqdırlar, onu yanlış məna etməklə təvəkkülsüz insanlar yetişdirmək istəyirlər. Təvəkkülün mənası budur: وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ – "möminlər öz Rəbbinə təvəkkül edərlər." Mənim nəzərimcə, həyatın gedişatında insanı tərəqqiyə doğru aparan iki güclü qanadın olması şərtdir: Biri səbir, digəri isə təvəkkül. Səbir və təvəkküldən ibarət iki qanada sahib olan ümmət düşmənlərin silahından tamamilə amanda qalacaq: وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ – ***"Möminlər öz Rəbbinə təvəkkül edərlər."*** Möminin üç xüsusiyyətini qeyd etdik.

Dördüncü xüsusiyyət:

الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ

***"(Möminlər) o kəslərdir ki, namazı bərpa edərlər."***

Cənablar, diqqət yetirin, الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ "namazı bərpa edən kəslər" ifadəsi ilə الَّذِينَ يُصَلُّونَ "namaz qılan kəslər" ifadəsi arasında fərq vardır; yalnız namaz qılmaqdan söz getsəydi, burada "namazı bərpa edən kəslər" ifadəsini işlətməyə, iki söz əlavə edib şərh verməyə ehtiyac olmaz və الَّذِينَ يُصَلُّونَ "namaz qılan kəslər" ifadəsi ilə kifayətlənmək olardı. Beləliklə, الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ "namazı bərpa edən kəslər" ifadəsi namazı qılmaqdan fərqlənir, burada başqa bir mətləbə, üstün və dərin bir həqiqətə işarə olunur. Görəsən, bu həqiqət nədir? Namazı bərpa etmək nə deməkdir?

Burada bir neçə ehtimal var və bütün ehtimallar doğru ola bilər. Biri budur ki, namazı bərpa etməkdə məqsəd kamil və hərtərəfli şəkildə icra etməkdir. Ərəb dilində də "iqamə" elə bu mənada işlənmişdir; yəni işi tam şəkildə yerinə yetirmək.

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا – ***"Üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə tərəf tut."*** Yəni, üzünü və varlığını, bütünlüklə, dinə tərəf döndər. Həqiqət də budur ki, nicat və səadət namazı kamil və doğru şəkildə, namazın təlim və qaydalarına diqqət edərək qılan şəxsin intizarındadır.

---

haqqında nazil oldu. Bir rəvayətdə İmam Sadiq (ə) onu İmam Mehdinin (ə.c) ordusunun sərkərdələri və o Həzrətin zühuru zamanı rəcət edənlərin sırasında qeyd etmişdir.

Namazı layiqincə qılan şəxsin bütün çətinlikləri asanlaşar. Bəzi din böyüklərinin ağır hadisələr və müsibətlər zamanı iki rükət namaz qıldıqlarını eşidibsinizmi? Eşidibsinizmi, Peyğəmbəri-Əkrəm (s) böhranlar və çətinliklər zamanı üzünü Bilala tutub deyərdi: أرِحنا يا بَلال – *"Bilal, bizə ruh ver."* Qalx, azan ver! اَبرِد اَبرِد يا بَلال – *"Bilal, qəlbimizi sərinlət."*[1] Yəni, azan ver! Həqiqətən də, diqqətlə, təvazökarlıqla, qəlbin iştirakı ilə yerinə yetirdiklərini başa düşərək namaz qılan şəxs möminlərə vəd edilənlərə sahib olacaqdır. Bu, bir ehtimal!

Digər bir ehtimal da budur ki, الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ "namazı bərpa edən kəslər" ifadəsində məqsəd namazın cəmiyyətdə bərpa edilməsi, cəmiyyətin namazqılan cəmiyyətə çevrilməsidir. Bəziləri sevinir ki, namaz qılıram, gün ərzində on yeddi rükət yox, əlli bir rükət və onunla bərabər əlavə müstəhəb namazlar da qılıram. Halbuki, ona "Qardaş, camaat dəstə-dəstə dindən çıxır." – deyildikdə, əsla qəm yemir.

گفت آن گليم خويش بدر ميبرد ز موج

"O (zahid) dedi: Mən öz kilimimi sudan çıxarsam, böyük iş görmüşəm, hünər göstərmişəm, başqalarına vaxt ayıra bilmərəm." Bəziləri belə düşünürlər. Bu isə imanın nişanəsi deyil, namazı yaxşı qılan, öz namazı ilə kifayətlənən və başqalarına (namazı öyrətmək üçün) vaxt ayırmayan düz etmir, yəni namazı kamil deyildir.

İmanın nişanəsi nədir? Namazı bərpa etmək, namazı cəmiyyətdə bərpa etmək, hamını namazqılan etmək. Bu mənada yox ki, namazqılmayanı namazqılan edək; cəmiyyəti namazqılan cəmiyyətə çevirək, belə ki, cəmiyyət daim Allahı yad etsin və Allah yolunda olsun. "İyyəkə nə`budu və iyyəkə nəstəin" – deyən cəmiyyət yalnız Allaha ibadət edər, yalnız Allaha güvənər, yalnız Ondan kömək diləyər. Namazqılan cəmiyyət hər gün fəsad rəhbərlərinə, korrupsionerlərə, rüşvətxorlara, qəzəbə düçar olanlara və azğınlara nifrət edər. Namazın həqiqəti budur!

Bu istiqamətdə başqalarını namaz əhli etməyə can atan şəxs, həqiqətdə, Allaha bəndəçilik yolunda çalışmış, fəsadın, təkəbbür və zülmün kökünün kəsilməsi, müsəlman ümməti və bəşər cəmiyyəti arasında ictimai və insani birliyin yaranması uğrunda addım atmışdır. Namazı bərpa etməyin mənası da budur! Yəni, hər gün beş dəfə namaz qılan, hər dəfə də "İyyəkə nə`budu və iyyəkə nəstəin" (İlahi, yalnız Sənə

1. "Mən lə yəhzuruhul-fəqih", "Namazın vaxtı" bölməsi, hədis 672.

ibadət edirik, yalnız Sənin müqabilində əyilirik, başqasının müqabilində yox!) – deyən, "məğzubun ələyhim" (qəzəbə tuş gələn) və "zallin" (azğın) kəslərə, başqa sözlə, fəsad rəhbərləri və onların ardıcıllarına hər gün neçə dəfə nifrət edən cəmiyyət "həqiqi namazqılan cəmiyyət" adını daşıyar. Namazın bərpası dedikdə, bu mənanın ehtimal edilməsi də mümkündür.

وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

***"(Möminlər) o kəslərdir ki, onlara verdiyimiz ruzidən infaq edərlər."***

Bu, möminin başqa bir xüsusiyyətidir. İnfaq nədir?[1]

Boşluqları doldurmaq və ehtiyacları aradan qaldırmağa "infaq" deyilir. Misal üçün bir məscidin divarları rənglənibsə, yenidən rənglənməsi üçün xərc çəkilərsə, buna infaq deyilməz. Nə üçün? Çünki məscidin divarları rəngli olduğundan, buna ehtiyac yox idi. Əgər məscidin rənglənməsinə ehtiyac duyulmayan hissələrini, məsələn, İmam Həsən (ə) məscidinin torpaqdan olan yerini rəngləsəniz, bunun üçün xərclədiyiniz pullar infaq yox, "xərc" adlanır. (İnfaq etməyin xərc çəkməklə fərqi var.) Əgər cəmiyyətin mövcud boşluqlarını doldursan və ehtiyaclarını ödəsən, bu işin infaq adlanar.

وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

***"(Möminlər) o kəslərdir ki, onlara verdiyimiz ruzidən infaq edərlər."***

Ruzi yalnız mal və puldan ibarət deyil; verdiyimiz pul, ömür, övlad, abır-həya, cismani qüvvə, dil, beyin, düşüncə və s. digər imkanlarla infaq edərlər, yəni yerli-yerində xərcləyərlər, necə gəldi xərcləməzlər. Möminin xüsusiyyətlərindən biri də budur.

Ey özünü mömin göstərən mömin qardaş! Ey mömin çağrılanda sevinən, imanında azacıq şəkk edən şəxsi bəyənməyən! Mənə deyə bilərsiniz ki, söhbətlərinizdə bizi dinsiz və imansız qələmə verməyinizin faydası nədir? Ey mömin adlanan qardaş, infaq edirsənmi? Xərc etməyini demirəm. Bəli, çox xərc çəkirsən; Ramazan ayında pul xərcləyib ləzzətli yeməklər bişirirsən, rəngarəng süfrələr açıb tox insanları dəvət edirsən və bir sözlə, xərc çəkirsən, amma infaq da edirsənmi?

---

1. (Dünən infaqın mənasına qısa şəkildə toxundum. İndiyə qədər, bəlkə də on dəfədən çox müxtəlif mövzularla əlaqədar infaqla bağlı söz açmışam. Bu dəfə də on birinci dəfə olsun.)

Ey möhtərəm xətib! Bu qədər danışır, nəfəs alır, öz varlığın, cismin və beyninin hüceyrələri ilə zəhmət çəkir, nitq qabiliyyətindən istifadə edirsən, amma bu qüvvəndən infaq edirsənmi? Çox danışmaq hünər deyil, ehtiyac duyulanları danışmaq hünərdir. O infaq deyil, bu isə infaqdır. Ey abır-həyasından, heysiyyətindən xərcləyənlər; birinə məktub yazır, birini işə düzəldir, bir iş görüldükdə və yaxud biri vəzifəyə təyin edildikdə, filankəsin ehtiramını qazandığını düşünərək heysiyyətindən xərcləyirsən, amma infaq necə? İnfaq edirsənmi? Ey din və qeyri-din adı ilə müxtəlif işlərə pul xərcləyənlər[1], haqq və acı həqiqət olan bu sözdən qorxmayın! Nə qədər pullar "din" adı ilə sərf olunur, amma infaq hesab edilmir, çünki bu pullar heç bir boşluğu doldurmur, heç bir yaranı sağaltmır, yoxsul cəmiyyətin ehtiyacını ödəmir. İnfaq mömininin xüsusiyyəti, imanın şərti və nişanəsidir.

وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

***"Möminlər, onlara verdiyimiz ruzidən infaq edərlər."***

Bundan sonra vaxtınızdan, pulunuzdan, abır-həyanızdan xərcləmək istəyirsinizsə, yaxşı düşünün, görün, infaq edirsiniz, yoxsa, yersiz xərcləyirsiniz?!

أُوْلَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا

***"Onlar həqiqi möminlərdir."***

لَّهُمْ دَرَجَاتٌ عِندَ رَبِّهِمْ

***"Onların öz Rəbbi yanında dərəcələri, rütbələri və mərtəbələri vardır."***

وَمَغْفِرَةٌ

***"Onlar üçün bağışlanma vardır."***

Bağışlanma haqqında dünən məlumat verdim, ümid edirəm ki, tamamilə yadınızda qalıb. Əgər Allah kimisə bağışlamaq, günah ucbatından onun ruhunda yaranan yaranı sağaltmaq istəsə, onun günah adlı yarasını sağaldacaq.

وَرِزْقٌ كَرِيمٌ

***"Onlar üçün şərafətli, zillətsiz, əziyyətsiz və minnətsiz ruzi vardır!"***

Mömin cəmiyyətdən danışırdım, bir fərddən yox; demə ki, həmd olsun Allaha, yeməyə bir tikə çörəyimiz var, rahatıq, qüssəmiz yoxdur, heç kimin də minnətin çəkmirik. Belə bir insanın işlərini araşdırsan, tamamilə bədbəxt və minnət içində olduğunu görərsən. Ən alçaq işlə

1. "Hədid" surəsi, ayə 27.

məşğul olanlar məşğul olduqları işin, qazandıqları bir tikə çörəyin alçaqlığını dərk etmirlər. Mən cəmiyyətdən danışıram; bir cəmiyyət mömin və uyğun xüsusiyyətlərə sahib olduğu zaman, çörəyi pak, şərafətli, izzətli və kəramətli olacaq, izzət və şərafətlə ruzi qazanacaq. Bu zaman bu gün dünyada siyasi təşkilatların yalan və ya doğrudan tribunalardan bütün aləmə car çəkdikləri şüarlar mömin cəmiyyətdə gerçəkləşəcəkdir; sülh, azadlıq, rifah, rahatlıq, müharibə və qətl-qarətdən uzaq, qardaşlıq və səmimiyyət, modern mədəniyyət, yüksək təhsil səviyyəsi, geniş ruzi və bu kimi mənalı və mənasız sözlər mömin cəmiyyətdə öz həqiqətini tapacaqdır: وَرِزْقٌ كَرِيمٌ – ***şərafətli və minnətsiz ruzi!***

## Xülasə

## Cümə günü – Ramazan ayının 3-cü günü

## İMAN-2

"Ənfal" surəsinin 1-4-cü ayələri:

يَسْأَلُونَكَ عَنِ الأَنفَالِ قُلِ الأَنفَالُ لِلّهِ وَالرَّسُولِ – ***Səndən qənimətlər haqqında soruşurlar. De: "Qənimətlər Allaha və Peyğəmbərə aiddir."***

فَاتَّقُواْ اللّهَ – ***Elə isə Allahdan qorxun.***

وَأَصْلِحُواْ ذَاتَ بِيْنِكُمْ – ***Aranızdakı münasibətləri düzəldin.***

وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ – ***Allaha və Peyğəmbərinə itaət edin!***

إِن كُنتُم مُّؤْمِنِينَ – ***Əgər möminsinizsə!***

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ – ***Möminlər yalnız o kəslərdir ki,***

إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ – ***Allah yad edildikdə, qəlbləri qorxudan titrəyər.***

وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا – ***Allahın ayələri onlara oxunduqda, həmin ayələr onların imanlarını daha da artırar.***

وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ – ***Onlar öz Rəbbinə təvəkkül edərlər.***

الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ – ***O kəslər ki, namazı bərpa edərlər.***

وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ – ***O kəslər ki, verdiyimiz ruzidən infaq edərlər.***

أُوْلَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا – ***Onlar həqiqi möminlərdir.***

لَّهُمْ دَرَجَاتٌ عِندَ رَبِّهِمْ وَمَغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ – ***Onların öz Rəbbi yanında dərəcələri vardır və onları bağışlanma və şərafətli ruzi gözləyir!***

Qurani-Kərimdə imanla bağlı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır:

1. Möminin düşüncəsi və cəmiyyətin həyatında imanın rolu;
2. İmanın (təqlid və yaxud təəssübkeşlik əsasında yox,) agah şəkildə olmasının zəruriliyi;

3. Əməli öhdəliklər (uyğun ayələrdə və “Muminun” surəsinin əvvəlində qeyd edilən öhdəliklər və onlarla digər nümunələr.)

## ÜÇÜNCÜ MƏCLİS

## AGAHLIQ VƏ BİLİYƏ ƏSASLANAN İMAN

Şənbə – 1974/09/21
Mübarək Ramazan ayının 4-ü.

بسم الله الرحمن الرحيم

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ لآيَاتٍ لِّأُوْلِي الألْبَابِ. الَّذِينَ يَذْكُرُونَ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىَ جُنُوبِهِمْ وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلاً سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِ

***“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün gəlib-getməsində ağıl sahibləri üçün nişanələr vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, böyrü üstə uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünərlər (və deyərlər:) “Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Elə isə bizi Cəhənnəmin əzabından qoru!”***

“Ali-İmran” surəsi, ayə 190-191.

Bu gün oxuduğumuz və vərəqdə qeyd etdiyimiz ayələrə diqqət yetirdikdə, imanla bağlı iki-üç həqiqət əldə olunur. Birincisi, iman – öz risalətinə iman gətirmək və onu qəbul etmək – ilahi peyğəmbərlərin, onlara inananların və ardıcıllarının üstün xüsusiyyətlərindəndir. İlahi rəhbərlərlə siyasi rəhbərlər arasındakı fərq də elə budur. İlahi rəhbər bu yolun yolçusu kimi, dediyi söz, atdığı addım, getdiyi yola bütün varlığı ilə inanır. Dünya siyasətçiləri isə, adətən, gözəl və maraqlı danışsalar da, dediklərinə ya əsla inanmır, ya da yetərincə inanmır.

Nəql edirlər ki, kommunist iddiaları ilə qeyri-materialist düşüncələrə söykənən məktəb və mədəniyyəti şiddətlə pisləyən və tənqid edən Şərq blokunun ən böyük ölkələrinin [1] rəhbərlərindən biri Hidistanın müstəqilliyindən sonra, milyonlarla hindlinin könlünü almaq üçün Hindistana səfər edir. Hindular və hindlilər kommunist ölkəsinin rəhbərinin alnında Hindistanın (müəyyən zaman kəsimində) azadlıq uğrunda hərəkatının ruhani liderlərindən olan Qandahar Tilakın şəklinin yapışdırıldığını görüb təəccüblənirlər.

Mövzumuzdan kənar olsa da, məlumatlı olmağınız üçün diqqətinizə çatdırım ki, Hindistan hərəkatının başlanğıc günündən qələbəyə nail olduğu günə qədər, düz doxsan il çəkdi. Elə başlanğıcdan sona qədər bu hərəkatın əsas rəhbərləri ya müsəlman ruhaniləri, ya da hindu ruhaniləri olublar; Mövlana Şah Mahmud Dehləvi, Mövlana Mahmud Həsən, Mövlana Əbülkəlam Azad, Mövlana Məhəmmədəli, Mövlana Şövkətəli. Hind müsəlmanlarının dilində “mövlana” sözü bizim “ayətullah” sözümüzü əvəz edir; Ayətullah Məhəmmədəli, Ayətullah Şövkətəli, Ayətullah Əbülkəlam, Ayətullah Mahmud Həsən. Bu ayətullahlar

1. SSRİ.

Hindistanın azadlıq hərəkatının müsəlmanlar tərəfindən böyük liderləri olublar. Hindular tərəfindən isə Ceynizm (Ceyn) məktəbinə bağlı hindu ruhanisi olan Mahatma Qandi olub.

Nəzərinizə çatdırım ki, Tilak hindu rahibi olub. Bəlkə də ona rahib demək düzgün olmaz, hər halda, hindu ruhanisi olub. Çox əzəmətli, qəribə və diqqət çəkən bir şəxsiyyət olub. Hərəkatının ortalarında, hələ qələbəyə çatmamışdan öncə dünyadan köçdü və Hindistanın azadlığını görmədi. Amma onun ölümündən otuz-qırx il sonra, onun yetişdirdiyi insanlar azadlığın şirinliyi və ləzzətini daddılar. Bu hərəkat böyük azadlıqsevər və ruhani olan Tilakın adı və rolu ilə yaddaşlarda qaldı. Bu, bir ruhaninin roludur; onda ruhanilik, mənəviyyat və metafizik xüsusiyyətlər var idi. Tilakın özü də hinduların nəzərində ruhani-mənəvi məqamlara sahib olmuşdur. Bir sözlə, ruhani olmuşdur. Onlar Hindistana gələn SSRİ rəhbərlərinin ümumi xalq kütləsinin diqqətini çəkmək üçün Tilakın şəklini alınlarına yapışdırdıqlarını görürlər. Bunun mənası odur ki, biz də sizinlə bu zəmində həmfikirik, halbuki, öz iddiaları bu düşüncəni, bu məktəbi pisləyir.

Mənəvi, imanla bağlı və ilahi məsuliyyətlərdən uzaq bir qrup siyasi rəhbərlərin ləyaqəti budur! İlahi peyğəmbərlər isə dediklərinə bütün varlıqları ilə iman gətirmiş, insanlara aşıladıqlarına hamıdan öncə özləri əməl etmişdilər. Dağın qülləsində susuzluqdan taqətsiz hala düşən bir şəxsin “Qardaşlar, dağın başında dadlı su var, tez olun, ora tərəf tələsin!” – deməsi, özünün isə yerindən tərpənməməsi mənasızdır. Burada hamının soruşmağa haqqı var ki, əgər düz deyirsənsə, əgər orada ləzzətli bir bulağın olmasından xəbərdarsansa, axı özün susuzluqdan yanırsan, ay bədbəxt! Sən özün ona doğru tələsmirsənsə demək, yalan danışır və öz sözünə inanmırsan. İlahi rəhbərlər bir yolun bələdçisi kimi, hər kəsdən öncə və qabaqda, əlində bayraq möhkəm addımlarla irəli addımlayırdılar. Həzrət İbrahim Xəlilullah deyir: “İlahi, Sənin dərgahında İslamı qəbul edən (Sənə təslim olan) ilk şəxs mən özüm oldum, məndən sonra digər insanlar da mənim ardımca hərəkət etdilər.” Bu, ilahi rəhbərlərin xüsusiyyətidir. İlahi rəhbər belə olmalı və belədir. Peyğəmbəri-Əkrəm (s) İslamın ilkin çağlarında baş verən ən mühüm və təhlükəli hadisələrin önündə gedirdi. Düzdür, Abdullah Məsud, Xəbbab və Əmmar Yasir kimilər də işkəncələrə məruz qalırdılar, amma Peyğəmbərin (s) sinə gərdiyi işkəncələr onlardan az deyildi, hətta çox idi.

Əgər Peyğəmbərin vəziyyətini onun sadiq və pakdüşüncəli ardıcılları olan müsəlmanların vəziyyəti ilə müqayisə etsəniz, görərsiniz ki, Peyğəmbərin (s) özünə nisbətdə əməl etməsinin şiddəti, onlarınkından daha güclü və daha taqətkəsən idi. Onlardan daha öndə və qabaqcıl idi.

İman ilahi peyğəmbərlərin əsas xüsusiyyətlərindən biridir. İman dedikdə, öz dediklərini bütün varlığı ilə qəbul etmək, onlara inanmaq nəzərdə tutulur. Qəbul etməyin nişanəsi də onların bu yolda hər kəsdən öndə getməsi və addımlamasıdır. Elə buna görə də Qurani-Kərimdə bizə belə öyrədilir və buyurulur:

آمَنَ الرَّسُولُ بِمَا أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِ

***“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə iman gətirmişdir.”***

وَالْمُؤْمِنُونَ

***“Möminlər də (Peyğəmbərə qoşulanlar, onun ətrafına toplaşanlar və car çəkib dəvətini yayanlar da) iman gətirmişlər.”***

كُلٌّ آمَنَ بِاللّهِ وَمَلآئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِه

***“Onların hamısı Allaha, Onun mələklərinə, (səmavi) kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirmişlər.”***[1]

Çünki yol birdir.

در این ره انبیا چون ساربانند
دلیل و رهنمای کاروانند

**“Bu yolda peyğəmbərlər sanki sarbandır, karvanın rəhbər və bələdçiləri onlardır.”**

Bu yolda bütün peyğəmbərlər bir karvanın gözətçi və bələdçisi, bir yolun yolçusu, bir hədəfin rəhbəridirlər, hamı birdir və bir məqsədə doğru irəliləyir.[2]

لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِ

Bu söz möminlərin dili ilə deyilir: ***“Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.”***[3]

Bizim üçün İsa, Musa, İbrahim, İdris[4], Yəqub, Cərcis[5], Nuh –

---

1. “Bəqərə” surəsi, ayə 285.
2. Şeyx Mahmud Şəbüstəri.
3. “Bəqərə” surəsi, ayə 285.
4. Həzrət İdris (ə) Həzrət Adəm (ə) və Şeysdən (ə) sonra peyğəmbərliyə çatmışdır. İmam Sadiqdən (ə) nəql olunan rəvayətə görə, çoxlu tədrislə məşğul olduğundan, “İdris” adı ilə məşhurlaşmışdır. Allah-Taala yazmağı onun vasitəsilə bəşəriyyətə öyrətmişdir.
5. Həzrət İsadan (ə) illər sonra Bəni-İsrailə göndərilmiş peyğəmbər. O, öz qövmünü

birincidən sonuncuya qədər bütün peyğəmbərlər – möhtərəm və müqəddəs, hamısı Allahın məmurlarıdır; bir hədəfin məmurları, eyni səadət və eyni Cənnətin müjdəçiləri, eyni xəttin izləyiciləridir.

لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِ

***"Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq."***

(Növbəti günlərdə bu silsilə söhbətlərimizdə ola bilsin ki, "nübuvvətə etiqad" mövzusuna da toxunduq, inşallah!)

Sonradan qeyd edəcəyim məsələ ilə bağlı bu iki-üç cümləyə diqqət yetirin ki, bəhsimizə aid əsas məsələyə işarədir. Həm bizim Peyğəmbərimiz (s), həm digər peyğəmbərlər, həm də onlara inanan və qoşulanlar da hamılıqla Allaha iman gətirmişlər.

وَقَالُواْ سَمِعْنَا وَأَطَعْنَا

***"Onlar deyirdilər: "Eşitdik və itaət etdik.""***

Ayədə qeyd olunan "səmi`na" sözü "qulağımıza çatdı" mənasını deyil, "eşitdik" mənasını daşıyır. "Qulağımıza çatdı" ilə "eşitdik" arasında fərq vardır. İnsanın xüsusi bir üzvü olan qulağına ərəb dilində "uzun" deyilir. "Səm`" isə "eşitmək" mənasındadır. Öz dilimizdə də belə bir söz işlədirik: "Deyirlər ki, filankəs sözə qulaq asandır. Dediyimi eşitdinmi?" Dinləyicilərinizə: "Nə dediyimi eşitdinizmi?" – deyərkən, sizinlə onların arasında, aydındır ki, yarım metr fasilə olmasına baxmayaraq, səsiniz on metrdən belə eşidilirdi. Onun sizin səsinizi eşitməsi bəllidir, amma demək istəyir ki, nə dediyimi anladınmı? Başa düşdünmü? Dərk etdinmi? Onlar da dedilər ki, "səmi`na" – eşitdik, Allahın bizə göndərdiklərini bütün varlığımızla anladıq və "ətə`na", yəni itaət etdik. Bu nə deməkdir? Məqsəd kor-koranə itaət deyil, bizim itaətimiz məsələnin aydın olması və məlumatlılıq səbəbindən idi.

غُفْرَانَكَ رَبَّنَا

***"Ey Rəbbimiz, bizi bağışla!"*** İlahi, Səndən istədiyimiz mükafat yalnız bağışlanmağımızdır.

وَإِلَيْكَ الْمَصِيرُ

***"Bizim qayıdışımız Sənə doğrudur!"***

(Allaha qayıdış məsələsi ilə bağlı maraqlı sözlər çoxdur və əgər ömrümüz və fürsətimiz olsa, elə bu silsilə bəhslərimizdə, "Quranda məad" bölməsində ondan söz açacağıq, inşallah!)

Bura qədər sözügedən ayələrdən nə öyrəndik? Öyrəndik ki, iman və

---

haqqa dəvət etməklə bağlı dövrün hakimi tərəfindən ağır işkəncələrə məruz qalmışdır.

etiqad İslam dəvətinə bağlı olan insanların xüsusiyyətidir. İmansız və əqidəsiz insanlar başqaları həmin yolu getdiyindən, onların arxasınca ehtiyatla gedənlərdir. Onlar islami təfəkkür sahəsindən uzaq qalanlardır. Burada doğru və həqiqi iman sahibi olmaq lazımdır. İman, yəni bir məktəbi aşkar şəkildə qəbul etmək, bir cazibənin ardınca hərəkət etmək; əgər Quran və din məktəbində bu cazibə yoxdursa, sənin qəlbinə hakim kəsilə bilmirsə, sənin qəlbində iman yoxdursa, bu qəlb ölüdür, İslam nuru ilə yaşamır, ona müsəlman adı vermək olmaz. Demək, iman lazımdır. Bu birinci məsələ!

İkinci məsələ: İman iki qismdir: Birincisi təqlid və təəssübkeşlik əsasında olan iman. Ata-babalarımız və böyüklərimiz qəbul etdikləri üçün biz də qəbul etmişik. Kitabımız və dinimizdə belə deyildiyi üçün biz də elə deyirik, sənin dəlil-sübut gətirməyinə ehtiyac yoxdur, çünki qəbul etməyəcəyik. Bu, imanın bir növüdür, bu da iki qismə ayrılır: ya təqlidə, ya da təəssübkeşliyə söykənir.

Amma təqlidi (kor-koranə) iman haqda danışsaq, misal üçün insanlardan: "İslam Peyğmbərinin (s) haqq olduğunu haradan bilirsən?" – deyə soruşsan, cavab verə bilməyəcək. Çünki ata-babaları, məktəbdə müəllimləri, küçə-bazarda insanlar Peyğəmbərin (s) haqq olduğunu dedikləri üçün o da Peyğəmbərin (s) haqq olduğunu deyir və buna imanı da vardır. Yəni, həqiqətən də inanır ki, Peyğəmbər haqdır. Amma bu inanc onun-bunun sözlərindən formalaşmış, təqlid səbəbilə və dəlil-sübutsuz yaranmışdır.

Təəssübkeşlik əsasındakı iman da təqlidi iman kimidir. Bəziləri, bizim Peyğəmbərin qəlbini sevindirmək üçün Allah eləməmiş, başqa peyğəmbərlərə hörmətsizlik etmək istəyir və elə təsəvvür edir ki, mənəvi aləmdə də peyğəmbərlər bir-birinə qarşı çıxa bilərlər. Musa! Axı Musa kimdir? Ancaq bizim Peyğəmbər! Təəssüf ki, bu, nadan təbəqəyə aiddir. Bəzən də insanın daha çox ondan gözləmədiyi, zəkalı və ziyalı olduğunu düşündüyü təbəqə arasında belə yanlışlıqlara yol verənlər də gözə dəyir ki, qıraq-bucaqda onun nümunələri ilə hərdən rastlaşırıq. Bunu daha geniş izah etməyə ehtiyac duymuram. Buna təəssübkeşliyə əsaslanan iman deyilir; bunu İslam deyibsə doğru, başqa din deyibsə, yanlışdır, bu işi biz müsəlmanlar yerinə yetirdiyimiz üçün düzgün, digərləri isə filan başqa işi yerinə yetirdikləri üçün səhvdədirlər. Onun imanı var, amma dəlil-sübuta əsaslanan iman deyil, yalnız təəssübkeşlik səbəbilədir.

Təəssübün mənası da dəlil-sübutsuz, məntiqsiz, hisslərə qapılaraq tərəfdarlıq etməkdir. Buna təəssüb deyilir. Demək bu növ iman ya təqlid, ya da təəssübə əsaslanandır.

Siz dostların diqqətinə çatdırmalıyam ki, İslamın dəyər verdiyi iman təqlid və təəssübə əsaslanan iman deyil, bunun dəyəri yoxdur. Sübut istəyirsiniz? Onlarla dəlildən birini deyirəm, o da budur ki, təqlid və təəssübkeşliyə əsaslanan imanın aradan getməsi də onun yaranması kimi asandır. Uşaq və şagird ata-anasından, yaxud məktəbin müəllimlərindən zəhmətsiz və təmənnasız aldığı iman, iman oğruları tərəfindən də təmənnasız alınacaqdır; bu zaman, gözlənilmədən, imansız bir nəslin yarandığını, imanların qarət olunub aradan getdiyini, maddi qığılcımlar müqabilində imanların qarın yay çilləsində əriyib suya dönərək yerə hopduğu kimi məhv olduğunu görəcəksən. Kimin haqqında danışıram? Aydındır ki, gənc nəsli deyirəm. Amma nəzərinizə çatdırmalıyam ki, mən gənc nəslin imansız nəsil olduğunu demirəm, çünki qıraq-bucaqdan gənc nəsildə imanın çiçəkləndiyini müşahidə edirik. Yenə də qeyri-təqlidi, təəssübə əsalanmayan və agahlığa söykənən iman ardınca getdiyi üçün afərin gənc nəslə! Əlbəttə, bu gənc nəsildən öncəki nəsli nəzərdə tuturam. Bizim gənc nəslimizdən öncəki nəsil kor-koranə imana etiqad bəsləsə də rövzə məclislərində, əgər icazə versələr, camaat namazında iştirak edər, amma məntiqə, şüur və agahlığa əsaslanmadığı üçün çox asanlıqla məscidi yandırmağa, İmam Hüseynə (ə) arxa çevirməyə, həqiqi dəyər bildiklərini fəda etməyə də razılıq verər, necə ki, verirlər. Biz bunu görürük. Bizim bugünkü bədbəxtliklərimizdən biri də gənc nəsildən qabaqkı nəsillə üzləşməyimizdir; o kəslər ki, bugünkü müsəlman gənc nəslin sahib olduğu ayıqlıq və məlumatlardan məhrumdurlar, çox təəssüf ki, iki öncəki nəslin çatışmazlıqlarından amanda qalmış möhkəm və dərin imanından da nəsiblərini almamışlar; onlar nə pul, vəzifə, şöhrət, sevgi, rifah və rahatlıqdan üz çevirib şüur və agahlığa əsaslanan möhkəm imana sahib oldular, nə də bir-iki əsr öncəki kimi, heç olmasa, imanını bağlı sandıqça və aşılmaz hasar içində qoruyub-saxlaya, nə də ən azından, kor-koranə imana sahib ola bildilər.

Bir sözlə, yüz il bundan öncə bu qədər düşüncə, əqidə və iman oğrusu yox idi. O zaman bizim cəmiyyətimizin daxilinə düşmən əlləri və xain barmaqlar hələ yol tapmamışdı. Hələ də planlar insanların həqiqi imanının əldən çıxması, onların başına istənilən bəlanın gətirilməsi

həddinə çatmamışdı. Bunlar sonra baş qaldırdı. Bizim gənc nəsildən qabaqkı nəsil – həmin nəsil ki, dünən gənc idisə, bu gün artıq gənc deyil, iman və əqidələrini kökündən dağıdan sel ilə qarşılaşmış, amma, onun müqabilində möhkəm imana da sahib olmamışdılar. Xoş olsun imanını agahlıq, şüur, zəka və düşüncə əsasında seçən kəslərin halına! Sel gövdəsi yoğun ağacları aparsa da, kökü iki özü qədər yerin altına uzanan gövdəsi nazik bitkilər hələ də sağlamdır, davamlıdır. Kökü möhkəm olanı belə sözlər aradan apara bilməz.

Bir sözlə, bu, İslamda danılmaz bir həqiqiət və məqamdır: Dəyərli iman agahlıq, şüur, düşüncə və bəsirətə söykənən imandır. Filan müsəlman imanını qorumaq üçün qəzet və kitab oxumamasını, küçə-bazara çıxmamasını, filankəslərlə danışmamasını, soyuqlamaması və qızdırmaması üçün günəş və ayı görməməsini deyəcəyiksə, təəssüf ki, bu iman davam gətirməz. Agahlıq və ayıqlıqla seçilən imanı ən çətin şəraitdə belə əldən almaq olmaz:

مَن كَفَرَ بِاللّهِ مِن بَعْدِ إِيمَانِهِ إِلاَّ مَنْ أُكْرِهَ وَقَلْبُهُ مُطْمَئِنٌّ بِالإِيمَانِ

***“Qəlbi imanla sabit olduğu halda (küfr sözünü deməyə) məcbur edilən şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə (onu ağır təhlükə gözləyir).”***[1]

Qurani-Kərimin bu ayəsində Əmmar Yasir barəsində belə deyilir: Əgər işgəncələr altında ikən düşməni bir an özündən yayındırmaq üçün bir söz demək lazımdırsa de, sənin imanın işgəncə ilə qəlbindən çıxacaqsa, o, iman deyil. Qızdırılmış dəmiri Xəbbab ibn Ərətin boynuna və bədəninin dərisinə basırlar, amma dərin agahlığa söykənən imana sahib olduğu üçün ondan əl çəkmir. Budur iman!

Aydınlıq, agahlıq, düşüncə və düzgün hesablamalara söykənən imanı isti-soyuğun, toz-torpağın zərər vurmaması üçün parçaya bükmək və sandıqçada saxlamağımıza ehtiyac yoxdur; çünki ona zərər dəyməz. Düşüncəsiz iman qorxu və narahatlığa məhkumdur. Əgər imanların möhkəmliyini, aradan getməməsini, imanımızın daim agahlıq üzündən olmasını istəyiriksə, daim ona agahlıq bəxş etməliyik, mömin etmək istədiyimiz şəxslərin ayıq olmasından qorxmamalı, onların gözü və qulaqlarının bağlı qalmasından ləzzət duymamalıyıq. Bunun üçün isə ayıqlıq səbəbləri beyinlərdə, düşüncələrdə və qəlblərdə düzgün şəkildə formalaşmalı, həmin ayıqlıqla onların qəlblərində doğru, möhkəm və

1. “Nəhl” surəsi, ayə 106.

yenilməz iman cücərməlidir. O zaman artilleriya topu belə onu yerindən qoparda bilməz. İslam deyir ki, agah şəkildə iman gətirmək lazımdır, "Ali-İmran" surəsinin son ayələri bizə bu növ imanı tanıtdırır.

Ayənin başlanğıcı müqəddimədir:

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ لآيَاتٍ

***"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün gəlib-getməsində nişanələr vardır."***

Görəsən, axmaq və ağılsız insanlar üçünmü? Düşünməyənlər üçünmü?

لِّأُوْلِي الألْبَابِ

***"Ağıl sahibləri üçün."***[1]

Təfəkkür və düşüncə qüvvəsinə sahib olan insan ağıllı insandır və bu, ağıl və düşüncəsini işə salan bütün insanlara aiddir. Yoxsa onlar doğulduqları ilk gündən xüsusi bir əlamətlə başqalarından seçilmirlər ki, biz də onlardan biri olub-olmadığımızı deyək. Və yaxud ağıl sahibləri əzəldən müəyyən xüsusiyyətllərə sahib olduqları üçün özümüzü ağıllı hesab etməyək. Xeyr! Bizim hamımız, dünyada yaşayan digər üç milyard insanla birgə ağıl sahibiyik; bu şərtlə ki, ağıl qüvvəsini işə salaq. Əgər pul verib maşın alsanız, onu evdə saxlasanız, açıb baxmasanız, işlətməsəniz, bir müddət sonra onun işə yarımadığını və pas atdığını, əgər pas atmasa da, qüsurlu olduğunu görəcəksiniz. Burada maşının təqsiri yoxdur, onu işlətmədiyin üçün müqəssir sənsən. لِّأُوْلِي الألْبَابِ (ulil-əlbab – ağıl sahibləri), yəni ağıllı olmaq üçün təfəkkür və düşüncə qüvvəsini işlədənlər.

Ağıl sahibləri kimlərdir? Baxın, bu, Quranın incə mətləblərindən biridir. Ağıl və düşüncə sahiblərini tanıtdırmaq istədikdə, onların həyatın hər bir sahəsində öndər olduqlarını, heç bir işdə aldanmadıqlarını, ticarətdə, politologiyada, siyasi oyunlarda, münaqişələrdə və çəkişmələrdə hər zaman əllərinin qarşı tərəfin əllərinin üstündə olduqlarını vurğulayır. Quran bu oyunların heç birini qəbul etmədiyi, həqiqi dəyəri insanın Allahla rabitədə olduğu ilə əlaqələndirdiyi üçün ağıl sahiblərini də belə tanıtdırır. Quran baxımından ağıl sahibləri hər kəsdən çox ən ali dəyərlərə sahib olan kəslərdir.

الَّذِينَ يَذْكُرُونَ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىَ جُنُوبِهِمْ

***"Ağıl sahibləri ayaq üstə olanda da, oturanda da, böyrü üstə***

1. "Ali-İmran" surəsi, ayə 190-193.

***uzananda da Allahı xatırlayan kəslərdir.”***

Yəni, hər zaman və hər bir halda Allahı yad edərlər. Amma onların Allahı yad etməsi dərvişlərin daxma həyatı ilə qarışmış irfani halət anlamında olmadığından, bəziləri öyünərək “Elə biz də hər zaman Allahı yad edənlərdənik.” – deməsin, Allahı yad etməkdə fəal olsun, Allahı yad etmək əməl hesab edilsin. Necə?

وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ

**“Göylərin və yerin yaradılması haqqında düşünərlər.”**

Demək, ağıl sahibləri təfəkkür halındadırlar, daim yaradılış haqqında düşünürlər. Düşündükdən sonra həm zahiri, həm də batini dillə belə deyirlər:

رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلاً

***“Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən (boş yerə yaratmaqdan) pak və müqəddəssən!”***

Yəni, bu, bir ideologiyanın ən mühüm və ən əsas prinsipidir.

Hər bir qurucu ideologiyanın əsas prinsipi iş və fəaliyyətə dəvətdir; Allaha etiqadı olsa da, olmsa da, işləmək üçün məmur olunduğunu düşünür. Baxın, fərdi və ictimai həyata ruh verən ideoloji fəlsəfənin ən əsas prinsipi elə budur:

رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلاً

***“Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan!”*** O, mənəvi düşündüyü və Allaha inandığı üçün deyir ki, ey Rəbbimiz, Sən bu göyü və yeri, bu aləmi bihudə və boş yerə yaratmamısan.

سُبْحَانَكَ

***“Sən pak və müqəddəssən!”*** Heç vaxt yersiz iş görməzsən. Demək, burada mən də məsuliyyətliyəm, mən də bir yol ötüb-keçməliyəm, mən də bu qəribə sistem və yaradılış aləminin müqabilində bir nöqtəyəm və işləmək üçün göndərilmişəm. Bu qəribə sistemdə mənim də bir yerim var, əgər həmin yeri doğru-düzgün şəkildə, Sənin istədiyin kimi doldura bilməsəm, onun nizam-intizamını pozmuşam

فَقِنَا عَذَابَ النَّارِ سُبْحَانَكَ

***“Sən pak və müqəddəssən! Bizi Cəhənnəm əzabından qoru!”***

Qiyamət odu həqiqət olsa da, Allahın və yaradılış aləminin qəzəb və intiqam odunun simvoludur.

Diqqət yetirməlisiniz ki, bütün bunlar agahlıq üzündən yaranan imanı sözügedən ayələrdən düzgün şəkildə anlamağımız üçün bir

müqəddimədir. İndiyə qədər yəqin ki, bu ayələrdən agahlığın necə əldə edildiyinə diqqət yetirmiş olarsınız; indi isə diqqət yetirin:

رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ أَخْزَيْتَهُ

***“Ey Rəbbimiz! Sən Cəhənnəm oduna atdığın şəxsi, əlbəttə, xar (və rüsvay) edərsən!”***

وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَار

***“(Cəhənnəm oduna atdığın) zalımlara kömək edən olmaz!”***

Onlara nə yaranmışlardan, nə də qeybdən bir yardım edən tapılmaz. Yəni, zülm və haqsızlıq, küfr və nifaq, batil yolda hərəkət edənlər yoxluğa məhkumdurlar və bu aləmdə onları heç kim himayə etməyəcək.

Bu zəkalı insanlar, ağıl sahibləri, göyün və yerin yaradılışı haqqında düşünənlər, bu dünyaya boş yerə gəlmədiklərini və bu kainatın bihudə yaranmadığını anlayanlar sözlərinə davam edir və (iman məsələsinə toxunaraq) deyirlər:

رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلإِيمَانِ أَنْ آمِنُواْ بِرَبِّكُمْ فَآمَنَّا

***“Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!” – deyə imana tərəf çağıran bir kimsənin çağırışını eşidib (anladıq və) Sənə iman gətirdik.”***

Necə iman gətirdilər? Elə bir nəfər ***“İman gətirin!”*** – deməklə iman gətirdilərmi? Xeyr! Onlar ağıl sahibləri, mütəfəkkirlər idirlər. Bu carçının zahirdə peyğəmbər olduğu ehtimal edilsə də batində onları Allaha və Ona iman gətirməyə çağıran ağıl, şüur və təfəkkürdür. Carçı onlara ***“İman gətirin!”*** – dedikdə, onlar da təfəkkür, dərrakə, şüur və ayıqlıq üzündən iman gətirdilər. Agahlıq üzündən olan bu növ iman İslamda bəyənilir. Bu da ikinci məsələ!

Üçüncü məsələni isə çox qısa qeyd edəcəyəm. (Təəssüf ki, bizim məclisimizin ilk vaxtı bir qədər alındı.) O da budur ki, İslam baxımından agahlıq üzündən iman gətirmək bəyənilir, agahlığa söykənməyən iman Allah-Taala dərgahında qəbul deyil və dəyərsizdir. Elə buna görə də, Qurani-Kərimdə kor-koranə, təqlid və təəssübkeşliyə əsaslanan iman şiddətlə tənqid olunur və bu növ iman insanı uçuruma aparır. Bu barədə bir ayə qeyd etmişəm:

وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ قَالُواْ حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا

***“Onlara: “Allahın nazil etdiyinə və Peyğəmbərə (onun təlimlərinə) tərəf gəlin!” – deyildiyi zaman: “Atalarımızın getdiyi yol bizə yetər.” – deyə cavab verirlər.”***

Bu ayədə kafirlər və mürtəcelərdən söz açılır. Onlara deyilir ki, gəlin, Allahın göndərdikləri və Peyğəmbərin (s) təlim etdiklərini öyrənib anlayın, yaxına gəlin, dərk edin, qulaq asın, görün, Peyğəmbər (s) nə deyir? Görəsən, nə cavab verdilər? Ona doğru gəlmək, düşünmək və yollarını seçmək əvəzinə dedilər: حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا – Ata-babalarımızın getdiyi yol bizə kifayətdir. Biz yeni sözlərə uya bilmərik.

Tədqiqatçılardan birinin qeyd etdiyi kimi, Qurani-Kərimin tanıtdırdığı kafirlər hər yerdə və hər zaman "əsrin mürtəceləri" adlanmış, peyğəmbərlər isə zamanın aydındüşüncəli insanları olmuşlar. Onların həmişə yeni sözü, yeni yolu, yeni dəvəti olmuşdur. Kafirlər, müxaliflər, təəssübkeşlər, təqlidçilər və mürtəcelər isə onların yeni yolunu bəyənməmiş, qəbul etməmiş və demişlər: Keçmişdəkilərimiz necə yol gedibsə, biz də həmin yolu gedəcəyik, biz ata-analarımızı elə görməmişik, onları başqa yolda görmüşük, buna görə də, onların düşündüyü kimi düşünmək, onlar kimi rəftar etmək istəyirik. Onlar ata-babalarına təqlid etməkdə o həddə çatmışdılar ki, Quran onların cavabında belə buyurur:

أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْلَمُونَ شَيْئًا وَلاَ يَهْتَدُونَ

***"Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə, necə?!"***[1]

Qurani-Kərimdə onlara cavab verilir ki, əgər sizin ata-babalarınız heç bir şey anlamırdılarsa, doğru yolda deyildilərsə, xeyri şərdən seçə bilmirdilərsə, yenə də onlaramı təqlid edəcəksiniz? Görün, Qurani-Kərimdə kor-koranə təqlid necə də pislənir, məzəmmət olunur.

---

1. "Maidə" surəsi, ayə 104.

## Xülasə

### Şənbə – Ramazan ayının 4-cü günü

### AGAHLIĞA ƏSASLANAN İMAN

Bu tilavətə diqqət etdikdə, aşağıdakı mövzular anlaşılır:

1. Əqidəvi prinsiplərə iman ilahi peyğəmbərin və onun ardıcıllarının önəmli xüsusiyyətidir:

آمَنَ الرَّسُولُ بِمَا أُنزِلَ إِلَيْهِ مِن رَّبِّهِ – ***“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə iman gətirmişdir.”***

وَالْمُؤْمِنُونَ كُلٌّ آمَنَ بِاللّهِ وَمَلآئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ – ***“Bütün Möminlər də Allaha, Onun mələklərinə, (səmavi) kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirmişlər.”***

لاَ نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِّن رُّسُلِهِ – ***“Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq (və Allahın göndərdikləri və məmurlarına inanır, vəhyi qəbul edirik).”***

وَقَالُواْ سَمِعْنَا وَأَطَعْنَا – ***“Onlar deyirdilər: Eşitdik (anladıq) və itaət etdik.”***

غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ – ***“Ey Rəbbimiz, bizi bağışla və bizim qayıdışımız Sənə doğrudur!”***

(“Bəqərə” surəsi, ayə 285.)

2. Bu iman isə kor-koranə təqlid deyil, agahlıq, şüur və düşüncə əsasında olmalıdır. Aşağıdakı ayələrdə bu agahlığın bariz nişanəsini müşahidə etmək olar:

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ – ***Həqiqətən, göylərin və yerin yaradılmasında,***

وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ – ***gecə ilə gündüzün gəlib-getməsində***

لآيَاتٍ لِّأُوْلِي الألْبَابِ الَّذِينَ يَذْكُرُونَ اللّهَ قِيَامًا وَقُعُودًا وَعَلَىَ جُنُوبِهِمْ – ***ağıl sahibləri***

***üçün aydın nişanələr vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, böyrü üstə uzananda da Allahı xatırlayarlar.***

وَيَتَفَكَّرُونَ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ – ***Göylərin və yerin yaradılması haqqında düşünərlər.***

رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلا سُبْحَانَكَ – ***(Dildə deyərlər:) "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən!***

فَقِنَا عَذَابَ النَّارِ – ***Elə isə bizi Cəhənnəmin əzabından qoru!***

رَبَّنَا إِنَّكَ مَن تُدْخِلِ النَّارَ فَقَدْ أَخْزَيْتَهُ – ***Ey Rəbbimiz! Sən Cəhənnəm oduna atdığın şəxsi, əlbəttə, xar edərsən!***

وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَار – ***Zalımlara heç bir kömək edən olmaz!***

رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلإِيمَانِ أَنْ آمِنُواْ بِرَبِّكُمْ فَآمَنَّا – ***Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!" – deyə imana tərəf çağıran bir kimsənin çağırışını eşidib (anladıq, yaradılış barəsində təfəkkür edib qəlbimizlə dinlədik və) Sənə iman gətirdik.***

("Ali-İmran" surəsi, ayə 190-193.)

3. Kafirlər və müxaliflərin öz puç düşüncələrinə söykənən, təəssüb və təqlidə əsaslanan iman şiddətlə pislənir və məzəmmət olunur. Bu ayənin dərin mənası və tənqidi tonuna diqqət yetirək:

وَإِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ إِلَى مَا أَنزَلَ اللّهُ وَإِلَى الرَّسُولِ – ***Onlara: "Allahın nazil etdiyinə və Peyğəmbərə (onun təlimlərinə) tərəf gəlin!" – deyildiyi zaman:***

قَالُواْ حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا – ***"Atalarımızın getdiyi yol bizə yetər", – deyə cavab verirlər!***

أَوَلَوْ كَانَ آبَاؤُهُمْ لاَ يَعْلَمُونَ شَيْئًا وَلاَ يَهْتَدُونَ – ***Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə necə?!***

("Maidə" surəsi, ayə 104.)

## DÖRDÜNCÜ MƏCLİS

## ARTAN VƏ ƏMƏLİ ÖHDƏLİKLƏRLƏ BİRGƏ OLAN İMAN

Bazar günü – 1974/09/22
Ramazan ayının 5-i.

بسم الله الرحمن الرحيم

وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ هُوَ اجْتَبَاكُمْ وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ مِّلَّةَ أَبِيكُمْ
إِبْرَاهِيمَ هُوَ سَمَّاكُمُ الْمُسْلِمِينَ مِن قَبْلُ وَفِي هَذَا لِيَكُونَ الرَّسُولُ شَهِيدًا عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاء
عَلَى النَّاسِ فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَاعْتَصِمُوا بِاللَّهِ هُوَ مَوْلَاكُمْ فَنِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ

***“(Ey möminlər!) Allah yolunda layiqincə cihad edin. O, sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı. Bu, atanız İbrahimin ayinidir. O, bundan əvvəl də, indiki zamanda da sizi müsəlman adlandırdı ki, Peyğəmbər sizə, siz də insanlara şahid (və nəzarətçi) olasınız. Elə isə namazı bərpa edin, zəkat verin və Allaha sığının. O, sizin rəhbəriniz (və haminiz)dir. O nə yaxşı rəhbər, necə də gözəl yardımçıdır!”***

“Həcc” surəsi, ayə 78.

Məsələ burasındadır ki, iman Quranın haqq təlimlərinə əsasən, yalnız qəlbə aid deyildir. Düzdür, iman inanc deməkdir, inanc da qəlbə aiddir, lakin Quran hər inancı, hər imanı və hər qəbulu rəsmi şəkildə tanımır. İslam baxımından mücərrəd iman, qəlbdəki quru və boş iman, möminin varlığı və bədən üzvlərində görünməyən iman dəyərsizdir. Allaha iman gətirən ilk mömin Şeytandır. İblis Rəbbin iddialı bəndələri və Adəmin nazlı-qəmzəli övladlarının bu torpağa ayaq basmasından uzun illər öncə Allah-Taalaya ibadət edirdi, onun qəlbi ilahi mərifət ocağı idi. Lakin sınaq zamanı – imanların dərdə dəydiyi bir vaxtda, əsl yolun seçimi zamanı bu iman İblisin karına gəlmədi, elə onun qəlbində də qaldı. Mən demirəm ki, yalnız qəlbdə qalan iman quruyub çürüyəcək. Sən “xeyr, qalacaq” de. Biz bu zaman şübhəni artırıb imanın qəlbin lap dərinliyində qalacağını deyəcəyik. Yalnız qəlbdə qalıb əlimiz, ayağımız, gözümüz, qulağımız, beynimizə, digər bədən üzvlərimizə, həyatımıza, güc və enerjilərimizə təsir etməyən iman Quran mədəniyyətində dəyərsizdir. Amma biz bu məsələni bir başlıqda yekunlaşdırmışıq, o da sizin əlinizdəki vərəqin yuxarı hissəsində qeyd edilmişdir: Artan, bulaq tək coşub qaynayan, öhdəliklərlə yanaşı olan iman, möminə məsuliyyət gətirən və əməllə birgə olan iman.

Qurani-Kərimdə “İnnəlləzinə əmənu və əmilus-salihat” ***(Həqiqətən, iman gətirən və saleh əməllər edən şəxslər...)*** – ifadəsindən ibarət olan ayələri saymağı qərara aldım. Bu ifadənin – saleh əməllə birgə olan imanın onlarla dəfə işləndiyini gördüm. Boş iman, öhdəliksiz iman, məsuliyyət aşılamayan iman nə dünyada insanın karına gələr, nə də axirətdə. Bu, Quranın məntiqidir.

(Sabahkı tilavət də, təqribən, bu zəmində olacaq; sabah da bir neçə ayə tilavət edəcək və onun üzərində düşünəcəyik, inşallah! Təfəkkür

sayəsində uyğun məna açıq-aşkar bilindikdə, heç bir tərəddüdə yer qalmayacaq.)

İmanın şərtləri və öhdəliklərinə əməl etmədən, onun insanın "qəlb" adlı məntəqəsinə aid olduğunu və möminlər cərgəsinə qoşulduğunu güman edənlər; yalnız mömin olmaqla, əməlsiz, zəhmətsiz, təlaşsız imanla Allahın möminlərlə bağlı müjdələrinin insana nəsib olduğunu xəyal edənlər; Cənnətə yalnız əməlsiz qəlbə aid bir işə görə sahib olacağını və ona görə yer üzündə hökmranlıq edəcəyini təsəvvür edənlər; bir sözlə, əməl olmadıqda, imandan bir şey qalacağını düşünənlər bu ayələrə (və sonradan tilavət olunacaq ayələrə), onlarla digər Quran ayələrinə müraciət etməli, diqqətlə düşünməli və İslam baxımından əməllə, məsuliyyətlə, mükəlləfiyyət və öhdəliklərlə yanaşı olan imanın dəyərli olduğunu bilməlidirlər.

Əgər heç bir öhdəlik hiss etmədinsə, mömin olmağında şəkk etməlisən. İmanın şərtlərinə əməl etməyən cəmiyyət özünə inanclı cəmiyyət deyə bilməz. وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ ***("Ruhdan düşməyin və qəmgin olmayın; əgər möminsinizsə, siz çox yüksəkdə durursunuz!")*** [1] – ayəsini və maraqlı çağırışı eşidənlər sonradan həqiqətlərə baxdıqda, Qurana iman gətirənlərin hamıdan üstün və yüksəkdə deyil, əksinə girovda olduğunu görüb təəccüblənirlər ki, bəs, Quranın vədəsi hanı? Bu vədənin gerçəkləşməsi üçün bir vaxt tapa bilmədikdə, Həzrət Məhdinin (ə.f) zühurunun intizarında olurlar. Bu vədə ilə bağlı xatırlatmaq lazımdır ki, bəli, ilahi vədə haqdır; istər Həzrət Məhdinin (ə.f) zühuru dönəminə aid olsun, istərsə də imanın gerçək olduğu məqamlara; o iman ki, Quranda əməllə yanaşıdır, öhdəliklərdən ayrı deyildir. İman yalnız qəlbə aid deyildir.

Əgər "iman" sözü yalnız "təsdiqləmək" və "qəbul etmək" mənasını ifadə etsəydi, onda deməliyəm ki, Əbu Ləhəb[2] və Vəlid ibn Müğeyrə

---

1. "Ali-İmran" surəsi, ayə 139.

2. Əbdülmüttəlibin oğlu Əbdülüzza; çöhrəsi qırmızı olduğundan Əbu Ləhəb ləqəbi ilə məşhurlaşmışdı. Peyğəmbər (s) insanları İslama dəvət etdiyi zaman o Həzrətlə müxalifətə qalxdı. Həmişə o Həzrətin arxasınca düşüb, onu yalançı adlandırırdı. Bədr döyüşündə (müşriklərin sırasında) iştirak edə bilməyən Əbu Ləhəb müşriklərin məğlubiyyətini eşitdikdən yeddi gün sonra ürəyi partlayıb öldü. Nəql olunur ki, yoluxucu xəstəliyə tutulduğu üçün, cənazəsi iki gün yerdə qaldı. Nəhayət, oğlanları onun cənazəsini Məkkədən uzaq bir yerə aparıb dəfn etdilər. "Məsəd" surəsi onun və zövcəsinin əbədi əzabına işarədir.

Məxzumi[1] Peyğəmbərə (ə) iman gətirən ilk şəxslər olub. O ərəb ağıllıları yaxşı anlayırdılar ki, Allahın Peyğəmbəri (s) yalan danışmır; yaxşı dərk edirdilər ki, o, düz danışandır. Buna dəlil-sübut istəyirsənmi? Dəlil-sübutu odur ki, öz silahdaşları ilə birgə oturub Peyğəmbərə (s) istehza etməyi qərara alırdılar. Bir-birinə deyirdilər ki, gedib Peyğəmbərin (s) nə dediyini dinləməli və eyiblərini tutmalıyıq. Sonra gedib dinləyir və ertəsi gecə bir yerə yığışdıqda deyirdirlər: "Onun dedikləri bəşər sözü deyil, bəşərin Rəbbinin sözüdür." Deməк, onun Allah tərəfindən danışdığını qəbul və təsdiq edirdilər. Sən isə həmin tarixdən on dörd əsr keçdikdən sonra onu mömin adlandırmırsan. Bəli, onun mömin olmamasının səbəbi odur ki, imanı, qəbul və təsdiqi uyğun öhdəliklərlə birgə deyildi. Görəsən, biz möminikmi? Əgər bizim də iman və təsdiqmiz uyğun öhdəliklərlə birgə deyilsə, buna sözünüz nədir?

Əgər qəlbdəki iman və təsdiq kifayətdirsə, onda Əmr As[2] dünyanın ilk şiəsi olmalı idi. Əmr As Qədir-Xum hadisəsini öz gözü ilə görmüşdü və yaxud da birbaşa öz gözü ilə görənlərdən eşitmişdi. Mən və sən, təqribən, on üç əsrdən sonra bu hadisəni yalnız kitablarda oxuyuruq. Əmr As isə İmam Əli (ə) haqqında şeir deyirdi[3], can verərkən – hər insanın

1. O, Qüreyşin (Bəni-Məxzum qəbiləsi) nüfuzlu və hörmətli şəxslərindən biri idi. Bilik və zirəkliyi dillər əzbərinə çevrilmişdi. Peyğəmbər (s) insanları İslama dəvət etdikdən sonra Qüreyş böyükləri Quran ayələrinə nə ad verəcəkləri barəsində sərgərdan qaldıqda, Vəlid Peyğəmbərin (s) hüzuruna getdi. Peyğəmbər (s) onun üçün "Səcdə" surəsinin ilk ayələrini tilavət etdikdə, Vəlid həmin ayələrdən təsirləndi. Qüreyşlilərin yanına qayıtdıqda, Əbu Cəhl onu təhrik etdi və o da Qüreyşə Quran ayələrinin yalnız sehr adlandıracağını bildirdi. "Müddəssir" surəsinin 11-30-cu ayələri bu macəraya işarədir. O, hicrətin əvvəllərində dünyadan getdi.

2. As oğlu Əmr ərəblər arasında zirək insan kimi tanınırdı. Əvvəllər Məkkədə İslamla müxalifətçilik, Peyğəmbəri-Əkrəmlə (s) düşmənçilik edirdi. Qüreyş öndərləri tərəfindən müsəlmanların Həbəşədən qaytarılması üçün yollanan heyətə başçı təyin edildi. Məkkə fəth edildikdən az sonra keçmiş borclarının bağışlanması şərtilə Peyğəmbəri-Əkrəmlə (s) beyət etdi. Ömərin xilafəti dönəmində Əmr ibn Asın sərkərdəliyi ilə Misir fəth olundu və Misirə hakim təyin edildi. Lakin Osman xilafətə gəldikdən sonra onu vəzifəsindən azad etdi. Əmirəlmöminin Əlinin (ə) xilafəti zamanı Müaviyəyə qoşuldu və onun hakimiyyətinin möhkəmlənməsində rolu böyük oldu. Əmr ibn As yenidən Misirə qayıtdı və Məhəmməd ibn Əbu Bəkri qətlə yetirib Misirə hakim oldu və ömrünün sonuna qədər (43-cü hicri-qəməri ili) orada qaldı.

3. Əmr Asın Müaviyə üçün oxuduğu "Cülcüliyyə" adlı qəsidəsi. Əllamə Əmini bu qəsidəni dəyərli "Əl-Qədir" əsərində qeyd etmişdir:

وأين الحصا من نجوم السما

intizarında olan o ən ağır saat və anlarda peşmançılıq hissi ilə deyirdi ki, dinimi Müaviyənin dünyasına satdım, Əlinin haqq olduğunu bildiyim halda, onunla döyüşdüm.[1] Mənim nəzərimcə, Əmr As İmam Əmirəlmöminin Əlinin (ə) vilayət məqamını on əsr bundan öncəki şiələrdən də daha dərin və daha dəqiq təsdiqləmişdi. Amma şiə idimi? Siz “yox” deyəcəksiniz. Nə üçün şiə deyil? Çünki Əmirəlmöminin Əlinin (ə) imamət məqamına etiqadın bır sıra öhdəlikləri vardır. İlk öhdəlik Əbu Süfyan oğlu Müaviyə ilə beyətdən boyun qaçırmaqdır. Müaviyə ilə əlbir olan və İmam Əli (ə) ilə döyüşən Əmr As şiə öhdəliklərinə və o Həzrətin imamətinə etiqadın insana yönləndirdiyi mükəlləfiyyət və məsuliyyətlərə əməl etmədiyindən şiə adlanmır.

Bu, düz sözdür, düz olduğu üçün sözümü özümüzə qaytarıb deyirəm: bu dəlilə əsasən, mən və siz şiə olduğumuza inanırıqmı? Buna arxayınıqmı? Biz şiə öhdəliklərinə əməl edirikmi? Quranın bu məsələ ilə bağlı sözü aydın və qətidir. (Bu məna həm bugünkü, həm də dünənki tilavətdə öz əksini tapıb.) Quran mütləq şəkildə imanın öhdəliklərinə əməl etməyənlərin imansız olduğunu açıq-aşkar bildirir. Buna əsasən, İslamda mötəbər (İslam və şiənin əqidəvi prinsiplərindən olan) iman artan və öhdəliyə sövq edən, əməli öhdəliklərlə birgə olan imandır. Əgər birgə deyilsə, onda nə nəticə, nə də dünyada qələbə və əmniyyət gözlə:

الَّذِينَ آمَنُواْ وَلَمْ يَلْبِسُواْ إِيمَانَهُم بِظُلْمٍ أُوْلَـئِكَ لَهُمُ الأَمْنُ وَهُم مُّهْتَدُونَ

***“İman gətirən və imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!”***[2] (Bu və bu kimi onlarla ayə məqsədimizə şahiddir.)

Zülm və zülmkarlığı qəbul edən iman təhlükəlidir. Əmələ səbəb olmayan iman insanı zəfərə yetirməz, qələbəyə zəmanət verməz, Allahın və təbiətin zərrəciklərinin yardımını ərməğan gətirməz, dünyəvi səadət və xoşbəxtliyi, bir sözlə, dünya və axirət Cənnətini vəd etməz.

Rahat həyat tərzindən baş qaldıran bihudə nəsihətlər bizə bunun əksini təlqin edir, insana həmişə rahatlığın və asanlığın ardınca getməyi tövsiyə

---

وأين معاوية من علي

“Dəniz (sahil) kənarındakı qumlar hara, səmanın ulduzları hara? Müaviyə hara, Əli hara?”

1. “Tarixi-Yəqubi” / Əbu Süfyan oğlu Müaviyənin dövrü / Əmr Asın Misirdə hakimiyyəti.

2. “Ənam” surəsi, ayə 82.

edir, iki işdən birini seçməkdə azad buraxılan insan ən asan, zəhməti az olanı seçməyə üstünlük verir. Bu, insanın xislətidir və adətən də belədir. Bu bəşəri xislət bir tərəfdən, bizə asan, xərci və zəhməti az olan yolu seçməyi aşılasa da, digər tərəfdən, iman Cənnətin əldən çıxdığını deyir. Həm rahat həyat tərzini, həm də Cənnəti əldən verməmək üçün bir düstur – bekar və tənbəl insanların Cənnətə getməsi ilə nəticələnən düsturlar – düzəltmək məcburiyyətində qalırıq. Həmin düsturları sona qədər anlamasaq da ondan əl çəkmirik, möhkəm-möhkəm yapışırıq. Yalnız Cənnətə getmədiyimiz zaman onların yanlış olduğunu anlayacağıq. Məncə, yenidən araşdıraq, görək, bu düsturlar doğrudanmı düzgündür, ya yox?

Quranın şübhəsiz və qəti mətninə, imamdan nəql olunan yüzlərlə doğru və möhkəm rərvayətə əsasən, əməlsiz və zəhmətsiz şəfaət olunmayacağıq. Tənbəllik, kədərlə dizinə qısılıb əməlsiz keçmiş və gələcəyin qüssəsini çəkmək kimi, mənfi və alçaq halımızla hələ şəfaətə də ümid bəsləyirik. (Qəm yemək yaxşıdır, amma tənbəlliklə yanaşı olmasın.) Halbuki, bir rəvayətə əsasən, İmam bizim beynimizdə dolanan fikrin tamamilə əksinə olaraq buyurur ki, yalnız çalışan və zəhmət çəkən insanalar bizim şəfaətimizə nail olacaqlar. Bu qəbildən olan rəvayətlərin sayı çoxdur.

İmam Səccad (ə) gecə yarısı məsciddə ibadətlə, raz-niyazla məşğuldur. Digər tərəfdən də, düzgün həyat tərzi keçirdiyini düşünən biri də haqqın və ədalətin hakimiyyətə çatması üçün dayanmadan əlləşir, gecənin yarısında da bəndəçilik yolunda çalışır, Allahın dərgahında təvazökarcasına dayanıb göz yaşı axıdır, münacat edir, özü də çox qəribə bir münacat (vaxt az olduğundan bu haqda danışmaq istəmirəm). Sonra da həmin zavallı, İmamın yanına gəlib deyir: “Ey Peyğəmbərin övladı, Sən niyə burdasan? Sən Allahın seçilmiş bəndələri olan o ata-anan və cəddinlə ağlamağı bizə tapşır. Sən ki, Peyğəmbərin (s), İmam Əlinin (ə), Həzrət Fatimeyi-Zəhranın (ə) və İmam Hüseynin (ə) övladısan, axı sən niyə ağlayırsan?” İmam Səccad (ə) Allah dərgahında bəndəçilik, ibadət, dua, raz-niyaz və ağlamaq tezisini müdafiə edib ruhun saflaşması istiqamətində daha çox əzmkarlıq göstərmək və Allaha daha çox bağlanmaq ruhiyyəsini gücləndirməyi tövsiyə etsə də o, avam şiənin zehnindən bu səhv düşüncəni də çıxarır və buyurur: “Sən nə danışırsan? دَعْ عَنِّی حَدِيثَ أَبِی وَ أُمِّی و جَدِّی – atam, anam və cəddim (sən filankəsin

övladısan) söhbətini at bir qırağa, الْجَنَّةُ لِمَنْ أَطَاعَهُ – "*Cənnət itaət edənlərindir.*"[1] İman və əməl sahəsində İslamın və şiənin tezisi budur!

Nə üçün bu məsələyə bu qədər təkid edirəm? Çünki uzun illər və əsrlər çalışmış, müsəlmanların üzərində işləmiş və onları qane etmək istəmişlər ki, müsəlman və mömin olmaq üçün pak əmələ ehtiyac yoxdur, pak qəlbə sahib olmağın yetər. Bizim rahatçılıq istəməyimiz, səhlənkarlıqlarımız, Allahın Cənnətinə kiçik bir əməllə sahib olmaq istəyimizlə bağlı ağız dolusu iddialarımız, yanlış düşüncələrimiz və qərəzsiz nadanlıqlarımız bu xain və muzdur əllərə xidmət etmişdir.

Bu təfəkkür Peyğəmbərdən (s) qısa müddət sonra yarandı və geniş yayıldı. Əbu Süfyan oğlu Müaviyənin işi lap qəribədir. Ondan dinsiz birini tanıyırsınızmı? Ondan alçağını tanıyırsınızmı? İslam tarixinin ilk çağlarında ondan çirkinini tapmaq olarmı? Bir gün gördülər ki, Müaviyə yaxınlarına vəsiyyət edir: "Mən öldükdən sonra filan yerə qoyduğum iki kiçik paketi kəfənimin içinə qoyarsınız." Soruşdular: "Paketlərin içindəki nədir? " Dedi: "Biri Peyğəmbərin (s) libasının bir parçasıdır. Digəri də bir gün Peyğəmbər (s) dırnaqlarını tutur, saçını qırxırdı, mən də onun dırnaq və saçından bir neçəsini götürüb saxladım; onu da kəfənimə qoyarsınız ki, Allah məni bağışlasın." Baxın, Müaviyə də Peyğəmbərin (s) şəfaət edəcəyi ümidi ilə fəaliyyət göstərir, işləyir, amma necə? Peyğəmbərin dırnaq və saçından bir neçəsini götürüb saxlamaqla! Allah rəhm eləsin, insan asan və zəhmətsiz işlərdə və öz mənfətinə uyğun gəldikdə, Qurana qulaq asır, ehtiram göstərir.

Hər halda, uzun illərdən bəri, beyinlər üzərində işləyib çalışırlar ki, qəlblər İslam və imana əməlsiz bağlansın. Haçandan bəri bunu təqdim etmək üçün əllərindən gələni əsirgəmirlər. Quranın isə həmişə nidası uca, canlı və sevindiricidir: وَمَا أُوْلَئِكَ بِالْمُؤْمِنِينَ – ***"Beləlәri mömin deyillər."***[2] (Bu gün, ya da sabahkı tilavətdə qeyd edəcəyik ki,) bu əməlləri yerinə yetirməyənlər mömin deyillər, imansızdırlar. Mömin və sizinlə birgə olanlar, Allahın mərhəməti və müsəlmanların qardaşlığına layiq görülənlər Allah yolunda və iman əsasında qətiyyətlə çalışanlar və əməl edənlərdir. Quranın məntiqi budur!

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا ارْكَعُوا وَاسْجُدُوا وَاعْبُدُوا رَبَّكُمْ وَافْعَلُوا الْخَيْرَ لَعَلَّكُمْ تُفْلِحُونَ

---

1. "Mənaqibi-ali Əbitalib", "Əbu Muhəmməd Əli ibn Hüseynin imaməti" bölməsi, "Onun zahidliyi" fəsli.

2. "Nur" surəsi, ayə 47.

***“Ey iman gətirənlər! (Allah dərgahında) rüku edin, səcdəyə düşün, Rəbbinizə ibadət (və bəndəçilik) edin və yaxşı işlər görün ki, (uğur qazanıb) səadətə yetəsiniz!”***[1]

Əgər bu əməlləri yerinə yetirsəniz, müvəffəqiyyət qazanar, nicat tapar və səadətə yetişərsiniz. Lakin, ey möminlər, rüku etmədikdə, səcdəyə qapanmadıqda, Allaha bəndəçilik etmədikdə və yaxşı işlərlə məşğul olmadıqda, qurtuluş və səadət olacaqmı? Cavabı sizin öhdənizə buraxıram.

وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ

***“Allah yolunda layiqincə cihad edin.”***

Qələbəyə nail olmaq üçün nə edir, nə qədər çalışır, nə qədər canfəşanlıq edirsiniz? Baxın, görün, Allahın razılığı üçün nə qədər çalışırsınız? Öz işlərimiz ortalıqda, Allahın işləri isə haşiyədə qalıb. Bizim həyatımızla bağlı ümumi vəziyyətimiz budur. Bütün işlərə can atırıq; öyrənirik, öyrədirik, qazanırıq, çalışırıq, idman edirik, bir sözlə, bütün bunlar həyatımızın əsas hissəsini təşkil edir, Allahın (razılığı yolundakı) işlər isə ikincidərəcəlidir, hələ ikincidərəcəli olub-olmaması da sual altındadır. Amma diqqətlə baxdıqda, Allah üçün və Allah yolunda görüləcək işlərin həcmi, keyfiyyəti, tərifi, davamlılığı və sabitliyi Allahın əzəməti və böyüklüyü ilə müqayisədə bütün işlərdən böyük, möhkəm, tərifəlayiq və davamlı olmalıdır.

وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ هُوَ اجْتَبَاكُمْ

***“Allah yolunda layiqincə cihad edin. O, (ey İslam ümməti,) sizi seçdi!”***

“Seçdi” dedikdə, nə nəzərdə tutulur? Yəni, sizi dəyərli inci tək seçib bir kənara qoyaraq əzizləmişdirmi? Günah etsəniz, səhvə yol versəniz, əmrlərinə qarşı çıxsanız belə, Cənnətin sizə həsr olunduğunumu buyurmuşdur? Bu sözü yəhudilər də özləri ilə bağlı iddia edirdilər; onlar yanılırdılar, onlar kimi düşünən hər bir müsəlman da yanılır. Quran özlərini Allahın sevimliləri, dostları və hətta övladları bilən yəhudiləri şiddətlə qınayır, məzəmmət və xəbərdarlıq edir ki, Allahın sevimlisi və dostu olmaq Onun əmrlərinə təslim olmağın girovundadır. Düzdür, Biz sizi seçmişik, keçmişdə Bəni-İsraili də seçmişdik. Allah İslam ümmətini seçdi, İslamdan öncə isə Bəni-İsraili seçmişdi. Hər iki seçimin növü eynidir; ən böyük iş üçün ən hazırlıqlı cəmiyyətin seçilməsi

1. “Həcc” surəsi, ayə 77.

mənasındadır.

Siz on nəfər içərisində hansının qətiyyətli, fiziki hazırlıqlı, çevik, qolu güclü və boylu-buxunlu olduğunu görsəniz, “Mən sizi bu iş üçün seçmişəm” deyib, bu ağır yükü ona həvalə edəcəksiniz. O da irəli keçəcək, əgər yükü qaldıra bilsə, yəni güclü olduğu halda o işi görmək üçün iradəli olsa, dostlarını geridə qoyacaq, seçilib fərqlənəcək. Həmin yükü qaldırmadıqda isə daha da bədbəxt, daha da xar olacaq. Ona deyəcəklər ki, ay bədbəxt, başqalarının gücü çatmadığından, onlara bir söz demədik, sənə isə dedik, amma yerinə yetirmədin. Bəni-İsrail ümməti kimi, İslam ümmətinin seçilməsi də bu qəbildəndir. Bəni-İsrail öz zamanında, müsəlmanlar da öz zamanında İslam əmanətini çiyninə almaq, bəşərə rəhbərlik etmək və doğru yolu göstərmək üçün ümmətlərin ən layiqlisi idilər. Onlara bu əmanət tapşırıldı. Çiyinlərinə götürdülərmi? Bu əmanəti çiyninə alıb məqsədə çatdıran “ən ləyaqətli”, “ən səlahiyyətli müsəlman” adını qazanacaq. Əks-təqdirsə isə yəhudi cəmiyyəti kimi, əmanətə sahib çıxmadığı üçün onların taleyinə düçar olacaq:

وَضُرِبَتْ عَلَيْهِمُ الذِّلَّةُ وَالْمَسْكَنَةُ وَبَآؤُوْاْ بِغَضَبٍ مِّنَ اللَّه

***“Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular.”***[1]

Bu, onların dünyəvi əzabı idi, axirətə gəldikdə isə مَأْوَاهُمْ جَهَنَّمُ – ***məskənləri Cəhənnəmdir.***

هُوَ اجْتَبَاكُمْ

***“O, (bu yükü götürmək üçün) sizi seçdi!”***

وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ

***“Dində sizin üçün heç bir çətinlik (və sıxıntı) yeri qoymadı.”***

Bu yük çox da ağır deyil, onu qaldırmağın elə də ağrı-acısı yoxdur, dözüləsi yükdür.

وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ

***“Dində sizin üçün heç bir çətinlik (və sıxıntı) yeri qoymadı.”***

مِّلَّةَ أَبِيكُمْ إِبْرَاهِيمَ

***“(Bu din) atanız İbrahimin dinidir.”***

هُوَ سَمَّاكُمُ الْمُسْلِمينَ مِن قَبْلُ وَفِي هَذَا

***“Allah bundan əvvəl də, indiki zamanda da sizi*** “***müsəlman***” ***(Allaha təslim olan) adlandırdı.”***

وَمِن ذُرِّيَّتِنَا أُمَّةً مُّسْلِمَةً لَّكَ

1. “Bəqərə” surəsi, ayə 61.

***"(Ey Rəbbimiz!) ...Nəslimizdən yetişənləri müsəlman (Sənə təslim olan) ümmət et."***[1]

Bu, "Bəqərə" surəsində qeyd olunan Həzrət İbrahimin duasıdır və sözügedən məsələyə işarədir:

هُوَ سَمَّاكُمُ الْمُسْلِمينَ مِن قَبْلُ وَفِي هَذَا

***"Allah bundan əvvəl də, indiki zamanda da sizi müsəlman (Allaha təslim olan) adlandırdı."***

Bu yükü sizə həvalə etdik, bunun üçün sizi seçdik. Nə üçün? Hansı məqsəd üçün? Hansı məqama çatmağınız üçün?:

لِيَكُونَ الرَّسُولُ شَهِيدًا عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاء عَلَى النَّاسِ

***"Peyğəmbər sizə, siz də insanlara şahid olasınız."***

Sizin vasitəsiz məsulunuz Peyğəmbər, bütün bəşəriyyətin məsulu isə sizsiniz; beləcə, Peyğəmbər sizə, siz də bəşəriyyətə şahid, gözətçi və nəzarətçisiniz. Bəşərin rəhbərliyi, idarəçiliyi sizin əlinizdədir, bu karvanın gözətçisi sizsiniz, ey karvan rəhbərləri, yatmayın!

لِيَكُونَ الرَّسُولُ شَهِيدًا

***"Beləcə, Peyğəmbər sizə şahid və nəzarətçi olsun.***

عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاء عَلَى النَّاسِ

***"Siz də bəşəriyyətə, insanlara şahid, gözətçi və nəzarətçi olasınız."***

Məsuliyyətiniz ağır olduğu, sizə Allah tərəfindən ağır bir iş həvalə olunduğu üçün tənbəllik etməyin.

فَأَقِيمُوا الصَّلَاةَ

***"Namazı bərpa edin."***

Yenə təklif, yenə öhdəkarlıq. Quru və boş imanmı? Xeyr! فَأَقِيمُوا الصَّلَاةَ – ***"Namazı bərpa edin."***

وَآتُوا الزَّكَاةَ

***"Zəkat verin."***

وَاعْتَصِمُوا بِاللَّهِ

***"Allaha (Onun ayininə) sığının."*** Allaha təvəkkül edin, heç kəsdən, heç bir gücdən qorxmayın. Bütün yollar üzünüzə bağlı olduqda belə, Allahın lütfü və yardımından naümid olmayın.

هُوَ مَوْلَاكُمْ

***"Odur sizin mövlanız (rəhbəriniz, gözətçiniz və cəbhə yoldaşınız)."***

(İnşallah, "vilayət", "mövla" və bu qəbildən olan ifadələr haqqında geniş bir bəhs açacağam. "Əllahu vəliyyulləzinə əmənu" (***Allah iman***

1. "Bəqərə" surəsi, ayə 128.

***gətirənlərin vəlisidir),*** “Huvə məvlakum” ***(Odur sizin mövlanız),*** *“Əli (ə) möminlərin mövlasıdır”, “Möminləri Əlinin (ə) vilayət xəttində olmalıdırlar”* ifadələrindəki “mövla” və “vəli” sözləri nə deməkdir? “Vilayət” sözü dərin məna kəsb edir. Bir gün bu sözü Quran ifadələrinə istinad etməklə şərh edəcəyəm, inşallah!)

فَنِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ

***“,O nə yaxşı rəhbər, necə də gözəl yardımçıdır!”***

“Ənfal” surəsinin son bir neçə ayəsində də imanın öhdəliklərindən söz açılır. İmanın öhdəlikləri dedikdə, zəkat vermək, namaz qılmaq, Allaha sığınmaq kimi əməllər nəzərdə tutulur ki, onun bir hissəsi “Həcc” surəsində, bir hissəsi də indi qeyd edəcəyimiz ayələrdə göstərilmişdir,:

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ

***“Həqiqətən, iman gətirən və hicrət edənlər...”***

“Hicrət edənlər” kimlərdir? Məsələn, Məşhəddən çıxıb Tehranda qalmaqmı? Bir şəhərdən başqa bir şəhərə köçməkmi? Xeyr! Əvvəla, hicrət etmək hədəfə çatmaq, İslam cəmiyyətinə qatılıb onun öhdəliklərini qəbul etmək üçün hər bir şeyi birdəfəlik qurban vermək mənasındadır. Məkkədə mal ilə dolu dükanı Məkkə oğruları və quldurlarının ixtiyarında qoyub çıxmaq; İslamı qəbul etməyən zövcəni Məkkədə tək-tənha qoymaq, onu qəlbindən çıxarmaq və onunla bağlı ailə xatirələrini unutmaq; Məkkədən Mədinəyə köçərkən qanlı düşməninizə çevrilən atanız, yaxud oğullarınız, yaxud da əzizlərinizdən birini tərk etmək “hicrət” adlanır. Hicrət edənlər bütün bu məhrumiyyət və ağrı-acıları canla-başla qəbul etmişdilər.

Digər tərəfdən də, hicrət, yəni böyük İslam cəmiyyəti adlı sarayın ucalması üçün bir kərpicə yardım etmək deməkdir. Fərz edin ki, burada bir ev tikmək istəyirlər, onun üçün də yüz ədəd ağac, min ədəd kərpic və ya daşa ehtiyac vardır. Hər kəs özü ilə bir ədəd ağac, ya kərpic, ya daş gətirsə, bu möhtəşəm saray tikilib başa çatacaq. Mədinədə İslam cəmiyyəti qurulmuşdu, fəal, zəhmətkeş, enerjili, təcrübəli, İslamı anlayan, bu yolu sevən və ona etiqad bəsləyən, qəlbi imanla dolu mömin qüvvələrə ehtiyac var idi. Məkkədən hicrət edənlər sevgi dolu xatirələrini, rahatlıqlarını, rifah və eyş-işrətlərini (Məkkədə) qoyub Mədinəyə gəldilər. Həqiqətdə, onlar öz payları qədərində belə bir cəmiyyətin təşkili üçün böyük addım atmışdılar, odur ki, onların bu addımı qiymətli və həlledici rol oynayırdı. İndi isə baxın, görün, bu

ayələrdə nə buyurulur:

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ

***"Həqiqətən, iman gətirənlər, hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər (mühacirlər) və (evlərindən didərgin düşmüş, evsiz-eşiksiz qalmış bu çarəsiz mühacirlərə) sığınacaq verib yardım edənlər (ənsar) – məhz onlar bir-birinin dostudurlar."*** Onlar bir cəbhənin üzvləri, hamılıqla bir qüvvə, bir divar və bir binanın kərpic və daşlarıdırlar.

مَثلُ المؤمنين فيما بينهم كَمَثل البُنيان يُمسك بَعضُه بعضاً، أو يشُدُّ بعضُه بعضاً

*"Möminlər öz aralarında bir binaya bənzəyirlər; onun bəzi hissələri (materialları) bəzi hissələrini qoruyur və möhkəmləndirir."*[1]

Hər bir mömin binada bir-birinə yapışan hər bir kərpic kimidir; biri digərini tamamlamış və qoruyub-saxlamışdır. Üst-üstə hörülmüş bir kərpici min bir zəhmətlə divarın ortasından çıxardıqda, ətrafındakı ona yaxın kərpic də çıxıb tökülür, bir kərpic on kərpici, o on kərpic də öz payında bu bir ədəd kərpici qoruyub-saxlayırdı. بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***möminlər bir-birinə bağlıdırlar.***

Bu ayəyə diqqət yetirin: وَالَّذِينَ آمَنُواْ – İman gətirənlər (və qəlbən inananlar), lakin وَلَمْ يُهَاجِرُواْ – rahat və bağlı-bağatlı evlərindən ayrıla bilməyənlər hicrət etmədilər. (Hələ onların evləri bağlı-bağatlı da deyildi.) Hicrət etməyənlər də iman gətirmişdilər, lakin imanın öhdəliklərinə əməl etmirdilər. Onlar necə insanlardır? مَا لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ – Sizin heç bir şeydə onlarla bağlılığınız yoxdur, onlar sizdən deyildirlər, sizinlə onların arasında dostluq əlaqəsi qeyri-mümkündür. Haçana qədər? حَتَّى يُهَاجِرُواْ – Hicrət edənə, imanın öhdəliklərini yerinə yetirənə qədər. Dünyada da quru və boş imanın faydası yoxdur, İslam cəmiyyətində də təsirsizdir. Axirətə gəldikdə isə məsələ aydındır: مَا لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ حَتَّى يُهَاجِرُواْ – Onlar hicrət etməyincə, sizin heç bir şeydə onlarla bağlılığınız yoxdur.

Bundan bir ayə sonra isə belə buyurulur:

وَالَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُولَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا

***"İman gətirib hicrət edənlər, Allah yolunda cihad edənlər (mühacirlər) və (Peyğəmbərlə mühacirlərə) sığınacaq verib kömək***

1. "Əvaliul-ləali", 1-ci bölüm, hədis 107.

***edənlər (ənsar) – məhz onlar həqiqi möminlərdir!”***[1]

Bunlardan qeyriləri kimlərdir? Yalançı möminlər. Ayədən anlaşılan budur!

1. “Ənfal” surəsi, ayə 74.

## Xülasə

**Bazar günü – Ramazan ayının 5-ci günü**

# ARTAN VƏ ƏMƏLİ ÖHDƏLİKLƏRLƏ BİRGƏ OLAN İMAN

İman, yalnız tam bir fikri qəbul etməkdən ibarətdirmi?

İman həyatdakı roluna və əməllə nəticələndiyinə görə mötəbərdirmi?

Quran imanı həmişə əməllə birgə və məqsədə çatmaqda doğru yolu ötmək üçün stimul olaraq diqqət mərkəzində saxlamış və onlarla ayədə əməllə yanaşı olan imanın dünya və axirətdəki mükafatını vurğulamışdır. Quranın sözünə qulaq asaq və onun üzərində düşünək:

“Həcc” surəsinin son ayələri:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا ارْكَعُوا وَاسْجُدُوا – ***“Ey iman gətirənlər! (Allah dərgahında) rüku edin, səcdəyə düşün.”***

وَاعْبُدُوا رَبَّكُمْ وَافْعَلُوا الْخَيْرَ لَعَلَّكُمْ تُفْلِحُونَ – ***Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, uğur qazanasınız!***

وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ – ***Allah yolunda layiqincə cihad edin.***

هُوَ اجْتَبَاكُمْ وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ – ***O, sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı.***

مِّلَّةَ أَبِيكُمْ إِبْرَاهِيمَ – ***Bu, atanız İbrahimin (metodu və) ayinidir.***

هُوَ سَمَّاكُمُ الْمُسْلِمينَ مِن قَبْلُ وَفِي هَذَا – ***O, bundan əvvəl də, indiki zamanda da sizi müsəlman adlandırdı ki,***

لِيَكُونَ الرَّسُولُ شَهِيدًا عَلَيْكُمْ وَتَكُونُوا شُهَدَاء عَلَى النَّاسِ – ***Peyğəmbər sizə, siz də insanlara şahid (və nəzarətçi) olasınız.***

فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ – ***Namazı bərpa edin və zəkat verin.***

وَاعْتَصِمُوا بِاللَّهِ – ***Allaha (Onun ayininə) sığının.***

هُوَ مَوْلَاكُمْ فَنِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ – ***O, sizin rəhbəriniz (və haminiz)dir. O***

***nə yaxşı rəhbər, necə də gözəl yardımçıdır!***

Qələbə və müvəffəqiyyət, seçilmək, bəşəriyyətə rəhbərlik və nəzarət, nəhayət, Allahın himayəsi və yardımına şamil olmaq əməllə yanaşı və çalışqanlığa səbəb olan dini-məzhəbi imanın ən mühüm xüsusiyyətləridir.

Aşağıdakı ayə də imandan yaranan əməlrin digər bir qismini xatırladır:

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ – ***Həqiqətən, iman gətirənlər, hicrət edənlər (Allaha və İslam cəmiyyətinin təşkilinə görə ev-eşiklərindən əl çəkənlər), Allah yolunda malları və canları ilə cihad edənlər,***

وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ – ***sığınacaq verən və yardım edənlər,***

أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***məhz onlar bir-birininə bağlıdır və bir cəbhədədirlər.***

وَالَّذِينَ آمَنُواْ وَلَمْ يُهَاجِرُواْ مَا لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ حَتَّى يُهَاجِرُواْ – ***İman gətirib hicrət etməyənlər (Bir çox öhdəliklərdən ibarət olan İslam cəmiyyətinə üzv olmayanlar) isə, hicrət etməyincə, sizin heç bir şeydə onlarla bağlılığınız yoxdur.***

(“Ənfal” surəsi, 72-ci ayənin bir hissəsi.)

## BEŞİNCİ MƏCLİS

## İMAN VƏ ÖHDƏLİKLƏRİN İCRASI

Bazar ertəsi – 1974/09/23
Ramazan ayının 6-ı.

بسم الله الرحمن الرحيم

إِنَّمَا كَانَ قَوْلَ الْمُؤْمِنِينَ إِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ أَن يَقُولُوا سَمِعْنَا وَأَطَعْنَا وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ. وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ وَيَخْشَ اللَّهَ وَيَتَّقْهِ فَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ

***“Aralarında hökm (və qəzavət) etmək üçün Allahın və Peyğəmbərinin yanına çağırıldıqları zaman möminlərin sözü ancaq: “Eşitdik (anladıq) və itaət etdik!” – deməkdən ibarətdir. Hədəf və səadətə çatanlar da məhz onlardır! Allaha və Onun Peyğəmbərinə itaət edənlər və Allahdan qorxub çəkinənlər – məhz beləəri uğura çatanlardır.”***

“Nur” surəsi, ayə 51-52.

İmanla bağlı bəhsdə bu məsələ də önəmlidir; belə ki, mömin şəxsin öhdəlikləri ötəri və könüllü deyil. Özünü "mömin" adlandıran şəxs belə olmamalıdır. Şəxsi mənafeyini və təcavüzkar marağını güdən şəxs mömin ola bilməz. İmanın adından sui-istifadə edən və özününümayişlə məqsədinə çatan şəxs iman və əməldən danışa bilməz. Həmçinin, mömin şəxs belə olmalı deyildir ki, iman və əməli onun şəxsi mənafe və təcavüzkar marağını ödəmədikdə, imandan, onun öhdəliklərinə əməl etməkdən və İslamın adından da üz çevirsin. Biz Quranın müxtəlif ayələrində söz açıldığı bu xüsusiyyəti mənfəəttələb insanlara nisbət verdik və onların bu xüsusiyyətə sahib olduğunu qeyd etdik. Bütün dünya xalqları mənfəttələbdir. Kim öz ziyanını istəyər? Lakin biz mənfəttələb dedikdə, öz şəxsi mənafeyinə görə dünya mənfəətlərini fəda etməyə hazır olanları – təcavüzkar mənfəəttələbləri nəzərdə tuturuq.

Onlar iman və əməli şəxsi mənafeyə xidmət etdiyi vaxta qədər sevir, imanın və özününümayiş məqsədilə zahirdə yerinə yetirdiyi əməllərin adından bəhrələnirlər. İslam belələrini mömin adlandırmır. Quran ayəsində onların imansız olduqları açıq-aşkar vurğulanır. Odur ki, biz imanla bağlı bəhsimizdə (İslam təfəkkürünün tanınması ilə bağlı silsilə bəhslərin başlanğıcında) imanın əməl və öhdəliklərlə birgə olduğu qənaətinə gəldik. Əgər imanın öhdəlik və məsuliyyət hissindən kənar qalan, öhdəliklərə əməl etməyən şəxs, Quran ifadəsi ilə desək, əməlisaleh deyilsə, imansızdır və imanın nəticələri abstrakt, quru və yalnız zehndəki imana aid deyil; buna rəğmən, nəzərdən qaçırmaq olmaz ki, öhdəlik həmişəlik və hərtəfli olmalıdır.

Mömin olan, mömin qalmaq istəyən və möminliyin faydalarından bəhrələnən şəxs Allahın bütün hökmləri qarşısında öhdəlik hiss etməlidir. Bu öhdəlik odur ki, hamı Allaha bəndə olmalı, bacardıqca,

insanları bəndəçiliyə dəvət etməlidir. Peyğəmbərə (s) iman gətirmək və onun risalətinə şəhadət verməyin məsuliyyəti Peyğəmbərin (s) ardınca və onun yolunda hərəkət etməkdir. Əgər mən bunu iqrar və etiraf edib, bu məsuliyyəti qəbul edirəmsə, Peyğəmbərin (s) əxlaqı və həyat yoluna qarşı olan kiçik bir hadisə ilə üzləşdikdə, həqiqi müsəlman rolunu oynayıb sabitqədəmliklə və tam varlığımla ona əməl etməli, bununla bərabər peyğəmbərlik və risalət yoluna qarşı olan daha böyük və daha ağır bir hadisə ilə üzləşdikdə, öz məsuliyyətimi unutmamalıyam. Necə deyərlər:

أَسَد عَلَيَّ وَفِي الحُروبِ نُعامَةٌ
رَبداءُ تَنفَرُ مِن صَفيرِ الصّافِرِ

"Mənim üçün şir kimisən, döyüşlərdə isə bir fit səsi ilə qaçıb aradan çıxan dəvəquşunu xatırladırsan."[1]

Zəif və günahı az olan insanlara qarşı şirsən və şir kimi nərə çəkirsən, amma böyük günah sahibləri və pislikləri yaradanlar müqabilində susur və döyüşməkdən vaz keçirsən. Bu, el arasında işlənən bir ərəb şeridir. Deyirlər ki, bizə çatanda şir olursan, döyüşdə əli qılınclı və boynuyoğun düşmənlə üzləşdikdə isə dəvəquşuna dönürsən. Dəvəquşu kiminləsə döyüşərmi? Heç onun caynağı və dişləri varmı?

Öhdəlik , mövsümi deyil, müəyyən zamana və fərdə xas deyil, ümumi xarakter daşıyır, həmişəlik və hər yerə aiddir. Qurani-Kərimdə yəhudlərin adı çəkilir; bir zaman "qardaşlarımızı əzizlərimiz kimi qorumalıyıq" deyənlər ortalığa şəxsi mənafeləri gəldikdə, həmin qardaşlarını döyüş meydanlarında öldürür, əsir tutur, qul kimi satır və pullarını mənimsəyirdilər. Qurani-Kərimdə Bəni-İsrail məzəmmət edilərək buyurulur:

أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ

***"Aya, siz kitabın bir hissəsinə iman gətirib, digər hissəsini inkar edirsiniz?"***[2]

Dinin rahat, sadə və zəhmətsiz hökmlərinə iman gətirir, digər hökmlərini isə danır və inanmırsınız. Məgər bu mümkündürmü? Məgər bir mənbədən qaynaqlanan iki söz arasında fərq qoymaq doğrudurmu?

Bizim məsum imamımız İmam Baqirdən (ə) mötəbər şiə kitablarında

---

1. "Bəlağatun-nisa", səh.173.
2. "Bəqərə" surəsi, səh.85.

və "Kafi"[1] kitabının "Yaxşılığa dəvət və pislikdən çəkindirmə" bölməsinin başlanğıcında nəql olunan məşhur bir hədis var. Nəzərimcə həmin bölmənin ilk hədisidir. Həmin hədisdə deyilir ki, namaz və oruc kimi rahat və zəhmətsiz əməllərə üz gətirən həmin insanlar "əmr be məruf" (yaxşılığa dəvət) və "nəhy əz münkər" (pislikdən çəkindirmə) kimi zahirdə zərərli və başıbəlalı əməllərə arxa çevirir, etina etmirlər. Bu hədisdə İmam (ə) onların mömin, yaxud, fasiq, yaxud da münafiq olub-olmadığından söz açmasa da Quran ayəsində şəxsi mənafelərinə görə dini istəməyənlərin mömin olmadığı açıq-aşkar buyurulur.

Onlar bir macərada haqqın öz xeyirlərinə olduğunu gördükdə, Peyğəmbərin (s) rəhbərliyi və qəzavətinə razılıq verir, zərərlərinə tamamlandıqda və Peyğəmbərin (s) onların əleyhinə hökm yürüdəcəyini bildikdə isə o Həzrətin rəhbərlik və qəzavətinə qarşı çıxırdılar. Qurani-Kərimdə belələrinə buyurulur: "Qorxdunuzmu? Şəkkə düşdünüzmü? Dinin doğruluğu və haqq olduğunda tərəddüd etdinizmi?" Ayənin bir hissəsi belədir:

أَمْ يَخَافُونَ أَن يَحِيفَ اللَّهُ عَلَيْهِمْ وَرَسُولُهُ

***"Yaxud Allahın və Peyğəmbərinin onlara zülm edəcəklərindən qorxurlar?"***[2]

Hər bir hadisədə, hər bir məsələdə və həyatın hər bir sahəsində mömin məsuliyyətlidir və şəxsi mənafeyini güdmür.

Əbu Süfyan oğlu Müaviyə lazım gəldikdə, Quranı belə vərəq-vərəq nizələrə keçirir, bu əhvalatı eşidib bilirsiniz. Özlərinə sərf etdikdə, Qurandan, namazdan və dindarlıqdan dəm vurur; Əli aşiqinin qəlbini ələ almaq üçün Əmirəlmöminin Əlidən danışır, Əlinin fəzilətlərindən söz açdıqda, timsah göz yaşları[3] axıdırlar. Eşitmisiniz, bir gün Müaviyə

---

1. Şiənin dörd mötəbər kitabının məcmusuna "Vafi" deyilir və müəllifi Mərhum Feyz Kaşanidir. O (1007-1091 h.c.) Molla Möhsin Feyz kimi tanınır, fəqih və hədisşünas alim, mütəfəkkir və filosof olmuşdur. Molla Məhəmmədtəqi Məclisi, Şeyx Bəhayi, Mirdamad, Mirfendreski, Molla Sədra kimi böyük ustad və filosofların hüzurundan bəhrələnmişdir. O, həcc səfərindən qayıtdıqdan sonra, Kəhək kəndinə getmiş və həmin kənddə məskunlaşan Molla Sədradan bəhrələnmişdir. Molla Sədra vəfat etdikdən sonra Kaşan şəhərinə köçmüş, təlim və tədris işləri ilə məşğul olmuşdur. "Təfsiri-Safi", "Vafi", "Elmül-yəqin fi üsulid-din" və "Muhəccətul-bəyza" onun məşhur əsərlərindəndir.

2. "Nur" surəsi, səh.50.

3. Yalançı məhəbbət, yalançı və riyakarcasına göz yaşları.

oturmuşdu. Abdullah ibn Abbas və başqaları da onun qarşısında əyləşmişdilər. Birinə dedi ki, filankəs, Əlinin fəzilətindən nə bilirsən? O dedi: “Amandayammı?” Dedi: “Bəli, amandasan!” Sonra həmin şəxs Əlinin (ə) fəzilətlərindən danışdıqca, Müaviyə hönkürtü ilə ağlamağa başladı. [1] Lazım gəldikdə Əlinin məhəbbətindən dəm vurur, lazım gəldikdə özünü Allahın xas bəndəsi adlandırır, bir qrup müsəlmana hökmranlıq etmək üçün onların özünə qarşı sevgisini cəlb etmək və hissləri ilə oynamamaq məcburiyyətində qaldıqda isə insanların sevimlisi olan İslam və Qurandan dəm vurur.

Bunlar dinin onun xeyrinə, şəxsi mənafeyinə və təcavüzkar maraqlarına aid hissələrindən ibarətdir. Amma dinin və onun hökmlərinə əməl etməyin öz zərərinə tamamlanacağı hissələrdə, sanki, dini tanımır. Ədalətdən, ictimai ədalətin bərpasından, məzlum və məhrum təbəqəni düşünməkdən, qohumlarla yadlar arasında bərabərlik prinsipinə əməl etməkdən, cəmiyyətin təfəkkür səviyyəsini yüksəltmək kimi nübuvvət və peyğəmbərliyin hədəfindən söz düşdükdə, Müaviyə dindən xəbərsiz kimi susub qalır, dini öhdəçilik belə hiss etmir. Mən Müaviyəni misal çəkdim, sınaqdan keçirmək üçün bu sahədə özümüzü də misal çəkə bilərik. Amma pis insan olması hamıya aydın olan bir şəxsi misal çəkmək istədim.

Demək istəyirəm ki, əgər biz dinin bir hissəsini qəbul edib, digər hissəsini qəbul etmədiyimiz halda, özümüzü “mömin” adlandırsaq, onda, öncə Müaviyəni mömin hesab etməliyik. Çünki Müaviyə də belə idi; dinin bəzi hökmlərini zahirdə diqqətlə yerinə yetirirdi. Axı dəfələrlə qeyd etmişəm ki, Müaviyə namazını ilk vaxtda və camaatla qılırdı, özü də imam-camaat idi. Camaat namazının imam-camaat üçün fəzilət və savabı daha çoxdur. Allah tərəfindən imam-camaata verilən savab məmumlara (iqtida edənlərə) verilən savabdan çoxdur. Bu barədə rəvayət də var. Buna görə də, Müaviyə imam-camaat idi.

Bəli, belə bir din ləzzətbəxşdir, zərərsizdir, sevimlidir, sevgini cəlb edəndir, diqqət çəkəndir – bütün bunlar yaxşıdır. Amma Peyğəmbərin (s) insanların təlim-tərbiyəsi üçün göndərildiyini deyən dinə gəldikdə isə (bu dinə yox, şəxsi maraqlara üstünlük verilir):

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ

---

1. “Biharul-ənvar”, “Əl-fitənu vəl-mihən” başlığı, Osmanın ölümündən sonrakı hadisələr.

الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُواْ مِن قَبْلُ لَفِي ضَلالٍ مُّبِينٍ

***“Allah möminlərə minnət qoydu. Çünki onların öz içərisindən özlərinə (Allahın) ayələrini oxuyan, onları saflaşdıran, onlara kitabı (Quranı) və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.)”*** [1]

Allah Peyğəmbəri göndərdi ki, bəşəriyyətə təlim versin, insanların şüur və düşüncələrini çiçəkləndirib gücləndirsin. İnsan əqlinin mübarizə apardığı hər bir şeylə din də mübarizə aparır; insanın gözü, əqli, şüuru və dərkinin qarşısını alan hər bir şeyin təcavüzünə mane olur, hər hansı vasitə ilə düşünüb dərk etməkdən saxlayan heç bir amilin yaşamasına imkan vermir.

Din budur; xalqların şüur və düşüncəsini alan din, din deyil və bizim Quranımızda həmin dinin nişanələrindən əsər-əlamət yoxdur. Bizim Peyğəmbərimizin və digər din rəhbərlərimizin əməllərində də həmin nişanələr görünmür. Küfrlə döyüşən İslam həmin dinlə də döyüşür. İslamın böyük rəhbəri Əmirəlmöminin Əli (ə) buyurur:

وَيُثِيرُوا لَهُمْ دَفَائِنَ الْعُقُولِ

*“Allah peyğəmbərləri göndərdi ki, (insanların içərisindən) əql xəzinələrini çiçəkləndirsinlər.”* [2]

Deməк, bu xəzinələri dəfn edən hər bir şey insanın əql və düşüncə qüvvəsini torpaq, yaxud əsəb, yaxud batil, yaxud qəddarlıq daşları altında gizlətmişdir. Bu sayaq amillər peyğəmbərlərin gəlişinin fəlsəfəsinə qarşıdır; nə olursa olsun, hansı zamanda olursa olsun, fərq etməz.

Peyğəmbərlər insanın əqli və düşüncəsini çiçəkləndirmək və artırmaq üçün gəlmişlər. İstər insanın varlığında, istərsə də onun varlığından xaricdə hər hansı bir amil, hər hansı bir güc, hər hansı bir stimul insan əqli və düşüncəsinin çiçəklənib artmasına, fəaliyyət imkanına maneçilik törədirsə, onun şüur və dərrakə məşəli sayəsində düşünməyə, yol axtarmağa və bu yolu azad şəkildə getməyə imkan vermirsə, dinə qarşıdır. Müaviyə belə idi. İnsanların düşüncələrini aydınlatmaq məsələsi ortaya gəldikdə, Müaviyə, İslamın nə olduğunu anlamırdı. İslam ona “cəmiyyətdə aclığa, sosial təbəqəyə və ayrı-seçkliyə son qoy, vicdansız zalımları xalqa hakim təyin etmə, müşavirlərini, dostlarını və yaxınlarını cinayətkarlardan seçmə, xalqı Cəhənnəmə, dünya və axirət əzabına

---

1. “Ali-İmran” surəsi, səh.164.
2. “Nəhcül-bəlağə”, Sübhi Saleh, xütbə 1.

doğru aparma, sıxıntıları xalqın üzərindən qaldır, qoy düşünsünlər." – deyə hökm verdikdə, bu zaman Müaviyə ilə din arasında kilometrlərlə fasilə yaranır.

İbn Abbasa: "Quran oxuma" – deyildikdə, cavab verdi: "Axı necə Quran oxumayım?" Ona dedilər: "Onda oxuyursansa, heç olmasa, təfsir etmə." Dedi: "Müaviyə, necə ola bilər, Quran oxuyum, amma təfsir etməyim? Sən nə danışırsan?" Müaviyə özünün yaxşı danışmadığını gördükdə dedi: "Eybi yox, təfsir et, amma camaata öz tayfan – Əlinin vasitəsilə deyilən təfsiri söyləmə."[1] O, camaatın Quranı anlamasını istəmirdi. İnsanların düşünməsi hər şeyi alt-üst edə bilərdi, onların az düşünməsi Müaviyənin xeyrinə idi.

Odur ki, Müaviyənin gündəliyinə müraciət etdikdə, onda zülmlərdən, qətllərdən, insanları diri-diri torpağa gömməkdən, həbslərdə çürütməkdən, Hücr ibn Ədi[2] və Rüşeyd Həcəriləri[3] edam etməkdən, Meysəm Təmmar[4] kimilərə ağır işgəncələr verməkdən başqa, heç bir şey görünmür. Bunu hər kəs görür və dərk edirdi. Amma onun bir cinayətini dəqiq gözlərdən başqası görə və anlaya bilmirdi; o da bu idi ki, "İslam cəmiyyəti" adlı yenicə doğulmuş körpəni, ona həvalə olunmuş bu əmanəti iyirmi il qabağa atmaq əvəzinə, iki yüz il geri atdı. Hansı sahədə geri atdı? Pulları azaldımı? Xeyr! Kaş, pulları azalaydı! Əraziləri işğal olundumu? Ölkələri bölündümü? İnsanlar (mənasız döyüşlərdə) qətlə yetirildimi? Kaş, bu işlər baş verəydi! Cəmiyyəti şüur və əxlaq baxımından geri atdı Bu, bağışlanmayan cinayətdir. Bu günahın əlacı

---

1. "Kitabi-Süleym ibn Qeys Hilali", hədis 26.

2. Hücr gənc çağlarında qardaşı Hani ilə bilikdə Mədinəyə gəlib İslamı qəbul etdi və sonralar da Əmirəlmöminin Əlinin (ə) səhabələri sırasına qatıldı və o Həzrətin ordu sərkərdəsi oldu. O, Kufənin hakimi ilə həmkarlığa razılıq vermədiyi üçün bir neçə dostu ilə birlikdə "Müaviyənin əleyhinə qiyam və təxribat" adı ilə şəhadətə yetirildi.

3. Rüşeyd Əmirəlmöminin Əli (ə), İmam Həsən (ə) və İmam Hüseynin (ə) xas səhabəsi və sirdaşı idi. Əmirəlmöminin Əlidən (ə) insanların ölüm əhvalatı və gələcək hadisələrlə bağlı qeybi məlumatları öyrənmişdi. Mövlası ona buyurduğu kimi, əl-ayaqları və dili kəsilmiş halda dar ağacından asıldı və şəhadətə yetdi.

4. Meysəm ibn Yəhya Əmirəl-möminin Əlinin (ə) əli ilə azad olunmuş bir qul və o Həzrətin xas səhabələrindən idi. Xurma satmaqla məşğul olduğundan "Təmmar" (xurmasatan) ləqəbi ilə məşhulaşmışdı. O, Quran təfsiri ilə yanaşı, Əmirəl-möminin Əlidən (ə) ölüm və bəlalarla bağlı elmi də mənimsəmişdi. Übeydüllah ibn Ziyad Kufəyə hakim gəldikdən sonra Meysəmi Əmirəlmöminin Əlinin (ə) ona göstərdiyi xurma ağacından dara çəkidi və şəhadətə yetirdi.

yenidən on il, iyirmi il düzgün şəkildə hakimiyyət etmək deyildi. Müaviyədən iyirmi-otuz il sonra Ömər ibn Əbdüləziz[1] hakimiyyətə gəldi. O, Əməvilər sülaləsinin ədalətli şəxsi olsa da bir iş görə bilmədi, Müaviyənin faciələrini aradan qaldıra, onun qazdığı çalaları doldura bilmədi. Hələ ona iki ildən artıq hakimiyyətdə qalmağa imkan vermədilər, zəhərləyib öldürdülər. Müaviyə elə bir mühit yaratmışdı ki, fəsad və azğınlıqdan başqa, heç bir şey cücərmir və qəbul edilmirdi.

Nadan, ağılsız, proseslərə diqqətsiz yanaşan cəmiyyət Müaviyənin tribunalarından hansı səs ucalırdısa, onu gözübağlı qəbul edir, etiqad bəsləyirdirlər. Əməvilərin dövründə Şam əhalisinin nadanlığı ilə bağlı əlimdə maraqlı əhvalatlar var, çoxunu da təfsir bəhsələrimiz və söhbətlərimizdə qeyd etmişəm, necə deyərlər, bir lətifə olaraq birini də indi desəm, pis olmaz.

Görün, bir xalqın taleyini haralara gətirib çıxartdılar; xəlifə Əbdülməlik Mərvanın[2] zamanında Məkkə Həccac ibn Yusifin əli ilə fəth olundu. O, Əməvilərin cəsarətli və güclü sərkərdəsi idi. Azacıq şiəliyə meyilli olan hər kəsi aradan götürürdü. Əlbəttə, Məkkə şiələrin deyil, Abdullah ibn Zübeyrin ixtiyarında idi. Abdullah ibn Zübeyr də Həccac ibn Yusif kimi bir şəxs idi, lakin ona Allah möhlət vermədi. Həccac, Abdullah ibn Zübeyri öldürmək istəyirdi. Bir sözlə, Məkkəni aldılar, o cümlədən, Əbu Qübeys dağını ələ keçirtdilər. Bildiyiniz kimi, Əbu Qübeys dağı Məkkəyə yaxın və birləşmiş dağlardan biridir. Həccac bir məktub yazıb, Şama – xəlifə Əbdülməlikə xəbər verdi ki, həmd olsun Allaha, Əbu Qübeys dağını ələ keçirmişik. Xəlifə də əmr verdi ki, bu məktubu Dəməşq minbərində oxusunlar. Cümə günü idi, hamı

---

1. Ömər ibn Əbdüləziz İmam Səccadın (ə) imaməti zamanında Mədinə şəhərinin hakimi idi. 99-cu hicri-qəməri ilində xəlifə seçildi və yalnız iki il hakimiyyətdə qaldı. O, hakimiyyətə çatdıqdan sonra keçmiş xəlifələrin əksinə olaraq yumşaq siyasət yürütdü, xalqla mülayim rəftar etdi. Müaviyənin vaxtından minbərlərdə Əmirəlmöminin Əlinin (ə) lənətləməsinə qadağan qoyması, Fədəki Əhli-beytə (ə) qaytarması, hədis yazmaq qadağasını ləğv etməsi, Ələvilərlə mülayim davranması onun müsbət işlərindən idi.

2. Əbdülməlik ibn Mərvan 65-ci hicri-qəməri ilində Hicaz və İraq Zübeyr sülaləsinin hakimiyyəti altında olduğu halda, hakimiyyətə gəldi. Xəlifə olmamışdan öncə ibadət əhli kimi tanınırdı, lakin xəlifə olduqdan sonra ondan hiyləgərlik və qan tökməkdən başqa, bir şey görünmədi. O, Həccac ibn Yusif Səqəfi kimi qəddar bir sərkərdə ilə bütün İslam ərazilərinə hakim oldu və iyirmi il hakimiyyət etdi.

toplaşmışdı. Xətib məktubu açıb oxudu və dedi ki, həmd olsun Allaha, xəlifənin sərkərdəsi Həccac Əbu Qübeysi ələ kerçirib. Birdən camaatın səsi ucaldı: Xeyr, biz bunu qəbul etmirik, biz bunu qəbul etmirik, Əbu Qübeys Rafizini mütləq zəncirləyib Şama göndərməlidirlər ki, biz gözümüzlə görüb inanaq. Onlar elə təsəvvür edirdilər ki, Əbu Qübeys Məkkədə bir rafizidir[1] (şiədir). Onlar bu qədər nadan və düşüncəsiz idilər. Bu qəbil əhvalatlar çoxdur.

Bunları kim yetişdirmişdi? Xalqın nadan qalması kimin günahı idi? Siz deyə bilərsiniz ki, Şüreyh Qazının[2], Məhəmməd ibn Şahab Zöhrinin[3] və yaxud filan muzdur qazı və müftinin günahıdır. Onlar insanları agah etməli idilər. Mən də bunu qəbul edirəm. Əlbəttə, Əbu Yusif Qazı[4], yxud Şüreyh Qazı, Məhəmməd ibn Şahab Zöhri və yaxud da başqaları ən böyük cinayətlərə əl atdılar. Necə ki, bunu İmam Səccadın (ə) Məhəmməd ibn Şahaba yazdığı məktubda oxuduq və gördük. Lakin bilməliyik ki, Məhəmməd ibn Şahabı kim yetişdirdi? Dinə və Qurana qarşı ruhani yetişdirən qüvvələr kimlər idi? Müaviyədən başqası idimi? Deməli, sonda bütün günahlar Müaviyənin, Əbdülməlik ibn Mərvanın, Əməvilər və Abbasilər sülaləsinə mənsub olan digər zalımlarındır. Onlar bu günahları ilə hələ Quranın və dinin qələbəsindən də dəm vururdular!

Burada bizim vəzifəmiz nədir? Heç diqqət yetirmisinizmi? Biz hansı təbəqədə və hansı vəzifədə olmasından asılı olmayaraq, Müaviyə, Şüreyh Qazı, Müğeyrə və Müaviyənin dövründə yaşayan Zeyd ibn Əmr kimilərin müqabilində necə hökm yürütməliyik? Onlar bəzi məqamlarda

---

1. Tərk edən. İmamların zamanında onların şiələrinə verilən ad.

2 . Şüreyh ibn Haris ikinci xəlifə Ömərin vaxtından Kufənin qazısı idi. Əmirəlmöminin Əli (ə) xilafətə gəldikdən sonra, hökmləri o Həzrətin məşvərəti ilə icra etmək şərti ilə onu bu vəzifədə saxladı. O, dünyapərəst insan idi. Əmirəl-mömin Əli (ə) "Nəhcül-bəlağə"nin üçüncü məktubunda onu 80 dinarlıq evə görə danlayır, məzəmmət edir. Şüreyh, Übeydullah ibn Ziyad Kufəyə daxil olduqdan sonra, ona qoşuldu. Hani ibn Ürvənin sağ olduğu haqda yalan məlumat verib onun qəbiləsini Übeydullahın sarayından uzaqlaşdırdı. İmam Hüseynin (ə) qanını halal bildi. Sonralar isə Həccac Kufəyə hakim olduqda, ona yaxın insanlardan oldu.

3. Məhəmməd ibn Şahab İmam Səccadın (ə) şagirdlərindən idi ki, hakim dairələrə satıldı. O, Ömər ibn Əbdüləzizin əmri ilə (hədis qadağasından sonra) hədis yazıb-toplamağa başlayan ilk şəxsdir.

4. Əbu Yusif Yəqub ibn İbrahim Bağdad şəhərinin "qazılar qazısı" (113-182) idi. Gənc çağlarında Əbu Hənifənin şagirdi olmuşdu. Mehdi Abbasi, Harun Ər-Rəşid və Hadi Abbasinin xilafəti dönəmində on səkkiz il Bağdad şəhərinin qazısı oldu.

dini və imanı qəbul edir, bəzi məqamlarda isə onların həyatında din və imandan əsər-əlmamət görünmürdü. Belə insanlara nə ad vermək olar? Möminmi adlandıraq? Axı, Quranda belə insanların mömin olmadığı açıq-aşkar buyurulur. Axı, belələri İslam təfəkkürü sayəsində olan mötəbər imanla tanış deyillər. (Bizim günümüzdə də bu sayaq insanlar istənilən qədərdir.) O kəslərin imanları möhkəmdir ki, onlar hər yerdə, hər zaman, hər kəslə müqayisədə öhdəliklərə sadiq qalanlar və əməldə ***"iman gətirən və yaxşı iş görənlər"*** – ayəsinə şamil olanlardır.

Möminlərə verilən vədlər də bu imanın sahiblərinə aiddir. "Möminlər qalibdir" – ifadəsi bu möminlərə aiddir və onlar, həqiqətən də, qalibdirlər. "Allahın əli möminlərlə birgədir" – ifadəsi həmin möminlərə məxsusdur. "Təbiət möminlərlə həmkar və munisdir" – deyilirsə, bu, mənim və sənin kimilərə yox, həqiqi möminlərə məxsusdur. Özümüzdə imanın təsirləri, xasiyyətləri və müjdələrini görmədiyimiz üçün Allahın Quranda möminlərə verdiyi müjdələrə də təəccüblənmirik. Çünki həmin imana verilən bu qədər müjdələri görmürük.

(Əlbəttə, sabah Qurana əsaslanaraq möminlərə verilən müjdələrlə bağlı bəhs edəcəyik, inşallah!)

İndi isə bu ayələri[1] tərcümə edək. Diqqətlə dinləyin:

لَقَدْ أَنزَلْنَا آيَاتٍ مُّبَيِّنَاتٍ

***"Həqiqətən, Biz açıq-aydın ayələr nazil etdik."***

Quran ayələri aydındır. Özünə Quranı başa düşməyi icazə verməyən zavallılar bu aydınlıqdan məhrumdurlar.

وَاللَّهُ يَهْدِي مَن يَشَاءُ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

***"Allah istədiyi şəxsi doğru yola yönəldər."***

Allahın istəyi nə deməkdir? Yəni, Allah birini istəyir, digərini isə istəmirmi? Bir nəfəri xas lütfü-nəzəri ilə yüksəklərə aparır, başqasını isə rədd edirmi? Məsələ bundan ibarət deyil. Allahın iradə və istəyi (adi işlərdə) məhz təbii səbəblər vasitəsilə özünü büruzə verir. Məsələn, əgər bir hidayətçi və doğru yol göstərən bir şəxsin söhbətini dinləməyi qərara alıb doğru yola yönəlsəniz, sizin doğru yola yönəlməyinizi Allah istəmişdir. Yox, əgər tənbəllik və süstlük etsəniz, düşünmək yolunu öz üzünüzə bağlasanız, bu zaman nadan qalmağınızı Allah iradə etmişdir. Bunlar Allahın iradə və istəyinin təbii vasitə və səbəblərə köklənməsi anlamındadır; belə ki, nəticənin əldə edilməsi üçün təbbii vasitə və

1. "Nur" surəsi, ayə 46-52.

səbəblərin yaranmasını istəsəniz, Allah da istəyəcək, əks-təqdirdə isə aydındır ki, Allah da istəməyəcək; nəinki Allahın istəməməsi sizin də istəməməyinizə səbəb olacaq. Xeyr, siz iradə etməkdə azadsınız. Allahın istəməməsi lazımi səbəblərin yaranmaması anlamındadır.

Nə üçün lazımi səbəblər yaranmayıb? "Allah istəməyib" – deyə cavab veririk. Çünki səbəbləri yaradan və onlara xasiyyət verən Allahdır. Məsələn, yanar oda əlimi uzadaramsa, əlim yanacaq. Deyirəm ki, Allah istədiyi üçün əlim yandı. Əgər mən əlimi oda yaxınlaşdırmasaydım, əlim yanmayacaqdı. Yenə deyirəm ki, Allah istəmədiyi üçün əlim yanmadı. Bu nə deməkdir? Allahın onun yanmasını istəməsi təbii səbəbin hazır olması anlamındadır. Onun təbii səbəbi nədir? Odun olması, maneənin olmaması, mənim istəyim və əlin oda doğru uzanması. İkinci surətdə isə, yəni Allahın yanmasını istəməməsinə gəldikdə, onun səbəbi yandırmaq üçün təbii səbəbin olmaması – oda yaxınlaşmaması, yaxud oda uzadılan əlin və digər bir cismin yaşlığı və yaxud odun zəif olmasıdır və s. Bəs nə üçün səbəblərə aid olanları Allaha nisbət veririk? Çünki səbəbləri yaradan Allahdır. Buna görə də Quranın hər yerində مَن يَشَاء(istədiyi şəxsi) – ifadəsi bu qəbildəndir. Müxtəlif münasibətlərdə bu barədə izah etmişdim. İndi də azacıq işarə etdim.

وَيَقُولُونَ آمَنَّا بِاللَّهِ وَبِالرَّسُولِ وَأَطَعْنَا

***""Allaha və Peyğəmbərə iman gətirdik və itaət etdik!" – deyərlər."***

Onlar bunu iddia edirdilər. İddia etmək asandır.

ثُمَّ يَتَوَلَّى فَرِيقٌ مِّنْهُم مِّن بَعْدِ ذَلِكَ

***"Bu iddiadan sonra isə onlardan bir dəstə üz çevirər."***

Burada kafir və yaxud İslamdan üz döndərən mürtədlərdən yox, İslam cəmiyyətində yaşayan adi müsəlmanlardan söz gedir. Onlar üz çevirdikdə, onlar haqqında belə buyuruldu:

وَمَا أُوْلَئِكَ بِالْمُؤْمِنِينَ

***"Belələri mömin deyillər."*** Bundan da aydın bir ifadə varmı?!

وَإِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ إِذَا فَرِيقٌ مِّنْهُم مُّعْرِضُونَ

***"Onlar (Peyğəmbərin) aralarında hökm (qəzavət) etməsi üçün Allahın və Peyğəmbərinin yanına çağırıldıqda, onlardan bir dəstə (Peyğəmbərin yanına gəlməkdən və onun hökmünü dinləməkdən) dərhal üz çevirər."***

Ayənin zahiri qəzavətlə bağlıdır. Adətən, Qurani-Kərimdə "hökm" dedikdə, həmişə "hakimlik" və "hökm yürütmək" mənasını daşıyan

"qəzavət" anlamına gəlmir. Ayənin məzmunu ümumi xarakter daşıyır və yalnız Peyğəmbərin (s) qəzavətinə boyun qoymayanlara aid deyil, həm də Peyğəmbərin qəzavətdən başqa, digər əmlərinə təslim olmayanlara da şamildir və bu, aydın bir məsələdir.

وَإِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ إِذَا فَرِيقٌ مِّنْهُم مُّعْرِضُونَ

***"Onlar (Peyğəmbərin) aralarında hökm (qəzavət) etmək üçün Allahın və Peyğəmbərinin yanına çağırıldıqda, onlardan bir dəstə (Peyğəmbərin yanına gəlməkdən və onun hökmünü dinləməkdən) dərhal üz çevirər."***

وَإِن يَكُن لَّهُمُ الْحَقُّ يَأْتُوا إِلَيْهِ مُذْعِنِينَ

***"Əgər haqq onların tərəfində olsa, itaət edib (tez) onun yanına gələrlər."***

Hökm onların xeyrinə tamamlanacağı təqdirdə, dinə təslim olur, zərərlərinə olacağı ehtimal edildikdə isə dindən üz döndərirlər. Burada Qurani-Kərim onlardan həqiqətdə izah etmələrini tələb edir.

Axı, nə üçün şəxsi maraqlarınıza xidmət etmədikdə, dini qəbul etmirsiniz? Bunun səbəbi bu üç məsələdən biridir:

أَفِي قُلُوبِهِم مَّرَضٌ

***"Onların qəlblərində xəstəlikmi var?"***

Nifaq və nəfsani istəklər, nadanlıq və məğrurluq xəstəliyimi? Hökmü qəbul etməmələrinin səbəbi qəlblərindəki xəstəliklərdirmi? Yoxsa, bundan da ağır xəstəlikdirmi?

أَمِ ارْتَابُوا

***"Yaxud da onlar dində şəkkə düşdülərmi?"***

Əgər dində şəkk və tərəddüd etmirsənsə, nə üçün xeyrinə olmayan, zəhmətə düşməyinə səbəb olan hökmlərdən üz çevirir və hətta dini inkar edirsən? Yoxsa, bunun səbəbi daha da dəhşətlidir?

أَمْ يَخَافُونَ أَن يَحِيفَ اللَّهُ عَلَيْهِمْ وَرَسُولُهُ

***"Yaxud Allahın və Peyğəmbərinin onlara zülm edəcəklərindən qorxurlar?"***

Bu isə şəkkə düşməkdən də dəhşətlidir, küfrün özüdür. İnsan nə qədər nadan və əqidəsiz olmalıdır ki, Allahın və Peyğəmbərin hökm yürütməkdə insana zülm və haqsızlıq edəcəyini düşünsün. Allahın və Peyğəmbərin zülm edəcəyindən qorxan insan, aydındır ki, Allahı və Peyğəmbəri əsla tanımır və qəbul etmir.

بَلْ أُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

***"Xeyr, onlar özləri zülmkardırlar!"***

Allah heç kimə zülm etməz, onlar həm özlərinə, həm də həqiqətə qarşı haqsızdırlar. Əgər yüksək vəzifə sahibidirlərsə, həm özlərinə, həm xalqa, həm də həqiqətə qarşı zalımdırlar, ondan da yüksək vəzifədədirlərsə, mütləq şəkildə bəşəriyyətə qarşı zülmkardırlar.

Görək, möminlər necədir? Möminlər elə deyillər. Baxın, Quranın mədəniyyəti budur. Quranın özünəməxsus leksikologiya və mədəniyyəti vardır. Quran terminologiyasında mömin belə olmalıdır:

إِنَّمَا كَانَ قَوْلَ الْمُؤْمِنِينَ إِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ أَن يَقُولُوا سَمِعْنَا وَأَطَعْنَا

***"Aralarında hökm vermək üçün Allahın və Peyğəmbərinin yanına çağırıldıqları zaman möminlərin sözü ancaq: "Eşitdik və itaət etdik!" – deməkdən ibarətdir."***

Qeyd etdiyimiz kimi ***"eşitdik"*** – sözü "qulaq asdıq" yox, "anladıq" mənasındadır. Quranda buyurulur:

أَوْ أَلْقَى السَّمْعَ وَهُوَ شَهِيدٌ

***"...Şahid olduğu halda, eşidən kəs üçün bir öyüd-nəsihət vardır!"***[1]

Dünən gecə Quran mütaliələrimdə "səm`" (eşitmək) sözü ilə bağlı rastlaşdığım və çox olduğundan qeyd götürmədiyim nümunələrdə bu söz qulaqla eşitmək yox, "anlamaq" və "başa düşmək" mənasındadır. Möminlər deyərlər ki, biz anladıq, agah şəkildə mömin olduq. Ötən bəhslərdə qeyd etdiyimiz kimi, iman gətirmək agahlıq əsasında olmalıdır. سَمِعْنَا وَأَطَعْنَا– ***"Eşitdik və itaət etdik!"*** Agahlıq əsasında iman gətirdikdən sonra itaət də etdik.

وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ

***"Uğur və qələbəyə çatanlar da məhz onlardır!"***

"Fəlah" sözü "uğur və müvəffəqiyyət qazanmaq", "qələbəyə nail olmaq", "hədəf və məqsədə çatmaq" mənasını ifadə edir, bəzən də, "nicat tapmaq" və "səadətə yetmək" mənasında işlədilir. Amma adətən, möminlərlə bağlı işlənən "fəlah" sözü qeyd etdiyimiz mənalarla daha uyğundur. وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ– ***"Hədəf və məqsədə çatanlar da məhz onlardır!"***

وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ وَيَخْشَ اللَّهَ وَيَتَّقْهِ فَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ

***"Allaha və Onun Peyğəmbərinə itaət edənlər, Allahdan qorxub çəkinənlər – məhz beləlari uğura (məqsədə) çatanlardır."***

---

1. "Qaf" surəsi, ayə 37.

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا – ***“Allah iman gətirənlərə vədə vermişdir.”***[1] Budur Allahın yaxşı işlər görən, məsuliyyət hiss edən möminlərə vədəsi! Diqqət yetirin! Bu ayədəki ilahi vədədə açıq-aşkar belə deyilir: Biz möminlərə vəd etmişik ki, onlar yer üzünə varis olacaqlar, onların ayin, əqidə və məktəbləri dünyaya hakim olacaq, qorxu və vəhşətləri əmin-amanlıqla əvəz ediləcək. Əgər tarix boyunca siz möminlər işgəncə və zümlərə məruz qalıbsınızsa, bundan sonra rahatlıq, asudəlik və təhlükəsizlik içində yaşayacaq, Allaha ibadət edəcək, Allahın müxaliflərini yer üzündən siləcəksiniz. Bu, uyğun ayədəki ilahi vəddən ibarətdir. Allahın bu vədi məsuliyyətli və saleh əməl sahibi olan möminlərə məxsusdur.

Bəziləri çox vasvasılıq edir, dar düşünür və deyirlər ki, bu vəd İmam Zamanın (ə.f) dövrünə məxsusdur. Şübhəsiz, İmam Zamanın (ə.f) dövrü bu ayənin kamil nümunəsidir. Amma bu ayənin harasında onun İmam Zamanın (ə.f.) dövrünə aid olduğu vurğulanır? Deyin görək, hansı rəvayətdə onun həmin zamana məxsus olması göstərilir? Nə üçün ayənin əhatə dairəsini məhdudlaşdırırsınız? Məgər Allah İslamın ilk çağlarında möminlərlə bağlı bu vədi gerçəkləşdirmədi? Elə bu ayə gerçəkləşdi; möminlər Mədinəyə gəlib İslam hökuməti qurdular. Qüreyş kafirlərinin qorxusundan “Lə iləhə illəllah” kəslməsini dilində belə deməyə cürət etməyən Bilal minarələrdə uca səslə “Lə iləhə illəllah” deyirdi. Halbuki, bundan öncə onlar üç yüz qeyri-insan və bir neçə insan formasındakı bütün, nəfsani istəklər, meyillər və şəhvətlər adlı bütlərin müqabilində hər gecə-gündüz səcdə etməyə, mütləq ibadət və bəndəçiliklə məşğul olmağa məcbur idilər. Allaha bu qədər şəriklər qoşanlar əmin-aman məntəqədə – ali İslam cəmiyyətində azacıq sıxıntılara məruz qalmadan yaşamağa başladılar, artıq Allaha böyük-kiçik, canlı-cansız, özləri və başqalarından şəriklər qoşmadılar. Bu ayə bir dəfə o zamanda gerçəkləşdi, min dəfələrlə də gerçəkləşə bilər. Amma şərti var; şərti odur ki, ayənin ilk hissəsi gerçəkləşməlidir:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ – ***“Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə (yəni imanın öhdəliklərlərinə əməl edənlərə) vəd vermişdir ki,*** لَيَسْتَخْلِفَنَّهُم فِي الْأَرْضِ – ***onları yer üzünün canişinləri edəcək.***[2]

---

1. “Nur” surəsi, ayə 55.

2. Əlimdəki Quranın tərcüməçisi Quranın tərcüməsində böyük səhvlərə yol verib. Bir səhv indi gözümə çarpdı. Bu ayədə qeyd olunan “fil-ərz” (yer üzündə) ifadəsini “bu məntəqədə” tərcümə etmişdir və bu yanlışdır. Bu məntəqə, yəni Ərəbistan yarımadası.

كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ– ***Necə ki, onların özlərindən əvvəlki möminləri canişin etmişdir.”***

Biz möminlərin elə dünyanın əvvəlindən həmişə məzlum və xar olduqlarını güman etmişik. Müsəlmanların dünyagörüşü və tarixi məlumatlarına görə, müsəlman və mömin olmaq, Allah yolunda qədəm götürmək həmişə əzab-əziyyətlər, işgəncələr və məğlubiyyətlərlə nəticələnmişdir. Quran isə tamamilə bunun əksini buyurur. Biz haçansa bunu izah etmişik[1] ki, din yarandığı gündən bu günə qədər daim tərəqqi etmiş, nəzərimizcə, indiyə qədər bir addım belə geridə qalmamışdır. Geridə qalmışlıq kimi təsəvvür edilənlər, əslində tərəqqidir.

Hər halda, yer üzü və ona rəhbərlik siz möminlərə məxsusdur; necə ki, sizdən əvvəlki möminlərin ixtiyarında olmuşdur.

وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ

***“Allah onlar üçün din və ayinlərini möhkəmləndirəcək, o din və ayin ki, Allah Özü onlar üçün bəyənib və layiq görüb.”*** Yəni, dünya və axirəti, indini və gələcəyi, cisim və ruhu, bir sözlə, hər bir ehtiyacı təmin edən həmin İslam dinini sizin üçün bəyənib.

وَلَيُبَدِّلَنَّهُم مِّن بَعْدِ خَوْفِهِمْ أَمْنًا

***“Onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcək.”*** Görəsən, bu əmin-amanlıq sayəsində nələr baş verəcək? Onun sayəsində yay fəslində bağçada əyləşib samovar çayımı içəcəklər? Əmin-amanlıq budurmu? Bu əmin-amanlıqla rahat, lüks və tənbəl həyatamı sahib olacaqlar? Xeyr! Həmin əmin-amanlıq sayəsində insan son mənzilə – təkamülə, Allaha bəndəçilik etməyə, Ona müti olmağa, bəndələrə kölə olmaqdan qurtulmağa və beləcə, təkamül yoluna daha da yaxınlaşacaq. Bu sözlərin hər birinin ayrıca bəhsə ehtiyacı var.

يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا

---

Möminlər nəinki Ərəbistan yarımadasına, onun kimi 40-50 məntəqəyə də hakim oldular. “Fil-ərz” ifadəsi “yer üzündə” mənasını ifadə edir. Bunu xatırlamaqda məqsədim oldur ki, bəzi tərcümələrdə yol verilən belə səhvlər çaşqınlığa səbəb olur. Əlbəttə, biz kimsə haqqında bədgüman deyilik; amma görəsən, tərcüməçi “bu məntəqədə” sözündə onun digər məntəqəyə aid etmədiyini, yəni əməlisaleh möminlərin yalnız Hicaz məntəqəsinə hakim olacaqları, Rey, Rum, Bağdad, Əndəlüs və s. məntəqələrə isə hakim olmayacaqlarını nəzərdə tutubmu? Biz deyirik ki, inşallah, məqsədi bu deyil. Əlbəttə, bu tərcüməçinin kim olduğunu da bilmirəm.

1. İki-üç il öncə “Mirzə Cəfər” mədrəsəsində hansısa əlamətdar münasibətlərin birində bu haqda iki-üç gün danışmışam.

***“Mənə ibadət etsinlər və heç bir şeyi Mənə şərik qoşmasınlar.”*** Ayənin sonunda isə xatırladır ki, iman gətirdikdən sonra küfr edənlər və Allaha şərik qoşanlar, şübhəsiz ki, əsl fasiqlərdir! Dindən çıxana fasiq deyilir.[1]

İlahi, dediklərimiz və əməl etdiklərimizdə qəlbimizi saflaşdır, hamısını Özünə xatir qəbul et!

İlahi, Muhəmməd və ali-Muhəmmədə xatir, tövhid dolu həyatın ləzzətini bizə dadızdır!

İlahi, Muhəmməd və ali-Muhəmmədə xatir, şirki qəlbimizdən uzaqlaşdır!

İlahi, Muhəmməd və ali-Muhəmmədə xatir, Öz xeyrini bizdən əsirgəmə, məğrurluğu, bəlaları, bədbəxtlikləri və çirkinlikləri müsəlmanların arasından qaldır!

İlahi, müsəlmanların düşmənlərinin başlarını özlərinə qat!

---

1. “Nur” surəsi, ayə 55.

## Xülasə

### Bazar ertəsi – Ramazan ayının 6-cı günü

### İMAN VƏ ÖHDƏLİKLƏRİN İCRASI

Keçən məclisdə tilavət olunan ayələrə əsasən, doğru imanın öhdəliklərlə birgə olduğunu anladıq və onun üzərində düşündük.

Yalnız şəxsi mənafe ardınca olan kəslər imanın məsuliyyətlərinə icrası lazım olan öhdəliklər gözü ilə baxmırlar. Onlar bu öhdəliklərə şəxsi mənafeləri, təcavüzkar maraqlarına xidmət etdiyi vaxta qədər boyun əyir, əks-təqdirdə, etinasızlıq və laqeydliklə bir kənara atırlar.

Quran mədəniyyəti çətin günlər üçün qəlblərinin bir guşəsində bu iman mayasından zəxirə edən belə insanları açıq-aşkar imansız adlandırır.

Allahın möminlərə vəd etdiyi səadət, xoşbəxtlik, qələbə və üstünlük o kəslərə aiddir ki, hər bir halda və hər zaman dini mükəlləfiyyətlər müqabilində məsuliyyət hiss edir, onlara əməl edirlər. Aşağıdakı ayələr bu məsələ ilə bağlı Quranın aşkar nidasından ibarətdir:

لَقَدْ أَنزَلْنَا آيَاتٍ مُّبَيِّنَاتٍ – ***Həqiqətən, Biz açıq-aydın ayələr nazil etdik.***

وَاللَّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ – ***Allah istədiyi şəxsi doğru yola yönəldər.***

وَيَقُولُونَ آمَنَّا بِاللَّهِ وَبِالرَّسُولِ وَأَطَعْنَا – ***“Allaha və Peyğəmbərə iman gətirdik və itaət etdik!” – deyərlər.***

ثُمَّ يَتَوَلَّى فَرِيقٌ مِّنْهُم مِّن بَعْدِ ذَلِكَ – ***Bu iddiadan sonra isə onlardan bir dəstə (dinə təslim olmaqdan) üz çevirər.***

وَمَا أُوْلَئِكَ بِالْمُؤْمِنِينَ – ***Belələri mömin deyillər.***

وَإِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ – ***Onlar (Peyğəmbərin) aralarında***

*hökm yürütmək üçün Allahın və Peyğəmbərinin yanına çağırıldıqda,*

إِذَا فَرِيقٌ مِّنْهُم مُّعْرِضُونَ – *onlardan bir dəstə dərhal üz çevirər.*

وَإِن يَكُن لَّهُمُ الْحَقُّ يَأْتُوا إِلَيْهِ مُذْعِنِينَ – *Əgər (hansısa bir hadisədə) haqq onların tərəfində olsa, itaət edib (tez) onun yanına gələrlər.*

أَفِي قُلُوبِهِم مَّرَضٌ – *Onların qəlblərində mərəzmi var?*

أَمِ ارْتَابُوا – *Yaxud onlar dində şəkkə düşdülərmi?*

أَمْ يَخَافُونَ أَن يَحِيفَ اللَّهُ عَلَيْهِمْ وَرَسُولُهُ – *Yaxud da Allahın və Peyğəmbərinin onlara zülm edəcəklərindən qorxurlar?*

بَلْ أُوْلَئِكَ هُمُ الظَّالِمُونَ – *Xeyr, (həqiqət odur ki,) onlar özləri zülmkardırlar!*

إِنَّمَا كَانَ قَوْلَ الْمُؤْمِنِينَ إِذَا دُعُوا إِلَى اللَّهِ وَرَسُولِهِ لِيَحْكُمَ بَيْنَهُمْ – *Aralarında hökm (və qəzavət) etmək üçün Allahın və Peyğəmbərinin yanına çağırıldıqları zaman möminlərin sözü ancaq:*

أَن يَقُولُوا سَمِعْنَا وَأَطَعْنَا – *"Eşitdik (anladıq) və itaət etdik!" – deməkdən ibarətdir.*

وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ. – *Hədəf və səadətə çatanlar da məhz onlardır!*

وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ – *Allaha və Onun Peyğəmbərinə itaət edənlər,*

وَيَخْشَ اللَّهَ وَيَتَّقْهِ – *Allahdan qorxub çəkinənlər,*

فَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ – *məhz belələri uğura çatanlardır.*

("Nur" surəsi, ayə 46-52.)

Nəhayət, növbəti ayədə "ilahi xilafət"in, dünyaya siyasi hakimiyyətin və ideal islami cəmiyyətin təşkilnin könüloxşayan vədi iman və əməllə şərtlənir:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ – *Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə (yəni imanın öhdəliklərlərinə əməl edənlərə) vəd vermişdir (və müjdələmişdir) ki,*

لَيَسْتَخْلِفَنَّهُم فِي الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ – *həqiqətən də, onları yer üzünün xəlifə və canişinləri edəcək; necə ki, onların özlərindən əvvəlkiləri canişin etmişdir.*

وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ – *Onlar üçün Özü bəyəndiyi dinini möhkəmləndirəcək.*

وَلَيُبَدِّلَنَّهُم مِّن بَعْدِ خَوْفِهِمْ أَمْنًا – *Onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcək ki,*

يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا – *Mənə ibadət etsinlər və heç bir şeyi Mənə şərik qoşmasınlar.*

("Nur" surəsi, ayə 55.)

# ALTINCI MƏCLİS

## MÜJDƏLƏR

Çərşənbə axşamı – 1974/09/24
Ramazan ayının 7-i.

بسم الله الرحمن الرحيم

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا. فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ
وَاعْتَصَمُواْ بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا

***“Ey insanlar! Həqiqətən, sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur nazil etdik. Allah, Ona iman gətirən və Ondan möhkəm yapışanları Öz mərhəməti və lütfünə şamil edər və onları özünə tərəf gedən düz yola hidayə edər.”***

“Nisa” surəsi, ayə 174-175.

İmanla bağlı bəhsimiz, həqiqətdə, müqəddimə xarakteri daşıyırdı. Dini və dinin əqidə prinsiplərini anlayıb onlara meyil göstərmək və dinlə ciddi şəkildə tanış olub ona əməl etməyimiz üçün imanın həqiqəti və qiyməti haqqında məlumatlı olmalıyıq. İmanla bağlı bəhsimiz bu məqsədi izləyir.

Bu mövzuda iki-üç önəmli məsələyə toxunduq. Onlardan biri kor-koranə iman deyil, agahlıq əsasında iman məsələsi, biri imanın əməl və öhdəliklərlə təsdiqlənməsi, qəlbdə və zehində boş və quru qalmaması, əməl və məsuliyyətlə nəticələnməsi, biri də məsuliyyətli möminin imanının ötəri, fürsəttələb və mənfəəttələbliklə deyil, daimi və hərtərəfli olmasıdır. İmanla bağlı bu məsələlərə işarə olundu və onların öyrənilməsi də zəruri idi.

Nəzərimizdəki əsas mövzuya – İslamda əqidə təlimlərinə başlamazdan öncə, qısa bir bəhsə də ehtiyac var ki, onu bu gün başlamaq məcburiyyətindəyik və sabahdan bu bəhsi davam etdirəcəyik. İlk baxışda bu bəhsi bir günə tamamlayacağımı təsəvvür edirdim, araşdırma apardıqdan sonra (gördüm ki,) ancaq dörd-beş günə tamamlaya bilərik. Bu günlə sabah, sözsüz, bu haqda danışacağıq. Əgər ömür vəfa etsə, ehtimal ki, üçüncü günə çəkməz. Həmin bəhs budur: Biz imanın dəyəri və nəticəsi ilə tanış olmaq üçün Allahın möminlərə vəd etdiyi müjdələr haqqında məlumat əldə etməliyik ki, görək, Allah-Taala mömin imanı, saleh əməlləri və öhdəliklərinin icrası müqabilində nələr verəcək. Alış-verişə vərdiş edən, həyatını ticarətlə keçirən insan Allahla ticarətin necəliyi haqda da öyrənmək istəyir. O, imanının və onun sayəsində yerinə yetirdiyi əməllərin müqabilində Allahın Öz öhdəsinə aldığı, ona nə bəxş edəcəyi və hansı qarşılıqla müjdələyəcəyini də bilməyə maraq göstərir. Bu, mömin və iman vadisində möhkəm və sabitqədəm olmaq

istəyən şəxsin nəzərində maraqlı, şirin, ləzzətbəxş, sevimli və ümidverici bir məsələdir.

İman, mömin və onun xüsusiyyətləri ilə bağlı bütün Quran ayələrini topladıq və bu mövzuya təqribən, yeddi yüzə yaxın ayə həsr olunmuşdur. Bu ayələri incələməkdə məqsədimiz Allahın iman müqabilində bəxş edəcəyi, möminlərə vəd etdiyi müjdələr, onların xeyirli və könüloxşayan axır-aqibəti haqda məlumat əldə etməkdir. Bu mövzunun olduqca əhatəli olduğunu gördüm. Nəzərimcə, bəlkə də, Allah-Taala Quranda imanı, təqribən, otuz-qırx müjdə ilə qarşılayır. Mömin otuz-qırx böyük və önəmli imtiyaza sahib olur. Bütün bunlar bir insanın səadət və xoşbəxtliyi üçün zəruri məsələlərdir. Bu imtiyazlardan biri də axirətdəki Cənnətdir:

جَنَّاتُ عَدْنٍ تَجْرِي مِن تَحْتِهِمُ الْأَنْهَارُ

***“(Ağacları) altından çaylar axan Ədn cənnətləri...”***[1]

(Gördüm ki, əgər bütün bunları – möminlərə veriləcək müjdələri bir-bir araşdırsaq, qeyd etdiyim kimi, bəhsimiz ən azı 4-5 gün çəkəcək. Odur ki, bu gün (əlinizdəki vərəqdə qeyd olunduğu kimi,) onun ikisi haqqında söz açacaq, sabah da bir-iki məsələyə toxunub qalanlarını Qurana müraciət etməyiniz üçün sizin öz öhdənizə qoyacağam. Bu neçə məsələni qeyd etməmişdən öncə, xatırladıram ki, Quranda möminlərə vəd edilən bəzi müjdələrlə bağlı bəzi məsələlər (təqribən, 10-11 məsələ) bu vərəqdə qeyd edilmişdir və onu sizin üçün bir-bir oxuyub qısa şəkildə izah edəcək, sonra isə Quran ayələrinə başlayacağıq.)

Burada qeyd etmişəm: İnsanın xöşbəxtlikdən hərtərəfli, kamil bəhrələnməsi və xoşbəxt olması üçün nələrə ehtiyacı var? İnsanın hərtərəfli və kamil xoşbəxtliyə çatması üçün ehtiyac duyduğu məsələləri burada qeyd etmişəm və onlar təqribən, 10-12 məsələdən ibarətdir. Sual budur: Görəsən, bu məsələlərdən biri olmazsa, insan özünü xoşbəxt sanarmı? Görəcəksiniz ki, cavab mənfidir. Əlbəttə, insanın xoşbəxt olmasında rol oynayan digər məsələlər də vardır. Burada qeyd edilən və edilməyən məsələlər, həmçinin, Quranda möminə vəd edilən müjdələrdən nə nəticə alırıq? Nəticə alırıq ki, iman əməllə birgə olmalıdır; Quran təlimlərinə əsasən, bu, bir insan üçün təsəvvür olunan ehtiyaclar baxımından səadət və xoşbəxtliyin bütün şərtlərinə bərabərdir.

Burada dindarlıq təəssübkeşliyindən söz getmir, bizim xoşbəxtliyin

1. “Kəhf” surəsi, ayə 31.

şərtləri ilə bağlı qeyd etdiklərimiz bir materialistin də xoşbəxt olması üçün kifayətdir. Onları bir-bir oxuyuram, görək, bir materialist bu şərtlərə sahib olduqda, xoşbəxtlik hiss edəcək, ya yox? Bunların xoşbəxtlik şərtləri olduğunu bildikdən sonra, Qurana üz tutub onun könüloxşayan sözlərini dinləyəcək və onların möminlərə vəd edildiyinin şahidi olacağıq. Allah da sözündə sadiqdir, yalan vəd etmir. Əlbəttə, söhbətin bu hissəsi bizim məzhəbimiz və Allaha inancımızla bağlı xas təfəkkür tərzimizdir.

İnsanın nələrə ehtiyacı var?

**Birinci:** Onun hədəfi və xoşbəxtlik bağını tanımağa ehtiyacı var. O, hara gedəcəyini, hansı məqsəd üçün çalışacağını bilməli, yolun son nöqtəsi haqda əvvəlcədən məlumatlı olmalıdır. Məqsədi anlayıb-öyrənməklə bərabər hansı yolla ona daha tez çatacağını da bilməlidir. Görəsən, məqsəd və ona çatdıran yolun sonu ilə tanış olmaq insan xoşbəxtliyinin əsas və ilk şərti deyilmi? Burada ilahi və materialist dünyagörüş arasında fərq yoxdur. Materialist də bunu qəbul edir. (Mötərizədə qeyd etmişik ki, ilk şərt hidayətdir. Amma ikinci şərt; burada göstərdiyimiz ikinci nömrə məntiqi tərtibə işarə deyil, çünki ikinci ilə birincinin yerini dəyişmək də olar. Biz ardıcıl yazsaq belə, onlara əlavələr də etmək olar.)

**İkincisi:** Nadanlıq, məğrurluq və güman kimi şüur və düşüncə gövhərini örtən, görmə və anlama qabiliyyətini aradan qaldıran bütün zülmət pərdələr kənara çəkilməlidir. Bir çox səbəblər insanı düşünməkdən saxlayır; məğrurluq, nadanlıq, xəyal, xurafat, zülmkar rejimlər fərdə və cəmiyyətə həqiqəti dərk etməyə imkan vermir, onu zülmət içində saxlayır, qaranlıqda həbs edir, onu işıqdan, düşüncə çırağından məhrum edir. İnsanın səadət və xoşbəxtlik sütunlarından biri də budur ki, insan bu qaranlıqlar və onu yaradan amillərdən qurtulsun, həqiqət qəndilini axtarıb tapsın, qəlbində həqiqət nuru işıqlansın. (Burada mötərizədə "nur" yazmışam.) Demək, birinci (qeyd edilən mənada) hidayətə, ikinci isə nura (verilən mənada) ehtiyac vardır. (Bu iki şərt!)

**Üçünücü:** Xoşbəxtliyə və son məqsədə doğru addımladığı uzun yolda xarici amillərdən daha da təhlükəli olan daxili vəsvəsələr və narahatlıqlar kimi azdırıcı amillərdən nicat tapmalıdır. Bir nəfər sizin qarşınızı kəsib deyir: "Buradan keçməyə icazəniz yoxdur." Təcrübə də göstərmiş, tarixdə də açıq-açkar sübuta yetmişdir ki, qarşısı alınan və

yolu bağlı olan insan bu yolu ötüb-keçmək üçün daha da hərisləşir, marağı daha da artır, ona doğru dayanmadan can atmağa başlayır. Əgər ona: “Yolu keçməyə imkan verməyəcəyik!” – deyilsə, onu keçmək üçün daha da can atacaq. Buna “xarici maneə” deyilir və bu maneə insanın vücudundan xaricdədir. Bəzən də maneə və amillər insanı daxilən çürüdür, onda şəkk-şübhə yaradır, yolunun qarşısını kəsir. Yol açıq olsa da onu ötüb-keçmək üçün gücü, iradəsi və hərəkəti olmur. Bu daha da təhlükəlidir: “Axı nə üçün gedirsən? Nə faydası var? Bəlkə, heç məqsədə çatmayacaqsan? Bəlkə, yolda oğru və yırtıcı heyvan var? İcazən varmı? Lazım deyil, getmə!” – kimi soyuqqanlı, qayğıkeş, müdrikcəsinə və ustadyana şübhələr açıq yolu ötüb-keçməyə əngəl törədir. Bu maneə, bu vəsvəsə və bu narahatlığa dözmək yolun ortasındakı xarici maneəni aşmaqdan daha çox güc tələb edir.

Bu narahatlıqlar tarix boyu əksər xoşbəxtlik yolçuları üçün olmuşdur. Həzrət Musaya (ə) nə qədər yalvardılar ki, sənə deyilənlərin yanlış, edilən vədlərin yalan olduğundan qorxuruq. Quranda buyurulur ki, yoxsulluq və fəlakət o qədər artmışdı ki, hətta xas bəndələr belə sarsılmışdılar: ***“Allahın köməyi nə vaxt gələcək?”***[1] Bəs hanı? Nə oldu?”

Bəli, hətta xas bəndələr sarsılır, daxili şübhə və gərginliklər içində çapalayırlar. Əgər insan xoşbəxt olmaq, məqsədə və xoşbəxtlik yolunun sonuna çatmaq istəyirsə, bir şətri də budur ki, həyəcanlar, sarsıntılar, ruhi gərginliklər, narahatlıqlar və daxili vəsvəsələrə qalib gəlməlidir. İnsanı xoşbəxtliyə yetirən yollardan biri də budur. (Mötərizədə “əmniyyət və xatircəmlik” qeyd etmişik, əmniyyətin yerinə təhlükəsizlik də qeyd edə bilərsiniz, fərq etməz. Quran ifadəsi olduğu üçün mən də “əmniyyət” sözünü seçdim.)

Bu sözü burada xatırlamağım yerinə düşər, bəlkə də dəfələrlə təkrarlamışam. “Kumeyl” duasında belə oxuyuruq:

يَا رَبِّ يَا رَبِّ يَا رَبِّ قَوِّ عَلَى خِدْمَتِكَ جَوَارِحِي وَ اشْدُدْ عَلَى الْعَزِيمَةِ جَوَانِحِي

*“Ey Rəbbim, ey Rəbbim, ey Rəbbim! Sənə xidmət üçün cismimə qüvvət ver və qəlbimdə əzmkarlığı artır”* ki, süstlüklərə, şəkk-şübhələrə, vəsvəsələrə və gərginliklərə qalib gələ bilim. Bu hallar insanı yol boyu yorur, hərəkətdən saxlayır.

**Dördüncü:** Öz fəaliyyətini səmərəli hesab etməli, ümidvar olmalıdır ki, bu fəaliyyəti onu məqsədə çatdıracaq. İş və fəaliyyətinin nəticə

1. “Bəqərə” surəsi, ayə 214.

verəcəyinə ümidsiz olanlar, şübhəsiz, səadət və xoşbəxtlik mənzilinə çata bilmirlər. Odur ki, insan fəaliyətinin səmərəli olacağına arxayın olmalı, yerinə yetirəcəyi hər bir işin mütləq müsbət bir iz buraxacağına inanmalı, atdığı hər bir addımın onu məqsədə daha da yaxınlaşdırdığına əmin olmalıdır. Əgər siz mənzilin hansı tərəfdə olduğunu və hansı istiqamətə doğru hərəkət etdiyinizi bilirsinizsə, gec olsa da, tək-tənha olsanız da, karvandan geri qalsanız da, möhkəm və qətiyyətlə, şövq və həvəslə addımlayar, irəliləyərsiniz. Yox, əgər yolu itirsəniz, hansı istiqamətə doğru hərəkət edəcəyinizi bilməsəniz, hansı istiqamətə tərəf getsəniz də yorğun olacağınızı görəcəksiniz. Nə üçün? Çünki hərəkətinizin səmərəli olacağından əmin deyilsiniz. Ehtimal edirsiniz ki, bu addımlar sizi məqsəddən yayındırır. Odur ki, həmin istiqamətə getməkdən üz döndərəcək və digər istiqamətə doğru yönələcəksiniz. Deməli, yolçu və zəhmətkeş insanın səadət və xoşbəxtliyə çatması üçün şərtlərdən biri də öz təlaş və hərəkətinin səmərəli olacağına əmin olmasıdır.

**Beşinci:** Səhv və büdrəmələri bağışlanılan və təlafi edilən olmalıdır. Bu da çox önəmli məsələdir. İnsan həyatı və fəaliyyəti boyunca səhvlərə, xətalara yol verir. Hər bir xəta sağalmayan yara tək qalarsa, insan növbəti xətaya qurşanacağı ilə bağlı narahatlıq hissi keçirəcək və beləcə, gündən-günə onu məqsəddən uzaqlaşdıracaq, yoldan çıxaracaq, həmişə keçmişin həsrətini çəkəcək, gələcəyə bədbin olacaq. Amma xətalarına görə peşman olub onların bağışlanacağı və aradan qalxacağına əmin olarsa, onun şövqü, ümidi və marağı neçə qat artacaqdır. (Mötərizədə bunun adını "rəhmət" və "məğfirət" kimi qeyd etmişəm.)

**Altıncı:** Hər zaman mökəm dəstəkdən yapışmalı, hər bir vəziyyətdə bir yardımçının yardımından bəhrələnəciyinə əmin olmalıdır. Bu halda eynilə yolun xəritəsini cibində gəzdirən bir şəxs kimi, ötüb-keçdiyi yolda səhvə yol vermədiyini, narahat olmadığını bildiyi halda, birdən yol əsnasında səhvən yolu itirsə də cibindəki xəritəyə baxıb yolu tapacaq. Hər zaman onun möhkəm sığınacaq yeri olmalıdır ki, ondan yapışsın və bəhrələnsin.

**Yeddinci:** Düşmənlər və düşmənçiliklər müqabilində Allahın himayə və yardımına güvənməlidir. Bu da səadət və xoşbəxtliyin digər bir şərtidir. Əlbəttə, materialist Allaha inanmadığından ona "Allah" adını işlətmirik, ona deyirik ki, maddi əməyiniz, ictimai fəaliyyətiniz və mübarizənizdə maddi qüvvənin arxasında metafizik bir qüvvə də sizinlə

birgədir. Bu, necə ola bilər? Özünüz üçün bir yardımçı təsəvvür edin. Bu necədir? Məsələn, bir nəfərin gözünü işıqdan qaçırdığını gördüyünüz halda, onun çox yaxşı olduğunu deyirsiniz. İnsanın dayağının maddi gücdən üstün metafizik bir qüvvədən ibarət olması, düşmənlər, düşmənçiliklər, qəddarlıqlar, hiylələr və məkrlərlə üzləşdikdə, həmin gücün onun hami və yardımçısı olması nə qədər də maraqlıdır! Düzdür, materialist Allahın adı ilə tanış olmasa da, Ona iananmasa da, Allahın yoxluğuna da əmin deyil. Lakin varlığına yəqin etdiyi, qalib və yenilməz qüdrətə sahib olduğu, bütün fenomenlərin fövqündə dayandığı bir ilaha güvənən insanın səadət və xoşbəxtlik yolunda necə də sürət və maraqla hərəkət etdiyinin şahidi olacaqsınız.

**Səkkizinci:** Müxalif cəbhə və cərgələrdən üstün olmağa çalışmalı, öz üstünlüyü və qalibiyyətinə inanmalıdır. İnsanın bu yolu daha da asan şəkildə ötüb-keçməsi üçün bu şərtin də öz növbəsində qəribə təsiri vardır.

**Doqquzuncu:** Yolu və məqsədinə maneçilik törətməyə çalışan düşmənlərə qələbə çalmalıdır. İnsan bütün təlaşlardan sonra məğlubiyyətə uğrayarsa, təbii ki, xoşbəxtlik yolundan qalacaq. Odur ki, bir insanın ən mühüm xoşbəxtlik amili sonda qələbəyə nail olmasıdır. Məgər belə deyilmi? Məgər dünyəvi məktəblər qələbə üçün çalışmırlarmı? Demək, fərdin və cəmiyyətin xoşbəxtlik amillərindən biri də düşmənlərlə mübarizədə qələbə qazanmasıdır.

**Onuncu:** Sonda bütün çətinliklər, sıxıntılar, hasarlar və maneələri aşaraq, öz məqsədinə və mənzil başına çatmalıdır. (Mötərizədə “uğur” və “müvəffəqiyət” qeyd etmişik, bu da Quranın ifadəsidir.)

**On birinci:** Hər zaman, istər yol əsnasında, istərsə də məqsəd və mənzilə çatdıqda, bu dünyada insan üçün hazırlanmış ehtiyatlardan, yerin və göyün onun üzərinə yağan bərəkətlərindən, yerin buğdası və göyün yağışından, dəniz və meşə nemətlərindən, dağların mədənlərindən, insana lazım olan bütün həyati və qeyri-həyati ehtiyaclardan, ən vacib isə onun üzünə açılmış əql, dərk, şüur və istedad mənbəyi və mədənindən layiqincə istifadə etməli, bəhrələnməlidir. İnsanın xoşbəxtliyində rolu olan amillərdən biri də budur. Bu kimi digər amilləri də öz xoşbəxtliyi yolunda önəmli bilməlidir.

Nəhayət, insan həyatı, fəaliyyəti və ayıqlığı zamanı yerinə yetirdiyi bütün bu məsələlərdən sonra onun həyat çırağı sönərək əbədiyyətə qovuşsa da (axirətdə) onlardan bəhrələnmə prosesi sona yetməyəcək,

istirahətinin, mükafat alacağının, rahat həyatının başlanğıc nöqtəsinə çevriləcək. Bir materialist isə öldükdən sonra bütün əmək və fəaliyyətlərinin nəticəsi elə dünyada qalır, dünyadan sonra ümid yeri yoxdur. Ona demək lazımdır ki, əgər öldükdən sonra (fərz edin və fərz etmək də qeyri-mümkün deyil), onun ölümünün əvvəli rahat həyatının başlanğıcı olarsa, necə? Gördünüz ki, bu, xoşbəxtliyin ən böyük şərtidir və nəhayət, həyat dövranı və bütün fəaliyyətlərə son qoyulduqdan sonra, mükafatlarla, nemət dolu "Rizvan cənnəti"nə layiq görülməsi ilə üzləşəcək.

Bunlar xoşbəxtliyin şərtləridir. Bir fərdin və cəmiyyətin səadət və xoşbəxt olması üçün bu şərtlər zəruridir. İndi isə Quranın sözünə – öhdəliklərə əməl edən iman sahibinə verilən müjdələrə – qulaq asaq. Quran xoşbəxtliyin on bir amili, eləcə də, digər şərt və prinsiplərinə əməl edən iman əhlini hidayət, nur, əmin-amanlıq, rahatlıq, ruhi aramlıq və zəhmətlərin puça çıxmayacağı ilə müjdələyir. Biz tarixə, keçmişə, tarixi və bəşəri həqiqətlərə aydın gözlə baxsaq, ilahi qanunauyğunluğun həmişə eyni olduğunu görəcəyik.

Üzündən oxunulan və azacıq izah edilən bu müqəddimədən sonra bugünkü ayələri diqqətlə izləyək. Birinci ayə "Yunis" surəsinə aiddir. Bu gün oxuyacağımız ayələr Quranın ayrı-ayrı yerlərindəndir:

إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ

***"İman gətirən və saleh əməllər yerinə yetirənləri Rəbbi iman gətirdiklərinə görə hidayət edər."***[1]

Mötərizədə saleh əməli bir ifadədə, qısa şəkildə belə izah etmişik: İmanla mütənasib olan öhdəlik. İman insanın çiyninə öhdəliklər qoyur; saleh əməl həmin öhdəlikləri yerinə yetirməkdir. Demək, iman gətirən, sonra isə öhdəliklərinə uyğun əməl edənləri Rəbbi iman gətirdiklərinə görə hidayət edəcəkdir. İman həm yolu, həm hədəfi, həm də vasilələri tapmağa səbəb olur. Bəziləri deyirlər ki, axi biz hədəfə, mənzil başına necə çata bilərik? Bu sözü araşdırdıqda, onun qəlbində hələ imanın ilkin mərhələsinin belə olmadığını, əgər iman olsa belə, əməllə birgə olmadığını görəcəyik. Əgər əməl etsə, hidayətə qovuşacaq, aydınlığa çıxacaq və sonrakı mərhələyə də qədəm qoyacaq.

خود راه بگويدت كه چون بايد رفت

1. "Yunus" surəsi, ayə 9.

**“Yol özü sənə deyəcək ki, getməli, onu mütləq ötüb-keçməlisən.”**[1]

İnsan hədəfə iman gətirib onun ardınca hərəkət etdikdə, yol özünü göstərəcək. يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ – Allah iman vasitəsilə onlara doğru yolu göstərəcək, yolu onların üzünə açacaq.

İlk addımda heç bir rəhbər, heç bir şəxsiyyət, heç bri yolçu onuncu addımın nə olacağını bilmir. Mən bəzən belə bir misal çəkirəm: Fərz edin, eni-uzunu onlarla kilometr olan bir düzənlikdə ikən aysız-ulduzsuz, qaranlıq bir gecədə əlinizdə bir çıraq, ya fənər, ya da bir şam tutduğunuz hada yol gedirsiniz. Sizə: “Bu çıraq və şamla düzənliyin sonuna qədər getməlisiniz!” – deyildikdə, siz ona baxıb deyəcəksiniz: “Axı, bu şam bir metri belə işıqlandırmırsa, onunla on kilometrlik yolumu qət etməliyəm?” Bu məlumatsız, təcrübəsiz və səriştəsiz bir insanın məntiqidir. Ona nə cavab vermək lazımdır? Sizcə, bu kor məntiqin cavabı nə ola bilər? Onun cavabı odur ki, həmin çıraq bir metrlik məsafəni işıqlandırırsa, metr-metr irəli addımlamalı, mümkün olmadığı təqdirdə getməməlidir. Sən hələ işıqlanan bu bir metri və addımı qət et, əgər önündəki növbəti addım işıqlanmazsa, dayan, irəliləmə, yenə işıqlandıqda, yoluna addım-addım davam et. O zaman, tədricən, düzənliyin sonuna çatdığını və qaranlıq yolu addım-addım ötüb mənzil başına çatdığını görəcəksən. Bəlkə, belə deyil? يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ– Allah onları imanlarına görə hidayət edəcək. Bəli, iman insana yolun tapılmasında yardımçıdır.

Quranın digər bir neçə ayəsində də bu məsləyə işarə olunur. Bu vərəqdə qeyd etmədiyim bir ayədə buyurulur ki, bir surə, yaxud bir ayə nazil olduqda, kafirlər, müxaliflər, münafiqlər və qəlbləri xəstə olanlar deyirdilər:

أَيُّكُمْ زَادَتْهُ هَـذِهِ إِيمَانًا

***“Bu (surə) sizin hansınızın imanını artırdı?”***[2]

Peyğəmbərə (s) buyurulur ki, onlara belə cavab versin: Möminlər və haqqa üz tutanların bu surə və ayə ilə imanları artır. Onlar qəlbən iman gətirdiklərindən bu hidayət mayasından hidayət əldə edirlər.[3]

**Növbəti ayə:**

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ

1. Əttar Nişapurinin şeiri.
2. “Tövbə” surəsi, ayə 124.
3. Mötərizədə izah etdiyimiz məsələlərə diqqət yetirin.

***“Ey insanlar! Sizə Rəbbiniz tərəfindən (qəti, aşkar və sabit) bir dəlil gəlmişdir.”***

وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا

***“Biz sizə aydın bir nur nazil etdik.”***[1]

“Dəlil” və “nur” ifadələrində məqsəd “Quran” və “Quran həqiqətləri”dir. Növbəti ayə buna dəlil-sübutdur:

فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ وَاعْتَصَمُواْ بِهِ فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا

***“Allah Ona iman gətirən və Ondan möhkəm yapışanları öz mərhəməti, lütfünə şamil edər və onları Özünə tərəf gedən düz yola hidayət edər.”***[2]

İman təklikdə kifayət deyil, onunla bərabər Allahdan, dinindən və yolundan da möhkəm yapışmaq lazımdır. Belə olduqda, Allah-Taala Öz lütfü və mərhəməti sayəsində iman gətirib Ondan möhkəm yapışanları Özünə doğru hidayət edəcək, onlara düzgün və yaxın yolu göstərəcəkdir. Bu hidayət möminlərə məxsusdur. İman gətirib Ondan və Onun yolundan yapışmayanlar və Allahın qarşısında öz öhdəliklərini icra etməyənlər Allaha doğru gedən yolu tapa bilməzlər, hidayət çırağı onların qəlbini işıqlandırmaz.

Başqa bir ayə:

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا

***“Bizim yolumuzda cihad edənləri, şübhəsiz, Öz yollarımıza hidayət edəcəyik.”***

Bu ayə məşhurdur və dillərdə çox dolanır. ***“Bizim yolumuz”,*** yəni Allahın yolu, ilahi hədəflər. Allahın yolu və ilahi hədəflər nədir? Ədalət, əmniyyət, bəndələrin Onun müqabilində bəndəçilik etməsi, Allah bəndələrinin təkamülə yetməsi, yer üzünün, eləcə də, insanların qəlblərinin, dünya və axirətinin abadlaşması, bütün varlıqların təkamül yolunda hərəkət etməsi, həmçinin gümana, şirkə, küfrə, hərc-mərcliyə, vəhşilik və qəddarlığa, haqsızlıq və zorakılığa son qoymaq – bütün bunlar Allahın istəkləridir. Bəli, Bizim hədəf və istəklərimiz uğrunda mübarizə aparanlara, sözsüz, Öz yollarımızı göstərəcək, onları çaşğınlıqda buraxmayacaq və azğınlıqda qoymayacağıq. Öncə oxuduğum şeir bu hissəyə aiddir:

---

1. “Nisa” surəsi, ayə 174.
2. “Nisa” surəsi, ayə 175.

تو پای به راه در نه و هيچ مپرس
خود راه بگويدت كه چون بايد رفت

**“Sən yola ayaq bas, heç nədən qorxma, yol özü sənə deyəcək ki, getmək lazımdır.”**

Bütün sahələr belədir, hər bir sahədə – dini, ictimai, dünyəvi məsələlərdə mübarizə və çalışqanlıq labüddür. İlahi hədəflərə doğru addım atan şəxs də addım atdıqca, növbəti addım onun üçün aydınlaşır. Bizim yolumuz və ilahi hədəflər uğrunda cihad edənlərə səadət və təkamül yollarını göstərəcəyik.

وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ

***“Şübhəsiz ki, Allah yaxşı əməllər yerinə yetirənlərlədir!”***[1]

Bu ayələr hidayətlə bağlı idi. Bu mövzuda ayələr çoxdur, lakin ayələrin hamısını qeyd edib oxusaydıq, heç olmasa, üç-dörd gün (məclis) bu haqda danışmalı olacaqdıq.

Qeyd etdik ki, nur insanın xoşbəxtliyi üçün zəruri şərtlərdən biridir və ötən səhifədə onunla bağlı qısa şəkildə söz açdıq. Quranda möminlərə nur vəd edilir:

اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ

***“Allah iman gətirənlərlə birgədir, onları zülmətlərdən çıxarıb nura tərəf yönəldər.”***

Allah möminlərin rəhbəridir, onlarla eyni cərgədədir. Mən (ayədə qeyd olunan) “vəliyy” sözünü “eyni cərgədə və birgə” məna edir və onu “rəhbər və dost” mənalarına tərcih edirəm. Çünki vilayət “birgə“– bir-birinə yapışıb bağlanan iki şey mənasını ifadə edir. “Allah möminlərin vəlisidir” dedikdə, “Allah həmişə möminlərlə birgədir” nəzərdə tutulur. “Allah möminlərlə birgədir” nə deməkdir? O deməkdir ki, Allah və möminlər bir cərgədə, Allah düşmənləri isə başqa bir cərgədə, Allahla möminlərə müxalif cəbhədədirlər. “Vəliyy” sözü Qurani-Kərimin hər bir ayəsində (Vəllahu vəliyyul-mu`minin[2] – ***“Allah möminlərin vəlisidir”*** və yaxud əvliyaullah – ***“ilahi övliyalar”***) işlənibsə, bu mənanı ifadə edir. Bunu unutmayın!

اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ

***“Allah iman gətirənlərin rəhbəri və onlarla eyni cərgədədir.”***

يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ

1. “Ənkəbut” surəsi, ayə 69.
2. “Ali-İmran” surəsi, ayə 68.

***"Onları zülmətlərdən çıxarıb nura tərəf yönəldər."***

"Zulumat" (zülmətlər) sözünün başa düşülməsi üçün azacıq izaha ehtiyac var. Yəni, möminləri zülmətlərdən – nadanlıq, xurafat, məğrurluq, qəddar və insanlığa zidd rejimlər, bəşər və bəşərin idrak gövhərini qaranlıq quyularda həbs edən hər bir şeydən nicat verib nura – elm, mərifət və insani dəyərlərə doğru yönəldər. Budur Allahın möminlərlə rəftarı! Qeyri-möminləri, imansızları, şəkk-şübhə yaradanları və nankor kafirləri heç vaxt nura tərəf çıxarmayacaq. Odur ki, Allaha şərik qoşanlar həmişə çaşqınlıqdadır, həmişə narahatdır, onların həyatı hər zaman iztirab və həyəcanla doludur, nuranilik və maarifdən uzaqdır. Kafirlər necə? Dini məktəbə və dini təlimlərə nankorluqla yanaşan və xor baxanlar, bu ilahi hədiyyə və nemətləri nankorluqla inkar edənlər "kafir" adlanır. İşlətdiyim ifadələrə diqqət yetirin. Bu ifadələr "kafir" sözünün kökünü və hansı məna daşıdığını aydınlaşdırır. Dini qəbul etməyənə "kafir" deyilir. "Kafir" – neməti gizlədən, nemətə nankor olan deməkdir. Nə üçün dini qəbul etməyənə kafir deyilir? Çünki din Allahın töhfəsidir, bütün insanların xoşbəxt olması üçün Allah tərəfindən göndərilən bir hədiyyədir. O isə bunu dandığı, nemətə nankorluq etdiyi üçün "kafir" adlanır.

وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ

***"Küfr və inkar edənlərin rəhbəri və cəbhə yoldaşı isə tağut və təcavüzkarlardır."***

يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ

***"Onları mərifət nurundan uzaqlaşdırıb qaranlıqlar və zülmlətlər zindanına salarlar."***

أُوْلَـئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ

***"Onlar Cəhənnəmin yoldaşlarıdır və orada həmişəlik qalacaqlar!"***[1]

Başqa bir ayə:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْرًا كَثِيرًا

***"Ey iman gətirənlər! Allahı çox yad edin!"***

---

1. "Bəqərə" surəsi, ayə 257.

Bir ayə qaldı. Onu da oxuyum, mən artıq yorulmuşam, vaxta da az qalıb. Əziz qarimiz Cənab Rizayi bu gün həmin ayələri vərəqdən tilavət edəcək, əlbəttə, öncəki qərara əsasən, vərəqdə qeyd olunan ayələri Quranla tətbiq etməli idi, mütləq tətbiq edib və indi də vərəq üzündən tilavət edəcək. Bu vərəqdə məna və tərcümələri ilə birgə qeyd edilən bu ayələri onun təsirli və könüloxşayan səsi ilə dinlədikdə, ruhunuza daha da təsirli olacağını görəcəksiniz.

وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا

***"Ona səhər və axşam müqəddəslik və paklıqla təriflər deyin!"***

Nə üçün? Çünki:

هُوَ الَّذِي يُصَلِّي عَلَيْكُمْ وَمَلَائِكَتُهُ

***"Mələkləri ilə birlikdə sizə salam göndərən Odur!"***

Nə üçün salam göndərir?

لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ

***"Sizi zülmətlərdən çıxarıb nura və işıqlığa doğru yönəltmək üçün."***[1]

Bu Quran, bu da Quranın müjdəsi! Başqa müjdələr də var ki, inşallah, sabah qeyd edəcəyik! Əgər Quranın bütün müjdələrini, bizə və iman əhlinə vəd etdiklərini bir-bir saymaq istəsəm, şübhəsiz, 10-12 gün (məclis) çəkəcək. Odur ki, bu haqda yalnız sabah bəhs edəcəyik, əgər ehtiyac olsa və məcbur olsaq, o biri gün də davam edərik, əks-halda, sabah bitirərik!

---

1. "Əhzab" surəsi, ayə 41-43.

**Xülasə**

**Çərşənbə axşamı – Ramazan ayının 7-ci günü**

**MÜJDƏLƏR**

İnsanın kamil və əhatəli xoşbəxtlikdən bəhrələnməsi üçün nələrə ehtiyac var?

1. Hədəfi, xoşbəxtlik mənzilini və onun yolunu tanımağa ehtiyacı var (hidayət);

2. Nadanlıq, məğrurluq və gümanlar kimi şüur və düşüncə gövhərini örtən, görmə və qavrama qabiliyyətini aradan qaldıran bütün zülmət pərdələri kənara çəkilməli, qəlb həqiqət nuru ilə işıqlanmalıdır (nur);

3. Xoşbəxtliyə və son məqsədə doğru addımladığı uzun yolda xarici amillərdən daha da təhlükəli olan daxili vəsvəsələr və narahatlıqlar kimi azdırıcı amillərdən nicat tapmalıdır (əmniyyət və xatircəmlik);

4. Öz fəaliyyətini səmərəli hesab etməlidir;

5. Səhv və büdrəmələri bağışlanılan və təlafi edilən olmalıdır (rəhmət və məğfirət);

6. Hər zaman möhkəm dəstəkdən yapışmalıdır;

7. Düşmənlər və düşmənçiliklər müqabilində Allahın himayə və yardımına güvənməlidir;

8. Müxalif cəbhə və cərgələrdən üstün olmağa çalışmalıdır;

9. Yolu və məqsədinə maneçilik törətməyə çalışan düşmənlərə qələbə çalmalıdır;

10. Bütün çətinliklər, sıxıntılar, hasarlar və maneələri aşaraq, öz məqsədinə və mənzil başına çatmalıdır (uğur və müvəffəqiyət).

11. Hər zaman, istər yol əsnasında, istərsə də məqsəd və mənzilə

çatdıqda, bu dünyada insan üçün hazırlanmış ehtiyatlardan bəhrələnməlidir...

Nəhayət, həyat dövranı və bütün fəaliyyətlərə son qoyulduqdan sonra mükafatlarla, nemət dolu "Rizvan cənnəti"nə layiq görülməsi ilə üzləşəcək.

İndi isə Quranın sözünə və onun öhdəliklərə əməl edən iman sahibinə verdiyi müjdələrə qulaq asaq:

1. Hidayət:

إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ – ***"İman gətirən və saleh əməllər (imanla uyğun öhdəliklər) yerinə yetirənləri Rəbbi (əməllə yanaşı) iman gətirdiklərinə görə hidayət edər."***

("Yunus" surəsi, ayə 9.)

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُم بُرْهَانٌ مِّن رَّبِّكُمْ – ***"Ey insanlar! Sizə Rəbbiniz tərəfindən (qəti) bir dəlil gəlmişdir."***

وَأَنزَلْنَا إِلَيْكُمْ نُورًا مُّبِينًا – ***"Biz sizə aydın bir nur nazil etdik."***[1]

فَأَمَّا الَّذِينَ آمَنُواْ بِاللّهِ وَاعْتَصَمُواْ بِهِ – ***"Allah Ona iman gətirən və Ondan möhkəm yapışanları***

فَسَيُدْخِلُهُمْ فِي رَحْمَةٍ مِّنْهُ وَفَضْلٍ وَيَهْدِيهِمْ إِلَيْهِ صِرَاطًا مُّسْتَقِيمًا – ***öz mərhəməti, lütfünə şamil edər və onları Özünə tərəf gedən düz yola hidayət edər."***

("Nisa" surəsi, ayə 175.)

وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا – ***"Bizim yolumuzda (ilahi hədəflər uğrunda) cihad edənləri, şübhəsiz, Öz yollarımıza (insanın xoşbəxtlik və təkamülünü göstərən yollara) hidayət edəcəyik."***

وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ – ***"Şübhəsiz ki, Allah yaxşı əməllər yerinə yetirənlərlədir!"***

("Ənkəbut" surəsi, ayə 69.)

2. Nur:

اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ – ***"Allah iman gətirənlərin rəhbəri və onlarla eyni cəbhədədir, onları zülmətlərdən (nadanlıq, xurafat, məğrurluq, qəddar və insana zidd rejimlərdən) çıxarıb nura (elm, mərifət və insani dəyərlərə) tərəf yönəldər."***

وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ – ***Küfr və inkar edənlərin rəhbəri və cəbhə yoldaşı isə tağut və təcavüzkarlardır. Onları mərifət nurundan uzaqlaşdırıb qaranlıqlar və zülmlətlər zindanına salarlar."***

---

1. "Nisa" surəsi, ayə 174.

أُوْلَـئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ – ***“Onlar Cəhənnəmin yoldaşlarıdır və orada həmişəlik qalacaqlar!”***

(“Bəqərə” surəsi, ayə 257.)

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْرًا كَثِيرًا – ***“Ey iman gətirənlər! Allahı çox yad edin!”***

وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا – ***“Ona hər səhər və axşam müqəddəslik və paklıqla təriflər deyin!”***

هُوَ الَّذِي يُصَلِّي عَلَيْكُمْ وَمَلَائِكَتُهُ لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ – ***“Sizi zülmətlərdən çıxarıb nura və işıqlığa doğru yönəltmək üçün mələkləri ilə birlikdə sizə salam göndərən Odur!”***

(“Əhzab” surəsi, ayə 41-43.)

# YEDDİNCİ MƏCLİS

## MÜJDƏLƏR-2

Çərşənbə axşamı – 1974/09/25
Ramazan ayının 8-i.

بسم الله الرحمن الرحيم

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ.الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ
الصَّالِحَاتِ طُوبَى لَهُمْ وَحُسْنُ مَآبٍ

***“Allaha iman gətirən və qəlbləri Allahı yad etməklə aramlıq və sabitlik tapan kəslər (Allaha doğru hidayət olunurlar)***! **Agah olun ki,** ***qəlblər yalnız Allahı yad etməklə aramlıq və sabitlik tapır! İman gətirib saleh əməllər yerinə yetirənlərin bu günləri xoş, gələcəkləri isə gözəl olacaq!***

“Rəd” surəsi, ayə 28-29.

Qeyd etdik ki, Allah-Taala Qurani-Kərimdə xoşbəxtliyin bütün amillərini möminlərə müjdə vermişdir. Təsəvvür məqamında xoşbəxtlik amilləri ilə bağlı əldə etdiyimiz 10-12 amilə ötən tilavət və məclisdə işarə etdik. Bütün bunlar Qurani-Kərimdə möminlərə qəti müjdə olaraq verilmişdir. Həmin müjdələrdən "hidayət" və "nur" adlı iki müjdəni dünən Quran ayələrinə istinadən tilavət etdik və bəhrələndik. Bu gün də digər iki müjdəyə toxunacaq, ayələrini oxuyacaq və qalanını siz dostların öhdəsinə qoyacağıq. Ötən yazıda tənzimlədiyim tərtib əsasında mövzuları icmali şəkildə nəzərdən keçirin. Quranı mütaliə və tilavət edənlər – ərəbcə oxuya bilənlər Quranın (ərəbcə) mətninə, ərəbcə oxuya bilməyənlər Quranın tərcüməsinə diqqət yetirməklə – həmin mövzuları arayıb-axrtarsınlar.

Misal üçün həmin mövzu və müjdələrdən biri axirət savabıdır. Qurana nəzər yetirin, görün, neçə yerdə, hansı ayələrdə möminlərə, saleh əməl yerinə yetirən iman sahiblərinə axirət savabı verilir? Həmçinin, həmin müjdələrdən biri düşmənə qələbə çalmaqdır; baxın görün, Quranda elə bir ayə varmı ki, Allah-Taala möminlərə düşmənləri məğlub edəcəklərini xəbər versin? Hal-hazırda möminlərin, imanın öhdəliklərinə əməl edən iman əhlinin düşmənlərə, müxalif cərgələrə qalib gələcəyəni, möminlərin öz əqidəsi uğrunda çalışdığı zaman, sonda düşmənlərə zəfər çalacağını aşılayan bir ayə haqqında məlumatınız varmı? Quranda bu haqda ayə var, ya yox? Qardaşlar cavab versin: Quranda belə ayə varmı? Kim belə bir ayə xatırlayırsa, elə indi oxusun.

Məclisdə iştirak edənlərdən biri bu ayəni tilavət edir:

وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ

***“Əgər möminsinizsə, siz üstünsünüz!”***[1]

Çox gözəl! Bu bir ayə.

وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ

***“Ruhdan düşməyin və qəmgin olmayın. Halbuki, əgər möminsinizsə, siz üstünsünüz”,*** düşmənlərlə müqayisədə qalib və güclü əl sizə məxsusdur. Digər müxtəlif ayələrdə də möminlərə müjdə və vədə verilir ki, düşmənlərə, müxalif cəbhələrə qətiyyətlə qalib gələcəklər:

كَتَبَ اللَّهُ لَأَغْلِبَنَّ أَنَا وَرُسُلِي

***“Allah “Şübhəsiz, Mən və peyğəmbərlərim qalib gələcəyik!” – deyə yazmışdır.”***[2]

وَإِنَّ جُندَنَا لَهُمُ الْغَالِبُونَ

***“Bizim əsgərlərimiz (möminlər) mütləq (kafirlərə) qələbə çalacaqlar!”***[3]

Bu kimi ayələr çoxdur. Bu ayələri nəzərdən keçirin. Quran oxuyarkən bir surəni və yaxud bir cüzü tez oxuyub sona yetirmək əvəzinə, onu anlamağa daha çox çalışın. Allahın Rəsulundan (s) və yaxud İmamdan (ə) nəql olunan bir rəvayətdə buyurulur ki, Quran oxuduğunuz zaman surəni və yaxud cüzü sona yetirməyə tələsməyin, əksinə bir ayə oxuyun, lakin onun üzərində diqqətlə düşünün. Baxın görün, oxuduğunuz ayədə xoşbəxtliklə bağlı qeyd etdiyimiz müjdələr var, ya yox, xoşbəxtlik amilləri vəd edilib, ya yox? Məqsədim budur ki, siz özünüz Qurana müraciət edəsiniz!

Mən Ramazan ayının sonuna qədər sizin üçün Qurandan, təqribən, əlli-altmış ayə oxuyub tərcümə və məna edə biləcəyəm. Halbuki, Quranda altı mindən çox ayə var. Özünüz Quranla ünsiyyətdə olun; ərəbcə bilənlər Quranla ünsiyyət və dostluğunu daha da möhkəmlətsinlər, ərəbcə bilməyənlər də ərəbcə oxumağa cəhd etməklə yanaşı, Quran dili ilə də tanış olsunlar. Quranı oxuyub-anlamağı ərəb əlifbasını öyrəndikdən sonraya həvalə etməyin, elə indidən oxumağa başlayın, yaxşı tərcümələrə müraciət edin. (Nəzərimcə, bəzi yaxşı və bəyənilən tərcümələr var.) Quran oxuyarkən, onun tərcüməsinə də diqqət yetirin, ayələrin mənaları üzərində düşünün. Görün, bizim burada qeyd etdiyimiz müjdələrin hansını Quranda tapa biləcəksiniz? Mən bu gün

1. “Ali-İmran” surəsi, ayə 139.
2. “Mücadələ” surəsi, ayə 21.
3. “Saffat” surəsi, ayə 173.

Quranda qeyd olunan bu müjdələrdən nəzərimdə tutduğum iki müjdəyə toxunacaq, qalanlarını isə sizin öz öhdənizə qoyacağam. Ümid edirəm ki, siz də bunu Ramazan ayından sonraya və yaxud bekar vaxtınıza saxlamayacaqsınız, elə bu gün və bu gecədən, ilk fürsətdə bu niyyətlə Quranı açıb oxuyun, onunla tanış olun, ünsiyyət qurun və Qurandan bəhrələnməyə alışın. Bir sözlə, Quran tükənməz maarif mənbəyidir. Bizim səadət və xoşbəxtliyimizi təmin edən təsirli amilləri Qurandan əldə etməyi bacarmalıyıq. Quran kimi qəti və aydın mətn əlimizdədir, mütləq ondan bəhrələnməliyik.

Əlbəttə, bu qeydləri yalnız Qurana deyil, həm "Nəhcül-bəlağə"yə, həm də məsum imamlarımızdan (ə) nəql olunan səhih hədislərə aid etmək istəyirəm. Qurani-Kərimin yanında "Nəhcül-bəlağə"dən, səhih hədislərdən də bəhrələnmək lazımdır. Lakin "Nəhcül-bəlağə" və hədislərə əl tapmaq asan olmasa da Quran hamının ixtiyarında olan bir mətndir və insan onun düzgün və kamil nüsxəsini öz cibində belə daşıya bilər.

Bəli, biz yuxarıda "əmniyyət, arxayınlıq və xatircəmlik" ifadələrini qeyd etdik və bu üç ifadənin bir-birinə yaxın olduğunu və eyni məna daşıdığını düşündük. Öncə bu üç ifadə ilə bağlı məqsədimizi qeyd edəcək, sonra isə Quran ayələrinə müraciət edəcəyik ki, "əmniyyət, arxayınlıq və xatircəmlik"lə bağlı Quran ayələrinin bizə nə öyrətdiyini anlayaq. Qəlbin və ruhun rahatlığı və aramlığına "xatircəmlik" deyilir. "Aramlıq" dedikdə, nə nəzərdə tutulur? Ruhumuzun hərəkətsizliyi, qəlbimizin yarı oyaq, yarı yuxulu halətində olması deməkdirmi? Xeyr! Xatircəmlik və aramlıq dedikdə, iztirab, narahatlıq və sarsıntının əksini nəzərdə tuturuq.

İki nəfəri nəzərdən keçirin; hər ikisi imtahanda iştirak etməlidir. Onlardan biri dərsələrini yaxşı oxumuş, on dəfə təkrarlamış, dostları ilə bəhs edərək kitabı bütün incəliklərinə qədər öyrənmişdir. Digəri isə kitabın üzünü açmamış, ya da bir hissəsini oxumuşdur, amma öz yaddaşına heç güvənmir. Hər ikisi də imtahana girməlidir. Sizcə, onlar eyni ruhiyyəyə sahibdirlərmi? Birinci şəxs imtahan otağına ruhi aramlıq və sakitliklə, həyəcan, stress və narahatlıq keçirmədən girəcək və deyəcək: "Nə istəsəniz, soruşa bilərsiniz, hamısını bilirəm." İkinci şəxs isə stress və narahatlıq yaşayacaq, dənizdə fırtınaya düşən, gah o tərəfə, gah bu tərəfə yırğalanan qayıq tək təlatümdə olacaq. Onun ruhi haləti

eynilə bu vəziyyətə düşəcək. Bir hakim qarşısında dayanan, eləcə də icitimai fəaliyyətlərdə və tarixin böyük ictimai mübarizələrində iştirak edən fərd və cəmiyyətin həmin iki halət və ruhiyyəsini də nəzərdən keçirə bilərsiniz.

Fərqli ruhiyyələrlə döyüş meydanına daxil olan iki əsgəri misal çəkək: Onlardan biri tam hazırlıqlı, döyüş təchizatına sahib, tədbirli, səngər həyatına, döyüş təcrübəsi və taktikalarına, düşmən qüvvəsinin zəif nöqtələrinə bələd, özü və əsgər yoldaşlarının bacarıqlarına inamlıdır. Bununla yanaşı, arxa cəbhədə hazır vəziyyətdə gözləyən köməkçi qüvvələrin də bir işarə ilə döyüş meydanına daxil olacağını da yaxşı bilir. O biri əsgər isə öz döyüş təchizatına, əsgər yoldaşlarının bacarıqlarına və silahların keyfiyyətinə əsla güvənmədiyi, özünü zəif, düşməni isə güclü, özünü əliyalın, düşməni isə zirehli və silahlı gördüyü halda, döyüş meydanına qədəm qoyur.

Bunlar aramlıq və xatircəmliklə bağlı nümunələrdir ki, sizə ruhi və qəlbi aramlığın mənasının dəqiq aydınlaşması üçün qeyd etdim. Birinci əsgər xatircəmdir, qəlbi aramdır. Qəlbin aramlığı döyüş meydanında ayaqqabıları baş altına qoyub xorhaxorla yatmaq və yaxud döyüşün qızğın yerində rahatca siqaret çəkmək, mənzərəli yerlərə tamaşa edərək düşmənin hücumlarından xəbərsiz qalmaq anlamında deyil, əksinə “nigaran olmamaq”, “həyəcanlanmamaq” mənasındadır; çünki gələcək onun üçün aydındır, zəfər çalacağını yaxşı bilir, buna görə də qorxmur, qəlbi və ruhu aramdır. Böyük yük gəmisi kimi, dənizdə sakitcə hərəkət edir. Buna xatircəmlik və aramlıq deyilir. Onun əksi isə kiçik qayığı, təlatümlü dənizdə və çayda hərəkət edən taxta parçasının hərəkətini xatırladır; daim təlatümdədir, bu tərəfdən o tətəfə atılır, gah irəli, gah da geriyə hərəkət edir. Bu da bir-birindən fərqli iki ruhiyyə!

Xatircəmliyə aid növbəti bir misal çəkib yavaş-yavaş Quran nəzərindəki xatircəmlik ruhiyyəsinə yaxınlaşaq. Burada imtahan verən bir şagirdin, məhkəmədə hakimin qarşısında dayan bir müttəhimin və döyüş meydanında vuruşan bir əsgərin ruhiyyəsini misal çəkdikdən sonra, növbəti bir misala da diqqət yetirək. Məqsədə doğru yola düşən bir yolçunu məqsədindən yayındıran və geri qaytaran onlarla səbəb ola bilər; həmin səbəblərdən birinin qorxu olması da mümkündür. Qorxu hissi onu yolu davam etməkdən saxlaya bilər. Nədən qorxu? Yol əsnasında ac qalmaqdan, pusquda gözləyən oğru və yaxud yırtıcının ona

hücum çəkməsindən, yolun çətinliyindən, yuxusuzluqdan, bir sözlə, məqsədə çatmamaqdan qorxu hissi! Bunlar yolçunu yolundan saxlayıb geri qaytaran səbəblərdir.

Hərislik da həmin səbəblərdən biridir. Nəyə hərislik? Rahat həyat tərzinə; "bəlkə, bu yolu davam etməyim və öz evimdə yumşaq və isti çarpayıda, ailə-uşaqlarımın yanında uzanıb yatım" – kimi düşüncələr sravi, kiçik və zəifruhlu bir insan üçün ideal, sevimli və ürəkaçandır. Aydındır ki, onu asanlıqla əldən vermək istəmir, rahat həyat tərzinə, "bu yolu getməsən, sənə bu qədər pul verəcəyəm, əgər bu işlərindən əl çəksən, səni bu vəzifəyə təyin edəcəyəm, məqsədindən dönsən, səni yüksək vəzifələr gözləyir" – deyən şəxsin verdiyi pula və təyin etdiyi vəzifəyə hərislik və tamah salmaq insanı yolunu davam etməkdən yayındırır; qorxular və hərisliklər! Həm qorxu, həm də tamahkarlığı incələdikdə, müxtəlif səbəblər tapılacaq: rahatçılıq və rifah ardınca olmaq, fürsət və mənfəət güdmək və s.

İndi isə risk edib yola düşən və hərəkətinə davam edən bir yolçunu təsəvvür edin. Görəsən, yola düşdükdən sonra onu hərəkətdən saxlayan bir amil olmayacaqmı? Öncədən onun yola düşməsinə maneçilik törədən qüvvə aradan qalxdımı? Xeyr, hələ də həmin amil və maneələr aradan qalxmayıb! Yaxşı diqqət yetirin! Bu narahatedici qüvvələr uzun yola düşməkdən öncə maneçilik törətdiyi kimi, yola düşdükdən sonra da onu rahat buraxmayacaq, hər addımbaşı tikan tək ayağına batacaq, ayaqlarına qandal vuracaq, əlindən tutub hərəkətdən saxlayacaq, biri o tərəfə, digəri isə bu tərəfə çəkəcək; övlad sevgisi, rahat həyat tərzi onu özünə cəlb edəcək, müxtəlif amillər onu hər tərəfdən dövrəyə alacaq, onu müxtəlif yerlərə çəkib aparacaq, bir sözlə, sarsılacaq, qayıq tək o tərəf, bu tərəfə çırpılacaq. Budur xatircəm olmayan insanın halı!

Amma elələri də var ki, məqsədli şəkildə, qətiyyət və ciddiyyətlə yola düşdükdə, bütün kiçik maneələri unudur, onun qəlbini çəkən böyük cazibələr müqabilində qadın, övlad, həyat, pul, vəzifə və can kimi kiçik cazibələr puç görünür, təsirdən düşür. On ədəd maqnit parçası kiçik bir cismi istədiyi tərəfə çəkib aparır. Lakin həmin cismi istədiyi tərəfə çəkib aparan güclü bir maqnit tapıldıqda, digər maqnit parçaları sıradan çıxır.

Güclü cazibə və yüksək ruhiyyə ilə yola düşüb hərəkət edən insana qadın, övlad və digər cazibələr, gözəlliklər, rahatlıqlar, xoşluqlar, ləzzətlər, eyş-işrətlər təsir edə bilmir. Həmin insan kimdir? Arxayın və

xatircəm insan!:

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً

***“Ey xatircəm və arxayın nəfs (kəs)! Dön Rəbbinə tərəf, sən Ondan razı olaraq, O da səndən!”***[1]

Xatircəm və arxayın kəs, yəni Allahın yolunu sona qədər arxayınlıqla ötüb-keçən, xatircəmliklə hədəf və məqsədinə nail olan kəs! Xatircəmliyin mənası budur; iman, Allaha və hədəfə bağlılıq cazibəsi onu özünə elə çəkir ki, digər cazibələr onun müqabilində puç olur, məsxərəyə çevrilir. Cazibəsi hər cismi özünə çəkən bu əzəmətdə yer kürəsi ola-ola, fərz edin, hansısa başqa bir cisim, yaxud da dünyanın ən yüksək Himalay dağının da özününümayiş məqsədilə sizin atdığınız daşı özünə tərəf çəkməsi gülüncdür; Himalay dağının nə qədər cazibə qüvvəsi olsa da, yerin cazibə qüvvəsi müqabilində sıfra bərabərdir, təsirsiz və gücsüzdür. Himalay dağı və yaxud hansısa bir cisim öz kənarında yer kürəsi kimi daha böyük bir cisim olmadığı təqdirdə, kiçik cisimləri özünə tərəf çəkə bilər, yer kürəsi varsa, Himalay dağının cazibəsi mənasızdır.

İnsan ruhunda Allaha iman güclü cazibə tək onu imanın hədəflərinə doğru elə çəkəcək ki, imansız insanların gözündə böyük, onun gözündə isə kiçik görünən, lakin daim qəlbinə vəsvəsə edən digər cazibələr təsirdən düşəcək. Bununla bağlı İslamın ilkin çağlarında baş vermiş bir çox tarixi şahidlər vardır, lakin vaxtımız az olduğundan insanı özünə tərəf çəkən cazibələrlə bağlı uyğun şahidləri araşdırıb tapmağı öz öhdənizə qoyuram.

Mən burada bir neçə ifadəni məna etmək istəyirəm; onlardan biri xatircəmlikdir. Xatircəmlik nədir? Ruhi aramlıq (insanın qəlbi və ruhi rahatlığı) xatircəmlik adlanır. Ruhun aramlığı nə deməkdir? Hərəkətsiz olması, nə irəliləməsi, nə də geriləməsimi? Xeyr! Mənası odur ki, müxtəlif cazibə qüvvələri onu o tərəf-bu tərəfə çəkməsin, onu incitməsin; sevgi-məhəbbətlər, nəfsani istəklər ona hakim olmasın, əksinə iman yükünün ağırlığı sayəsində arxayın və rahat, eyni zamanda insaniyyət və yaradılış məqsədinə doğru sürətlə hərəkət etsin. Budur xatircəmliyin mənası!

İkinci ifadə arxayınlıqdır. Bu söz də qeyd etdiyimiz mənanı daşıyır:

ثُمَّ أَنَزلَ اللّهُ سَكِينَتَهُ عَلَى رَسُولِهِ

---

1. “Fəcr” surəsi, ayə 27-28.

***"Sonra da Allah Öz Peyğəmbərinə arxayınlıq nazil etdi..."***[1]

Bu ifadə (səkinə – arxayınlıq) Quranın beş-altı ayəsində işlənmişdir, biri də bu ayədir,[2] digəri "Hüneyn"[3] döyüşünə aiddir. "Hüneyn" döyüşündə Peyğəmbərin (s) ordusu öz gücünə güvənib yersiz olaraq qürrələndi, onlara heç kimin qalib gələ bilməyəcəyini düşündü. İlahi qanunauyğunluğa əsasən, məğrur insan yıxılmalı, məğrur zümrə qafil olmalı, zərbə almalıdır. Hər bir fərdin və cəmiyyətin daim ayıq və həssas olması zəruridir. Əmirəlmöminin Əli (ə) buyurmuşdur:

وَ اللَّهِ لَا أَكُونُ كَالضَّبُعِ تَنَامُ عَلَى طُولِ اللَّدْمِ

*"And olsun Allaha, mən yavaş səslə (lay-lay səsilə) yatan kaftar kimi deyiləm..."*[4]

Pusquda əyləşən ovçu kaftarı aldadıb tutmaq üçün çubuğu onu tutana qədər yavaş-yavaş yerə vurur, o da heç kəsi görmədən səsə tərəf gəlib tələyə düşür. Həzrət buyurur ki, mən lay-lay səsilə yatan, qəflətə dalan deyiləm, hər zaman həssas və ayığam. İlahi qanunlara qarşı həssas olmayan insan mütləq zərbə alacaq. Onlar döyüş meydanında saylarının çoxluğuna güvənib qəflətə daldılar.

إِذْ أَعْجَبَتْكُمْ كَثْرَتُكُمْ فَلَمْ تُغْنِ عَنكُمْ شَيْئًا

***"O gün çox olmağınız sizi təəccübləndirsə də( xoşunuza gəlsə də), sizə heç bir bir faydası olmadı..."***[5]

Onlar döyüşdə saylarının çoxluğu ilə təəccübləndilər, məğrur oldular.

---

1. "Tövbə" surəsi, ayə 26.

2. "Səkinə və arxayınlıq"la bağlı ayələri, təəssüf ki, vərəqdə qeyd etməmişəm. Vaxtın azlığını, imkanlarımızın doğrudan da zəifliyini nəzərə alıb düşündüm ki, əgər iki-üç ayə əlavə olaraq qeyd etsəm, səhifələrin sayı artacaq, iki səhifə üç səhifə olacaq və onların surətini çıxarmaqda çətinlik çəkəcəyik. Bilin ki, maddi imkanımız da azdır. Bunu da bilin ki, surəti çıxarılmış vərəqlərin xəttinin rənginin az olması da ondan irəli gəlir. İndiki durumumuz belədir və biz iki sadə vərəqi asanlıqla sizin ixtiyarınızda qoya bilmirik. Yoxsa, xatircəmlik və arxayınlıqla bağlı bütün ayələri zəhmət çəkib toplamışam, onları yalnız tapıb qeyd etmək, doğrudan da, çoxlu zəhmət, ən azından bir-iki saat vaxt tələb edir, hələ həmin ayələrdən əldə edilən nöqtələri demirəm. Odur ki, ayələri toplamağıma rəğmən, vərəqə əlavə iki ayə qeyd etmək istədikdə, bir səhifə yarımın iki və ya üç səhifə olacağını və sonda surətini çıxarmaq üçün çətinliklə üzləşəcəyimizi düşünüb vaz keçirəm. Bizim imkanımız bundan artıq deyil və bunu nəzərdən qaçırmayın!

3. Məkkənin fəthindən sonra Peyğəmbərin (s) döyüşlərindən birinin adı.

4. "Nəhcül-bəlağə", Sübhi Saleh, xütbə 6.

5. "Tövbə" surəsi, ayə 25.

Bu da onların döyüşdə qafil və məğlub olmasına səbəb oldu. Düşmənə azacıq məğlub olduqda, dərhal özlərinə gəldilər, ayıldılar; Əmirəlmöminin Əli (ə) kimi digər bir neçə ayıq, mömin və iradəli əsgər böyük zəhmətlə məğlubiyyət astanasında olan ordunu toparlaya bildi. Bu zaman Allah-Taala buyurdu:

ثُمَّ أَنَزلَ اللّهُ سَكِينَتَهُ عَلَى رَسُولِهِ وَعَلَى الْمُؤْمِنِينَ

***“Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə (onların qəlblərinə) arxayınlıq nazil etdi.”***[1]

Bir dəfə də müsəlmanlar ağacın altında Peyğəmbərlə (s) beyət etdikdə, digər bir dəfə də Peyğəmbər (s) İslam hökuməti təşkil etmək məqsədilə Məkkədən Mədinəyə köç etdikdə, onların qəlblərinə arxayınlıq bəxş edildi; o zaman ki, Peyğəmbər (s) kafir düşmənlərin əleyhinə min bir güclü iradə və tədbirlə Məkkədən çıxıb Mədinəyə üz tutdu. O Həzrətin bütün hədəf, əqidə və tədbirlərinin gerçəkləşməsi Mədinəyə sağ-salamat çatması ilə şərtlənirdi. Əgər o Həzrət yol əsnasında kafir bir şəxsin əli ilə qətlə yetirilsəydi, o röyaların heç biri həqiqətə çevrilməyəcəkdi. Peyğəmbər (s) bir mağaraya sığındı. O zaman Allah-Taala buyurdu:

فَأَنزَلَ اللّهُ سَكِينَتَهُ عَلَيْهِ

***“O vaxt (və o çətin bir zamanda) Allah ona (o Həzrətin qəlbinə) bir arxayınlıq (və aramlıq) nazil etdi.”***[2]

Bundan başqa nümunələr də vardır.

Mömin arxayın qəlbə sahibdir. Burada da arxayınlıq və aramlığın mənası “hərəkətsizlik”, “yatmaq” və “qafil olmaq” deyildir.

**Son söz və son cümlə:** Aydındır ki, burada ictimai əmniyyət yox, ruhun əmniyyəti və aramlığından söz gedir. İctimai əmniyyət dedikdə, cəmiyyətin bütün fərdlərinin aramlığı və arxayınlığı, hər kəsin öz haqqına sahib çıxa bilməsi nəzərdə tutulur. Məcburi sakitliklə əmniyyət arasında fərq var. Bütün insanların tam əmin-amanlıq və təhlükəsizlik içində öz qanuni hüquq və istəklərinə nail olması “əmniyyət” adlanır. Bizim burada qeyd etdiyimiz əmniyyət ictimai əmniyyətdən və məsələlərdən ayrıdır. Sözügedən əmniyyət ruhi aramlıqdan, sarsılmamaqdan, iztirab içində olmamaqdan, qorxu və xofun olmamasından ibarətdir. İndi isə Qurana müraciət edək, görək, orada

---

1. “Tövbə” surəsi, ayə 26.
2. “Tövbə” surəsi, ayə 40.

möminlərin bu üç xüsusiyyəti (əmniyyət, aramlıq və arxayınlıq) haqda nə deyilir? (Xahiş edirəm, mən ayələri oxuduqca, siz də əlinizdəki vərəqə baxın; həm ayələrin özünə, həm də tərcümələrə diqqət yetirin.)

İki qısa ayə: "Rəd" surəsinin 28-29-cu ayələri:

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ

***"O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı yad etməklə aramlıq tapmışdır."***

Baxın, Allahı yad etmək qeyd etdiyimiz kiçik cazibə qüvvələrini sıradan çıxaran və təsirsiz edən güclü cazibə qüvvəsindən ibarətdir. Nə üçün namaza bu qədər əhəmiyyət veririk? Nə üçün deyirlər ki, əgər namaz qəbul olunmazsa, digər əməllər də qəbul olunmayacaq? Nə üçün insana həcc ömründə bir dəfə, oruc ildə bir ay, zəkat, xüms və digər ibadətlər isə müəyyən zamanlarda vacib olur? Namaza gəldikdə isə hər gün, özü də gündə beş dəfə vacib olur, əgər əlavə namaz qıla bilsən, lap yaxşı! Səbəb nədir? Çünki namaz Allah zikrinin kapsuludur. Namaz başdan-başa Allahı yad etməkdir. Odur ki, Qurani-Kərimdə إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاء وَالْمُنكَر – ***"Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirir"*** – ifadəsindən dərhal sonra buyurulur: وَلَذِكْرُ اللَّهِ أَكْبَرُ – ***"Allahı zikr etmək, şübhəsiz ki, daha böyükdür!"***[1] Namazın bu yönü daha önəmlidir, Allahı yad etməkdir; bu isə namazın ən böyük xüsusiyyətidir. Allahı zikr etmək, Onu unutmamaq, hər zaman görmək, tanımaq və Öz yanında hazır bilməyin xüsusiyyəti qəlbi iztirablardan, vəsvəsələrdən, narahatlıqlardan, müxtəlif kiçik cazibələrdən hər zaman və hər yerdə qoruyub-saxlayır, qəlb rahatlıq və aramlıq tapır; eynilə üzərinə yırğalanmaması üçün ağır daşlar qoyulan qayıq tək, çəkini bir qədər artırır, sarsıntıları azaldır. Budur Allahı yad etməyin xüsusiyyəti!

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ

***"Allaha iman gətirən və qəlbləri Allahı yad etməklə aramlıq və sabitlik tapan kəslər (Allaha doğru hidayət olunurlar)."***

"Sabitlik" ifadəsini özüm bilərəkdən qeyd etmişəm və o, aramlıq halətinə deyilir. ***"Allaha doğru hidayət olunurlar"*** – ifadəsini də mötərizədə qeyd etmişəm. Nə üçün? Çünki bu ayə özündən öncəki ayəyə bağlıdır və öncəki ayədə belə deyilir: وَيَهْدِي إِلَيْهِ مَنْ أَنَابَ – ***"Tövbə edən şəxsi Öz hidayətinə qovuşdurur."***[2]

---

1. "Ənkəbut" surəsi, ayə 45.
2. "Rəd" surəsi, ayə 27.

Yəni bu zümrənin – Allaha iman gətirən və qəlbləri Allahı yad etməklə aramlıq və sabitlik tapan kəslərin hidayət olması öncəki ayəyə istinadla başa düşülür.

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

***"Agah olun ki, qəlblər yalnız Allahı yad etməklə aramlıq və sabitlik tapır!"***

Allahı yad etmək qəribə xüsusiyyətə sahibdir. Bildiyiniz kimi, aramlığın, arxayınlığın və sabitliyin müvəffəqiyyətdə rolu danılmazdır. Mömin də bu xüsusiyyətə, qəribə ruhi halətə malikdir. Ayənin davamında buyurulur:

الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ طُوبَى لَهُمْ وَحُسْنُ مَآبٍ

***"İman gətirib saleh əməllər yerinə yetirənlərin bu günləri xoş, gələcəkləri isə gözəl olacaq!"***

"Saleh əməl" dedikdə, imanla mütənasib lazımi öhdəliklər nəzərdə tutulur. Mənim tərcüməm ayənin nəticəsidir və əsl tərcüməsi ilə azacıq fərq etsə də mən nəticəni qeyd etmişəm: ***"Həm bu günləri, həm də gələcəkləri xoş və gözəl olacaq."*** Həm dünyası, həm də axirətləri gözəl olacaq. Həqiqət də bundan ibarətdir. Mömin cəmiyyət və imanın öhdəliklərinə əməl edən iman əhlinin həm dünyası, həm də axirəti abaddır, həm dünyası, həm də axirəti Cənnətdir. Bu bir ayə!

Sonra isə qısa şərh yazmışıq və burada onun hamısını oxumaq istəmirəm, o da İbrahim peyğəmbərin (ə) öz qövmü ilə mübahisəsindən ibarətdir. Keçmiş zamanlarda tövhid carçısı olan İbrahim Xəlilullah (ə) öz qövmü ilə və qövmü də onunla mübahisə etdi. Qurani-Kərim bu mübahisəni xatırladıb buyurur:

وَحَآجَّهُ قَوْمُهُ

***"Qövmü onunla (İbrahimlə) mübahisə etdi."***[1]

Quranda onların nədən danışıb mübahisə etdikləri açıqlanmır. Lakin İbrahimin (ə) onlara verdiyi cavabdan söhbətin nədən getdiyi anlaşılır. Öncə cavabı oxuyaq, sonra isə özünüz onların Həzrət İbrahimə (ə) nə dediklərini təxmin edəcəksiniz.

Onlar Həzrət İbrahimlə (ə) mübahisəyə başladıqda, Həzrət İbrahim (ə) buyurdu:

أَتُحَاجُّونِّي فِي اللّهِ وَقَدْ هَدَانِ

***"Siz Allah barəsində mənimlə mübahisə edirsiniz? Halbuki O, məni***

1. "İbrahim" surəsi, ayə 80-82.

***hidayət etmişdir.“*** Yəni, mən yolumda əsla tərəddüd və şəkk-şübhə etmirəm, mənim yolum aydındır. Əgər siz mənim şəkk-şübhə içində olduğumu düşünüb mübahisəyə girişibsinizsə, bilin ki, mən hidayət olmuşam, doğru və aydın yoldayam, nə etdiyimi yaxşı bilirəm.

وَلاَ أَخَافُ مَا تُشْرِكُونَ بِهِ إِلاَّ أَن يَشَاء رَبِّي شَيْئًا

***“Rəbbimin istədiyi hər hansı bir şey istisna olmaqla, mən sizin Ona şərik qoşduğunuz bütlərdən qorxmuram.”*** Yəni, mən yalnız Allahdan, Allahın mənim yoluma çıxaracağı hadisələrdən və mənimlə bağlı verəcəyi qərarlardan qorxuram. Bunu bilin! Lakin sizin Allaha şərik qoşduqlarınızdan əsla qorxmuram.

Bu cavabdan belə məlum olur ki, onlar İbrahimə (ə) dedilər: “İbrahim, bizim Allaha qoşduğumuz şəriklərdən qorx, bu şəriklər səni bitirər, nəslini kəsər, dünyanı qaraldar, səni qara günə salar və sairə!“

İbrahim (ə) isə onlara: “Mən onlardan əsla qorxmuram, onlar mənə heç bir zərər yetirə bilməzlər.” – deyə cavab verdi.

Ayənin davamından və Həzrət İbrahimin (ə) sözündən bu məsələ daha da aydınlaşır.

وَسِعَ رَبِّي كُلَّ شَيْءٍ عِلْمًا

***“Rəbbim hər şeyi elmlə əhatə etmişdir.”***

أَفَلاَ تَتَذَكَّرُونَ

***“Bununla belə, özünüzə gəlməyəcəksiniz? Ayılmayacaqsınız? Xatırlamayacaqsınız?”***

Bunlar hamısı eyni mənanı aşılayır. Mən qeydlərimdə bu ayəni belə tərcümə etmişəm***: “Bununla belə, ayılmayacaqsınız?”***

Həzrət İbrahimin (ə) öz qövmü ilə söhbəti hələ davam edir. Bu onun bir qismi idi.

Hadisənin davamında onların Həzrət İbrahimlə (ə) mübahisə mövzusu daha da aydınlaşır. Həzrət İbrahim (ə) buyurur:

وَكَيْفَ أَخَافُ مَا أَشْرَكْتُمْ وَلاَ تَخَافُونَ أَنَّكُمْ أَشْرَكْتُم بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ عَلَيْكُمْ سُلْطَانًا

***“Allahın sizə heç bir dəlil nazil etmədiyi bütləri Ona şərik qoşmaqdan qorxmadığınız halda, mən niyə sizin qoşduğunuz şəriklərdən qorxmalıyam?”***

Mən niyə qorxmalıyam? Əslində siz qorxmalısınız. Mən sizin mülkiyyətdə, hakimiyyətdə, rəhbərlikdə, xaliqlikdə dəlil-sübutsuz olaraq Allaha şərik və rəqib qoşduğunuz kəslərdənmi qorxmalıyam?! Bir halda ki, Allah məni hidayət etmiş, yolumu işıqlandırmışdır. Mən yox, siz

aləmlərin Rəbbinə dəlilsiz, məntiqsiz, boş-boşuna, heç bir əqli səbəb olmadan şərik, rəqib və ortaq qoşduğunuz üçün qorxmalısınız.

Buradan aydın olur ki, onlar mübahisə edərkən Həzrət İbrahimə (ə) deyirlər: “Qorx!” Kimdən və nədən qorxsun? Onların Allaha qoşduqları cansız, yaxud canlı şəriklərdənmi? Yaxud da hər ikisindənmi? Bunlar, artıq, məlum deyil! Onların hansı şərikləri nəzərdə tutduqları qaranlıqdır.

İcmali olaraq onlar Allah-Taalaya müxtəlif şəriklər qoşurdular; buzovpərəstlər buzovu, daşpərəstlər daşı, ağacpərəstlər ağacı, fironpərəstlər Fironu və nəmrudpərəstlər isə Nəmrudu! Söhbət etdiyimiz tövhid bəhsindən aydın oldu ki, həmin buzov, daş, ağac, Firon və Nəmrud – hamılıqla odun yanacaqları, bir vadinin çirkablarıdır və bir-birindən də əsla fərqlənmirlər.

Bir sözlə, onlar deyirdilər ki, Allahın şəriklərindən qorxmaq lazımdır. İndi Allahın şəriklərinin insan, cin, canlı, cansız və s. olması bizə aydın deyil.

Qeydlərimdə ayəni belə tərcümə etmişəm:

وَكَيْفَ أَخَافُ مَا أَشْرَكْتُمْ

***“Mən niyə sizin qoşduğunuz şəriklərdən qorxmalıyam?”***

وَلاَ تَخَافُونَ أَنَّكُمْ أَشْرَكْتُم بِاللّهِ

***“Siz nə üçün Ona şərik qoşmaqdan qorxmamalısınız?”***

مَا لَمْ يُنَزِّلْ بِهِ عَلَيْكُمْ سُلْطَانًا

***“Halbuki, bu barədə sizin heç bir dəlil-sübutunuz yoxdur.”***

Ayənin davamında buyurulur:

فَأَيُّ الْفَرِيقَيْنِ أَحَقُّ بِالأَمْنِ إِن كُنتُمْ تَعْلَمُونَ

***“Əgər bilirsinizsə, (deyin, görək,) bu iki dəstədən hansı aram olmağa daha layiqdir?”***

Biz, yoxsa siz? Ruhi aramlığa, iztirab və narahatlıqdan uzaq qalmağa mən daha çox layiqəm, yoxsa siz? İbrahim (ə) deyir ki, mən Allaha bağlı olduğum, Onun hidayətinə qovuşduğum halda, mən daha çox əmin və aramam, yoxsa siz zavallılar?! Halbuki, sizin tutduğunuz yola heç bir dəlil-sübutunuz da yoxdur. Mənim yolum isə aydındır. İbrahim (ə) deyir:

فَأَيُّ الْفَرِيقَيْنِ أَحَقُّ بِالأَمْنِ

***“Bu iki dəstədən – mən (İbrahim), yoxsa siz bütpərəstlərdən hansı birimiz aram olmağa daha layiqdir?”***

(Mötərizədə belə qeyd etmişəm:) Allahı tanıyıb bəsirət və agahlıqla Ona doğru üz tutan (mən İbrahim), yoxsa öz batil inancına heç bir dəlil-

sübutu olmayan (sizlər)? إِن كُنتُمْ تَعْلَمُونَ – ***Əgər bilirsinizsə!*** Yəni, mübahisənin nəticəsiz və cavabın nə olduğu aydındır. Kimin tənqid edildiyi, narahat, qorxu və vahimə içində olduğu, kiminsə bu bədbəxtliklərə məhkum olmadığı və arxayın olduğu göz qabağındadır.

Ayənin sonunda isə belə buyurulur:

الَّذِينَ آمَنُواْ وَلَمْ يَلْبِسُواْ إِيمَانَهُم بِظُلْمٍ أُوْلَـئِكَ لَهُمُ الأَمْنُ وَهُم مُّهْتَدُونَ

***"İman gətirən və imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Hidayətə qovuşanlar da onlardır!"***

Bu da əmniyyət və arxayınlıqla bağlıdır!

Sonra isə vərəqdə belə qeyd etmişik: **"4. Səmərəli olmaq."** Yəni, dördüncü müjdə səmərəli olmaqdır. Hədəf yolunun yolçusunun hərəkətini sürətləndirən, hədəfə çatma ehtimalını daha da artıran amillərdən biri də onun öz işini səmərəli bilməsidir. Əgər yolunu səmərəli hesab etdisə, işləri, əməlləri və addımlarının zay olmayacağını anladısa, onun addım və hərəkətlərinin təsirli olduğunu gördüsə, onun bu hərəkəti bir dalğaya çevriləcək, ona məqsədə daha tez çatmaqda yardımçı olacaq, sürətini daha da artıracaq, işlərini daha da keyfiyyətli yerinə yetirəcək, yorğunluğu azalacaq, yoluna rahatlıqla davam edəcək. Əks-təqdirdə, bədbəxt günləri başlayacaq!

Mömin belədir; o, öz işini səmərəli hesab edir və bunu ona öyrədən Qurandır. Quranın bir çox yerində belə buyurulur:

فَإِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ

***"Həqiqətən, Allah yaxşı işlər görənlərin mükafatını zay etməz!"***[1]

إِنَّا لَا نُضِيعُ أَجْرَ مَنْ أَحْسَنَ عَمَلًا

***"Biz yaxşı işlər görənlərin mükafatını zay etmərik!"***[2]

Mən burada iki ayə qeyd etmişəm, digər ayələri özünüz axtarıb tapın.

Qiblə ilə bağlı bir ayəni diqqətinizə çatdıracağam. Keçmişdə qiblənin tarixçəsi ilə bağlı azacıq danışmışdım. Müsəlmanlar Məkkədə ikən, hələ (Mədinəyə) hicrət etməmişdən öncə Kəbəyə üz tutub namaz qılır, ibadət edirdilər. Mədinəyə köçən kimi, Allah-Taalanın əmri ilə (yəhudilər kimi) Beytül-Müqəddəsə tərəf namaz qılmağa başladılar. Mədinə yəhudiləri də o zaman Beytül-Müqəddəsə tərəf ibadət edirdilər. Bir müddət keçdikdən sonra ayə nazil oldu:

فَوَلِّ وَجْهَكَ شَطْرَ الْمَسْجِدِ الْحَرَامِ

1. "Hud" surəsi, ayə 115.
2. "Kəhf" surəsi, ayə 30.

***"İndi üzünü Məscidül-Hərama – Kəbəyə tərəf çevir!"***[1]

Yenə müsəlmanlar namaz vaxtı Allahın evinə – Kəbəyə tərəf üz tutdular. Qiblə ilə bağlı hadisələr "Bəqərə" surəsinin əvvəllərində, bir neçə ayədə (təqribən, 7-10 ayə) geniş şəkildə izah edilmişdir. Ayələrdə geniş izah edildiyindən, biz burada onların hamısına toxunmaq istəmirik.

Həmin ayələrdən biri budur: Peyğəmbərə (s) və möminlərə deyilir ki, siz Məkkədən Mədinəyə gəldikdə, elə Mədinənin girişində sizi sınaqdan keçirmək məqsədilə qiblənizi (Kəbədən) Beytül-Müqəddəsə dəyişdik. Siz Məkkədə ikən, hələ müsəlman olmamışdan öncə Kəbə evinə ehtiram göstərirdiniz, indi isə Mədinəyə gəlmisiniz, biz sizin ata-babalarınızın ənənəsini müvəqqəti olaraq sizdən aldıq ki, görək, Allaha xatir keçmiş ənənələri ayaq altına ala biləcəksiniz, ya yox?

Bu, olduqca mühüm bir məqamdır. Bizim bəhsimizlə əlaqəli olmasa da, olduqca mühüm bir məqamı aşılayır. Belə ki, siz möminlər Allaha xatir qəlbən bağlandığınız və ehtiramla yad etdiyiniz ata-babalarınızın ənənəsindən üz çevirməyə razılıq verəcəksinizmi? Mədinəyə gəldiyiniz ilk vaxtlarda Beytül-Müqəddəsə tərəf qıldığınız namazların batil olduğunu güman etməyin. Xeyr, namazlarınız doğru, yerinə yetirdiyiniz bütün ibadətlər məqbuldur və Allah tərəfindən Beytül-Müqəddəsə tərəf ibadət edən möminlərin bütün əməlləri təsdiqlənir, mükafata layiq görülür, lakin iki qiblə arasındakı fasilənin səbəbi sizi sınaqdan keçirməyimiz idi. Ayə buna işarədir. İndi isə görək, bu məsələ ayənin harasından başa düşülür:

وَمَا جَعَلْنَا الْقِبْلَةَ الَّتِي كُنتَ عَلَيْهَا إِلاَّ لِنَعْلَمَ مَن يَتَّبِعُ الرَّسُولَ مِمَّن يَنقَلِبُ عَلَى عَقِبَيْهِ

***"Biz üz tutduğun keçmiş qibləni (Beytül-Müqəddəsi) Peyğəmbərə həqiqi tabe olanlarla (ata-ababalarının keçmiş ənənəsinə) üz tutanlardan ayırd etməkdən başqa, bir şey üçün (qiblə) təyin etməmişdik."***

Ayə haçan nazil oldu? Qiblə Beytül-Müqəddəsdən Kəbəyə tərəf çevrildiyi zaman. Allah bu ayədə ibadət zamanı Beytül-Müqəddəsə tərəf üz tutmağın səbəbini açıqlayır və bu ayə ilə möminlər imtahan olunur, Peyğəmbərə (s) itaət edənlərlə keçmiş ənənələrdə qalanlar bir-birindən ayırd edilir.

وَإِن كَانَتْ لَكَبِيرَةً إِلاَّ عَلَى الَّذِينَ هَدَى اللّهُ

***"Hərçənd ki, bu, Allahın hidayət etdiyi şəxslərdən başqası üçün***

1. "Bəqərə" surəsi, ayə 144.

***çətin və ağır idi.”***

Bu hökm hidayət tapanlara adi gəlsə də, onlar onu rahat həzm edə bilsələr də, hidayət tapmayanlara ağır gəlirdi.

Ayənin növbəti hissəsində belə buyurulur:

وَمَا كَانَ اللّهُ لِيُضِيعَ إِيمَانَكُمْ

***“Allah sizin imanınızı heç vaxt zay etməz.”***

Bu cümlə bizim istinad yerimizdir. Allah sizin imanınızı heç vaxt əvəzsiz qoymaz, sizin iman və əməllərinizi batil etməz, müəyyən zaman çərçivəsində tərəqqi etmədiyinizi və yerinizdə saydığınızı güman etməyin; hər addım və hərəkətiniz sizi irəliyə, təkamülə doğru aparır, hədəf və məqsədə yaxınlaşdırırdı. Deməli, imanınız əvəzsiz qalmayıb.

إِنَّ اللّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ

***“Həqiqətən, Allah insanlara qarşı mehriban və mərhəmətlidir.”***[1]

Diqqət yetirin: Quranın həm bu ayəsi, həm də digər bir neçə ayəsində möminlər müjdələnir ki, sizin iman və əqidələriniz, əməl və işləriniz heç vaxt zay edilmir, əvəzsiz qalmır. Bu nə deməkdir? Yəni, səmərəlidir. Əgər möminlərdə bu halət mövcud olarsa, aydındır ki, onun təkamül yolunu ötüb-keçməsi daha da asanlaşacaq.

Növbəti bəhsimiz tövhid barəsində olacaq.

---

1. “Bəqərə” surəsi, ayə 143.

**Xülasə**

**Çərşənbə axşamı – Ramazan ayının 8-ci günü**

**MÜJDƏLƏR-2**

1-3. Əmniyyət, arxayınlıq və xatircəmlik;

Narahatlıqdan, vəsvəsə və iztirabdan qurtuluş möminin ən önəmli xüsusiyyətlərindən biridir. Qurani-Kərimdə bu dəyərli ruhi halət haqqında müjdələr verilir:

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ – ***Allaha iman gətirən və qəlbləri Allahı zikr etməklə aram və sabitlik tapan kəslər (Allaha doğru hidayət olunurlar).***

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ – ***Agah olun ki, qəlblər yalnız Allahı yad etməklə aramlıq və sabitlik tapır!***

الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ طُوبَى لَهُمْ وَحُسْنُ مَآبٍ – ***İman gətirib saleh əməllər yerinə yetirənlərin bu günləri xoş, gələcəkləri isə gözəl olacaq!***

(“Rəd” surəsi, ayə 28.)

Həzrət İbrahim (ə) bu həqiqəti müəyyən məktəb və məzhəbə itaət etmədiklərindən arxayın qəlbə və aram ruha sahib olmayan dövrün çaşqınlıqdakı müşriklərinə çatdırıb möhkəm imanından qaynaqlanan daxili əmniyyət və rahatlığını bildirdi.

وَحَآجَّهُ قَوْمُهُ – ***Qövmü onunla (İbrahimlə) mübahisə etdi.***

قَالَ أَتُحَاجُّونِّي فِي اللّهِ وَقَدْ هَدَانِ – ***Siz Allah barəsində mənimlə mübahisə edirsiniz? Halbuki O, məni hidayət etmişdir.***

وَلاَ أَخَافُ مَا تُشْرِكُونَ بِهِ إِلاَّ أَن يَشَاء رَبِّي شَيْئًا – ***“Rəbbimin mənimlə bağlı istədiyi hər hansı bir şey istisna olmaqla, mən sizin Ona şərik qoşduğunuz bütlərdən qorxmuram.”***

وَسِعَ رَبِّي كُلَّ شَيْءٍ عِلْمًا أَفَلاَ تَتَذَكَّرُونَ – ***Rəbbim hər şeyi elmlə əhatə etmişdir.***

***Bununla belə, özünüzə gəlməyəcəksiniz?***

وَكَيْفَ أَخَافُ مَا أَشْرَكْتُمْ وَلاَ تَخَافُونَ أَنَّكُمْ أَشْرَكْتُم بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ عَلَيْكُمْ سُلْطَانًا – ***“Allahın sizə heç bir dəlil nazil etmədiyi bütləri Ona şərik qoşmaqdan qorxmadığınız halda, mən niyə sizin qoşduğunuz şəriklərdən qorxmalıyam?”***

فَأَيُّ الْفَرِيقَيْنِ أَحَقُّ بِالأَمْنِ إِن كُنتُمْ تَعْلَمُونَ – ***“Əgər bilirsinizsə, bu iki dəstədən hansı birimiz aram olmağa daha layiqdir? (Allahı tanıyıb bəsirət və agahlıqla Ona üz tutan, yoxsa, öz batil inancına heç bir dəlil-sübutu olmayan?)”***

الَّذِينَ آمَنُواْ وَلَمْ يَلْبِسُواْ إِيمَانَهُم بِظُلْمٍ – ***İman gətirən və imanlarını zülmə qatışdırmayanlar –***

أُوْلَـئِكَ لَهُمُ الأَمْنُ وَهُم مُّهْتَدُونَ – ***yalnız onlar əmin-amanlıqdadırlar və hidayətə qovuşanlar da onlardır!***

(“Ənam” surəsi, ayə 80-82.)

**4. Səmərəli olmaq:**

Mömin yaxşı bilir ki, hər addımı onu hədəfə daha da yaxınlaşdırır, səy və hərəkəti müsbət iz buraxır, az təlaşı belə təsirsiz ötüşmür, ümumiyyətlə, fəaliyyətləri səmərəli olur.

وَمَا جَعَلْنَا الْقِبْلَةَ الَّتِي كُنتَ عَلَيْهَا إِلاَّ لِنَعْلَمَ مَن يَتَّبِعُ الرَّسُولَ مِمَّن يَنقَلِبُ عَلَى عَقِبَيْهِ – ***Biz üz tutduğun keçmiş qibləni (Beytül-Müqəddəsi) Peyğəmbərə həqiqi tabe olanlarla geri dönənlərdən (cahillik ənənələrinə uyanlardan) ayırd etməkdən başqa, bir şey üçün (qiblə) təyin etməmişdik.***

وَإِن كَانَتْ لَكَبِيرَةً إِلاَّ عَلَى الَّذِينَ هَدَى اللّهُ – ***Hərçənd ki, bu, Allahın hidayət etdiyi şəxslərdən başqası üçün çətin və ağır idi.***

وَمَا كَانَ اللّهُ لِيُضِيعَ إِيمَانَكُمْ – ***Allah sizin imanınızı heç vaxt zay etməz.***

إِنَّ اللّهَ بِالنَّاسِ لَرَؤُوفٌ رَّحِيمٌ – ***Həqiqətən, Allah insanlara qarşı mehriban və mərhəmətlidir.***

(“Bəqərə” surəsi, ayə 143.)

## SƏKKİZİNCİ MƏCLİS

## İSLAM DÜNYAGÖRÜŞÜNDƏ TÖVHİD

Cümə axşamı – 1974/09/26
Ramazan ayının 9-u.

بسم الله الرحمن الرحيم

اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِّنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاء وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

***“Allahdan başqa, heç bir məbud (ilah) yoxdur. Diri və əbədidir. Onu nə mürgü, nə də yuxu tutar (bir an belə qəflətə dalmaz). Göylərdə və yerdə nə varsa Onundur. Onun izni olmadan Onun hüzurunda kim şəfaət (və vasitəçilik) edə bilər? O, onların (bəndələrin) keçmiş və gələcəyini bilir. Onların (bəndələrin) elmi Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şeyi əhatə edə bilməz. Onun qüdrət və hökmranlığı göyləri və yeri əhatə etmişdir. Göyləri və yeri mühafizə etmək Onun üçün heç də çətin deyildir. Odur ən uca, ən böyük!”***

“Bəqərə” surəsi, ayə 255.

…Bir sözlə, Qurani-Kərimdə tövhid ayələrini seçib sizin üçün tərcümə edəcəyik və (bundan sonra) siz özünüz araşdırma aparın ki, (birinci,) Qurani-Kərimdə “tövhid” dedikdə, nə nəzərdə tutulur? (İkinci,) onun həyatda öhdəliklər və kriteriyaları nədir? Əlbəttə, əgər yadınızdadırsa, ötən bəhslərimizdə qeyd etdik, ki, əvvəla, hər bir dini prinsip və əqidəyə iman kor-koranə deyil, mütləq agahlıq və düşüncəyə əsaslanmalı, ikinci də, iman öhdəliklərlə birgə olmalıdır. Bizim iman gətirdiklərimiz həyatımızda – həm fərdi, həm də ictimai əməl və rəftarlarımızda, həm bəşəriyyətdə, həm də gələcək tarixdə məsuliyyət və öhdəlik yaratmalıdır. Tövhid bəhsinə bu müqəddimə ilə yanaşdıqda, təbii ki, bu bəhs də öhdəlik gətirəcəkdir. Tövhid bəhsini elə araşdırmalıyıq ki, əvvəla, tövhidə agah şəkildə çataq, ikinci də, görək, onun bizim öhdəmizə qoyduğu vəzifələr hansılardır? Görəsən, tövhid məsuliyyətsiz və öhdəliksiz bir anlayışdırmı? Görəsən, tövhid əməlsiz və mükəlləfiyyətsiz bir həqiqətdir, yoxsa insanın öhdəsinə mükəlləfiyyətlər, vəzifə və məsuliyyətlər qoyan bir agahlıq və bilikdir? Qurana müraciət etdikdə, bu sualın cavabını görəcəyik.

Beləliklə, biz bu gün tövhidlə bağlı nəzərdə tutduğumuz ayələri xüsusi prizmadan, sabah və növbəti günlərdə də başqa bir prizmadan araşdıracağıq. Mən tövhid bəhsinin bütün yönlərini Quran ayələrinə istinadən bir neçə gün ərzində araşdırıb yekunlaşdıracağımı iddia etmirəm. Şübhəsiz, hər kəs dərin mütaliə, daha dəqiq, daha aydın nəzərlə Qurana müraciət etsə, tövhid bəhsinin sonsuz okean olduğunu görəcək. Biz də vaxtımızı və məclisimizin tutumunu nəzərə alıb bu haqda danışacağıq. (Əlbəttə, bu mövzuda bütün bildiklərimizi belə xülasə

şəkildə qeyd edib yekunlaşdıra bilməyəcəyik.)[1]

Bir sözlə, biz tövhid mövzusunu iki kontekstdən araşdıracağıq, ola bilsin ki, bəhs əsnasında nəzərə zəruri çarpan digər məsələlərə də toxunaq; öncə İslam dünyagörüşündə tövhid məsələsini araşdıracağıq. Şübhəsiz, tövhid bəhsi İslam dünyagörüşünə məxsusdur. İslam dünyagörüşündə tövhid nə deməkdir və onun mənası nədir? Quran ayəsi və Quranın səlis dili İslam dünyagörüşündə bəhs edilən tövhidi necə şərh edir? Sonrakı bəhsimiz isə İslam ideologiyasında tövhid bəhsinə aiddir. Əlbəttə, "dünyagörüşü" və "ideologiya" ifadələri ilə tanış olmayanlara bu iki ifadə haqqında qısa şəkildə izah edəcəyəm. Çünki tövhid həm İslam dünyagörüşünün, həm də İslam həyatının qurulucuğuna xas olan ideologiyanın bir hissəsindən ibarətdir.

Bunlara rəğmən, tövhid İslamın bütün şəriət məsələlərində özünü göstərir; siz hər zaman tövhidəzidd hər bir dini hökm və qanunla üzləşdikdə, bilin ki, onun İslama heç bir aidiyyatı yoxdur. Çünki tövhid

---

1. Öncə diqqətinizə çatdırmalıyam ki, bizim bəhs metodumuzla Quran ayələrinə əsasən tövhid mövzusu nəzərə bir qədər ağır çarpacaq, minbər deyil, bir növ dərslik kimi görünəcək. Lakin mən həmişə öz-özümə belə düşünmüşəm ki, ümumi söhbətlərimizin də dərslik halına çevrilməsinin nə eybi var? Nə olar ki, ümumi bir yığıncaqda məclis iştirakçıları eynilə sinif dərsi kimi mürəkkəb elmi mətləblər dinləyib onun üzərində düşünsünlər? Xətibin hər il Ramazan ayında insanlar oruc olduğu üçün mütləq əyləncə və lətifə xarakterli mətləblərə toxunmasına nə ehtiyac var? Haçana qədər ümumi məclislərimiz insanın daha da dərindən düşünməsi üçün uyğun məkana çevrilməyəcək? üçün zəminə olmayacaq? Qeyd etdiyimiz mətləblərin bu məclisdə iştirak edən bacı və qardaşlarımıza nə qədər mürəkkəb olduğunu deyə bilmərəm, ola bilsin ki, mətləblər həm mürəkkəb, həm də sadə olsun, amma nəzərinizə mürəkkəb gəlsə də, sözsüz, onları bilməyiniz, anlamağınız və onların üzərində düşünməyiniz zəruridir. Odur ki, yaxşı başa düşmək üçün bütün fikrinizi bu mətləblərə yönəldin, sözləri yadınızda saxlayın, ağır mətləbləri dostlarınızla müzakirə edin. Əgər uyğun bəhs sizə tanış deyilsə, onu ağır bir bəhs kimi bir kənara atmayın, zehninizdən uzaqlaşdırmayın, əksinə, onunla tanış olmağa cəhd edin.

Əlbəttə, bir çox bəhslərimiz, söhbət və dərslərimizdə qeyd etdiyimiz kimi, hamının bir nəfər kimi bizim dediklərimizi mütləq şəkildə qəbul etməsini ummuram, əksinə dostlar, qardaşlar və bacılar bacardıqları qədər ixtiyarınızda qoyulan ideoloji qidanı dərk, şüur, düşüncə və ictihad laboratoriyasında incələsin, özünü Quranın bu ayəsi ilə uzlaşdırsın və onu özünə örnək bilsin:

فَبَشِّرْ عِبَادِ. الَّذِينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ

***"Bəndələrimə müjdə ver; o kəslər ki, sözü dinləyib onun ən gözəlinə tabe olarlar..."*** ("Zümər" surəsi, ayə 17-18.))

İslam qanunlarında bədəndə bir ruh, onun bütün damarlarında axan pak və təmiz bir qan, "İslam" adlı bir binanın bütün fəzasını əhatə edən saf hava kimidir. İslamda tövhid rəngi və əlamətinə sahib olmayan bir hökm belə tapa bilməzsiniz. Bir sözlə, biz bu gün İslam dünyagörüşündə tövhid haqqında bəhs edəcəyik.

İslam dünyagörüşü nə deməkdir? Siz bir insan olaraq dünya və insanla bağlı öz şüur və düşüncənizə müraciət etdikdə, bir sıra təsəvvürlərin formalaşdığını görəcəksiniz. Ola bilər ki, siz bu haqda heç düşünməmisiniz, lakin düşünənlər insan və dünya, onların rabitəsi, metafizik aləm haqqında düşündükdə, onda bir sıra təsəvvürlər yaranacaqdır. Buna "dünyagörüşü" deyilir. Hər bir məktəbin dünya ilə bağlı özünəməxsus təfəkkür tərzi və nəzəriyyəsi vardır. Buna dünyagörüşü deyilir. (Dilimizdə işlənən yeni terminlərdəndir.) Dünyagörüşü avam dildə işlənən "geniş nəzər" mənasında deyil; "filankəsin dünyagörüşü var" – dedikdə, onun geniş nəzər sahibi olması nəzərdə tutulur. Dünyagörüşü bu mənanı ifadə etmir.

Bir sözlə, dünyagörüşünü qısa şəkildə belə tərif etmək olar: "İnsanın insan, dünya, hansısa bir məktəb, məslək, ayin, ictimai bir proseslə bağlı anlayış və təfəkkür tərzinə dünyagörüşü deyilir." İslamın da bir dünyagörüşü, dünya ilə bağlı bir baxış açısı var. Burada İslamın tövhidlə bağlı bəhsimizə aid dünyagörünüşünə qısa şəkildə toxunacağıq.

İslama görə, dünya adlı bir məcmuə – yuxarıdan aşağı, kiçik varlıqlardan tutmuş böyük varlıqlara qədər, ən kiçik canlı və cansız varlıqlardan tutmuş ən şərəfli və qüdrətli canlı və ağıllı varlığa – insana qədər hər bir şey, bu kainatın hər yeri, hər kəsi və hər varlığı daha əzəmətli bir qüdrətə bağlıdır. Bizim gördüyümüz bu zahiri aləmin, hiss etdiyimiz bütün fenomenlərin fövqəltəbiəti hər bir həqiqətdən üstün, şərəfli və sevimlidir, bu aləmin hər bir hissəsi Onun qüdrət əli ilə yaranıb formalaşmışdır. Həmin üstün qüdrətin bir adı var, o da Allahdır. Deməli, dünya öz-özünə müstəqil bir həqiqət deyil, özü özünü yaratmamış, öz-özünə formalaşmamışdır, əksinə elm irəlilədikcə sayı daha da çoxalan bu müxtəlif fenomenləri, varlıqları, zərrəcikləri, hələ bizim dərkimizin fövqündə olan metafizik aləmi, planetləri, qalaktikaları, bu günə qədər kəşf etdiklərimizin milyardlarla bərabərinin hələ də kəşf olunmadığı qalaktikaların fövqünü – bütün bunları qüdrətli bir əl yaratmış, ona varlıq vermişdir. Bu emalatxananın bir qurucusu var; bu dəm-dəstgah təsadüfi

deyil, öz-özünə formalaşmayıb, onun bir yaradanı var. İslam dünyanı belə görür. Bunlar tövhidlə bağlı İslam dünyagörüşünün materiallarıdır və biz burada bu haqda qısa şəkildə söz açacağıq.[1]

Yaradaılmışlardan üstün olan, bütün varlıqları yaradıb idarə edən, onları yavaş-yavaş möhkəmlədən o qüdrətli əlin adı Allahdır. O, zatən bütün gözəlliklərin və gözəl yarananların sahibidir, elmli, qüdrətlidir, diridir, iradəlidir, bu sifətlərdən qaynaqlanan hər bir şeyin sahibidir, o, həyatı başqalarından almamış, elmi başqalarından götürməmişdir və s.

O, aləmlərin ixtiyar sahibidir. Aləmlər kimlərdir? Aləmin zərrəciklərinin Onun müqabilində rolu nədir? Onun yaratdığı zərrəciklər ana bətnindən ayrılmış körpə tək ayrıdır, yoxsa, məsələ başqadır? Bunlar hər an yaşamaq və qalmaq üçün Ona, Onun qüdrət və iradəsinə möhtacdır. Hamı Onun köləsidir. Bütün varlıqlar Onun bəndələri, qulları, yaratdıqları və məxluqlarıdır. Onların hamısında təsərrüf edə bilər. Hamısını xas sistemlə yaratmış, dəqiq sünnə və qanunlar əsasında meydana gətirmişdir. Hələ bu qanunları elm bu gün kəşf edir. Əlbəttə, bəhsimiz bu zəmində deyil, yəni Allahın varlığını isbat etmək bəhsimizdən kənardır, bu haqda çox kitablar yazılmışdır, gedin oxuyun. Lakin burada bir neçə təcrübi elmlərin, laboratoriya sahəsində fəaliyyət göstərən mütəxəssisin sözünü qeyd etmək də yerinə düşər. Bir neçə xarici yazıçının qələmə aldığı və üç iranlı alimin tərcümə etdiyi “Allahın varlığının isbatı” adlı dəyərli kitaba müraciət etsəniz, yaxşı olar. Bu gün təcrübi elmlərin mütəxəssisləri qeyd edirlər ki, elmi tərəqqi, varlıqlar və məxluqlar barəsində tədqiqat, dəqiq qanunların kəşfi sayəsində dünyanın yaradıcısı olduğunu anlayırıq. Dünyaya hakim sistem və nəzmi gördükdə, onun bir yaradanı olduğunu başa düşürük. Deməli, bütün dünya varlıqları Onun qulları, məxluqlarıdır, hamı Onun ixtiyarında, qüdrət əlinin altındadır, insan da digər varlıqlar kimidir.

İslam dünyagörüşündə tövhidin mənası budur; tövhid, yəni dünyanın bir yaradanı, bir qurucusu vardır, başqa sözlə, dünya pak və lətif ruha sahibdir. Yaradan Allahın qüdrəti ilə vücuda gələn varlıqdır, dünyanın bütün hissələri Onun bəndələri və onların ixtiyar sahibidir. İslam dünyagörüşündə tövhid dedikdə, bu məna nəzərdə tutulur. Bir müsəlman İslam gözü ilə bu dünyaya baxdıqda, onu müstəqil bir varlıq deyil, üstün

---

1. Yadınızda saxlayın ki, inşallah, əgər sabahkı yazı hazırlanarsa, orada da qısa şəkildə bəzi mətləblər qeyd etmişik.

bir qüdrətdən asılı bir varlıq olduğunu görür. Bunun təsir və faydası nədir? Qəribə təsiri vardır. Tövhidlə bağlı növbəti bəhslərimizdən bu baxış, bu xas dünyagörüşü, aləmlərlə bağlı bu təfəkkür tərzinin həyat quruculuğunda hansı təsirlərə malik olması aydın olacaq.

Quran ayələrinə müraciət etdikdə, aləmlərin Rəbbinin də eynilə elə bu mətləbə toxunduğunun şahidi oluruq. Bu məqsədlə Quranın iki ayəsini tilavət və tərcümə etməyi nəzərdə tutmuşuq. Birincisi, “Bəqərə“ surəsinin “Ayətül-kürsü“ adı ilə məşhur olan 255-ci ayəsidir. “Ayətül-kürsü“nün ilk hissəsi bu mövzuya həsr olunur. İndi isə tilavət və tərcümə edirik:

بسم الله الرحمن الرحيم. اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ

***“Mehriban və Rəhmli Allahın adı ilə. Allahdan başqa, heç bir məbud (ilah) yoxdur.”***

Heç bir izahla bəyan olunmyan bir ifadə – Allah! Allah kimdir? Bir varlıqdır ki, Ondan başqa, heç bir məbud yoxdur. Ayədə qeyd olunan ***“ilah”*** sözünü ***“məbud”*** tərcümə edin. İlah – bir varlıqdır ki, insan onu pak və müqəddəs bildiyi üçün onu uca tutur, ehtiram edir, onun müqabilində baş əyib təvazökarlıq göstərir, öz ixtiyarını ona həvalə edir, həyat ipini ona tapşırır, həyatını qeyd-şərtsiz onun himayəsində görür. Quran terminologiyasında bu varlıq ***“ilah”*** adlanır. Həyat ipini nəfsi istəklərinə tapşıranların ilahı (məbudu) nəfsi istəkləridir. Təcavüzkar və üsyankar bir insanı öz həyatına müdaxilə etməyə icazə verənlərin ilahı şeytandır. Puç ənənə və əqidələrə qeyd-şərtsiz boyun əyənlərin ilahı elə həmin puç ənənə və əqidələrdir. İnsanın varlığı və həyatına qeyd-şərtsiz müdaxilə edən və hakim olan hər bir şey onun ilahı və məbududur. Bu məqamda belə deyilir: لاَ إِلَـهَ إِلاَّ هُوَ – ***“Ondan başqa, heç bir məbud yoxdur.”***

“Yoxdur“ nə deməkdir? Yəni dünyada yoxdur? Axı dünyada minlərlə məbud var idi. Elə Allahın evi Kəbədən üç yüz altmış məbud və oyuncaq asılmışdı. Bir o qədər də dünyada canlı oyuncaqlar hökmranlıq edirdilər. Necə “məbud“ yoxdur? لاَ إِلَـهَ إِلاَّ هُوَ – ***“Ondan başqa, heç bir məbud yoxdur.”*** – ifadəsində məqsəd Allahdan başqa, həqiqi və qanuni məbud və ilahın olmamasıdır; belə ki, Allahdan başqa, hər kimi (qeyd etdiyimiz mənada) allahlıq və məbudluğa qəbul etsəniz, üsyan etmiş, haqqa qarşı çıxmısınız, çünki Allahdan başqa, heç kim allahlıq və məbudluğa layiq deyildir.

Bu yeganə və tək Allah və ilahın xüsusiyyəti nədir? Sözügedən ayədə Onun bir neçə xüsusiyyətindən söz açılır:

الْحَيُّ

***“Diridir.”*** Bütün varlıqlar ölü və murdardır, O isə diridir. Cansız varlıqlar aydındır, canlılar da ölüdür; bir canlı ki, bir gün yox idi, bir gün də olmayacaq; bir canlı ki, canı daim təhdid içindədir; bir canlı varlıq ki, həyatı bəzən bir tükün hərəkəti, beynin fəaliyyəti nəticəsində yoxluqla təhdid olunur. Axı bu necə həyatdır? Həyat əbədi, əzəli və həqiqi diri varlığa məxsusdur və bütün canlılara hədiyyə və töhfəsidir. O Allahdır.

الْحَيُّ

***“Diridir.”***

الْقَيُّومُ

***“Əzəli və əbədidir.”*** Həyatı daimi, həmişəlikdir. Həyatda olanar Onun həyatı ilə diridir, əgər O olmasa və iradə etməsə, dünyada bir varlıq və bir məxluqdan əsər-əlamət belə olmaz. Əzəli və əbədi varlıq Odur.

لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ

***“Onu nə mürgü, nə də yuxu tutar.”***

Onu nəinki ağır yuxu, heç yüngül yuxu da tutmaz. Bunun mənası nədir? Yəni, Onun varlığı və həyatında bir an belə qəflət və diqqətsizlik yoxdur. Digər varlıqlar, yalançı tanrılar öz ixtiyarında olanlardan qəflət edir, hakim olduqları dünyadan tamamilə xəbərsizdirlər, agahlıq iddiası etsələr də bəzən, agahlıqlarında yanılır, qəflət və nadanlıq onlara hakim kəsilir.

أَلَمْ تَرَ إِلَى الَّذِينَ بَدَّلُواْ نِعْمَةَ اللّهِ كُفْرًا وَأَحَلُّواْ قَوْمَهُمْ دَارَ الْبَوَارِ. جَهَنَّمَ يَصْلَوْنَهَا وَبِئْسَ الْقَرَارُ

***“Məgər Allahın nemətini küfrə dəyişənləri (Allahın nemətlərinə nankor olanları) və öz qövmünü (və ardıcıllarını) ölüm (həlakət və bədbəxtlik) yurduna sövq edənləri görmədinmi? Onlar Cəhənnəmə daxil olacaqlar. (Özləri Cəhənnəmə daxil olacaqları kimi, bədbəxt ardıcıllarını da özləri ilə Cəhənnəmə çəkib aparacaqlar.) Ora necə də pis məkandır!”***[1]

İmam Kazim (ə) bu ayəni Harun Ər-Rəşidə oxudu və dedi: “Sən onlardansan.“[2]

Əgər Harun qafil olmasaydı, nə üçün özü ilə birgə qövmünü də Cəhənnəmə çəkib aparmalıdır? Deməк, digər məbudlar bütünlüklə

---

1. “İbrahim” surəsi, ayə 28-29
2. “Nurus-səqəleyn”, “İbrahim” surəsi, 28-ci ayənin təfsirində.

qəflətdədirlər.

Qəflətə dalmayan yeganə varlıq bu dünyanın həqiqi hakimidir:

لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ

***“Onu nə mürgü, nə də yuxu tutar.”***

Ayədə qeyd olunan “sinəh“ sözü yalnız “mürgüləmək”, “nəvm“ sözü isə yalnız “yuxu” mənasında deyildir. Allahdan yüngül və ağır yuxunu inkar edən bu sözlər daha dərin və daha artıq mənaları ifadə edirlər. Yoxsa, bu ifadələrin bu ayədə işlənməsinin heç bir zəruriliyi olmazdı. Nə üçün? (Bunun səbəbini növbəti bəhslərdə geniş şəkildə qeyd edəcəyik.) Çünki tövhidlə bağlı hər bir işarə və nöqtə Allahdan qeyrisinin “allahlıq“ məqamının inkarına və Ondan başqasının nöqsanlarına işarədir; Allahla bağlı nə isbat olunursa, onu allahlıq iddiası edənlərdən inkar edir, tövhid bəhsində deyilənlər allahpərəst və təkallahlıların həyatında öz əksini tapmalı, onun bütün xüsusiyyətləri, incəlikləri və nümunələri təkallahlı insanın həyatında cilvələnməlidir. Biz bu haqda gələcək bəhs və tilavətlərdə söz açacağıq. Bir sözlə, الْحَيُّ الْقَيُّومُ– ***“Diri və əbədidir.”*** – ifadəsi yalançı tanrı və məbudların qəflətləri, yuxuları və nadanlıqlarına işarədir.

لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ

***“Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa Onundur.”*** Onun mülkü və quludur.

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

***“Allahın izni olmadan Onun hüzurunda kim şəfaət (və vasitəçilik) edə bilər?”***

Allahın müqabilində şəfaətçi olaraq özünü göstərə bilən bir qüdrət tanımırıq. Əgər kimsə başqalarına şəfaət edəcəksə, o da Allahın izni ilə olacaqdır. Peyğəmbərlər, övliyalar, imamlar, əməlisalehlər, möminlər və şəhidlər Allahın hüzurunda şəfaət edəcəklər, lakin bu, Onun izni olmadan baş tutmayacaqdır. Demək, onların qüdrəti Allahın qüdrəti müqabilində heçnədir. Belə deyil ki, Allahın yaratdığı sistem müqabilində onların da ayrıca sistemi olacaq, xeyr, onlar da Allahın bəndələridir, lakin Allahın xas lütf və məhəbbətinə şamil olan bəndələridir.

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

***“Allahın izni olmadan Onun hüzurunda kim şəfaət (və vasitəçilik) edə bilər?”***

يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ

***“O, onların (bəndələrin) keçmiş və gələcəyini bilir.”***

O, insanların və digər varlıqların həyatını bütünlüklə əhatə etmişdir.

وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِّنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاء

***“Onlar(ın elmi) Allahın elmindən Onun Özünün istədiyindən başqa, heç bir şeyi əhatə edə bilməz.”***

Görün, bütün aləm necə də iki cərgəyə ayrılır: Bir cərgəsi Allahın cərgəsi, digəri isə varlıqların cərgəsidir. İkinci cərgədə olan bütün varlıqlar birmənalı olaraq Allahın bəndələridir. Demək istəyirəm ki, Allaha bəndəçilik baxımından iki varlıq arasında heç bir imtiyaz yoxdur, onlar Allahın bəndələri olduğu, Onun qüdrət və hakimiyyəti altında olduğundan bərabərdirlər, hətta dünyanın və insan tarixinin ən böyük, ən əziz və ən dəyərli varlığı – Peyğəmbəri-Əkrəmin (s) müqəddəs varlığı Allahın bəndəsi və Onun ixtiyarında olması nöqteyi-nəzərindən digər varlıqlarla bərabərdir; həm Peyğəmbəri-Əkrəm (s) Allahın hakimiyyəti altındadır, həm də digər varlıqlar. Bir peyğəmbərin, bir ilahi şəxsin və bir böyük şəxsiyyətin Allah dərgahında sevimli, izzətli və ucaməqamlı olması onun Allah müqabilində qüdrət sahibi olması anlamında deyil, əksinə, o da Allaha təslim olan bir quldur, onun böyüklüyü də elə budur. Namazın təşəhhüdündə belə deyirik:

وَاَشْهَدُ انَّ مُحَمَّداً عَبدُهُ وَرَسُولُه

***“Şəhadət verirəm ki, Muhəmməd Onun bəndəsi və peyğəmbəridir.”***

Burada onun Allaha bəndə olması önə çəkilir, birinci Allahın bəndəsi olması qeyd edilir.

وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ

***“Onun qüdrəti göyləri və yeri əhatə etmişdir.”***

وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا

***“Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir.”***

وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

***“Ən uca, ən böyük varlıq da Odur!”***

Hər ayə və kəlmədəki incə nöqtələrdən başqa, bu ayənin məcmusundan nə başa düşürsünüz? Ola bilsin ki, bəzi incəlikləri siz, bəzilərini də mən anlayım, amma onlarla, yüzlərlə incəliklər var ki, Allahın xas bəndələrindən başqa, heç kim başa düşmür. İmam Səccad (ə) اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ ***(Allahdan başqa, heç bir məbud yoxdur.)*** – ifadəsindən başa düşdüyü incəlikləri mən və siz başa düşə bilmirik. Bu incəliklər, ictimai və etiqadi məsələlərdən başqa, sözügedən ayənin məcmusundan

nə başa düşürsünüz?

Ayənin məcmusundan Allahla bağlı ələ gətirdiyiniz islami düşüncə nədir? Budur ki, bütün varlıq məntəqəsində "Allah" adlı bir qüdrət, həyat və elm ocağı vardır. Bütün varlıqlar bəndəçilik, kiçiklik və yoxsulluq hissi ilə o böyük və əzəmətli qüdrətə möhtacdır. O qüdrət ocağına bəndəçilikdə varlıqlar arasında da heç bir fərq yoxdur. Bir zərrəcikdən tutmuş böyük planetlərə qədər, istər mömin insan olsun, istərsə də kafir, istər dəyərsiz heyvan olsun, istərsə də dəyərsiz insan – hamılıqla o əzəmətli varlıq müqabilində təslimdir, Onun bəndələridir; istədiyiniz ifadəni işlədə bilərsiniz.

Əlbəttə, bu mövzunu anlamaq İslam ideologiyası ilə tanışlıqda və cəmiyyətin islami göstərişlərə əməl etməsində təsirə malikdir. Bu barədə zehninizin aydınlaşması üçün bir misal çəkmək istəyirəm; bütün insanların bu qüdrət ocağının müqabilində bərabər olduğunu bildiyimiz zaman Rum imperatoru Valerianın[1] məğrurcasına heykəlini düzəldib bir kölənin də onun ayaqlarından yapışıb yalvarması mənasız olacaq. Nə üçün? Məgər böyük imperator Allah bəndələrinin cərgəsindən başqa bir cərgədəmi qərar tutub? Məgər bu impoeratorun ayaqlarına düşüb ona baş əyən və yalvaran insan Allah bəndələrinin cərgəsindən başqa, daha aşağı və alçaq cərgədəmi yerləşir? Məgər onların hər ikisi bir cərgəyə aid deyilmi? Onda, bu vəziyyət nəyə lazımdır?

Baxın, dünya hegemonları, minlər və milyonlarla əsir və köləsi olan tarixin quldurları, sərvətliləri və əyan-əşrafı bu ilahi dünyagörüşü və əqidəyə sahib olmadığından belə düşünürlər: "Mən fərqliyəm; o başqa, mən başqa; o, mənim ayağıma gəlməlidir; mənəm ki, ayağımı onun başının üstünə qoymalıyam; mən əmr verməyə, o isə əmrə müti olmağa layiqdir; mən ağa kimi yaşamalı, o isə bədbəxtlər kimi sürünməlidir; mən yenilməz qüdrətə sahib Allahın quluyam, o isə gücü az olan məbudun quludur." Bu, Bəni-İsrailin təfəkkür tərzi idi. Onlar belə deyirdilər: "Bizim allahımız aləmlərin məbudu olan Yəhuvədir. Yəhuvənin Bəni-İsrailə lütfü daha böyükdür." Hindistan bütpərəst və müşrikləri belə deyirdilər: "Cəmiyyət dörd qrupa bölünür, hər qrupun öz tanrısı var və hər biri xas bir yerdən qaynaqlanmışdır." Lakin xalis İslam və tövhid

1. Xristianlara işgəncə verən böyük Rum imperatorunun adı. O, sonda Sasanilərlə döyüşdə əsir düşdü və xristianlar onun əsir düşməsini onun ilahi əzaba düçar olması ilə əlaqələndirdilər.

ideologiyasına əsasən, bütün mümkün (yaradılmış) varlıqlar bir yerdən, bir başlanğıcdan, bir qüdrətdən meydana gəlmişdir. Hamı Onun dərgahında bəndə və kölədir. Hamı Onun qarşısında əsirdir. Hamı Onun əmrinə təslim olmalıdır. Heç kimin Ondan başqasının hüzurunda əyilməyə haqqı yoxdur, necə ki, kimsə ayağını başqasının başına qoymağa, kimsə də başını başqasının ayağı altına atmağa haqqı yoxdur. Nə üçün? Çünki hər iki halda haqq və həqiqətə qarşıdır. Atlı ilə onun atının zəhərli ayaqları altında çapalayan piyadalar (kölələr) arasında heç bir fərq yoxdur.

لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ

***"Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun hüzurunda kim şəfaət (və vasitəçilik) edə bilər?"***

Bəli, bəziləri şəfaət edəcəklər, amma Onun icazəsi ilə! O, heç zaman zalımlara şəfaət izni verməz, imamlara isə izn verəcək. O, heç vaxt fitnə-fəsad əhlini şəfaətə layiq bilməyəcək. Peyğəmbərlər, övliyalar, əməlisalehlər, şəhidlər, uca məqama sahib olan təvazökarlar, dünya həyatını acı və zəhərli bilən, amma güclü ruha sahib olan, vəzifə yolunda hərəkət edən və vəzifəyə daha da yaxın olmaq üçün addımbaaddım irəliləyən bəndələr Allahın hüzurunda (Qiyamətdə) şəfaət edə biləcəklər. Onlar da Allaha daha çox bəndəçilik etdikləri, özlərini Allahın qüdrəti altında gördükləri üçün şəfaət edə biləcəklər. Peyğəmbəri-Əkrəmin (s) dönəmində o Həzrət kimi Allaha bəndəçilik edən yox idi. Heç kim Əmirəlmöminin Əlinin (ə) və İmam Səccadın (ə) zamanında onlar kimi Allaha ibadət etmirdi. Peyğəmbəri-Əkrəmin (s), Əmirəlmöminin Əlinin (ə) və İmam Səccadın (ə) insanların ən üstünü olmasını bir Şuştər əhlini bir Dezful əhli ilə (iki tayfanın üstünlük baxımından bir-birilə) müqayisəsi kimi fərz etməyin. Allaha bəndəçilik edənin məqamı daha böyük, daha üstün və daha şərəflidir. Bu ayənin (Ayətül-kürsünün) məcmusundan belə anlaşılır ki, bütün aləmlər, bütün varlıqlar aləmlərin Rəbbinin – o mütləq qüdrətin müqablində bəndə, müti və təslimdir; hər kim Ona daha yaxın olmaq istəsə, Ona daha yaxşı bəndəçilik etməlidir. Bu bir ayə!

Seçdiyim növbəti ayə isə "Məryəm" surəsinin 88-ci ayəsidir:

وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَدًا

***"Dedilər: "Rəhman Allah Özünə övlad götürmüşdür!""***

Kafirlər müxtəlif şəkildə belə ifadələr işlətmişlər; xristianlar bir cür,

yəhudilər bir cür, Ərəbistan və Qüreyş müşrikləri də bir cür! Bəziləri "Allahın qızı var!", bəziləri "Allahın oğlu var!", bəziləri "Allahın həm qızı, həm də oğlu var!", bəziləri "Allahın yalnız bir övladı var!", bəziləri də "Allahın övladlarının sayı hədsizdir, ailəsi böyükdür!" – deyirdilər. Bir sözlə, onlar وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَدًا– ***"Rəhman Allah Özünə övlad götürmüşdür!" – dedilər."***

Onlar nə üçün belə deyirdilər? Buna diqqət yetirin ki, bir qrup xristian, yəhudi və müşrikin Allahın övlad sahibi olmasını iddia etməsi dünya varlıqları arasında kiminsə Allahla bəndəçilik nisbəti yox, övlad nisbətinin olması anlamını daşıyırdı, onu kölə yox, şahzadə hesab edirdilər.

Yəhudilər Üzeyr peyğəmbərə "Allahın oğlu" deyirdilər. Onların nəzərincə, bütün varlıqlar Allahın qulu olsa da Üzeyr ondan xaricdir və o, Allahın qulu yox, övladıdır, şahzadədir, Allahın gözünün işığıdır. Xristianlar da belə sözlər deyirdilər. Kafirlər də Lat, Mənat və Üzzanı[1] Allahın qızları hesab edirdilər. Yunan və Rum müşrikləri də Allahın çoxlu övlad sahibi olduğuna inanırdılar. Həqiqətdə, bizim apardığımız iki bölgünün – biri Allah, digəri isə Allahın müqabilində baş əyən bütün varlıqlar və bəndələr – üç olduğunu bildirir və deyirdilər: Allah, Onun bəndələri və Onun övladları. "Məryəm" surəsinin ayələri bu etiqadı rədd edir. Ayənin sonuna qədər diqqətlə dinləyin.

وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَدًا

***"Dedilər: "Rəhman Allah Özünə övlad götürmüşdür!""***

لَقَدْ جِئْتُمْ شَيْئًا إِدًّا

***"Siz, doğrudan da, olduqca ağır (və nalayiq) söz danışdınız!"***

Görün, Allah hansı ifadəni işlədir? Ağır və qorxulu söz danışdınız, olduqca təhlükəli bir əqidə təqdim etdiniz.

تَكَادُ السَّمَاوَاتُ يَتَفَطَّرْنَ مِنْهُ وَتَنشَقُّ الْأَرْضُ وَتَخِرُّ الْجِبَالُ هَدًّا

***"Buna görə az qaldı ki, göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub dağılsın!"***

أَن دَعَوْا لِلرَّحْمَنِ وَلَدًا

***"(Müşriklərin) Rəhman Allaha övlad isnad etdiklərinə görə!"***

Aydındır ki, məsələ olduqca mühümdür. Allah elə bir varlıq deyil ki, bir söyüş və nalayiq sözlə incisin. Aləmlərin Rəbbi hisslərə qapılan varlıq deyil. İnsanlara təqdim etdiyi əqidə ilahi hədəflərin təmininə, rədd etdiyi

---

1. Bu üç bütün adı "Rum" surəsinin 19-20-ci ayələrində çəkilmişdir.

çirkin əqidə də cəmiyyətdə fəsad və pozğunluğun tamininə xidmət edir. "Allahın övladı olması" və "Allahla bəşər arasında vasitəçilik rolunun olması"na etiqad cəmiyyətdə çirkin inanclara yol açır. Əlbəttə, tövhid bəhslərində bunun mənfi təsiri tədricən özünü göstərəcək. Bu isə həqiqətdə, bəndələrin Allahın yox, biri digərinin bəndəsi olması üçün gətirdiyi bir bəhanədir.

وَمَا يَنبَغِي لِلرَّحْمَنِ أَن يَتَّخِذَ وَلَدًا

***"Halbuki, Rəhman Allaha Özünə övlad götürmək yaraşmaz."***

إِن كُلُّ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ إِلَّا آتِي الرَّحْمَنِ عَبْدًا

***"Çünki göylərdə və yerdə olan bütün məxluqatdan eləsi yoxdur ki, (Qiyamət günü) Rəhman Allahın hüzuruna bir bəndə kimi gəlməsin."***

Hamı Allahın müqabilində bəndə və kölədir.

لَقَدْ أَحْصَاهُمْ وَعَدَّهُمْ عَدًّا

***"And olsun ki, (Allah) onları hesablamış və təkrar-təkrar saymışdır. "***

(Bu da "Məryəm" surəsindəki növbəti ayə.)

Bir sözlə, bugünkü bəhsimizdə İslam dünyagörüşündə əsas prinsiplərdən biri kimi tövhidin mənası araşdırıldı. Ertəsi gün isə inşallah, İslam ideologiyasında əsas prinsiplərdən biri kimi tövhidin mənasına toxunacağıq. O zaman bu iki mənanın bir-birilə fərqli olduğunu görəcəksiniz. Bu müqəddimədir, İslam düşüncəsi budur, dünyanı və varlıq aləmini belə görür. Görəsən, bu düşüncə bizə nə bəxş edir? Həyat üçün təqdim etdiyi hərəkət istiqaməti, planı nədir? İslam ideologiyasında tövhidin rolu nədir?

## Xülasə

**Cümə axşamı – Ramazan ayının 9-cu günü**

# İSLAM DÜNYAGÖRÜŞÜNDƏ TÖVHİD

İslam dünyagörüşündə (İslamın fəlsəfi və fundamental düşüncəsində) bütün varlıqlar "Allah" adlı üstün bir qüdrətin vasitəsilə yaranmış, Onun qulu və Ona möhtacdırlar. O, elm, qüdrət, iradə, həyat və s. kimi əsaslı və gözəl xislətlərlə bəzənmişdir.

Dəyərsiz zərrəciklərdən tutmuş planetlər, qalaktikalar və naməlum varlıqlara qədər hər biri Onun ixtiyarındadır. Dünya varlıqları – insan və digərləri Onun bəndələridir və Ona bəndəçilikdə hamı şərik və bərabərdir. Övlad, zövcə, ortaq və bu kimi adlar Allaha bəndəçilik dairəsindən kənar deyildir.

Bəndələr hər şeyini – fikrini, zəkasını, qərarını, maddi imkanlarını və s. Ondan alır, yaradılış mənbəyi Odur və həyatın davamı Onunladır.

Bu düşüncə İslamın quruculuq ideologiyasında bütün tədbirlərin, əməli göstəriş və proqramların əsas və fundamental prinsipindən ibarətdir.

Quran ayələrində tövhid nəğməsi könül oxşayır və diqqəti cəlb edir:

اللّهُ لاَ إِلَـهَ إِلاَّ هُوَ – ***Allahdan başqa, heç bir məbud (ilah) yoxdur.***

الْحَيُّ الْقَيُّومُ – ***Diri, əzəli, əbədi, qoruyan və gözətçidir.***

لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ – ***Onu nə mürgü, nə də yuxu tutar (bir an belə qəflətə dalmır).***

لَّهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ – ***Göylərdə və yerdə nə varsa Onundur.***

مَن ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلاَّ بِإِذْنِهِ – ***Onun izni olmadan Onun hüzurunda kim şəfaət (və vasitəçilik) edə bilər?***

يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ – ***O, onların (bəndələrinin) keçmiş və***

*gələcəyini bilir.*

وَلاَ يُحِيطُونَ بِشَيْءٍ مِّنْ عِلْمِهِ إِلاَّ بِمَا شَاء – *Onlar(ın elmi) Allahın elmindən Onun Özünün istədiyindən başqa, heç bir şeyi əhatə edə bilməz.*

وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالأَرْضَ – *Onun qüdrət və hökmranlığı göyləri və yeri əhatə etmişdir.*

وَلاَ يَؤُودُهُ حِفْظُهُمَا – *Göyləri və yeri mühafizə etmək Onun üçün heç də çətin deyildir.*

وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ – *Odur ən uca, ən böyük!*

(“Bəqərə” surəsi, ayə 255.)

وَقَالُوا اتَّخَذَ الرَّحْمَنُ وَلَدًا – *Dedilər: “Rəhman Allah Özünə övlad götürmüşdür!”*

لَقَدْ جِئْتُمْ شَيْئًا إِدًّا – *Siz, doğrudan da, olduqca ağır (və nalayiq) söz danışdınız!*

تَكَادُ السَّمَاوَاتُ يَتَفَطَّرْنَ مِنْهُ وَتَنشَقُّ الْأَرْضُ وَتَخِرُّ الْجِبَالُ هَدًّا – *Buna görə az qaldı ki, göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub dağılsın!*

أَن دَعَوْا لِلرَّحْمَنِ وَلَدًا – *(Müşriklərin) Rəhman Allaha övlad isnad etdiklərinə görə!*

وَمَا يَنبَغِي لِلرَّحْمَنِ أَن يَتَّخِذَ وَلَدًا – *Halbuki, Rəhman Allaha Özünə övlad götürmək yaraşmaz.*

إِن كُلُّ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ إِلَّا آتِي الرَّحْمَنِ عَبْدًا– *Çünki göylərdə və yerdə olan bütün məxluqatdan eləsi yoxdur ki, (Qiyamət günü) Rəhmanın hüzuruna bir bəndə kimi gəlməsin.*

لَقَدْ أَحْصَاهُمْ وَعَدَّهُمْ عَدًّا – *And olsun ki, (Allah) onları hesablamış və təkrar-təkrar saymışdır.*

(“Məryəm” surəsi, ayə 88-94.)

## DOQQUZUNCU MƏCLİS

## İSLAM DÜNYAGÖRÜŞÜNDƏ TÖVHİD

Cümə günü – 1974/09/27
Ramazan ayının 10-u.

بسم الله الرحمن الرحيم

وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللّهِ أَندَاداً يُحِبُّونَهُمْ كَحُبِّ اللّهِ وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ وَلَوْ
يَرَى الَّذِينَ ظَلَمُواْ إِذْ يَرَوْنَ الْعَذَابَ أَنَّ الْقُوَّةَ لِلّهِ جَمِيعاً وَأَنَّ اللّهَ شَدِيدُ الْعَذَابِ

***“İnsanların arasında Allahdan qeyrilərini (Allaha) şərik qoşub onları Allahı sevdikləri kimi sevənlər də vardır. Halbuki, iman gətirənlərin Allaha məhəbbəti daha şiddətlidir. Əgər zülm edənlər onlara veriləcək əzabı görsəydilər, onlar bütün qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər.”***

“Bəqərə” surəsi, ayə 165.

İlahi və islami dünyagörüşündə deyilir ki, bizim gördüklərimizin fövqündə daha üstün, daha böyük bir həqiqət var ki, onsuz varlıqlar heç vaxt formalaşmazdı. Amma materialistlər deyirlər ki, biz gördüklərimizdən başqa, heç bir şeyə inana və etiqad bəsləyə bilmərik, laboratoriya cihazlarında belə axtardıq, amma sizin dediyiniz varlıqdan əsər-əlamət görmədik. (İlahi və materialist dünyagörüşləri arasında gedən mübahisələr bu sahəyə məxsus kitablar və tədqiqatlarda qeyd edilmişdir.)

Demokrit və Zimoqratis kimi 10, 20 və 30 əsr öncə yaşamış və sümükləri torpaq altda çürümüş materialistlərlə işimiz yoxdur. Bizim əqidəmizə görə, "Allah yoxdur, bu aləmin fövqündə başqa bir həqiqət mövcud deyildir." – deyən müasir materialistlər, həqiqətdə, ideoloji və psixoloji baxımdan ilahi məktəbdən uzaq düşdükləri və ayrıldıqları üçün belə düşünürlər. Onların nəzərincə, bugünkü dünya quruluşu, insanların idarəsi, ədalətin bərpası, ayrı-seçkiliyin aradan qaldırılması yalnız materialist təfəkkür sayəsində mümkündür. Buna görə də, onlar ilahi məktəbdən üz döndərmişlər. Bizim zamanımızda, əlli il öncədən indiyə qədər bəzi məktəblərə qoşulan şəxslərin ideologiyası və təfəkkürünü araşdırdıqda, elə qeyd etdiyimiz mətləblərlə rastlaşacağıq. Onların Allahı inkar etmələrinin səbəbi Allaha qarşı inadkarlıqları və yaxud Allahın varlığı haqqında qənaətbəxş dəlil-sübutlarının olmaması deyil. Heç onların Allahın inkarına dair heç vaxt (nə indi, nə də keçmişdə) dəlil-sübutları da olmayıb. Siz "Filan səbəbə görə Allah yoxdur." – deyən bir nəfər belə tapa bilməzsiniz. Əzəldən indiyə qədər bütün dünya materialistləri arasından hələ bir nəfər belə deməyib ki, bu səbəbə görə Allahın yoxluğunu sübut edirəm. Deyənlərin də sözü budur: "Allahın varlığı mənə sabit deyil, onunla bağlı dəlil-sübutları anlamır və qəbul

etmirəm.” Qurani-Kərimdə də bu həqiqətə işarə edilir:

إِنْ هُمْ إِلَّا يَظُنُّونَ

***“Onlar ancaq zənnə qapılırlar!”***[1]

Deməak, materialistlərin Allahı inkar etmələri əqli fəlsəfənin olmaması baxımından deyil, sadəcə onlar zənnə və gümana qapılırlar. Bizim maddi məktəblərin əqidələrində müşahidə etdiklərimiz yalnız bu nöqtədir. Onlar maddi məsələlərə bağlandıqları üçün elə təsəvvür edirlər ki, bu gün yalnız maddi məktəb dünyanı yaxşı idarə edə, zülmü, ayrı-seçkiliyi, bərabərsizliyi, haqsızlığı və özbaşınalığı aradan qaldıra bilər. Onlara görə, din bu işləri görməyə qadir deyil. Nə üçün onlar belə düşünürlər? Çünki din və dini maarif haqqında heç nə bilmirlər və bildikləri də yalnız kor-koranə təqlidə əsaslanan küçə-bazar insanlarından öyrəndikləridir. Bir sözlə, onlar dindən xəbərsiz, məlumatsızdırlar. Ondan: “Din nədir?” – deyə soruşsan, bir sıra zahiri nişanələrin adını çəkib “Bunlar dindir, zülm və zalımla bərabər və qardaş olduğu üçün zərərlidir, heç kimin problemini həll etməyə qadir olmadığı üçün ondan uzaqlaş!” – deyəcək.

Aydındır ki, insan belə bir məntiqlə üzləşdikdə, ən doğru və ən yaxşı cavab budur: “Bəli, zalımla həmkarlıq edən, məzlumu bir an belə düşünməyən və insanların problemlərinə göz yuman bir din tapsan, onda belə bir din cəmiyyətin bu günü və sabahı üçün zərərlidir, azacıq belə faydası yoxdur.” Sən də bizim tərəfimizdən vəkil ol, əgər belə bir dini hər yerdə soraqlaşıb tapsan, onu inkar et, əsla qəbul etmə! Çünki Allah tərəfindən göndərilən din belə deyil; Allahın göndərdiyi din oyun-oyuncaq deyil, onun nişanəsi, xüsusiyyəti və standart möhrü vardır. Əgər bu standart möhür bir dinlə uyğun gəlirsə, biz onu qəbul, əks-təqdirdə, inkar edirik.[2]

Quranda buyurulur:

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ

***“Həqiqətən, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik.”***[3]

وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ

***“Biz onlarla birlikdə kitab nazil etdik.”***

---

1. “Casiyə” surəsi, ayə 24.
2. Nübuvvət mövzusuna çatdıqda, inşallah, Quran ayələrinə istinadən bu mənanı geniş şəkildə bəhs edəcəyik.
3. “Hədid” surəsi, ayə 25.

Biz onlarla birlikdə cəmiyyətdə ixtilafları aradan qaldırmaq və onların arasında mühakimə yürütmək üçün əqidələr və əməli göstərişlərdən ibarət bir məcmuə göndərdik. رُسُلَنَا ***"Peyğəmbərlərimiz"*** – ifadəsindən aydındır ki, söhbət bir nəfərdən getmir və məqsəd bir peyğəmbər deyil, onlar yalnız Həzrət Musa (ə), İsa (ə) və Peyğəmbəri-Əkrəmdən (s) ibarət deyillər, أَرْسَلْنَا رُسُلَنَا – müəyyən məqsəd və hədəflərlə ***"peyğəmbərlər göndərdik."*** Həmin hədəflər nədir?

لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ

***"İnsanlar (bir-biri ilə) ədalətlə rəftar edib yaşasınlar."***

Din budur! Dinlərin fəlsəfəsinin əksinə olan bir din görsəniz, bilin ki, ya ilahi din deyil, ya da onu təhrif etmişlər. İlahi peyğəmbər və elçilərin fəlsəfəsi və tutduğu yolun əleyhinə qalxan bir dinlə rastlaşsanız, bilin ki, Allahın vəhyi və peyğəmbərlərdən qaynaqlanmamışdır. Bu, aydın bir məsələdir.

Elə isə, ey materialist, ey dinin bəşər cəmiyyətlərinin idarəsində aciz qaldığını deyən! Səndən soruşuram: "Hansı dini nəzərdə tutursan? İslam dininimi? Həqiqi İslamımı? Muhəmmədə (s) nazil olan vəhyimi? Ələvilərin həkimanə həyat tərzinimi? Onların ictimai işlərin idarəsində aciz qaldığını gördünmü? Gəl, sübut et, hansı sahədə aciz qaldılar? Ayrı-seçkiliyi aradan qaldıran, dünyanı çaynağına keçirən sosial təbəqələşmə ilə mübarizə aparan, sərvətləri ədalətlə bölən, bəşəriyyətə fürsət və imkanlar yaradan, hökuməti zalımlardan alıb Allahın ədalətli qanunlarına tapşıran İslammı? Alçaq, özbaşına, quldur, quldar, quldarlığa boyun əyən, hansısa bir "söz"ə, "təşəkkür"ə və "pul"a görə ən çirkin cinayətlərə əl atanlarla mübarizə aparan, alçalan, xar və zəlil olan insanı əzizləyib dəyərləndirən, onu əxlaqi fəzilətlər və insani keyfiyyətlərlə bəzəyən və bütün gözəllikləri ədalətli sistem sayəsində təmin edən İslammı?

Peyğəmbərin (s) tərbiyə metodu fərdi xarakter daşımırdı; onun vəzifəsi insanların əlindən bir-bir yapışıb bir guşəyə apararaq qulağına dua oxumaq və hidayət etmək, yalnız oturub öyüd-nəsihət vermək, nəyin pis, nəyinsə yaxşı olduğunu deməklə kifayətlənmək deyil, əksinə ictimai quruluşu formalaşdırmaqdır; o günün cahillik mühitində İslamın ictimai təməlini möhkəm polad tək müəyyən etdiyi qəlibdə yerləşdirdi, sonra insanları həmin təmələ tərəf yönləndirdi, həmin qəlib əsasında tərbiyələndirdi və beləcə, insan dəyər qazandı. Həqiqi İslam dininin

insanın tərəqqisinə, ədalət və əmniyyətin bərqərarına və bəşərin ehtiyaclarının təmininə zidd olduğunu deyirsənsə, bu, qəbuledilməzdir, həqiqətən də, insafsızlıqdır. Batil məsihi mühitində boya-başa çatan, dində yalançı Məsih şəfaəti, günahların bağışlanması və Cənnət sənədinin pulla satılmasından başqa, heç bir şey bilməyən bir alim özünə haqq verib dinlə bağlı belə danışırsa, sən ondan əlli, səksən və yüz il sonra həyata qədəm qoyduğun, İslamın az-çox dünya üfüqündə ən şirin və ən sevimli insanlıq nümunələri ilə özünü göstərdiyi bir dönəmdə yaşadığın halda, belə danışmağa haqqın yoxdur. Əgər məqsədin budursa, bu, doğru deyil. Yox, əgər batil, yalançı, zahiri gözəl, batini isə çirkin görünən, insanları süstlüyə, tənbəlliyə, zülmkarlığa, zülmə boyun əyməyə, bədbəxtliklərə, təfriqələrə və qardaş qətlinə dəvət edən dindən danışırsansa, biz də sənin səsinə səs veririk; yoxsula: "Ehtiyacın varsa və pulun yoxdursa, pul qazanmaq üçün işləmək lazım deyil!", varlıya da: "Qazandığın pulların bir hissəsini kilsəyə və filan dini müəssisəyə versən, zülm və haqsızlıqla qazandığın həmin pulların kəffarəsi hesablanacaq!" – deyən dindən söz açırsansa, elə hər ikimiz Quranın sözünü deyirik:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّ كَثِيرًا مِّنَ الأَحْبَارِ وَالرُّهْبَانِ لَيَأْكُلُونَ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ وَيَصُدُّونَ عَن سَبِيلِ اللّهِ

***"Ey iman gətirənlər! (Yəhudi və xaçpərəst) alim və rahiblərindən çoxu insanların mallarını haqsızlıqla yeyir və (onları) Allah yolundan döndərirlər..."***[1]

Onlar insanların mallarını yeməklə kifayətlənmir, insanların təkamül yolunu da kəsirdilər. Kaş, təkcə pullarını alıb yeyər, tərəqqi yollarını isə bağlamazdılar! Həm pullarını yeyir, həm də yollarını kəsirdilər. Bunu Quran buyurur. Biz də sənin səsinə qoşuluruq, bu, din deyildir, dinsizlər belə dindarlardan yaxşıdır. Çünki dinsizlər, ola bilsin ki, zülmlərə, haqsızlıqlara yardımçı olmasın, lakin belə din onların əlində də vasitə, dəstək və silaha çevrilə bilər.

Bu qeyd etdiklərimiz tövhidə etiqadla, "Allah var, ya yox? Bu maddi aləmin fövqündə başqa bir qüdrət varmı?" – sualına cavabla bağlı külliyyatın xülasəsindən ibarət idi. Cavab məqamında həm allahpərəstlərin, həm də materialistlərin sözlərinə toxunduq. Allahpərəstlərlə materialistlərin ixtilafları haqda əlavə məlumat əldə

1. "Tövbə" surəsi, ayə 34.

etməyi kitablara həvalə edirik, bizim bəhsimizlə əlaqəli olan hissəni xülasə şəkildə qeyd etdik.

Önəmli bir mətləb[1]: İslami təfəkkürlə bağlı hamı bir sıra məsələləri bilməli, dərk etməlidir. Onlardan biri budur: Tövhid bəhsi ilə əlaqədar elmi və məntiqi suala sadə və quru şəkildə cavab verilməməlidir, əksinə onun öyrənilib-öyrənilməməsindəki həyati və həlledici roluna diqqət yetirilməlidir. İndi isə izah edirəm:

Bəzən, dostunuz və yoldaşınızla birlikdə hansısa bir yolla getdiyiniz və addımladığınız halda, aranızda mübahisə düşür. Siz: “Qardaş, mənim nəzərimcə, bu yolun hər iki tərəfi şoranlıqdır, burada heç vaxt məhsul olmaz.”, dostunuz isə: “Xeyr, qardaş, yolun hər iki tərəfi filan toxumun əkilib məhsul verməsi üçün tamamilə hazırdır.” – deyərək bir-birinizlə bəhs edir və hər ikiniz dəlil-sübut gətirirsiniz. Görəsən, bu bəhsin nə qədər əhəmiyyəti var? Onsuz da bu yolu gedirsiniz, insanlar da bu yolda saatda yüz iyirmi km sürətlə avtomobil sürürlər. Nə oranın torpağını analiz etmək, nə (məsələn,) çuğundur əkmək üçün həmin torpağı almaq, nə də ki, onunla bağlı araşdırma aparıb məlumat toplamaq fikriniz var. Odur ki, bu mübahisənin, bu sual-cavabın bir faydası yoxdur, yalnız bir sualı cavablandırmaq qədər faydalıdır və başqa təsirə malik deyildir. Hər ikinizin bu torpağın məhsuldar olmaması, yaxud da orada çuğundurun yaxşı məhsul verməsi ilə əlaqədar müzakirələrinizin, dəlil-sübutlarınızın, sonda isə oranın məhsuldar olması sübuta yetdikdən sonra, ona görə iki rükət namaz qılmağınız, sizin ona qalib gəlməyiniz, onun da sizə məğlub olmasının sizin o yolu ötüb-keçməyinizə, səfəriniz və dostluğunuza heç bir faydası yoxdur. Bu, sadəcə bəhs və sual-cavabdır.

Bəzən də, hər ikiniz avtomobildə əyləşmisiniz, avtomobil sürətlə hərəkət edir. Birdən, dostunuz deyir ki, mənim nəzərimcə, bu yol şimala tərəf gedir, sizin hədəfiniz isə cənub tərəfə getməkdir. Siz isə ona deyirsiniz ki, xeyr, bu yol elə cənuba gedir. O da yox deyir, siz də yox deyirsiniz. Aranızda mübahisə yaranır. Əgər o, öz sözünü sübut etsə, avtomobil mütləq geri dönməli və yolu dəyişməlidir, yox, əgər siz sübut

---

1. Bu gün əlinizdəki vərəqdə qeyd edilən mətləblərin hamısını izah etməyə vaxtımız çatmasa da, eybi yoxdur, çünki bu bəhsi sabah da sizinlə birgə davam edəcəyik, inşallah – əgər Allah istəyərsə! Bu gün isə uyğun mətləblərə ümumi və müqəddimə olaraq toxunmalıyam ki, hamı dərk etsin, bu gün cümə günü olduğundan, ola bilsin, məclisdə iştirak edənlərdən bəziləri sabah məclisdə iştirak edə bilməsin.

etsəniz, elə həmin yolu davam edəcək, irəliləyəcək və sürətinizi bir az da artıracaqsınız. Burada sizin aranızda baş verən mübahisə və yaranan tərəddüd elə ilk anlardan öz təsirini qoyur; belə ki, sürücü ayağını maşının əyləcinə qoyub sürətini azaldır, hara gedəcəyi, məqsədə çatıb-çatmayacağı haqda düşünməyə başlayır. Bu mübahisənin, bu sual-cavabların nəticəsi, faydası var, həlledicidir. Tövhid bəhsi də bu qəbildəndir.

Adi, bekar və məsuliyyətsiz bir insanın tövhid haqqında bəhsi ilə məsuliyyətli bir insanın bəhsi arasında fərq vardır. Məsuliyyətsiz insan tövhid haqqında danışarkən belə deyir: “Allah var, ya yox? Varsa, nə edək, yoxsa nə edək? Yaşayışda təsiri nədir, ictimai sistemdə nə dəyişiklik yaradacaq? Əgər Allah olsaydı, filan kapitalistin, filan super gücün vəziyyəti necə olardı? Əgər filan ölkədə hakimiyyətə gələn Prezident Allaha inanan biri olsaydı, necə rəftar edərdi? Əgər Allaha inanmasaydı, necə rəftar edərdi? Heç fərq edərdimi?” Kartellər[1], trestlər[2] və kapitallarda bir tərəfin allahşünaslıq və allahpərəstliyinin təsir və faydası yoxdursa, onun allahpərəstliyi və tövhidə inamı eynilə yanından keçdiyimiz və bizə heç bir faydası olmayan məhsuldar torpağa bənzəyir. Filan ölkənin Allaha inanan siyasi rəhbərinin allahpərəstliyi yalnız quru fəlsəfi sualı cavablandırmaq həddindədirsə, onun faydası nədir? Siyasi bir rəhbərin, sıravi bir insanın, bir dəstənin, bir cəmiyyət və bir millətin allahpərəst olması o zaman faydalı, təsirli, həlledici və həyati əhəmiyyətlidir ki, tövhidin faydalarını, onun həyat tərzinə təsirlərini, tövhid ideologiyasının təqdim etdiyi sistemi anlasın və dərk etsin. Bizim nəzərimizcə, bu, olduqca mühüm bir məsələdir.

Biz tövhidi yalnız düşüncəmizdə aydınlaşan bir məsələ kimi güman edirik. Elə buna görə də onun həyatda heç bir təsirə malik olmadığnı görürük. Əgər təsirini görsək belə, ictimai həyatda deyil, şəxsi və fərdi həyatda müşahidə edirik. Onsuz da mən allahpərəst olsam da, olmasam da, həmin qazanc, avtomobil, şirkət, fabrik, fəhlə və torpaqla da

1. Kartel – birlikdə öz ticarət və istehsal müstəqilliyini saxlayan inhisar formalarından biri; konkret bir sahə üzrə rəqabətin məhdudlaşdırılması barədə firmalar arasındakı rəsmi və ya qeyri-rəsmi saziş.

2. Trest – işgüzar müstəvidə əməkdaşları, kreditorları arasında yüksək imicə və etibarlılıq səviyyəsinə malik müəssisə, təşkilat. Ayrı-ayrılıqda oxşar əmtəələr istehsal edən üzv şirkətlərin bütün imkanları trestin ixtiyarında olur.

əlaqələrimiz olacaq. Baxın, dünyanın kapitalist ölkələrində, şöhrəti və avazı Şərqi və Qərbi bürüyən super güclər arasında iki sahibkarı, iki böyük taciri, iki holdinq şirkətini, öz dilləri ilə desək, iki sənaye öndərini nəzərdən keçirin; onlardan biri Allaha inandığı üçün bazar günü kilsəyə gedib qaragünlü, bədbəxt rahibə pul verərək günahlarından bir hissəsini bağışlatdırır, Cənnətin yolunu bir neçə kilometr hamarlayır. Amma görəsən, bunun onun həyatına, şirkətinə, fəhlələr və insanlarla əlaqəsinə, sərvət yığması və xərcləməsinə bir təsir və faydası varmı? Belə tövhidin, allahpərəstliyin şirklə fərqi nədir?

İslamın dəvət etdiyi tövhid sadəcə bir sualı cavablandırmaqdan qat-qat üstündür. O nədir? İslam tövhidi idarəçilik, ictimai əlaqələr, ictimai tərəqqi, ictimai hədəflər və mükəlləfiyyətlərdən, insanların Allah, eyni zamanda, cəmiyyət və bir-birlərinin, həmçinin, digər varlıqların müqabilində məsuliyyətlərindən ibarət bir ilhamdır. Tövhid budur. İslam tövhidi əlifdir, ondan sonra b, sonra p, sonra ç, sonra isə y gəlir. “Allah birdir, iki deyildir.” – ifadəsi ilə bitən bir proses deyil. “Allah birdir, iki deyildir.” – ifadəsinin mənası odur ki, bütün varlıq məntəqəsində, istər fərdi, istərsə də ictimai sahədə, yalnız Allahın hökmranlıq haqqı vardır.

“Allah birdir, iki deyildir” ifadəsinin mənası odur ki, sahib olduğun hər bir şey – özün, sərvətin və bütün insanlar Allahındır, siz isə əmanətdarsınız. İndi bu qeyd edilənlərə rəğmən, kim allahpərəst olmaq istəyir? Siz yalnız pulu qoruyub saxlayansınız, əmanətdarsınız, vəssəlam! Dostunuz tərəfindən sizə əmanət olaraq tapşırılan pulla necə rəftar edirsiniz? Haçan o pulun sahibi sizə onun müəyyən hissəsini filankəsə, filan uşağa, yaşlıya və ya qərib insana, filan xeyriyyə fonduna xərcləməyinizi tapşırsa, sizin də onun istədiyi kimi rəftar etməkdən, pul sahibinin dəst-xəttini gözləməkdən başqa yolunuz yoxdur. Məsələ bundan fərqlidirmi? Əmanət olan pul üzərində sizin haqqınız və sahibliyiniz varmı?

اَلْمَالَ مَالُ اللَّهِ يَضَعُهُ عِنْدَ الرَّجُلِ وَدَائِعَ

*“Mal-dövlət Allahındır və onu insanın yanında əmanət qoymuşdur.”*[1]

Tövhidin tələbi budur.

Əgər tövhidi qəbul edirsənsə, artıq, cəmiyyətdə sosial təbəqələşmə və ayrı-seçkilik mənasızdır. Baş-ayağı, yuxar-aşağısı (ayrı-seçkilik) olan cəmiyyət allahpərəst cəmiyyət ola bilməz. Tövhid ideologiyası belə

---

1. “Biharul-ənvar”, c.10, bölmə 78, hədis 6.

deyir:

كُلُّكُم مِن آدَم وَ آدَم مِنْ تُرَابٍ

*“Hamınız Adəmin övladlarısınız, Adəm isə torpaqdandır.”*[1]

Sizi Allaha yaxınlaşdıran və sizi üstün edən təqvadır. Hər kim Allahın əmrinə daha çox tabedirsə, ən üstün də odur, yoxsa, minlərlə ayrı-seçkiliyin və sosial təbəqələşmənin hakim olduğu (“Nə üçün filankəs elədir?” – sualına “Çünki o, elitar təbəqədəndir.” – deyə cavab verildiyi), insanların bir-birilə rəftarı kəskin şəkildə fərqləndiyi və həmin rəftarında özünə bəraət qazandırdığı, Allah bəndələrinin bərabər olmadığı və bəzilərinin digərlərinə kölə olduğu bir cəmiyyətin allahpərəst (tövhidə əsaslanan) cəmiyyət olmasından söz gedə bilməz. Tövhid ideologiyasının hakim olduğu cəmiyyətdə bütün bəndələr bərabər yaşayır. Bu nə deməkdir? Yəni, hamı Allaha bəndə olur. (Dünən bu haqda danışmışdım və dünənki məclisə aid olan bu vərəqdə bu cümləni izah etmişdim.) Dünya varlıqları – insan və digərləri Onun bəndələridir və hamı Ona bənədəçilikdə ortaq və eyni səviyyədədir. Dünən bu haqda geniş danışdım; belə ki, heç kəs və heç bir şey “övlad”, “yoldaş” və “ortaq” adı altında Allaha bəndəçilik dairəsindən kənar deyil. Bəndəçilik sahəsində yalnız bir qrupun bəndə olması və boynuna boyunduruq vurulması (əsarətdə yaşaması), ümumiyyətlə, mənasızdır. Allaha bəndəçiliyin mənası Allahdan qeyrisinə bəndəçilikdən qurtuluşdur və hər ikisinin bir-birilə uzlaşması qeyri-mümkündür. Bir insanın həm Allaha, həm də Allahdan qeyrisinə bəndə olması mənasızdır. Allaha bəndəçilik, yəni Allahdan qeyrisinə kölə və qul olmaqdan qurtulmaq.

İslam ordusunun əsgərləri qüdrət sahibi olan Sasanilərin sarayına daxil oldu. Başdan-ayağa geyimi bizim bir tümənimizə dəyməyən nimdaş geyimli bir ərəb bir gün canını qurtarmaq üçün qaçan, müsəlman ordusu tərəfindən təqib edilən və hələ səfərdə ikən ətrafını minlərlə xanəndə və rəqqas aldığı halda, vətəndə gör nələrə sahib olan bir şahın sarayına daxil oldu. (Ey bədbəxt! Özünlə xanəndə və rəqqasə niyə aparırsan? Döyüşə gedən özü ilə qılınc aparar. O, canının qorxusundan qaçmağa üz tutur. Özü də yəhudilərin müstəmləkəsi altında idi.[2] İnsanların başlarını əylənmək, müğənnilik etmək, musiqi dinləmək və müxtəlif oyunlarla qatmaq sionistlərin çirkin siyasətidir.) O kişi nimdaş

1. “Biharul-ənvar”, “İman və küfr” bölməsi, 56-cı bölmə, hədis 10.
2. Burada məclis iştirakçıları gülməyə başlayır.

geyimlə dövrün böyük siyasi qüdrətinin sarayına qədəm qoydu. Sizcə qorxdumu, vəhşət etdimi? Mübahisə etmək fikrinə düşdümü? Əsla! Adətən, reallıq bundan ibarətdir ki, kiçik bir insan böyük qüdrət sahibinin qarşısında durduqda, şirindilliklə, yaltaqlıqla, qorxu hissi ilə, köləliklə özünü bir az da o böyük qüdrətə yaxşınlaşdırmaq, onunla münasibət yaratmaq istəyəcək. Düşünürsünüz ki, beləmi oldu? Əsla! O, irəli addımlayıb taxtın önünə çatdıqda, sanki, ayağını Yəzdgirdin taxtının üstünə qoydu. Yəzdgirdin onun gətirdiyi məktubu almaq istəmədiyini, başqa nümayəndələrin irəli çıxıb almaq istədiyini gördükdə dilləndi: "Məktubu sizə yox, onun özünə verməliyəm." Şah isə məktubu ərəbdən almaq üçün əsla yerindən tərpənmədi. Odur ki, özü irəli getdi, taxtın üstünə çıxmağa qədər irəlilədi, məktubu təhvil verdi. Şah soruşdu: "Nə üçün gəlibsiniz?" Üç cümlə dedi; bu üç cümləni bir lövhəyə gözəl xətlə yazmaq və böyük insanlıq sarayının qapısından asmaq lazımdır ki, hamı İslam şüarı və İslam ideyasının nə olduğunu anlasın. Şah "Nə üçün gəlibsiniz?" – deyə soruşduqda, belə cavab verdi:

لِنُخرِجَ الناسَ مِن عِبادَةِ العِباد إلَى عِبادَةِ الله

*"Biz gəlmişik ki, insanları bəndələrin köləliyindən çıxarıb Allahın bəndəçiliyinə doğru yönəldək."*

Bəndələrə köləlik nə deməkdir? Bəndələrə köləlik odur ki, İranla Rum arasındakı döyüşlərin birində Sasanilərdən öncə İranın keçmiş Əhəməni şahlarından biri hamını döyüşə səfərbər etdikdə, bir qoca kişi gəlib deyir ki, mənim üç oğlum sizinlə birgə döyüş meydanına yola düşür, bir oğlumun isə mənimlə birgə qalmasına icazə verin. Mən qocalıb əldən düşmüşəm, xahiş edirəm ki, oğlanlarımdan biri mənimlə qalsın və döyüşə getməsin. Məclisdə ona bir söz demirlər, amma məclisdən çıxarırlar. Ertəsi gün isə ordu yola düşüb darvazaya çatdıqda, həmin üç qardaş, gözlənilmədən, dördüncü qardaşlarının iki yerə bölündüyünün – bir hissəsi darvazanın bu tərəfindən, digər hissəsi isə o tərəfindən asıldığının – şahidi olurlar ki, bir də qoca kişilər gənclərin döyüşə getməməsini dilə gətirməsinlər, özlərini zəhmətə salmasınlar. Budur insan köləliyi! Hansı bir cəmiyyətdə ki, insanların istədiklərini dilə gətirməyə, nəinki dilə gətirməyə, hətta ədalətin tərəfində olmağa, ayrı-seçkiliklə mübarizə aparmağa, azadlıq tələb etməyə və azad yaşamağa haqları yoxdursa, zülm və qəddarlığı adi həyat tərzi kimi qəbul edib ona boyun əyirlərsə – belə cəmiyyətdə yaşamaq köləliyin ən çirkin və ən

faciəvi növüdür. Bu, quldarlığın ən çirkin növüdür. Nə üçün? Çünki riyakar və yaltaqcasınadır.

Odur ki, şahın cavabında belə dedi: *"Gəlmişik ki, insanları bəndələrin köləliyindən çıxarıb Allahın bəndəçiliyinə doğru yönəldək."* Yəni, ey Yəzdgird, insanları sənin, valilərinin, kətxudalarının, sərkərdələrinin köləliyindən çıxarmaq istəyirik. Çıxardıqdan sonra nə edəcəyik? Sənə kölə olmadıqda, necə olmalıdırlar? Özbaşınamı? Xeyr! Yalnız Allaha bəndə olacaqlar. Allaha bəndə olmaq, yəni azad olmaq, ağa kimi yaşamaq, təkamülə doğru addımlamaq, insanı zirvəyə doğru apran vasitələrdən istədiyi kimi bəhrələnmək. Necə ki, İslam cəmiyyətinə belə bir vəziyyət hakim idi. İslam quruluşunda cəmiyyət qüdrətlərə deyil, Allaha bəndə idi. Hətta İslam cəmiyyəti yolunu azdığı və yüz faiz İslam xəttində olmadığı bir vaxtda, İran fəth olunduğu illərdə də belə idi; insanlarda Peyğəmbərin (s) və Quranın tərbiyəvi təsiri hələ də qalmışdı. O zaman siyasi bir rəhbər minbərdə "Əgər yolumu azsam, məni islah edin." – deyə səsləndikdə, bir bədəvi ərəb ayağa qalxıb dedi: "Əgər islah olmasan, səni bu qılıncla islah edəcəyik." O, bu sözü dedikdə, görəsən, əsgər və polislər onun üstünə hücum çəkdimi? Onu xaos yaratmaqda ittiham edib həbs etdilərmi? Aradan götürdülərmi? Öldürdülərmi? Əsla! Çünki düz və məntiqli danışmışdı. Bu, mütləq azadlıq deməkdirmi? Xeyr! Bu azadlıq insan ruhuna, cəmiyyətə hakim olan doğru insani qanunlara tabeçilik mənasındadır. Bu azadlıqda insan heç kimin, hətta hakimin yükünü çiyninə almır. Allah tərəfindən, Onun ilhamı ilə danışan hakim "ilahi hakim" adlanır; onun sözü qəbul olunur, əgər onun sözü ilahi ilhamlara əsaslanmırsa, o da qəbul edilmir.

لِنُخرِجَ الناسَ مِن عِبادَةَ العِباد إلَى عِبادَةِ الله ومن ضيق الدنيا إلى سعة الدنيا والآخرة

*"Biz gəlmişik ki, insanları bəndələrin köləliyindən çıxarıb Allahın bəndəçiliyinə, dünyanın məhdud və dar hasarından (əhatə dairəsindən) nicat verib geniş dünyaya və axirətə doğru yönəldək."*

Dünyanın məhdud və dar əhatə dairəsində – bu dairə içində yaşayan cəmiyyətdə insanlar düzgün düşünə bilmir, baxdıqları hər tərəfdə dünya və dünyəvi həzlər, ləzzətlər, maddi maraqlar, dəyərsiz təlaşlar, heyvani istəklər, kiçik, alçaq və ötəri mənfəətlərdən başqa, bir şey görmürlər. Yəzdəgirdin hökmranlıq etdiyi cəmiyyətdə hamı ondan razı deyildi, narazı olanların sayı çox idi, lakin bu narazı olan insanların gözləri yalnız yaxını gördüyü, görmə üfüqü dar və kiçik olduğundan, Yəzdəgirddən

narazı olduqlarını dilə gətirmələri nəticəsində o alçaq və məhdud həyatlarını – iki tikə artıq çörəyi, iki günün rahatlığını, küçədə iki gün artıq addım atmağı – itirəcəklərindən qorxub dinmirdilər. Çünki bu müxtəsər həyat onlar üçün çox dəyərli və sevimli, eləcə də, görmə üfüqləri kiçik, dar və məhdud olduğundan, insan azadlığı, şərafəti və keyfiyyətləri üçün heç bir iş görmürdülər.

Lakin müsəlman insan üçün hər şey müqəddimə və vasitə xarakteri daşıyır. Hansı müqəddimə və vasitə? Geniş dünyaya çatmaq üçün vasitə! Ölümdən sonrakı aləmi demirəm. Teoloji prizmadan əhatə dairəsi geniş olan insan təfəkkürü və dünyagörüşündə hər bir şey onun üçün vasitə rolunu oynayır və o, bu vasitə ilə Allahın razılığını qazanır. Dünya həyatı, dünya sərvəti, dünya rahatlığı və dünyəvi bağlılıqları onun üçün dəyər sayılmır, yalnız Allah yolunda olduğu və ixtiyarındakı sərvəti Allah yolunda xərcləndiyi zaman dəyər tapır. Lakin bu bağlılıq, sərvət, həyat, məqam, övlad, abır-həya və heysiyyət Allah yolunda və məsuliyyət uğrunda olmazsa, onun üçün qiymətsiz və dəyərsiz olur. İslami təfəkkür tərzində dünya ilə axirət bir-birinə bağlıdır və müsəlman üçün dünyanın sonu yoxdur. Bəndələrin və naqis varlıqların köləsi olan şəxsin nəzərində isə dünya məhdud, müsəlman üçün isə genişdir, ölüm onun nəzərində bir pəncərədir. O, bu pəncərədən baxdıqda, o tərəfdə bağlar, bostanlar, varlıqlar, dünyalar görür və sonda onlara çatacağını gördüyü üçün ölüm onun üçün elə də önəm daşımır.

Bunlar tövhidin tərkib hissələri və nümunələridir. Əlbəttə, tövhid barəsində daha dəqiq və müəyyən başlıq əsasında söhbət etmək lazımdır və inşallah, gələcək günlərdə bu haqda söhbət edəcəyik! Bu gün isə bu bölmədə küliyyata toxunmaq istədim.

(Əvvəlki səhifədə qeyd etdiklərimi bir daha təkrar etmək istəmirəm, aydın xətlə yazılmışdır, müraciət edib oxuya bilərsiniz. Burada, həqiqətdə, tövhidlə bağlı yeni və düzgün təfəkkür tərzi təqdim olunur, əlavə mətləblər də vardır ki, bu vərəqdə qeyd edilməmişdir. İnşallah, ümid edirik ki, növbəti günlərdə onları ardıcıllıqla diqqətinizə çatdıracağam. Hər halda, burada qeyd edilənlər tövhidin bir yönünə – tövhid bəhsilə bağlı dinlərin və xüsusən, Qurani-Kərimin diqqət mərkəzində saxlanılan bir mövzuya işarədir.)

**Amma nəzərdə tutduğumuz ayələr:**

(Bu gün cümə günü olduğu və sizin də iş gününüz olmadığı üçün mən

ayələri oxuduqdan sonra, möhtərəm qarimiz – bugünkü tilavəti öhdəsinə götürən Cənab Rizayi, ya Cənab Fatimi təşrif gətirib həm bugünkü, həm də dünənki ayələri, xüsusən, "Ayətül-kürsü"nü tilavət edəcək. "Ayətül-kürsü"nün təkrarı tövhid şüarı olaraq böyük əhəmiyyət daşıyır. Onun təkrar-təkrar oxunmasına bu qədər tövsiyə edilməsinin səbəbi bu tövhid şüarının insanların zehni və yaddaşında həkk olunması və daim yaşamasıdır. Bugünkü vərəqdə qeyd edilən ayələr "Bəqərə" surəsinin 165-166-cı ayələridir – tövhid məsələsi ilə tam bağlılığı olan Qiyamət səhnəsini təsvir edir. Ayələr tilavət olunduqca, bunu açıq-aşkar görəcəyik.)

وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللّهِ أَندَاداً

"***İnsanların içərisində Allahdan qeyrilərini Allaha şərik qoşanlar vardır.***" Yəni, onlar Allaha bəşər və qeyri-bəşərdən şəriklər qoşurlar.

يُحِبُّونَهُمْ كَحُبِّ اللّهِ

"O***nları Allahı sevdikləri kimi sevənlər də vardır.***"

Burada mötərizə cümləsi açılır. Allahı sevənlər mötərizədə qeyd edilir və buyurulur:

وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ

"***Halbuki, iman gətirənlərin (həqiqi möminlərin) Allaha məhəbbəti daha şiddətlidir.***" Həqiqi möminlərin Allaha məhəbbəti zahiri gözəlliklərə, insanın qəlbini maqnit tək özünə tərəf çəkən bərbəzəklərə, bütün yalançı tanrılara, "nəfs" və "şəhvət" adlı məbudlara, cəmiyyətin yuxarı təbəqəsində yer tutan və yer verilənlərə məhəbbətdən daha üstün, daha qüvvətlidir.

وَلَوْ يَرَى الَّذِينَ ظَلَمُواْ إِذْ يَرَوْنَ الْعَذَابَ أَنَّ الْقُوَّةَ لِلّهِ جَمِيعاً وَأَنَّ اللّهَ شَدِيدُ الْعَذَابِ

"***Əgər zülm edənlər onlara veriləcək əzabı görsəydilər, onlar bütün qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər.***"

Ayənin bu hissəsində gözlənilmədən mövzu dəyişilir və kafirlər, günahkarlar, Allaha bəndəçilik edənlər və etməyənlərin – hamının bir yerə toplanacağı Qiyamət səhnəsi önə çəkilir. Onlar Qiyamətdə Allahın əzab və rəhmət vasitələri ilə üzləşəcəklər. Əlbəttə, biz bu vasitələrin keyfiyyətini olduğu kimi dərk edə bilmirik. Bu dünyada Qiyamətlə bağlı xəbərləri yaxşı anlamaq olmur. Ümumilikdə, bu qədər bilirik ki, orada bütün bədbəxtlik, əzab və işgəncə imkanları hazır olacaq, Allahın yaxşı və pis bəndələri, günahkarlar və zalımlar Qiyamətdə bütün qüdrətin

Allaha aid olduğunu görəcəklər. Qəribə məsələdir. İndi bu dünyaya baxsanız, hər kəsin qüdrət və iş sahibi olduğunu görəcəksiniz; varlı təbəqənin gücü çox, məhrum təbəqənin isə azdır, lakin hər kəsin öz həddində gücü var, hər kəs öz gücünə güvənir, əlindən nəsə bir iş gəldiyini düşünür. Xüsusən, zalımların işi daha ağır, gücləri daha çoxdur. Zalıma kölə olan digər bir zalım da öz təsəvvüründə özünü qüdrət sahibi sayır, çünki quyruğu dəvə quyruğuna bağlanmış tülkü tək böyük qüdrətə bağlıdır.[1] Dünya belədir. Qiyamətə gəldikdə isə hamı bir yerə toplaşdıqda, baxdığın şeylər və müraciət etdiyin kəslərin heç bir güc və qüdrətə sahib olmadığını, güc və qüdrətin yalnız Allaha məxsus olduğunu görəcəksən:

لِّمَنِ الْمُلْكُ الْيَوْمَ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ

***"Bu gün hökm kimindir? Bir və qalib olan Allahındır!"***[2]

İnsan Qiyamətdə bu mənzərəni, özünə və başqalarına zülm edən zalımların, həmçinin, başqa bir zalıma köləlik edən bu zalımın halını müşahidə etdikdə təəccüblənəcək, burada artıq iddialar, məğrurluqlar, saraylar və xoşgüzəranlıqlar puçdur, onun əlindən də bir iş gəlmir.

O zaman mənzərə olduqca təəccüblüdür. İki qrupu nəzərdən keçirin: Bir qrup digər qrupa köləlik, qeydsiz-şərtsiz itaət edir. Hər ikisi Qiyamət günü üz-üzə gələcək və aralarında mübahisə yaranacaq.

وَلَوْ يَرَى الَّذِينَ ظَلَمُواْ إِذْ يَرَوْنَ الْعَذَابَ أَنَّ الْقُوَّةَ لِلّهِ جَمِيعاً وَأَنَّ اللّهَ شَدِيدُ الْعَذَابِ

"***Əgər zülm edənlər onlara veriləcək əzabı görsəydilər, onlar bütün qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olacağını bilərdilər."***

Mötərizədə bəzi şiə və sünni alimlərinin qeydlərinə istinadən "zülm" sözünü belə izah etdik: Allahdan basqası müqabilində boyun əymək. Onlar Allahdan qeyrisinə köləlik edənlərin əzabını gördükdə, güc və qüdrətin tamamilə Allaha məxsus və Onun əzabının ağır və şiddətli olduğunu anlayacaqlar. Gördükdən sonra nə edəcəklər? Sualın cavabı mətnaltı mənadadır. Biz burada mötərizədə belə qeyd etmişik: ***"Şübhəsiz, öz əməl və rəftarlarından peşman olardılar."*** Peşman olardılar ki, dünyada nə üçün başqalarının əsarətinə düşdük, nə üçün zalımın köləsi olduq; halbuki, həmin zalım Qiyamətdə nə qədər də yaramaz imiş, əlindən heç bir iş gəlmirmiş. Əlbəttə, əgər onlar elə

---

1. Ləyaqətsiz varlı təbəqəyə bağlılıqdan kinayədir.
2. "Mumin" surəsi, ayə 40.

dünyada da zalımlara ibrət gözü ilə baxsaydılar, onların dünyada necə də yaramaz olduqlarını görərdilər:

إِذْ تَبَرَّأَ الَّذِينَ اتُّبِعُواْ مِنَ الَّذِينَ اتَّبَعُواْ وَرَأَوُاْ الْعَذَابَ

***“O zaman tabe olunmuşlar (rəhbərlər) tabe olanlardan (rəhbərlərə itaət edənlərdən) uzaqlaşacaq, (ilahi) əzabı görəcəklər.”***

**.**Məsələn, o zaman Yəzdəgird deyəcək: “İlahi, ey Rəbbimiz, mənim zamanımda mənə itaət və köləlik edənlərə nifrət edirəm, mənim onlarla heç bir əlaqəm yoxdur, onlar məni Sənə şərik qoşurdular, onlar məni Sənə şərik qoşduqları üçün səhv ediblər, mən onlardan deyiləm.” Görün, Yəzdəgirdin ətrafındakı rəiyyətin ürəyi necə də dağlanacaq və “Biz dünya və axirətimizi bu namərdə verdik, indi Qiyamətdə bizdən üz çevirir, bizə nifrət edir.” – deyə həsrət çəkəcəklər.

إِذْ تَبَرَّأَ الَّذِينَ اتُّبِعُواْ مِنَ الَّذِينَ اتَّبَعُواْ وَرَأَوُاْ الْعَذَابَ وَتَقَطَّعَتْ بِهِمُ الأَسْبَابُ

***“O zaman tabe olunmuşlar (rəhbərlər) tabe olanlardan (rəhbərlərə itaət edənlərdən) uzaqlaşacaq, (ilahi) əzabı görəcəklər və aralarındakı rabitə qırılacaqdır.”***

وَقَالَ الَّذِينَ اتَّبَعُواْ لَوْ أَنَّ لَنَا كَرَّةً فَنَتَبَرَّأَ مِنْهُمْ كَمَا تَبَرَّؤُواْ مِنَّا

***“O zaman (rəhbərlərə) tabe olanlar deyərlər: “Kaş, bir daha dünyaya qayıda biləydik, onlar (bu gün – Qiyamətdə) bizdən uzaqlaşdıqları kimi, biz də onlardan uzaqlaşardıq!”***

كَذَلِكَ يُرِيهِمُ اللّهُ أَعْمَالَهُمْ حَسَرَاتٍ عَلَيْهِمْ

***“Beləcə (Qiyamətdə) Allah onların əməllərinin yalnız həsrətdən ibarət olduğunu göstərər.”***

وَمَا هُم بِخَارِجِينَ مِنَ النَّارِ

***“Və onlar Cəhənnəm odundan heç vaxt çıxa bilməzlər.”***

Bir sözlə, bu ayədən anlaşılır ki, Qiyamətdə əzaba məruz qalanlar bu dünyada Allahdan qeyrisinə ibadət və bəndəçilik etdikləri (yəni tövhidə qarşı çıxdıqları) üçün o əzaba layiq görülüblər. Quran da onları اتَّبَعُواْ (ittəbiu) – ***“tabe olanlar”*** ifadəsi ilə qeyd edir.

**Xülasə**

**Cümə günü – Ramazan ayının 10-cu günü**

## İSLAM DÜNYAGÖRÜŞÜNDƏ TÖVHİD

Quranda tövhid laqeyd və məsuliyyətsizliklə yanaşı olan inanc deyil, əksinə məsuliyyətli, fəal və qurucu ideologiyadan ibarətdir. Cəmiyyətin formalaşması və idarəsində, onun strategiyasında, hədəfinin təyin və qoruyucu strukturunun təmin edilməsi, onun davam etməsində əsaslı və həlledici təsirə malik təfəkkür tərzidir. Həm də, tövhid İslam ideologiyasının təməl prinsiplərindəndir.

Dünya və insanın yenilməz qüdrətə – Allah-Taalaya bağlılığı dünyanın müəyyən hədəflər üçün yaradılmasını tələb edir. Həmçinin, ağıl və iradə qüvvəsinə sahib insan hədəfə və doğru istiqamətə aparan yolda addımlamaqda, hədəfi və doğru istiqaməti tanımaqda məsuliyyət daşıyır. Allahın yaratması və təkvini hakimiyyətinə əsasən, rəhbərlik və qanunvericilik də Onun ixtiyarı və iqtidarındadır və hamı (qanun və şəriətə ehtiyac duyan bütün şüurlu varlıqlar) ilahi qanuna tabe olmağa məcburdur.

Allahın sonsuz elminə əsasən, (insanların ehtiyac və məsləhətinə aid məsələlərini təmin edən) bəşəri qanunların tənzimlənmə səlahiyyəti Onun inhisarındadır.

Bütün varlıqların Allah qarşısında bəndəçiliyinə əsasən, Onun bəndələrinin heç biri digər bəndələrə hökmranlıq haqqına sahib deyil (tağutun – zalım hakimlərin inkarı). İnsan həyatının rəhbəri və idarəçisi yalnız Allahın hakimiyyətə seçdiyi şəxs (məsum imamlar, yaxud məsum imamın qeyb dövründə müəyyən əlamətlər və meyarlara sahib İslam hakimi) ola bilər.

Aşağıdakı ayələr üzərində düşündükdə, tövhid və onun təfərrüatı ilə əlaqədar məsələlərdə İslamın təfəkkür tərzinin bir qismi aydınlaşır:

وَمِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللّهِ أَندَاداً – ***İnsanların içərisində Allahdan qeyrilərini (bəşər və qeyri-bəşər cinsindən olanları) Allaha şərik qoşanlar vardır.***

يُحِبُّونَهُمْ كَحُبِّ اللّهِ – O***nları Allahı sevdikləri kimi sevənlər də vardır.***

وَالَّذِينَ آمَنُواْ أَشَدُّ حُبًّا لِّلّهِ – ***Halbuki, həqiqi möminlərin Allaha məhəbbəti daha şiddətlidir.***

وَلَوْ يَرَى الَّذِينَ ظَلَمُواْ إِذْ يَرَوْنَ الْعَذَابَ – ***Əgər zülm edənlər (Allahdan qeyrisinə baş əyənlər) onlara veriləcək əzabı görsəydilər, bilərdilər ki,***

أَنَّ الْقُوَّةَ لِلّهِ جَمِيعاً – ***bütün qüdrət Allaha məxsusdur.***

وَأَنَّ اللّهَ شَدِيدُ الْعَذَابِ – ***Və həqiqətən, Allahın əzabı şiddətlidir. (Şübhəsiz, onlar öz rəftarlarından peşman olardılar.)”***

إِذْ تَبَرَّأَ الَّذِينَ اتُّبِعُواْ مِنَ الَّذِينَ اتَّبَعُواْ – ***“O zaman tabe olunmuşlar (rəhbərlər) tabe olanlardan (rəhbərlərə itaət edənlərdən) uzaqlaşacaq,***

وَرَأَوُاْ الْعَذَابَ – ***(ilahi) əzabı görəcəklər***

وَتَقَطَّعَتْ بِهِمُ الأَسْبَابُ – ***və aralarındakı rabitə qırılacaqdır.***

وَقَالَ الَّذِينَ اتَّبَعُواْ – ***O zaman (rəhbərlərə) tabe olanlar deyərlər:***

لَوْ أَنَّ لَنَا كَرَّةً فَنَتَبَرَّأَ مِنْهُمْ كَمَا تَبَرَّؤُواْ مِنَّا – ***Kaş, bir daha dünyaya qayıda biləydik, onlar bizdən uzaqlaşdıqları kimi, biz də onlardan uzaqlaşardıq!”***

كَذَلِكَ يُرِيهِمُ اللّهُ أَعْمَالَهُمْ حَسَرَاتٍ عَلَيْهِمْ – ***Beləcə, Allah onların əməllərinin yalnız həsrətdən ibarət olduğunu göstərər.***

وَمَا هُم بِخَارِجِينَ مِنَ النَّارِ – ***“Və onlar Cəhənnəm odundan heç vaxt çıxa bilməzlər.”***

(“Bəqərə” surəsi, ayə 165-167.)

## ONUNCU MƏCLİS

## İBADƏT VƏ İTAƏT YALNIZ ALLAHA MƏXSUSDUR

Şənbə – 1974/09/28
Ramazan ayının 11-i.

بسم الله الرحمن الرحيم

هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا أَسْلَفَتْ وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ. قُلْ مَن يَرْزُقُكُم مِّنَ السَّمَاء وَالأَرْضِ أَمَّن يَمْلِكُ السَّمْعَ والأَبْصَارَ وَمَن يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَيُخْرِجُ الْمَيَّتَ مِنَ الْحَيِّ وَمَن يُدَبِّرُ الأَمْرَ فَسَيَقُولُونَ اللّهُ فَقُلْ أَفَلاَ تَتَّقُونَ

***“Orada hər kəs əvvəlcə gördüyü işi yoxlayacaq. Hamı həqiqi rəhbər olan Allaha doğru qaytarılacaq. Onların uydurub düzəltdikləri isə onlardan (uzaqlaşıb) gözdən itəcəklər. De: “Sizə göydən və yerdən kim ruzi verir? Eşitmə və görmələrə sahib olan kimdir? Ölüdən diri, diridən də ölü çıxardan kimdir? İşləri idarə edən kimdir?” Onlar: “Allahdır!” – deyəcəklər. De: “Bəs nə üçün qorxmursunuz?””***

“Yunis” surəsi, ayə 30-31.

Qeyd etdiyimiz kimi, Quranda tövhid bəhsi olduqca geniş bir bəhsdir. Demək olar, Quranda ən geniş şəkildə müzakirə olunan bəhs məhz tövhid bəhsidir. Hətta nübuvvət bəhsinin o qədər təfərrüatı, peyğəmbərlərin ibrətamiz əhvalatlarına baxmayaraq, müxtəlif şəkillərdə sözü gedən tövhid, Allahın varlığı, xüsusən, şirkin inkarı məsələsi həm söz tonu, həm də ayələrin sayı baxımından misilsizdir. Əlbəttə, bəhsin genişliyini nəzərə alaraq, tövhidlə bağlı məsələlər də artacaqdır. Biz isə burada tövhidlə bağlı bütün məsələləri deyil, yalnız bir neçə məsələni ayələrə istinadən qeyd edəcək və araşdıracağıq.

Nəzərimizcə, tövhid bir etiqad olmaqla yanaşı, həm də həqiqətlə əlaqədar bir dünyagörüşü, qurucu bir maarifi özündə əks etdirir. Bu ifadələrlə ötən günlərdə müəyyən qədər tanışlıq yarandı. Əgər tövhidin öhdəlik və məsuliyyətlə yanaşı bir əqidə olduğunu qəbul ediriksə, onda, İslam mənbələrinə – Quran və hədislərə istinadən onun daxilindəki öhdəlik və məsuliyyətləri arayıb-axtarmalı, hər birini ayrı-ayrılıqda, maddə-maddə, cümlə-cümlə və fəsil-fəsil incələməliyik. Xahiş edirəm, uyğun mövzu ilə bağlı öncədən tanışlığı olan qardaş və bacılar (hamının və yaxud əksəriyyətin mövzu ilə bağlı tanış olduğunu düşünsəm də,) mənim işlətdiyim bəzi dəqiq kəlmə və ifadələrə diqqət yetirsinlər. Çalışın yadınızda saxlayın, mənalara fikir verin və onların üzərində düşünün.

Söz budur ki, əgər tövhid öhdəlik və məsuliyyətə səbəb olan və ona inanan bir şəxsə töhfə verən bir inancdırsa, onda, bu öhdəlik və məsuliyyətin nə olduğunu bilməli və dərk etməliyik. Amma görəsən, biz onu yalnız dil, qəlb və düşüncə ilə yekunlaşan bir öhdəlik və məsuliyyət kimi qəbul etməliyikmi? Yəni, bu etiqadın özü bir məsuliyyətdir, yoxsa, bu məsuliyyətin əhatəsi qəlb və düşüncə dairəsindən kənardır? Fərdi əməllərə gəldikdə isə, görəsən, tövhid insanın və cəmiyyətin öhdəsinə

qoyduğu bir sıra fərdi vəzifələrlə, misal üçün, namaz qılmaq, hər bir işi Allahın adı ilə başlamaq və heyvanı yalnız Allahın adı ilə kəsməklə yekunlaşır, yoxsa, fərdi vəzifələr və öhdəliklərdən qat-qat üstündür? Tövhidin müvəhhid (tövhid əhli olan) cəmiyyətə bəxş etdiyi töhfə daha mühüm, daha böyükdür. İdarəçilik sistemi, iqtisadiyyat, beynəlxalq münasibətlər, insanların bir-birilə rabitələrini buna misal çəkə bilərik və bunlar cəmiyyətin idarəsi və həyatı ilə əlaqədar ən mühüm hüquqdur. Bizim nəzərimizcə, tövhidin öhdəlikləri və tövhid əhlinin üzərinə düşən məsuliyyətlər cəmiyyətin əsas vəzifələri və hüquqları çərçivəsinə aiddir.

Bir mətləbi də qeyd etməliyəm, sonra isə incə və dəqiq məsələlərə toxunacağıq. Bir sözlə, tövhid ideologiyasının hakim olduğu cəmiyyətin zahiri quruluşu başqa cəmiyyətlərlə fərqlənir. Müvəhhid cəmiyyətdə icra olunan bir qanun kimi onlarla qanun digər bir cəmiyyətdə icra olunsa da bu, həmin cəmiyyətin müvəhhid və tövhid ideologiyasının hakim olduğu cəmiyyət olması demək deyil. Müvəhhid, təkallahlı və tövhid ideologiyasının hakim olduğu cəmiyyətin quruluşu digər cəmiyyətlərin qurluşu ilə tamamilə fərqənir. Bir sözlə, müasir dövrdə buna ictimai quruluş deyilir.

Tövhid ideologiyasının hakim olduğu ictimai quruluş və sistem qeyri-tövhid ideologiyasının hakim olduğu cəmiyyətdən tamamilə fərqlidir və hətta bir-birinə ziddir. Bu cümlədə mətləb bundan ibarətdir. Siz bu cümləni araşdırın. İctimai quruluş və sistemlə bağlı mətləblər çoxdur və onu dünyanın yeni sivilizasiyaları, daha çox Quran və hədis mənbələrinə müraciət etmək sayəsində anlayıb dərk etmək olar. Bu, mövzumuzun külliyyatıdır.

Amma biz burada tövhid haqqında cüzi, xüsusi və maddələrdən ibarət bir qətnamə formasında söz açacaq və həmin qətnamənin maddələrini bir-bir qeyd edəcəyik. Tövhid qətnaməsinin maddələri nədir? İki nəfər, iki zümrə və cəbhə arasında müxtəlif müzakirələr aparıldıqdan sonra, qətnamə şəklində icrası laızm olan bir sıra müqavilələr bağlanıldığı kimi, tövhid əhli də tək olan Allah tərəfindən bu qətnaməni icra və onun maddələrinə əməl etməlidir. Bu qətnamənin ilk maddəsi bugünkü tilavətimizdə aydınlaşmalıdır. Tövhid prinsipinə əsasən, insanların Allahdan başqa, heç kimə və heç nəyə ibadət və itaət etmək haqqı yoxdur. Bu, tövhid qətnaməsinin ilkin maddəsidir. Əlbəttə, qeyd etdiyim “heç kim” və “heç nə” ifadəsinin əhatəsi olduqca genişdir. Baxın görün, ibadət

və itaət nələrə aid edilir.

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ

***"Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, şeytana ibadət etməyin..."***[1]

Bəzən, müxtəlif bəhslərdə şeytana ibadət haqqında söz açmışam. Şeytan yalnız İblis və yaxud gözəgörünməz, əllə toxunulması mümkün olmayan və insan həyatının hər bir sahəsinə hücum çəkən bir varlıq deyil, əksinə ümumi və geniş bir məfhumdur. Şeytan – insanın vücudu və varlıq dairəsindən xaricdə şər işlər törədən qüvvələrə deyilir. Şeytana yaxın olan nəfs isə onun köləsi və alətidir. Nəfsi isə belə tərif edə bilərik: "İnsanın daxilində şər işlər törədən qüvvə." "Nəfsi-əmmarə" (pisliklərə sürükləyən nəfs) və Şeytan. "Nəfsi-əmmarə" daxili, Şeytan isə xarici qüvvədir. Hər iki qüvvə şər törədən və fəsad yaradandır. Şeytan, yəni sənin varlığından qıraqda yolunu kəsib şər törədir, yoluna od vurur, maneələr törədir, oğurluq və quldurluq edir. Şeytan budur. Nübuvvət və peyğəmbərlik bəhsində (Quranda islami təfəkkür tezisi ilə bağlı silsilə söhbətlərimizdə), inşallah, bu ayəni də sizə tərcümə (və şərh) edəcəyəm:

وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوًّا شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ

***"Biz hər peyğəmbər üçün insan və cinlərdən olan şeytanlardan düşmənlər yaratdıq."***[2]

Əlbəttə, biz sonradan bu düşmənlərin kimlər, hansı dəstələrdən, hansı təbəqələrdən və necə olduqlarını, nə üçün düşmənçilik edəcəklərini araşdıracağıq. Şeytan geniş bir anlamdır.

***"Şeytana ibadət etməyin"*** (أَن لَّا تَعْبُدُوا الشَّيْطَانَ) – nə deməkdir? Yəni, şər törədən qüvvələrə boyun əyməyin, itaət etməyin. Tövhid budur. Tövhid dedikdə, onunla bağlı bütün məsələləri deyil, bunu nəzərdə tuturuq. Tövhidlə bağlı bütün incəliklər və növbəti söhbətlərimizdə işarə edə biləcəyim digər hissələr də öz yerində, şər qüvvələrə ibadət və itaət etməmək mövzusu da tövhid prinsipinin bir hissəsini təşkil edir;.

Bu hədisi, bəlkə də, bəzi münasibətlərdə qeyd etmişəm, indi də onun məqamıdır. Bu hədis bizim mötəbər hədis kitablarında o cümlədən "Üsuli-kafi" kitabında "Qüdsi hədis" ünvanında İmam Sadiqdən (ə) nəql olunmuşdur. Onun mənim yadımda qalan bir neçə cümləsi belədir (Allah-Taala buyurur):

---

1. "Yasin" surəsi, ayə 60.
2. "Ənam" surəsi, ayə 112.

لَأُعَذِّبَنَّ كُلَّ رَعِيَّةٍ فِي الْإِسْلَامِ دَانَتْ بِوَلَايَةِ كُلِّ إِمَامٍ جَائِرٍ لَيْسَ مِنَ اللَّهِ وَ إِنْ كَانَتِ الرَّعِيَّةُ فِي أَعْمَالِهَا بَرَّةً تَقِيَّةً وَ لَأَعْفُوَنَّ عَنْ كُلِّ رَعِيَّةٍ فِي الْإِسْلَامِ دَانَتْ بِوَلَايَةِ كُلِّ إِمَامٍ عَادِلٍ مِنَ اللَّهِ وَ إِنْ كَانَتِ الرَّعِيَّةُ فِي أَنْفُسِهَا ظَالِمَةً مُسِيئَةً.

*“Həqiqətən, Allah tərəfindən olmayan hər bir zülmkar rəhbərin hökmranlığına boyun əyən hər bir rəiyyətə o rəiyyət əməl baxımından xeyirxah və təqvalı olsa da belə, əzab verəcəyəm; Həqiqətən, Allah tərəfindən olan hər bir ədalətli rəhbərin hökmranlığına boyun əyən hər bir rəiyyəti o rəiyyət özünə qarşı zülmkar və pis olsa belə, əfv edəcəyəm.”*[1]

Allah tərəfindən təsdiq edilməyən və ondan ilhamlanmayan qüdrət və nümayəndəyə itaət etmək ya şirk həddindədir, ya da şirkin özüdür. Çünki bu işə boyun qoyan, bu bəla və acıya, bu ağır ictimai pozğunluğa düçar olan xalq öz fərdi işlərində səliqəli və niazm-intizamlı, xeyirxah və təqvalı olsa da, Allah-Taala Öz lütf və mərhəmətini o xalqın üzərindən götürəcək, onları cəzalandıracaq, işgəncələrə məruz qoyacaq və bəlaya mübtəla edəcək.

Nə üçün? Çünki Allahdan qeyrisinə ibadət və itaət insanın yaradılış fəlsəfəsi, insani təkamül və keyfiyyətlə, azadlıq və paklıqla əsla uzlaşmır. İnsanı zirvəyə aparan azadlıq və paklıq olmadığı təqdirdə, onun yeri əsarətlə doldurulacaq və nəticədə, insan lazımi zirvəyə nail ola, Allahın onun üçün təyin etdiyi yüksəkliyə qalxa bilməyəcək, tərəqqi və təkamüldən geri qalacaq. Eynilə, üstü örtülən, gövdəsi məftillə möhkəm bağlanan, ətrafını çiçəklənməsinə mane olan onlarla vasitənin dövrəyə aldığı bitki tək inkişaf etməyəcək. İnkişaf etmədikdə, meyvə verməyəcək. Meyvə vermədikdə isə varlığı səmərəsiz və faydasız olacaq. Nə üçün əkilmişdi? Meyvə verməkdən ötrü! Allahdan qeyrisinə itaət və bəndəçilik etmək də insanı belə bir bəla ilə üzləşdirir və Qurani-Kərimdə bu haqda çoxlu ayələr vardır.

Mən dərin araşdırma aparmadan, ötəri bir baxışla yadımda olan ayələri burada qeyd etməyi zəruri hesab edirəm. İcazənizlə, əsl mətləbə keçək və ayələri tərcümə edək. Əsas məqsədimiz də elə budur! Quranda tövhid nəğməsi ilə tanış olmaq lazımdır. Biz İslam maarifi sahəsində Qurandan çox uzaq qalmışdıq, başımızı bir sıra puç və əsassız gümanlara, batil düşüncələrə və xurafatlara qatmışdıq. Amma bu aldadıcı və içiboş təcəssüm materializm dalğaları müqabilində tab gətirmədi və onun necə

1. “Kafi”, c. 1, səh. 376, “Höccət” bölməsi, hədis 4.

sıradan çıxdığının şahidi olduq. Tövhidlə bağlı əsassız gümanlara, quru və gülünc arqumentlərə başımızı qatmışdıq. Necə də quru və faydasız bəhslər idi?!

Baxın, sxolastlar tövhid barəsində nə qədər araşdırmalar aparmışlar? Onların araşdırmaları tövhid ideologiyasına əsaslanan bir cəmiyyətin formalaşmasında təsirsiz oldu. Məgər həyatla bağlı hansısa bir məsələdə yüz il araşdırma aparıldıqdan sonra onun həyata təsirsiz ötüşməsi mümkündürmü? Yüz illərlə quru, zahiri baxımdan aldadıcı və batini baxımdan faydasız, həqiqi aləmlə rabitəsi olmayan araşdırmalar aparmışlar. İndi isə biz yeni həyata qədəm qoymaq üçün tövhiddən yardım diləyir və həmin araşdırmalara nəzər yetirdikdə, heç bir rabitənin olmadığının şahidi oluruq. Necə deyərlər, o qədər bəhslər və araşdırmalar sanki insan yanında bir daş kimidir. İndi də tövvhiddən xarici dünyamız üçün bəhrələnmək istəyitik. Nəyimiz vardır? Halbuki, tövhidlə bağlı Qurana müraciət etdikdə, "tövhid" adlı bina və tikilinin müxtəlif hissələrini yüzlərlə ayədə ən gözəl bəyan və ən sadə metodla izah edildiyini görürük. Bu zaman tövhid həyatı necəliyi və müvəhhid insanın kimliyi aydın olur.

Bir sözlə, qeyd edəcəyimiz ayələr tövhid ayələrinin bir qismini təşkil edir və onların üzərində dərindən düşünmək zəruridir. Burada bu neçə ayənin yalnız tərcüməsini diqqətinizə çatdırıram. Bu ayədə Qiyamətdən söz açılır:

وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا

***"O gün onların hamısını bir yerə yığacağıq."***[1]

ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُواْ

***"Sonra müşriklərə – Allaha şərik qoşanlara deyəcəyik:***

مَكَانَكُمْ أَنتُمْ وَشُرَكَآؤُكُمْ

***"Siz də, Allaha qoşduğunuz şərikləriniz (bütləriniz) də yerinizdə durun!""***

فَزَيَّلْنَا بَيْنَهُمْ

***"Onların arasında (onlarla Allah üçün fərz etdikləri xəyali şərikləri arasında) ayrılıq salacağıq."***

Burada səthi və ötəri bir baxışla anlamaq olur ki, bu bütlər – Allaha qoşulan şəriklər Qiyamətdə cansız Hübəl bütündən başqa bir şey olmadığından Məhşər səhrasına gətirilməyəcəklər. O, insanlar arasında

---

1. "Yunis" surəsi, ayə 28-32.

olmayacaq ki, Məhşər səhrasında onu tutub desinlər: "Sən öz yerində dur." Mənat və Lat bütləri də belə olacaq. Mənat xüsusi bir bütün adıdır; bir qız və yaxud bir mələk simasında olan bir büt. Lat, Hübəl və Üzza bütləri də belədir.

Bizim söhbətimiz Rum və yaxud Yunan bütxanasında hansı büt heykəlinin qoyulması, həmçinin, Hind torpağında buzova pərəstiş haqqında deyil; əksinə Allaha şərik və rəqib seçilən insanlar haqqındadır. Qiyamətdə onlara deyiləcək ki, öz yerinizdə durun, tərpənməyin!

Qiyamətdə Allahdan savayı, digər yalançı məbudların qüdrətinin inkarı ilə bağlı ilk acıqlı söz budur: ***"Öz yerinizdə durun."*** Görün, bunun Qiyamətdə təsiri necə olacaq? Mənə və sizə belə deyiləcək: Allah üçün təsəvvür etdiyiniz rəqiblər – istər müşrik ərəb olsun, istrəsə də qeyri-ərəb; istər iranlı olsun, istərsə də rumlu; istər həbəşistanlı olsun, istər hindistanlı, istərsə də misirli. Allah üçün təsəvvür edilən rəqiblər, qoşulan şəriklərin Qiyamətdə vəziyyəti belə olacaq; o və ardıcılları Allah-Talanın acıqlı və qəzəbli şəkildə "dur" deməsi ilə bir kənarda qısılıb qalacaqlar.

وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا

***"O gün onların hamısını bir yerə yığacağıq."***[1]

ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُواْ

***"Sonra müşriklərə – Allaha şərik qoşanlara deyəcəyik:***

مَكَانَكُمْ أَنتُمْ وَشُرَكَآؤُكُمْ

***"Siz də, Allaha qoşduğunuz şəriklərinizi (bütləriniz) də yerinizdə durun!""***

فَزَيَّلْنَا بَيْنَهُمْ

***"Onların arasında (onlarla Allah üçün fərz etdikləri xəyali şərikləri arasında) ayrılıq salacağıq."***

وَقَالَ شُرَكَآؤُهُم مَّا كُنتُمْ إِيَّانَا تَعْبُدُونَ

***"Onların (qoşduqları) şərikləri dilə gəlib (tam nankorluqla öz ardıcıllarına) deyəcəklər: "Siz bizə (dünyada) ibadət etmirdiniz."***

Eynilə, bir müttəhim kimi, günahı öz boynundan atmaq üçün çarəsizlikdən hər bir vasitəyə əl atacaq. Nəzərimcə, ötən söhbətimizdə bununla bağlı dialoq şəklində olan ayələri oxuduq. Quranın digər dialoqunda belə buyurulur:

وَقَالَ الَّذِينَ اسْتُضْعِفُوا لِلَّذِينَ اسْتَكْبَرُوا بَلْ مَكْرُ اللَّيْلِ وَالنَّهَارِ

1. "Yunus" surəsi, ayə 28-32.

***“Zəif olan kəslər özlərini yuxarı tutanlara (təkəbbürçülük edənlərə) deyərlər: “Xeyr, bəs gecə-gündüz qurduğunuz hiylələr?...”***[1]

Azğınlıqları qarşılıqlı olanlar Qiyamətdə bir-birinin canına düşəcək, bir-birinin əleyhinə qalxacaqlar. Sanki Allaha şərik qoşanlar bir-birinin yaxasından tutub digərini yerə vurmaq istəyəcək və deyəcək: “Mən Allahın yerinə səni qəbul etmişdim, indi isə bu bəlaya düçar olmuşam.” Dünyada pərəstiş olunan kəs də günahı öz boynundan atmaq üçün son dərəcə nankorluqla dünyadakı ardıcılları və sevənlərindən üz çevirəcək, onlara nifrət edəcək:

مَّا كُنتُمْ إِيَّانَا تَعْبُدُونَ

***“Siz bizə (dünyada) ibadət etmirdiniz.”***

فَكَفَى بِاللّهِ شَهِيدًا بَيْنَنَا وَبَيْنَكُمْ

***“Sizinlə bizə aramızda təkcə Allahın şahid olması yetər.”***

Bu, şəriklərin sözüdür.

إِن كُنَّا عَنْ عِبَادَتِكُمْ لَغَافِلِينَ

***“Biz sizin bizə ibadət etməyinizdən xəbərsiz idik!”*** Heç sizin bizim müqabilimizdə ibadət və bəndəçilik etdiyinizi anlamadıq! Budur həmin şəriklərin sözü!

هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا أَسْلَفَتْ

***“Orada hər kəs əvvəlcə gördüyü işi yoxlayacaq.”*** O zaman hər bir kəs keçmişdə baş verənlər və dünyada yerinə yetirdiyi işləri çək-çevir edəcək.

وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ

***“Hamı həqiqi rəhbər olan Allahın hüzuruna qaytarılacaqdır.”***

وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ

***“Onların uydurub düzəltdikləri isə onlardan (uzaqlaşıb) gözdən itəcəklər.”***

İnsanın Allahdan başqa, məqsədli şəkildə ibadətə layiq gördüyü hər bir şey, Allahdan qeyrisinə ibadət etmək üçün qəlbindəki bütün bəhanələr və Qiyamətdə onun əlindən tutacağını düşündüyü bütün vasitələr unudulacaq. Bəzən, insan öz şirki üçün bəhanə axtarır, xəyallar qurur və dini don geyinir. İnsan Qiyamət gününün məhkəməsində sıra ilə düzdüyü birinci, ikinci, üçüncü, dördüncü, beşinci bəhanələrin heç birinin olmadığını, hamısının puç və batil olduğunu anlayacaq:

وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ

1. “Səbə” surəsi, ayə 33.

***“Onların uydurub düzəltdikləri isə onlardan (uzaqlaşıb) gözdən itəcəklər.”***

Bu ayə ilə bağlı ehtimal edilən başqa bir məna budur: İnsan dünyada özü üçün dayaq və sığınacaqlar güman edir – ibadət və itaət etdikləri ilə özünə təskinlik verir. Lakin Qiyamət günü bütün bu dayaqlar, sığınacaqlar və hamilər onun çiynindəki yükü götürə bilməyəcək və çarəsiz olduğunu görəcək!

Diqqət yetirin, Quran arqumentləri belədir. Hadisənin bir ucundan yapışıb məsələni isbat edir. Bəzən də üzbəüz sübut etmir, insanın özünü onun haqqında düşünməyə vadar edir. Allah-Taala bu ayələrdə sübut etmək istəyir ki, yalnız Ona ibadət və itaət edilməlidir; odur ki, həmin arqumentdən istifadə edir.

قُلْ مَن يَرْزُقُكُم مِّنَ السَّمَاء وَالأَرْضِ

***“De: “Sizə göydən və yerdən kim ruzi verir?”***

Göydən həyat bəxş edən yağışı kim yağdırır? Yerdən həyat mənbələrini kim cücərdir?

أَمَّن يَمْلِكُ السَّمْعَ والأَبْصَارَ

***“Eşitmə və görmələrə sahib olan kimdir?”***

Ayədə qeyd olunan “səm`” sözünü **“**qulaq**”** sözü ilə səhv salmayın. Xüsusi bədən üzvü olan qulağa ərəbcə “uzun” deyilir. “Səm`” isə eşitmə haləti və gücünə deyilir. Buna əsasən də ona qulaq deyilir. Məsələn, qulağı kəsilən insana deməzlər ki, onun “səm`”ini (eşitmə halətini) kəsdilər, deyərlər ki, “uzun”unu (qulağını) kəsdilər. Bir sözlə, qulağa “səm`” yox, “uzun” deyilir. “Bəsər” də bu qəbildəndir. Bizim **“**göz**”** adlandırdığımız müəyyən bədən üzvünə ərəbcə “bəsər” deyilmir. “Bəsər” görmə mənasını ifadə edir. Göz cisimdirsə, görmə ruhdur. Əgər gözə “bəsər” deyilsə də, səbəbi görmə qabiliyyətinə sahib olması ilə əlaqədardır. Misal üçün, kor gözə “bəsər” deyilmir.

أَمَّن يَمْلِكُ السَّمْعَ والأَبْصَارَ

***“Eşitmə və görmə qüvvələrinə sahib olan kimdir?”***

Bu dərketmə və düşünmə qüvvəsini sizə bəxş edən kimdir? Onu sizdən ala bilən kimdir? Həqiqətdə, bu ayə bəsirətli, ağıllı və şüurlu olmağa işarədir; belə ki, ey insan, düşünmək və bu suala cavab vermək istəyirsənsə, bil ki, eşitmə və görmə qabiliyyətinə sahibsən.

وَمَن يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ

***“Ölüdən diri çıxardan kimdir?”***

Misal üçün, hamilə bir qadın ölür və bətnindəki diri qalmış uşağı onun bətnindən çıxarırlar. Bu, bir ehtimal!

Digər bir ehtimala görə isə, ölü və cansız nütfə və cisimdən diri varlıq çıxarırıq. Ölü torpaq minlərlə həyat verən maddəyə sahib bir xəzinə olsa da, özü ölüdür, amma onun daxilindən sizi diri çıxartdıq. İnsanların ilk mayası nədir? Torpaqdan çıxan qida və həyat maddəsi deyilmi? Elə isə ölüdən diri çıxardan Allahdır. Bu ayə ilə bağlı digər məqbul ehtimallar da vardır.

وَيُخْرِجُ الْمَيَّتَ مِنَ الْحَيِّ

***"Diridən ölü çıxardan kimdir?"*** Yəni, ölmüş uşağı diri ananın bətnindən çıxaran kimdir? Ölmüş insanı ruhu diri olan insandan çıxaran kimdir? İnsanın zehninə gələn digər ehtimallar da ola bilər. Bir sözlə, bu, Rəbbin qüdrət nişanəsidir; ölüdən diri, diridən də ölü çıxarır. Bu, Allah-Taalanın yenilməz qüdrətinin nişanəsidir.

وَمَن يُدَبِّرُ الأَمْرَ

***"Dünyanın işlərini idarə edən kimdir?"***

İnsanın yer kürəsində yaşaya bilməsi üçün onda cazibə qüvvəsini qoyan kimdir? Yerdə, dənizdə və dağda həyat mənbələri yerləşdirən kimdir? Onları əldə etmək üçün insana güc verən kimdir? Bu günəşi, ayı, ulduzları, uzaq və əlçatmaz planetləri qəribə nəzmlə icad edən kimdir? Ayı yerdən müəyyən uzaqlıqda yerləşdirən kimdir? Halbuki, əgər aradakı məsafə az olsaydı, insanın yer üzündə yaşaması qeyri-mümkün olardı; çünki dəniz suları yer üzünü bütünlüklə basardı. Əgər məsafə çox olsaydı, yenə yaşayış qeyri-mümkün olardı; çünki su yer üzündə qalmaz və yerin dibinə çəkilərdi. Günəşi yaradan kimdir? Onu müəyyən məsafədə saxlayan kimdir? Əgər yerə bir az yaxın olsaydı, istidən, uzaq olsaydı, soyuqdan yaşamaq olmazdı. Belə misallar çoxdur.

Allahın hünəri və qüdrəti haqda nə deyə bilərik? Bizim əsrimizdə – iyirminci əsrdə alimlərin bu mövzuda qələmə aldığı kitablar və mətləblər o qədər çoxdur ki, mənim kimilər bu mövzuda danışmaq istəsə, gərək bir neçə gün danışsın. Mən də bunun tərəfdarı deyiləm.

وَمَن يُدَبِّرُ الأَمْرَ

***"Dünyanın işlərini idarən edən kimdir?"***

Bu sual vəhy nazil olduğu zaman müşriklərdən soruşulmasına rəğmən, iyirminci əsrdə yaşayan mən və səndən də soruşulur. وَمَن يُدَبِّرُ الأَمْرَ – ***"Bütün dünyanı idarə edən kimdir?"*** Zərrəciklərdən tutmuş

dünyanın əlçatmaz dərinliklərinə qədər hər bir şeyi Öz qüdrət əli ilə idarə edən Odur. ***"Dünyanı idarən edən kimdir?"*** – sualının həqiqi cavabını tapmaq üçün təəssübsüz, qərəzsiz və diqqətlə düşünün. O zaman:

فَسَيَقُولُونَ اللّهُ

***"Onlar: "Allahdır!" – deyəcəklər."***

Bəziləri heç düşünmədən ***"Allahdır!"*** – deyə cavab verirlər. Çüki əqidələri budur və hər zaman bu əqidənin sahibi olmuşlar. Mən isə bir az düşündükdən, götür-qoy etdikdən sonra cavab verirəm ki, ***"Allahdır",*** bu varlıq aləminə hakim nizam-intizam yalnız Onun tərəfindəndir, bu fələyi dolandıran Onun qüdrət əlidir. Təbii və qeyri-təbii gözlə baxıb gördüklərim, indi yox, onlarla il sonra elmi tərəqqi sayəsində görə biləcəklərim yalnız Allahın qüdrət nişanəsidir. Odur ki, cavab ***"Allahdır!"***

İndi ki, cavab ***"Allah"***dır, onda ey Peyğəmbərimiz, ey dəvətimizə doğru müjdələyici, ey insan, ey təkamülə yetirməkdə məsul olan, onların yaxasından yapış:

فَقُلْ أَفَلاَ تَتَّقُونَ

***"De: "Bəs onda qorxmursunuz?""***

Bu nə deməkdir? Yəni, bu böyük Allahdan, ibadət və itaətdə şərik qoşduğunuz bu əzəmətli Allahdan qorxmursunuz? Baxın, əgər təkvini[1] aləmin tədbiri Onun əlindədirsə, nə üçün təşrii[2] aləmin tədbiri Onun əlində olmasın? Yadınızdadırsa, mən bir zaman o biri məsciddə[3] "Təbarəkə" ("Mülk") surəsini şərh edirdim.

تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ. الَّذِي خَلَقَ الْمَوْتَ وَالْحَيَاةَ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلًا

***"Mülk əlində olan Allah nə qədər ucadır. O, hər şeyə qadirdir! Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur."***[4]

Bu ayənin təfsirindən sonra varlıq aləminin, göylərin və yerlərin keyfiyyətindən söz açdıq. Ayənin əvvəlində nədən söz açılır? تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ – ***"Mülk əlində olan Allah nə qədər ucadır."*** Mülk, yəni hakimiyyət və qüdrətin Allahın ixtiyarında olması. Hansı qüdrət? Həm

1. Yaradılış.
2. Qanunvericilik.
3. Müqəddəs Məşhəd şəhərinin Kəramət məscidi.
4. "Mülk" surəsi, ayə 1-2.

"təkvini" (varlıq) qüdrət, həm də "təşrii" qüdrət (qanunvericilik və idarəçilik qüdrəti) Ona məxsusdur. Varlıq aləmini bəzəyən varlıq (Allah) nə üçün qanunvericilik aləmini başqasına həvalə etsin? Halbuki, o "başqa" da Onun yaratdığıdır. Dünya və insan üçün təbii qanunlar icad edən nə üçün vətəndaş qanunlarını, cəza tədbirlərini və sairəni bəşər kimi zəiflərə, qüsurlu əqllərə, məhdud elmlərə və zəif iradələrə təhvil versin? Nə üçün? Axı nə üçün cəmiyyəti Özü idarə etməsin? Nə üçün Özü qanun tənzimləməsin? Nə üçün qanuna nəzarəti və onun himayəsini Öz öhdəsinə götürməsin? Nə üçün Özü rəhbərlik və hökmranlıq etməsin? Nə üçün rəhbəri, imamı Özü təyin etməsin? Nə üçün onu ağlı naqis insanların öhdəsinə qoysun?

(فَذَلِكُمُ اللّهُ رَبُّكُمُ الْحَقُّ فَمَاذَا بَعْدَ الْحَقِّ إِلاَّ الضَّلاَلُ فَأَنَّى تُصْرَفُونَ)

***("O, sizin həqiqi Rəbbiniz olan Allahdır. Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?! Belə isə (haqdan) necə döndərilirsiniz?"*[1])**

(Bu ayə ilə yanaşı, bizim burada toxunmadığımız əlavə iki-üç ayə də var ki, bəhsimizə aid deyil. Bu ayədən sonra dördüncü ayəyə çatırıq. Əlbəttə, bu gün möhtərəm qarimizin tilavət edəcəyi və sizin də qulaq asacağınız bəzi ayələri tərcümə etməyəcəyəm, tərcümə olunmuş Quranlara müraciət edə bilərsiniz.)

قُلْ هَلْ مِن شُرَكَآئِكُم مَّن يَهْدِي إِلَى الْحَقِّ

***"De: "Şərikləriniz içərisində (insanları) haqq yola yönəldə bilən bir kimsə varmı?"***

Ey Peyğəmbərimiz! Onları doğru yola yönəlt, başa sal, öyrət, maarifləndir. Onlara de ki, sizin Allaha qoşduğunuz bu şəriklər içərisində insanları haqqa doğru hidayət edən bir kəs varmı? Belə bir şəxs tanıyırsınızmı? Şübhəsiz, burada şəriklər dedikdə, daşdan və ağacdan düzəldilmiş bütlər nəzərdə tutulmur. Heç kim onların insanları doğru yola yönəltməsini belə ehtimal etmirdi. Görünür ki, məqsəd canlı bütlərdir – iqtidar və hakimiyyətdə olan Firon, Şüreyh Qazı və sair kimi dini və dünyəvi rəhbərlərdir. (Növbəti vərəqdə bunu qeyd etmişəm.)

قُلْ هَلْ مِن شُرَكَآئِكُم مَّن يَهْدِي إِلَى الْحَقِّ

***"De: "Şərikləriniz içərisində (insanları) haqq yola yönəldə bilən bir kimsə varmı?"***

Görəsən, müşriklərin bu suala cavabı nədir? Ola bilsin ki, onlar belə cavab veriblər: "Bəli, bizim seçdiyimiz şəriklər haqdır, haqqın özüdür,

1. "Yunis" surəsi, ayə 1-2.

nəinki insanları hidayət edir, hələ ondan da üstün işlər görə bilirlər.” Elə buna görə də ayədə onlara verilən cavab qeyd olunmur; yəni onlar Allaha qoşduqları şəriklərin hidayət etməsində yanılırlar, səhvə yol verirlər. Ey Peyğəmbər! Sən özün onlara belə cavab ver:

قُلِ اللّهُ يَهْدِي لِلْحَقِّ

***“De: “İnsanları haqq yola yönəldən, doğru yolu göstərən Allahdır.”*** Nə üçün? Çünki haqqı yaradan, haqqın incəliklərini bilən, insanları haqqa dəvət edən Allahdır. Sözsüz, Allaha qarşı çıxan şəxs haqqa qarşıdır və insanları da haqsızlığa dəvət edir. Haqqa dəvət edən isə Allahdır.

Allahın insana bəxş etdiyi ağıl və şüur vasitəsilə Allahın haqqa dəvət etdiyi, doğru yola yönəltdiyi, şərik və rəqiblərin isə ona qarşı çıxdığı bəlli olduqdan sonra, belə buyurulur:

أَفَمَن يَهْدِي إِلَى الْحَقِّ أَحَقُّ أَن يُتَّبَعَ أَمَّن لاَّ يَهِدِّيَ إِلاَّ أَن يُهْدَى

***“Belə olduqda, doğru yola yönəldən kəs tabe olunmağa daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs?”***

Sonda onların hansına itaət etmək, kimin arxasınca getmək lazımdır? Haqqı yaradıb ona tərəf yönəldən və haqq yolu göstərən Allaha, yoxsa, haqqa çatmaq üçün əlindən tutulmasına ehtiyacı olan şəxsə? O, bizi hidayət edəcəkmi? Axı özü hidayət olunmağa məcburdur, kimsə onu hidayət etməlidir. İndi burada kimdən söhbət gedir? İnsanları hidayət etmək istəyən şəriklərdən, yoxsa, hidayət olunması üçün əlindən tutulmasına ehtiyac duyan şəxsdən? Bu şərik necə insan, necə varlıq olmalıdır? Məqsəd hinduların buzovu və buzovpərəstlərdirmi, yoxsa Qüreyş və qeyri-Qüreyş müşriklərinin ibadət etdiyi heykəllər, məzdəkilərin [1] və zərdüştlərin müqəddəs atəşləri, yaxud yəhudilərin sinaqoqlarındakı heykəllər, yaxud da Rum və Yunan bütxanalarındakı heykəllər? Şübhəsiz ki, bunların heç biri deyil. Deyə bilərik ki, hidayət edən, yol göstərən və yaxud yolu tapmaq üçün əlindən tutulan şəxs cəmiyyətə rəhbərlik etmək və xoşbəxtliyə çatdırmaq iddiasında olan bir insandır. Quran buyurur ki, insanı xoşbəxtliyə çatdıran, onu həqiqət mənbəyinə yetirən və haqqa qovuşduran Allahdır. Özündən heç bir şeyi olmayanlar bunu bacarmaz.

---

1. Qədim İranda, hindu qövmləri və arilər arasında geniş yayılmış dini ayinlərin adı. Sonralar bu ayin İranda Zərdüşt vasitəsilə ləğv edildi. Atəş bu aiyinin ən pak simvoludur.

فَمَا لَكُمْ

Ey dərk etməyən və düşünməyən insanlar! ***“Sizə nə olub”?***

كَيْفَ تَحْكُمُونَ

***“Necə mühakimə yürüdürsünüz?”*** Allahdan qeyrisinə nə üçün pərəstiş edirsiniz? Bu da tövhidlə bağlı bir bəhsdir.

(Əlbəttə, sabahkı söhbətimiz, inşallah, yenə tilavətlə yanaşı bu haqda olacaqdır. Vərəqin sonunda bir hissə qalıb, icazənizlə, bu ifadəni də oxuyum, vaxtımız az olduğundan şərh edə bilməyəcəyəm.)

Özlərini Allaha bənzədənlər və Allah yerinə qoyanlara – tarix boyu bəşərin canlı bütləri olanlara, istər dini qüdrət simaları (yəhudi alimləri və məsihi rahibləri) olsun, istərsə də dünyəvi qüdrət simalarına (zalım hakimlər, kətxudalar və mütriflərə) – ibadət etmək qadağan edilir.)

İslam bir zaman kitab əhlinə bir təkliflə çıxış etmişdi. Bu təklif Quran ayəsində də qeyd edilmişdir. Həmin ayədə qeyri-ilahi qüdrətlərə itaətin qadağan olunması belə vurğulanır:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ

***“De: “Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf üz tutun! ( O kəlmə budur: ) “Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb (və rəhbər) qəbul etməyək!” Əgər onlar üz döndərərlərsə, o zaman (onlara) deyin: “Şahid olun ki, biz, həqiqətən, (Allaha) təslim olanlarıq!”***

## Xülasə

**Şənbə – Ramazan ayının 11-ci günü**

# İBADƏT VƏ İTAƏT YALNIZ ALLAHA MƏXSUSDUR!

Qısa izahla aydın oldu ki, tövhid fəlsəfi bir anlayış olmasına rəğmən, həm də həyatda quruculuq rolunu ifa edir və məsuliyyət gətirir, başqa sözlə, insanların fərdi və ictimai həyatının təməli mütləq onun üzərində qurulmalıdır.

İndi isə Quranda "tövhid qətnaməsi"nin ümumi maddələrindən bir neçəsinə işarə edirik:

Tövhid prinsipinə əsasən, insanların Allahdan başqa, heç kimə və heç nəyə ibadət və itaət etmək haqqı yoxdur. Tarixdə qüdrət sahibləri tərəfindən bəşəriyyətin öhdəsinə qoyulan məsuliyyət və vəzifələr yanlış və haqqa qarşı olub. Bu ümumi bəyan bütləri, tanrıları, məbudları, bir sözlə, azğın nəfsi istəkləri əhatə edir. Bəşər və qeyri-bəşər cinsindən olaraq Allaha qoşulan bütlərdən söz açan ("Yunis" surəsinin) aşağıdakı ayələrində tövhid prinsipinin ümumi tezisinə işarə edilir:

وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا – ***O gün onların hamısını (Qiyamətdə) bir yerə yığacağıq.***

ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُواْ – ***Sonra Allaha şərik qoşanlara deyəcəyik:***

مَكَانَكُمْ أَنتُمْ وَشُرَكَآؤُكُمْ – ***Siz də, Allaha qoşduğunuz şərikləriniz (bütləriniz) də yerinizdə durun!***

فَزَيَّلْنَا بَيْنَهُمْ – ***Onların arasında ayrılıq salacağıq.***

وَقَالَ شُرَكَآؤُهُم مَّا كُنتُمْ إِيَّانَا تَعْبُدُونَ – ***Onların (qoşduqları) şərikləri dilə gəlib deyəcəklər: "Siz bizə ibadət etmirdiniz.***

فَكَفَى بِاللّهِ شَهِيدًا بَيْنَنَا وَبَيْنَكُمْ إِن كُنَّا عَنْ عِبَادَتِكُمْ لَغَافِلِينَ – ***Sizinlə bizə aramızda təkcə Allahın şahid olması yetər. Biz sizin bizə ibadət etməyinizdən***

***xəbərsiz idik!***

هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا أَسْلَفَتْ – ***Orada hər kəs əvvəlcə gördüyü işi yoxlayacaq.***

وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ – ***Hamı həqiqi rəhbər olan Allaha doğru qaytarılacaqdır.”***

وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ – ***Onların uydurub düzəltdikləri isə onlardan (uzaqlaşıb) gözdən itəcəklər.”***

قُلْ مَن يَرْزُقُكُم مِّنَ السَّمَاء وَالأَرْضِ – ***De: “Sizə göydən və yerdən kim ruzi verir?”***

أَمَّن يَمْلِكُ السَّمْعَ والأَبْصَارَ – ***Eşitmə və görmələrə sahib olan kimdir?***

وَمَن يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَيُخْرِجُ الْمَيَّتَ مِنَ الْحَيِّ – ***Ölüdən diri, diridən də ölü çıxardan kimdir?***

وَمَن يُدَبِّرُ الأَمْرَ – ***Dünyanın işlərini idarə edən kimdir?***

فَسَيَقُولُونَ اللّهُ – ***Onlar: “Allahdır!” – deyəcəklər.***

فَقُلْ أَفَلاَ تَتَّقُونَ – ***De: “Bəs nə üçün çəkinmirsiniz?*** (Dünyanın idarəedicisi və qanunvericisi olması məsələsində Allahdan qeyrisinimi seçirsiniz?)

Bir neçə ayədən sonra söhbət canlı bütlər dairəsinə yaxınlaşdırılır və belə davam edilir:

قُلْ هَلْ مِن شُرَكَآئِكُم مَّن يَهْدِي إِلَى الْحَقِّ – ***De: “Şərikləriniz içərisində (insanları) haqq doğru yönəldə bilən bir kimsə varmı?”***

قُلِ اللّهُ يَهْدِي لِلْحَقِّ – ***De: “İnsanları haqqa doğru yönəldən Allahdır.”***

أَفَمَن يَهْدِي إِلَى الْحَقِّ أَحَقُّ أَن يُتَّبَعَ أَمَّن لاَّ يَهِدِّيَ إِلاَّ أَن يُهْدَى – ***Belə olduqda, doğru yola yönəldən kəs tabe olunmağa daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs?***

(“Yunis” surəsi, ayə 28-35.)

Aydındır ki, doğru yola yönəltmək (hidayət etmək) və doğru yola yönəlmək (hidayət olmaq) “insan” adlı canlı varlığa aid bir məsələdir. Bu ayədə isə allahlıq və idarəçilik iddiası edən, ibadət və itaət olunmasını istəyən, özlərini Allaha şərik bilən və Onun yerinə qoyan insanlardan söz açılır,

Özlərini Allaha bənzədənlərə – istər dini qüdrət simasında olanlar (yəhudi alimləri və məsihi rahibləri) olsun, istərsə də dünyəvi qüdrət simasında olanlar (zalım hakimlər, kətxudalar və mütriflər) – ibadət etmək qadağan edilir.

İslamın kitab əhlinə təklif etdiyi ayədə də belə buyurulur:

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْاْ إِلَى كَلَمَةٍ سَوَاء بَيْنَنَا وَبَيْنَكُمْ – ***De: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf üz tutun!"***

أَلاَّ نَعْبُدَ إِلاَّ اللّهَ – ***( O kəlmə budur:) "Allahdan başqasına ibadət etməyək.***

وَلاَ نُشْرِكَ بِهِ شَيْئًا – ***Ona şərik qoşmayaq.***

وَلاَ يَتَّخِذَ بَعْضُنَا بَعْضاً أَرْبَابًا مِّن دُونِ اللّهِ – ***Və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb (və rəhbər) qəbul etməyək!***

فَإِن تَوَلَّوْاْ فَقُولُواْ اشْهَدُواْ بِأَنَّا مُسْلِمُونَ – ***Əgər onlar üz döndərərlərsə, o zaman (onlara) deyin: "Şahid olun ki, biz, həqiqətən, (Allaha) təslim olanlarıq!***

("Ali-İmran" surəsi, ayə 64.)

## ON BİRİNCİ MƏCLİS

## TÖVHİD RUHU – ALLAHDAN QEYRİSİNƏ İBADƏT QADAĞANDIR!

Bazar günü – 1974/09/29
Ramazan ayının 12-i.

بسم الله الرحمن الرحيم

أَفَغَيْرَ اللّهِ أَبْتَغِي حَكَمًا وَهُوَ الَّذِي أَنَزَلَ إِلَيْكُمُ الْكِتَابَ مُفَصَّلاً وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْلَمُونَ أَنَّهُ مُنَزَّلٌ مِّن رَّبِّكَ بِالْحَقِّ فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ. وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقًا وَعَدْلاً لاَّ مُبَدِّلِ لِكَلِمَاتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ.

***“Mən Ondan başqasınımı özümə hakim istəməliyəm?! Halbuki, Allah sizə kitabı (Quranı) müfəssəl surətdə nazil etmişdir. Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər. Sən şəkk-şübhəyə düşənlərdən olma! Rəbbinin sözü düzgün və möhkəm şəkildə yekunlaşdı. Onun sözlərini (əmrlərini) dəyişdirə biləcək bir kəs yoxdur. O, eşidən və biləndir!”***

“Ənam” surəsi, ayə 114-115.

Nə qədər fikirləşiriksə, tövhid bəhsinin üzərindən asanlıqla keçmək olmur. Əvvəla, əqidənin təməlidir; ikincisi, fərdi və ictimai əməllə bağlı mühüm bir prinsipdir; üçüncüsü, tövhid əhli olan müsəlman xalqının tövhid haqqında məlumatı çox azdır, hətta demək olar ki, heç nə bilmir, ailə ocağında uşaqlara "Allah birdir, iki deyildir." – deyə öyrədilsə də, adətən, tövhid əhli tövhidin müxtəlif yönləri barəsində ölüm vaxtına yaxın yaşlarında belə heç nə bilmirlər. Demək, insanların məlumatı azolduqları bu əhəmiyyətli məsələ haqqında daha çox danışmaq lazımdır.

Buna rəğmən, Quran ayələri də uyğun məsələnin əhəmiyyətini nəzərə alıb onunla bağlı müxtəlif intonasiya ilə söz açır. Mən bundan sonra bu mühüm etiqadi və əməli prinsip haqqında neçə gün söhbət etsəm, məsələnin aydınlaşması üçün Quranın mübarək ayələrindən nümunələr gətirəcəyəm. Bu gün oxuduğumuz ayələrdə tövhidlə bağlı yeni məqamlar aşılanır. Dünən ona qısa şəkildə işarə etdik, bu gün isə geniş şəkildə söz açacağıq.

بسم الله الرحمن الرحيم

أَفَغَيْرَ اللّهِ أَبْتَغِي حَكَمًا وَهُوَ الَّذِي أَنَزَلَ إِلَيْكُمُ الْكِتَابَ مُفَصَّلاً وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْلَمُونَ أَنَّهُ مُنَزَّلٌ مِّن رَّبِّكَ بِالْحَقِّ فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ. وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقًا وَعَدْلاً لاَّ مُبَدِّلِ لِكَلِمَاتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ. وَإِن تُطِعْ أَكْثَرَ مَن فِي الأَرْضِ يُضِلُّوكَ عَن سَبِيلِ اللّهِ إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ

Bağışlayan və rəhmli Allahın adı ilə.

***"Mən Ondan başqasınımı özümə hakim istəməliyəm?! Halbuki, Allah sizə Kitabı (Quranı) müfəssəl surətdə nazil etmişdir. Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər. Sən şəkk-şübhəyə düşənlərdən olma! Rəbbinin sözü düzgün və möhkəm şəkildə yekunlaşdı. Onun sözlərini (əmrlərini) dəyişdirə biləcək bir kəs yoxdur. O, eşidən və biləndir! Əgər yer üzündə olanların***

***çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar yalnız zənnə uyar və yalnız zənn əsasında hökm yürüdərlər!”***[1]

(Burada tərcümə etdiyimiz və sonda qısa şəkildə şərh verdiyimiz)[2] bir neçə ayədən sonra belə buyurulur:

وَلاَ تَأْكُلُواْ مِمَّا لَمْ يُذْكَرِ اسْمُ اللّهِ عَلَيْهِ وَإِنَّهُ لَفِسْقٌ وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ لِيُجَادِلُوكُمْ وَإِنْ أَطَعْتُمُوهُمْ إِنَّكُمْ لَمُشْرِكُونَ

***“Üstündə Allahın adı çəkilməmiş şeylərdən yeməyin. Bu, şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına (və həmkarlarına) sizinlə mücadilə etmək üçün ilham edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız.”***[3]

Bugünkü nəzər nöqtəsi ilə bağlı mətləbin xülasəsi budur: Bəziləri ibadətə layiq görülürlər; belə ki, onu müqəddəs və təbiət aləminin fövqündə güc sahibi sanırlar. Buna insanların tarix boyu bütlərə, yaxud müqəddəs və təqvalı insanlara ibadət etməsini misal göstərə bilərik. İbadətlə bağlı nəzərə çarpan ilk baxış budur. Allaha ibadətin vacibliyi də, nəzərimizcə, elə həmin müqəddəslik, insanın onu qəlbi və ruhi baxımdan böyük varlıq bilməsi kimi nəzərə çarpır. Necə ki, xristianlar Həzrət İsa Məsihi (ə) və yaxud pak-pakizə anası Xanım Məryəmi (ə) müqəddəs bilir, Həzrət İsa Məsih (ə) və yaxud Həzrət Məryəmin (ə) olduğunu güman etdikləri heykəllərin qarşısında diz çöküb ağlayır, onlara ibadət edirlər. Bu, hamının ibadətlə bağlı anladığı məfhumdur.

Bu məfhumdan əlavə, başqa bir məna və yaxud həmin məfhumun digər bir yönü də var ki, onu da ibadət adlandırmaq olar. Quranda da “ibadət” elə bu mənada işlədilmişdir. Əgər şərh verəcəyimiz ikinci mənada kiməsə ibadət olunarsa və bir nəfər başqasına bu məqsədlə ibadət edərsə, bu da Allahdan qeyrisinə ibadət növünə aid olur. Bir sözlə, ibadət yalnız bu deyil ki, insan hansısa bir varlığı müqəddəs bildiyi, qəlbən sevdiyi və üstün məqama layiq gördüyü üçün onun müqabilində baş əyib səcdə etsin, rükuya getsin, ona yalvarsın, ibadət etsin, əllərini zəlilcəsinə ona tərəf qaldırsın, əksinə ibadət adlandırılan digər işlər də vardır. Həmin işləri biz yox, Quran “ibadət” adlandırır. Demək, Quran leksikologiyasında ibadət geniş məna kəsb edir. Odur ki, biz də həmin geniş mənanı axtarıb tapmalı və əgər Allaha ibadət etmək istəyiriksə,

1. “Ənam” surəsi, ayə 114-116.
2. Məclisin sonundakı xülasəyə müraciət edə bilərsiniz.
3. “Ənam” surəsi, ayə 121.

(ona düzgün şəkildə ibadət etməli və) Allahdan qeyrisinə ibadət etməməliyik. Yəni, həqiqi tövhid əhli və ardıcılı olmaq istəyiriksə, ehtiyatlı olmalı və bilməyərəkdən Allahdan qeyrisi müqabilində ikinci növ ibadəti yerinə yetirməməliyik. Dünyanda tövhid əhlinin əksəriyyəti öz gümanınca Allahdan qeyrisi – əşyalar və insanlar – müqabilində baş əymədiyi və səcdə etmədiyini düşünür, halbuki ikinci mənada əməli, qəlbi və ruhi baxımdan Allahdan qeyrisinə ibadət edirlər.

İbadətin ikinci mənası nədir? İbadətin ikinci mənası çox sadədir və dilimizdə ona "itaət" deyilir. Hər kəsə mütləq və qeydsiz-şərtsiz itaət ibadətdir. Əgər bir fərd və cəmiyyət bir nəfərə qeydsiz-şərtsiz itaət edərsə, onun əmrlərini öz həyatında, öz cismində, canında və əməlində icra edərsə, ona ibadət etmişdir. Bu sözü haradan deyirik? Quran ayələrinə istinad edirik. İbadətin "itaət" mənasını daşıdığını Quran bizə öyrədir. Ədiyy ibn Hatəm Tayi[1] (məşhur Hatəm Tayinin oğlu; onun məqamı atasının məqamından çox üstün idi) Mədinəyə daxil oduqdan sonra, hələ müəslman olmamışdan bir neçə gün öncə Peyğəmbəri-Əkrəm (s) bu ayəni tilavət edərkən, onun boynundan xaç asıldığını gördü:

اتَّخَذُواْ أَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ أَرْبَابًا مِّن دُونِ اللّهِ وَالْمَسِيحَ ابْنَ مَرْيَمَ وَمَا أُمِرُواْ إِلاَّ لِيَعْبُدُواْ إِلَـهًا وَاحِدًا

***"Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar qəbul etdilər. Halbuki, onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu."***[2]

Bu ayə Ədiyy ibn Hatəmin qulağına çatdıqda, üzünü Peyğəmbəri-Əkrəmə (s) tutub dedi: "Ey Allahın Rəsulu, bu söz düz deyil, biz haçan Allahın yerinə alimlər və rahiblərimizə iman gətirmişik? Biz haçan onlara ibadət etmişik?" O, Peyğəmbəri-Əkrəmə (s) və Quran ayəsinə etiraz etdi. Nə üçün? Çünki onun ibadətlə bağlı təsəvvür etdiyi məna sizin indi təsəvvür etdiyiniz məna ilə eyni idi; ibadəti raz-niyaz, müqəddəsliklə yanaşı, qəlbi bir halət, namaz qılmaq kimi həm dil, həm qəlb, həm də cismlə yerinə yetirilən əmələ aid hesab edirdi. Ədiyy ibn Hatəm ibadəti

---

1. Ədiyy ibn Hatəm Tayi atası Hatəm Tayi öldükdən sonra, öz qəbiləsinin başçısı seçildi. O, 9-cu hicri-qəməri ilində Peyğəmbəri-Əkrəmin (s) rəftar və əxlaqından təsirlənib müsəlman oldu. Əmirəlmömininin Əlinin (ə) dostlarından biri olan Ədiyy ibn Hatəm Tayi "Cəməl", "Siffeyn" və "Nəhrəvan" döyüşlərində iştirak etdi, "Siffeyn" döyüşündə üç oğlunu İslama fəda etdi və özü də 67-ci hicri-qəməri ilində dünyadan köçdü.

2. "Tövbə" surəsi, ayə 31.

bu mənada anladığı üçün Quran ayəsində “Onlar alimlər və rahibləri özlərinə məbud seçib onlara ibadət edirlər.” – deyə buyurulduğunu eşitdikdə, etiraz edərək dedi: “Bu söz düz deyil, axı biz xristianlar haçan alimlər və rahiblərə ibadət etmişik?”

Peyğəmbəri-Əkrəmin (s) Ədiyy ibn Hatəmin etirazına verdiyi cavabın məzmunu belədir: “Bəli, onlara səcdə etmirsiniz, lakin onlar nə deyirsə, qeydsiz-şərtsiz qəbul edirsiniz:

ولاكِن اَحَلّوُا حَراماً وَ حرَّمُوا حَلالاً – Allahın haramlarını halal, halallarını isə haram etdilər. Siz isə həqiqəti araşdırmadan və anlamadan onların sözlərinə qeydsiz-şərtsiz itaət etdiniz. Bu da ibadətdir, insanın bir varlığı özünə məbud və rəbb qəbul etməsidir.” Bu məzmunda İmam Sadiqdən (ə) bir rəvayət vardır. Maraqlanmaq istəyənlər “Nurus-səqəleyn” kitabına, uyğun ayənin təfsirinə müraciət edə bilərlər.[1]

Quran leksikologiyasına əsasən, Allahdan qeyri bir varlıq qarşısında qeyd şərtsiz itaət ibadət hesab olunur. (İstər siyasi və ya dini qüdrət olsun, istər insanın nəfsi istəkləri və şəhvətləri kimi batini amil, istərsə də, insan varlığından kənar qeyri-siyasi və qeyri-dini bir varlıq olsun.) Beləliklə insanın qadına, yersiz ehtiram göstərdiyi şəxsə, dosta itaəti ibadət mənasını daşıyır. Kim başqa bir kəsə və yaxud bir şeyə itaət edərsə, ona ibadət etmişdir.

Burada bir rəvayətə toxunmaq istəyirəm ki, Quranın bu leksikonunun bütün İslam, xüsusən, şiə mənbələrində (Quran və hədislərdə) geniş yer aldığı aydınlaşsın. İmam Cavaddan (ə) nəql olunan bu rəvayətdə belə buyurulur:

مَنْ اَصْغيٰ اِليٰ ناطِقٍ فَقَدْ عَبَدَهُ

*“Danışana qulaq asan ona ibadət edir.”*

İbadətin dairəsi olduqca genişdir, yalnız itaət etmək deyil, həm də fikir və düşüncəni başqasına yönəltmək ona ibadət sayılır. Burada soruşa bilərsiniz ki, elə isə düz sözə də qulaq asmayaqmı? Hədisin davamında belə buyurulur:

فَإِنْ كانَ النّاطِقُ عَنِ اللهِ عزَّوجلَّ فَقَدْ عَبَدَ اللهَ

*“Əgər danışan şəxs Allahd-Taaladan danışırsa, həqiqətən, Ona ibadət etmişdir.”* Əgər danışan şəxs Allahdan danışarkən sənin bütün fikir və diqqətini özünə yönəldərsə, sən də qəlbini, diqqətini, fikrini və

---

1. “Nurus-səqəleyn” rəvayətlərə istinad edən təfsir kitabıdır. Müəllifi Şeyx Əbdəli ibn Cümətül-Ərusi Huveyzidir və hicri-qəməri 11-ci əsrin alimlərindəndir.

ruhunu ona təslim edərsənsə, Allaha ibadət etmisən.

وَ اِنْ كانَ النّاطِقُ يَنْطِقُ عَنْ لِسانِ اِبْليسَ فَقَدْ عَبَدَ اِبْليسَ

*"Əgər danışan şəxs İblisin (və şeytanın) dilindən danışarsa, İblisə ibadət edər."*[1] Əgər danışan şəxs məntiq və ilahi təfəkkür fəlsəfəsinin əksinə danışan zaman sən də onun sözlərini dinləyib etiraf etsən, ona inansan, həqiqətən də, ona ibadət və itaətlə məşğul olubsan; ümumiyyətlə, bu zaman danışanın özü şeytandır. Şeytanın nümayəndəsi və yaxud danışan dili yox, qeyd etdiyimiz mənada, elə onun özü şeytandır. Quranda da şeytan bu mənanı ifadə edir.

Belə bir varlığa itaət siyasi və dini qüdrət olmasa da, ona qeydsiz-şərtsiz itaət və ibadətdir. Allahdan qeyrisindən üz çevirib yalnız Allaha ibadət edən, tövhid əhli və allahpərəst olan şəxs özünün mütləq itaətini də aləmlərin Rəbbi olan böyük Allaha məxsus etməlidir. Qanuna, ictimai nizam-intizama və adət-ənənələrə itaət də ibadətin bir növü sayılır (onlara itaət ibadət sayılır.) Elə isə qanuna riayət etməyəkmi? Hansı qanuna riayət edək? Adət-ənənələrə və nizam-intimaza tabe olmayaqmı? Cavab müsbətdir, lakin çalışmalısan ki, bu qədər məbudlar içərisində yalnız yeganə Allaha itaət və ibadət edəsən, Ona bəndə olasan.

Görün, insanın baxış bucağı nə qədər genişlənir, onun üçün tarixi hadisələr necə izah olunur? Bütün peyğəmbərlər tövhid əqidəsi ilə gəlmişlər. Peyğəmbərlər və peyğəmbərlik mövzusunda bu məsələni də Qurana istinadən bəyan edəcəyik. Bütün böyük ilahi peyğəmbərlər insanları tövhid əhli (təkallahlı) etmək üçün gəlmişlər. Tövhid əhli nə deməkdir? Allahdan qeyrisinə itaət qandalını onların əl-qloundan açmaq. Quranın bir ayəsində də bu mənaya açıq-aşkar toxunulur və buyurulur:

وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ

***"Onların ağır yükünü yüngülləşdirər və onlara bağlanmış qandalları açar."***[2]

Peyğəmbərlərin hədəfi budur!

Tövhidə bu təfəkkürlə yanaşdıqda, onun həyat üçün bir ideya və prinsip olduğunun, ictimai sistem və insanın hər zaman bir istiqamət üzrə hərəkətinin, bəşər cəmiyyətinin keyfiyyətli həyatının şahidi olacaqsınız. Görün bu tövhidin quru, ruhsuz, düşüncəsiz və elmsiz tövhidlə – "Allah birdir, iki deyildir." tövhidi ilə fərqi nə qədərdir? Tövhid budur!

---

1. "Tuhəful-uqul ", səh.479.
2. "Əraf" surəsi, ayə 157.

Quranda bu məna ilə bağlı bir çox aydın nümunələrə rast gəldim; əgər onların hamısını qeyd etmək istəsəydim, ən azı sizin üçün 5-6 vərəqdə qeyd etməli olacaqdım, odur ki, yalnız iki nümunə qeyd etmişəm. Bu iki nümunədən açıq-aydın anlaşılır ki, Allahdan qeyrisinə itaət də ibadət sayılır. Xalis tövhid, dinin ruhu və əsası odur ki, insan itaətini Allaha, ilahi proqramlara, ilahi nizam və struktura həsr etməlidir. Burada iki nümunəni qeyd etməklə kifayətlənirəm, siz isə bu yanaşma tərzi ilə digər nümunələr əldə etmək üçün Qurana müraciət edə bilərsiniz. Çalışın Quranla tanış olun ki, uyğun ayələri tapıb mənaları ilə tanış olmaq üçün mənə ehtiyac duymayasınız, özünüzü bu tükənməz xəzinə və sonsuz dəryaya yaxınlaşdırın. Bunu dəfələrlə tövsiyə etmişəm və tövsiyə etmədiyim zaman isə çiynimdə ağır yük olduğunu hiss etmişəm. Əvvəla, bunu sizə deməyi özümə vəzifə bilirəm: Mütləq Qurana müraciət etməlisiniz. Şair demişkən, bu böyük dərya və sahilsiz okeanın xüsusiyyəti budur:

هُوَ البَحرُ مِن أَيِّ النَواحي أَتَيتَهُ
فَلُجَّتُهُ المَعروفُ وَالجودُ ساحِلُه

**“O, elə bir dənizdir ki, hansı tərəfdən ona tərəf gəlsən, dalğaları gözəllik, sahili xeyirxahlıqdır.”**

Qurana hansı tərəfdən üz tutsan, bəhrələnəcəksən. Hər kim Quranla oturub-dursa, mütləq bəhrələnəcəyi bir məqam olacaqdır; necə və hansı metodla olrusa olsun, Quranın dilini az da olsa anlayın, ondan bəhrələnin, ona nə qədər çox müraciət etsəniz, daha da agah və ayıq olacaqsınız. Əmirəlmöminin Əli (ə) **“Nəhcül-bəlağə”də** buna bənzər bir ifadədə belə buyurmuşdur:

وَمَا جَالَسَ هَذَا الْقُرْآنَ أَحَدٌ إِلَّا قَامَ عَنْهُ بِزِيَادَةٍ أَوْ نُقْصَانٍ زِيَادَةٍ فِي هُدًى أَوْ نُقْصَانٍ مِنْ عَمًى

*“Bu Quranla oturan elə bir kəs yoxdur ki, onun yanından duranda (ondan ayrılanda) ona nəsə artırılmasın, ya da əskilməsin – hidayəti (doğru yolda olması) artmasın və ya (qəlbi, ruhu, şüuru və batininin) korluğu (azğınlığı) azalmasın.”*[1]

Əmirəlmöminin Əlinin (ə) cümləsi ***“Bu Quranla oturan elə bir kəs yoxdur ki...”*** – ifadəsi ilə başlayır. Bu ifadə mütləqdir və ümumi xarakter daşıyır. Bu mətləbi mötərizədə diqqətinizə çatdırdım və haşiyəyə çıxaraq bütün qardaş və bacıların diqqətini Qurana yönəltmək istədim.

Nə üçün Quranla bağlı bu mətləbə toxundum? Çünki qardaş və

1. “Nəhcül-bəlağə”, Sübhi Saleh, xütbə 176.

bacıların diqqətinə çatdırmaq istədim ki, tarix boyu insanların Qurandan uzaqlaşması üçün müxtəlif qurğu və vasitələrə əl atmışlar və həmin qurğu və vasitələrdən biri hələ də günümzə hakimdir; hələ də bir qrup nadan və qərəzli adam **"Quranı başa düşən yoxdur."** – ifadəsini təkrarlayır. Bu cümlə haqqında yalnız Əmirəlmöminin Əlinin (ə) "Nəhrəvan" xəvaricinə buyurduğu sözü deyə bilərəm:

كَلِمَةُ حَقٍّ يُرَادُ بِهَا بَاطِلٌ

***"Batil məqsəd üçün nəzərdə tutulan haqq sözdür."***

Bu, haqq sözdür, lakin danışanın məqsədi çirkin və məkrlidir. Bəli, hidayət imamları Quranı təsəvvür etdiyimizdən də üstün şəkildə dərk edirdilər. Onlar Quranın müştaq olduğu yüksək ruh, böyük düşüncə və təfəkkür sahibləri, özləri ayrı-ayrılıqda bir Quran idilər. Bunda heç bir şəkk-şübhə yoxdur. Amma imamların Quranı yüksək səviyyədə dərk etmələri bizim onun bir kəlməsini, bir hissəsini belə anlamadığımız anlamında deyil. Düzdür, hidayət imamları Quranı hamıdan daha yaxşı bilir və dərk edirdilər, lakin **"Quranı imamlardan başqa, heç kim başa düşə bilməz." – deyənlərin** məqsədi imamların məqamını ucaltmaq deyil, əksinə səni (insanları) Qurandan uzaqlaşdırmaqdır. Necə ki, o Allah bəndəsinə **"Namaz qıl!"** – deyiləndə, cavab verdi ki, əgər namaz yalnız ağam Əlinin (ə) qıldığı namazdırsa, daha mən nə üçün namaz qılmalıyam?:

گر نماز آن بود كان مظلوم كرد
ديگران را زين عمل محروم كرد

**"Məzlum ağanın (İmam Əlinin (ə)) qıldığı namaz başqalarını bu əməldən məhrum etdi."**

Bu da elə həmin məntiqdir. Əgər onlar Quranı dərk edirlərsə, biz və siz nə üçün Quranı açmalıyıq? Ey zavallı**!** Ey yazıq! Ey Quran maarifindən məhrum qalan! Vay halına! Vay halına! Vay halına ki, Quranı anlamırsan! Amma özün anlamadığın halda, başqalarını da anlamağa qoymursansa, təşnə insanlara bu qaynayan və ləzzətli bulaqdan bəhrələnməyə icazə vermirsənsə, daha çox vay halına! İnsanları Qurandan uzaqlaşdıranların və ayrı salanların, müxtəlif bəhanələrlə Quranı anlamaq məqsədilə açıb oxumaq istəyənlərə maneçilik törədənlərin vay halına!

Siz qardaş və bacılar, bilin ki, bizim bugünkü işimiz Quranladır. Necə ki, Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur:

فَإِذَا الْتَبَسَتْ عَلَيْكُمُ الْفِتَنُ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْآنِ

*"Fitnələr sizi qaranlıq zülmətlər tək bürüdükdə, Qurandan yapışın."*[1] Fitnələr qaranlıq gecələr tək sizin həyatınıza kölgə saldığı gün Qurana üz tutun. Gecə tək zülmət fitnələri görmürsünüzmü? Gözümüzün önündəki və yaxınlığımızdakı dolanbac yolları görmürsünüzmü? Görən gözlər hər tərəfdən hücuma keçən oğru və quldurları görmürmü? Bəs, Qurana haçan müraciət olunmalıdır? Axı haçan? İmam Zaman (ə) gəldikdən sonramı? Onun özü ki, natiqi-Qurandır. Elə günü bu gün Qurana müraciət etməliyik; ilk şərti də Quranı anlamağımızdır.

Bugünkü bəhsimizlə bağlı iki qisim ayə axtarıb tapmışam, siz isə digər on qismini axtarıb tapın. Quranı başa düşə bilən, yəni Quran ayələrini üzündən oxuya bilən qardaşlara tövsiyə edirəm ki, ərəbcədən tərcümə olunmuş mətnə diqqət yetirsinlər, mütləq (Quranın tərcüməsinə) baxsınlar. Quranı oxuya bilməyənlər də özlərində bu imkan və bacarığı yaratsınlar; Quranı ərəbcədən öyrənin, Qurandan dərs alın, Quranla ünsiyyət qurun və dost olun. Quranla ünsiyyətsiz keçən hər gün və hər saat həsrətə səbəb olacaqdır.

Birinci qisim ayələr "Ənam" surəsindəndir. Əlbəttə, Quranın intonasiyasına diqqət yetirmək lazımdır. Quran adi kitablar kimi deyil ki, ibadət və itaət bölməsi fəsillərə bölünsün. Quranın bəyan tərzi və dili adi səviyyədən çox-çox üstündür. Ayələr qarşıya çıxan şəraitə və vəhy mövqeyinə uyğun olaraq nazil olurdu. Uyğun mətləbi ayənin işarələrindən, cümlənin kontekstindən əldə edin.

أَفَغَيْرَ اللّهِ أَبْتَغِي حَكَمًا

***"Mən Ondan başqasınımı özümə hakim istəməliyəm?!"***

Təfsir kitablarında "həkəm" sözünün həm qazı, həm də hökmdar mənasında işləndiyi qeyd olunmuşdur. İnsanın hökm və yaxud qəzavət istədiyi şəxsə – onların hər ikisinə "həkəm" deyilir. Allah-Taala isə həm qazıların, həm də hökmdarların ən yaxşısıdır. Hökm Ona məxsusdur.

أَلاَ لَهُ الْخَلْقُ وَالأَمْرُ

***"Agah olun ki, yaratmaq da, əmr etmək də yalnız Ona məxsusdur!"***[2] **Özü yaradıb, Özü də hökm verir.**

أَفَغَيْرَ اللّهِ أَبْتَغِي حَكَمًا

***"Mən Ondan başqasınımı özümə hakim və qazı istəməliyəm?!"***

---

1. "Kafi", c.2, səh.598, hədis 2.
2. "Əraf" surəsi, ayə 54.

وَهُوَ الَّذِي أَنَزَلَ إِلَيْكُمُ الْكِتَابَ مُفَصَّلاً

***“Bir halda ki, Allah sizə Kitabı (Quranı) müfəssəl surətdə (qarışdırmadan izah edərək) nazil etmişdir.”***

***“Müfəssəl”*** sözü məsələlər arasında qarışıqlıq yaranmadan, Allahdan qeyrisinin sözü ilə qarışdırılmadan tamamilə açıqlamaq mənasındadır.

وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْلَمُونَ أَنَّهُ مُنَزَّلٌ مِّن رَّبِّكَ بِالْحَقِّ

***“Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər.”***

Quran Allah tərəfindəndir və Onun tərəfindən nazil olması haqdır.

فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ

***“Elə isə sən şəkk-şübhəyə düşənlərdən olma!”***[1]

Bu ayə Peyğəmbəri-Əkrəmə (s) xitabdır; əsla tərəddüdə yol vermə, şəkk-şübhəyə qapılma! Sən bu kitabın Allah tərəfindən olduğunu və onun sənə göndərildiyini yaxşı bilirsən, hər şeyə agahsan, qətiyyətli ol!

وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقًا وَعَدْلاً

***“Rəbbinin sözü düzgün və möhkəm şəkildə tamam oldu.”***

Rəbbinin əmri yekunlaşdı, qəti, doğru və möhkəmdir. Onun əmri peyğəmbərlik silsiləsindən ibarət idi, peyğəmbərlər tədricən gəlməli, son məqsədə və sonuncuya çatmalı, insanların üzünə geniş üfüq və sonsuz meydan açmalı, onlara hərəkət və təkamül vasitəsini daha da artıq bəxş etməlidirlər ki, bu sonsuz meydanda hərəkət edib Allaha doğru qayıda bilsinlər:

وَإِنَّا إِلَيْهِ رَاجِعونَ – ***“Biz Ona tərəf qayıdacağıq.”***[2] Allahın bu əmri, təqdiri və sözü yekunlaşdı, bağlandı və qətiləşdi.

لاَّ مُبَدِّلِ لِكَلِمَاتِهِ

***“Onun sözlərini (əmrlərini) dəyişdirə biləcək bir kəs yoxdur.”***

وَهُوَ السَّمِيعُ الْعَلِيمُ

***“O, eşidən və biləndir!”***[3]

O, sizin daxili ehtiyaclarınızın səsini eşidir, sizin üçün lazımi qanun və proqramlar tənzimləməyi bilir.

وَإِن تُطِعْ أَكْثَرَ مَن فِي الأَرْضِ يُضِلُّوكَ عَن سَبِيلِ اللّهِ

***“Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar.”***

---

1. “Ənam” surəsi, ayə 114.
2. “Bəqərə” surəsi, ayə 156.
3. “Ənam” surəsi, ayə 115.

Görün, Allah-Taala insanın düşüncəsini necə hazırlayır; birinci ayədə Allahın qəzavəti və hökmranlığından, onun qəzavət və hökmünün üstünlüyündən, ikinci ayədə Allahın əmri, sözü və dininin möhkəmliyi və qətiliyindən söz açılır və bildirilir ki, düşmənlər və kafirlər, inadkarlar və müxaliflər nə qədər inadkarlıq etsələr də, Allahın əmri qətidir, yekun söz Onundur. Üçüncü ayədə isə nəfsin istəklərinə yox, Allaha itaət etməyin zəruriliyi vurğulanır:

وَإِن تُطِعْ أَكْثَرَ مَن فِي الأَرْضِ يُضِلُّوكَ عَن سَبِيلِ اللّهِ

***“Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar.”***

إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ

***“Onlar yalnız zənnə uyar.”***

وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ

***“Və yalnız zənn əsasında hökm yürüdərlər!”***[1]

Onlar insanlarla yalnız güman və zənnə əsaslanıb rəftar edirlər. İnsanların yaşayışı üçün yol, üsul və qanun təklif və təyin edənlərin həmin qanunların doğruluğuna yəqinləri varmı? Əgər sadəlövhlükdən yəqin ediblərsə, 40-50 il də dünyada yaşamalarını arzulamaq lazımdır ki, onların möhkəm hesab etdikləri tədbirlərinin puç olub sıradan çıxacağını, proqnozlarının yanlış olacağını görsünlər. Onların yəqinləri yoxdur. وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ – Dünya xalqlarını və bəşər cəmiyyətini yalnız zənn və gümanla, fərziyyə və teoriya ilə idarə edirlər. Allah-Taala isə heç kimi teoriya ilə idarə etmir, insanları gerçək mətnlə, həqiqi mənada elm və biliklə doğru yola hidayət edir:

إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ مَن يَضِلُّ عَن سَبِيلِهِ

***“Şübhəsiz ki, yolundan azanların halını ən yaxşı bilən sənin Rəbbindir.”***

وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

***“Hidayət olanları da ən yaxşı bilən Odur!”***[2]

فَكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ إِن كُنتُمْ بِآيَاتِهِ مُؤْمِنِينَ

***“Əgər siz Allahın ayələrinə iman gətirmişsinizsə, üstündə Onun adı çəkilən şeyləri yeyin!”***[3]

İnsan bu ayəyə çatdıqda, ilk baxışda təəccüblənir. Bura qədər ümumi

1. “Ənam” surəsi, ayə 116.
2. “Ənam” surəsi, ayə 117.
3. “Ənam” surəsi, ayə 118.

mətləblərdən söz açılır: insanların əksəriyyətinə itaət etmək, zənn və gümana, fərziyyə və teoriyaya uymaq olmaz, Allahın son peyğəmbər və dinlə bağlı əmri qəti və bitmişdir. Bu ümumi sözlərdən sonra, birdən buyurulur ki, üstündə Onun adı çəkilən şeyləri, (misal üçün,) Allahın adı ilə kəsilən qoyunu yeyin. Yəni, ümumi məsələdən qəflətən cüzi məsələyə keçilir. Bu isə insanın nəzərində təəcccüb doğurur ki, bunların bir-birilə nə əlaqəsi vardır? Əlbəttə, öz təsəvvürümə əsasən, əlaqə sözünü işlədirəm, yoxsa, buna qəti dəlil yoxdur, düşünmək və dərk etmək üçün meydan açıqdır; insan mütaliə edib uyğunluğu axtarıb tapa bilər. Amma bizim də nəzərimizə bəzi mətləblər gəlir.

Əvvəla, qeyd etdiyimiz kimi, dünyanın və insan əqlinin fövqündə olan Allah-Taalanın nəzərində bütün məsələlər eyni səviyyədədir, Onun üçün bəşərə aid ümumi məsələrlə cüzi məsələlər arasında fərq yoxdur, hamısı bərabərdir. İnsanın xoşbəxtlik amili aləmlərin Rəbbi üçün sadəcə bir əmrdir; bu əmr istər ümumi olsun, istərsə də cüzi, istər bir nəfərə aid olsun, istərsə də ümumi kütləyə və bütün insanlara. Bu, birinci mətləb!

İkincisi, kəsim məsələsini düzgün araşdırmalıyıq. İnsanın heyvanı yemək üçün kəsmək istədiyi zaman Allahın adını çəkməsi nə deməkdir? Bildiyiniz kimi, müşriklər və tövhid əqidəsindən məhrum olan qəbilələr, millətlər və ümmətlər hər bir münasibət və tədbirdə məbudlarının adlarını çəkirdilər. Misal üçün rəvayətlərdə də qeyd olunduğu kimi, xristianlar "bismil-Məsih" (Məsihin adı ilə başlayıram) – deyirdilər. Bildiyimiz kimi, dünyadakı bütlər –güc sahibləri hər bir tədbirdə və hər bir işin başlanğıcında öz adlarının çəkilməsi üçün daim çalışırdılar. Allahdan qeyrisinin adı çəkilən hər bir iş, təbii ki, qeyri-ilahi məqsəd daşıyır. Siz pul, nəfsin istəkləri və bu kimi məsələlərə görə elə həmin adla bir işə başladıqda, onlar həm dilinizə gətirdiyiniz, həm də düşüncənizdən keçirdiyinizdən başqa bir məqsəd daşımayacaqdır. Yalnız pul qazanmaq üçün işə başlayan şəxsin məqsədi, aydındır ki, puldan başqa, bir şey deyildir. Amma Allahın adı və zikri ilə başlanılan işdə məqsəd də ilahidir, ilahi əmrə əsaslanır. Bizə buyurulur ki, hətta heyvanı kəsdikdə belə, Allahın adını çəkin; yəni sizin qidanızla bağlı ilk zəruri ehtiyacınız onun Allaha xatir olmasıdır. Qarnını da Allaha xatir doldurmalısan və nəticə etibarilə, əsas məqsəd qarnı doldurmaq yox, Allah olmalıdır. Birdən haçansa yalnız qarnı doldurmaq məqsədi güddünsə, (bil ki,) Allahdan uzaqlaşacaqsan, odur ki, o məqsəddən yayınmağa çalışmalı, artıq qarnını

doldurmaqdan vaz keçməli, onu ac saxlamalısan; qoy acından ölsün və səndən ilahi məqsəddən başqa, bir məqsəd baş verməsin. Nə üçün? Çünki qarnı doldurmaq bir ehtiyac olsa da sənin həyatında əsas məsələ deyil, sənin həyatında əsas məsələ Allah və ilahi məqsəddir. Bu, bizə öyrədir ki, qoyunu kəsərkən və yemək yeyərkən "Bismillah" deməliyik.

Hətta yemək yeyərkən, ailə qurarkən, evə girərkən, evdən çıxarkən, evdə olarkən, alış-veriş edərkən, bir sözlə, hər bir işi "Bismillah" ilə başlamalısan. Bu, nə deməkdir? Bu, o deməkdir ki, həyatında hər bir ehtiyacını, hətta ilkin ehtiyaclarını təmin etməkdə bütün məqsədlərin ilahi əmrə əsaslanmalı, Allah yolunda olmalıdır.

إِنَّ صَلاَتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلّهِ رَبِّ الْعَالَمِينَ

***"Həqiqətən, mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"***[1]

Bunu İbrahim peyğəmbər deyir: Bütün işlərim aləmlərin Rəbbi və idarəçisi olan Allah üçündür.

لاَ شَرِيكَ لَهُ

***"Onun (aləmlərinin Rəbbinin) heç bir şəriki yoxdur."***

Mənim həyatımın heç bir sahəsində – yeməyimdə də, namazımda da, rəftar və hərəkətlərimdə də, zəhmət və təlaşlarımda da mən Allaha əsla şərik qoşmaram. Mənim varlığım tamamilə Allahın ixtiyarında, Onun qüdrət və hökmünün əhatə dairəsindədir. Heyvanı da kəsdiyiniz zaman belə düşünün. Amma qüreyşli kafir bir cür, qeyri-qüreyşli kafir başqa cür düşünür; heyvanı kəsərkən, yemək yeyərkən, yaşayarkən və dükanını açarkən Allahın adı və zikri ilə deyil, Ondan qeyrisinin adı ilə başlayır.

Heyvanı və onu kəsərkən çəkdiyiniz Allahın adını simvolik rəmz hesab edin; onun özünün fiqhi (şəri) bir hökm və mütləq Allahın adının çəkilməli olmasına baxmayaraq, siz bunu insanın əsas ehtiyaclarından ibarət simvilok rəmz daşıdığını təsəvvür edin. Heyvan mütləq Allahın adı ilə kəsilməlidir. Bu nə deməkdir? O deməkdir ki, ən mühüm və ən ilkin ehtiyaclarınızın təmini də Allaha xatir olmalı və onu Allaha xatir istəməlisiniz. Aclığınızı aradan qaldırmaq üçün yediyiniz çörək tikəsi də ilahi məqsəd daşımalı, aclığınızı Allaha xatir aradan qaldırmalı və Ona xatir güc toplamalısınız. Aydındır ki, Allaha xatir toplanılan güc elə Allah yolunda da sərf olunacaqdır. Bu, məntiqi nəticədir; iki vur iki dördə bərabərdir. Görün, məsələ nə qədər dəqiqdir!

---

1. "Ənam" surəsi, ayə 162.

فَكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ إِن كُنتُمْ بِآيَاتِهِ مُؤْمِنِينَ

***“Əgər siz Allahın ayələrinə iman gətirmişsinizsə, üstündə Onun adı çəkilən şeyləri yeyin!”***[1]

وَمَا لَكُمْ أَلاَّ تَأْكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ

***“Sizə nə olub ki, üstündə Allahın adı çəkilmiş şeydən (heyvanın ətindən) yemirsiniz?”***

وَقَدْ فَصَّلَ لَكُم مَّا حَرَّمَ عَلَيْكُمْ إِلاَّ مَا اضْطُرِرْتُمْ إِلَيْهِ

***“Halbuki, O, (Allah) sizə haram etdiklərini – zərurət halında (yeməyə) məcbur olduğunuz şey istisna olmaqla, bütün təfsilatı ilə bəyan etmişdir?!”***

وَإِنَّ كَثِيرًا لَّيُضِلُّونَ بِأَهْوَائِهِم بِغَيْرِ عِلْمٍ

***“Şübhəsiz ki, çoxları bilmədikləri və düşünmədiklərindən nəfslərinin istəklərinə uyaraq (insanları) azdırırlar.”*** **Onlar yalnız nəfsi istəklərindən insanları yanlış yola çəkib zəlalətə salırlar.**

إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِالْمُعْتَدِينَ

***“Həqiqətən, Rəbbin həddi aşanları, təcavüzkarları daha yaxşı tanıyandır!”***

**Bu ayəyə əsasən, insanları elm və biliksiz azğınlığa çəkənlər təcavüzkar, həddi aşan və düşmənçilik edənlərdir.**

وَذَرُواْ ظَاهِرَ الإِثْمِ وَبَاطِنَهُ

***“Günahın aşkarından da, gizlisindən də əl çəkin!”***

Bir sıra işlərin eybi və acı sonluğu aşkardır; insan öldürmək, aydındır ki, pis işdir, onun günahı aşkardır. Bir sıra işlərin günah olması isə aşkar deyil. İnsan bir çox işlərin günahının böyüklüyündən xəbərsizdir; o, elmsiz danışmaq, elmsiz insanlara uymaq, Allahın adı və zikrini yüngül və kiçik sanmaq, Allahdan qeyrisinə itaət etmək, Allahdan qeyrisinin əmrinə təslim olmaq və bu kimi işlərin bu qədər zərərli və mənfi təsirlərə sahib olduğunu təsəvvür etmir. Bu günahlar gizli günahlar sayılır. İnsan isə hər ikisindən – həm aşkar, həm də gizli günahlardən əl çəkməlidir. وَذَرُواْ ظَاهِرَ الإِثْمِ وَبَاطِنَهُ – ***Günahı həm aşkar, həm də gizli olan şeylərdən əl çəkin!***

إِنَّ الَّذِينَ يَكْسِبُونَ الإِثْمَ سَيُجْزَوْنَ بِمَا كَانُواْ يَقْتَرِفُونَ

***“Günah qazanan kəslər qurşandıqları əməllərə görə cəzalandırılacaqlar!”*** Günahı özləri üçün qazanc və nailiyyət hesab edənlər yerinə yetirdikləri əməllərə görə cəzalanacaqlar.

---

1. “Ənam” surəsi, ayə 118.

وَلاَ تَأْكُلُواْ مِمَّا لَمْ يُذْكَرِ اسْمُ اللّهِ عَلَيْهِ وَإِنَّهُ لَفِسْقٌ

***"Üstündə Allahın adı çəkilməmiş şeylərdən yeməyin. Bu, şübhəsiz ki, günahdır",*** dindən çıxmaq deməkdir. Bu ayədə Allahın adı və zikrinin əhəmiyyəti vurğulanır.

وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ لِيُجَادِلُوكُمْ

***"Həqiqətən, şeytanlar öz dostlarına (və həmkarlarına) sizinlə mücadilə etmək üçün ilham edirlər."***

Bizim burada istinad edəcəyimiz əsas məqam budur. Əlbəttə, oxuduğumuz ayələrin başlanğıcından inidiyə qədər hissə-hissə qeyd edilən incəliklər bizə faydalı oldu. Odur ki, ayələr üzərində düşündükcə, həqiqət daha da aydınlaşır. Amma bizim istinad edəcəyimiz əsas incəlik ayənin son hissəsidir:

وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ لِيُجَادِلُوكُمْ – Şeytanlar və şər qüvvələr öz dostlarına, sevdiklərinə və cəbhə yoldaşlarına sizinlə mücadilə və mübahisə etmək üçün ilham edir, onların beyinlərini doldurur və yeyirlər. Elə isə şeytanın dostları müqabilində sizin vəzifəniz nədir?:

وَإِنْ أَطَعْتُمُوهُمْ إِنَّكُمْ لَمُشْرِكُونَ

***"Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız."***

Demək, şeytan və şər qüvvələr Rəhman Allahın müqabilində durur. Şeytanın dostları dedikdə, onun muzdurları, əlaltıları, nökərləri və cəbhə yoldaşları nəzərdə tutulur. Onlara itaət, şübhəsiz ki, sizin müşrik olmağınıza səbəb olacaqdır.

Bu da bir bölmədir; "Şüəra" surəsinin ikinci hissəsini təşkil edir və geniş izah etmək üçün vaxtımız olmadığından, ayələrin yalnız tərcüməsi ilə kifayətlənirik.

İlahi maariflə zənginləşən Quran və hədislərdə insanlar üçün Qiyamətlə bağlı maraqlı və diqqəti cəlb edən təsvir və səhnələr yaradılmışdır. Dinləyiciyə hansısa bir mətləbi düzgün təsvir etmək, varlığının dərinliyinə yeritmək istədikdə, Qiyamət mənzərələrindən birini canlandırır. Həmin mənzərələrdən biri də budur:

وَأُزْلِفَتِ الْجَنَّةُ لِلْمُتَّقِينَ

***"Cənnət təqvalılar üçün yaxınlaşdırıldı."***[1]

Qiyamət günündən danışılır, lakin keçmiş zaman feil formasında işlədilir. Ərəb dilində gerçəkləşməsi qaçılmaz olan indiki zaman feil forması keçmiş zaman feil formasında bəyan edilir.

---

1. "Şüəra" surəsi, ayə 90-103.

اقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ

***"Qiyamət yaxınlaşdı və ay parçalandı."***[1]

Bunun mənası odur ki, Qiyamət gələcək...

وَأُزْلِفَتِ الْجَنَّةُ لِلْمُتَّقِينَ

***"Cənnət təqvalılar üçün yaxınlaşdırıldı."***

وَبُرِّزَتِ الْجَحِيمُ لِلْغَاوِينَ

***"Cəhənnəm də azğınlara və aldanmışlara göstərildi."*** "Ğivayət" – "azğınlıq" mənasını daşıyır. "Əğvəynahum", yəni biz onları aldatdıq. Ayədə qeyd olunan "ğavin" sözü "azğınlar" və "aldanmışlar" mənasını ifadə edir.

وَقِيلَ لَهُمْ أَيْنَ مَا كُنتُمْ تَعْبُدُونَ مِن دُونِ اللَّهِ

***"Onlara – aldanmış azğın kəslərə belə deyilər: "Allahdan qeyrisinə ibadət etdikləriniz haradadır?"***

Həyatınızda bel bağladıqlarınız və ibadət etdikləriniz haradadır? Bu ayədə "ibadət etdikləriniz" mənasını daşıyan "tə`budunə" ifadəsinə diqqət yetirin. İndi isə ibadətin mənasının aydınlaşması üçün, görək, onların ibadət etdikləri məbudlar kimlər və nələr idi?

هَلْ يَنصُرُونَكُمْ أَوْ يَنتَصِرُونَ

***"Onlar (sizin məbudlarınız) sizə kömək edə bilərlərmi? Yaxud özlərinə hardansa bir kömək çatarmı?"***

Bu ayədən məlum olur ki, həmin məbudlar köməyə ehtiyacı olanlar imiş, demək, onlar daş, ağac və cansız bütlər yox, insan imişlər.

فَكُبْكِبُوا فِيهَا هُمْ وَالْغَاوُونَ

***"Elə isə həm onlar (məbudlar), həm də aldanmış azğınlar (günah ardınca gedənlər) üzüstə Cəhənnəmə atılarlar!"***

وَجُنُودُ إِبْلِيسَ أَجْمَعُونَ

***"İblisin bütün ordusu da."***

İblis üçün iş görən, ona xidmət edən və Allah bəndələrinin azğınlığı yolunda addım atan hər kəsin yeri Cəhənnəmdir, vədə yeri oradır!

قَالُوا وَهُمْ فِيهَا يَخْتَصِمُونَ

***"Onlar o zaman dava-dalaş edib bir-birinin canına düşəcəklər."*** Onlar günahı fəsad rəhbərlərinin, fəsad rəhbərləri isə onların üstünə atacaqlar. Onlar deyəcəklər ki, siz namərd insanlar idiniz, kəndiri boynumuza taxıb zorla öz ardınızca çəkib apardınız. Bunlar da deyəcəklər ki, bizim ardımızca düşən siz idiniz. Onlar bir-birilə çənə-

---

1. "Qəmər" surəsi, ayə 1.

boğaz olacaq, bir-birinin əlieyhinə qalxacaq və ***“deyəcəklər”:***

تَاللَّهِ إِن كُنَّا لَفِي ضَلَالٍ مُّبِينٍ

***“Allaha and olsun ki, biz açıq-aydın azğınlıqda idik!”*** Həqiqətən də, biz böyük azğınlıqda, aşkar zəlalətdə idik; aşkar olmasına rəğmən, azğınlıqda olmağımızı anlamadıq. Bir halda ki, azacıq özümüzə gəlsəydik, yanıldığımızı, pis və təhlükəli yolda olduğumuzu, acı və öldürücü aqibətə düçar olacağımızı anlayardıq. Azca təfəkkür bizə həqiqəti nişan verəcəkdi, heyif ki, azğınlıqda qaldıq!

تَاللَّهِ إِن كُنَّا لَفِي ضَلَالٍ مُّبِينٍ

***“Allaha and olsun ki, biz aşkar azğınlıqda idik!”*** Bizim hansı işimiz azğınlıq sayılırdı? Bu işimiz:

إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ

***“Çünki biz sizi aləmlərin Rəbbi ilə bərabər tuturduq.”*** Allahdan qorxmaqdansa, sizdən qorxduq, Onun əmrinə boyun əyməkdənsə, sizin əmrlərinizə boyun əydik, Allaha doğru və Ona yaxınlaşmaq üçün təlaş etmək əvəzinə sizə yaxınlaşmaq üçün çalışdıq. إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ – ***“Çünki biz sizi aləmlərin Rəbbi ilə bərabər tutduq.”***

وَمَا أَضَلَّنَا إِلَّا الْمُجْرِمُونَ

***“Bizi günahkarlardan başqası azdırmadı.”***

فَمَا لَنَا مِن شَافِعِينَ وَلَا صَدِيقٍ حَمِيمٍ

***“İndi nə şəfaət edən kimsələrimiz var, nə də bir ürəkyandıran dostumuz!”***

فَلَوْ أَنَّ لَنَا كَرَّةً فَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ

***“Kaş, bir daha (dünyaya) dönə biləydik; möminlərdən olardıq.”***

إِنَّ فِي ذَٰلِكَ لَآيَةً

***“Həqiqətən, bu əhvalatda bir nişanə vardır.”*** Ondan ibrət alın.

وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ

***“Halbuki, onların çoxu mömin deyillər.”***

Baxın, bu ayələrdə insanların ibadət etdiyi şəxslərdən söz açılır. Onların batininə vardıqda, ibadətlərinin bu mənada olduğunu görürük: Arxasınca düşdükləri şəxsləri Allahla bərabər tutmuşlar, Allahdan diləmək əvəzinə, onlardan diləmişlər, Allaha xatir əl çəkməli olacaqları işdə də onları nəzərə alıb yerinə yetirmişlər.

## Xülasə

## Bazar günü – Ramazan ayının 12-ci günü

## TÖVHİD RUHU – ALLAHDAN QEYRİSİNƏ İBADƏT QADAĞANDIR!

Tövhid və şirklə bağlı ayərələr üzərində düşündükdə, tövhidin, eləcə də fərdi həyat və ictimai quruluşda tövhid əqidəsi ilə yaşamağın dairəsi aydınlaşır.

Quran tövhid əhli olmaq üçün Allahdan qeyrisinə ibadət etməməyi yetərli hesab etmir, onun üçün başqa bir şərt irəli sürür ki, o da Allahın rəqibləri və müxaliflərinə itaət etməməkdir. Bu məsələ Quran leksikologiyasında o qədər aydındır ki, bəzi hallarda itaətə (kiminsə ardınca düşüb ona tabe olmağa) “ibadət” adı verilmiş, Allahdan qeyrisinə itaət edənlər “müşrik” adlandırılmışlar. Beləliklə, tövhid ruhu və həqiqətini daşıyan “Allaha ibadət”i ‘‘bəndəçilik və itaətin Allaha xas olması’’ ifadəsi ilə qeyd etmək və Allahdan qeyrisinə ibadət və itaəti “şirk” adlandırmaq olar; istər həmin itaət şəxsi əmrlərdə olsun, istərsə də ümumi qanunlar və ictimai strukturun formalaşmasında. Bir çox ayələrdə tövhid etiraz intonasiyası ilə də nəzərə çarpdırılır. O cümlədən:

أَفَغَيْرَ اللّهِ أَبْتَغِي حَكَمًا – ***Mən Ondan başqasınımı özümə hakim istəməliyəm?!***

وَهُوَ الَّذِي أَنَزَلَ إِلَيْكُمُ الْكِتَابَ مُفَصَّلاً – ***“Bir halda ki, Allah sizə Kitabı (Quranı) müfəssəl surətdə (qarışdırmadan izah edərək) nazil etmişdir.***

وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَعْلَمُونَ أَنَّهُ مُنَزَّلٌ مِّن رَّبِّكَ بِالْحَقِّ – ***Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər.***

فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ – ***Sən şəkk-şübhəyə düşənlərdən olma!***

وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقًا وَعَدْلاً – ***Rəbbinin sözü düzgün və möhkəm şəkildə***

***tamam oldu.***

لاَّ مُبَدِّلِ لِكَلِمَاتِهِ – ***Onun sözlərini (əmrlərini) dəyişdirə biləcək bir kimsə yoxdur.***

وَهُوَ السَّمِيعُ الْعَلِيمُ – ***O, eşidən və biləndir!***

وَإِن تُطِعْ أَكْثَرَ مَن فِي الأَرْضِ يُضِلُّوكَ عَن سَبِيلِ اللّهِ – ***Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar.***

إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنّ وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ – ***Onlar yalnız zənnə uyar və yalnız zənn əsasında hökm yürüdərlər!***

إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ مَن يَضِلُّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ – ***Şübhəsiz ki, yolundan azanların halını ən yaxşı bilən sənin Rəbbindir. Hidayət olanları da ən yaxşı bilən Odur!***

فَكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ إِن كُنتُمْ بِآيَاتِهِ مُؤْمِنِينَ – ***Əgər siz Allahın ayələrinə iman gətirmişsinizsə, üstündə Onun adı çəkilən şeyləri yeyin!***

وَمَا لَكُمْ أَلاَّ تَأْكُلُواْ مِمَّا ذُكِرَ اسْمُ اللّهِ عَلَيْهِ وَقَدْ فَصَّلَ لَكُم مَّا حَرَّمَ عَلَيْكُمْ إِلاَّ مَا اضْطُرِرْتُمْ إِلَيْهِ – ***Sizə nə olub ki, üstündə Allahın adı çəkilmiş şeydən (heyvanın ətindən) yemirsiniz? Halbuki, O, sizə haram etdiklərini – zərurət halında (yeməyə) məcbur olduğunuz şey istisna olmaqla, bütün təfsilatı ilə bəyan etmişdir?!***

وَإِنَّ كَثِيرًا لَّيُضِلُّونَ بِأَهْوَائِهِم بِغَيْرِ عِلْمٍ – ***Şübhəsiz ki, çoxları bilmədiklərindən nəfslərinin istəklərinə uyaraq (insanları) azdırırlar.***

إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِالْمُعْتَدِينَ – ***Həqiqətən, Rəbbin həddi aşanları daha yaxşı tanıyandır!***

وَذَرُواْ ظَاهِرَ الإِثْمِ وَبَاطِنَهُ – ***Günahın aşkarından da, gizlisindən də (mənfi təsirləri aşkar və gizli olan günahdan) əl çəkin!***

إِنَّ الَّذِينَ يَكْسِبُونَ الإِثْمَ سَيُجْزَوْنَ بِمَا كَانُواْ يَقْتَرِفُونَ – ***Günah qazanan kəslər qurşandıqları əməllərə görə cəzalandırılacaqlar!***

وَلاَ تَأْكُلُواْ مِمَّا لَمْ يُذْكَرِ اسْمُ اللّهِ عَلَيْهِ وَإِنَّهُ لَفِسْقٌ – ***Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır.***

وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ لِيُجَادِلُوكُمْ – ***Həqiqətən, şeytanlar öz dostlarına (və həmkarlarına) sizinlə mücadilə etmək üçün təlqin edirlər.***

وَإِنْ أَطَعْتُمُوهُمْ إِنَّكُمْ لَمُشْرِكُونَ – ***Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız.***

("Ənam" surəsi, ayə 114-121.)

وَأُزْلِفَتِ الْجَنَّةُ لِلْمُتَّقِينَ – ***Cənnət təqvalılar üçün yaxınlaşdırıldı.***

وَبُرِّزَتِ الْجَحِيمُ لِلْغَاوِينَ – ***Cəhənnəm də azğınlara (və aldanmışlara)***

***göstərildi.***

وَقِيلَ لَهُمْ أَيْنَ مَا كُنتُمْ تَعْبُدُونَ مِن دُونِ اللَّهِ – ***Və onlara belə deyildi: "Allahdan qeyrisinə ibadət etdikləriniz haradadır?***

هَلْ يَنصُرُونَكُمْ أَوْ يَنتَصِرُونَ – ***Onlar sizə kömək edə bilərlərmi? Yaxud özlərinə hardansa bir kömək çatarmı?"***

فَكُبْكِبُوا فِيهَا هُمْ وَالْغَاوُونَ – ***Elə isə həm onlar (məbudlar), həm də (aldanmış) azğınlar Cəhənnəmə atılarlar!***

وَجُنُودُ إِبْلِيسَ أَجْمَعُونَ – ***İblisin bütün ordusu da.***

قَالُوا وَهُمْ فِيهَا يَخْتَصِمُونَ – ***Onlar (aldanmış azğınlar) Cəhənnnəmdə dava-dalaş edib deyərlər:***

تَاللَّهِ إِن كُنَّا لَفِي ضَلَالٍ مُّبِينٍ – ***Allaha and olsun ki, biz açıq-aydın azğınlıqda idik!***

إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ – ***Çünki biz sizi aləmlərin Rəbbi ilə bərabər tuturduq.***

وَمَا أَضَلَّنَا إِلَّا الْمُجْرِمُونَ – ***Bizi günahkarlardan başqası azdırmadı.***

فَمَا لَنَا مِن شَافِعِينَ – ***İndi nə şəfaət edən kimsələrimiz var,***

وَلَا صَدِيقٍ حَمِيمٍ – ***nə də bir mehriban (və xeyirxah) dostumuz!***

فَلَوْ أَنَّ لَنَا كَرَّةً فَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ – ***Kaş, bir daha (dünyaya) dönə biləydik; möminlərdən olardıq.***

إِنَّ فِي ذَٰلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ – ***Həqiqətən, bu əhvalatda bir nişanə vardır. Halbuki, onların çoxu mömin deyillər.***

("Şüəra" surəsi, ayə 90-103.)

## ON İKİNCİ MƏCLİS

## TÖVHİD VƏ SOSİAL TƏBƏQƏLƏRİN İNKARI

Bazar ertəsi – 1974/09/30
Ramazan ayının 13-ü.

بسم الله الرحمن الرحيم

مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ

***“Allah (Özünə) heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir məbud yoxdur. Əgər belə olsaydı, hər bir məbud öz yaratdığı ilə gedər və onların bir qismi digərinə üstün olmağa çalışardı. Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə pakdır!”***

“Muminun” surəsi, ayə 91.

Əgər möhtərəm qardaşların yadındadırsa, qeyd etdik ki, tövhid əməl və öhdəliklərə səbəb olacaq bir əqidə olduğu üçün bizim boynumuza bir sıra vəzifə və öhdəliklər qoyur. Həmçinin, bu vəzifə və öhdəliklərin dairəsini bilməli olduğumuzu da qeyd etdik. Bu öhdəliklər yalnız insanın fərdi həyatına aid deyil, onun əksər hissəsi həm də sosial həyat, ictimai sistem və cəmiyyətin formalaşmasına aiddir. Yəni, tövhid prinsipi bir cəmiyyətə hakim olduqda, onun ilk müjdəsi cəmiyyəti həmin prinsipə uyğun formalaşdırmaqdır. Bundan sonra isə növbə müvəhhid insanın bir fərd olaraq vəzifələrinə çatır.

Hər halda, bu öhdəlikləri tanıyıb öyrənməliyik. Biz bu öhdəliklər toplusunu "tövhid qətnaməsi" ilə ifadə etdik və vurğuladıq ki, tövhid prinsipi bizə müqavilələr və vəzifələrdən ibarət bir qətnamə təqdim edir. Əgər biz, inşallah, müvəhhid kimi yaşamaq istəyiriksə, öncə bu öhdəliklərlə tanış olmalıyıq. İlk öhdəlik isə ibadət və itaətin yalnız Allaha məxsus olmasıdır. Bu, tövhid prinsipinin ilk öhdəliyidir. Biz iki-üç məclisi bu mövzuya həsr etdik. Bu gün isə tövhid prinsipinin müvəhhid insanın, cəmiyyətin və dünyanın çiyninə qoyduğu ikinci öhdəlikdən söz açmaq istəyirik və onu "tövhid və sosial təbəqələrin inkarı" başlığı ilə qeyd etdik.[1] (Əlbəttə, əlinizdəki vərəqin ilk səhifəsində "iki" ədədini qeyd edin. Çünki "İbadət və itaət yalnız Allaha məxsusdur" mövzusuna aid vərəqdə "bir" ədədi qeyd edilmişdir. Burada da iki qeyd edilməlidir ki, mətləbin ardıcıllığı aydınlaşsın. Üçüncü, dördüncü və digər öhdəlikləri isə, inşallah, sonradan diqqətinizə çatdıracağıq.)

**Sosial təbəqələrin inkarı:** Sonradan bu haqda təfsilatı ilə danışacağıq, indi isə qısa şəkildə qeyd etməliyəm ki, tanış olduğunuz bu

1. Məclisin sonunda verilən xülasəyə müraciət edin.

terminə əsasən, tövhid prinsipinin hakim olduğu cəmiyyət təbəqəsiz bir cəmiyyətdir, elə bir cəmiyyət ki, hüquq və imtiyazlar baxımından insan zümrələri arasında fərq qoyulmur, hamı bərabər hüquq və eyni imkanlar əsasında yaşayır və inkişaf edir. Sosial təbəqələşmə baxımından tövhid prinsipinin hakim olduğu cəmiyyətlə bağlı bizdə yaranan təsəvvür budur.

Tarixə nəzər salsaq, bütün cəmiyyətlərdə sosial təbəqələşmənin ən acı hadisələrdən olduğunu görəcəyik; geridə qalmış qəbilə sistemində, vətəndaş cəmiyyətindən uzaq qalmış cəmiyyətlərdə deyil, həm də bəşər sivilzasiyasının göbəyi və beşiyi olan ölkələrdə belə sosial təbəqələşmə tarixin vərəqləri arasında ən çirkin sifətini bizə göstərmişdir. Həqiqətən də, bəşər tarixinin böyük zülmləri, utancverici ləkələrindən biri də budur – sosial təbəqələşmədir! Sosial təbəqələşmə nə deməkdir? O deməkdir ki, bir cəmiyyətdə yaşayan insanlar bərabər şəkildə yaşamırlar; bir qrup məhrumiyyətə məhkumdur, əziyyət çəkməli, başqa qrupların xidmətində dayanmalı və məhrum olduğu və əziyyət çəkdiyinə görə də gileylənmək hüququna sahib olmamalıdır. Bir qrup isə rifahda yaşamalı, həyatın hər dadı və ləzzətini çıxarmalı, bütün imtiyazlardan layiqincə bəhrələnməli, heç kim də irad bildirməməlidir. Bunun ən yaxşı nümunəsi Hindistandır. Bildiyiniz kimi, Hindistan Ari mədəniyyətinin beşiyidir. Arilər nəsli elə əvvəldən Hindistanda mütəşəkkil bir millət və cəmiyyət olaraq şəhərdə yaşayırdı. Deyilənlərə görə, bu nəsil şimal ölkələrindən, Sibirdən köçüb gəlmədir və onlar köçərkən iki yerə bölünürlər, bir qrupu Hindistana, bir qrupu da İrana üz tuturlar. Hindistana köçənlər İrana köçənlərlə müqayisədə tez bir zamanda inkişaf edirlər.

Bəşər sivilzasiyasının beşiyi və yaxud beşiklərindən biri Hindistan olsa da, orada sosial təbəqələşmə həddi aşıb. Onlar insanları dörd əsas təbəqəyə bölüblər: Bir təbəqə başqa bir təbəqədən aşağıda və yüzlərlə təbəqə həmin dörd əsas təbəqənin əhatə dairəsində yerləşir. Bu haqda əlavə məlumat almaq istəyənlər dinlərin tarixi ilə bağlı uyğun kitabları mütaliə etsinlər, Quranda tövhid mövzusu üzərində diqqətlə düşünüb bir müqayisə aparsınlar. İnsanları dörd təbəqəyə bölmüşdülər: Birinci təbəqəni brahmanlar – ruhanilər və dini şəxsiyyətlər təşkil edirdi və elitar təbəqə onlara məxsus idi.

İkinci təbəqədə ordu başçıları və şahzadələr yerləşirdilər. Əlbəttə, bu iki təbəqə arasında ixtilaf və ziddiyyətlər olduqca çox idi. Öncə birinci təbəqədə şahzadələr, ikinci təbəqədə isə ruhanilər yer tuturdularsa,

sonralar qarşıya çıxan hadisələr və cərəyanlar nəticəsində brahmanlar və ruhanilər elmi və elit təbəqəni mənimsədilər, sərkərdələr, ordu başçıları, şahzadələr və xanlar ikinci təbəqəyə endilər.

Üçüncü təbəqədə fəhlələr, əkinçilər və sənətkarlar yerləşirdi. Birinci və ikinci təbəqə cəmiyyət üçün heç bir iş görmürdü. Brahmanlar nə edirdilər? Onlar əllərini tərpədib dua oxumaq və zikr etməkdən başqa, heç bir iş görmürdülər. Xanlar və şahzadələr nə iş görürdülər? Onlar da özləri üçün əmlak və sərvət toplayır, hökmranlıq dairələrini daha da genişləndirirdilər. Sənətkarlar və əkinçilər isə bu böyük ərazinin işçi qüvvələri idilər.

Dördüncü təbəqə ümumi xalq kütləsi, sravi insanlardan – ticarətlə, kiçik əl işləri ilə məşğul olanlardan ibarət idi. Bu dörd təbəqəni arilər nəsli təşkil edirdi, ondan sonrakı təbəqədə isə arilər nəslindən olmayanlar yer tuturdu, buna görə də bu təbəqəni murdar (napak) hesab edir, onlara "murdarlar təbəqəsi" deyirdilər.

Bu qeyd etdiklərim iyirminci əsrə qədər davam etmiş bir tarixə aiddir. Bütün bunlar Hindistanda bir neçə il öncəyə qədər tamamilə qüvvədə qalmışdı. Bəlkə də Hindistanla bağlı mütaliə edənlər yaxşı bilərlər ki, murdarlar və napaklar təbəqəsini Hindistanın böyük rəhbəri Qandi aradan qaldırdı və "murdar" ifadəsinə etirazını bildirdi. Hindistanın sabiq Baş Naziri Nehru[1], hal-hazırda da dövlət başçısı (Baş Nazir) olan qızı, eləcə də Nehrunun atası brahman və elit təbəqədən idi. Əlbəttə, onun özü dinə zidd olduğundan, ona brahman deyilməsindən və brahmanlara məxsus ləqəblə çağırılmasından acığı gəlirdi. Hər halda, demək istəyirəm ki, bu mətləblər çox da uzaq keçmişə aid tarix deyil. Quranın tövhid günəşinin doğuşundan 13-14 əsr keçməsinə baxmayaraq, hələ də Hindistanda – bəşər sivilzasiyasının beşiyində sosial təbəqələşmə hökm sürürdü.

Sosial təbəqələşmə haqqında danışırdıq. Onlar dörd təbəqəyə bölünmüşdülər. Qeyd etdiyimiz kimi, təbəqələr arasında digər yüzlərlə kiçik təbəqələr də yerləşdirilmişdi. Bunu "Dinlər tarixinin" müəllifi Con Neş də etiraf edir. O zaman fərqli təbəqədən olan iki nəfərin bir-birilə ailə

---

1. Cəvahirləl Nehru (1889-1964) — Hindistanlı görkəmli siyasi xadim, Hindistanın müstəqilliyi uğrunda hərəkatın və Hindistan Milli Konqresinin rəhbərlərindən biri, Hindistanın azadlığından sonra ilk Baş Nazir. Hindistanın sonrakı Baş Naziri İndira Qandi onun qızı idi.

həyatı qurmağa, danışmağa, əl-ələ verməyə, yanaşı oturmağa, birgə gəzintiyə çıxmağa və dostluq etməyə haqqı yox idi. Bir sözlə, onlar öz aralarında dəmirdən hasar çəkmişdilər. Nə üçün hasar çəkmişdilər? Məgər brahmanların əkinçilərdə və yaxud sravi tacirlərdə olmayan nəyi var idi ki? Yaxud da filan ordu sərkərdəsi hansı təbii imtiyazlara sahib idi ki, sıravi insanlar ondan məhrum idilər?

Əgər belə bir sual soruşulsaydı, bilirsiniz cavabında nə deyəcəkdilər? Deyəcəkdilər ki, başqasının işinə baş qoşma! Çünki əsl yaradılışda siz iki qrupa bölünmüsünüz, iki cür yaradılmısınız. Böyük tanrı Brahman varlıqları, xüsusən, insanı yaratmaq istədikdə, brahmanları öz başından, xanları, ordu sərkərdələrini və şahzadələri əlindən, əkinçiləri qolundan, sıravi insanları ayağından yaratdı, murdar təbəqə isə brahmanlı deyil, o pak nəslə mənsub deyil. Dördüncü təbəqə Brahmanın ayağından yarandıqda, onun başından yaranmış brahmanlarla müqayisədə özünü nə baş, nə də ayaq haqqına sahib bilə bilməz.

Ümumiyyətlə, sizin heç biriniz yaradılışda bərabər deyilsiniz, bir qrup daha şərəfli, ehtirama daha layiqdir və onların naz-nemət içində olması isə təbii və zatidirsə, aşağı təbəqələrin məhrumiyyəti də zatidir. Onların məntiqi bu idi!

Təsəvvür edin, belə bir cəmiyyətdə sosial təbəqələşmənin bir gün aradan qalxması mümkündürmü? Müxtəlif təbəqələrə bölünmüş cəmiyyətdə sosial təbəqələşməyə son qoyan bir şəxsi, bir təbəqəni təsəvvür etmək mümkündürmü? Elitar təbəqəmi? Heç elitar təbəqə deyərmi ki, mən Allaha xatir öz haqqımdan keçirəm? Bu xam xəyaldan başqa bir şey deyildir. Bir cəmiyyətdə sosial təbəqələşməni aradan qaldırmaq istəyən təbəqə yalnız məhrum təbəqə olmalıdır. Bu təbəqə öz haqqını tələb etməli, elitar təbəqənin hamıdan çox hüquq sahibi olmasına etiraz etməlidir. Mənim təsvir etdiyim cəmiyyətdə məhrum təbəqənin etiraz etməsi qeyri-mümkündür. Nə üçün? Çünki o, özünün təbii durumunun belə olduğuna etiqadlıdır, zatən belə yaradıldığı, vəziyyətini əsla dəyişə bilməyəcəyi düşüncəsindədir. Mən belə yaranmışam, buna görə də heç bir iş görə bilmərəm. İnsan təbiət və fitrətinin əzəldən və Allah tərəfindən xüsusi şəkildə yarandığına inanarsa, onun həmin vəziyyətdən fərqli bir vəziyyətdə olacağına ümid bəsləməsi, onun təbiəti və fitrətinə mütənasib olmayan hüquq və imtiyazlara sahib olacağı intizarında olması qeyri-mümkündür. O deyir ki, mənim bəxt kilimim

belə toxunub, elə əzəldən qara günə bürünmüşəm və qara günlə yoğrulmuşam, artıq, heç bir iş görmək olmaz. Siz qara rəngli bir əşyanı bir çay qırağında, bir dəniz kənarında bərk-bərk sürtüb yusanız da, zatən və əzəldən qara olduğu üçün onun təbii rəngini aradan apara bilməzsiniz. Onun toz-torpağı təmizlənsə də, təbii rəngi – qaralığı daha da şəffaf olacaq, qaralığı daha çox nəzərə çarpacaq. Mülahizə etdiyiniz kimi, tarix boyu cəmiyyətlərdə belə ağır zülmlər olmuş və əlacı da tapılmamışdır.

Əlbəttə, düşüncələri dəyişən bəzi islahatçılar da olub. Qeyd edəcəyim bu məqama – dinlərəməxsus fəlsəfi nişanəyə diqqət yetirin: islahatçılar öncə düşüncələri, mədəniyyəti dəyişirdilər. Xalqa deyirdilər ki, bu fəlsəfə yanlışdır. Onu əsas tutub xalqı inandırırdılar ki, hakim durum zülmkardır.Tarixi dəyişikliklərlə bağlı düzgün anlayış budur. Bizim fəlsəfə və düşüncələrin dəyişilməsindən öncə ictimai quruluşun dəyişilməsini deməyimiz düzgün deyil. Bizim və Şərq ölkələrinin tarixində islahatçılar olub. Nəzərimizcə, belə düşünməyənlər Şərq tarixini oxumayıblar, onlar Qərbi və Avropanı görənlərdir. Hindistanda, Çində, İranda və Misirdə dini islahatçılar qiyam etmiş, fəlsəfə və düşüncələri dəyişdikdən sonra, yanlış ictimai sistem və quruluşun dəyişilməsinə zəmin hazırlamışdılar. Bəli, bu, tarix boyu belə olub.

Gördüyünüz kimi, həm Hindistanda, həm İranda, həm Misirdə, həm də Çində vəziyyət belə idi; harada sivilzasiya var idisə, vəziyyət belə idi; yəni deyilirdi ki, insanlar yarananda iki qrupa bölünür, iki və yaxud daha artıq fitrət və təbiətdə yaranırlar. Buna görə ictimai hüquqlar da bir-birindən fərqlənməli, bərabər olmamalıdır. Onun bərabər olduğunu deyən şəxsi qınayır və onun yanıldığını deyirdilər.

İslam gəlib Allahın bir olduğunu car çəkdi, tanrıları inkar etdi və onların batil olduğunu bildirdi. Allahın iki olduğunu, insanların da iki zümrəyə bölündüyünü, fərqli hüquq və imtiyazlara sahib olduğunu təsəvvür edənlər yanıldılar. Allah elə birdir, bütün dünyanı O yaratmışdır, aləmlərin idarə olunması Onun qüdrət əlindədir, O, hamını bərabər, hamını eyni fitrət və təbiətdən, bir maddə və kökdən yaratmışdır. Bunun ilə bağlı Quran ayələri az deyildir:

يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ

***“Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin.”***[1]

1. “Bəqərə” surəsi, ayə 21.

(Bu gün bu yazıda qeyd etdiyimiz bəzi ayələri diqqətinizə çatdıracağıq.)

Bütün insanlar bir mənşə, bir kök və bir soydandırlar, hamı eyni şəkildə dünyaya göz açmış və hamı sonsuz təkamülə doğru yüksəlməyə layiqdir. Bütün insanlar daha da böyümək, daha da ucalmaq qüdrətinə sahibdir və bu istedad hamıya verilmişdir. Əlbəttə, diqqət yetirmək lazımdır ki, adi bəşər səviyyəsindən üstünlüyü açıq-aydın hiss olunan insanlar – peyğəmbərlər və imamlar mənim bu ümumi sözümə aid deyillər. Hər insanın sonsuz təkamülə doğru pərvaz edə bilməsinin mənası bu deyil ki, hər bir insan əməli və çalışqanlığı nəticəsində peyğəmbər və imam ola bilər. Bu, ayrıca bir mövzudur. Peyğəmbərlər və imamların nübuvvət və imamətə necə çatması sönrakı bir mətləbdir. Başqa bir məclisdə və fürsətdə, ola bilsin, qısa şəkildə bu mövzuya toxunaq. İcmali şəkildə deməliyəm ki, peyğəmbərlər və imamlar daha artıq imkanlara sahib idilər. Onlar adi bəşərin sahib ola bilmədiyi bir sıra spesifik xüsusiyyətlərə sahibdirlər. Bildiyiniz kimi, onların da sayı azdır, onlar istisnadırlar; söhbət isə ümumi olaraq bəşər cəmiyyətlərinin fərdlərinə aiddir. Əlbəttə, peyğəmbərlər və imamlar da maddi irq və soyda adi insanlardan əsla fərqlənmirlər.

أَبو هُمُ آدَمُ وَالأُمُ حَوّاءُ

*"İnsanların atası Adəm, anası isə Həvvadır."*[1]

Bu, islami bir təlimdir; belə ki, tövhid prinsipi sayəsində cəmiyyətdə ayrı-seçkilik və sosial təbəqələşmənin olmaması qəti və danılmazdır. İslamın formalaşdırdığı cəmiyyət siniflərə və təbəqələrə bölünmür; biri müəyyən hüquqa sahib olduğu halda, başqasının həmin hüquqdan məhrum edilməsi qeyri-mümkündür. İslam cəmiyyətində insanın iki mənbə və mənşədən, iki kök və soydan yaranmasından söz gedə bilməz; bu cəmiyyətdə birinin torpaqdan, digərinin isə, misal üçün, nurdan yaranmasından söz gedə bilməz. Maddi mənbə baxımından hamı bərabərdir. Demək, tövhid, yəni Allahın bir olması, dünyanın və yaradılışın bir olan Allah tərəfindən idarə olunmasına inanmaq sosial təbəqələrin inkarına zəmanət verir.

Əlbəttə, burada bir məsələ də var ki, ictimai təbəqələr hər zaman Hindistanla bağlı qeyd etdiklərim kimi olmayıb, hər yerdə eyni fəlsəfə irəli sürülməyib; ola bilsin ki, millət və cəmiyyətlər irəli sürülən fəlsəfə,

1. İmam Əliyə (ə) mənsub divan.

iddia və ideyalar baxımından bir səviyyədə olmasın, lakin müasir dünyamızda olduğu kimi, əməldə sosial təbəqələşmə mövcud olsun.

Bu gün dünyaya, xüsusən, iqtisadi baxımdan inkişaf etmiş (kapitalist) ölkələrə baxsanız, sosial təbəqələşmənin bariz şəkildə hakim olduğunu müşahidə edəcəksiniz. Əlbəttə, həmin ölkələrdə fəhlələr və sahibkarların iki fərqli kök və soydan yarandığı əsla müzakirə mövzusu deyil; onlar hansısa böyük holdinq və kartel sahibi ilə mədən fəhləsinin iki fərqli kök və soydan olduğunu dilə gətirməsələr də həmin kəslərin əməl və rəftarda bu iki zümrə üçün təyin etdikləri qanunlarla iki fərqli kök və soya etiqad bəsləyənlərin qanunları arasında heç bir fərq yoxdur. Çünki bir qrup hədsiz maddi imkanlara sahib olduğu halda, çoxluq təşkil edən digər qrupun imkanları sıfırdır. Bir qrup dünyanın bütün sərvətlərini öz xeyirlərinə mənimsəyir, digər bir qrupun isə öz zəhmətkeş əli ilə qazandığını yeməyə icazəsi olmur.

Bu da sosial təbəqələşmədir və çağdaş dünyamıza hakimdir. Hətta deyə bilərəm ki, sosial təbəqələşmə keçmişlə müqayisədə daha da rəzil, daha da acınacaqlıdır. Onlar ayrı-sekçiliyi, aralarındakı fərqi açıq-aydın dillərinə gətirirdilər, bunlar isə “biz bir-birimizlə qardaşıq, bərabər hüquqa sahibik, sizin hüquqlarınızın təminatçısıyıq” deyir, əməldə isə onun əksinə rəftar edir, fərq və ayrı-seçkilik qoyurlar. Bəzən də hüquqi qanunların icrası zamanı zahirdə bərabərliyə riayət edir, filankəsi elit təbəqədən olmasına rəğmən, filan cinayətə əl atdığı üçün cəzalandırır. Amma dərindən araşdırdıqda, həqiqətin tamamilə başqa bir şey olduğunu görürük; yenə sosial təbəqələşmə və ayrı-seçkiliklər öz gücündə qalmaqdadır. Həqiqətdə, imtiyazlar xas zümrəyə məxsusdur, əksəriyyət yenə məhrumiyyətdədir, məhrum olduqları ilk şey isə düzgün qavrama, kamil şüur və düşüncədir.

İslam bunları, bütünlüklə, inkar edir. Mən sosial təbəqələşmənin inkarı ilə bağlı Quranın – bu müqəddəs kitabın bir çox ayələrindən yalnız bir neçəsini qeyd etmişəm. Bu ayələrdən əldə edilən mətləblər bunlardan ibarətdir:

Bütün işlərin idarə edəni Allahdır. O, yaradan və ibadət olunandır. Bu, İslamın sözüdür. Hər bir şeyin yaradanı bir nəfərdir, o da Allahdır. Deyə bilərsiniz ki, nə fərqi var ki, yaradan bir olsun, ya iki? Fərq çoxdur. Əgər yaradanın iki nəfər olduğunu desək, cəmiyyətin iki tanrı fəlsəfəsinə sahib olmasının ilk təsiri həmin cəmiyyətin iki sinfə ayrılmasıdır. Bir

Allahı olan cəmiyyətin xalqları bütünlüklə bir sinfə, bir zümrə və təbəqəyə mənsub olacaq, bir-birilə qardaş və bir-birinin yanında olacaqlar. Xatırlatmaq istəyirəm ki, bizim yeganə Allaha, Onun iki deyil, bir olmasına etiqadlı olmağımızın mənası odur ki, Allah bəndələri fərqli təbəqədə yox, bir təbəqədə olacaqlar. Nə üçün? Çünki onların yaradanı və Allahı birdir.

Görəsən, Allah onları yaratdıqda, Onun bir zümrəyə sevgisi artıq idimi?

وَقَالَتِ الْيَهُودُ وَالنَّصَارَى نَحْنُ أَبْنَاء اللّهِ وَأَحِبَّاؤُهُ

***"Yəhudilər və xaçpərəstlər dedilər: "Biz Allahın oğulları və sevimliləriyik."***[1]

Allah başqa bir ayədə onların cinayətlərindən birini üzlərinə vurur; həm cavab verir, həm də məzəmmət edir:

قُلْ فَلِمَ تَقْتُلُونَ أَنبِيَاء اللّه

***"Onlara söylə: "Nə üçün Allahın peyğəmbərlərini öldürürdünüz?"***[2]

Siz bu qədər Allaha yaxın, Onunla dost və qohum-əqrəbasınızsa, bəs, nə üçün Onun peyğəmbərlərini qətlə yetirirdiniz? Nə üçün Onun seçdiyi bəndələri öldürürdünüz? Nə üçün? Yəhudilər deyirdilər ki, biz Allahın oğlulları və yaxınlayırıq, imtiyaz sahibiyik. İslam buyurur ki, xeyr, bu söz yanlışdır. Başqa bir ayədə isə belə buyurulur:

قُلْ يَا أَيُّهَا الَّذِينَ هَادُوا إِن زَعَمْتُمْ أَنَّكُمْ أَوْلِيَاء لِلَّهِ مِن دُونِ النَّاسِ فَتَمَنَّوُا الْمَوْتَ إِن كُنتُمْ صَادِقِينَ

***"De: "Ey yəhudilər! Əgər*** başqa insanların deyil, yalnız özünüzün ***Allahın dostları olduğunuzu*** güman ***edirsinizsə, (və bunu) doğru deyirsinizsə, onda (***Allahla görüşmək üçün özünüzə***) ölüm diləyin!""***[3]

Bu puç həyatdan qurtulun və öz yaxın dostunuz olan sevimli Allaha qovuşun. Axı O, sizin özünüzdəndir. Sonra isə belə buyurur:

وَلَا يَتَمَنَّوْنَهُ أَبَدًا

***"Onlar heç vaxt ölümü diləməzlər!"*** [4] Yəhudi olasan, ölüm diləyəsən?! Bu, qeyri-mümkündür!

Beləliklə, bütün işlərin tədbir görəni Allahdır. O, yaradan və ibadətə

1. "Maidə" surəsi, ayə 18.
2. "Bəqərə" surəsi, ayə 91.
3. "Cümə" surəsi, ayə 6.
4. "Cümə" surəsi, ayə 7.

layiqdir. Bu, olduqca mühüm məsələdir; əgər yaradan və ibadət olunan (məbud) birdirsə, sözsüz, insanlar da bir sinif və təbəqədə, eyni maddi kök və soydan olarlar. Bu maddi sözə diqqət yetirək və ona xüsusi olaraq istinad edək; bütün insanların maddi tərəfi, zahiri quruluşunun özəyi eyni soy və kökdəndir. Heç kim hüquqi imtiyazlara sahib olmaqda digərindən üstün deyildir, nəinki heç bir imtiyaza sahib deyillər. Buna da diqqət yetirməliyik, çünki insanlar bir sıra uyğun şərait nəticəsində xas istedada, imtiyaza malik olur. Bir insan yaradılış şəraitinə nəzərən dahi şəxsiyyətə çevrilir,istedadlı ata və anadan doğulur. Digərinin isə istedadı və gücü az, daha da zəif və arıq olur, biri gözəl, digəri isə eybəcər olur. Bu da fərqlilik və ayrı-seçkilikdir. Lakin bu fərqlilik hüquqi parametrlərə əsaslanmır. Cismani gücü çox olanın ictimai hüquqdan daha çox bəhrələnəcəyi, elitar ailədə dünyaya göz açanın daha çox imkanlara sahib olacağı anlamında deyil. Onların təsis etdikləri məktəbdə bütün uşaqlar bərabər şəkildə təhsil və təlim-tərbiyə alır. Bütün insanlar əmək və ticarət imkanlarından eyni şəkildə bəhrələnir.

İslam cəmiyyətində İslam hakimiyyəti və islami qanunların icrası sayəsində kimsənin təhsil alması, işləməsi, anlaması, pul qazanması, iş alması və işə düzəlməsi, hətta daha yüksək vəzifələrdə çalışması üçün favoritizmə, qohumbazlığa ehtiyac duyulmur. İslam cəmiyyətində meydan milyonlarla insanın üzünə açıqdır, ondan hamı istifadə edə, maddi və mənəvi hədəflərə doğru addımlaya bilər. Bunun üçün heç bir maneə yoxdur, yol hamının üzünə açıqdır. Qeyri-tövhidi və nadan sistemlərdə isə tamamilə bunun əksinədir; bəziləri üçün yol asfaltlanır, bəziləri üçünsə tikanlar, daşlar və maneələr doldurulur. Sədi demişkən:

سنگ را می بندند و سگ را می گشایند

**“Daşı bağlayır, iti isə açıq saxlayırlar.”**[1]

İslam cəmiyyətində hamı ən yüksək məqamlara qədər yüksələ bilir. Misal üçün, Bilal Həbəşi azançı məqamına yüksəlir. (Bu günümüzə baxmayın; İmam Həsən (ə) məscidinin azançısı bizim Məşhədi İshaq həqarət hissi keçirir, adətən, vaxtında gəlmir, deyəsən, burada deyil ki, eşitsin, bəzi günlər gəlir, bəzi günlər isə gəlmir.) Azançılıq məqamı İslamda əzəmətli və şərəfli bir məqamdır, hər kəs azançı ola bilmirdi. O dövrün cahillik meyarlarına əsasən, cəmiyyətin ən aşağı təbəqəsindən olan qaradərili Bilal Həbəşi azançı məqamına – ən yüksək vəzifələrdən

1. “Gülüstan”, Sədi.

birinə layiq görülür. Salman Farsi o dövrün meyarlarına görə, ən aşağı təbəqədən sayılırdı; çünki ərəblər özlərini üstün, digərlərini isə özlərindən aşağı hesab edirdilər. O, fars, isfahanlı və qərib idi, uzaq yerdən gəlmişdi. Ərəb dilini, bəlkə də, yaxşı bilmirdi, amma böyük bir məntəqəyə hakim (vali) təyin edilir. Belə nümunələr çoxdur.

Bir sözlə, yaradılışda insanlar bəzi imtiyazlara sahib olsa belə, əlavə hüquqi imtiyaza sahib ola bilməz. Allah tərəfindən təyin edilən hidayət və rəhbərlik məqamı kimi spesifik məqamlardan başqa, bütün məqamlar və imtiyazlar bərabər şəkildə hamının ixtiyarında qoyulur və onlardan istifadə isə insanın əmək və qabiliyyətindən asılıdır. Bütün dünya Allahındır, insanlar da Ona möhtacdır. Hamı Ondan istəməli, ehtiyac əlini Ona doğru açmalıdır. Burada hamı bərabərdir.

Allah dərgahında Peyğəmbərin (s), Əmirəlmöminin Əlinin (ə), Xanım Fatimeyi-Zəhranın (s.ə.) övladı və İmam Hüseynin (ə) oğlu İmam Səccad (ə) da raz-niyaz etməli və göz yaşı axıtmalıdır, bu pak ailəyə mənsub olmayan digərləri də! Qazanmaq və dolanmaq üçün İmam Baqir (ə) və İmam Sadiq (ə) də əlinə bel alıb torpaq şumlayırdı, sıravi bir insan da. Əmirəlmöminin Əli (ə) hakimiyyətdə olduğu müddətdə də işləyirdi. Peyğəmbərin (s) zamanında ən böyük ordu sərkərdələrindən biri idi, bütün döyüşlərdə iştirak etmişdi, bununla belə, torpaq şumlayır və bağbanlıq edirdi. Belə nümunələr çoxdur. Baxın, pul qazanmaq istəyirsinizsə, çalışmalı, savadlı olmaq istəyirsinizsə, oxumalı və siyasi vəzifə istəyirsinizsə, lazımi addımlar atmalısınız. İşləmək üçün yol hamının üzünə açıqdır, işləyən qazanacaq.

Bu, İslam məntiqidir və onu Quranın müxtəlif ayələrində açıq-aydın görmək olur. Mən yenə Quran mətninə müraciət etməyi sizin özünüzə həvalə edirəm. Gedin, Quranı açıb oxuyun, onun ayələri üzərində düşünün ki, bu ayə bizə aid edilməsin:

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْآنَ أَمْ عَلَى قُلُوبٍ أَقْفَالُهَا

***"Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa qəlbləri kilidlənmişdir?"***[1]

İndi isə birinci hissənin ayələrinə – "Muminun" surəsinin 84-91-ci ayələrinə diqqət yetirin:

قُل لِّمَنِ الْأَرْضُ وَمَن فِيهَا إِن كُنتُمْ تَعْلَمُونَ

***"Ey Peyğəmbər! Müşriklərə de: "Əgər bilirsinizsə, bu yer və yer***

---

1. "Muhəmməd" surəsi, ayə 24.

***üzündə olanlar kimindir?””***

Öz tanrılarının nüfuz dairələrini bölüşdürən və ayırd edən o müşriklərə de ki, yer və onda olanlar kimindir?

سَيَقُولُونَ لِلَّهِ

***“Onlar: “Allahındır!” – deyə cavab verəcəklər.”*** Məkkə müşrikləri Allaha inanır, bütləri isə Allah dərgahında şəfaətçilər hesab edirdilər.

قُلْ أَفَلَا تَذَكَّرُونَ

***“Sən də de: “Elə isə niyə özünüzə gəlmirsiniz?””***

قُلْ مَن رَّبُّ السَّمَاوَاتِ السَّبْعِ وَرَبُّ الْعَرْشِ الْعَظِيمِ

***“De: “Yeddi göyün Rəbbi (müdəbbiri), o əzəmətli ərşin Rəbbi kimdir?”***

“Ərş”in mənası nədir? “Yeddi göy” nə deməkdir? Keçmiş bəhslərimizdə bu haqda bəzi mətləblərə toxunmuşduq, bəzi mətləblərin də qeyd edilməsinin yeri deyil. Bəzi mülahizələr irəli sürülmüşdür. Münasib fürsət və vaxtda diqqətinizə çatdıracağam. Onlar elə də önəmli deyil.

سَيَقُولُونَ لِلَّهِ

***“(Müşriklər) mütləq: “Allahındır!” – deyə cavab verəcəklər.”***

قُلْ أَفَلَا تَتَّقُونَ

***“Onda sən də de: “Elə isə niyə (Allahdan) qorxmursunuz?””*** Nə üçün Onun əmri və buyruğuna əsasən əməl etmir və düşünmürsünüz?

قُلْ مَن بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ وَهُوَ يُجِيرُ وَلَا يُجَارُ عَلَيْهِ

***“De: “Hər şeyin (mütləq) hökmranlığı əlində olan,*** sığınacaq verən, ***“Onun müqabilində isə heç bir kəsə sığınacaq verilməyən kimdir?”***

Qüdrət sahibləri, maksimum, müəyyən zahiri bir cismə hakim olurlar. Misal üçün, siz hansısa bir evə maliksiniz, bir kərpicin yerini dəyişəcək, bir ağırlığı bir tərəfdən götürüb o biri tərəfə qoyacaq, iki dəmir parçanı bir-birinə qaynaq edəcək və yaxud bir-birindən ayıracaq qədər güc sahibisiniz. Sizin o ağırlığa hökmranlığınız yalnız bu qədərdir. Lakin bu varlıq aləminin bütün hissələrinə hakim olan Odur, onun zərrəciklərinin hərəkəti Onun əlindədir, bitkilərin inkişafı, heyvanların və insanların bütün daxili hərəkətləri, bir sözlə, onların hər bir şeyi qüdrət sahibi olan Allahın ixtiyarındadır .

قُلْ مَن بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ

***“De: “Hər şeyin (mütləq) hökmranlığı əlində olan kimdir?”***

وَهُوَ يُجِيرُ

***“O, sığınacaq verir.”***

وَلَا يُجَارُ عَلَيْهِ

***“Onun müqabilində isə heç bir kəsə sığınacaq verilmir.”*** Yəni, Allahın müqabilində Ondan qaçıb başqasına sığınmaq mümkün deyil. Fərz edin ki, xristianlar Allaha üsyan edib Həzrət İsaya (ə) sığınmaları, Həzrət İsanın (ə) da onlara sığınacaq verməsi və Allahın müqabilində onları himayə etməsi mümkün bir işdirmi? Heç vaxt! وَهُوَ يُجِيرُ – O, hər bir varlığa və hər bir insana sığınacaq verir. وَلَا يُجَارُ عَلَيْهِ – Onun əleyhinə isə heç kimə sığınacaq verilmir. إِن كُنتُمْ تَعْلَمُونَ – Əgər bilirsinizsə.

Bu xüsusiyyətlərin sahibi kimdir?

سَيَقُولُونَ لِلَّهِ

***“Onlar deyəcəklər: “Allahındır!””*** Hər bir şeyin hökmü Onun əlindədir. Sığınacaq verən Odur və Onun əleyhinə isə heç kimə sığınacaq verilməz.

قُلْ فَأَنَّى تُسْحَرُونَ

***“Sən də de: “Elə isə necə aldadılırsınız?”***

Quranın onların aldadılması və qəflətdə qalması məsələsinə istinad etməsi incə bir mətləbdir; Allah-Taala insanların qəflətdə qalması və aldadılmasını əsla istəmir, onların gözlərinin açılmasını istəyir. Quran əmindir ki, əgər insanlar gözüaçıq olarsa, onların nəzəri təmin olunacaq. Bu da bir həqiqətdir. Bizim də bugünkü sözümüz budur. Biz də deyirik ki, əgər müasir dünya gözüaçıq olarsa, bizim Quranımız dünyamiqyaslı hakimiyyətə nail olar; əlbəttə, əgər gözünü açarsa. Lakin bir tərəfdən nadanlıq və məğrurluqlar, digər tərəfdən isə xain əllər buna imkan vermir.

بَلْ أَتَيْنَاهُم بِالْحَقِّ

***“Xeyr, Biz haqqı onların ixtiyarında qoyduq.”***

وَإِنَّهُمْ لَكَاذِبُونَ

***“Onlar isə, şübhəsiz ki, yalançıdırlar!”***

Biz onlar üçün məsələni işıqlandırdıq, haqqı onların ixtiyarında qoyduq. Onlar isə əməl və ideoloji baxımdan bəhanə gətirir, yalan danışırlar.

مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ

***“Allah (Özünə) heç bir övlad götürməmişdir.”***

وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ

***“Onunla yanaşı (və bərabər) heç bir məbud yoxdur.”***

Diqqət yetirin ki, öncəki ayələrdə nəzərdə tutulmuş mətləb sübut olunsa da əsas istinad nöqtəsi ayənin bu hissəsidir.

إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ

***“Əgər belə olsaydı (çoxlu məbudlar olsaydı), hər bir məbud öz yaratdığı ilə gedərdi.”*** Yəni, ixtilaf, ayrı-seçkilik, insanlar arasında sosial təbəqələşmə, yaradılışda və insanlar arasında vəhdət və birliyin pozulması meydana çıxardı. Nurun, zülmətin, insanın, yuxarı və aşağı təbəqənin ayrı-ayrılıqda məbudu olmasına etiqad bəsləyən bir şəxs yaradılış aləmini ayrı-ayrı qırx hissədən ibarət biləcək. Tövhid nəzəriyyəsinə əsasən isə yaradılış bir-birinə birləşmiş vahid sistem və vəhdətdən ibarətdir. İnsan, heyvan, dərə-təpə, yer, göy, planetlər və digər varlıqların bir-birilə rabitə və bağlılığı vardır və onlar hamılıqla vəhdət təşkil edirlər.

إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ

***“Əgər məbudların sayı çox olsaydı, hər bir məbud öz yaratdığı ilə gedərdi.”***

وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ

***“Onların bir qismi digərinə üstün olmağa çalışardı.”***

سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ

***“Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə pakdır!”***

Növbəti hissə “Bəqərə“surəsinin 21-22-ci ayələrini təşkil edir.

يَا أَيُّهَا النَّاسُ – ***“Ey insanlar!“*** Kimə xitab edir? İnsanlardan bir qrupuna deyil, bütün insanlara xitab edir; həm yuxarı, həm də aşağı təbəqəyə, həm ağdərili, həm də qaradərili insanlara. Bizim də istinad edəcəyimiz ifadə bu ifadədir: يَا أَيُّهَا النَّاسُ – ***Ey insanlar!*** اعْبُدُواْ رَبَّكُمُ – ***Bir olan Rəbbinizə ibadət edin.*** الَّذِي خَلَقَكُمْ – ***O, sizi yaratdı.*** وَالَّذِينَ مِن قَبْلِكُمْ – ***Və sizdən əvvəlki insanları (da O yaratdı).*** لَعَلَّكُمْ تَتَّقُونَ – ***Bəlkə, təqvalı olasınız.*** Yəni, bu ibadət və bəndəçilik təqvalı olmaq üçün bir səbəbdir. Təqvanı – bu xas və gözəl haləti sizin üçün şərh etmişəm. Təqva nədir? İnsanı günahdan qoruyan ruhi halətə təqva deyilir. Təqva Allaha bəndəçilikdir. Odur ki, hamılıqla Allahın bəndəsi olan və Ona bəndəçilik edən bir cəmiyyətdə təqva nümunələri olduqca çoxdur; belə cəmiyyətdə (yaşadığımız indiki dönəmdə) təqva qıtlığı yoxdur.

لَّذِي جَعَلَ لَكُمُ الأَرْضَ فِرَاشاً وَالسَّمَاء بِنَاء

***“O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə möhkəm tavan***

***yaratdı."***

(Ayədə qeyd olunan "siz" ifadəsində bütün insanlar nəzərdə tutulur.)

وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقاً لَّكُمْ

***"Göydən yağış suyu endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi."***

Bu ruzilər xas zümrəyə aid deyil ki, qalan zümrələr də onların sədəqəsi ilə dolansın. Xeyr! Bütün insanlara aiddir. Elə isə:

فَلاَ تَجْعَلُواْ لِلّهِ أَندَاداً وَأَنتُمْ تَعْلَمُونَ

***"İndi siz də Allaha bilə-bilə şəriklər (və rəqiblər) qoşmayın!"*** İnsanları iki yerə, ayrı-ayrı təbəqələrə bölməyin, hamı bərabər və eyni təbəqədəndir.

Növbəti ayə "Hucurat" surəsinin 13-cü ayəsidir. Bu ayə məşhurdur və dillərdə çox dolanır.

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى

***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq."***

Yenə bu ayədə bütün insanlara xitab olunur.

Əmirəlmöminin Əliyə (ə) mənsub divanda bu ayənin təfsirində belə bir şeir nəql olunur:

النـاسُ مِن جِهَةِ التِمثالِ اَكفاءُ
أَبوهُمُ آدَمُ وَالأُمُّ حَوّاءُ

*"İnsanlar yaradılışda soy və irq baxımından bərabərdirlər; ataları Adəm, anaları isə Həvvadır."*

وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا

***"Bir-birinizi tanıyasınız deyə, sizi tayfa və qəbilələrə ayırdıq."*** (Ayənin bu hissəsinin bir qədər izaha ehtiyacı var, lakin vaxtın azlığını nəzərə alıb lazımi bir vaxta həvalə edirəm.)

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ

***"Allah yanında ən sevimli olanınız ən təqvalı olanınınızdır."***

Bu, sosial təbəqələrin inkarı ilə bağlı İslamın qəti hökmüdür. Yəni, insanların hansı bir təbəqə və ailəyə, hansı irqə və rəngə mənsub olması onların hörmətli və sevimli olması demək deyildir. İncə və maraqlı məqam məsələnin burasıdır: Təqvalılar digərlərindən üstün və hörmətli olsalar da yenə hüquqi imtiyazlara sahib deyillər. Elə deyil ki, təqvalı insnalar artıq pul alsın və əlavə hüquqi və sosial xidmətlərə sahib olsun. Əsla belə deyil! Əksinə: ***"Allah yanında ən əziz insanlar təqvalılardır."*** Əlbəttə, qeyd etməliyik ki, təqva müəyyən həddə ictimai təsirlərə səbəb

olur, yalnız bəzi məşğələlər və vəzifələrdə çalışmağın şərti təqvalı olmaqdır.

إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

***“Həqiqətən, Allah biləndir, (hər şeydən) xəbərdardır.”***

Yenə “İsra” surəsinin 70-ci ayəsində mövzumuzla bağlı belə buyurulur:

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ

***“Həqiqətən, Biz, Adəm övladını şərəfli və hörmətli etdik.”***

وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ

***“Onları suda və quruda (nəqliyyat vasitələri ilə) daşıdıq.”*** Ola bilsin ki, ayənin bu hissəsi insanlar arasındakı rabitələrin bərqərarına işarədir. Əgər insanlar bir nöqtədən başqa bir nöqtəyə gedə və bu imkana sahib ola bilməsəydilər, çox güman ki, onların arasında ayrılıq yaranardı.

وَرَزَقْنَاهُم مِّنَ الطَّيِّبَاتِ

***“Onlara müxtəlif pak şeylərdəan ruzi verdik.”***

وَفَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِّمَّنْ خَلَقْنَا تَفْضِيلاً

***“Onları yaratdığımız varlıqların çoxundan üstün etdik.”***

Kimləri? Kimlərdən danışılır? Kimləri üstün etdik? Kimlərə pak ruzilər verdik? Kimləri yaradılmışların çoxundan üstün və fəzilətli etdik? Xüsusi təbəqə və irqi yox, insanları!

(Söhbətimiz yekunlaşdı, deyəsən, vaxtımızdan bir qədər də keçir. Bugünkü ayələri əziz qarilərimizdən biri tilavət edəcək. Xahiş edirəm, təşrif buyursun.)

İlahi, Muhəmməd və ali-Muhəmədə xatir, Quranı dünya və axirətdə bizim üçün dəstək yeri et!

İlahi, Muhəmməd və ali-Muhəmədə xatir, Quranı öyrənməklə xeyrini bizdən əsirgəmə!

## Xülasə

### Bazar ertəsi – Ramazan ayının 13-cü günü

### TÖVHİD VƏ SOSİAL TƏBƏQƏLƏRİN İNKARI

Müxtəlif sosial xidmətlər və məhrum təbəqələrlə bərabər fərqli təbəqələrin mövcudluğu bəşər tarixinin böyük zülmlərindən biridir. Bu haqsız quruluşun etiqadi prinsipinə əsasən, bəzən müxtəlif təbəqələrin idarəçiliyini ixtiyarına alan cürbəcür məbudlar hər təbəqəni fərqli imtiyaz və hüquqlar əsasında bir-birindən ayırmışlar. Bəzən vahid məbud olaraq bir qrup insanı xilqət və təbiətcə başqalarından fərqləndirmiş, onları hüquqi səciyyələrlə dəyərləndirmişdir. Bəzən də bəşər cəmiyyətləri arasında bu fərqlilik və ayrı-seçkiliyi başqa formalarda, o cümlədən, onların etiqadında yaratmışlar. Buna əsasən, yuxarı təbəqələrin özəl imtiyazları təbii bir nemət, aşağı təbəqələrin məhrumiyyətləri isə fitri və zati zərurət tək qələmə verilmişdir. Tövhidə etiqad isə hamını yeganə Allahın məxluqu və bəndəsi bilməklə bərabər, bu etiqaddan qaynaqlanan digər dini maarif və təlimlərə əsasən, sosial təbəqələşmənin kökünü insanların zehnindən, cəmiyyətin daxilindən çəkib çıxarır. Aşağıdakı ayələrdə göstərilən həmin təlimlərin bir qismi belədir:

Bütün işlərin tədbir görəni Allahdır. O, xaliq və yeganə məbuddur. Hamı eyni maddi kök və soydan yaranmışdır. Heç kim hüquqi imtiyazlara sahib olmaqda digərindən üstün deyildir.

Bütün imtiyazlar hamıya bərabər şəkildə verilir, ondan istifadə isə insanın özünün davamlı əmək və fəaliyyətindən asılıdır.

Bütün dünya Onundur və insanlar hamılıqla Ona möhtacdır...

قُل لِّمَنِ الْأَرْضُ وَمَن فِيهَا إِن كُنتُمْ تَعْلَمُونَ – ***(Ey Peyğəmbər! Müşriklərə) de: "Əgər bilirsinizsə, bu yer və yer üzündə olanlar kimindir?"***

سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَذَكَّرُونَ – ***Onlar: "Allahındır!" – deyə cavab verəcəklər. Sən də de: "Elə isə niyə düşünmürsünüz?"***

قُلْ مَن رَّبُّ السَّمَاوَاتِ السَّبْعِ وَرَبُّ الْعَرْشِ الْعَظِيمِ – ***De: "Yeddi göyün Rəbbi, o əzəmətli ərşin Rəbbi kimdir?"***

سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَتَّقُونَ – ***(Müşriklər) mütləq: "Allahındır!" – deyə cavab verəcəklər. Onda sən də de: "Elə isə niyə (Allahdan) qorxmursunuz?"***

قُلْ مَن بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ وَهُوَ يُجِيرُ وَلَا يُجَارُ عَلَيْهِ إِن كُنتُمْ تَعْلَمُونَ – ***De: "Əgər bilirsinizsə, (deyin görək) hər şeyin hökmranlığı əlində olan, sığınacaq verən, Onun müqabilində isə heç bir kəsə sığınacaq verilməyən kimdir?"***

سَيَقُولُونَ لِلَّهِ قُلْ فَأَنَّى تُسْحَرُونَ – ***Onlar: "Allahındır!" – deyə cavab verəcəklər. Sən də de: "Elə isə necə aldadılırsınız?"***

بَلْ أَتَيْنَاهُم بِالْحَقِّ وَإِنَّهُمْ لَكَاذِبُونَ – ***Xeyr, Biz haqqı onların ixtiyarında qoyduq. Onlar isə, şübhəsiz ki, yalançıdırlar!***

مَا اتَّخَذَ اللَّهُ مِن وَلَدٍ وَمَا كَانَ مَعَهُ مِنْ إِلَهٍ – ***Allah (Özünə) heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir məbud yoxdur.***

إِذًا لَّذَهَبَ كُلُّ إِلَهٍ بِمَا خَلَقَ – ***Əgər belə olsaydı, hər bir məbud öz yaratdığı ilə gedər***

وَلَعَلَا بَعْضُهُمْ عَلَى بَعْضٍ – ***və onların bir qismi digərinə üstün olmağa çalışardı.***

سُبْحَانَ اللَّهِ عَمَّا يَصِفُونَ – ***Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə pakdır!***

("Muminun" surəsi, ayə 84-91.)

يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ – ***Ey insanlar! Rəbbinizə ibadət edin.***

الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُون – ***Rəbbiniz sizi və sizdən əvvəlkiləri yaratmışdır ki, təqvalı olasınız.***

الَّذِي جَعَلَ لَكُمُ الأَرْضَ فِرَاشاً وَالسَّمَاء بِنَاء – O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı.

وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقاً لَّكُمْ – ***Göydən su endirdi və onun vasitəsilə sizin üçün müxtəlif məhsullardan ruzilər yetişdirdi.***

فَلاَ تَجْعَلُواْ لِلّهِ أَندَاداً وَأَنتُمْ تَعْلَمُونَ – ***İndi siz də Allaha bilə-bilə şəriklər (və rəqiblər) qoşmayın!***

("Bəqərə" surəsi, ayə 21-22.)

وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقاً لَّكُمْ – ***Göydən yağış suyu endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər***

***yetişdirdi.”***

فَلاَ تَجْعَلُواْ لِلّهِ أَندَاداً وَأَنتُمْ تَعْلَمُونَ – ***“İndi siz də Allaha bilə-bilə şəriklər (və rəqiblər) qoşmayın!”***

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَى – ***“Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq.”***

وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا – ***“Bir-birinizi tanıyasınız deyə, sizi tayfa və qəbilələrə ayırdıq.”***

إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ – ***“Allah yanında ən sevimli olanınız təqvalı olanınınızdır.”***

إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ – ***“Həqiqətən, Allah biləndir, (hər şeydən) xəbərdardır.”***

(“Hucurat” surəsi, ayə 13.)

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ – ***“Həqiqətən, Biz, Adəm övladını şərəfli və hörmətli etdik.”***

وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ – ***“Onları suda və quruda (nəqliyyat vasitələri ilə) daşıdıq.”***

وَرَزَقْنَاهُم مِّنَ الطَّيِّبَاتِ – ***“Onlara müxtəlif pak şeylərədən ruzi verdik.”*** – وَفَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِّمَّنْ خَلَقْنَا تَفْضِيلاً – ***“Onları yaratdığımız varlıqların çoxundan üstün etdik.”***

(“İsra” surəsi, ayə 70.)

## ON ÜÇÜNCÜ MƏCLİS

## TÖVHİDİN PSİXOLOJİ TƏSİRLƏRİ

Çərşənbə axşamı – 1974/10/01
Ramazan ayının 14-ü.

بسم الله الرحمن الرحيم

الَّذِينَ اسْتَجَابُواْ لِلّهِ وَالرَّسُولِ مِن بَعْدِ مَآ أَصَابَهُمُ الْقَرْحُ لِلَّذِينَ أَحْسَنُواْ مِنْهُمْ وَاتَّقَواْ أَجْرٌ عَظِيمٌ. الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ

***“Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb təqvalı olanlarını böyük bir mükafat gözləyir! O kəslər ki, insanlar onlara: “Camaat sizə qarşı əlbir olmuşdur (və sizi aradan götümək istəyir), onlardan qorxun!” – deyirldikdə, (bu söz) onların imanını daha da artırdı və dedilər: “Allah bizə yetər. O, nə gözəl himayəçidir!””***

“Ali-İmran” surəsi, ayə 172-173.

Tövhid prinsipinin cəmiyyətə qoyduğu təsirlər və cəmiyyətin formalaşmasındakı rolu ilə bağlı bır sıra mətləblər irəli sürülmüşdür. Bu zəmində digər mətləblər də var ki, müxtəlif səbəblərə görə onlara toxunmaqdan vaz keçirik. Misal üçün, tövhid qətnaməsinin ən mühüm maddələrindən biri cəmiyyətin maliyyə işlərində tövhid prinsipinin təsiridir. Bununla bağlı çoxlu söhbətlər açılmışdır və Quranın وَآتُوهُم مِّن مَّالِ اللَّهِ الَّذِي آتَاكُمْ ***(Allahın sizə verdiyi maldan möhtaclara verin.)***[1] – ayəsində dünya malı ilə bağlı tövhid əqidəsi açıq-aşkar bəyan edilməsinə baxmayaraq, onun Quran ayələrində araşdırılıb əldə edilməsi diqqət və incəlik tələb etdiyindən, ümumi məclislərin yeri deyil. Lakin maliyyə işlərində tövhid əqidəsinin təsirini uyğun ayələr toplusundan əldə etmək üçün dəqiq və dərin elmi yığıncaqların təşkilinə ehtiyac var. Elə buna görə də, bu mövzunu bir vərəqdə yerləşdirib sizə təqdim etməyin və bir saat ərzində onun haqqında danışmağın çətinliyini nəzərə alıb ondan daşındıq.

Başqa bir səbəb isə İslamın etiqadi və ideoloji prinsipləri ilə bağlı daha zəruri bəhslərin araşdırılmasıdır. Hələ əlavə bəhslərimiz olacaq və əgər ömrümüz vəfa etsə, Ramazan ayının sonuna qədər bu bəhsləri yekunlaşdırmalı, onu heç olmasa, müəyyən bir yerə çatdırmalıyıq. Odur ki, nəzərdə tutmadığımız mövzular haqqında danışmağa vaxt çatmayacaq. Aydındır ki, bu tərtiblə irəliləsək və bütün məsələ və bölmələri araşdırsaq, nəzərdə tutduğumuz mətləblərə toxunmağa vaxt çatdıra bilməyəcəyik. Bu da ikinci səbəb!

Bugünkü bəhsimiz tövhid haqqında olsa da iman, onun təsirləri və möminlərə verilən müjdələrdən ibarət ilkin məclislərimizlə

---

1. “Nur” surəsi, ayə 33.

mütənasibdir. Həmin bəhslərdə qeyd etdik ki, iman əməl və öhdəliklərə səbəb olan qəlbi bir halət olmaqla bərabər, agahlığa əsaslanmalı, kor-koranə olmamalı, saleh əməllərlə zənginləşməlidir. Keçmiş bəhslərimizdə bu məsələlərə toxunduq. Tövhidə etiqad da, həqiqətdə imandır, ayıq tövhid əhli üçün agahlığa əsaslanan imandır; elə bir imandır ki, əməl və öhdəliklərə səbəb olur. Tövhid etiqadının tövhid əhlinin öhdəsinə qoyduğu öhdəliklər dini-islami etiqadlar içərisində ən böyük, ən ağır və ən təsirli öhdəliklər hesab edilir. Həqiqətdə, tövhid əhlinin öhdəsindəki məsuliyyətlər qurucudur; tövhid dünyasının quruculuğuna səbəb olur. Tövhid əhlinin öhdəlikləri şirkin bütün təsirlərini aradan qaldırmaqdır.

Bu önəmli mətləbi də Ərəb dili ilə azacıq tanış olan dostların və qardaşların diqqətinə çatdırmaq istəyirəm: Tövhid sözü "təf`il" modelinin məsdər formasıdır və onun lüğəvi mənasını hər bir (dini) tələbədən soruşsanız, "vəhdət" sözündən götürülmüş və "bir etmək", "eyniləşdirmək", "eynişəkilli etmək", "hər şeyi bir nöqtədə birləşdirmək" mənasında olduğunu deyəcək. Bir etmək, eyniləşdirmək və bir nöqtədə birləşdirmək nə deməkdir? Müxtəlif tanrıları bir tanrıda birləşdirmək, qeyri-tövhidi cəmiyyəti tövhidə etiqadlı etmək, müşrikin beyni və qəlbini müvəhhid (tövhidə etiqadlı şəxsin) beyni və qəlbinə çevirmək deməkdir. Tövhid öhdəliklər gətirir, əməl istəyir, ümumiyyətlə, tövhidin tələbi budur. İnsanın tövhid mövzusu ilə bağlı bu məqama diqqət yetirməsi onda xüsusi düşüncə aydınlığına səbəb olacaqdır.

Bir sözlə, tövhidə etiqad iman, ağır məsuliyyət, qətiyyət və müəyyənlikdir; belə ki, digər islami və ictimai əqidələrin hər birinə baxsanız, öhdəlikləri bu qədər ağır və əzəmətli deyil. Misal üçün, cəmiyyətdən yoxsulluğun aradan qaldırılması, yaxud cəmiyyətdə sərvətin ədalətlə bölgüsü və yaxud döyüşə son qoymaq (sülhün bərqərarı) bir öhdəlikdir. Bu öhdəliklərin icrasını hansı bir məktəb öz öhdəsinə götürə bilər və hansı bir cəmiyyət həmin məktəbi qəbul edib uyğun öhdəlikləri özünə yönəldə bilər? İslamda nəzərdə tutulan mənadakı "tövhid" "uydurma" və "süstlük" mənasında deyil, əksinə bir həqiqətdir. Əgər tövhidi tək olan Allaha inanmaq, ilahi hökumət, ilahi cəmiyyət və ilahi sistemin təşkili mənasında götürsək, bizim qeyd etdiyimiz və hansısa bir məktəbin öz üzərinə götürdüyü bütün öhdəliklərə şamil olacaqdır. Görün, tövhidin öhdəlikləri nə qədər ağırdır!

Demək, tövhid agahlığa əsaslanan öhdəliklə yanaşı, öhdəliyi bütün dini və qeyri-dini etiqadi prinsiplərdən ağır, qəti və hərtərəfli olan bir imandır. Bu mənada tövhidə imanı (həqiqi iman) araşdırmalı, inanclı şəxsin psixologiyasında bu imanın və əmələ səbəb olan bu əqidənin təsiri ilə tanış olmalıyıq. Bu müstəqil bir mövzudur. Araşdırmaq lazımdır ki, tövhid və Allahın birliyinə inanan şəxsin bu etiqadı bəşər həyatının və təkvini aləmin müxtəlif sahələrində, onun öz ruhu və psixologiyasında təsiri nədir?

Bu bəhsin iki faydası var: Birincisi, bizim tövhidlə müəyyən qədər tanış olmağımız, onun ruhi-psixoloji təlimlərinin nədən ibarət olmasını anlamağımızdır. Əgər bir insanın tövhiddən aldığı nəticə süstlük və tənbəllikdirsə, onun yanıldığını, tövhidin təsirinin onun dediyi kimi olmadığını qeyd edəcək və öz qənaətimi bildirəcəyəm. Deməki, ilk fayda tövhid prinsipi ilə tanış olmaqdır. İkinci fayda isə özümüzün tövhid əhli olub- olmadığımızı bilməyimizdir, qəlbimizdə tövhid mayası ilə tanış olmaq üçün özümüzü çək-çevir edəcəyik. Tövhid əhli olduğumuzu haradan anlayacağıq? Bu imanın ruhumuza və varlığımızın dərinliyinə nüfuz və təsir etdiyini necə biləcəyik? Tövhidin ruhi-psixolji təsiri ilə tanışlıq əldə etdikdə, bu dərmanın varlığa qəti təsirləri ilə bağlı məlumat topladıqda, ondan düzgün istifadə edib-etmədiyimi və indiyə qədər onunla bağlı doğru məlumata sahib olub-olmadığımı da anlayacağıq. Amma əgər onun təsirlərini özümüzdə hiss etmiriksə, deməli, bizə ötürülən məlumatlar və verilən dərmanlar yanlış imiş. Yoxsa, düzgün olsaydı, öz təsirlərini göstərərdi. Mən burada tövhidin ruhi-psixoloji təsirləri haqda söhbət etmək istəsəm, bəhsimiz uzun çəkəcək, odur ki, bu mövuzunu elə bu gün bitirmək istəyirəm və sabahdan, inaşallah, nübuvvət bəhsinə başlayacağıq.

Tövhidin ruhi-psixoloji təsiri bir neçə cümlədə yekunlaşır: Tövhid əhlinin (müvəhhid insan) ruhunun tövhiddən aldığı təsirlərdən biri budur: Onun baxış bucağı və nəzər nöqtəsi genişlənəcək. Tövhid əhli dardüşüncəlilikdən, kor-koranəlikdən və yaxını görməkdən uzaqdır. O, bu meydanda uduzdunuğu, yaxud bu cəbhədə gerilədiyini və ziyana uğradınığını demir və bu qədər yaxın gördüyünü düşünmür. O, yaxşı bilir ki, tövhid əqidəsinin əhatəsi bəşəriyyət ömrünün uzunluğu qədərdir; bir an, bir dəqiqə, on il, iyirmi il, əlli il, yüz il deyil. Başqa sözlə, tövhid əhlinin nəzər nöqtəsi maddi məsələlər və dəyərsiz ehtiyaclarla

yekunlaşmır, maddi ehtiyaclarla yanaşı, onlar və yüzlərlə böyük və şərəfli ehrtiyacların olduğunu hiss edir, düşüncə və zehnini kiçik ehtiyacların təmininə həsr etmir. Amma zahiri ilahi və mənəvi, batini isə maddi meyarlarla əhatə olunan insanlar özlərini kiçik ehtiyaclar içində həbs edirlər. Tövhid əhli gələcəyi sonsuz və geniş görür. Ötən məclislərin birində qeyd etdiyim kimi, tövhid əhli dünyanın sona yetəcəyinə etiqadlı deyil, dünyanın sonunun axirətə birləşəcəyinə inanır. Axirətlə dünyanı bir yazının əvvəli və sonu kimi hesab edir. Onun nəzərində ölüm həyat yolunun divarı və bu yolun sonu deyil, əksinə geniş dünyaya doğru bir keçid və körpüdür. Budur tövhid əhlinin xüsusiyyətləri![1]

Tövhidə inanmayan şəxs nə qədər fədakar olsa da, dəyərli və humanist ideyalara maraq göstərsə də ölüm ayağında hər şey onun üçün sona yetir. Halbuki, tövhid əhli üçün ölüm daha geniş, daha maraqlı bir həyatın başlanğıcıdır. Bir materialist şəxs nə qədər fədakar olsa da, uzağı, özünü puç hesab etdiyi aləmə atmaqla razılaşacaq. Fədakar tövhid əhlindən isə pərvanə və şam tək özünü yandırmaqdan, öz şəxsi mənafeyini düşünməməkdən başqa bir şey gözlənilməz. Fədakar olmadığı təqdirdə də onun üçün materialist şəxsin puç hesab etdiyi aləmə düşmək daha asandır. Çünki oranı puç yox, yeni mühit, bu geniş insan diyarından daha da geniş bir diyar olaraq tanıyır.

Tövhidin tövhid əhlinə təsirlərindən biri də onda qorxunun kökünün qurumasıdır və bu, oldüqca mühüm məsələdir. Quranın bir neçə ayəsində – bugünkü məclisdə qardaşların diqqətinə çatdırlacaq bir-iki nümunədə möminlərə belə xitab olunur:

فَلاَ تَخَافُوهُمْ وَخَافُونِ

***“Siz onlardan qorxmayın, Məndən qorxun!”***[2] Başqalarından qorxmağın kökünü qəlblərinizdə qurudun, yalnız Allahdan qorxun. Allahdan qorxan insan heç kimdən qorxmaz. Tövhid əhli – Rəbbin qüdrətinə inanan şəxsin başqalarından qorxmaq hissi aradan qalxar. Düşünüb araşdırdıqda, çək-çevir etdikdə, dünya və axirəti şəxslərdən alan amilin qorxu olduğunu görürük. Yoxsulluq insanı infaqdan (Allah yolunda xərcləməkdən) saxlayır. Əzab-əziyyətlərə qatlaşmaqdan qorxan insan cinayət və faciələrə, zillət və xarlıqlara əl atır ki, bu dünyada iki gün rahat yaşasın. Axı, bu nə yaşayışdır? Hələ neçə gün həyat sürəcəyi

---

1. “Ali-İmran” surəsi, ayə 175.
2. “Ali-İmran” surəsi, ayə 175

bilinməyən, neçə il və hansı tarixə qədər yaşayacağı ilə bağlı rəsmi sənədi olmayan bu dəyərsiz həyatı əldən verməkdən qorxu hissi iləmi yaşamaq lazımdır? Belə etibarsız həyatı itirmək qorxusu insanın həyatlara son qoymasına, ictimai həyatı zəhərləməyə və yaxud məhv etməyə səbəb olur. Tamahkarlıq və bədbəxtliklərin kökü qorxudur. Siz tarixə baxsanız, görəcəksiniz ki, haqq tərəfdarları nə üçün azlıq təşkil etdilər. Onlar haqqı tanıdıqları halda, onun ardınca getmədilər, haqqı tanıyıb haqqa tabe olmayanlar böyük cinayətlərə əl atdılar. İnsan cinayətə əl atanların kimliyi haqda mütaliə edib araşdırma apardıqda, bütün bunların səbəblərinin qorxu olduğunu görür.

Bildiyiniz kimi, İslam cəmiyyəti əyriliyə, geriliyə və ətalətə döndükdən sonra, müsəlmanların həqiqi İslamı – Allahın onlara (ikinci nəslə)[1] təmənnasız bəxş etdiyi sovqatı qoruyub-saxlaya bilməməsinin səbəbinin nə olduğu məlumdur. Qorxudan başqa səbəb var idimi? Əmirəlmöminin Əlinin (ə) ətrafında olan, o Həzrətin təlimləri və kəlamlarından bəhrələnənlər içərisindən Müaviyəni tanımayan var idimi? Hicazda Əbu Süfyan oğlu Müaviyəni kim tanımırdı? Müaviyə oğlu Yezidi kim tanımırdı? Əbdülməlik Mərvanı kim tanımırdı? Əməvilər sülaləsini tanımayan, sınaqdan keçirməyən, onların pisliyi ilə bağlı tarixi həqiqətləri, Quran və Peyğəmbərin (s) buyruqlarını duymayan və anlamayan bir kəs var idimi? Hamı anlayır və tanıyırdı. Qorxudan başqa, hansısa bir səbəb var idimi? Onların təslim olmaları, həmkarlıq etmələri, muzdura çevrilmələri, şirindillik edib özlərini gözə söxmaları və artistlik etmələrinin səbəbi yalnız qorxu idi. Qorxu bütün təbəqəyə – aşağıdan tutmuş elit təbəqəyə, məşhur simalara və xalqın ümid bəslədiyi kəslərə qədər hakim kəsilmişdi.

Abdullah ibn Ömər[2] arsızlıq, zəiflik və haqsızlıq simvolu idi. Düzdür, Abdullah ibn Zübeyr də haqsız idi, amma onların hər ikisinin Əmirəlmöminin Əliyə (ə) qarşı müxalifətçiliklərini müqayisə etdikdə, Abdullah ibn Zübeyrin siması nisbətən məqbul görünür. Abdullah ibn

1. Birinci nəsil İslam üçün çoxlu fədakarlıq göstərmişdi.

2. İkinci xəlifənin oğlu Abdullah ibn Ömər azyaşlı olduğu üçün Peyğəmbərin (s) dövründə baş vermiş döyüşlərdə iştirak etməmişdi. Özünü zahidlər kimi göstərirdi. Əmirəlmöminin Əli (ə) ilə beyət etməyən saylı insanlardan biri idi. Həccac, Abdullah ibn Mərvan tərəfindən Zübeyr sülaləsini aradan qaldırmaq üçün Məkkəyə yollanıb oranı ixtiyarına keçirdikdə, zəlilcəsinə ona beyət etdi. Bir müddət sonra da, 73-cü h.q. ilində Həccacın əmri ilə qətlə yetirildi.

Ömər elə bir şəxs idi ki, Osman öldürüldükdən sonra, tamamilə ehtiyata əsaslanıb Əmirəlmöminin Əliyə (ə) beyət etmədi. Onun öz şəxsi nəzərinə görə, bütün müsəlmanlar bu məsələdə yekdil olmadırlar. Əgər sənin şəxsi qərəzin və qəlbində xəstəlik yox idisə, bu cümləni Əmirəlmöminin Əlidən (ə) eşitməmişdinsə, onun məzmununu Peyğəmbəri-Əkrəmdən (s) eşidib Qurani-Kərimdə oxumamışdınmı?:

أَيُّهَا اَلنَّاسُ لاَ تَسْتَوْحِشُوا فِي طَرِيقِ اَلْهُدَى لِقِلَّةِ أَهْلِهِ

*“Ey insanlar, hidayət yolunda onun tərəfdarlarının (hidayət yolunun yolçularının) azlığından qorxmayın.”*[1] O, bilmirdi ki, Allah yolunda, hidayət yolunda yolçuların sayının çoxluğu və ya azlığı insanı haqq yoldan azdırmamalı, haqq qərarından yayındırmamalıdır? Odur ki, yolun doğru olub-olmadığını araşdırmalı, İslamın həyati əhəmiyyətli bu prinsipini diqqət mərkəzində saxlamalı, başqalarının müxalif sözlərinə fikir verməməli, əksəriyyətin nadanlıq və şəxsi qərəzliyindən təsirlənməməli idi. O, bu prinsipə sahib olmadığı və əməl etmədiyi üçün Əmirəlmöminin Əlidən (ə) üz çevirdi, ehtiyat etməsi səbəbilə o Həzrətə beyət etmədi.

Əmirəlmöminin Əlinin (ə) şəhadətindən neçə il sonraya qədər Müaviyə hakimiyyətdə qaldı. Həmin Abdullah ibn Ömər Müaviyəni yaxından tanıyırdı. Əgər əvvəllər tanımırdısa, sonradan gözəl tanımışdı. Ondan sonra Yezid hakimiyyətə gəldi. Onun İslam tarixinin ən xəcalətli üç illik hakimiyyət dönəmi sona yetdikdən sonra Əbdülməlik ibn Mərvanın atası Mərvan ibn Həkəm onun canişini oldu. O da az müddət hakimiyyətdə oldu. Ondan sonra Əbdülməlik ibn Mərvan hakimiyyətə gəldi. Bütün bu müddət ərzində Abdullah ibn Ömər – tarixi hadisələrin göbəyində ola-ola, heç nədən, İslam cəmiyyətinin keçmişi və başına gələnlərdən, o dövrün tanınmış simalarından məlumatsız qala bilməzdi. Əməvilər sülaləsini yaxşı tanıyırdı. Eyni zamanda, Əməvilər sülaləsinin məşhur qəddar cəlladı Həccac ibn Yusif Səqəfi Abdulah ibn Zübeyrin hakim olduğu Məkkəni fəth etmək üçün Əbdülməlik ibn Mərvan tərəfindən məmur olunmuşdu. Abdullah ibn Zübeyr müqavimət göstərdi, Əbdülməlik ibn Mərvanın Şamdan ezam olunmuş ordusu ilə şiddətlə döyüşdü. Necə olursa olsun, Məkkəni ələ keçirməli idilər. Hamıdan qəddar olan Həccac ibn Yusif Məkkə ətrafındakı dağların qülləsindən mancanaqla Allah evini daşlayıb bir qrup insanı, sonra da Abdullah ibn

1. “Nəhcül-bəlağə”, Sübhi Saleh, xütbə 201.

Zübeyri qətlə yetirdi və onun ölmüş cəsədini dar ağacından asdı.

Həccac ibn Yusif Məkkənin fəthi ilə bağlı xilafətin mərkəzinə – Şama məktub yazıb məlumat verərkən, camaat dəstə-dəstə gəlib ona beyət edirdi; sanki Həccac ibn Yusifi tanımır, onun dinsiz, şəxsiyyətsiz və ləyaqətsiz olduğunu bilmirdi. Hamı onun alçaq və rəzil biri olduğunu, həmçinin ən alçaq və rəzil bir şəxs tərəfindən ezam olunduğunu çox yaxşı bilirdi. Buna rəğmən, fateh və qüdrət sahibi olduğu üçün ona beyət etməyən qılınca tuş gələcəkdi, odur ki, camaat qorxudan dəstə-dətə gəlib Həccac ibn Yusifə beyət edirdi. Abdullah ibn Ömər də minlərlə insandan biri kimi şəhərin kənarında xeymə quran Həccacın xeyməsinə yaxınlaşıb dedi: "Həccaca deyin ki, Abdullah ibn Ömər gəlib." Onu ehtiramla qarşılayacaqlarını, açıq və isti qucaqla qəbul edəcəklərini güman edirdi. Lakin unutmuşdu ki, etinasızlıq və görməməzlik qüdrətin təbiətidir. O, elə təsəvvür edirdi ki, haçansa Peyğəmbər (s) ailəsinə deyil, Müaviyəyə kömək etdiyi üçün ona təşəkkür edəcəklər. Unutmuşdu ki, onlar duzu yeyib duzqabını sındıranlardır.

Həccaca məlumat verdilər ki, Abdullah ibn Ömər gəlib. Həccac dedi ki, deyin, içəri daxil olsun. O, içəri daxil olduqda, Həccac yerindən tərpənmədi, ehtiram göstərmədi, ona baxıb salamlaşmaq üçün gözünü kağızdan belə çəkmədi. Dedi: "Ey əmir, əlini ver, beyət edim." Bunu kim dedi? Abdullah ibn Ömər. Kimə dedi: Həccaca. Həmin Abdullah Ömər ki, Əli ibn Əbu Talibə "Əlini ver, beyət edim." – ifadəsini dilinə gətirmədi. Dində ehtiyata əməl etdi. Həccaca isə deyir: "Ey əmir, əlini ver səninlə beyət edim." Həccac da onun cavabında dedi: "Əlimlə yazı yazıram, ayağımla beyət et." Ayağını uzatdı, o da onun ayağı ilə beyət etdi.

Bu dünyada iki gün artıq, özü də bu cür zəlilliklə yaşamaq, axirət üçün deyil, dünya üçün və bir neçə kiloqram haram qida yemək üçün, insanı Allahdan uzaqlaşdıran, şeytana isə yaxınlaşdıran bir həyat üçün heç Həccacın ayağı ilə beyətə dəyərmi? Görəsən, bunun mənşəyi nədir? Aydın məsələdir ki, qorxudan başqa bir şey deyil.

Odur ki, Əhli-beyt (ə) rəvayətlərində və Ramazan ayına məxsus dualarda insan ruhu ilə bağlı aydın mətləblər xüsusi vurğulanmış və diqqətdə saxlanılmışdır. Hamıya təkidlə tövsiyə edirəm ki, imamlardan nəql olunmuş mötəbər duaları oxuyun, onlara diqqət yetirin. İmam Səccadın (ə) dualarının birində belə deyilir:

اَللَّـهُم عَمِّرْنـي

*“İlahi! mənə ömür ver...”*[1]

Baxın, İmam Səccadın (ə) təlimləri bu qəbildən idi. Sizin üçün oxuyub tərcümə edəcəyim bu dua bir cümlədən ibarətdir. Əvvəla, bilmək lazımdır ki, dua oxumağa nə üçün bu qədər təkid olunmuşdur? Odur ki, raz-niyazla məşğul olanlar, dua etməyi sevənlər duanı yüngül saymasın, düşünmədən və anlamadan onun üzərindən ötüb keçməsinlər, diqqətlə oxusunlar. İkincisi, duaya qarşı çıxanlar da nəyə qarşı çıxdıqlarını bilsinlər. Duaya qarşı çıxmaq dedikdə, mütləq şəkildə duanı qəbul etməyənləri nəzərdə tuturam. Onlar bilsin və anlasınlar ki, dualar maarif və təlimlərlə zəngindir.

اَللَّـهُم عَمِّرْنـي مَا كَان عُمْري بِذْلَة في طـَاعَتِك

*“İlahi, ömrümü Sənə itaət yolunda sərf etdiyim vaxta qədər mənə ömür ver!”*

İlahi, mənə ömür və həyat ver, amma mütləq ömür və həyat istəmirəm, faydasız 100-120 ildən ibarət uzun ömür istəmirəm. Bir ömür istəyirəm ki, onu Sənə itaət və bəndəçilik yolunda sərf edim. Mənasız və faydasız ömür yox, Sənə bəndəçilik yolunda sərf olunan, işə yarıyan və əmələ səbəb olan uzun ömür istəyirəm:

اَللَّـهُم عَمِّرْنـي مَا كَان عُمْري بِذْلَة في طـَاعَتِك، فَاِذَاكَان عُمْري مَرْتَعاً لِلشَّيْطـَان فَاقْبِضْنـي اِلَيْك

*“İlahi, ömrümü Sənə itaət yolunda sərf etdiyim vaxta qədər mənə ömür ver və ömrüm şeytan otlağına çevrildiyi zaman canımı al!”*

Şeytan; yaxşı diqqət yetirin, “şeytan” sözü üçün qeyd etdiyimiz mənanı xatırlayın. İnsanı və insanlığı xətaya, günaha və fəsada çəkən bütün şər qüvvələrə şeytan deyilir. Haçan ömrün şeytan otlağına çevrildisə, şeytanlar və Allaha müxalif qüvvələr səni alətə, istifadə və təbliğat vasitəsinə çevirdisə, sənin nadanlığın, məğrurluğun və təkəbbürlülüyün pislərin uğuruna, yaxşıların isə uğursuzluğuna səbəb oldusa, özünü əmələn şeytanın köləsi və otlağına çevrildiyini gördünsə, Allahdan istə ki, canını alsın, səni Öz dərgahına aparsın, belə bir ömrü istəmə. Bu, bir duadır.

Sizi Allaha and verirəm, bu sözün dərin mənasına diqqət yetirib onu ruhu və qəlbi ilə duyan insanın həyatda vəziyyəti necə olar? Bu, bir duadır. Hidayət imamlarımız (ə) bizə öyrədir ki, ölüm Allah

---

1. “Səhifeyi-Səccadiyyə”, 20-ci dua, “Məkarimul-əxlaq” duası.

düşmənlərinin uğuruna səbəb olacaq həyatdan çox yaxşıdır.

Axı, ölümdən niyə qorxursan? Abdullah ibn Ömər! Ey bədbəxt! Axı niyə? Eybi yox, qoy səni öldürsünlər! Həccac sənə nə edəcəkdi? Bir ömür ki, o rəzil beyətdən sonra on dəqiqə, yaxud on il yaşayacağını, özü də necə yaşayacağını bilmirsənsə, qoy, Həccac sənin həyatına son qoysun! Abdullah ibn Abbasın hansı fəlakətlə öldüyünü görmədinmi? – Həm Əlini (ə), həm Həsəni (ə), həm də Hüseyni bir yerdə tək-tənha qoyan Abdullah ibn Abbası! Sən, ey Abdullah ibn Ömər, nə olardı, onun taleyindən ibrət alardın!

Ürəyi qanla dolu olan Abdullah ibn Abbas çox yaşamadı. Bir gün oğlu Əli ibn Abdullah ibn Abbası öz yanında oturtmuş və onunla dərdləşirdi. Bir dana kəsmişdilər, ürəyi xəstə idi, parça-parça olmuşdu. Onu oğluna göstərib dedi: "Bax, atanın ürəyi kəsdiyimiz bu dananın ürəyindən də yaralıdır. Sənin atan bu həyatdan təngə gəlib." Nə olmuşdu ki? Məkkə şəhəri Əmirəlmöminin Əlinin (ə) qəzəbindən və ona həvalə etdiyi məsuliyyət müqabilində onun sığınacaq və asayış yerinə çevrilmişdi – həmin Məkkə şəhəri Abdullah ibn Abbas üçün Cəhənnəmə dönmüşdü. Mən deyirəm ki, Abdullah ibn Abbasla Abdullah ibn Ömərin tövhid etiqadı düzgün deyildi. Əgər onlar müvəhhid olsaydılar, bu hala düşməzdilər:

موحد چه در پای ریزی زرش
چه شمشیر هندی نهی بر سرش
امید و هراسش نباشد ز کس
بر این است بنیاد توحید و بس

**"Müvəhhid – istər zinət içində olsun, istərsə də, əli qılınclının qılıncı altında, heç kimdən qorxmaz və heç kimə ümid bəsləməz. Tövhidin təməli də elə bundan ibarətdir."**[1]

Bəli, düz demişdir. Tövhidin insan ruhuna ən mühüm ruhi-psixoloji təsiri insanın Allah yolunda, varlıq hədəfini aşılayan mükəlləfiyyəti uğrunda bu yolun düşmənlərindən qorxmamasıdır. Demirəm, insan əsla əsəbləşməsin, həyəcanlanmasın. Xeyr! Əksinə, daim qorxu içində yaşamasın, onu Allah yolunu ötüb keçməkdən saxlayan qorxuya qapanmasın. Bu qorxu fəzilətlərə manedir, namərdlərin inkişafına, cinayətlər və faciələrin yaranmasına zəmin yaradır. Odur ki qorxunu özündən uzaqlaşdırsın.

1. Sədi, "Gülüstün".

Hər halda, bizim bu gün Qurani-Kərimdən seçdiyimiz bölmə iki hissədən ibarətdir: Biri "Ali-İmran" surəsindəndir. Qeyd etdiyimiz kimi, öncə onu tilavət edək, sonra isə "Rə`d" surəsindən bir neçə ayə tilavət edəcəyik. (Əlində Quran olanlar Quranı açıb dediyimiz hissəni tapsınlar. Quranı olmayanlar da diqqətlə qulaq assınlar.)

(Nə qədər ki, unutmamışam, diqqətinizə çatdırım ki, bu gecə Ramazan ayının 15-ci gecəsi İmam Həsən Müctəbanın (ə) mövlud gecəsidir. Biz bu yarıtəmirli məsciddə mövlud mərasimi təşkil edəcəyik, keçən il mövlud mərasimini elə bu məsciddə keçirmişdik, bu il də saat 19-dan 21-ə, yaxud 21.30-a qədər elə bu məsciddə keçirəcəyik. Bir sözlə, bu məsciddə gənclərəməxsus bir tədbir nəzərdə tutmuşuq; öncə Quran tilavət olunacaq, sonra şeir deyiləcək və qısa söhbət olunacaq, məclisimiz olduqca səmimi olacaq. İmkanı olan hər kəs iştirak edə bilər. Dünən elan etməyi unutdum, indi də qorxdum ki, yadımdan çıxar, odur ki, diqqətinizə çatdırdım.)

Amma "Ali-İmran" surəsinin 172-ci ayəsi:

الَّذِينَ اسْتَجَابُواْ لِلّهِ وَالرَّسُولِ

***"Allaha və Peyğəmbərə cavab verən şəxslər."***

Cavab vermək ifadəsində Allahın və Peyğəmbərin (s) dəvətini canla-başla qəbul etmək nəzərdə tutulur. Yalnız qəlbdə qəbul etmək və "bəli, sizin əmrinizi qəbul edirəm" demək kifayət etmir. Bu sözdən sonra Peyğəmbərin (s) arxasınca getmək də lazımdır. Hansı şəraitdə? Ən ağır şəraitdə! Peyğəmbərin (s) dəvətini qəbul edənlər ən ağır şəraitdə qəbul etmişdilər. O ağır şərait haçan idi? O zaman ki döyüş meydanında yaralanmışdılar:

مِن بَعْدِ مَآ أَصَابَهُمُ الْقَرْحُ

***"Onlar yaralandıqdan sonra."***

لِلَّذِينَ أَحْسَنُواْ مِنْهُمْ وَاتَّقَواْ أَجْرٌ عَظِيمٌ

***"Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən yaxşı işlər görüb təqvalı olanlarını böyük bir mükafat gözləyir!"***

Bu ayə "Ühüd" döyüşü haqqındadır. Bildiyiniz kimi, "Ühüd" döyüşündə bəziləri döyüşdən qaçdılar. Peyğəmbəri-Əkrəm (s) onları çağırsa da qorxularından o Həzrətin səsinə səs vermədilər. Bəziləri isə yaralı olduqları halda, o Həzrəti tək qoymadılar. Əmirəlmöminin Əli (ə) həmin gün yetmiş bir (az, ya çox) yerdən yaralanmışdı. Digər səhabələr

də var idi ki, çox yerdən yaralanmışdır. Bəziləri Peyğəmbəri-Əkrəmin (s) səsinə səs verdi, bəziləri isə qulaq asmayıb qaçdılar. Bu ayə döyüş meydanından qaçmayıb o Həzrətin yanında qalanların mükafatını bəyan edir.

Bu ayənin ümumi yönlərinə (dərslərinə) diqqət yetirin, diqqətimizi yalnız "Ühüd" döyüşünə, İslamın ilkin çağlarında baş vermiş, bu ayənin nazil olmasına səbəb olmuş hadisələrə yönləndirməyək, Quran ideyalarını müəyyən bir zaman və hadisəyə həsr etməyək. Bizə önəmli olan ayənin ideyası və bizə aşılamaq istədiyi məqamdır.

Bu, Quranla bağlı mühüm bir mətləbdir və ola bilsin ki, bəzi münasibətlərdə bu məsələyə toxunmuşam. Bəzən bir hadisə ilə bağlı İslamın ümumi prinsipi bir cümlədə bəyan edilir. Bunu diqqətdən qaçırmayın. Misal üçün, Həzrət Nuhun (ə) əhvalatında o Həzrət gəmiyə minərkən əhli-əyalını, möminləri, tərəfdarlarını və cəbhə yoldaşlarını da mindirir, digərləri isə ilahi qəzəbə tuş gəlirlər, ölümcül su dalğaları içində qərq olurlar. Həzrət Nuha (ə) iman gətirməyən öz oğlu da gəmiyə minmədi. Bu, adi bir hekayədir, amma incə mətləblər və işarələrlə doludur.

Həzrət Nuh (ə) ağsaqqal, saçları ağappaq və yaşlı, sevimli oğlu isə gəncdir. Oğluna deyir ki, gəl, gəmiyə min, yoxsa qərq olacaqsan. O isə deyir ki, gəlmirəm, minmirəm, qərq də olmayacağam, çünki dağlara çıxacağam, sizə də ehtiyacım yoxdur. Bu söhbət əsnasında su dalğaları onların arasında ayrılıq salır, artıq, ata öz oğlunu görmür və oğlu suda boğulur. Hekayə bununla sona yetir. Həzrət Nuh (ə) bu hadisədə oğlunu əldən verdiyi üçün bir insan olaraq narahat olur və narahatlığını aləmlərin Rəbbinə açıqlayır və deyir: "İlahi, Sən mənə vəd etmişdin ki, mənim ailəmə nicat verəcəksən, oğlum da ailəmin bir üzvü idi, kaş, o da nicat tapaydı!" Aləmlərin Rəbbindən belə xitab gəldi:

إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ

***"O sənin ailəndən deyildir. Çünki o, nalayiq bir iş görmüşdür."***[1]

Bu ayədə, bu əhvalatda, təkcə عَمَلٌ غَيْرُ صَالِحٍ (***nalayiq bir iş)*** – ifadəsində istinad nöqtələri nə qədərdir! Yaxud لَيْسَ مِنْ أَهْلِكَ (***o, sənin ailəndən deyildir)*** – ifadəsi bizə İslamın ümumi bir prinsipini aşılayır, buyurur ki, fərqli etiqadın daşıyıcısı olan iki qardaş bir-birinə yad, eyni etiqadın sahibi olan iki yad isə bir-birinə qardaşdır. Ata ilə oğul bir-birinə

1. "Hud" surəsi, ayə 46.

zidd etiqadın daşıyıcısıdırsa – biri mömin, digəri isə kafirdirsə, biri Allah cəbhəsində, digəri isə şeytanın cəbhəsindədirsə, onlar bir-birinə yaxın və bir ailədən ola bilməzlər. Nəsəbi (qan qohumluğu) və səbəbi (evlənmək vasitəsilə olan) qohumluq İslam baxımından ikincidərəcəli, ideoloji qohumluq (yaxınlıq) isə birincidərəcəlidir. Bu, islami bir prinsipdir.

İnsan rəvayətlərə də nəzər saldıqda, bu prinsipə aid bir çox şahidlər və arqumentlər əldə edir. Mən İmamdan (ə) nəql olunan belə bir rəvayətə rast gəlmişəm:

اَلْمُؤْمِنُ أَخُو اَلْمُؤْمِنِ لِأَبِيهِ وَ أُمِّهِ

*"Mömin möminin atabir, anabir(doğma) qardaşıdır."*[1]

Ola bilsin ki, sizinlə doğma qardaşınızın arasındakı fasilə Şərqlə Qərb qədər olsun, lakin dünyanın o tayında yaşayan bir mömin sizin doğmanız, sizinlə həmfikir və eyni cəbhədə olan imandaşınızdır. Bu, islami bir prinsipdir. Quran məlumatları arasında bu incəliklərə diqqət yetirin, görün, hansı məqsədi izləyir, hansı prinsipi, hansı ideyanı və dəfələrlə təkrarlanan hansı tarixi həqiqəti aşılamaq istəyir.

İndi isə bu ayəyə diqqət yetirin:

الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ

***"(Böyük mükafatlara layiq görülən) o kəslər ki, insanlar onlara: "Camaat sizə qarşı əlbir olmuşdur (və sizi aradan götümək istəyir), onlardan qorxun!" – dedilər."***

Bunu xeyirxah insanlar öncəki ayədə onların mükafatından söz açılan möminlərə dedilər.. Xeyirxah insanların sözünün müqabilində onların cavabı nə oldu?

فَزَادَهُمْ إِيمَاناً

***"(Bu söz) onların imanını daha da artırdı."***

Çox maraqlıdır, düşmən hiylələri müqabilində möminin imanı daha da artır. Birinci mərhələdə imanları artdı, sonra isə nə dedilər?

وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ

***"Dedilər: "Allah bizə yetər. O nə gözəl himayəçidir!""*** O, o qədər gözəl vəkildir ki, insan öz işini Ona həvalə edə bilər.

حَسْبُنَا اللّهُ – ***"Allah bizə yetər."*** Bu cümlənin mənası nədir? Bunun neçə mənası var və hamısı da doğrudur.

–Allah bizə yetər və bizə Öz yardımı ilə yardım edir.

–Allah bizə yetər və haqqa doğru hərəkət istiqamətimizdə təbiətin

---

1. "Əl-kafi", "İman və küfr" başlığı, "Möminlərin qardaşlığı" bölməsi, hədis 2.

qüvvələrini səfərbər etmişdir və edir.

–Allah bizə yetər, hətta dünya bizdən üz çevirsə də Onun bizdən razı qalması bizə kifayət edər.

***"Allah bizə yetər."*** – ifadəsi ilə bağlı bütün bu mənalar doğrudur.

فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ

***"Onlara: "Onlardan (düşmənlərdən) qorxun!" – deyildikdə, (bu söz) onların imanını daha da artırdı və dedilər: "Allah bizə yetər. O nə gözəl himayəçidir!""***

فَانقَلَبُواْ بِنِعْمَةٍ مِّنَ اللّهِ وَفَضْلٍ لَّمْ يَمْسَسْهُمْ سُوءٌ

***"Sonra da Allah tərəfindən olan nemət və lütf sayəsində özlərinə heç bir pislik toxunmadan geri döndülər."***

وَاتَّبَعُواْ رِضْوَانَ اللّهِ

***"Allahın razılığını qazanmış oldular."***

وَاللّهُ ذُو فَضْلٍ عَظِيمٍ

***"Həqiqətən, Allah böyük lütf sahibidir."***

Əvvəla, bu insanlar Allahın nemətinə şamil oldular və onlara heç bir zərər toxunmadı, odur ki, xoşhal oldular, sevindilər. Onların sevinci necə oldu? Quran bu məsələyə toxunmur. Amma fərqi yoxdur, hər bir halda sevindilər; istər döyüş meydanında şəhid olsunlar, istərsə də qalib halda sağ-salamat öz evlərinə qayıtsınlar – hər iki halda sevinc içində idilər, əsla narahat olmadılar. Çünki döyüş meydanının yarası isti ailə qucağında, qələbə və zəfər sevinci içində ikən daha da tez sağalır. Əgər döyüş meydanında torpaq üstə düşüb şəhid olsalar da Allahın tükənməz nemətinə, sonsuz lütfünə, bütün ağrı-acılardan, pisliklərdən uzaq bir rahatlığa doğru döndülər.

Bu ayəni isə, heç vaxt unutmayın, yadınızda saxlayın, çox oxuyun, öyrənin:

إِنَّمَا ذَلِكُمُ الشَّيْطَانُ يُخَوِّفُ أَوْلِيَاءهُ

***"Həqiqətən, o Şeytan öz dostlarını qorxudub çəkindirir."***

Öz dostlarını qorxudan və "Sənə hiylə qurublar, tələyə salmaq istəyirlər, düşmənlər əlbir olub, münafiqlərlə kafirlər birləşib, filan münafiq libasının altında qılınc gizlədib səni vurmaq, öldürmək istəyir və s." deyən şeytandır. Səni Allah düşmənindən qorxudan şeytandır. Heç səni şeytan qorxuda bilərmi? Heç qorxarsanmı? Sənin kimliyindən asılıdır. O, öz dostlarını qorxuda bilir. Əgər sən də onun dostusansa, qorxacaqsan, əks-təqdirdə, qorxmayacaqsan. Baxın, bu ayə qısa və

lakonik olmasına rəğmən, mənası dolğundur. (Vaxt keçdiyindən, tez-tez tərcümə etmək istəyirəm.)

إِنَّمَا ذَلِكُمُ الشَّيْطَانُ يُخَوِّفُ أَوْلِيَاءهُ

***“Həqiqətən, o Şeytan öz dostlarını qorxudub çəkindirir.”***

فَلاَ تَخَافُوهُمْ

***“Amma siz onlardan qorxmayın!”***

وَخَافُونِ

***“Məndən qorxun!”*** Mənim əmrlərimi icra edin. Mənim əzabımdan qorxun.

إِن كُنتُم مُّؤْمِنِينَ

***“Əgər siz möminsinizsə!”***

وَلاَ يَحْزُنكَ الَّذِينَ يُسَارِعُونَ فِي الْكُفْرِ

***“(Ey Peyğəmbər!) Küfrə can atanlar səni kədərləndirməsin!”***

إِنَّهُمْ لَن يَضُرُّواْ اللّهَ شَيْئاً

***“Əlbəttə, onlar Allaha heç bir zərər yetirə bilməzlər.”***

يُرِيدُ اللّهُ أَلاَّ يَجْعَلَ لَهُمْ حَظًّا فِي الآخِرَةِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ

***“Allah istəyir ki, axirətdə onlara heç bir pay verməsin. Onları böyük bir əzab gözləyir.”***

Sonrakı ayələr, artıq, mövzumuza aid deyil. Allahdan qorxu və şeytan məsələsinə elə qeyd etdiyimiz bu neçə ayədə toxunulur.

## Xülasə

### Çərşənbə axşamı – Ramazan ayının 14-cü günü

# TÖVHİDİN PSİXOLOJİ TƏSİRLƏRİ

Tövhid cəmiyyəti – ictimai təbəqələrsiz, Allaha və Onun qanunlarına müti cəmiyyət qurmaq tövhidin ən böyük missiyasıdır. Buna rəğmən, insanın ruhu və psixologiyasında bu etiqadın təsirləri dinin bu təməl prinsipinin maraqlı tərəfidir. Hətta demək olar ki, tövhid etiqadının quruculuğu iki istiqamətdədir: Fərdin və cəmiyyətin islahı. Tövhidə inanan insan bu etiqadın təsirində ikən bəzi mühüm xüsusiyyətlərə sahib olur: Sonsuz ümidvarlıq, yorulmaz çalışqanlıq, qorxu və tamahdan uzaqlıq, geniş nəzər sahibi və doğru istiqamət onun bir qismini təşkil edir. Bəzən, Qurani-Kərimdə iman məsələsi, eləcə də, tövhid əhlinin həyat və fəaliyyətindən söz açıldıqda, bu xüsusiyyətlərin çoxuna aydın şəkildə işarələr edilmişdir. İndi isə həmin xüsusiyyətlərdən birinə nəzər salaq:

الَّذِينَ اسْتَجَابُواْ لِلّهِ وَالرَّسُولِ مِن بَعْدِ مَآ أَصَابَهُمُ الْقَرْحُ – ***Yaralandıqdan sonra Allahın və Peyğəmbərin dəvətini qəbul etmiş şəxslərdən***

لِلَّذِينَ أَحْسَنُواْ مِنْهُمْ وَاتَّقَواْ أَجْرٌ عَظِيمٌ. – ***yaxşı işlər görüb təqvalı olanlarını böyük bir mükafat gözləyir!***

الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ – ***O kəslər ki, insanlar onlara: “Camaat sizə qarşı əlbir olmuşdur (və sizi aradan götümək istəyir), onlardan qorxun!” – dedikdə,***

فَزَادَهُمْ إِيمَاناً – ***(bu söz) onların imanını daha da artırdı.***

وَقَالُواْ حَسْبُنَا اللّهُ وَنِعْمَ الْوَكِيلُ – ***Və dedilər: “Allah bizə yetər. O nə gözəl himayəçidir!””***

فَانقَلَبُواْ بِنِعْمَةٍ مِّنَ اللّهِ وَفَضْلٍ لَّمْ يَمْسَسْهُمْ سُوءٌ – ***(Bu ruhiyyə və) Allah tərəfindən olan nemət və lütf sayəsində özlərinə heç bir pislik (nigarançılıq)***

***toxunmadan geri döndülər."***

وَاتَّبَعُواْ رِضْوَانَ اللّهِ – ***"Və Allahın razılığını qazanmış oldular."***

وَاللّهُ ذُو فَضْلٍ عَظِيمٍ – ***"Həqiqətən, Allah böyük lütf sahibidir."***

إِنَّمَا ذَلِكُمُ الشَّيْطَانُ يُخَوِّفُ أَوْلِيَاءهُ – ***"Həqiqətən, o Şeytan öz dostlarını qorxudub çəkindirir."***

فَلاَ تَخَافُوهُمْ – ***"Amma siz onlardan qorxmayın (onların hədə-qorxularına etina etməyin)!"***

وَخَافُونِ – ***"Məndən qorxun (Mənim əmrlərimə təslim olun)!"***

إِن كُنتُم مُّؤْمِنِينَ – ***"Əgər siz möminsinizsə!"***

("Ali-İmran" surəsi, ayə 172-175.)

## ON DÖRDÜNCÜ MƏCLİS

## NÜBUVVƏTİN FƏLSƏFƏSİ

Çərşənbə – 1974/10/02
Ramazan ayının 15-i.

بسم الله الرحمن الرحيم

يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ الْمَلِكِ الْقُدُّوسِ الْعَزِيزِ الْحَكِيمِ. هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ

***"Göylərdə və yerdə nə varsa, mülkün sahibi (və hökmdar), müqəddəs, yenilməz qüdrət və hikmət sahibi olan Allaha zikr deyir! Savadsız cəmiyyətə özlərindən peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) onlara Onun (Allahın) ayələrini oxuyur, onları saflaşdırır, onlara kitabı və hikməti öyrədir. Halbuki, onlar əvvəllər haqq yoldan açıq-aşkar azğınlıqda idilər."***

"Cümə" surəsi, ayə 2-3.

Biz nübuvvətlə bağlı Qurani-Kərimin bir neçə mübarək ayəsinə istinadən müxtəlif məsələlər haqqında danışmağı nəzərdə tutmuşuq. Əlbəttə, qardaşlar bilirlər ki, əgər ona prinsip adı verə biləriksə, nübuvvət bütün dinlərin ən başlıca prinsiplərindən biridir. Hətta ondan da üstündür. "Əgər ona prinsip adı verə biləriksə" – ifadəsində məqsədim bu deyil ki, onun prinsip olduğunu kimsə inkar edir, xeyr, əksinə prinsipdən də üstündür. Ümumiyyətlə, dinə nübuvvətsiz etiqad mənasızdır. Allah tərəfindən peyğəmbərin (xəbər gətirən bir şəxsin) vasitəsilə göndərilən hər bir ayin, məktəb və məsləkə "din" deyilir. Demək, peyğəmbər və onun Allah tərəfindən gəlişi dinin fundamental bir əsası, möhkəm dayağıdır. Beləliklə, burada dinin ən mühüm bir təməli olan nübuvvət haqqında bəhs etməyimiz zəruridir.

Nübuvvətlə bağlı geniş yayılmış bir sıra silsilə bəhslər vardır. Siz bu mövzu ilə əlaqədar qələmə alınmış hər bir kitaba müraciət etsəniz, həmin bəhsləri orada görəcəksiniz. Biz bu silsilə bəhslərimizdə kitablarda göstərilmiş həmin bəhslərdən yalnız birini xüsusi metodla qeyd edəcəyik; o da bizim bugünkü bəhsimizdən ibarətdir və tilavətimizin mövzusunu təşkil edir. Nübuvvətlə bağlı bütün teoloji kitablarda bəhs olunan digər mövzulara gəldikdə isə, nəzərimizcə, öz yerində doğru-düzgün və lazımi mövzular olsa da bizim də belə bir şəraitdə və qısa zaman çərçivəsində həmin mövzular haqqında danışmağmıza ehtiyac yoxdur. Onlar da zəruri mövzulardır, lakin onların içindən hansı daha zəruri və həyati əhəmiyyətlidirsə, öncə onu nəzərdən keçirib araşdırmalı, sonra isə növbəti məsələlərə yer ayırmalıyıq.

Misal üçün, nübuvvət bəhsində peyğəmbərin ilahi və insani elmlərə nə dərəcədə yiyələnməsi haqda xüsusi olaraq bəhs olunur. Görəsən, bizim Peyğəmbərimiz (s) natiqi-Quran olduğu halda, yazıb oxumağı da

bacarırdımı?

وَمَا كُنتَ تَتْلُو مِن قَبْلِهِ مِن كِتَابٍ وَلَا تَخُطُّهُ بِيَمِينِكَ إِذًا لَّارْتَابَ الْمُبْطِلُونَ

***“(Ey Peyğəmbər!) Sən bundan əvvəl nə bir kitab oxumusan, nə də onu əlinlə yazmısan. Əgər belə olsaydı, onda batilə uyanlar şəkk-şübhəyə düşərdilər.”***[1]

Peyğəmbər (s) nə yazır, nə də oxuyurdu. Görəsən, bacarmadığı üçün yazıb oxumurdu? Müasir ifadə ilə desək, tamamilə savadsız idimi? Yoxsa, yazıb oxumağı bacarırdı, amma nə yazır, nə də oxuyurdu? Bu da ayrıca bir bəhsdir. Yaxud da, İslam Peyğəmbəri (s) peyğəmbərliyə çatmamışdan öncə, hansı din və ayinə xidmət edir, etiqad bəsləyirdi? Bu da bir bəhsdir. Amma bu və ondan öncəki bəhslər bizə nə qədər lazımdır? Cavab mənfidir.

Əlbəttə, insan din və nübuvvətlə bağlı hər bir məsələni bilərsə, sonda Peyğəmbərin (s) də peyğəmbərliyindən öncə hansı dinə xidmət etdiyini öyrənərsə, heç bir maneəsi yoxdur. Biz isə hələ küçənin başındayıq. Bizim cəmiyyətimiz hələ nübuvvət və besətin mənası, onun yolu, hədəfi və şüarı haqqında məlumatsızdır, onların hələ bu vəziyyətdə olduqlarından xəbərsizdir. Müsəlman şəxs Peyğəmbərin (s) besətinin hədəfini, missiyasını bilmir. Əgər besətin hədəfi haqqında məlumatı olsaydı, onun ardınca gedərdi. Biz nübuvvətlə bağlı hələ müqəddimə məlumatlar, ilkin və önəmli məsələlərdə ilişib qalmışıqsa, cüzi, dördüncü və beşinci dərəcəli məsələləri araşdırmağımızın nə mənası var? Odur ki, sxolastların uyğun kitablarda nübuvvətlə bağlı bəhs etdiyi məsələlərdən vaz keçirik. Maraqlananlar onların qələmə aldığı kitablara müraciət edə bilərlər. Əlbəttə, həmin məsələlərin araşdırılmasına ehtiyac olsa da, bizim bu gün bəhs edəcəyimiz məsələlərlə müqayisədə növbəti sıralarda yer tutur, ona görə də onlar haqqında bəhs etməyəcəyik.

Burada bəhs edəcəyimiz ilk məsələ nübuvvətin fəlsəfəsidir. Nə üçün peyğəmbər olmalıdır? Nə üçün insanın hidayəti üçün Allah tərəfindən kimsə göndərilməlidir? Məgər insan özü (peyğəmbərsiz) hidayət ola bilməzmi? Məgər bəşər elmi və şüuru kifayət etmirmi? Peyğəmbər nə üçündür? Bu məsələləri mütləq bilməliyik. Əgər nübuvvətin fəlsəfəsini bilməsək, digər uyğun məsələləri də bir həddə anlaya bilməyəcəyik. Elə isə öncə nübuvvətin fəlsəfəsini öyrənməliyik. Bu, bizim əlinizdəki vərəqdə qeyd etdiyimiz birinci bəhsimizdir. Bu məsələni qısa və lakonik

---

1. “Ənkəbut” surəsi, ayə 48.

qeyd etmişik və elə bu gün ona aid ayələri də tilavət edəcəyik.

Nübuvvətin fəlsəfəsi haqda çox danışmayacağıq; bir kəlmədir, o da budur ki, insanın hissləri, instinktləri və əqli doğru yolu tanımaqda acizdir. Bəzi varlıqlar öz hissləri ilə idarə olunurlar, bəzi heyvanları buna misal göstərə bilərik; belə ki, onlar yalnız öz zahiri hisslərindən kömək alırlar, adətən, heyvanların çoxu belədir. Bal arısının instinkti ona deyir ki, ətirli gül üzərinə qonmalı, onun ətri və şirəsini sormalı, yuvası və pətəyinə doğru hərəkət etməli, yuvaya xüsusi nizam-intizamla girib-çıxmalıdır; onlar şahzadə arı, köməkçilər və gözətçilərdən ibarət xas arı mədəniyyətinə sahibdirlər. Əgər arıların bir yerə toplaşıb, arı rəhbərlərindən ibarət böyük bir konfrans təşkil etdiyini, yuvalarını necə tikəcəkləri haqda müzakirə apardıqlarını, biri səkkizbucaqclı, başqası dördbucaqlı, bir başqası isə altıbucaqlı tikilidən söz açdığını və sonda altıbucaqlı tikilini münsib gördüklərini təsəvvür edirsinizsə, diqqətinizə çatdırmalıyıq ki, belə deyil, yanlış təəvvür etmisiniz.

وَأَوْحَى رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ. ثُمَّ كُلِي مِن كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ

***“Rəbbin bal arısına belə vəhy etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik (pətəklər sal); sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla hərəkət et!”***[1]

Bu, Allahın bal arısına vəhyidir. Allahın bal arısına vəhyinin mənası bu deyil ki, vəhy mələyi Cəbrail (ə) ona nazil olur. Bal arısının anatomik quruluşu və instiktiv hissləri belədir, onu çəkən bir hiss var, o, bu işdən başqa bir iş görə bilməz, işlərində təbii və instinktiv olaraq məcburdur və mütləq bu şəkildə ev tikməli, gül üzərinə qonub onun şirəsini sormalıdır. Bunun əksini etdikdə – şirəni ətirli gül-çiçəklərdən deyil, pisqoxulu bitkilərdən gətirdikdə, elə oradaca öldürülür. Bunları tələb edən onların fitrəti və instiktiv hissləridir.

İnstinkt bal arısı üçün kifayətdir. Moris Meterlink[2] bal arısı və qarışqlar ailəsi haqqında illərlə düşünmüş və tədqiqatlar aparmışdır. Sizin bu qədər gileyləndiyiniz bu qarışqaların özünəuyğun və

1. “Nəhl” surəsi, ayə 68-69.
2. Moris Meterlink (1862-1949) – Belçika şairi, dramaturqu və filosofu, məşhur "Mavi quş" fəlsəfi pyes-pritçanın müəllifidir. Onun bu əsəri Nobel mükafatına layiq görülmüşdür. O, bal arısı və qarışqanın həyatı haqqında məqalələr yazmışdır.

özünəməxsus formada yaşayış tərzi var. Onlar sizin evlərinizin içində – qəsbi yerdə yuva qurur və öz işləri ilə məşğul olur, siz isə buna görə narazılıq edirsiniz. Maraqlıdır ki, müasir qarışqa və yaxud bal arısının yuva və pətəklərini Həzrət Nuhun (ə) dövründəki və yaxud ondan on əsr öncəki yuva və pətəkləri ilə (Məşhədin gözəl ab-havası olan yaylaqlarından birində onları yanaşı qoyub) müqayisə etsəniz (və yaxud edə bilsəniz), onların arasında iynə ucu qədər fərq olmadığına şahid olacaqsınız; bal arısı, eləcə də, digər həşəratların işlərində heç bir təkamül, inkişaf və tərəqqi yoxdur. Onu işə sövq edən, ona hərəkət verən və maneələri göstərən yalnız instinktdir, yaradılış təbiəti və fitrətinin ilhamıdır.

İnsan isə instinktdən çox az bəhrələnir. Onun dünyaya göz açdığı günkü hökmü (durumu) eynilə heyvanlar kimidir; instinkt, fitrət və təbiətinin istiqaməti ilə qida mənbəyini anasının sinəsində tapır və süd vəzisini sormağa başlayır. Halbuki, onu heç kimdən öyrənməmiş, kimdənsə eşitməmiş, hardasa görməmişdi. Bu, onun instinktidir. İnsan uşaqlıq mərhələsindən çıxdıqca, onun instinkt silahı tədricən zəifləyir və təsirdən düşür, onun yerini "ağıl" və "şüur" adlı daha güclü, daha təsirli qüvvə doldurur və beləcə, insan ağıllanır, artıq o zaman instink qüvvəsi işləmir, ona filan saatda dükanı açıb-bağlamağı, müştəriyə necə cavab verməyi, necə dərs oxumağı və tədris etməyi deyən instinkt qüvvəsi deyil, bu təlimlər ağıl və şüurun bəhrəsidir. Ağıl və şüur vasitəsilə öyrənir və həyat yolunu tapır.

Görəsən, insanın bu şüur və ağlı onu hidayət etmək və xoşbəxtlik mənzilinə aparmaq üçün kifayətdirmi? Bəşər əqli onun doğru yola yönəlməsi üçün bəs edirmi? Təəssübkeşlik və qərəzçilikdən uzaq, azacıq fikirləşsə və ağlını işlətsə, "Xeyr!" – deyə cavab verəcək. Eynilə özünün səlahiyyətsizliyinə hökm verən məhkəmə tək "Mənim mühakimə yürütməyə səlahiyyətim və ləyaqətim yoxdur!" – deyə çıxış edəcək. Qərəzsiz insan ağlı hökm verir ki, mənim müstəqil şəkildə insanlığı hidayət etməyə səlahiyyətim yoxdur. Dəlil-sübut istəyirsinizmi? Buna iki dəlil-sübutumuz var: Biri odur ki, bəşərin ehtiyacları sonsuz olduğu halda, əqli sonsuz deyildir, məhduddur. Hansı ağıl bütün ehtiyacları anlayıb onları təmin edə və onun təminatı istiqamətində qanun çıxara bilər? İnsan ağlı bu işdə zəif və gücsüzdür, bütün probemləri və onun münasib həllini tanıyıb kəşf etməkdə acizdir.

Növbəti dəlil-sübut isə budur: Elmi-tarixi həqiqətlərə baxın, kimin ağlı bəşərin idarəsində bacarıqlıdır? Aristotel, Platon və Sokrat kimilərin ağılları belə bunu bacarmadı. Mütəfəkkir Platon oturub düşündükdən, məsləhətləşdikdən və mütaliə edib araşdırdıqdan sonra, vətəndaş cəmiyyətilə bağlı yalnız öz dərdinə dəyən, öz beyni və daxili yaddaşında qalan əsasnamə tənzimləyir, amma dünyada bir an belə icra olunmur. Siz bu gün onun əsasnaməsinə baxsanız, əsla qəbul etməyəcək və bunu məsxərə hesab edəcəksiniz.

Əqli-fəlsəfi məktəblərə baxsanız, bir-birinin müqabilində dayandığının şahidi olacaqsınız. Baxın, insanlıq ağıldan üstün və dərin bir mənbəyə birləşməsə, hidayət və səadət yoluna çata bilməz. Nübuvvətin mənası budur: İnsan üstün bir qüvvə, ağıl, hiss və instinktdən güclü bir hidayət vasitəsinə möhtacdır. Bu hidayət vasitəsinin işi nədir? Sizin hissinizlə rəqabət aparmaqdırmı? Sizin instinktinizə qarşı çıxmaqdırmı? Sizin başınızı daşa vurmaqdırmı? Əsla! O, sizin ağlınızı istiqamətləndirmək, çiçəkləndirmək və dəfn olunmuş ağlınızı torpaq altından çıxarmaq üçün gəlir.

Bəşəriyyətin rəhbəri, müəllimi və görkəmlisi Əmirəlmömininin Əli (ə) "Nəhcül-bəlağə"də buyurur: "Allah peyğəmbərlər göndərdi ki, insanlara fitrətin əhd-peymanına sadiq qalmalarını və unudulmuş nemətləri xatırlatsınlar.

وَ يُثِيرُوا لَهُمْ دَفَائِنَ الْعُقُولِ

*"(Allah peyğəmbərləri göndərdi ki,) insan varlığındakı ağıl xəzinələrini (gizlənmiş ağılları) üzə çıxararaq işə salmalarını xatırlatsınlar."*[1]

Peyğəmbərlər gəliblər ki, insanların fironlar, nəmdurlar, qüdrət və sərvət sahibləri tərəfindən dəfn olunmuş ağıllarını, şüur və düşüncələrini çiçəkləndirsin, onları ayıltsınlar. Firon insanın ağıllı olmasını, düşünməsini istəmirdi. Çünki düşünən insan onun varlığını batil biləcəkdi. (Bunu növbəti bəhslərimizdə izah edəcəyik, inşallah! Firon camaatın ağıl qüvvəsini işə salmasını istəmirdi, odur ki, onların ağlını dəfn edirdi. "Necə dəfn edirdi?" – sualını gələcək söhbətlərimizdə cavablandıracağıq, inşallah!) Peyğəmbərlər gəliblər ki, bu gizli xəzinəni üzə çıxarıb saflaşdırsınlar və insanların ixtiyarında qoysunlar.

Demək, vəhy qüvvəsinə sahib olan peyğəmbərlər ağılla döyüşmürlər.

---

1."Nəhcül-bəlağə", xütbə 1.

Dinin ağılla ziddiyyət təşkil etdiyini güman edənlər ya dinlə tanış deyil, ya da özləri ağılsızdırlar. Ağlı sınaqdan və təcrübə süzgəcindən keçirən şəxs dinin bəşər elmi və əqlinə əsla zidd olmadığını çox yaxşı bilir. Dinin dediklərini sağlam ağıllar anlayır və bəyənir. Dinin müdafiəsi adı ilə danışan nadanlar bəzən deyirlər ki, dində dəlil-sübut axtarmayın, dini məsələlərin isbatı üçün fəlsəfə tələb etməyin. Onlar elə düşünürlər ki, bu söz (fəlsəfə ardınca olmaq, dəlil-sübuta istinad etmək) dini qiymətdən salır. Onlar yanıldıqlarını anlamalıdırlar. Düzgün din kamil ağılla təqdim edildikə, əsla ziddiyyət təşkil etməyəcək. Bu gün böyük ağıl sahibləri dinin tövhid, nübuvvət, namaz, oruc, zəkat və digər məsələlərini başa düşürlər.

İnsan ağlı və elmi təcrübəsi alkoqollu içkilərin zərərlərini, cismə, sinir sisteminə, ruhiyyəyə və cəmiyyətin ümumi durumuna əks təsirlərini anlayırsa, nə üçün mən də cürət edib Quran ayəsini qüdrətlə oxumamalıyam:

إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنصَابُ وَالأَزْلاَمُ رِجْسٌ مِّنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ

***“Şərab da, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan çirkin bir şeydir. Bunlardan çəkinin.”***[1]

Nə üçün Qurana müraciət etməməliyəm? Nə üçün bəşər elminin anladığı məsələdə Qurana istinad etməməliyəm? Nə üçün onların şeytan əməllərindən olduğunu açıqlamamalıyam? Nə üçün deməməliyəm ki, sizə yol göstərənlər və şərab içənin şərabxorluğundan bəhrələnənlər şeytanlardır?

Eşitmisiniz ki, İmam Səccad (ə) buyurmuşdur:

إِنَّ دِينَ اَللَّهِ عَزَّ وَ جَلَّ لاَ يُصَابُ بِالْعُقُولِ اَلنَّاقِصَةِ

***“Həqiqətən, Allah-Taalanın dinini naqis əqllərlə dərk etmək olmur.”***[2]

Necə dərk etmək olmur? Yəni, (misal üçün,) zöhr namazının dörd rükət olduğunu sübut edən bir rəvayət olmazsa, onun neçə rükət olduğunu ağılla başa düşmək olmaz. Bu, həqiqətən də, düzgün bir sözdür. Əgər Quranın bu ayəsi: أَقِمِ الصَّلاَةَ لِدُلُوكِ الشَّمْسِ إِلَى غَسَقِ اللَّيْلِ وَقُرْآنَ الْفَجْرِ ***“Günortadan gecənin qaranlığınadək namaz qıl. Sübh namazını da qıl.”*** – olmasaydı, namazın vaxtını əqli yolla, adi şüur və düşüncənlə təyin edə bilməzdin. Bunu bizə vəhy – Quran və hədis deməlidir. İmam

1.“Maidə” surəsi, ayə 90.
2. “Əl-kafi”, “Əql və cəhl” bölməsi, hədis 12.

Səccadın (ə) məqsədi və kəlamının zahiri mənası budur! ***"Həqiqətən, Allah-Taalanın dinini naqis əqllərlə dərk etmək olmur."*** – kəlamının mənası bu deyil ki, dini hökmləri və maarifi əqli düşüncə ilə əldə edə bilmərik; necə ki, bir qrup nadan insan dini müdafiə etmək məqsədilə fəryad çəkərək deyirlər ki, dinin fəlsəfəsinə toxunmayın. Axı nə üçün? Nə üçün toxunmayaq? Əlbəttə, həmişə demişik və etiraf etmişik ki, bizim anladıqlarımız dini maarifin mində biri də deyil. Bizim tətbiq və izah etdiklərimiz həqiqətlə müqayisədə çox azdır. Bunda heç bir şəkk-şübhə yoxdur. Bəşər tarixinin şaquli xəttini nəzərdən keçirsək, 200-500 il sonra bəşəriyyətin dinin dərinliklərinə imanı, yəqini və etirafı keçmişlə müqayisədə daha çox olub.

Bir sözlə, din ağılı məhkum və batil etmək, həyatdan kənarlaşdırmaq üçün gəlməyib. Bəs nə üçün gəlib? Əqli hidayət etmək, ona bələdçi olmaq və kömək etmək üçün. Əgər insanın əqlinin kənarında nəfsi istəyi, tamah və hərislik varsa, düzgün mühakimə yürüdə bilməz, həqiqəti düzgün analiz edə bilməz; onunla yanaşı qərəzçilik varsa, düzgün anlaya bilməz. Din gəlib ki, nəfsin istəklərini, hərislik və tamahkarlıqları, qorxu və qərəzçilikləri əqlin üzərindən götürsün, sağlam və kamil əqli gücləndirsin, yaxşı dərk etməsi üçün ona yardmçı olsun. Siz İslama müraciət etsəniz, onun başlanğıcından sonuna kimi əqli cilvələrlə dolu olduğunu görəcəksiniz. Qurani-Kərimdə أَفَلَا تَعْقِلُونَ ***"Məgər dərk etmirsinizmi?"***, أَفَلاَ تَتَفَكَّرُونَ ***"Məgər düşünmürsünüzmü?"***, إِنَّ فِي ذَلِكَ لَآيَةً لِأُوْلِي الْأَلْبَابِ ***"Həqiqətən, bu hadisədə ağıl sahibləri üçün bir nişanə vardır."*** – ifadələri kifayət qədərdir. Rəvayətlərdə də *إن لله على الناس حجّتَينْ* *"Həqiqətən, Allahın insanlar üzərində iki höccəti vardır, biri peyğəmbər, digəri isə əqldir."* – ifadəsi az işlənməyib. (Əql barəsində qeyd etdiklərimizlə kifayətlənirik.)

Bir sözlə, unutmayın ki, insan vəhy bələdçiliyi olmadan, vəhydən kömək istəmədən səadət və xoşbəxtlik mənzilinə çata bilməz. Vəhy isə instinkti və zahiri hissləri məhkum etmədiyi kimi, əqli də məhkum etmir, əksinə zahiri hissləri, insani meyilləri, əql və idrak qüvvəsini gücləndirir, saflaşdırır, ona istiqamət verir və öyrədir. Bu, vəhyin missiyasıdır. Beləliklə, nübuvvətin fəlsəfəsi budur.

Biz naqis olduğumuzdan, hidayət olmağımız üçün əqlimiz kifayət etmir, ona görə də qeybi yardım vasitəsilə hidayət olunmalıyıq. Məhz burada qeybi yardıma ehtiyac var, yoxsa, qeybi yardım acdığımız və bir

tikə çörəyə ehtiyac duyduğumuz zamana aid deyil, o zaman təəssüf və həsrət hissi ilə qeybi yardımın intizarında əyləşməyin mənası yoxdur. Həmçinin, ilahi vəzifələri yerinə yetirmədiyimiz, yaxşılığa dəvət etmədiyimiz, pislikdən çəkindirmədiyimiz, Allah yolunun yolçusu olmadığımız zaman da qeybi yardımın intizarında əyləşməməliyik. Quranın bu ayələrində buyurulanın icrası üçün qeybi yardımmı gözləməliyik?:

أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ. فَذَلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ. وَلَا يَحُضُّ عَلَى طَعَامِ الْمِسْكِينِ

***“(Ey Peyğəmbər!) Allahın dinini və Qiyamət gününü təkzib edəni gördünmü? O, həmin o kəsdir ki, yetimi hiddətlə qovar və (heç kimi) yoxsulları yedirtməyə rəğbətləndirməz.”***[1]

قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ. وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ.

***“Onlar (Cəhənnəm əhli) deyəcəklər: “Biz namaz qılanlardan deyildik. Yoxsulu da yedirtməzdik.”***”[2]

وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ

***“Qiyamət gününü təkzib edərdik.”***[3]

Qurani-Kərimə görə, dini təkzib edənlər o kəslərdir ki, yetimləri yedizdirmir və insanları da yoxsulları yedizdirməyə rəğbətləndirmirlər. İslam geniş prizmada və dərin düşüncə ilə yoxsulluğu aradan qaldırmaq istəyir. Özünü bu ayələrlə tətbiq etməyən, yoxsulluğun aradan qalxması, onun kökünün kəsilməsi üçün addım atmayan və bu istiqamətdə yalnız qeybi yardımın intizarında əyləşən insan bilməlidir ki, əgər qeybi yardım gələrsə, öncə elə onun özünü məhkum edəcək, fasid və batil varlıqları aradan qaldıracaq. Bəli, qeybi yardıma ehtiyac var, lakin qeyd etdiyimiz kimi, insanın hidayəti üçün ona ehtiyac vardır. Həmin qeybi yardım peyğəmbərdir, nübuvvət əlidir; insanların hidayəti və əql qüvvəsini çiçəkləndirmək üçün göndərilən risalət məqamıdır.

Burada bir neçə məsələ qarşıya çıxır və onlardan bir neçəsini qısa şəkildə qeyd etmişəm.[4] Biri də budur: Nübuvvətin mənası nədir? Onun besətlə rabitəsi nədir? “Peyğəmbər göndərildi.” – dedikdə, nə nəzərdə tutulur? Nübuvvətdə motivasiya varmı? Bu da bir bəhsdir, amma nübuvvətlə bağlı bəhslərdə buna rast gəlmirik.

---

1. “Maun” surəsi, ayə 1-3.
2. “Muddəssir” surəsi, ayə 43-44.
3. “Muddəssir” surəsi, ayə 46.
4. Məclisin sonundakı xülasəyə müraciət edilsin.

Peyğəmbərlərin proqramlarının başlanğıc nöqtəsi nədir? Onlar islahat işlərinə və insanlara yardım etməyə haradan başlayırlar? İş və fəaliyyətləri nə ilə sonuclanır? Yəhya peyğəmbəri ağacın içinə qoyub mişar ilə doğradılar və başını zalım soltana apardılar. Nübuvvət (peyğəmbərlik) işinin sonu elə budurmu? Yoxsa, onun başqa sonluğu vardır? Bu başlanğıcın sonu tamamilə başqadır və Qurani-Kərimdə də ona işarə olunmuşdur. Burada da bəzi məsələlər var ki, növbəti məclislərdə bir-bir qeyd edəcəyik. Nəzərimcə, nübuvvətin fəlsəfəsi ilə bağlı qeyd etdiklərimiz bəs edər və bu məsələni mümkün qədər qısa şəkildə diqqətinizə çatdırdıq. (İnşallah, əziz qardaşlar diqqətlə qulaq asdılar. Elə diqqətlə qulaq asmağınızı görürəm. Ümid edirəm ki, mətləbləri yaxşı başa düşdünüz. Əgər nübuvvətin fəlsəfəsi ilə bağlı kiməsə qaranlıq qalan bir məsələ varsa, məndən və yaxud yanında əyləşən digər məclis iştirakçılarından soruşa bilər.)

Bu zəmində olan ayələr olduqca dərin və mənalıdır. İndi tilavət edəcəyim ayəni geniş şəkildə şərh edəcəyimi düşünürdüm, lakin sonradan geniş şərhə yer ayıracağım təqdirdə, nəzərimdə tutduğum bəzi məsələləri tam şəkildə çatdıra və bu bir saat ərzində həmin ayənin mənasını tam şəkildə şərh edə bilməyəcəyimi görüb ondan daşındım. Bu ayə çox maraqlıdır və bu ayə ilə bağlı əlavə məlumat üçün “Pərtovi əz Quran” (Qurandan bir nur) kitabına müraciət edə bilərsiniz. Çünki bu kitabda nisbətən maraqlı mətləblər vardır. Mən isə ayənin tərcüməsi və qısa şərhi ilə kifayətlənirəm:

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ

***“İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (qorxudan) peyğəmbərlər göndərdi. O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi.”***[1]

Peyğəmbərlərin gəlişində məqsəd yalnız müjdələmək və qorxutmaq deyil, həm də onlara Allah tərəfindən haqq olaraq və haqqa əsaslanan kitabın nazil olunmasıdır. (“Haqq” sözünü neçə dəfə izah etdiyim üçün, yenidən izah emək istəmirəm. Əgər təkrar izah etmək istəsəm, 10-12 dəqiqə vaxtımızı tutacaq.) Qısaca, dünyanın təbii axarı, insanın fitrəti ilə uzlaşan hər bir şey haqdır. Peyğəmbərlərin kitabı da haqdır, çünki insanları fitri, təbii və təkamül yoluna dəvət və bu yolda ona kömək edir. Peyğəmbərlərin kitabı da haqq ilə birgədir.

1. “Bəqərə” surəsi, ayə 213.

وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ

***"O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasındakı ixtilaflı məsələlərdə hökm yürütsün."***

İnsanlar arasında həmişə ixtilaf olub və bu, bir qanundur, eyni zamanda faydaları da var. Çünki ixtilaf təkamülə səbəb olur. Allah-Taala kitab nazil etdi ki, peyğəmbərlər ixtilaf zamanı hökm yürütsün və hökmranlıq etsinlər. Bunu necə başa düşürük? Peyğəmbərlərin bir fərd olaraq qurduğu hakimiyyət diktatura və şəxsi hökmranlıq mənasında deyil, kitab və qanunun hökmranlığı mənasındadır. Peyğəmbərin təşkil etdiyi cəmiyyətə həqiqi mənada hakim olan şey kitab və qanundur.

وَمَا اخْتَلَفَ فِيهِ إِلاَّ الَّذِينَ أُوتُوهُ

***"Kitab verilmiş kəslərdən (kitab əhlindən) başqa, bu kitab barəsində ixtilaf etmədilər."***

Səmavi kitab barəsində elə kitab əhli ixtilafa düçar oldu. Bu, bizə nəyi bildirmək istəyir? Səmavi dinlərin və keçmiş peyğəmbərlərin sözlərinin təhrifə məruz qaldığını bildirmək istəyir. Peyğəmbərlər məktəb, kitab və qanun gətirdikdən sonra, kitab və qanunun verildiyi kəslər ixtilafa düçar oldular; belə ki, bəziləri haqq danışdı, bəziləri isə haqqa qarşı çıxdılar. Bir sözlə, bir dinin ardıcıllarının öz dinlərinə əsasən dedikləri sözün həqiqətin ziddinə olması həmin dinin təhrifə məruz qalması və ləğv olmasına işarədir.

مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ بَغْيًا بَيْنَهُمْ

***"Onlara aşkar dəlillər gəldikdən sonra aralarındakı kin və düşmənçilik üzündən (dində) ixtilafa düşdülər."***

فَهَدَى اللّهُ الَّذِينَ آمَنُواْ لِمَا اخْتَلَفُواْ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِهِ

***"Onların ixtilafda olduqları həqiqətə (dinə) Onun izni və idarəsi ilə iman gətirənləri Allah hidayət etdi."***

وَاللّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ

***"Allah istədiyini düz yola hidayət edir."***

(Bu, bizim bugünkü tilavətimizin bir hissəsindən ibarətdir. Əlbəttə, onun son sözləri haqqında əlavə məlumat verməli idim, lakin özümdə yorğunluq hiss edirəm. Odur ku, əlinizdəki vərəqdə qeyd olunan "Cümə" surəsinin tərcüməsi ilə kifayətlənir və şərhindən daşınıram.)

"Cümə" surəsi Quranın 28-ci cüzündə yerləşir. Kimin əlində Quran varsa, açıb baxsın:

يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ الْمَلِكِ الْقُدُّوسِ الْعَزِيزِ الْحَكِيمِ

***"Göylərdə və yerdə nə varsa, mülkün sahibi (və hökmdar), müqəddəs, yenilməz qüdrət və hikmət sahibi olan Allaha zikr deyir!"***

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِّنْهُمْ

***"Savadsız cəmiyyətə özlərindən peyğəmbər göndərən Odur."***

يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ

***"Bu Peyğəmbər onlara Onun (Allahın) ayələrini oxuyur, onları saflaşdırır, onlara Kitabı və hikməti öyrədir."***

وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ

***"Halbuki, onlar əvvəllər haqq yoldan açıq-aşkar azğınlıqda idilər."***

وَآخَرِينَ مِنْهُمْ لَمَّا يَلْحَقُوا بِهِمْ

***"Hələ onlara qoşulmamış başqalarına da (peyğəmbər göndərdi)."***

وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

***"O, yenilməz qüdrət və hikmət sahibidir!"***

ذَٰلِكَ فَضْلُ اللَّهِ يُؤْتِيهِ مَن يَشَاءُ

***"Bu, Allahın istədiyinə bəxş etdiyi mərhəmətdir."***

وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

***"Allah böyük mərhəmət sahibidir!"***

(Qeyd etməliyəm ki, bu surəni indiyə qədər müxtəlif münasibətlərdə həm bu məscid, həm də o biri məsciddə[1] neçə dəfə tərcümə və şərh etmişəm. Cümə axşamları da, adətən, "məğrib" (şam) namazında oxuyuruq. Bu məclisdə iştirak edən bir çox qardaşlar bu surənin şərhini məndən eşitmişlər. Odur ki, əlinizdəki vərəqdə qeyd edilənlərlə kifayətlənirəm.)

Bir sözlə, biz bura qədər nə anladıq? Nübuvvətin fəlsəfəsini anladıq; belə ki, bu, bütün dinlərin fundamental əsasından ibarətdir. Bu təməl olmazsa, din düzgün məna kəsb edə bilməz. Çünki din Allah tərəfindən peyğəmbərlərin və vəhyi çatdıranların vasitəsilə nazil olur.

---

1. Müqəddəs Məşhəd şəhəri, Kəramət məscidi.

## Xülasə

## Çərşənbə – Ramazan ayının 15-ci günü

# NÜBUVVƏTİN FƏLSƏFƏSİ

İlahi dinlərin müddəası və səmavi təlimləri gətirən peyğəmbərlərin nübuvvətinin fəlsəfəsi nədir? Nübuvvətin mənası və onun besətlə rabitəsi nədir? Nübuvvət və besətin hədəfləri nədən ibarətdir? Peyğəmbərlərin proqramlarının başlanğıc nöqtəsi nədir? Təlaş və fəaliyyətlərinin sonu necədir? Bu və bu kimi digər suallar nübuvvət prinsipinin önəmli və həlledici mövzularını təşkil edir və onlar haqqında agahlıq möhkəm iman və məsuliyyətlə sonuclanır. Qurani-Kərimdə bütün bu suallar qısa və aydın, eyni zamanda tutarlı şəkildə cavablandırılmışdır.

Nübuvvətin fəlsəfəsi – zahiri hisslər, daxili meyillər və ondan da üstün olan elm və mərifət bəşərin hidayəti və hidayət mənzilinə çatması üçün kifayət etmir, insan əqlinin yardımı, hidayət və rəhbərliyindən daha üstün bir hidayət vasitəsinə ehtiyacı var, o da vəhyin hidayətidir; vəhy insanın yaradanı, onun ehtiyaclarını, problemləri və onların həllini bilən Allah tərəfindən göndərilir. Bu isə bütün dinlərin və nübuvvətin fəlsəfəsindən ibarətdir. Peyğəmbərin missiyası insanın ehtiyaclarını təmin etmək və həmin ehtiyacları aradan qaldıran proqramları icra etməkdir.

Bu məqamları aşağıda qeyd edilən Quran ayələrində açıq-aşkar izləmək olar:

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً – ***İnsanlar tək bir ümmət idi.***

فَبَعَثَ اللّهُ النَّبِيِّينَ مُبَشِّرِينَ وَمُنذِرِينَ – ***Allah onlara müjdə verən və xəbərdarlıq edən (qorxudan) peyğəmbərlər göndərdi.***

وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ – ***O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil***

*etdi.”*

وَأَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ – ***O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi ki,***

لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ – ***insanlar arasındakı ixtilaflı məsələlərdə hökm yürütsün.***

وَمَا اخْتَلَفَ فِيهِ إِلاَّ الَّذِينَ أُوتُوهُ – ***Kitab verilmiş kəslərdən (kitab əhlindən) başqa, bu kitab barəsində ixtilaf etmədilər.***

مِن بَعْدِ مَا جَاءتْهُمُ الْبَيِّنَاتُ بَغْيًا بَيْنَهُمْ – ***“Onlara aşkar dəlillər gəldikdən sonra aralarındakı kin və düşmənçilik üzündən (dində) ixtilafa düşdülər.***

فَهَدَى اللّهُ الَّذِينَ آمَنُواْ لِمَا اخْتَلَفُواْ فِيهِ مِنَ الْحَقِّ بِإِذْنِهِ – ***“Onların ixtilafda olduqları haqqa (dinə) Onun izni və idarəsi ilə iman gətirənləri Allah hidayət etdi.***

وَاللّهُ يَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ – ***Allah istədiyini düz yola hidayət edir.***

(“Bəqərə” surəsi, ayə 213.)

يُسَبِّحُ لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ الْمَلِكِ الْقُدُّوسِ الْعَزِيزِ الْحَكِيمِ – ***Göylərdə və yerdə nə varsa, mülkün sahibi (və hökmdar), müqəddəs, yenilməz qüdrət və hikmət sahibi olan Allaha zikr deyir!***

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِّنْهُمْ – ***Savadsı cəmiyyətə özlərindən peyğəmbər göndərən Odur.***

يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ – ***Bu Peyğəmbər onlara Onun (Allahın) ayələrini oxuyur, onları saflaşdırır, onlara kitabı və hikməti öyrədir.***

وَإِن كَانُوا مِن قَبْلُ لَفِي ضَلَالٍ مُّبِينٍ – ***Halbuki, onlar əvvəllər haqq yoldan açıq-aşkar azğınlıqda idilər.***

وَآخَرِينَ مِنْهُمْ لَمَّا يَلْحَقُوا بِهِمْ – ***Hələ onlara qoşulmamış başqalarına da (peyğəmbər göndərdi).***

وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ – ***O, yenilməz qüdrət və hikmət sahibidir!***

ذَلِكَ فَضْلُ اللَّهِ يُؤْتِيهِ مَن يَشَاءُ – ***Bu, Allahın istədiyinə əta etdiyi mərhəmətdir.***

وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ – ***Allah böyük mərhəmət sahibidir!***

(“Cümə” surəsi, ayə 1-4.)

## ON BEÇİNCİ MƏCLİS

## NÜBUVVƏTDƏ BESƏT

Cümə axşamı – 1974/10/03
Ramazan ayının 16-sı.

بسم الله الرحمن الرحيم

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ. اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ. خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ. الَّذِي عَلَّمَ بِالْقَلَمِ. عَلَّمَ الْإِنسَانَ مَا لَمْ يَعْلَمْ. إِنَّ الْإِنسَانَ لَيَطْغَى. أَن رَّآهُ اسْتَغْنَى. إِنَّ إِلَى رَبِّكَ الرُّجْعَى

***”Yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələm vasitəsilə öyrətdi. İnsana bilmədiklərini öyrətdi. Sözsüz, insan azğınlıq edir. Özünü ehtiyacsız gördüyü üçün! Həqiqətən, sənin axır dönüşün Rəbbinədir!***

“Ələq” surəsi, ayə 1-8.

Bizim bugünkü söhbətimiz peyğəmbərin peyğəmbərlik məqamında ikən Allah tərəfindən vəhyi və ilahi mesajı aldığı zaman özü və ətraf dünyasında yaranan vəziyyət və keyfiyyətlə əlaqədardır. Əlbəttə, peyğəmbərin özünün daxili vəziyyəti və keyfiyyəti ilə elə də işimiz yoxdur. Lakin onu bəyan etməkdə məqsədimiz Qurani-Kərimin və dindar kütlənin işlətdiyi adi bir sözdən istifadə olunan dəqiq və incə bir mətləbdir. Bu da nübuvvət məsləsinin bir yönünü bizim üçün aydınlaşdırır.

Bildiyiniz kimi, Quranda, adətən, peyğəmbərlərin gəlişi "besət" sözü ilə ifadə olunur:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً

***"Həqiqətən, Biz hər ümmətə peyğəmbər göndərdik."***[1]

Biz Musanı (ə), İbrahimi (ə) və digər peyğəmbərləri "məbus" etdik. "Besət" nə deməkdir və onun nübuvvətlə rabitəsi nədən ibarətdir? Bizim bugünkü söhbətimizin mövzusu siz qardaş və bacıların əlindəki vərəqdə qeyd olunduğu kimi "nübuvvətdə besət"dir. Hər nübuvvətdə bir "besət" vardır. "Besət" nə deməkdir? Əgər peyğəmbərlikdə bir "besət" vardırsa, bu "besət" kimə aiddir və faydası nədir və sairə?

"Besət" – qalxmaq mənasını daşıyır. "Qalxmaq" sözündə süstlük və durğunluqdan sonra bri növ hərəkət vardır. Uzun illər qəbiristanlıqda yatmış və bədəni torpağa qarışmış bir ölünün Qiyamət günü Allah-Taalanın qüdrəti ilə qəbirdən qalxmasına "bə`s" deyilir. Qurani-Kərimdə də belə buyurulur:

فَهَذَا يَوْمُ الْبَعْثِ

***"Bu, (hamının qəbirdən qalxdığı) bə`s (Qiyamət) günüdür."***[2]

---

1. "Nəhl" surəsi, ayə 36.
2. "Rum" surəsi, ayə 56.

Evində yatan və yaxud quru ağac, cansız bitki (kahı yarpağı) tək adi həyat tərzində heç bir iş və fəaliyyəti olmayan, cəmiyyətin adi hərəkət seyrində istənilən səmtə yönləndirilən bir şəxsin ayılıb özünə gəlməsinə, laqeydlik vəziyyətindən çıxmasına, cəmiyyətə hakim təbii cərəyanın onu əsla qane etməyən biri durumda olduğunu bildikdən və digər tərəfdən, onu xoşbəxtlik mənzilinə çatdıran bir cərəyanla tanış olduqdan sonra, ayılması, fəaliyyətə başlaması və hərəkətə keçməsinə “bə`s” (besət) deyilir. Buna ən sadə misal insanın yuxudan ayılmasıdır; süstlük, tənbəllik, halsızlıq və durğunluq vəziyyətindən çıxıb işə başlaması “bə`s” (besət) adlanır.

Bildiyiniz kimi, Qiyamət gününün adlarından biri də “bə`s” (qəbirdən qalxmaq) günüdür; insan həmin gün süstlük və halsızlıq vəziyyətindən qurtulur, hərəkət etməyə başlayır, son taleyinin ayırd edilməsi üçün qəbirdən qalxır. Buna “bə`s” günü deyilir. Bu vəziyyət nübuvvətdə də vardır.

Sizin nübuvvətlə (peyğəmbərliklə) bağlı düşüncənizi yeniləmək istəyirəm. Bəziləri nübuvvəti belə təsəvvür edir: Misal üçün, şəhərə bir xətib daxil olub həmin şəhərin əhalisinə dini və yaxud qeyri-dini mətləblər söyləyir və yaxud fərz edək ki, camaat arasından bir xətib ayağa qalxıb onlara bir neçə cüzi məsələ haqqında məlumat verir, yaxud kimsə bir mitinqdə səsini ucaldıb hay-küy salır. Adətən, peyğəmbəri belə təsəvvür edirlər; insanlar arasında başıaşağı olan ruhani alim. Onun qədrini bilən (və sözünə qulaq asan) yaxşı insanlara “mömin”, qədrini bilməyənlərə isə “kafir” və “müşrik” deyilir. Peyğəmbəri belə bir insan kimi təsəvvür edirik.

Peyğəmbərlikdə xüsusi bir inqilab və dəyişiklik olur. Deməliyəm ki, iki inqilab baş verir: Biri peyğəmbərin öz varlığı və daxili aləminə aiddir. Buna “besət” deyilir. Bu inqilab onu tamamilə dəyişir, onu halsızlıq və süstlük vəziyyətindən tamamilə çıxarır. Onun ruhu və batinində inqilab baş verdikdən, vücudu ilahi çeşmə suyu ilə dolub-daşdıqdan, ondan indiyə qədər daxilində gizli qalmış yeni saysız-hesabsız çeşmələr ayrıldıqdan, bir sözlə, peyğəmbərin özü müsəlman olduqdan və ilahi vəhydən təsirləndikdən sonra, bu inqilab və dəyişiklik cəmiyyətə köçürülür, peyğəmbərin ruhu və batinindən qaynayan çeşmə cəmiyyətin üzərinə süzülməyə başlayır və beləcə, cəmiyyətdə inqilab baş verir. Peyğəmbərin öz daxilində böyük inqilab yarandıqdan sonra, daha böyük

bir inqilab cəmiyyətdə həyata keçir. Onun qəlbində dəyişiklik yarandıqdan sonra, onun sayəsində cəmiyyətdə dəyişiklik yaranır və besət həqiqi mənada gerçəkləşir. Göründüyü kimi, nübuvvətdə yalnız hərəkət, inqilab, dəyişiklik və coşğu vardır.

Peyğəmbər peyğəmbəliyə çatmamışdan öncə hansı vəziyyətdə olur? Hər bir peyğəmbərin nübuvvətdən əvvəlki həyatı ilə bağlı iki məqam bir-biri ilə ziddiyyət təşkil edir. Əlbəttə, ziddiyyət dedikdə, onun həqiqi mənasını nəzərdə tutmuram, ilk baxışda ziddiyyət kimi göründüyü üçün bu ifadəni işlətdim. Biri budur ki, peyğəmbər hələ peyğəmbərliyə çatmamışdan öncə, digər insanlarla müqayisədə yüksək insani keyfiyyətlərə sahib olur; onun düşüncə tərzi, istedadı və fəliyyəti digər insanlardan seçilir. Onun Allaha bəndəçilik istedadı və Allaha bəndə olmaq hazırlığı digər insanlarla müqayisədə təsəvvür olunmaz həddə olur. İnsanı bütün rəzilliklərdən çıxarıb "İnna liləlhi və inna iləyhi raciun" (Həqiqətən, biz Allahdanıq və Ona tərəf də qaylıdacağıq) məqamına, yəni həqiqi bəndəçilik məqamına yüksəldən və ilahi əxlaqa çatdıran bütün səbəblər digər insanlara nisbətən peyğəmbərdə daha çoxdur.

Nə üçün digər insanlarla müqayisədə peyğəmbərdə çoxdur? Burada Allah tərəfindən zülm və ayrı-seçkilik baş verməyibmi? Bu başqa bir mövzu olsa da, qısa olaraq belə cavab verə bilərik ki, nübuvvət missiyasını öhdəsinə götürmək üçün ağır çəkib və güclü ruha sahib olmaq lazımdır. Peyğəmbərlik yükü dəyərsiz və əhəmiyyətsiz bir iş deyil, Allahın sözünü cəmiyyətə çatdırmaq və cəmiyyəti nadanlıqdan çıxarıb tövhid cəmiyyətinə çevirmək olduqca əzəmətli və ağır bir vəzifədir və bu vəzifəni bəziləri mütləq öz çiyninə almalıdır. Kim alsın? Sıradan bir şəxsmi? Burada ətraf mühit, ailə və tayfa kriteriyaları, şəxsi istedad və qabiliyyətlər nəzərə alınır. Allaha-Taala həmin şəxsdə peyğəmbərlik istedadını gördükdə, ona yardımçı olur, ona lütf və mərhəmətini artırır, tərəqqi vasitələrini ixtiyarında qoyur və beləcə, onu peyğəmbərlik məqamına hazırlayır. Bir sözlə, əgər Allah Rəsulu (s) bu missiyanı öz öhdəsinə götürməsəydi, bu ağır vəzifə yerdə qalacaq, nə mən və sən, nə Qandi və Lumumba, nə də Sokrat, Platon və Aristotel onun öhdəsindən gələ biləcəkdi. Əksinə, daha ağır çəkiyə sahib insana ehtiyac var ki, "nübuvvət" və "risalət" adlı bu ağır məsuliyyəti öz çiynində saxlaya bilsin. Peyğəmbər belə bir şəxs olmalıdır. Bu, xülasə şəkildə diqqətinizə

çatdırdığım bir mətləb idi; belə ki, peyğəmbərdə mövcud olan potensial sravi insanlarla müqayisədə daha çox, daha dərindir.

İkinci nöqtə isə bundan ibarətdir ki, peyğəmbər peyğəmbərliyə göndərilməzdən öncə adi həyatında insanlarla dostluq edir, onların dərdinə şərik olur, bir xətt üzrə hərəkət edir, öncədən cəmiyyəti necə dəyişəcəyi haqda düşünmür, amma hakim durumdan da narazıdır. Ağıllı insan öz zamanına hakim ayrı-seçkilik və sosial təbəqələşmə sistemindən, yoxsulluqdan, zülmkarlıqdan, islami ifadə ilə desək, öz dövrünün cahilliyindən, əlbəttə ki, narazı olmalıdır. Lakin bu narazılıq elə narazılıq həddində də qalır; onun narazılığı inqilab, çevriliş və hakim sosial həyat tərzinə zidd bir cərəyanın formalaşması həddinə gəlib çatmır.

Siz Həzrət Musa ibn İmranın (ə) həyatına bir baxın. O, Fironun evində yaşayır, ağsaqqallardan birinin dediyi kimi, Fironun cığırtma plovundan yeyir, ağalıq da edir. Hələ bazarda Bəni-İsraildən olan bir şəxsə qarşı haqsızlıq edən birini də vurub öldürür. Bir müddət sonra Mədyəndən, Şüeyb peyğəmbərin (ə) yanından qayıdarkən peyğəmbərlik məqamına seçilir və həmin qətl səhnəsini xatırlayıb deyir:

وَأَنَا مِنَ الضَّالِّينَ

***“Mən azğınlardan oldum.”***[1] Bu nə deməkdir? O deməkdir ki, o zaman hələ Fironun hakim olduğu cəmiyyətin tutduğu yola zidd olan yolu tapmamışam, yoxsa, Fironun tərəfdarlarından birini öldürməyin günah olduğu mənasındadır? Əksinə, Həzrət Musa (ə) demək istəyir ki, mən o adamı ödürdüyüm zaman müəyyən ideya ilə düzgün inqilabi hərəkatı təqib edən bir şəxs deyildim, mən də digər insanlar və yolçulardan biri kimi (heç nəyə qarışmadan) öz işimdə-gücümdə idim. Bu gün isə yolum dəyişilib və keçmiş ümumi hərəkəti və cəmiyyətin kütləvi durumunu məhkum edirəm. Başqa sözlə, bu gün, artıq mən cəmiyyətdə dönüş yaradan bir şəxsə çevrilmişəm. Haçan? Peyğəmbərliyə seçildikdən sonra.

Eləcə də, Peyğəmbəri-Əkrəm (s) barədə, “Vəz-zuha” surəsi məsələni çox gözəl şəkildə işıqlandırır. Əlinizdəki vərəqdə xülasə şəkildə qeyd etmişəm. İndi isə onu tərcümə və şərh edəcəyəm. Surənin təfsiri ilə bağlı hədislər də nəql olunmuşdur. Hədislərə diqqət yetirdikdə, hədislərin təfsir deyil, təvil (yozum) olduğunu anladım. “Vəz-zuha” surəsinin təfsirində nəql olunan rəvayət digər Quran ayələrinin təfsiri ilə bağlı

1. “Şüəra” surəsi, ayə 20.

yüzlərlə təqdim edilən hədislərdən biri kimi sözün zahiri təfsiri deyil, sözün zahiri elə öz mənasını çatdırır. İndi isə həmin ayəni tərcümə edirəm (vərəqdə də qeyd etmişəm); o da təvildir, yəni bir mətləbi ayə ilə bağlı digər mətləblərə əlavə etməkdir, yoxsa ki, ayənin özü aydındır. İmam (ə) ayənin zahirini onun (zahirinin) əksinə təvil etmək istəmir. Əslində, ayənin zahiri qorunub saxlanıldığı kimi, əlavə bir mətləbi də aşılamaq istəyir, o da bundan ibarətdir ki, mən və sən ayəyə ötəri baxdıqda, onu anlaya bilmirik. İmam (ə) onu da bizə öyrədir və onun adı təvildir. Yeri gəlmişkən, bu, "Vəz-zuha" surəsi ilə bağlı bizim bugünkü bəhsimiz və tilavətimizin bir hissəsini təşkil edir.

وَالضُّحَى

***"And olsun səhərə!"***[1]

"Zuha" günortadan qabağa deyilir. Baxın, bu andın, vaxta and içməyin özünün də mənası və işarəsi var. Aydındır ki, Peyğəmbəri-Əkrəmin (s) besət və risalətinə aiddir və "zuha" sözü o Həzrətin peyğəmbərliyə seçilməsi nəticəsində bütün dünyanı işıqlandıran nura işarədir.

وَاللَّيْلِ إِذَا سَجَى

***"And olsun qaranlığı hər yeri bürüyən gecəyə!"***

مَا وَدَّعَكَ رَبُّكَ وَمَا قَلَى

***"Rəbbin səni nə tərk etdi, nə də sənə qəzəbləndi."***

Vəhyin başlanğıcından bir müddət sonra vəhy kəsildi. Peyğəmbəri-Əkrəm (s) peyğəmbərliyə seçildikdən, o Həzrətdə şövq və həyəcan yarandıqdan və vəhy mələyi Cəbrail ilə ünsiyyətdən sonra, gözlənilmədən, vəhy kəsilir. Peyğəmbəri-Əkrəm (s) çox narahat olur. Vəhy ilə rabitənin kəsildiyi müddət nə qədər çəkir? Buna "fətrət" dövranı deyilir. Qırx gündən iki aya qədər vaxt keçdiyini deyirlər. Bu müddətdən sonra "Vəz-zuha" surəsi – Peyğəmbəri-Əkrəmə (s) xitab edən ilk müjdələyici surədir.

مَا وَدَّعَكَ رَبُّكَ وَمَا قَلَى

***"Rəbbin səni nə tərk etdi, nə də sənə qəzəbləndi."***

وَلَلْآخِرَةُ خَيْرٌ لَّكَ مِنَ الْأُولَى

***"Şübhəsiz ki, gələcək (axirət) sənin üçün əvvəldən (keçmişdən və dünyadan) daha xeyirlidir!"*** İşin sonu başlanğıcdan daha yaxşıdır.

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى

1. "Vəz-zuha" surəsi, ayə 1-8.

***“Həqiqətən, Rəbbin sənə bəxş edəcək və sən razı qalacaqsan!”***

Rəvayətdə var ki, bu ayə şəfaət haqqındadır. Düzdür, şəfaət Peyğəmbərə (s) bəxş edilmiş məqamlardan biridir, bu məqam o Həzrətə razı qaldığı qədər bəxş ediləcək. O Həzrətə elə bu dünyada da razı olduğu qədər bəxş edildi; insanların hidayəti, ilahi dövlətin quruluşu, İslamın qəddar və inadkar düşmənlərinə qələbə, şəhərlərin fəthi, İslam cəmiyyətinin günü gündən inkişafı – bunların hamısı bütünlüklə Allah-Taalanın İslam Peyğəmbərinə (s) bəxş etdiyi nemətlər idi.

أَلَمْ يَجِدْكَ يَتِيمًا فَآوَى

***“Məgər O, səni yetim ikən tapıb sığınacaq vermədimi?!”***

Allah-Taala səni yetim və kimsəsiz olarkən sığınacaq verdi, atasız idin, dünyaya göz açmamış atan dünyadan getdi, anan az fasilədən sonra vəfat etdi. Baban da bir neçə il sonra dünyadan köçdü. Sən tək-tənha qaldın və əmin Əbutalib səni himayəsinə götürdü. Sən yetim idin, elə ilk gündən yetim idin, ey Peyğəmbər, hər an sənə sığınacaq verdik, səni sevgi dolu qucağımızda saxladıq. Allah-Taala burada Peyğəmbərə (s) ümid verir və demək istəyir ki, həmişə, elə uşaqlıq çağlarından Allahın pənahında olubsan. İndi isə bu ağır risalət məqamını öz öhdənə götürdüyün üçün əsla qorxma, təmkinli ol, əsla düşünmə ki, Allah səni tək buraxacaq. Allah səni o gündən tək buraxmadığı kimi, indi də səni tək buraxmaz.

وَوَجَدَكَ ضَالًّا فَهَدَى

***“Səni yolunu itirmiş vəziyyətdə tapıb yol göstərmədimi?!”***

Bu ayənin təfsiri ilə bağlı bəzi rəvayətlər nəql olunmuşdur ki, onların bir neçəsinin sənədi zəifdir. Bir neçə təfsir aliminin ehtimalları da həmin təfsirlərə qarışmışdır. Bu ayədə “yolunu itirmiş” (yolunu azmış) sözü ideoloji və psixoloji azğınlıq mənasında deyildir; belə ki, Peyğəmbəri-Əkrəm (s) uşaq vaxtı Məkkə dağlarının birində itmişdi. Allah-Taala onun babasına yolu göstərdi və onu tapıb gətirdilər. O Həzrət başqa bir vaxtda da itmiş və bir qadının vasitəsilə tapılmışdı. Yaxud da, ayənin başqa bir mənası budur ki, sən Məkkə əhalisi arasında itib batmışdın, tanınmırdın. Allah Məkkə əhalisini sənin vasitənlə hidayət etdi. Bu da ayə ilə bağlı ehtimal edilmiş başqa bir mənadır. Biz bu mənaları danmırıq, yaxşı dinləyin. Hər iki məna düzgün ola bilər. Hər iki rəvayət, doğrudan da səhihdirsə, gözümüz üstə yeri var. Bu mənanın hər birinə aid səhih rəvayət təqdim edilərsə, əlbəttə ki, qəbul olunmalıdır. Buna rəğmən,

ayənin zahiri mənası fərqlidir və qeyd etdiyimiz mənanı aşılayan rəvayət ayənin zahiri mənasını qəbul edən rəvayətlə ziddiyyət təşkil edir.

Ayənin zahiri mənası başqadır; ayənin zahiri mənası budur ki, sən azğınlıqda idin, səni hidayət etdik və doğru yola yönəltdik. "Azğın idin" nə deməkdir? Yəni, bütpərəst idinmi? Yolunu azmış bir şəxs idinmi? Günahkar idinmi? Xeyr! Bəs, məqsəd nədir? Məqsəd odur ki, peyğəmbərlikdən sonra sənə göstərilən doğru yol bundan öncə sənə göstərilməmişdi. Bəlkə, belə deyildimi? Peyğəmbər (s) vəhy vasitəsilə aldığı və müqəddəs qəlbini işıqlandıran o ilahi maarif və qanunlar, əqidə və düşüncələrə peyğəmbərliyindən öncə sahib idimi? Sözsüz ki, xeyr! Bu, ayənin zahiri mənasıdır. Əlbəttə, bəzi hədislərdə də nəql olunduğu kimi, bizim bu ayənin zahiri mənasını o Həzrətin Məkkə əhalisi arasında tanınmaz qaldığı və yaxud Məkkənin ətraf dağlarında qoyun otardığı zaman itdiyi mənalara təvil etməyimizin də heç bir eybi-iradı yoxdur. Diqqət yetirdinizmi?

وَوَجَدَكَ عَائِلًا فَأَغْنَى

***"Səni yoxsul ikən tapıb ehtiyacsız etmədimi?!"***

Bu ayədə və onu bəyan etməkdə məqsəd nədir? Ayənin mənasından da göründüyü kimi, Peyğəmbəri-Əkrəm (s) adi insanlar arasında yaşayır, gəzib dolanırdı, lakin cəmiyyətə hakim mühitdən narahat idi. O Həzrət zəngin Qüreyş övladlarının filan yoxsul kənizi alıb zor tətbiq etməsindən əziyyət çəkdiyi üçün (zülmə məruz qalanları müdafiə etmək məqsədilə) "Hilful-fuzul"[1] (mərd insanların andı) adlı bir cəmiyyət yaratmışdı. Allaha bir an belə şərik qoşmadı, bütlərə sitayiş etmədi, onların müqabilində baş əymədi, quldur və zülmkarlarla barışmadı, həmin cəmiyyətdə mərd yaşadı, amma bütün bunlara rəğmən, həmin cəmiyyətin içində idi, o cəmiyyətin üzvləri ilə birgə adi həyatını yaşayırdı.

Gözlənilmədən, ilahi vəhy nazil olur. Peyğəmbərin varlığı və daxilində dərin dönüş yaranır. Bu dönüş o qədər qəribə və şiddətli baş verir ki, hətta Peyğəmbərin (s) cisminə belə təsir göstərir. O Həzrət "Nur" dağında ilk vəhy nuruna qərq olduqda, varlığına hərarət çökür. Allahın mesajını gətirən mələyin "İqrə`" (oxu) – deyə müraciətini eşitdikdə, "Nə

---

1. "Hilful-fuzul" (mərd insanların andı): Peyğəmbəri-Əkrəm (s) 20 yaşında ikən Məkkə gənclərindən ibarət bir dəstə ilə əhd-peyman bağlamışdı ki, şəhərə daxil olan qərib insanlar zülmə məruz qaldıqda, onları himayə etsinlər.

oxuyum? Axı oxuya bilmirəm!”[1] – deyə cavab verir.

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ. خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ. اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ. الَّذِي عَلَّمَ بِالْقَلَمِ. عَلَّمَ الْإِنسَانَ مَا لَمْ يَعْلَمْ

***“Yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələm vasitəsilə öyrətdi. İnsana bilmədiklərini öyrətdi.”***[2]

Bu zaman Peyğəmbərin (s) canına hərarət gəlir, qəflətən, bu mütəfəkkir, düzgün və hazır insanın varlığında inqilab və dönüş yaranır; sanki bu insan həmin insan deyildi, Muhəmməd (s) bir saat öncəki həmin Muhəmməd deyildi. O, artıq başqa bir şəxs olmuşdur. Besət – peyğəmbərlik məqamı onun varlığı və batinini tamamilə dəyişir. Onun bu dönüşü bütün dünyada dönüş yaradır. Əgər onun özündə dönüş yaranmasaydı, dünyanı dəyişdirə bilməzdi. Bu da Peyğəmbər (s) ardıcılları üçün bir örnəkdir; belə ki, əgər onlar özlərini dəyişməsələr, dünyanı (və ətraf mühiti) dəyişə bilməzlər.

ذات نایافته از هستی بخش
کِی تواند که شود هستی بخش

**“Varlıqdan bir payı olmayan necə varlıq bəxş edə bilər?”**[3]

Sən öz varlığından heç bir pay aparmayıbsansa, bu ilahi lütf, mərhəmət və nemətdən istifadə etməyibsənsə, başqalarına necə bəxş edə bilərsən? Öncə yanmalı, əriməli və alovlanmalısan ki, kömürləri alovlandırıb soyuqları qızdıra və qaranlıqları işıqlandıra biləsən.

Peyğəmbər (s) öncə özünü alovlandırdı, öz qəlbi və batinində dönüş yaratdı ki, dünyanı da inqilab və dönüşə doğru çəkə bildi, elə insanlar yetişdirdi ki, öz canlarını fəda etsələr də əqidələrindən dönmədilər. Məgər bu zarafatdırmı? Məgər qaradərili Bilal Həbəşi o ağır işgəncələr və qırmanc zərbələrinə məruz qalmasına rəğmən, əqidəsindən əl çəkmir, az sonra, yenə “əhəd, əhəd...” (yəni, Allah birdir, birdir) – deyə fəryad etmirdimi?!. Bu ifadəni öz dilimizə çevirmək istəsək, bu mənanı ifadə edəcək: “Ölüm olsun sizə, ölüm olsun sizə!” Bilal Həbəşinin “əhəd, əhəd...” – ifadəsinin mənası, bax budur![4] Peyğəmbər (s) İslamın

1. “Əl-Burhanu fi təfsiril-Quran”, “Ələq” surəsinin təfsirində.
2. “Ələq” surəsi, ayə 1-5.
3. Əbdürrəhman Cami.
4. “Nəhcül-bəlağənin şərhi”, İbn Əbil-Hədid, 9-cu məktub, “Bədr” döyüşü.

başlanğıc dönəmində, besətin ilkin çağlarında boş-boşuna Əbuzərlər[1], Bilallar, Miqdadlar[2] və Abdullah ibn Məsudlar yetişdirə bilməzdi; yəni, öncə özündə dönüş yaranmışdı.

İndi isə, görək, Peyğəmbərə (s) nazil olan ilk vəhy nədən ibarətdir?

Bizim bugünkü tilavətimizin bir hissəsini "Ələq" surəsinin bir qismi təşkil edir.

بسم الله الرحمن الرحيم. اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ.

***"Rəhman və Rəim Allahın adı ilə! Yaradan Rəbbinin adı ilə oxu."***

Baxın, Allah-Taala nizamlı şəkildə sözə başlayır. Bizim peyğəmbərimiz kimi Allaha pərəstiş edən, peyğəmbərliyə seçilməzdən öncə Ona şərik qoşmayan bir insanın diqqətini və qəlbini Allah-Taalaya cəlb edən ilk məsələ yaradılışdır. ***"Yaradan Rəbbinin adı ilə oxu!"*** Yaradılış Ona məxsusdur, bu əzəmətli kainat bütünlüklə Onundur.

Bu mətləb insanın zehnində yer tutduqdan sonra, bir mərtəbə yuxarı qalxır və yaradılışdan üstün olan bir məsələni isbat edir:

خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ.

***"O, insanı laxtalanmış qandan yaratdı."***

İnsanla digər varlıqlar arasında fərq nədir? İnsan ilk baxışda bu fərqə varmır. Siz xiyabanda ikən, yanınızdan avtomobil və digər insanlar ötüb keçir. Avtomobilinizdə oturduğunuz zaman kənarınızdan onlarla insan və avtomobil keçib gedir. Lakin insan onlara diqqət yetirmir. İnsanla qeyri-insan arasında da fərq böyükdür, lakin buna diqqətsizdir. İnsan

---

1. Qifar qəbiləsindən olan Əbuzərin adı Cündəb ibn Cünadədir. O, İslamı qəbul edən 4-cü, yaxu 5-ci şəxsdir. Yeni peyğəmbərin gəlişindən xəbər tutduqda, Məkkəyə doğru yola düşdü və İslamı qəbul etdi. Sonra öz qövmünün yanına qayıtdı. "Xəndək" döyüşündən sonra Mədinəyə köçdü. Peyğəmbəri-Əkrəmin (s) vəfatından sonra Əmirəlmöminin Əlidən (ə) tərəfdarlıq etdi və Əbu Bəkrlə beyət etmədi. Osmanın hakimiyyəti dönəmində hökumət tərərfindən Əməvi sülaləsinə verilən bəxşiş və hədiyyələrə görə hökuməti tənqid etdi. Elə buna görə Rəbəzəyə sürgün edildi və 31 və yaxud 32-ci hicri-qəməri ilində elə orada da vəfat etdi.

2. O, İslamı qəbul edən ilk şəxslərdən biridir. İslam tarixçiləri onu yeddinci müsəlman hesab etmişlər. Böyük səhabələrdən sayılan Miqdad Məkkə müşriklərinin zülmündən Həbəşistana hicrət etdi, sonra yenə Məkkəyə döndü, oradan da Mədinəyə doğru yollandı. İslam Peyğəmbərinin (s) bütün döyüşlərində iştirak etdi və məşhur oxatan idi. Peyğəmbərin (s) vəfatından sonra Əmirəlmöminin Əlinin (ə) seçilən səhabələrindən biri də Miqdad idi. Camaat Osmanla beyət edəndə, o, müxalifətini bildirdi və nəhayət, 33-cü hicri-qəməri ilində Mədinənin bir fərsəxliyində dünyadan köçdü və Mədinənin Bəqi qəbiristanlğında torpağa tapşırıldı.

olduqca izzətli, şərəfli və üstün bir varlıqdır. Bu aləmin bərbəzəklərinə məftun olmuş insanlar ömürlərinin sonuna qədər insanla qeyri-insanın fərqini anlamırlar. Çünki onun nəzərində minlərlə insan minlərlə qarışqa tək qiymətsizdir. İnsan minlərlə qarışqanı azacıq neftlə məhv edir. Onlar minlərlə insanı bir əmrlə, bir bomba ilə məhv edib öldürürlər.

İnsan ilk baxışda özü ilə (insanla) digər varlıqlar arasındakı qəribə fərqi anlamır. Lakin diqqət yetirdikdə, necə? Bu zaman hər şey qəribə görünür. İnsanla digər varlıqlar arasındakı vadi olduqca dərindir. İnsanı digər varlıqlardan fərqləndirən imtiyaz nədir? Əql və şüur qüvvəsi! Onun hər şeyi bir-birindən ayırd etməsi, nəticə çıxarması və yeniliklər əldə etməsi. Bunu nə ağac, nə daş, nə də heyvan bacarır. Əgər insan yeniliklər əldə edə bilməsəydi, digər varlıqlar kimi, həmişə eyni vəziyyətdə qalardı. Ötən məclisdə buna bal arısını misal çəkdik. İnsan iradə və ixtiyar qüvvəsinə sahibdir, istədiyi an istədiyi qərarı qəbul edə bilir. Digər varlıqlar isə, instinktiv hisslərinə tabe olmaq məcburiyyətindədir, onun instinkti nə deyərsə, elə də rəftar etməlidir, onlar istədiklərini edə bilmirlər. İnsan isə öz instinktiv hisslərinin əleyhinə rəftar edə bilir. İnsanın instinkti yemək vaxtı yemək, cinsi istək zamanı cinsi rabitə tələb edir. Bunlar insanın instinktləridir. Lakin elə insan var ki, ömrünün sonuna qədər cinsi istəyini bir dəfə olsun belə təmin etmir, öz instinktiv hissinin əksini yerinə yetirir, meylinə hakim olur. Elə insan var ki, uzun illər boyu gününü yalnız bir badamla keçirir. Bunu yalnız insan bacara bilər. Öz meyli və istəyinə qarşı çıxa bilən varlıq yalnız insandır.

Bir sözlə, insanın əql, iradə, ixtiyar və yenilənmə qüvvəsi onu digər varlıqlardan fərqləndirir. Materialist alimlər də bu son zamanlar az-çox bu qənaətə gəliblər ki, insan həqiqətən də qəribə bir varlıqdır. Əlbəttə, onlar bu qəribəliyi qəbul etsələr də fərqi qəbul etmirlər. İnsanda mövcud olan bu imtiyazlar ondakı ilahi ruhdan qaynaqlanır, onda ilahi ruh təcəlli edir:

وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي

***“Ona Öz ruhumdan üfürdüm.”***[1]

Bəli, gözlənilmədən, Peyğəmbərə (s) üstün bir yaradılış – insanın, ağıl, şüur və idrak qüvvəsinin yaradılışı haqqında məlumat verilir; özü də laxta qandan yaranmış bir varlıq haqqında! Görün, hardan haraya

1. “Hicr” surəsi, ayə 29; “Sad” surəsi, ayə 72.

qədər?! ما لِلتُّرابِ وَ رَبِّ الأَرْبابِ – "Torpaq hara, rəblərin Rəbbi hara?!"[1] Axı cansız, hərəkətsiz, şüursuz bir şey kimisə Eynşteynə, Sokrata, böyük və mütəfəkkir bir insana, filosofa, peyğəmbərə necə çevirə bilər? Bu, aləmlərin Rəbbinin qüdrəti ilə mümkündür. خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ – ***"O, insanı laxtalanmış qandan yaratdı."*** Vəhyin başlanğıcında bizim Peyğəmbərin (s) diqqəti bu mühüm məqama yönləndirilir. Çünki onun varlığında dönüş yaranmalı, ayağına dəmir ayaqqabı geyindirilməli, əlinə də polad əsa verilməlidir ki, onun üçün yorğunluq mənasını itirsin. Buna görə də, hər şeydən öncə bu sözlər təlqin edilir.

خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ

***"O, insanı "ələq"dən – laxtalanmış qandan yaratdı."***

اقْرَأْ

***"Oxu!"***

Allah-Taala daha üstündür.

وَرَبُّكَ الْأَكْرَمُ.

***"Sənin Rəbbin ən böyük kərəm (bəxşiş) sahibidir!"***

الَّذِي عَلَّمَ بِالْقَلَمِ.

***"O Rəbbin ki, qələm vasitəsilə öyrətdi."***

Burada Peyğəmbərə (s) insanın öyrənmə məsələsi bəyan edilir.

Bunu bilin ki, əgər qələm və yazı olmasaydı, bəşər tərəqqi edə bilməzdi. Bir nəslin başqa bir nəslin inkişafı istiqamətində onun pilləkən tək tərəqqiyə doğru addımlaması, ayağını keçmiş nəslin təcrübəsinin üstünə qoyub yeni bir təcrübə kəsb etməsi üçün ən mühüm yadigarı qələmdir. Əgər öncəki nəslə aid elmi kəşflər və tədqiqatlar növbəti nəslə ötürülməsəydi, həmin nəsildə inkişafdan söz gedə bilməzdi. Əgər İbn Sina[2] Aristotelin kitabını əldə edə bilməsəydi, İbn Sina İbn Sina ola bilməz, Aristoteli geridə qoya bilməzdi. Əgər Şeyx Tusinin[3] "Fiqh"

---

1. İnsanla Allah-Taalanın arasındakı fasilənin uzaqlığına işarədir.

2. İbn Sina (980–1037) Buxara şəhərinə yaxın bir kənddə dünyaya göz açmışdır. Müxtəlif elmi sahələrdə, xüsusən, əqli-fəlsəfi və tibbi elmlərdə qeyri-adi istedada sahib olmuşdur. Müxtəlif elmi əsərləri vardır, o cümlədən: İslam tibbində "Qanun" kitabı, Fəlsəfədə "Şifa", "İlahiyyat", "Təbiiyyat" və "Məntiq".

3. Şeyx Əbu Cəfər Məhəmməd ibn Həsən ibn Əli Tusi (995-1067) "Şeyxut-Taifə" ləqəbi ilə məhurdur. Xorasan vilayətinin Tus şəhərində dünyaya göz açmışdır. Təhsilini təkmillışdirmək üçün İraqa getmiş, Şeyx Müfd və Seyid Mürtəza Ələmul-Huda kimi alimlərin hüzurundan bəhrələnmişdir. Onun çoxlu dəyərli əsərləri vardır və "Təhzibul-əhkam" və "Əl-istibsar" adlı iki dəyərli kitabı şiənin birinci dərəcəli mənbə kitabıdır.

kitabı və keçmiş alimlərin tədqiqat əsərləri özlərindən min il əvvəl yaşamış alimləri ötüb keçən Əllamə Hilli[1], Şeyx Ənsari[2] və Mirzə Şirazinin[3] ixtiyarında olmasaydı, şübhəsiz, o böyük elmi məqama sahib ola bilməzdilər. Bu, aydın bir məsələdir. Birinci şəxs beş manat pulu ikinci şəxsə verir, o da bu beş manatın üstünə beş manat qoyub üçüncü şəxsə, üçüncü şəxs də dördüncü şəxsə on beş manat verir və beləcə, üçüncü şəxs birinci şəxslə müqayisədə daha sərvətlidir; çünki on beş manatı var. Amma bu on beş haradandır? Əgər birinci şəxs olmasaydı, o, bu on beş manata sahib ola biləcəkdimi? Əgər ikinci şəxs olmasaydı necə? Əsla! Bəlkə də, ilk beş manata güclə sahib olacaqdı. Sonrakı nəsillərə çatan şey insanın keçmiş təcrübə və kəşflərinin məhsuludur. Hansı vasitə ilə? Qələmin və yazının vasitəsi ilə!

***“O, insana qələm vasitəsilə öyrətdi.”*** Deməк, Allah-Taala yaratmaqdan da üstün bir məqama sahibdir.

اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ.

***“Oxu! Sənin Rəbbin ən böyük kərəm (bəxşiş) sahibidir!”***

---

1. Həsən ibn Yusif Hilli (1250-1325) ziyalı ailəsində dünyaya göz açmış, Mühəqqiq Hilli və Xacə Nəsrəddin Tusi kimi görkəmli ustadlardan elm öyrənmişdir. Fiqh və hədis, kəlam və fəlsəfə, riyaziyyat və həndəsə kimi elmlərə dərindən yiyiələnmiş və “Əllamə” ləqəbi ilə məşhurlaşmışdır. O, Mühəqqiq Hilli vəfat etdikdən sonra, iyirmi səkkiz yaşında ikən şiə aləminin mərcəi-təqlidi olmuşdur. Onun əhli-sünnə ilə münazirlərindən sonra, İranın monqol hakimi Olcaytu şiəliyi qəbul etmiş və adını dəyişdirib Məhəmməd Xudabəndə qoymuşdur.

2. Şeyx Mürtəza (995-1067) Cabir ibn Abdullah Ənsartinin nəvəsidir və Dezful şəhərində dünyaya gəlmişdir. Anası onu dünyaya gətirməmişdən öncə yuxuda İmam Sadiqi (ə) ona qızıl su ilə bəzənmiş Quran hədiyyə etdiyini görür. O, bir müddət Dezfulda təhsil aldıqdan sonra, Kərbəlaya yollanır və Şeyx Musa Kaşiful-Ğita, Seyid Məhəmməd Mücahid və Hacı Molla Əhməd Nəraqi kimi alimlərin hüzurundan bəhrələnir. “Cəvahir“ kitabının müəllifi Əllamə Məhəmməd Həsən Nəcəfi vəfat etdikdən sonra, şiə aləminin mərcəi-təqlidi məqamına sahib olur. Onun “Məkasib“ kimi dəyərli kitabı hələ də Elmi Hövzələrdə tədris olunur.

3. Mirzə Məhəmmədtəqi (1840-1920) Şiraz şəhərində dünyaya göz açmışdır. O, dini elmlərə yiyələnmək üçün Kərbəla Elmi Hövzəsinə daxil olmuş, tənbəki çəkməyi haram edən Ayətullah Məhəmmədhəsən Şirazinin dərslərindən bəhrələnmişdir. O, Ayətullah Seyid Məhəmmədkazım Yəzdi vəfat etdikdən sonra şiə aləminin mərcəi-təqlidi olur. Yaşlı olmasına rəğmən, ingilislərin əleyhinə mübarizədə ön cəbhədə olur və öz tarixi fətvası ilə İran xalqını ingilislərlə cihada dəvət edir. Onun bu fətvasından sonra İran İngiltərənin müstəmləkəsindən azad olur. Ayətullah Əbdülkərim Hairi onun şagirdlərindəndir.

الَّذِي عَلَّمَ بِالْقَلَمِ.

***“O Rəbbin ki, qələm vasitəsilə öyrətdi.”***

عَلَّمَ الْإِنسَانَ مَا لَمْ يَعْلَمْ

***“O, insana bilmədiklərini öyrətdi.”***

Bütün bunlar Allahın insana bəxş etdiyi nemətlərdir. Odur ki insan bu nemətlərin şükrünü yerinə yetirməlidir. Allah-Taala insana öyrədibsə, ona yolu göstəribsə, qələm veribsə, ağıl və şüur bəxş edibsə, o da mütləq zirvəyə doğru addımlamalı, bir an belə geriyə dönməməli, bədbəxtliyə üz tutmamalıdır. Amma görəsən, bu belədirmi? Növbəti ayədə cavab verilir; sanki, o, güman edir ki, əgər Allah-Taala bəşəriyyəti bu imtiyazla yaradıb tərbiyə edirsə, qələm vasitəsilə öyrədirsə və onu Öz lütfü və kəraminə layiq görürsə, demək, bəşər də bəxbəxtlik və azğınlıqdan, fəsad və zəlalətdən uzaqdır. Amma, görəsən, bu belədirmi? Xeyr, sən güman etdiyin kimi deyil! Bəs, bəşəriyyət hansı durumdadır?

كَلَّا إِنَّ الْإِنسَانَ لَيَطْغَى. أَن رَّآهُ اسْتَغْنَى

***“Xeyr, insan azğınlıq edər; özünü ehtiyacsız gördüyü üçün!”***

Aciz insanların azğınlıq və dikbaşlıqları, zalımların Allah bəndələrinə qarşı hegemonluqları bəşəriyyəti bədbəxtliyə sürüklədi. Bu azğınlıqlar bəşəriyyəti doğru yola yönəlməyə, ilahi dəyərlərdən bəhrələnməyə, Allahın istədiyi kimi tərbiyə və islah olunmağa qoymadı. Bunu azğınlar və zalımlar qoymadı. Onlar özlərini ehtiyacsız (zəngin) gördükdə, dikbaşlıq etdilər, Allahın yolundan çıxdılar. Yenə burada da peyğəmbərə dərs keçilir, onun diqqəti Allahın mərhəmətinə, böyüklüyünə, təlimlərinə, yaradıcılığına, müəllimliyinə, kəramətinə və insanın mümkün məqama çata bilməməsinə yönəldilir. Ayədə ***“Kəlla!” (Xeyr!)*** – sözü işlədilməklə, onun səbəbkarının azğınlar və zalımlar olduğu aşılanır.

Onların azğınlıqlarının səbəbi ehtiyacsızlıq, dövlət və sərvətin çoxluğudur. Başlar dikəldikdə, qüddrətlər qeyri-ilahi simaya düşdükdə, bəşəriyyətin mənzil başına yetməsi qeyri-mümkün olur.

Baxın, bütün bunlar besətin – Peyğəmbəri-Əkrəmin (s) peyğəmbərliynin başlanğıcında o Həzrətə ilham olan və Allahın peyğəmbərinin daxilinə nüfuz edərək onu məşələ çevirən şölələrdir.

***“Kəlla!” (Xeyr!)*** – Siz düşündüyünüz kimi deyil. Elə təsəvvür edirsiniz ki, bəşəriyyətə nizam-intizam hakimdirmi? Xeyr!

إِنَّ الْإِنسَانَ لَيَطْغَى

***“Sözsüz, insan azğınlıq edir.”***

أَن رَّآهُ اسْتَغْنَى

***“Özünü ehtiyacsız gördüyü üçün!”***

إِنَّ إِلَى رَبِّكَ الرُّجْعَى

***“Həqiqətən, sənin axır dönüşün Rəbbinədir!”***[1]

Görəsən, bu azğınlar və zalımlar sonda uğur qazanacaqlarmı? Xeyr! Yenə dönüş Sənin Rəbinədir. İşlərin sonu Allahın və Onun cəbhəsinin xeyrinədir. Bəşəriyyət aləmlərin Rəbbinin müəyyən etdiyi yolla məqsədə çatacaq. Bunda şəkk-şübhə yoxdur. Hamı Ona tərəf dönəcəkdir.

Bu şərif surədə digər mətləblər də vardır ki, Peyğəmbərimizin (s) varlığında yaratdığı inqilab və dönüşlə bağlı bir sıra həqiqətləri ehtiva edir və cəmiyyəti öz şüası ilə işıqlandıran şey həmin dönüşdür.

Əlinizdəki vərəqdə bir hissəsini qeyd etdiyimiz “Nəcm” surəsində də Peyğəmbəri-Əkrəmin (s) həmin daxili dönüşünə işarə edilir. Əlbəttə, digər ayələr də vardır ki, onların hamısının burada qeyd edilməsini zəruri hesab etmirəm. Bu mövzu dəqiq, incə və şirin olduğundan, onun bir qədər əlavə şərh olunmasını məqsədəuyğun görürəm. Onu əməl etmək üçün öyrənmək də faydalıdır.

بسم الله الرحمن الرحيم

وَالنَّجْمِ إِذَا هَوَى مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى

***“Rəhman və rəhmli Allahın adı ilə! Batmaqda olan ulduza and olsun ki, sizin yoldaşınız (dostunuz Muhəmməd (s)) nə haqq yoldan sapmış, nə də azmışdır!”***

Bu surədə Peyğəmbərin (s) daxili dönüşünə və vəhyi alarkən baş verən daxili halına işarə olunsa da, bir çox təfsir kitablarında onun Merac hadisəsi ilə bağlı nazil olduğu vurğulanır. Belə ki, Peyğəmbər (s) bir gecədə baş verən Merac səfərini bəyan edərkən, o Həzrətə qulaq asan olmadıqda, bu surə nazil olur və belə buyurulur:

وَمَا يَنطِقُ عَنِ الْهَوَى

***“O, nəfs istəyindən danışmır.”***

إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى

***“Bu, (Allah dərgahından) göndərilən vəhydən başqa, bir şey deyildir.”***

عَلَّمَهُ شَدِيدُ الْقُوَى

***“Onu çox qüvvətli olan öyrətdi.”***

---

1. “Ələq” surəsi, ayə 1-8.

ذُو مِرَّةٍ فَاسْتَوَى

***“O ağıllı qüvvət sahibi (Peyğəmbərin (s) qarşısında) ayaq üstə dayandı.”***

“Mirrə” sözü “ağıl” və “hikmət” mənasını ifadə edir və əksər təfsir alimlərinin qeydlərinə əsasən, vəhy mələyi Cəbrailə işarədir. Yəni, Allah-Taala Peyğəmbəri (s) Cəbrail vasitəsilə öyrətdi.

وَهُوَ بِالْأُفُقِ الْأَعْلَى

***“O (Peyğəmbər) ən uca üfüqdə idi.”*** Peyğəmbər (s) bu uca məqamına görə peyğəmbərlik məqamına yüksəldi; halbuki (qeyd etdiyimiz kimi,) o Həzrət peyğəmbərliyindən öncə adi insanlarla birgə yaşayırdı.

ثُمَّ دَنَا فَتَدَلَّى

***“Sonra (Peyğəmbər) yaxınlaşdı və daha yaxın oldu.”***

Əgər bu ayədə məqsəd Peyğəmbər (s) olarsa, onun ibadətləri, təfəkkürü, nəfsi ilə mübarizəsi və Allahın ona xüsusi lütfü-nəzəri sayəsində ruhu Allaha yaxınlaşdı və daha da yaxın oldu və beləcə, vəhyi almağa hazır oldu. Bəzi alimlərin qeydlərinə görə, “dəna” sözündə Cəbrailin Peyğəmbərə (s) yaxınlaşması nəzərdə tutulur. Buna əsasən, ayənin mənası belə olur: ***“Sonra Cəbrail Peyğəmbərə yaxınlaşdı və (vəhyi çatdırmaq üçün) özünü ona yetirdi.”***

Hər iki təfsir qeyd olunmuşdur, amma bizim nəzərimizcə, birinci məna daha aşkar, daha yaxındır. (Xülasə şəkildə qeyd etdiyimiz vərəqdə mötərizədə ikinci mənanı belə qeyd etmişəm: Yaxud yaxınlaşdı və özünü yetirdi.) Amma mən özüm birinci mənanı daha çox bəyənirəm.

فَكَانَ قَابَ قَوْسَيْنِ أَوْ أَدْنَى

***“Beləliklə, (onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da az oldu.”***

İki yay (kaman) uzunluğu nə qədərdir? Siz hər yayı bir metr hesab edin, yəni iki yayın uzunluğu iki metrdən ibarətdir. Bu ifadələr istiarə və kinayə xarakterlidir. Peyğəmbərin (s) Allaha yaxın və daha da yaxın olmasında məkan yaxınlığı deyil, ruhunun Allaha daha yaxın olması nəzərdə tutulur. O Həzrətin müqəddəs ruhu Allaha o qədər yaxın oldu ki, insan üçün ondan yaxın bir məsafə təsəvvür oluna bilməz; yəni, yaxından da yaxın.

فَأَوْحَى إِلَى عَبْدِهِ مَا أَوْحَى

***“Sonra (Allah Öz) bəndəsinə vəhy göndərdiyini vəhy etdi.”***

مَا كَذَبَ الْفُؤَادُ مَا رَأَى

***"Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı."***

Peyğəmbər (s) qəlbi müşahidələrində yanılmadı, gördükləri həqiqət idi, yanlış görmədi.

أَفَتُمَارُونَهُ عَلَى مَا يَرَى

***"Siz onunla gördüyü barəsində mübahisəmi edirsiniz?"***

Sonda da bir cümlə qeyd etmişəm ki, bu haqda sabah söz açacağıq. Bir sözlə, Peyğəmbərin (s) daxilində yaranan çevrilişdən sonra onun həyat yolu dəyişilir, fəaliyyətinə yeni rəng qatılır və ciddiyyətlə yoluna davam edir. Onun fəaliyyəti və çalışqanlığında məqsəd nədir? Məqsəd özündə dönüş yarandığı kimi, cəmiyyətdə də inqilab və dönüş yaratmaqdır. Peyğəmbərin (s) missiyası və məsuliyyəti də elə bundan ibarətdir.

## Xülasə

## Cümə axşamı – Ramazan ayının 16-cı günü

## NÜBUVVƏTDƏ BESƏT

Nübuvvət “besət”dən ibarətdir və “besət” sakitlik və aramlıqdan sonra bri növ “dönüş” və “hərəkət” mənasını daşıyır. Bu dönüş öncə peyğəmbərin batini və düşüncəsində, sonra isə cəmiyyətdə və ətraf mühitdə baş verir. Peyğəmbər (s) üstün bir qüvvə ilə bu ağır və əzəmətli məsuliyyəti qəbul etmək qabiliyyətinə sahib olur. Lakin “besət”dən (peyğəmbərlikdən) öncə bu qüvvə özünü göstərmir və o da cəmiyyətin adi bir üzvü kimi, öz işi və fəaliyyəti ilə məşğuldur. İlahi vəhy gəldikdən sonra isə onun daxilində dönüş və çevriliş yaranır, o, peyğəmbərlik məqamına yiyələnir. Kiçik “Zuha” surəsinin ümidverici ayələri sevimli İslam Peyğəmbərinin (s) daxilində baş verən dönüş və çevrilişə işarə edir:

وَالضُّحَى – ***And olsun səhərə!***

وَاللَّيْلِ إِذَا سَجَى – ***And olsun qaranlığı hər yeri bürüyən gecəyə!***

مَا وَدَّعَكَ رَبُّكَ وَمَا قَلَى – ***Rəbbin səni nə tərk etdi, nə də sənə qəzəbləndi.***

وَلَلْآخِرَةُ خَيْرٌ لَّكَ مِنَ الْأُولَى – ***Şübhəsiz ki, gələcək (axirət) sənin üçün əvvəldən (keçmişdən və dünyadan) daha xeyirlidir!***

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَى – ***Həqiqətən, Rəbbin sənə bəxş edəcək və sən razı qalacaqsan!***

أَلَمْ يَجِدْكَ يَتِيمًا فَآوَى – ***Məgər O, səni yetim ikən tapıb sığınacaq vermədimi?!***

وَوَجَدَكَ ضَالًّا فَهَدَى – ***Səni yolunu itirmiş vəziyyətdə görüb yol göstərmədimi?!***

وَوَجَدَكَ عَائِلًا فَأَغْنَى – ***Səni yoxsul ikən ehtiyacsız etmədimi?!***

(“Zuha” surəsi, ayə 1-8.)

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ – ***Yaradan Rəbbinin adı ilə oxu!***
خَلَقَ الْإِنسَانَ مِنْ عَلَقٍ – ***O, insanı laxtalanmış qandan yaratdı.***
اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ – ***Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!***
الَّذِي عَلَّمَ بِالْقَلَمِ – ***O Rəbbin ki, qələm vasitəsilə öyrətdi.***
عَلَّمَ الْإِنسَانَ مَا لَمْ يَعْلَمْ – ***İnsana bilmədiklərini öyrətdi.***
إِنَّ الْإِنسَانَ لَيَطْغَى – ***Sözsüz, insan azğınlıq edir.***
أَن رَّآهُ اسْتَغْنَى – ***Özünü ehtiyacsız gördüyü üçün!***
إِنَّ إِلَى رَبِّكَ الرُّجْعَى – ***Həqiqətən, sənin axır dönüşün Rəbbinədir!***
("Ələq" surəsi, ayə 1-8.)

"Nəcm" surəsində də Peyğəmbərin (s) daxili dönüşünə işarə edilərək buyurulur:

وَالنَّجْمِ إِذَا هَوَى مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى – ***Batmaqda olan ulduza and olsun ki, sizin yoldaşınız (dostunuz Muhəmməd (s)) nə haqq yoldan sapmış, nə də azmışdır!***
وَمَا يَنطِقُ عَنِ الْهَوَى – ***O, nəfs istəyindən danışmır.***
إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى – ***Bu, (Allah dərgahından) göndərilən vəhydən başqa bir şey deyildir.***
عَلَّمَهُ شَدِيدُ الْقُوَى – ***Onu çox qüvvətli olan öyrətdi.***
ذُو مِرَّةٍ فَاسْتَوَى – ***O ağıllı qüvvət sahibi (Peyğəmbərin (s) qarşısında) ayaq üstə dayandı.***
وَهُوَ بِالْأُفُقِ الْأَعْلَى – ***O (Peyğəmbər,) ən uca üfüqdə idi.***
ثُمَّ دَنَا فَتَدَلَّى – ***Sonra (Peyğəmbər) yaxınlaşdı və daha yaxın oldu (yaxud (Cəbrail Peyğəmbərə) yaxınlaşdı və özünü ona yetirdi)."***
("Nəcm" surəsi, ayə 1-12.)

Bir sözlə, Peyğəmbərin (s) daxilində yaranan dönüşdən sonra onun həyat yolu dəyişilir, fəaliyyətinə yeni rəng qatılır və ciddiyyətlə yoluna davam edir ki, özündə dönüş yarandığı kimi, cəmiyyətdə də inqilab və dönüş yaratsın.

Budur Peyğəmbərin (s) missiyası və məsuliyyəti!

## ON ALTINCI MƏCLİS

## NÜBUVVƏT VƏ SOSİAL DİRÇƏLİŞ

Cümə – 1974/10/04
Ramazan ayının 17-si.

بسم الله الرحمن الرحيم

وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ. وَنُمَكِّنَ لَهُمْ فِي الْأَرْضِ وَنُرِي فِرْعَوْنَ وَهَامَانَ وَجُنُودَهُمَا مِنْهُم مَّا كَانُوا يَحْذَرُونَ

***“Biz istəyirik ki, yer üzündə zəiflərə minnət qoyaq və onları rəhbər və varislər edək. Onları yer üzündə yerləşdirib möhkəmləndirək. Firona, Hamana və ordularına onların (zəiflərin) qorxub çəkindikləri şeyi göstərək.”***

“Qəsəs” surəsi, ayə 5-6.

Bu ayələr, eləcə də, “Səff” surəsinin ayələri ilə bərabər digər uyğun ayələrin təfsiri ilə bağlı bəhs etmək istədiyimiz mətləblər üçün ən gözəl başlıq, qeyd etdiyimiz kimi, “Nübuvvət və sosial dirçəliş”dir.

Peyğəmbərin (s) sosial dirçəlişdəki rolunu izah etmək bizim vəzifəmizdir. Bu mövzu ilə əlaqədar bəzi mətləblərə ötən bəhslərdə azacıq işarə etdik və bildirdik ki, besət və ilahi vəhyin başlanması ilə peyğəmbərin öz batini və qəlbində xas dönüş və stimul yaranır. Allah bəyənib seçdiyi bu bəndəsinə güc verməklə bərabər, onun öhdəsinə böyük və ağır məsuliyyət də qoyur. Bundan sonra artıq peyğəmbər dünənki və bir neçə saat bundan öncəki insandan tamamilə fərqlənir və yeni bir insana çevrilir. İslam Peyğəmbərini (s) qəbul etməyən bəzi qərəzli və yaxud qərəzsiz yazıçılar – şərqşünaslar o Həzrətin həyatı haqqında belə yazırlar: “Peyğəmbər (s) peyğəmbərliyindən öncə daim mütaliə və təfəkkür edirdi. O, bu təfəkkür sayəsində o böyük inqilabı yarada bildi.” Əgər onlar bu ifadədə başqa bir məsələni nəzərdə tutmayıblarsa, təbii ki, bu ifadə məhz yalandır.

Peyğəmbər (s) İslam inqilabına təfəkkür sayəsində çatmayıb. Ümumiyyətlə, o Həzrətin özündə ilk vəhydən sonra böyük dönüş yarandı, sanki başqa bir insana çevrildi. Bu isə yalnız İslam Peyğəmbərinə (s) deyil, bütün peyğəmbərlərə xas olan bir məsələdir. Həzrət Musa (ə) öz əhli-əyalı ilə birlikdə adi bir səfərə çıxdığı zaman səhranın ortasında, o həssas anda, ilahi vəhy nazil oldu və o, hər şeyi unutdu. O, peyğəmbər olduğunu hiss etdikdə, bir an öncəki insandan tamamilə fərqləndi, onda xüsusi bir coşğu və stimul yarandı.

İslam inqilabını Peyğəmbərin (s) təfəkkürünün nəticəsi hesab edənlər besətə, nübuvvətə, vəhy və peyğəmbərlərin qeyb aləmi ilə rabitəsinə əsla inanmırlar. Bu sözü deyənlər ya əqidəsiz, ya da qərəzli şərqşünaslardır.

Bəziləri isə qərəzsiz olsalar da məlumatsızlıqdan onu öz kitabları, məqalə və çıxışlarında təkrar edirlər.

Hər halda, besət peyğəmbərlərin varlığında yaranan stimul, inqilab, çevriliş və dönüşdən ibarətdir. (Siz hansı ifadəni istəyirsinizsə, işlədə bilərsiniz.) Onun varlığında bu inqilab və dönüş yarandıqdan sonra, növbə onun xarici mühitdə gerçəkləşməsinə çatır. Peyğəmbərin (s) ruhunda xas şəkildə baş qaldıran həmin dəyişiklik cəmiyyətdə də baş qaldırır. Biz bu mətləbin adını "Nübuvvət və sosial dirçəliş" olaraq qeyd etdik.

Əlbəttə, biz bu bəhsdən sonra nübuvvətlə bağlı digər bəhslərə də toxunacağıq, inşallah! Sabah, bəlkə də o birisi gün bəhs edəcəyimiz mövzu "nübuvvətin hədəfləri" haqdadır və o, daha önəmlidir. Görəsən, bu ictimai dirçəliş və çevrilişdə məqsəd nədir? Bir, ya da iki məclisi bu mövzuya həsr edəcəyik. Ondan sonra digər məsələlər də var ki, imkan daxilində gələcək günlərdə bacı və qardaşların diqqətinə çatdıracağıq.

Biz peyğəmbərlə bağlı qeyd etdiyimiz bu inqilab haqqında nə deyə bilərik? Bu gün sivil dünyada "inqilab" sözü aydın və mənalı bir sözdür. Məlum məsələdir ki, "inqilab" dedikdə, cəmiyyətdə baş verən dərin və fundamental dəyişiklik nəzərdə tutulur. Bu sözdə, birmənalı olaraq, xaos, qırğın və insan ölümündən söz gedə bilməz, ola bilsin ki, kiçik dava-dalaşlar, söz-söhbətlər yaransın, amma sözün özü bu mənanı əsla daşımır.

İnqilabın mənası budur. Bunu sadə bir misalla belə izah edə bilərik: Bu məscidi, onun sütunlarını, divarını və tavanını xüsusi bir quruluş və memarlıq fonunda təsəvvür edin. Yaxud məscidin salonunun mehmanxana tək otaq-otaq olduğunu təsəvvür etdikdə, təbii ki, binanın təməli də tam başqa ölçü və şəkildə dizayn ediləcəkdir. Yaxud da bir oteli dağıdıb yerində məscid, yaxud bank, yaxud da yaşayış binası tikmək istədikdə, onun təməl və fundamenti də dəyişilməlidir, onun yalnız rəngini dəyişmək və yaxud təmir etməklə məscid və ya bank halına salmaq qeyri-mümkündür. Nə üçün? Çünki məscidin xüsusi təməli, divarları, tavanı və memarlıq üslubu tamamilə fərqlidir. Əgər müəyyən məqsəd üçün tikilmiş bir binanı həmin məqsədin tamamilə əksinə olan başqa bir məqsəd üçün istifadəyə verirlərsə, burada mütləq inqilab (əsaslı dəyişiklik) yaradılmalıdır. Burada inqilabın mənası nədir? O deməkdir ki, binanın təməli, sütunları, xarici və daxili divarları, ümumiyyətlə,

binanın dizaynı yeni məqsədə uyğun olaraq əsaslı şəkildə dəyişilməlidir. Buna inqilab deyilir.

Əlli min, yaxud beş yüz min və yaxud da əlli milyondan ibarət bir cəmiyyəti təsəvvür edin. Cəmiyyət dedikdə, müəyyən məqsəd, ümumi proqram, bir xətt və bir yol üzrə bir-birinin ətrafında yaşayan və bir-birinə bağlı vahid topluluq təşkil edən bir qrup insan nəzərdə tutulur. Neçə min və yaxud milyondan ibarət bir cəmiyyətin təşkili iki formada mümkündür; başqa formalar təsəvvür olunsa da, bu iki formanın strukturuna daxil ediləcəkdir: Biri budur ki, həmin cəmiyyətdə azlıq təşkil edən bir qrup insan bütün idarəçilik sistemini, xalqın bütün işlərinə rəhbərliyi öz öhdəsinə götürür, xalqın yolunu və onlara hakim qanunları onlar təyin edir. Bu zaman xalq onların istəyinə qarşı çıxdıqda, şiddətlə məhkum olunur, kimsə onlara "gözünüz üstə qaşınız var" dedikdə, ondan amansızcasına qisas alınır. Belə bir cəmiyyətdə hansısa bir hadisə baş verdikdə, hakim dairə onu cəmiyyətə zərərli də olsa, öz xeyrinə tamamlayır. Belə bir cəmiyyətə hansısa bir bəla üz verdikdə, onların özləri bir kənara çəkilir və xalqı ona sipər edir. Bu da bir növ cəmiyyətdir və onun təməl və quruluşu sosial təbəqələşmə əsasındadır.

Sosial təbəqələşmənin mənası bəzilərinə mürəkkəb görünsə də ötən məclislərdə izah etdiyimiz kimi, mənası çox sadədir. Sosial təbəqələşmənin hakim olduğu cəmiyyətdə hüquqi ayrı-seçkilik var; biri tox, digər isə acdır, biri geniş imkan və imtiyazlara sahib olduğu halda, digəri acından ölür, biri əmr edən, digəri isə tabe olandır, biri zor tətbiq etdiyi halda, digəri ona məhkumdur. Belə cəmiyyətin iqtisadiyyatına da iqtisadi təbəqələşmə hakimdir. Belə cəmiyyətdə hökumət yuxarı təbəqənin tərəfindədir, hüquqi prinsiplər onların xeyrinədir.

İkinci növ cəmiyyət isə fərqlidir. Beş min və yaxud əlli milyondan ibarət bir cəmiyyətdə hamı bərabər yaşayır, heç kim heç kimə zor tətbiq edə bilmir, heç kim heç kimdən, hətta bir nəfərdən belə üstün deyil. Bu cəmiyyətdə "Cənab, sən nə üçün filan işi görübsən?" – deyə soruşduqda, "Yaxşı eləmişəm, ürəyim belə istəyib!" – deyə cavab verən birini tapa bilməzsən. Bu cəmiyyətdə heç kim heç kimə hakim deyil, kimsə başqasının haqqını mənimsəyə bilmir, biri digərindən oğurluq edə bilmir, heç kim heç kimin qarşısında sınmır, əzilmir, zülmə məruz qalmır. Bu beş min və yaxud əlli milyonluq cəmiyyətdə hamı bir qüdrətin əmrinə tabedir və o qüdrət bəşər qüdrətindən üstündür. O kimdir? O Allahdır.

Bu da ikinci növ cəmiyyətdir.

Xülasə, cəmiyyətdə iki cür struktur mövcuddur: Birində xalqın əksəriyyəti kiçik bir qrupun müqabilində kölə və əsirdir, digərində isə xalq bütünlüklə başqa qüdrətlərin əsarətindən azaddır. Birinci strukturda iqtisadiyyat yuxarı təbəqənin və onlara yaxın insanların xeyrinədir. İkinci sturkturda isə cəmiyyət təbəqəsizdir, heç kim heç kimə zor tətbiq edə bilmir. Bu cəmiyyətdə hökumət və iqtisadiyyat hamıya aiddir, başqa sözlə, yaxşılıq da, pislik də hamınındır. Həm narahatçılıq, həm də xeyirxahlıqda hamı bərabər şəkildə şərikdir, bu cəmiyyətdə dünya Cənnətdir.

Birinə zülm, sitəm, zorakılıq, insanların müxtəlif siniflərə ayrılması, başqasının əlinin zəhmətindən bəhrələnmək, quldurluq və ayrı-seçkiliyin, digərinə isə ədalət, insanlıq və azadlığın hakim olduğu bu iki cəmiyyət tarix boyu olub. Burada bəzi səbəblərdən “azadlıq” sözünü xüsusi olaraq qeyd edirəm. Dünyada adı çəkilən bəzi təbəqəsiz cəmiyyətlərdə azadlıqdan başqa, hər şey vardır. Təbəqəsiz cəmiyyətdə rifahla yanaşı, azadlıq hökm sürür, heç kim heç kimin köləsi olmur, heç kim heç kimə zor tətbiq etmir. Qeyd etdiyimiz hər iki cəmiyyət tarix boyu olmuşdur.

Ayrı-seçkiliyin hökm sürdüyü birinci növ cəmiyyəti tarixin zülmkarları, qeysərlər və kəsraları, abad, azad, bərabərlik və insanlığın hökm sürdüyü ikinci cəmiyyəti isə tarixin böyük ilahi peyğəmbərləri yaratmışlar. Soruşa bilərsiniz ki, peyğəmbərlər də cəmiyyəti formalaşdırmışlarmı? Əlbəttə ki, cavab müsbətdir, bəli! Peyğəmbərlər cəmiyyətlər təşkil etmişlər və Quranda onların təşkil etdiyi cəmiyyətlərin nişanəsi çoxdur. Süleymanın (ə), Talutun (ə) və Musanın (ə) əhvalatı, onun müqəddəs torpağa gəlişi və Bəni-İsraili özü ilə aparmaq istəməsi buna bir misaldır. Həzrət Musa (ə) Bəni-İsraili özü ilə hara aparmaq istəyirdi? Vətəndaş cəmiyyəti yaratmaq istəyirdi. (Ola bilsin, sabah və birisi gün bu mövzu haqqında danışaq, indi isə ötəri işarə etmək istədim.)

Bəli, tarix boyu hər iki cəmiyyət olmuşdur. Əqlin və insanlığın pislədiyi cəmiyyətə hər zaman dinə qarşı çıxan zalım siyasi qüdrətlər, ideal cəmiyyətə isə ilahi və mənəvi qüdrətlər, yəni peyğəmbərlər rəhbərlik etmişlər. Peyğəmbərlər nə üçün gəlmişlər? Onlar gəlmişlər ki, birinci növ cəmiyyəti ikinci növ cəmiyyətlə əvəz etsinlər. Bizim bugünkü söhbətimizin həqiqəti bundan ibarətdir.

Adətən, peyğəmbərlərlə bağlı təsəvvür tamamilə başqadır. Xalq elə təsəvvür edir ki, bir cəmiyyətdə zühur edən peyğəmbər böyük hikmət sahibi, dağlar boyda məlumata sahib olan görkəmli alim və mütəfəkkir tək özünə böyük, ya kiçik bir ev seçərək bir otaqda əyləşir və təyin olunmuş saatda camaat dəstə-dəstə gəlib onun elmi və mənəviyyatından bəhrələnir. Onun yanına gələn insanları yaxşılığa dəvət edib pislikdən çəkindirir, onlara: "Ey insanlar, Allah var, Ondan qorxun!" – deyə moizə edir, dəlil-sübut gətirir, bəhs edir, onlardan bir qrupunu hidayət edir və sonra da dünyadan köçüb gedir. Xalq peyğəmbərlərin belə bir insan olduğunu təsəvvür edir.

Halbuki, peyğəmbərlərlə bağlı bu təsəvvür yanlışdır. Qeyd etdiyimiz kimi, ruhu və batinində xüsusi dönüş yaranan peyğəmbər hansısa bir cəmiyyətə göndərildikdə, artıq yorulmaq bilmir, dayanmadan çalışır, cəmiyyətdə hər yanı işıqlandıran məşələ çevrilir, cəmiyyətə hakim vəziyyəti nəzərdən keçirib insan fitrətinə zidd hansı qanun və quruluşun səhv olduğunu gördükdə, onun islahı və dəyişilməsi üçün çalışmağa başlayır; əgər həmin quruluşa sosial təbəqələşmə, ayrı-seçkilik, zülm, haqsızlıq və hərc-mərclik hakimdirsə, onun aradan qaldırılıb tövhid cəmiyyəti ilə əvəz edilməsi üçün hərəkətə başlayır.

Bəs tövhid cəmiyyəti necə olur? "Tövhid" bəhsində qeyd etdik ki, tövhid təbəqələri inkar edir, ilahi tövhid Allahın qüdrət və hakimiyyəti deməkdir; hər bir şey – qanunlar və ənənələr Allah tərəfindən ilham olunur.

İlahi tövhidin hakim olduğu cəmiyyətdə hamı Allahın bəndəsi olmalı, heç kim heç kimin köləsi olmamalı, bəndələr köləlik əsarətindən azad olmalıdır. Peyğəmbər bu hədəflə, bu ideya ilə, bu təfəkkürlə cəmiyyətə daxil olaraq sosial təbəqələşməni aradan qaldırmaq, təbəqəsiz, zülm və ayrı-seçkilikdən uzaq, aləmlərin Rəbbinin hakimiyyətinə müti bir cəmiyyət qurmaq üçün dayanmadan çalışmağa başlayır. Peyğəmbərlərin (s) missiyası budur!

(Buna peyğəmbər olmayan və sizin az-çox tanıdığınız məşhur şəxsiyyətlərdən misal göstərə bilərdim, lakin dini-məzhəbi bir məclisdə dinsizlərin adını çəkmək istəmirəm.)

Bəli, peyğəmbərlər cəmiyyətdə dönüş yaratmaq üçün gəlmişlər; onların qan tökmək, dava-dalaş salmaq üçün gəldiyini demirəm, əsla! Demirəm ki, camaatı bir-birinin canına salmaq üçün gəlir, qətiyyən!

Qeyd etdiyimiz kimi, "inqilab", "çevriliş" və "dönüş" sözlərində qətl-qarətdən, kiminsə burnunun qanamasından söz gedə bilməz. Əlbəttə, ola bilər ki, digər adi işlərdə olduğu kimi, inqilab zamanı da dava-dalaş düşsün, kimsə kimsəni qanına qəltan etsin, amma dava-dalaşsız inqilab da mümkündür. Birinci dünya müharibəsi nə üçün baş verdi? Dünyanın bir guşəsində bir vəzifə sahibinə – Avstriya taxt-tacının vəliəhdinə qarşı kiçik sui-qəsd nəticəsində baş verir və bütün dünyanı öz ənginə alır. Kiçik bir sui-qəsdin bütün dünyada müharibə odunu qalaması mümkündür. Bir inqilab zamanı insan tələfatı ola da bilər, olmaya da bilər. "İnqilab" sözündə "tələfat", "ölüm", "ikitirəlik" və "qırğın" məfhumları yoxdur.

Peyğəmbər cəmiyyətin içinə daxil olub öz inqilabından söz açdıqda, hamı yekdilliklə ona qulaq asarsa, xaosdan, dava-dalaşdan söz gedə bilməz. Misal üçün, Firona: "Sən İsrail oğullarına zülm edir, cəmiyyəti müxtəlif təbəqə və siniflərə ayırırsan, sən o taxtda oturmağa layiq deyilsən, orada oturmamalısan!" – deyildiyi zaman Firon da onu dinləyib qəbul edərdisə, peyğəmbər öz qüdrətli və məharətli əli ilə və dava-dalaşsız yeni cəmiyyət qurmağa başlayacaqdı. Allah-Taalanın Qurani-Kərimdə: وَكَأَيِّن مِّن نَّبِيٍّ قَاتَلَ مَعَهُ رِبِّيُّونَ كَثِيرٌ ***"Neçə-neçə peyğəmbər bir qrup allahpərəstlə birlikdə (düşmənə qarşı) vuruşmuşdur."*** [1] – deyə buyurduğu kimi, peyğəmbərlərin inqilabında dava-dalaş baş qaldırıbsa da bunun səbəbi inqilabın kəskin üzünə tuş gələn elit təbəqənin inqilabla razılaşmaması və imtiyazlarını əldən vermək istəməməsi idi. Əgər onlar da haqqın yoluna gəlsəydilər, həqqı həqiqətən də tanıyıb qəbul etsəydilər, daxilən dəyişən, haqqa tapınan və cəmiyyətin digər üzvləri kimi peyğəmbərlərin haqq dəvətini qəbul edən tarixin bir çox siyasi və iqtisadi öndərləri kimi, onlar da təslim olsaydılar və zirvədən aşağı enməyə razılıq versəydilər, qırğınlar və müharibələr da baş qaldırmazdı.

Demək, peyğəmbərlər cəmiyyəti dəyişmək üçün gəlmişlər. Necə dəyişmək? Misal üçün, Peyğəmbəri-Əkrəmin (s) zamanında Ərəbistan cəmiyyəti ayağa qalxıb deməli idi ki, bu cəmiyyətin sərvəti, qaynayıb daşan sərvət mənbələri nə üçün azlıqda olan elit təqəbənin əlində olmalıdır? Axı, nə üçün? Axı, nə üçün kölələr və qullar vəzifə sahiblərinin maraqlarının cəfasını çəkməlidir? Axı, nə üçün zəif təbəqə Əbu Ləhəblərin, Əbu Cəhllərin və Vəlid ibn Müğeyrələrin nəfsi

---

1. "Ali-İmran" surəsi, ayə 146.

istəklərinin təmin olunması üçün zülmə məruz qalmalıdırlar? Axı, nə üçün hamı eyni təbəqədə olmamalıdır?

النَّاسُ سَوٰاءٌ كَأَسْنَانِ الْمُشْطِ

*"İnsanlar daraq dişləri tək bərabərdirlər."*[1]

Bir darağı əlinizdə tutsanız, onun əvvəlindən sonuna kimi dişlərinin birinin böyük, birinin isə kiçik olduğunu görə bilməzsiniz, çünki hamısı bərabər və eyni ölçüdədir. Necə də gözəl! İnsanlıq da belədir. İnsanlar da daraq dişləri tək bir-birilə bərabərdirlər. Bu da Peyğəmbəri-Əkrəmin (s) nidasıdır:

كلُّكم من آدمَ، و آدمُ خُلقَ من ترابٍ

*"Hamınız Adəmdənsiniz və Adəm də torpaqdan yaranmışdır."*[2]

İnsanlar Həzrət Adəmin (ə) övladlarıdırlar.

Məkkənin filan yerində özünə göydələn ucaldan biri yaxşı yeyib içməli, bütün iqtisadi gəlirlər onun inhisarında olmalı, başqaları isə onun köləsi və saribanı olmalıdır. Bütün mənfəətlər onun olduğu kimi, hələ Məkkənin müqəddəratını da o həll edir. Əslində isə insanlıq gövhəri baxımından ağa ilə kölə arasında heç bir fərq yoxdur, hər ikisi bərabərdir. Axı, nə üçün o, bu qədər bəhrələnməli, bu zavallı isə qəfəsdə bir qanad belə çala bilməməlidir? Axı, nə üçün? Axı, hamı bərabər şəkildə bəhrələnməlidir! Zühur edən peyğəmbərlərin dəvət və missiyası bunlardan ibarətdir. Onlar gəlmişlər ki, cəmiyyəti yanlış və uyğunsuzluqdan, zülm və haqsızlıqdan çıxarıb haqq və ədalətlə bəzəsinlər. Bu bir mətləb! Peyğəmbərlərin inqilabı və onların zühur etməkdə məqsədi budur. Bir sözlə, bunu bilin ki, heç bir peyğəmbər həyatın cüzi məsələlərini bəyan etmək üçün gəlməyib!

Əlbəttə, "Ulul-əzm" adı ilə tanıdığımız böyük peyğəmbərlər ilahi inqilabların əsası hesab edilirlər. Digər peyğəmbərlər də onların inqilabını davam etdirmiş, bəziləri onların missiyalarını təkmilləşdirmiş, bəziləri də təhrifə məruz qalmış ilahi inqilabı yenidən dirçəltmiş, həqiqətdə, yeni inqilab yaratmışlar. Bizim Peyğəmbərin (s) vəfatından sonra o Həzrətin vəsilərinin – Əmirəlmöminin Əlinin (ə), İmam Hüseynin (ə) və digər imamların hərəkatını, İslam ümmətinin fəaliyyətini, xüsusən, əsrin sahibi İmam Məhdinin (ə.f.) missiyasını buna

---

1. "Tuhəful-uqul", İmam Sadiqdən (ə) nəql olunan hədislər.
2. "Biharul-ənvar", "İman və küfr" başlığı, "Məkarimul-əxlaq" bölməsi, 56-cı bölmə, hədis 10.

misal göstərə bilərik.

Bu inqilabla bağlı diqqəti cəlb edən suallardan biri budur: Cəhalətin hökm sürdüyü sistem və quruluşun nə eybi var? Ədalətli quruluş olmasa, nə olar? Mövcud vəziyyəti dəyişmək üçün bu qədər əzab-zəiyyətə qatlaşan və işgəncələrə sinə gərən peyğəmbərlər inqilab etməsəydilər, nə olardı? Olmazdımı ki, elə keçmiş vəziyyət hökm sürsün? Nə üçün keçmiş quruluş yanlışdır? الحق لمن غلب – "*Haqq qələbə çalanındır*", "*Bacarana can qurban*", "*Çalış ayaq altında qalma*" və "*Hər şey onların əlindədir, qoy dağıtsınlar, istədiklərini etsinlər*"*– ideyası hökm sürsəydi, nə baş verərdi? Peyğəmbər (s) özünü nə üçün oda-közə atmalıdır ki? Nə üçün?*

Bu da bir sualdır. Deyə bilərsiniz ki, bu nə sualdır, bu sualı heç soruşan da yoxdur. Düzdür, bu sualı soruşan yoxdur, lakin cahilanə və zalım quruluş müqabilində peyğəmbərlərin mövqeyinə qarşı çıxanların əksəriyyətinin daxilində bu sual dolanır və hələ də cavabsızdır. Səbəbi isə budur: Peyğəmbərlər yersiz addım atmır, boş yerə özünü oda-közə vurmur, mövcud cahilyana quruluşun insanlıq fitrətinə zidd və görmək istədiyi işin də haqq olduğunu – insanlıq fitrətinə əsaslandığını görür.

**Haqq və batil:** Siz bu iki sözə Quranın hər bir yerində təkrar-təkrar rast gəlmisiniz, qeyd edilən yerlərdən biri də haqq ilə batilin qarşıdurmasıdır. Onlarla Quran ayəsində bunu görmək olar. Burada haqq ilə batilin izahında qeyd etdik ki, özünəməxsus şəkildə bu dünyada gəzib dolanan insan bir sıra xüsusiyyət, imkan və ehtiyaclara sahibdir. Onun yaşadığı bu dünya da bir sıra xüsusiyyət və şərtlərə malikdir və müəyyən istiqamətə doğru hərəkətdədir. Gözünüzlə gördüyünüz bu dünyada hər bir şeyin öz işi, öz missiyası var. Günəşlə filan planetin arasındakı məsafə milyonlarla ildən ibarətdir. İnsanın zahirdə gül-çiçəklərlə, heyvanlarla heç bir rabitəsi yoxdur. Bu, allahpərəst birinin nəzərində ayrılığı mümkün olmayan bir vəhdətdir. Bütün aləmə vəhdət və birlik hakimdir, onun bütün üzvləri bir bədənin üzvləri kimidir. Bədənin hərəkəti zamanı bütün üzvlərinə münəzzəm və nizamlı bir hərəkət hakim olduğu kimi, bu aləm də o qəbildəndir.

İnsanın eyni zamanda həm gözü, həm ağciyəri, həm də beyni fəaliyyətdədir. Bütün bunların hasili müştərək funksiyadan ibarətdir. O nədir? O, insanın yaşaması, hərəkət etməsi, işləməsi və həyatına davam etməsidir. Sizin bu dünyada müşahidə etdiyiniz yer kürəsi və digər planetlərin hərəkəti kimi bütün hərəkətlərin hasili bir yerdə birləşir.

Dünyanın bütün varlıqlarında belə bir sistemlilik və münəzzəmlik vardır, lakin insan bundan istisnadır və o, vahid hərəkət xəttindən çıxır. [1] İnsandan başqa, digər varlıqlarda əql və şüur yoxdur. Onlar iradə və ixtiyara sahib olmadıqlarından, istər-istəməz bu ümumi yolda birgə addımlayırlar. İnsan isə iradə və ixtiyara sahib olduğundan, yoldan sapa , dünya karvanından ayrılıb əks istiqamətdə hərəkət edə bilir. Bu karvandan ayrılan və onun vahid yolundan çıxan yeganə varlıq insandır. Əgər digər varlıqlar öz təbii yolundan çıxırsa, onu yoldan çıxaran da elə insandır. Misal üçün, insan uraniumdan minlərlə xəstəlik üçün dərman hazırlamaq əvəzinə, onu öz təbii funksiyasından çıxarıb başqa məqsəd üçün istifadə edir – atom bombası düzəldib milyonlarla insanı qətlə yetirir. Bunu da insan edir, yoxsa uraniumun özü öz təbii yolundan heç vaxt çıxa bilməz. O, öz adi yoluna davam etməkdədir. LCD (el-si-di) dərman preparatından ağrıkəsici kimi istifadə etmək əvəzinə, ondan narkotik maddə kimi istifadə etdilər və nəticədə, gəncləri narkotik maddə aludəçisinə çevirdilər. Bu isə dərman preparatının yox, yenə də insanın günahıdır.

Günəş, yer kürəsi, digər planetlər, bu möhtəşəm dünyanın böyüklü-kiçikli varlıqları sizin üçün təsvir etdiyim bu karvanın üzvləridir və hamısı başıaşağı öz yollarında hərəkət edirlər. Bu varlıqlar içində iradə və ixtiyar sahibi olan, bəzən şeytana uyub yolunu azan, gah sağa, gah da sola dönən, bəzən dilsiz-ağılzsız digər varlıqları öz ardınca çəkib aparan, uraniumdan, LCD və morfin dərman preparatından (ağrıkəsici kimi istifadə etmək yerinə) qeyri-insani məqsədlər üçün istifadə edən, onlardan bəşərin xeyrinə istifadə etmək əvəzinə, onun zərərinə istifadə edib ölümə məhkum edən insandır. Bu xüsusiyyətlər yolunu azmış insanlara aiddir.

Bu xüsusiyyətlərə, iradə və ixtiyara, özünü islahetmə iqtidarına sahib olan insan üçün mütləq qanun çıxarılmalı və onun karvandan ayrı düşməməsi üçün o, mütləq müəyyən xətt üzrə hərəkət etməlidir. O, bu xətdən çıxdığı təqdirdə, bilməlidir ki, onun həmin karvandan ayrı düşməsi qaçılmazdır. Bu, nə deməkdir? O deməkdir ki, qanun insana mütləq lazımdır. Bu qanunun adı nədir? Onun adı haqdır! Sözsüz,

---

Bu məsələyə bir qədər diqqət ayırmalısınız. O gün də qeyd etdim. Bəhs zamanı həmişə mətləblərin su kimi axar olmasını gözləməyin. Özünüz də bir qədər zəhmət çəkin, düşünün, araşdırın və mətləbi həzm edin.

dünyanın və onun tərkib hissəsi olan insanın fitrəfinə uyğun olan "haqq" adlı qanun elə onun öz xeyrinədir.

Batil nədir? Batil dünya və insanın fitrətinə zidd olan qanun və ənənələrdən ibarətdir və onu yaradanlar quldurlar, şeytanlar və haqq yoldan azanlardır. Peyğəmbərlər həmişə haqqı gətirmişlər ki, batil aradan qaldırılsın. Fironun təşkil etdiyi cəmiyyətdə insanlar neçə qrupa bölünmüşdü. Onlardan bir qrupu zülm və işgəncələr altında inləyir, bir qrupu isə rifah içində yaşayırdı. Bu quruluş isə, sözsüz, batildir. Peyğəmbərlər bu batil quruluşu dağıtmaq və onun yerində haqqı bərpa etmək üçün gəlmişlər. Onlar məhz haqq və onun dirçəlişi uğrunda özlərini oda-közə atırdılar, çünki haqq yalnız onların dedikləri və istəklərindən ibarət idi. Onlar haqqı batillə əvəz etmək üçün yorulmadan çalışır, dözülməz əzab-əziyyətlərə sinə gərir və işgəncələrə məruz qalırdılar. Peyğəmbərlərin işi və missiyasının şərhi budur!

Bir sözlə, peyğəmbərlər cahilanə quruluşu ilahi quruluşla əvəz etmək istəyirdilər. Sosial təbəqələşməni, zülmkarlığı, istismarçılığı və bu kimi qeyri-insani rəftarları bir ifadədə çatdırmaq üçün ən gözəl və dolğun ifadə "cahilanə quruluş"dur. Cahilanə quruluş dedikdə, insanlıq fitrətinə zidd, ədalətsiz və qeyri-insani quruluş nəzərdə tutulur. Peyğəmbərlər cahilanə quruluşu, yanlış sosial sistemi, nəfsi istəklər və şəxsi maraqlar üzərində formalaşmış cəmiyyəti aradan qaldırıb onun yerində ilahi hökuməti, tövhid cəmiyyətini və düzgün sosial sistemi bərpa etmək istəyirdilər. Elə buna görə də, zalımlarla tövhid şüarı vasitəsilə mübarizə aparırdılar. (İnşallah, bir gün də peyğəmbərlərə qarşı çıxan və müxalif mövqedən çıxış edən şəxslər haqqında söhbət edərik.)

Bu gün tilavət edəcəyimiz ayələr "Qəsəs" surəsindəndir və bu ayələr qeyd etdiyimiz vəziyyəti – Fironun cahilanə hakimiyyəti və Həzrət Musanın (ə) onun hökumətinin yerində haqq hökumətini bərpa etməsi məsələsi, eyni zamanda, bir-birinin müqabilində duran bu iki cərəyanın vəziyyəti – şərh olunur, sonda Həzrət Musaya (ə) tabe olan tövhid əhli uğur və qələbə ilə müjdələnir. Səbəbi də aydındır. Bu da nəzərdə tutduğumuz digər mövzulardan biridir ki, tədricən nəzərinizə çatdıracağıq. Nübuvvətin sonu nədir? Fəth və qələbədir. Nə üçün? Çünki dünya və insanın fitrəti ilə uyğundur.

Bu mətləblər bizim indi tilavət edəcəyimiz bir neçə ayədə icmali şəkildə qeyd edilən və nəzərdə tutulan mətləblərdir. İndi isə ayələrin

tərcüməsinə diqqət yetirin. (Xahiş edirəm əlinizdəki yazıya diqqət yetirin və kimin əlində Quran varsa, açıb baxsın.)

بسم الله الرحمن الرحيم

طسم.

"Ta, sin, mim." Bu, "Qəsəs" surəsinin birinci ayəsində qeyd olunan ilk rəmzdir. Onunla bağlı bəhs böyük əhəmiyyət kəsb edir. Bu rəmz nədən ibarətdir? Təfsir alimləri bu məsələyə toxunduqları üçün bizim bu bəhslə işimiz yoxdur.

تِلْكَ آيَاتُ الْكِتَابِ الْمُبِينِ

***"Bu, açıq-aydın Kitabın ayələridir!"***

نَتْلُوا عَلَيْكَ مِن نَّبَإِ مُوسَى وَفِرْعَوْنَ بِالْحَقِّ لِقَوْمٍ يُؤْمِنُونَ

***"Biz inanan bir tayfa üçün sənə Musanın və Fironun hekayəsindən (bir qismini) olduğu kimi (həqiqət olaraq) söyləyəcəyik."***

Qurani-Kərimdə peyğəmbərlərin əhvalatı və onların başlarına gələnlərin müəyyən bir qisminin nəql olunmasında xüsusi məqsəd izlənilir və əhvalatın həmin məqsədə uyğun hissəsi seçilib nəql olunur. Burada da xüsusi bir məqsədlə Həzrət Musa (ə) və Fironun əhvalatının qısa bir hissəsinə işarə edilir ki, o da haqqın batilə qələbəsidir. (Əlbəttə, biz burada bu əhvalatın həmin hissəsinə toxunmayacağıq.)

***"Biz mömin bir tayfa üçün sənə Musanın və Fironun hekayəsindən mühüm bir hissəni həqiqət olaraq söyləyəcəyik."***

Ayədə qeyd olunan "bil-həqq" sözündə bu əhvalatın əfsanə olduğu yox, haqq və həqiqət olduğu nəzərdə tutulur və onun iman gətirənlər üçün faydalı olduğu vurğulanır. Yəni, ey Peyğəmbər, bu əhvalat sənə iman gətirən möminlərə təsirli və faydalıdır! Onlar bu əhvalatı bu düşüncə ilə dinləyib ondakı ilahi qanunauyğunluqlar üzərində düşündükdə, yollarını ayırd edəcəklər. Bir sözlə:

إِنَّ فِرْعَوْنَ عَلَا فِي الْأَرْضِ

***"Həqiqətən, Firon yer üzündə özünü üstün tutdu",*** dikbaşlıq və təkəbbürlük etdi. ***"Özünü üstün tutdu"*** nə deməkdir? Yəni, insanlar bərabər və eyni səviyyədə olduğu halda, o, insanlar içindən baş qaldırıb taxt üzərində əyləşərək özünü başqalarından üstün bildi.

إِنَّ فِرْعَوْنَ عَلَا فِي الْأَرْضِ

***"Həqiqətən, Firon yer üzündə özünü başqalarından üstün tutdu."***

وَجَعَلَ أَهْلَهَا شِيَعًا

***"Yer üzünün əhalisini də zümrələrə böldü."*** Haman kimi bir

zümrəni özünə yaxınlaşdırdı, digər bir zümrəni isə alçatdı, öz cəmiyyətini siniflərə və təbəqələrə ayırdı.

يَسْتَضْعِفُ طَائِفَةً مِّنْهُمْ

***“Onların arasında olan bir tayfanı zəifliyə sürüklədi.”*** Firon cəmiyyəti müxtəlif təbəqələrə bölməklə bərabər, bir təbəqəyə qarşı təzyiqləri artırdı, həmin təbəqəni zəifliyə sürüklədi, yəni bir qrup insana qarşı zülmünü artırdı, onları zəiflətdi, gücsüz vəziyyətə saldı, zülmə məruz qoydu, onları xar, zəlil və bütün imkanlardan məhrum etdi. Bir sözlə, onların cəmiyyətdə inkişafına mane oldu, onları bütün tərəqqi imkanlarından məhrum etdi. Əgər sosial məsələlər haqqında mütaliə edib sosiologiya ilə bağlı kitablara baxsanız, xüsusən, dünyanın üçüncü ölkələrində bunu açıq-aydın görəcək və dərk edəcəksiniz ki, bütün tərəqqi imnkanları xas bir zümrəyə aiddir, başqaları isə nəfəs ala, irəliləyə bilmir, irəliləyib tərəqqi etdikdə də elit təbəqənin istismarına məruz qalır. Firon öz cəmiyyətində bir qrup insanı hədsiz işgəncələr altında saxlayır və zəiflədirdi. İşgəncəsi də onların gənc nəslini öldürmək idi.

يُذَبِّحُ أَبْنَاءهُمْ

***“Onların oğlan uşaqlarını öldürürdü.”*** Gələcəkdə gənc nəslin hərəkətə keçəcəyini və fəal qüvvələrə çevriləcəyini hiss etdikdə, onların artımına mane olurdu. O günün sosial durumunda qadınlar sosial məsələlərə dəxalət etmirdilər, bütün çətinliklər və təzyiqlər oğlanların çiyninə yüklənmişdi. (Əlbəttə, bu barədə məlumatınız var, nəql olunan rəvayətləri eşidib oxumuşuq.) O, bilirdi ki, bu gənclərin içindən “Musa” adlı biri meydana çıxacaq və onun dünyasını alt-üst edəcək. Rəvayətlərin zahirindən belə anlaşılır ki, bir kahin ona bu barədə məlumat vermiş və demişdi ki, bu xüsusiyyətlərə sahib “Musa” adlı bir oğlan dünyaya gələcək və yaxud Firon uzaqgörən bir şəxs olduğu üçün başa düşmüşdü ki, haçansa Bəni-İsrailin yeni nəslindən böyük və fədakar bir insan meydana çıxacaq. O, bu məsələdən qorxduğu üçün gənc oğlanları qətlə yetirirdi.

وَيَسْتَحْيِي نِسَاءهُمْ

***“Qızlarını isə sağ buraxırdı.”*** Qızları sağ buraxmaqda məqsədi ya onları pozğunluğa çəkmək, ya da Bəni-İsrail nəslini korlamaq və iffətsizliyə sürükləmək idi; Bəni-İsraildən olan qızlar Firon nəslinin oğlanları ilə evlənmirdilər. Firon o nəslin oğlanlarını öldürməklə

qızlarını öz nəslinin oğlanlarına qatmaq və Bəni-İsrail nəslini öz nəslinə qarışdırmaq (və beləcə, həmin nəslin saflıq və paklığını aradan qaldırmaq) istəyirdi. "Bəqərə" surəsinin ilk ayələrinin təfsirində hansısa əlamətdar bir gündə qeyd etdim ki, Bəni-İsrail dörd yüz il Fironun qəddar və haqsız hakimiyyəti müqabilində müqavimət göstərmiş və öz şərafətli əqidələrini qoruyub saxlamışdı.

Bu da iki zümrə arasında qarşıdurmaya səbəb olmuşdu; bir tərəfdə Fironun cəbhəsi dayanmışdı:

إِنَّهُ كَانَ مِنَ الْمُفْسِدِينَ

***"O, həqiqətən, fitnə-fəsad törədənlərdən idi!"*** O, cəmiyyəti fitnə-fasada və pozğunluğa sürükləyirdi. "Bəqərə" surəsinin başqa bir ayəsində belə buyurulur:

وَإِذَا تَوَلَّى سَعَى فِي الأَرْضِ لِيُفْسِدَ فِيِهَا وَيُهْلِكَ الْحَرْثَ وَالنَّسْلَ وَاللّهُ لاَ يُحِبُّ الفَسَادَ

***"Üz döndərən kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli məhv etməyə çalışar. Halbuki, Allah fitnə-fəsadı sevməz!"***[1]

Firon kimilərin xasiyyəti yer üzündə fitnə-fəsad törətmək, insanları azğınlığa çəkmək, mənəvi zəxirələrin fayda və nəticə verməsinə maneçilik yaratmaq, yaxud da yanlış nəticə təqdim etməkdir. Firon da belə idi.

Bunun müqabilində, haqq necədir? Allahın iradəsi və ilahi qanunauyğunluq nədən ibarətdir?

وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ

***"Biz istəyirik ki, yer üzündə zəiflərə (İsrail oğullarına) minnət qoyaq."***

Burada Allahın təkvini iradə və istəyi, ilahi qanunauyğunluq yalnız İsrail oğullarına və onların yaşadığı dövrə aid deyil, hər zamana aiddir. Biz istəyirik ki, zəiflərə, gücsüzlərə, qəzəb pəncəsində və zəiflik əsarətində çapalayanlara minnət qoyub onları alçaqlıqdan xilas edək, zəiflikdən çıxaraq.

وَنَجْعَلَهُمْ أَئِمَّةً

***"Onları rəhbərlər edək."*** Zəifləri tabeçilikdən çıxarıb rəhbərlik və öndərlik məqamına yüksəldək, dünyaya və dünyanın qüdrət sahiblərinə hakim edək.

وَنَجْعَلَهُمُ الْوَارِثِينَ

***"Onları (yer üzünün xeyir işlərinə) varis edək."***

---

1. "Bəqərə" surəsi, ayə 205.

Bizim iradə və istəyimiz bundan ibarətdir.

وَنُمَكِّنَ لَهُمْ فِي الْأَرْضِ وَنُرِي فِرْعَوْنَ وَهَامَانَ وَجُنُودَهُمَا مِنْهُم مَّا كَانُوا يَحْذَرُونَ

***“Onları yer üzündə yerləşdirib möhkəmləndirək, Firona, Hamana və ordularına onların (zəiflərin) qorxub çəkindikləri şeyi göstərək.”***

Firon və Haman hər biri ayrı-ayrı təbəqələrin nümayəndələri və simvolları idilər. Firon elit təbəqənin birinci şəxsi və hətta Haman belə ona tabe idi. Haman da başqa bir təbəqənin – bütün güc və imkanlarını Firona xidmətdə sərf edən təbəqənin – nümayəndəsi və simvolu idi. Lakin Allah-Taala Firona, Hamana və ordularına zəif salınmışların qorxub çəkindikləri şeyi göstərdi. Fironla Hamanın qorxub çəkindiklərini başlarına gətirmək, güc və qüdrətləri onlardan alıb hər bir cəmiyyətdə çoxluq təşkil edən zəif və gücsüzlərə vermək istəyirik.

Ayənin davamında Allahın qüdrətinə işarə olunur:

وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ

***“Biz Musanın anasına ilham etdik ki, onu (Musanı) əmizdir...”***[1]

“Səff” surəsindən seçib sizə oxuduğumuz ayədə də yenə ilahi quruluşun cahilanə quruluşa qələbəsindən söz açılır. Əlbəttə, biz burada ayənin qələbə yönünə yox, peyğəmbərlərin cahilanə quruluş müqabilindəki missiyası, haqqa və tövhidə əsaslanan ilahi quruluş təşkil etməsi yönünə toxunduq.

1. “Qəsəs” surəsi, ayə 7.

## Xülasə

**Cümə axşamı – Ramazan ayının 17-ci günü**

## NÜBUVVƏT VƏ SOSİAL DİRÇƏLİŞ

Peyğəmbərlər cəmiyyət azğınlıq və zəlalətdə olduğu zaman zühur edirlər ki, ictimai durumu sahmana salıb gözəlləşdirsin, bəşəriyyətə təkamül bəxş etsin və onun fitrəti ilə uzlaşan düzgün humanitar quruluş yaratsın, başqa sözlə, batili məhv edib onun yerində haqqı bərpa etsinlər. Bu zaman dünyanın fitrət və təbiəti ilə uzlaşan və səsləşən bəşər fitri olaraq təkamülə doğru hərəkət edəcək, ruhani və cismani parametrlərinə uyğun qayda-qanunlarla (haqq ilə) udarə olunacaq, təbii sürətlə onun üçün müəyyən olunmuş təkamülə doğru addımlayacaq. Tarix boyu insanlıq yolunu cəhalət və qərəzçilik dəyişmiş, qeyri-insani sistemin yeridilməsi ilə o, fitrətə doğru hərəkətindən kənarda qalmışdır. Peyğəmbərlər gəlmişlər ki, bəşəri bu yoldan çəkindirsinlər.

Bu mətləbdən anlaşılır ki, peyğəmbərlər öz dövrünün nadan və azğın cəmiyyətini əsaslı və hərtərəfli dəyişmək, yanlış sosial sistemi dəyişib yerində düzgün və haqq sistemi qoymaq üçün gəlmişlər. Peyğəmbərlərin besətindən sonra cəmiyyətdə baş qaldıran dönüş və çevriliş də məhz bundan ibarətdir. Bu böyük dönüş və çevriliş sayəsində bütün cahilanə ayinlər, qanunlar və göstərişlər (cahilanə dinlər) aradan qaldırılır və ilahi dindən ibarət olan düzgün sistem və ayin onun yerini doldurur. “Qəsəs” surəsinin ilk ayələrini diqqətlə izlyək; bu ayələrdə Fironun insanlığa və Həzrət Musanın (ə) gətirdiyi ilahi-fitri sistemə zidd sistem haqqında söz açılır və onun mütləq aradan qaldırılıb yerində Allahın qanunlarının bərpası açıq-aşkar müşahidə edilir:

تِلْكَ آيَاتُ الْكِتَابِ الْمُبِينِ – ***Bu, açıq-aydın Kitabın ayələridir!***

نَتْلُوا عَلَيْكَ مِن نَّبَإِ مُوسَى وَفِرْعَوْنَ بِالْحَقِّ لِقَوْمٍ يُؤْمِنُونَ – ***Biz inanan bir tayfa üçün sənə Musanın və Fironun hekayəsindən (bir qismini) olduğu kimi (həqiqət olaraq) söyləyəcəyik.***

إِنَّ فِرْعَوْنَ عَلَا فِي الْأَرْضِ – ***Həqiqətən, Firon yer üzündə özünü üstün tutdu.***

وَجَعَلَ أَهْلَهَا شِيَعًا – ***Yer üzünün əhalisini də zümrələrə böldü.***

يَسْتَضْعِفُ طَائِفَةً مِّنْهُمْ يُذَبِّحُ أَبْنَاءهُمْ وَيَسْتَحْيِي نِسَاءهُمْ – ***Onların arasında olan bir tayfanı zəifliyə sürüklədi. Onların oğlan uşaqlarını öldürür, qızlarını isə sağ buraxırdı.***

إِنَّهُ كَانَ مِنَ الْمُفْسِدِينَ – ***O, həqiqətən, fitnə-fəsad törədənlərdən idi!***

وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ – ***Biz istəyirik ki, yer üzündə zəiflərə (İsrail oğullarına) minnət qoyaq.***

وَنَجْعَلَهُمْ أَئِمَّةً – ***Onları rəhbər və hakimlər edək.***

وَنَجْعَلَهُمُ الْوَارِثِينَ – ***Onları varislər edək.***

وَنُمَكِّنَ لَهُمْ فِي الْأَرْضِ وَنُرِي فِرْعَوْنَ وَهَامَانَ وَجُنُودَهُمَا مِنْهُم مَّا كَانُوا يَحْذَرُونَ – ***Onları yer üzündə yerləşdirib möhkəmləndirək, Firona, Hamana və ordularına onların (zəiflərin) qorxub çəkindikləri şeyi göstərək.***

Quranın bir neçə ayəsində (“Tövbə”, “Fəth” və “Səff” surələrində) oxşar intonasiya ilə ilahi dinin bütün dinlərə qələbəsidən, başqa sözlə, ilahi quruluşun cahilanə (zülmkar) quruluşun yerini tutmasından söz açılır. “Səff” surəsinin bir neçə ayəsində bu haqda belə buyurulur:

وَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ الْكَذِبَ وَهُوَ يُدْعَى إِلَى الْإِسْلَامِ – ***İslama dəvət olunduğu halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər?!***

وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ – ***Allah zalım qövmü hidayət etməz!***

يُرِيدُونَ لِيُطْفِؤُوا نُورَ اللَّهِ بِأَفْوَاهِهِمْ – ***Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər.***

وَاللَّهُ مُتِمُّ نُورِهِ وَلَوْ كَرِهَ الْكَافِرُونَ – ***Allah isə kafirlərin xoşuna gəlməsə də öz nurunu (insanların həyat mühitində) tamamlayacaqdır.***

هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ – ***Müşriklərin xoşuna gəlməsə də, (onlar ilahi quruluşun bərpasından ziyan görsələr də,) onu bütün dinlərdən üstün etmək (ilahi quruluşu cahilanə quruluşa qalib etmək) üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur!***

(“Səff” surəsi, ayə 7-9.)

# ON YEDDİNCİ MƏCLİS

## NÜBUVVƏTİN HƏDƏFLƏRİ

Şənbə – 1974/10/05
Ramazan ayının 18-i.

بسم الله الرحمن الرحيم

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ وَأَنزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ وَلِيَعْلَمَ اللَّهُ مَن يَنصُرُهُ وَرُسُلَهُ بِالْغَيْبِ إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ

***“Həqiqətən, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik, onlarla birlikdə kitab və mizan (tərəzi) nazil etdik ki, insanlar ədalətli yaşayış (ədalət və bərabərliyi təmin edən mühit) bərpa etsinlər. Biz insanlar üçün sərtlik (zərər) və faydaları olan dəmir də nazl etdik ki, beləcə, Allah Ona və peyğəmbərlərinə görmədən (qeybə iman gətirməklə) kömək edənləri ayırd etsin. Həqiqətən, Allah qüdrətli və məğlubedilməzdir!”***

“Hədid” surəsi, ayə 25.

Nübuvvətlə bağlı silsilə söhbətlərimizdə bura çatdıq ki, Allah tərəfindən göndərilmiş peyğəmbər cəmiyyətə daxil olduqda, öz daxilində dönüş yaratdığı kimi, cəmiyyətdə də dönüş yaradır. Biz bu gün bu dönüşdə məqsədin nə olduğunu anlayacağıq. Ümumiyyətlə, ilahi peyğəmbərlərin fəaliyyətlərində məqsəd nədir? Bu mətləbi öyrənmək hər cəhətdən bizə faydalı, hətta zəruridir. Peyğəmbərlər hansı hədəfi izləyirlər? Onların məqsəd və məramları nədir?

Peyğəmbərlərin əsas və başlıca hədəfi birdir, digər hədəflər isə onun fonunda irəli sürülür və onların içərisində bir hədəf peyğəmbərlər üçün daha önəmli, daha cəlbedicidir. Amma ilahi peyğəmbərlərin əsas və başlıca hədəfini bir neçə kəlmədə belə xülasə etmək olar: Peyğəmbərlər insanı təkamül və ali məqama yetirmək üçün bu dünyaya gəlmişlər. İnsan çoxlu istedadlara, qüvvə və enerjilərə sahib bir varlıq tək daha yüksək və üstün, daha izzətli və şərəfli olmağa qadirdir.

Əsas etibarilə, insan doğulduğu və varlıq aləminə qədəm qoyduğu ilk gündən, daim təkamül və tərəqqiyə doğru irəliləyir. Bunu onun cismani görünüşü və bədənində aşkarcasına müşahidə edirsiniz. Körpə bir uşaq kamil bir insanın bir çox xüsusiyyətlərinə sahib deyil; hələ dişi, güclü əli, möhkəm çənəsi, qaçan ayağı yoxdur. O, böyüklər kimi özünü idarə və hər qidanı həzm edə bilmir, güclü beyin və sinir sisteminə sahib deyil. Lakin bütün bunlar zaman ötdükcə, tədricən, yaranmağa başlayır. Sözsüz, ona xaricdən bir şey verilmir, zaman keçdikcə, həmin kiçik çənəsi, zəif əli böyüyür, kiçik və incə ayaqlarla möhkəm addımlar atır, zəif sinir sistemi güclənir, gücsüz beyni həyatın ən mühüm və anlaşılmaz məsələlərini kəşf etməyə qadir olur. Ona xaricdən heç nə verilmir, elə bunların özü zaman ötüb keçdikcə, onun tədricən, xüsusi şəraitə uyğun olaraq çiçəklənən gizli istedadlarıdır. Onun özündə danışıq və düşüncə

qabiliyyəti olduğundan, sonradan danışmağa və düşünməyə başlayır, alim olmaq bacarığına sahib olduğundan yüksək elmi nailiyyətləri əldə edir. O, daim kamilliyə doğru hərəkətdədir; gücsüz idisə, güclənir, fikirləşə bilmirdisə, fikirləşir, təcrübəsiz idisə, təcrübə sahibi olur və s.

Bildiyiniz kimi, insanın zahiri görünüşü daim tərəqqi və təkamül halındadır. Onun mənəviyyatı, insani fəzilət və kefiyyətləri də eynilə bu qəbildəndir. İnsan daxili istedadlarla doludur; onu dərin bir mədənə bənzətmək olar; belə ki, onu əldə etdikdə, zəngin görünəcək, əks-təqdirdə, quru, şoran və faydasız torpaq və varlıqdan başqa, bir şey deyildir.

Başqa bir misala diqqət yetirək. Adətən, belə hallarda insanı keramika daşlarına bənzədirəm. Bu daşların xammalını görməmiş olmazsınız. Palçıq və qara beton xüsusi qəliblərə tökürlür, bişirilir və qurudulur. İlk baxışda bu daşlarda gözəllikdən əsər-əlamət yoxdur, onda qara palçıq və betondan başqa, bir şey görünmür, lakin xüsusi təndirdə bişirildikdən sonra, onun gözəlliyi və cürbəcür naxışları, bərbəzəkləri diqqəti cəlb edir. İnsanın da daxili istedadlarını içi qara palçıq və betondan ibarət olan bərbəzəkli keramika daşlarına bənzədə bilərsiniz.

Sizin gördüyünüz bu insan – hələ danışa bilməyən və yalnız ata-anasının nəzərində gözəl-göyçək görünən bu körpə uşaq – böyük mədəni xatırladır, onun daxili gözəlliklər və istedadlarla zəngindir. Şair demişkən:

طیران مرغ دیدی تو ز پای بند شهوت
به در آی تا ببینی طیران آدمیت

**“Quşun qanad açıb uçduğunu görübsən. Sən də özünü ehtiras əsarətindən azad et ki, (öz varlığında) insanlıq zirvəsini görəsən.”**[1]

Elə qədimdən şairlərdən, arif və başqalarından belə eşitmişik: “İnsani keyfiyyətlər insanı mələkdən də üstün edir.” Yaxşılıqlar, gözəlliklər və çiçəklənmiş istedadlar insanı kamilləşdirir, təkamülə yetirir, zirvəyə qaldırır. Peyğəmbərlərin həqiqi hədəfi də, məhz, insanı təkamülə yetirməkdir. Bu isə, Qurani-Kərimdə “təzkiyə” və “təlim” ifadələri ilə işlədilir. Onların hədəfi insanı pis xüsusiyyətlərdən paklamaq, nəfsin istəklərindən uzaqlaşdırmaq, heyvani həyatın kriteriyalarından nicat verməkdir.

ای دریده پوستین یوسفان

1. Sədi.

گرگ برخیزی ازین خواب گران

**“Ey Yusiflərin dərisini soyanlar (Həzrət Yusif (ə) kimi pak və təqvalı insanları incidənlər)! Bir gün dünyanın bu bahalı yuxusundan yırtıcı canavar surətində ayılacaqsan.”**[1]

İnsanın zahiri gözəllikləri ilə canavarlar, yırtıcılar, vəhşilər və itlər tək rəftar edənlərə “insan” adını vermək olmaz. Adam öldürməkdən ləzzət alan, insanların canını almağı istirahət vasitəsinə çevirən, başqalarının möhnətlərinə tamaşa edib azacıq belə narahatlıq hissi keçirməyən, başqalarının qəmini görüb qəmlənməyənlər insan deyillər; zahirdə yaraşıqlı və cəlbedici görünməsinə, zahiridə alim, varlı, qüdrətli kimi tanınmasına baxmayaraq, insan deyil, çünki alim, varlı və qüdrətli olmaq insan olmaq demək deyil, insan olmaq başqa bir şeydir.

Peyğəmbərlər insanları saflaşdırmaq üçün gəlmişlər. Siz peyğəmbərlərin dəvət etdiyi və yaşadığı mühitdə yırtıcılıqdan, vəhşilikdən, heyvani xislətlərdən əsər-əlamət görə bilməzsiniz, o mühitə yalnız səfa-səmimiyyət və insanlıq nuru hakimdir. Bu isə peyğəmbərlərin hünəri və böyük möcüzəsidir. Adətən, insanlar peyğəmbərlərin möcüzələrini filan ağacın yerindən qovub irəli gəlməsi və bu kimi xariqüladə işlərdə arayıb-axtarırlar, lakin onların böyük möcüzələri təqvalı və gözəl xüsusiyyətlərə sahib insanlar yetişdirməkdir. Peyğəmbərlərin bu böyük möcüzəsi zarafat deyil.

Cinayət və fəsad içində çapalayan bir cəmiyyətdə böya-başa çatmış bir insan İslam bayrağı altında və Peyğəmbərin (s) təşkil etdiyi quruluşun kölgəsində yerləşdikdə, birdən-birə dəyişir, dünənki vəhşilik və canilikdən əsər-əlamət qalmır, ipə-sapa yatmayan və heç bir hesab-kitaba sığmayan dünənki insan görkəmli bir insana, əzəmətli bir varlığa çevrilir.

Əbuzər kim idi? O, insanlıqdan xəbəri olmayan, səhralıqda böyümüş qəzəbli bir şəxs idi. Bəlkə, bundan qeyrisi idimi? O, bir zəlzələ nəticəsində gözünün önündə tələf olan on min insanı görüb ruhu əsla inciməyən bir şəxs idi; nə bir şey anlayır, nə də anlamaq istəyirdi, nə azacıq belə insanlıq insafı, nə də yaxşılığa qarşı azacıq meyli var idi. Səhrada ayaqyalın böyüyüb boya-başa çatmış qəddar bir şəxs idi. Nəinki siz, hətta hər bir böyük islahatçı belə bir şəxslə üzləşdiyi zaman ona ürək yandırarmı? Necə deyərlər, özlərini dünyanın böyük islahatçıları adlandıranlar belə, daim gileylənirlər ki, insanlar bizim qədrimizi

---

1. Mövləvi.

bilmədi, bizi tanımadı, bizi başa düşmədilər. Onların istəyi budur ki, insanlar pərvanə tək onların başına dolansın, onlara fəda olsunlar. Nə üçün? İnsanlıq vəzifələrini bir qədər icra etdikləri üçün. Hələ onların insanlıq vəzifələrini icra etməsi belə sual altındadır. Belələri qəddar insanlarla üzləşdikdə, onlara əsla dəyər verməz, etina belə etməzlər.

Lakin Peyğəmbər (s) "Əbuzər" adlı həmin daşürəkli insanı, tərbiyələnməmiş canlını ilahi vəhy bayrağı altında yerləşdirdikdə, ondan həqiqi bir insan yetişdirir. Elə bir fəzilət və keyfiyyət yoxdur ki, Əbuzərdə olmasın. Peyğəmbərin (s) ən böyük möcüzəsi elə budur. Peyğəmbər (s) həmin şəxsdən elə bir insan formalaşdırır ki, hər şeyini, adi insanların öz mənlik və şəxsiyyətləri üzərində qurduqları bütün fəaliyyət sahələrini onların hədəfi uğrunda qurban verir. Dünyada belə bir şəxsiyyət tapa bilərsinizmi? Biz hər şeyi özümüz, yaxud da yaxınlarımız üçün istəyirik; adımızı, evimizi, övladlarımızı yaddaşlarda yaxşı qalmağımız üçün istəyirik. Bir sözlə, nə istəyiriksə, özümüzə aiddir. Əbuzər isə özünə aid olanların hamısını Allah yolunda, tutduğu yol və hədəf uğrunda fəda edir. Elə bir insan belə bir insana çevrilir. Bunu dəyişdirən nədir? Peyğəmbərlik vəhyi və Peyğəmbərin dəvəti. O, qara daşlardan tər-təmiz ayna düzəldir. Budur nübuvvətin hədəfi – insan yetişdirmək.

Düzgün, abadlıq, azadlıq, sosial rifah, bərabərlik və ədalləti təmin edən, sosial təbəqələşməni aradan qaldıran bir sistemin təşkili çox gözəldir, lakin belə bir sistemdə insanlar rahat yaşadıqdan sonra, nə baş verəcəkdir? Materialist düşüncəyə əsaslanan məktəblər insan və insanlığın ideal cəmiyyətə nail olmasından sonra, hansı hədəfi izləyirlər? İnsanlığın hədəfi nədir? İnsan bu dünyada gecə-gündüz əlləşib-vuşub özünə gözəl bir ev tikdikdən sonra nə etməlidir? Gözəl evi tikməkdə məqsədimiz nədir ki? Yaxud da zəhmət çəkib gözəl bir məscid tikirik. Onu tikməkdə hədəfimiz nədir? Hədəfimiz odur ki, camaat orada namaz qılsın, dini maarifə yiyələnsin və s. Təbii ki, hay-küy salmaq məqsədilə məscid tikməyimiz mənasızdır. Çünki yalnız hay-küy salmaq üçün tikilən məscid məsxərədən başqa, bir şey deyildir. Bu, eynilə yolun yarısında ayağı sınan yolçunu xatırladır. Materialst düşüncəli məktəblər də yolun yarısında ayağı sınmış yolçu kimidir.

Materialist düşüncəli məktəbər deyirlər ki, biz dünyanı yoxsulluğa və nadanlığa son qoymaq, ideal – zülmdən, təbəqələrdən, istismarçılıqdan,

ayrı-seçkilikdən uzaq – insan cəmiyyəti qurmaq üçün abadlaşdırırıq. Yaxşı, belə bir cəmiyyət qurduq, indi insan bu cəmiyyətdə nə etməlidir? Bu cəmiyyətdə insanlıq hara çatmalıdır? Cavab yoxdur. Məsələ elə yeyib yatmaq, rahat yaşamaqdırmı? Hədəfiniz elə bu qədərdirmi? İnsan yalnız rahat yaşamaq, rahat qazanmaq və rahat yemək üçündürmü? İnsan elə bunun üçünmü çalışmalıdır? Onun hədəfi yalnız budurmu? Burada materialist düşüncəli məktəblər cavab verməkdə acizdir.

İlahi məktəblər isə deyirlər ki, hədəf bundan sonradır. Böyük hədəf insanın saflaşması, bəni-adəmin əsl bir insan kimi yetişməsidir. Bəni-adəmlə insan arasında fərq var. İki ayağı üstündə yeriyən varlığa bəni-adəm deyilir. İnsan isə bütün fəzilət və keyfiyyətlərə sahib olan, istedad çeşmələri ilə coşub-daşan varlıqdır. Sual verilə bilər ki, bundan sonra nə baş verəcək ki? Cavab budur ki, sonrası yoxdur, çünki insan Allahın qüdrəti qədər naməhduddur, həddi-hüdudu, sonu yoxdur. ***إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ*** – ***"Biz Allahınıq və Ona tərəf də qayıdacağıq."***[1] İnsan təkamül yoluna qədəm qoydusa, o yolun sonu yoxdur. Allahpərəstlərin, Allahın həqiqi bəndələrinin və ilahi dinlərin ideyası budur – daim təkamül və tərəqqiyə doğru irəliləmək. Təkamülün isə sonu yoxdur. Peyğəmbərlər də buna görə gəliblər.

Peyğəmbərlər gəliblər ki, insanları pisliklərdən, alçaqlıqlardan, nadanlıqlardan, əxlaqi rəzilliklərdən xilas edib onların daxili istedadlarını çiçəkləndirsinlər, onları təkamülə və ali insanlıq məqamına yetirsinlər. Peyğəmbərlərin ilk hədəfi budur! Odur ki, Qurani-Kərimin bir neçə yerində də bu haqda söz açılır. O cümlədən:

لَقَدْ مَنَّ اللّهُ عَلَى الْمُؤمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولاً مِّنْ أَنفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ

***"Allah möminlərə onların öz içərisindən özlərinə (Allahın) ayələrini oxuyan, onları (pis əməllərdən) təmizləyən, onlara kitabı (Quranı) və hikməti öyrədən bir peyğəmbər göndərdiyi zaman minnət qoydu..."***[2]

İnsanları saflaşdırmaq, rəzilliklərdən təmizləmək, fəzilətlərlə bəzəmək peyğəmbərlərin hədəfini təşkil edir. Elə buna görə də Peyğəmbərimiz (s) belə buyurmuşdur:

إِنَّمَا بُعِثْتُ لِأُتَمِّمَ مَكَارِمَ الْأَخْلَاقِ

1. "Bəqərə" surəsi, ayə 156.
2. "Ali-İmran" surəsi, ayə 164.

*“Həqiqətən, mən əxlaqi gözəllikləri (gözəl əxlaqı) təkmilləşdirmək üçün göndərilmişəm.”*[1]

Amma ikinci mətləb daha önəmlidir. Birinci mətləb haqqında çox danışılmışdır. Bəziləri də onun təkrarlanmasını çox istəyirlər. Çünki məsələ saflaşmaq və təmiz qalmaqla bitsəydi, bir nəfər qalxıb deyə bilərdi ki, biz onun yolunu tapmışıq. Biz hara getməli olduğumuzu bilirik; özümüzü cəmiyyətdən təcrid edib bir guşəyə çəkiləcək, rahiblik edəcəyik, asket həyat tərzində təmiz qalmaq, nəfsi saflaşdırmaq və nəfsə hakim olmaq daha rahatdır və beləcə, özümüz özümüzü xilas edəcəyik. Əgər bu arada kiminsə ləyaqəti olsa, bizə yaxınlaşsa, onun da qulağına pıçıldaya, öyüd-nəsihətlə onu adam edərik.

Bu təfəkkür tərzi tənbəllər, səhlənkarlar, özünüsevən və özünüdüşünənlərin bəhanəsindən başqa, bir şey deyildir. Bəhanə olduğu üçün də tez-tez təkrarlanır, həm camaatın, həm də rəhbərlərin bu sözdən xoşu gəlir. Çünki bu zaman insanların tərbiyəsi zəhmət tələb etməyəcək, eyni zamanda onlar başqalarının inək-qoyununun (sərvətinin) artımına da maneçilik törətməyəcəklər. Bu iş onlara asan gəlir. Amma elə də asan deyil.

Bura qədər deyilən sözü hamı deyir, ondan o tərəfini isə deyən yoxdur. O nədir? Sual budur: Peyğəmbərlər insanları saflaşdırmaq və fəzilətlərlə gözəlləşdirmək üçün hansı yoldan istifadə etmişlər? Görəsən, insanların bir-bir qulağına pıçıldamış, bir-bir əllərindən tutub təlim-tərbiyələri ilə məşğul olmuşlar? Yoxsa, onlar zahidlər və ariflər kimi öz evləri və daxmalarında əyləşirdilər ki, camaat onlara üz tutub onların mənəvi halından bəhrələnsinlər, onlarla birgə eyni əqidəyə sahib olsunlar? Görəsən, peyğəmbərlər filosoflar kimi mədrəsə təsis edib hamını mədrəsəyə dəvət edərək, “Kim elm öyrənmək istəyirsə, bizim yanımıza gəlsin.” – deyib car çəkirdilərmi? Onlar belə idimi? Peyğəmbərlər fərdi tərbiyə, insanların bir-bir tərbiyəsi ilə məşğul olmaq düşüncəsində deyildilər. Elə düşünürsən ki, İbrahim Xəlilullah (ə), Musa Kəlimullah (ə), İsa Ruhullah (ə) və yaxud bizim Peyğəmbərimiz (s) Sokrat və Platon kimi mədrəsədə əyləşir və camaat da mədrəsəyə gedib onlardan bəhrələnirdilərmi? Onlar belə olmayıblar.

Əlbəttə, imamət bölməsində qeyd edəcəyik ki, imamlar da, o

1. “Biharul-ənvar”, “İman və küfr” başlığı, “Məkarimul-əxlaq” bölmələri, “Husnul-xulq” bölməsi, hədis 1.

cümlədən, İmam Sadiq (ə) də peyğəmbərlər kimidir. Əgər bəzi nadanlar kimi, kimsə İmam Sadiqin (ə) minbərdə əyləşməsini və dörd min şagirdin də onun dərsində əyləşib ondan bəhlənməsini düşünürsə, bilsin ki, yanılır. Dörd min şagirdi məşhur rical alimi, İmam Sadiqin (ə) şagirdi və hədislərinin ravisi olan İbn Üqdə nəql edir. Bəziləri elə düşünür ki, bu dörd min şagird dörd min nəfərlik böyük bir salona toplaşır və İmam Sadiq (ə) də minbərdə əyləşib hədis və məsələ deyir, moizə edirmiş.

Xeyr, nə İmam Sadiq (ə), nə İslam Peyğəmbəri (ə), nə də digər peyğəmbərlərin metodu belə olmayıb. Mədrəsə təsis etmək, fərdi moizə və tərbiyə ilə məşğul olmaq peyğəmbər və imamların işi deyildir. Peyğəmbərlərin "İnsanları necə islah etmək olar? İnsanları doğru və ilahi örnəklərlə necə tərbiyə etmək olar?" – sualına cavabları birdir. O cavab da budur: Peyğəmbərlər deyirlər ki, insanın tərbiyəsi üçün münasib və sağlam mühit lazımdır. Peyğəmbərlər deyirlər ki, insanları bir-bir tərbiyə etmək qeyri-mümkündür. Peyğəmbərlər deyirlər ki, əgər biz insanları bir-bir tərbiyə etmək istəsək, gec olacaq və ömür bitəcək. Bunun üçün quruluş və sistem lazımdır. İnsan bu quruluş sayəsində həqiqi mənada islah oluna bilər.

Peyğəmbərlər deyirlər ki, insan ağac və fidan kimidir. Məsələn, bir xurma və yaxud portağal ağacını nəzərdən keçirin. Onların şərt və xüsusiyyətlərindən biri isti havada yetişməsidir. Xurma ağacı İranın cənubunda, yaxud Təbəs şəhərində və yaxud bəzi ərəb ölkələrində əkilərsə, görün, xurması necə də ləzzətli və dadlı olacaqdır! Nə üçün? Çünki bu ağac yalnız filan dərəcə isti, filan dərəcə rütubətdə, bu və digər xüsusiyyətlərə sahib torpaqda bar verir. Bu şərtlər və xüsusiyyətlər Təbəs və Xuzistan şəhərlərində olduğu halda, Məşhəd şəhərində yoxdur. Nə etmək olar? Siz min xurma fidanını gətirib Məşhəddə əksəniz də, onları yaxşı suvarıb qulluq etsəniz də, faydası yoxdur. Bar verməsi qeyri-mümkündür. Burada siz yalnız bir iş görə bilərsiniz; o da budur ki, xurma və yaxud portağal ağacını yalnız istixanada əkib becərəsiniz, ona layiqincə qulluq edib vaxtlı-vaxtında su və gübrə verməlisiniz ki, bir müddətdən sonra bəlkə bir-iki ədəd bar verə! Siz deyə bilərsiniz ki, biz Məşhəddə xurma fidanı əkdik və üç-dörd ədəd xurma da dərdik. Bu işi görməyə məcburuqmu? Axı, nə üçün bu işi görməliyik? Əgər biz çoxlu xurma əldə etmək üçün mühiti hazırlaya biləriksə, nə üçün bu qədər canfəşanlıq etməli, bu qədər çalışmalı və zəhmət çəkməliyik? Çünki

münasib mühit hazırlanarsa, əldə edəcəyimiz məhsul iki-üç ədəd yox, tonlarla xurma olacaqdır. Ağacdan bir-iki ədəd xurma dərmək əvəzinə, onu münasib şəraitdə əkib istənilən qədər xurma əldə etmək ağıllı və məntiqli deyilmi?

Aydındır ki, münasib mühit yaratmaq və tonlarla xurma dərmək üçün çəkilən zəhmət bir-iki xurma üçün çəkilən zəhmətlə müqayisədə olduqca çoxdur. Amma onların faydası və məhsulunu müqayisə edin. Burada bir nəfərin üzərində zəhmət çəkib tərbiyə edirdinsə, orada bir cəmiyyət formalaşdırırsan, milyonlarla insan nəslindən ibarət bir toplum yaradırsan. Peyğəmbərlərin missiyası bundan ibarət idi!

Qeyd etdiyimiz mətləbin üzərində möhkəm dayanır, onu təkidlə vurğulayır və inanırıq ki, nübuvvət ardıcılları onları dərk edəcəklər. Bu məsələ üzərində mütləq düşünün, onun üstündən ötəri keçməyin, Quran ayələri, peyğəmbərlərin tarixi və nübuvvətlə bağlı rəvayətlərə müraciət edin. Təfəkkür edin; nə dərhal qəbul edin, nə də dərhal inkar edin. Məsələ olduqca önəmlidir; bütün iradlar elə buradan qaynaqlanır. Bir qrup başa düşə bilmir ki, peyğəmbərlər münasib mühit yaratmaq istəyirdilər. Onlar peyğəmbərlərin insanları bir-bir (fərdi şəkildə) islah etdiklərini güman edirlər, halbuki, bir-bir islah etmək peyğəmbərlərin məqamından uzaqdır.

Bizim Qurani-Kərimdən anladığımız budur ki, peyğəmbərlərin: "İnsanı necə islah etmək olar? Başqa sözlə, insanı çirkinliklərdən uzalqlaşdırıb fəzilətlərlə bəzəmək üçün nə etmək lazımdır?" – sualına cavabı budur: "İlahi cəmiyyət təşkil etmək, münasib mühit yaratmaq lazımdır ki, bu münasib mühitdə bir nəfər, on nəfər və min nəfər yox, islami maarif nurunun təbii hərarəti sayəsində cəmiyyət öz-özünə, dəstə-dəstə islah olunsun."

إِذَا جَاء نَصْرُ اللَّهِ وَالْفَتْحُ. وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا

***"(Ey Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman insanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını görəcəksən."***[1]

Peyğəmbəri-Əkrəm (s) Məkkənin cəhalət mühitində insanları bir-bir islah etmək və yetişdirmək məcburiyyətində idi. Çünki ilahi quruluşun bünövrəsi və təşkili üçün xas bir dəstəyə ehtiyac var idi və bu dəstə öncədən bir-bir yetişməli idi. Bunun isə peyğəmbərlərin ümumi

1. "Nəsr" surəsi, ayə 1-2.

missiyası ilə əsla ziddiyyəti yoxdur. Peyğəmbər vətəndaş cəmiyyətinin təməl daşlarının atılması üçün Məkkədə mütləq insanlarla fərdi şəkildə məşğul olmalı idi. Başqa sözlə, gələcəkdə vətəndaş cəmiyyətinin, yəni ilahi və islami quruluşun bünövrə daşlarını hazırlamaq üçün Əbuzəri, Abdullah ibn Məsudu və öz qövmündən onlar kimi yüz-iki yüz nəfər başqa insanı ayrı-ayrılıqda yetişdirmək məcburiyyətində idi və Peyğəmbər (s) nə qədər zəhmət və əziyyətlə bir-bir insan yetişdirir, tərbiyə edirdi. Atalar maneçilik törədir, oğullar anlamır, dünya malına aldanır, Peyğəmbərdən (s) bir söz öyrənmir və o Həzrətin arxasınca getmirdilər. O Həzrətə azca meyil göstərən hər kəs əzab-əziyyətlərə, işgəncələrə məruz qalırdı. Məkkədə iş belə gedirdi. Mədinəyə gəldikdə isə ilahi və islami hökumət təşkil olunur, onun başında Peyğəmbər (s) durur, ilahi əmr və hökmləri özü icra edirdi. Orada o zaman Allah-Taala belə buyurdu:

إِذَا جَاء نَصْرُ اللَّهِ وَالْفَتْحُ. وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا

***“(Ey Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman insanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını görəcəksən.”***[1]

Peyğəmbərlərin hədəfləri ilə bağlı mətləbin xülasəsi budur!

Bir sözlə, peyğəmbərlərin iki əsas hədəfi var. Onun biri insan yetişdirmək – insanı pisliklərdən çəkindirib yaxşılıqlar, fəzilətlər və gözəlliklərlə bəzəmək, başqa sözlə, insanı insan etmək. Yolun ikinci hissəsinə aid iknici hədəf isə daha önəmlidir; ilahi cəmiyyət və ilahi hökumət təşkil etmək, ilahi qanunlarla idarə olunan bir quruluş yaratmaq. Bu, bütün peyğəmbərlərin hədəfidir. Əgər kimsə böyük ilahi peyğəmbərlərin belə bir hədəfə sahib olmadıqlarını güman etsə, Quranı, hədisləri və tarixi dərindən araşdırsın.

Biz burada iki ayəyə toxunacağıq. Əlbəttə, Allah-Taalanın kitabında bu haqda ayə çoxdur, biz isə yalnız iki ayəni qeyd etməklə kifayətlənəcəyik. Odur ki, bu iki ayə üzərində dərindən düşünün, diqqətinizi artırın.

Qeyd etdiyimiz kimi, birinci ayə “Hədid” surəsindəndir. Ayəni tərcümə edib azacıq şərhlə kifayətlənirəm:

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ

***“Həqiqətən, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə***

---

1. “Nəsr” surəsi, ayə 1-2.

***göndərdik.”***

Peyğəmbərlərin sözləri və dəlilləri aydındır. Onlar ağıllı və mütəfəkkir insanın başa düşə bilməyəcəyi bir söz demirlər. Hamı onların sözlərini anlayır.

وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ

***“Biz onlarla birlikdə kitab nazil etdik.”***

Kitab nədir? Dəfələrlə qeyd etmişik ki, dinin əsasını təşkil edən qanunlar, dini biliklər və təlimlər toplusuna, başqa sözlə, dini ideologiya məcmusuna “kitab” deyilir. Yeni məktəblərin termini ilə ifadə etsək, kitab ideologiyadan – əməli sahəyə əsaslı şəkildə təsir göstərən etiqadi prinsip və qurucu təlimlərdən ibarətdir.

وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ

***“Biz onlarla birlikdə kitab və mizan nazil etdik.”***

“Mizan” sözü “tərəzi” mənasını daşıyır. Tərəzi nə deməkdir? Yəni, hər bir peyğəmbər özü ilə birlikdə böyük və ya kiçik tərəzi də gətirdimi? Xeyr! Mizan-tərəzi dedikdə, sosial balans və tarazlığı yaradan mexanizm nəzərdə tutulur. Mizanın mənası budur və yeri gəlmişkən, bu söz cəmiyyətin təşkilini də aşılayır. Belə ki, əgər Peyğəmbər (s) bu cəmiyyətin başında olmayacaqsa və cəmiyyət təşkil etməyəcəksə, onda, mizanı – sosial balans və tarazlığı yaradan mexanizmi neynəyirdi? Peyğəmbərlə (s) birlikdə ictimai balans və tarazlığı bərqərar edən bir vasitə göndərildi. Bu vasitə nədir? “İlahi məhkəmə mexanizmi”, “məhkəmə qanunları”, “qanun icraçısı”, “qanun zəmanətçisi” və “qanunların icrasında iştirak edən şahidlər” onun nümunələrindən ibarətdir. Bu gün demokratik ölkələrin dilində ona icra hakimiyyəti və dövlət (siyasi quruluş) deyilir. Cəmiyyətdə qanunların icrasına nəzarət etmək icraçı orqanın missiyasıdır. Burda mizan-tərəzi icraçı orqan ola bilər.

Sözügedən ayənin təfsirində nəql olunan rəvayətlərdə mizan belə məna edilmişdir:

الميزانُ الإمام – Mizan “imam” (rəhbər) deməkdir.[1] Həqiqətən də belədir. Biz də bu hədisdən ilhamlanırıq; mizan imam deməkdir. Cəmiyyətdə haqqı batildən ayıran şəxsə imam, rəhbər deyilir. Cərgələri bir-birindən ayıran, sosial balans və tarazlıq yaradan rəhbərdir. Nə üçün? Çünki cəmiyyətin hakimidir. Əlbəttə, bəziləri bu hədisdən yanlış

1. “Nurus-səqəleyn”, “Hədid” surəsinin 25-ci ayəsinin təfsirində.

nəticələr də çıxara bilər. Lakin bizim həmin nəticələrlə işimiz yoxdur. Biz elə qeyd etdiyimiz kimi düşünürük. Rəhbər tərəzi və meyardır; pislik və yaxşılıqlar onunla ölçülür, yollar onunla uyğunlaşdırılır. Buna rəğmən, cəmiyyətə, cəmiyyətin üzvlərinin balans və tarazlıqdan çıxmamasına və bütün qanunlara nəzarətçi odur. Rəvayət də bunu təsdiqləyir. Demək, mizan sosial balans və tarazlığı bərqərar edən bir vasitədir. Allah-Taala buyurur ki, bunu da peyğəmbərlə birlikdə nazil etdik.

Nə üçün bu işləri gördük? Peyğəmbər (s) kitabı neynəyirdi? Heç Peyğəmbərin (s) özünə də ehtiyac var idimi? Tərəzi və kitabı neynəyirdi? Səbəbi budur:

لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ

***“Ta ki, insanlar ədalətli yaşayışı (ədalətli və bərabər mühiti) bərpa etsinlər.”***

Əlbəttə, bu ayəni iki cür məna etmək olar. Birincisi, insanların ədalətli həyatı bərpa etməsidir, o biri mənanı isə mötərizədə qeyd etmişəm: Ədalətli və bərabər mühit yaratmaq. Demək, ayənin bir mənası belədir: ***“Ta ki, insanlar ədalətli yaşayış bərpa etsinlər.”*** O biri mənası isə belədir: ***“Ta ki, insanlar ədalət və bərabərlik əsasında yaşasınlar.”*** Bu iki məna ərəb dilinin sintaksisinə görə bir-birindən fərqlənsə də nəticə etibarilə, hər iki məna eynidir. (Bu incə mətləbi də diqqətinizə çatdırdım ki, kimsə irad tutmasın.)

Bir sözlə, bu ayənin mənası odur ki, insanlar ədalətli bir mühitdə, ədalətli bir cəmiyyət və sistemdə yaşasınlar. Peyğəmbərin gəlişində məqsəd də elə budur! Sual: Peyğəmbər nə üçün gəlib? Ədalətli mühit və sistem təşkil etmək üçün. Peyğəmbər gəlib ki, dünyada ədaləti bərpa etsin, ədalətli quruluş yaratsın. Onun gəlişində məqsəd məhz budur! İnsanlar elə ədalətli quruluşda fürsət əldə edib təkamül və tərəqqiyə çatırlar.

Ayənin davamında buyurulur:

وَأَنزَلْنَا الْحَدِيدَ

***“Biz dəmir də nazil etdik.”***

Danışmaq və moizə etmək bəs edirmi? “Ey insanlar, gəlin ədalətli hökumət qurun” – demək kifayətdirmi? Ədalətli hökumət qurduqdan sonra, şeytanlar, qurdlar, quldurlar və oğrular ədalətli hökumətin yaşamasına imkan verəcəklərmi? Odur ki, dəmir də endirdik. Nə üçün

endirdik? Dəmir vasitəsilə həqiqi dəyərləri müdafiə etmək üçün. Yenə hədis kitablarına müraciət etdik. İmam (ə) uyğun ayədə qeyd olunan "hədid" (dəmir) sözündə dəmirdən olan silah, qılınc və nizə ("əs-silah") nəzərdə tutulduğunu vurğulayır. [1] Allah-Taala Peyğəmbərin (s) missiyası, dəvəti, öyüd-nəsihəti və ilahi hökumət təşkil etməsi ilə yanaşı, silahdan və qəzəb qüvvəsindən də söz açır və buyurur ki, ***"biz dəmir də nazil etdik."*** İmamın (ə) buyurduğu kimi, silah nazil etdik.

فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ وَلِيَعْلَمَ اللَّهُ مَن يَنصُرُهُ وَرُسُلَهُ بِالْغَيْبِ

***"Onda insanlar üçün sərtlik (zərər) və faydalar vardır ki, beləcə, Allah Ona və peyğəmbərlərinə görmədən (qeybə iman gətirməklə) kömək edənləri ayırd etsin."***

Allaha və peyğəmbərlərinə iman gətirənlər nə Allahı görmüş, nə də onlardan bəziləri Peyğəmbəri (s) görmüşdülər. Bununla belə, iman gətirərək Allaha və peyğəmbərlərinə yardım etdilər.

إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ

***"Həqiqətən, Allah qüdrətli və məğlubedilməzdir!"***

Baxın, Quran ayələrinin sonunda işlənən bu ifadələr dərin məna kəsb edir:

إِنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ

***"Həqiqətən, Allah eşidən və biləndir!"***

إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ

***"Həqiqətən, Allah qüdrətli və məğlubedilməzdir!"***

إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ

***"Həqiqətən, Allah bağışlayan və mehribandır!"***

Bu ifadələr şeirlərdəki beytlər və misraların son sözlərinin uyğun və həmahəng olması üçün işlənən qafiyələr kimi təsadüfi deyil. Ayələrin sonunda gələn cümlələrdə ayələrin məzmununa uyğun məna və incəliklər vardır. Bunu da diqqətdən qaçırmayın! Sözügedən ayə də bu qəbildəndir. إِنَّ اللَّهَ قَوِيٌّ – ***"Həqiqətən, Allah qüdrətlidir!"*** Elə güman etməyin ki, peyğəmbərlər qeyd etdiyimiz xüsusiyyətlərə sahib cəmiyyət yarada və insanlar arasında ədalət və bərabərliyi bərpa edə bilməyəcəklər. Xeyr! Onları göndərən Allah qüdrətlidir. Ey Peyğəmbər, səninlə mübarizə aparan və müxalifətçilik edənlərdən əsla qorxma! عَزِيزٌ – ***"Allah məğlubedilməzdir!"***

Lüğətdə ayədə qeyd olunan "əziz" sözü belə məna edilmişdir:

1. "Nurus-səqəleyn", "Hədid" surəsinin 25-ci ayəsinin təfsirində.

اَلغالبُ الذى لا يُغلَب

"Məğlub edilməyən qalib." Həmişə qalib olan və heç vaxt məğlub olmayan şəxsə "əziz" deyilir. Öz dilimizdə "əziz" sözü ilə uyğun gələn sözlər "məğlubedilməz" və "yenilməz" sözləridir; həm gözəldir, həm də lakonik. Allah qüdrətli və məğlubedilməzdir. Bu, bir ayə!

Növbəti ayə isə "Əraf" surəsindəndir.[1] Öncəki ayələrdə Həzrət Musadan (ə) söz açılır. Həmin ayələrdə qeyd olunan macəranın müqəddimələri bizim bəhsimizə aid deyil. Məsələnin aydınlaşması üçün tərcümə və məna etmək istədiyimiz ayədən öncəki ayəni də burada qeyd edirik.

Bu ayədə Allahla danışan mömin və möminlərdən söz açılır. Onlar Allaha nə dedilər? İndi isə nəzərdə tutduğum məsələləri çatdırmaq üçün diqqətlə ayəyə qulaq asın:

وَاكْتُبْ لَنَا فِي هَـذِهِ الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ إِنَّا هُدْنَـا إِلَيْكَ قَالَ عَذَابِي أُصِيبُ بِهِ مَنْ أَشَاء

***"Bizə bu dünyada da, axirətdə də yaxşılıq yaz. Həqiqətən, biz Sənə doğru hidayət olduq!" (Allah onların cavabında) buyurdu: "İstədiyim kəsi əzabıma düçar edərəm."***

Allah-Taalanın iradəsi yersiz və boş-boşuna deyil; belə də deyil ki, haçan istəsə, birinə əzab verər, haçan istəsə, əzabdan qurtarar. Xeyr, Onun iradəsi Özünün təyin etdiyi ölçü və meyarlara əsaslanır. O, pis və günahkar insanı əzabına düçar etmək istəyir.

عَذَابِي أُصِيبُ بِهِ مَنْ أَشَاء

***"İstədiyim kəsi əzabıma düçar edərəm."***

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَـاةَ وَالَّذِينَ هُم بِآيَاتِنَا يُؤْمِنُونَ

***"Rəhmətim hər şeyi əhatə etmişdir. Onu (rəhmətimi) təqvalılara, zəkat verənlərə və ayələrimizə iman gətirənlərə yazacağam!"***

Onlar kimlərdir?

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ

***"O kəslər ki, (hər şeydən xəbərdar olan) ümmi Peyğəmbərə tabe olurlar."***

Ayədə qeyd oluna "ümmi" sözünü elə "ümmi" olaraq saxladıq. Çünki onun mənasında fikirayrılığı vardır. Bəziləri onun "savadsız", bəziləri "avam", "ümumi", "xalq kütləsinə aid olan", "yalnız anaya nisbət verilən" və "mədəniyyətlərdən təsirlənməyən" mənasında olduğunu qeyd etmişlər. Bəziləri də "Ümmül-Qüra", yəni "Məkkə əhalisindən olan

1. "Əraf" surəsi, ayə156-157.

kəs" kimi məna etmişlər. Bu fikir ayrılığını nəzərə alıb əlavə təhqiqat aparmaq istəmədiyim üçün elə "ümmi" sözünü olduğu kimi qeyd etdim.

الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ

***"(O kəslər) əllərindəki Tövrat və İncildə yazılmış gördükləri şəxsə – ümmi Peyğəmbərə (tabe olurlar)."***

Onlara bu iki kitabda peyğəmbərin zühur edəcəyi haqda müjdə vermişdilər. Həmin peyğəmbərin xüsusiyyəti nə idi? Ayənin bu hissəsinə diqqət yetirin:

يَأْمُرُهُم بِالْمَعْرُوفِ

***"(O peyğəmbər) onları yaxşı işlərə (insanın əqli və fitrətinə tanış olan fəzilət və yaxşılıqlara) əmr edir."***

وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ

***"Onları pis işlərdən (insanın əqli və fitrətinə tanış olmayan işlərdən) çəkindirir."***

وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ

***"Onlara pakları (dinin bəyəndiyi bütün yaxşı və təmiz şeyləri) halal edir."***

وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ

***"Çirkin və murdar şeyləri isə haram edir."*** Yəni, onları pis şeylərdən məhrum edir və uzaq saxlayır. İslam cəmiyyəti bu xüsusiyyətlərə sahibdir.

İslam cəmiyyətində insanın fikri, qəlbi, ruhu və cismi üçün elm, savad, təqva və pul kimi hər nə xeyir və faydalıdırsa, hamısı onun ixtiyarında qoyulmuşdur, ona zərərli olanlar isə, ya onlar üçün əlçatmazdır, ya da məcburi qanunlar sayəsində onlardan uzaq saxlanılmışdır.

وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ

***"Onların çiynindən ağır yükünü götürər."***

Peyğmbərin bir xüsusiyyəti də budur ki, nadanlıqlar, yanlış ənənələr, qeyri-insani sistemlər, diktatorluqlar, hegemonluqlar, zorakılıqlar və istismarçılıqlar kimi ağır yükləri insanların çiynindən götürür.

وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ

***"Onlara (onların ayaqları, əlləri və boyunlarına) bağlanmış zəncirləri açar."***

Bu zəncir və buxovlar nədən ibarət idi? Peyğəmbər (s) zühur etdikdə, bütün Məkkə əhalisinin ayağı zəncirlə bağlanmışdımı? Boynuna buxov

atılmışdımı? Hamı həbsə məhkum edilmişdimi? Aydındır ki, zəncirlə bağlanmışdılar, lakin zəncirlər dəmir deyildi. Bəs nə idi? Özün düşünsən, taparsan. Bu camaatın əl-ayağı hansı zəncirlə bağlanmışdı? Əsarət və zorakılıq zəncirləri, bəşəri qanunlar və ənənələrdən ibarət buxovlar. Peyğəmbər gəldi ki, humanist və ilahi hökumət təşkil etməklə bu zəncirləri qırsın.

فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ

***"Ona (o Peyğəmbərə) iman gətirən, ehtiram göstərən, yardım edən və onunla nazil olan nura (Qurana) tabe olanlar həmin qələbə çalanlar (səadətə yetən və nicat tapanlar)dır!"***

**Xülasə**

**Şənbə – Ramazan ayının 18-ci günü**

## NÜBUVVƏTİN HƏDƏFLƏRİ

Öyrəndik ki, peyğəmbərlər cəmiyyətdə inqilab yaradır və cəmiyyətin bütün cəhalət təməllərini aradan qaldırırlar. Görəsən, bu işdə hədəf nədir?

Peyğəmbərlərin ən üstün hədəfi insanları alçaqlıq və çirkinlik bataqlığından xilas edib onlarda istedad çeşmələrini cari etməklə ən ali və mütərəqqi insanlıq məqamına yüksəltməkdir.

İnsan bir çox gözəllik və fəzilət elementlərilə yaradılmışdır. Lakin bu elemenetlər düzgün tərbiyə əsasında özünü göstərir və insanı təkamülə çatdırır. Nəhayət, peyğəmbərlərin göndərilməsində məqsəd insanı tərbiyə etməkdir və Qurani-Kərimdə bu məsələlərə "təzkiyə" və "təlim" ifadələri ilə işarə olunmuşdur. İnsan peyğəmbərlərin düzgün tərbiyə metodu ilə çirkinliklərdən uzaqlaşır, fəzlətlərlə bəzənir və beləcə, yaradılışın son qayəsi təmin olunur.

Lakin bəşər öz varlığındakı təbii nemətlərdən layiqincə bəhrlənib təkamülə çatmaq üçün hansı yolu keçməlidir? Müxtəlif cavablar arasında, peyğəmbərlərin cavabı odur ki, təkamülə çatmaq üçün onun təbii fitrəti ilə uyğun gələn sağlam və əlverişli mühit yaratmaq lazımdır və bu mühit ədalətli ilahi cəmiyyətdən ibarətdir. Bu əlverişli cəmiyyət və quruluşda insanın fitri məqsədinə və mənzil başına doğru hərəkəti asanlaşır və o, bu düzgün yolda təkamülə doğru təbii sürətlə addımlayır.

Bir sözlə, ilahi peyğəmbərlər və vəhy elçiləri son məqsədə doğru yolun ortasında daha yaxın məqsəd və hədəfə sahibdirlər ki, o da ədalət, tövhid və insanlıq ləyaqətini təmin edən, şirk, zülm, xurafat və cəhalətdən, insanın xarlıq və alçaqlığına səbəb olan hər bir şeydən uzaq

saxlayan ilahi və islami cəmiyyət və hökumətin təşkilidir.

Quran ayələrinin üzərində düşünmək bizi qeyd edilən həqiqətlərə yönəldir:

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ – ***Həqiqətən, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik.***

وَأَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ – ***Biz onlarla birlikdə kitab və mizan (sosial balans və tarazlığı bərpa edən ayin) nazil etdik***

لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ – ***ki, insanlar ədalətli yaşayış (ədalət və bərabərliyi təmin edən mühit) bərpa etsinlər."***

وَأَنزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ – ***Biz dəmir də nazil etdik. Onda insanla üçün sərtlik (qəzəb qüvvəsi, həqiqi dəyərləri müdafiə edən vasitə) və faydalar vardır ki,***

وَلِيَعْلَمَ اللَّهُ مَن يَنصُرُهُ وَرُسُلَهُ بِالْغَيْبِ – ***beləcə, Allah Ona və peyğəmbərlərinə görmədən (qeybə iman gətirməklə) kömək edənləri ayırd etsin."***

("Hədid" surəsi, ayə 25.)

وَاكْتُبْ لَنَا فِي هَـذِهِ الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ – ***(İlahi!) Bizə bu dünyada da, axirətdə də yaxşılıq yaz!***

إِنَّا هُدْنَـا إِلَيْكَ – ***Həqiqətən, biz Sənə doğru hidayət olduq!***

قَالَ عَذَابِي أُصِيبُ بِهِ مَنْ أَشَاء – ***(Allah) buyurdu: İstədiyim kəsi əzabıma düçar edərəm.***

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ – ***Rəhmətim hər şeyi əhatə etmişdir.***

فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَـاةَ وَالَّذِينَ هُم بِآيَاتِنَا يُؤْمِنُونَ – ***Onu (rəhmətimi) təqvalılara, zəkat verənlərə və ayələrimizə iman gətirənlərə yazacağam!***

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ – ***O kəslər ki, (hər şeydən xəbərdar olan) ümmi Peyğəmbərə tabe olurlar.***

الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ – ***(O kəslər) əllərindəki Tövrat və İncildə yazılmış olduğunu gördükləri şəxsə – ümmi Peyğəmbərə (tabe olurlar).***

يَأْمُرُهُم بِالْمَعْرُوفِ – ***(O peyğəmbər) onları yaxşı işlərə (insanın əqli və fitrətinə tanış olan fəzilət və yaxşılıqlara) əmr edir.***

وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ – ***Onları pis işlərdən (insanın əqli və fitrətinə tanış olmayan işlərdən) çəkindirir.***

وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ – ***Onlara pakları halal edir.***

وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ – ***Çirkin və napaklıqları isə haram edir.***

وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ – ***Onların çiynindən ağır yükünü götürər.***

وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ – ***Onlara (onların ayaqları, əlləri və boyunlarına) bağlanmış zəncirləri açar.***

فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ – ***Ona (o Peyğəmbərə) iman gətirən, ehtiram göstərən, yardım edən və onunla nazil olan nura (Qurana) tabe olanlar həmin qələbə çalanlar (məqsədə çatanlar)dır!***

("Əraf" surəsi, ayə 156-157.)

## ON SƏKKİZİNCİ MƏCLİS

## DƏVƏTİN İLKİN NƏĞMƏLƏRİ

Bazar günü – 1974/10/06
Ramazan ayının 19-u.

بسم الله الرحمن الرحيم

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ فَمِنْهُم مَّنْ هَدَى اللّهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ الضَّلالَةُ فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ

***"Biz hər ümmətə peyğəmbər göndərdik ki, Allaha ibadət edib tağutdan çəkinəsiniz! Onlardan bir qismini Allah hidayət etmiş, bir qismi isə azğınlığa düçar olmuşdur. Yer üzündə gəzib dolanın, görün ki, (azğınlığa yuvarlanıb peyğəmbərləri) təkzib edənlərin axırı necə oldu!"***

"Nəhl" surəsi, ayə 36.

Ötən günlərdəki bəhslərimizin sayəsində bizə aydın oldu ki, peyğəmbərlərin missiyası və onların gəlişində məqsəd nədir? Onlar öz işlərini necə davam etdirdilər? Öz hədəflərin hansı yolla təmin etdilər? Bugünkü söhbətimizin mövzusu isə budur: "Peyğəmbərlərin dəvətinin ilk nəğməsi nə olub? Görəsən, böyük ilahi peyğəmbərlər yerinə yetirmək istədikləri işi, yəni cəhalət və şirkin hakim olduğu sistemi aradan qaldırıb onun yerində ilahi cəmiyyət və hökumət qurmağı həyata keçirmək üçün haradan başlayırdılar?"

Başlanğıc nöqtəsi çox mühüm bir məsələdir. Bir insan, yaxud bir zümrə və cəmiyyət, yaxud bir məktəb və məsləkin hər hansı bir fəaliyyətində – yerinə yetirmək istədiyi filan işdə, filan tədbirdə, filan məktubun yazılmasında qarşılaşdığı ən önəmli məsələlərdən biri də "Haradan başlayaq?" – sualını cavablandırmaqdır. Başlanğıc nöqtəsi çox önəmlidir.

Başlanğıc nöqtəsi düzgün və yerində seçilərsə, işin və tədbirin nəticə verməsinə ümid hissi də artacaqdır. Başlanğıc nöqtəsində səhvə yol verildikdə isə nəticə və məqsədə çatmaqda çətinliklər yaranacaqdır. Başlanğıc nöqtəsi ona görə önəmlidir ki, uğur və müvəffəqiyyətin faiz dərəcələrinin yüksəkliyi işin başlanğıc nöqtəsindən asılıdır.

Peyğəmbərlərin fəaliyyətlərinə gəldikdə isə, əvvəla, onların fəaliyyətlərini o zaman dəyərləndirə bilərik ki, onların işlərinin başlanğıc nöqtəsi haqda məlumatımız olsun. Onların fəaliyyəti ilə bağlı əhatəli məlumata sahib olmaq üçün onların işə haradan başladıqlarını öyrənməyimiz yerinə düşər. Bununla yanaşı, bu, bizim üçün həm də ibrətamizdir. Peyğəmbərlərin özünəməxsus metodla əməl sahibi olduqlarını gördükdə, bu, bizim üçün ibrət dərsi ola bilər; belə ki, onların məktəbinin davamçısı və yolunun yolçusu ola bilərik. Bir sözlə, bu

məsələni bir neçə prizmadan təqib etməyimiz faydalıdır.

Bu kağızda [1] sizin üçün qeyd etdiyimiz kimi, böyük ilahi peyğəmbərlərin fəaliyyətlərinin başlanğıc nöqtəsi öz məktəblərinin əsası və həqiqətini bəyan etmək idi. Onlar ictimai və etiqadi çevrilişin başlanğıcında insanlara əsla yaltaqlıq etmədilər. Onlar heç vaxt insanları hansısa zaman kəsimində müxtəlif sözlər və şüarlarla başlarını qatmadı, azacıq uğur və müvəffəqiyyət qazandıqdan sonra əsas şüarlarını təqdim etmədi. Əksinə, elə ilk gündən sədaqət və doğruluqla özlərinin həqiqi və son hədəflərini dilə gətirdilər. O hədəf nə idi? O hədəf tövhiddən ibarət idi.

Ötən günlərdə şərh etdiyimiz kimi, "tövhid" peyğəmbərlərin məktəbinin hər şeyidir. Tövhid və ilahi maarif insan ruhunun təkamül səbəbidir, bu da peyğəmbərlərin ən ali və son hədəfdir. Həm də tövhid tezisi ilahi hökumət, ədalətli və təbəqəsiz cəmiyyət, istismarsız və zülmsüz sistem qurmaq mənasını ifadə edir. Bu isə ötən məclisdə qeyd etdiyimiz kimi, insanın təkamülə çatmasında zəruri olan münasib mühitdən ibarətdir.

Tövhid peyğəmbərlərin məktəbinin hər şeyidir; həm onların son məqsəd və qayəsini – Allahın varlığı və yeganəliyinə etiqadı – təmin edir, həm də insanın yetişməsində, özünüislah mexanizminin tətbiqində zəruri sayılan mühitdəki ən gözəl və ən aydın şüardır. Çünki tövhid cəmiyyətinə yalnız Allah hakimdir, ona Allahdan qeyrisi hökmranlıq etmir, heç kim başqasının çiyninə təklif qoya, başqası üçün qanun çıxara bilmir. Tövhid cəmiyyətində heç kim, hətta Allahın nümayəndəsi olan peyğəmbər belə insanları özünə pərəstişə dəvət etmir. "Maidə" surəsinin 116-cı ayəsində buyurulur:

وَإِذْ قَالَ اللّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنتَ قُلتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَـهَيْنِ مِن دُونِ اللّهِ قَالَ سُبْحَانَكَ مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ إِن كُنتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ تَعْلَمُ مَا فِي نَفْسِي

***"(Ey Rəsulum!) Xatırla ki, o zaman Allah belə buyuracaq: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!" – demişdin? (İsa cavabında) deyəcək: "Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin..."***

"Ali-İmran" surəsinin 79-cu ayəsində bu məsələ daha aşkar şəkildə belə açıqlanır:

1. Məclisin sonundakı xülasəyə müraciət edin.

مَا كَانَ لِبَشَرٍ أَن يُؤْتِيَهُ اللّهُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ ثُمَّ يَقُولَ لِلنَّاسِ كُونُواْ عِبَادًا لِّي مِن دُونِ اللّهِ

***"Heç bir kəsə yaraşmaz ki, Allah ona kitab, hikmət və peyğəmbərlik bəxş etdikdən sonra o, insanlara: "Allahı buraxıb mənə qul olun!" – desin..."***

Heç bir peyğəmbərin "Ey camaat, mənə qul olun!" – deməyə haqqı yoxdur. Aydındır ki, peyğəmbərlər camaata açıq-aşkar bu sözü deməz, məqsəd odur ki, insanları Allahın haqqı olan yerlərdə öz əmrlərinə qeyd-şərtsiz itaətə dəvət etmək onlara yaraşmaz. Peyğəmbərlər və Allahın seçdiyi bəndələrin Onun mülkü və hakimiyyət dairəsində təsərrüf etməyə haqqı yoxdursa, başqalarının vəzifəsi bəllidir. Tövhid ideologiyası bəşəriyyət tarixində insanlara zor tətbiq edən, mükəlləfiyyət və işgəncələr altında saxlayan, tövhid ideologiyasına zidd rəftar edən siyasi güclər, zülmkarlar və quldurları inkar edir. Tövhidin mənası budur. Əgər kimsə tövhidin bu mənasını anlamırsa, sözsüz ki, ya bu haqda mütaliə etməmiş, ya da lazımi düşüncəyə sahib deyildir. "İbadət və itaətdə tövhid" Qurani-Kərimin ən aydın məsələlərindəndir. Əlbəttə, tövhid bəhsində qısa şəkildə işarə etdik ki, peyğəmbərlər cəmiyyətə daxil olub "Lə iləhə illəllah" – (Allahdan başqa, heç bir məbud yoxdur) kəlməsini deyən kimi, bütün dost və düşmən hadisənin mahiyyətindən xəbərdar olurdu. Bunu diqqətdən qaçırmayın; bu, çox mühüm məsələdir.

Məsələnin əhəmiyyəti burasındadır ki, peyğəmbərlərin dönəmində yaşayan insanların şüur və həssaslığı nə üçün bizim kimi sonrakı nəsillərdə yoxdur? Peyğəmbərlərin gəlib cəmiyyətə daxil olduğu elə ilk gündən dostları və düşmənləri bilindi. Bizim Peyğəmbərimiz (s) "Nur" dağı və "Hira" mağarasından enib fəzilətlər qəbiristanlığının şoranlıq torpağında tövhid səsini ucaltdıqda, elə ilk gündən müxalifətə qalxdılar. Lakin müxalifət forması fərqli idi; ilk gündən düşmənlər ayırd edildi, onlar elə ilk gündən Peyğəmbərlə (s) müxalifətçilik etdilər və bu, heç kimə gizli qalmadı. Həmçinin, o Həzrəti qəbul edən şüur və düşüncə sahibləri də Peyğəmbərin (s) nə dediyini və dəvətinin nə olduğunu elə ilk gündən hamıdan tez anlamışdılar.

Beləliklə, bizim Peyğəmbərimizin peyğəmbərliyə seçildiyi ilk gündən həm o Həzrətin himayə etdiyi və onlar üçün gəldiyi dostları və tərəfdarları, həm də mübarizə apardığı düşmənləri – hər iki dəstə o Həzrətin dəvətinin nə olduğunu və nə demək istədiyini anlamışdılar.

Halbuki, mən və sən hələ də onu düzgün anlaya bilmirik. Mənim buradan fəryad edərək İslamın zəruri məsələləri haqqında danışdığım, aydınlatmaq üçün dəlil-sübut gətirdiym və bəhs etdiyim yeni mətləbləri Peyğəmbərin (s) dövründə yaşayan o bədəvi ərəblər elə ilk gündən anlamışdılar.

Bu gün biz sizinlə tövhidin həqiqəti, Rəbbin qüdrətindən başqa, bütün qüdrətlərin inkarı ılı bağlı etdiyimiz söhbətləri Əbu Ləhəb, Vəlid ibn Müğeyrə Məxzumi, Qüreyş tayfasının başçısı Əbu Cəhl və digər qüreyşlilər elə ilk gündən başa düşmüşdülər. Onlar Peyğəmbərin (s) "Lə iləhə illəllah" (Allahdan başqa, heç bir məbud yoxdur) nidasını eşitdikdə, o Həzrətin insanları yalnız etiqadi bir məsələyə deyil, həm də ictimai məsələyə dəvət etdiyini – Üməyyə ibn Xələf, Vəlid ibn Müğeyrə, As ibn Vail və onlar kimilərinin inkar edilməsini anlamışdılar. Anladıqları üçün də müxalifətə qalxmışdılar.

Siz elə düşünürsünüz ki, Qüreyş kafirləri, küfr və zəlalət öndərlərinin Peyğəmbərlə (s) müxalifətinin səbəbi onların ictimai mövqe və məqamlarının təhlükəyə düşəcəyindən başqa bir şey idimi? Onların bütlərə ürəkləri yanırdımı? Onlar bütlərə bu qədərmi iman gətirmişdilər? Biz cəmiyyətin elit təbəqəsinin həqiqi mömin, öz dinləri və müqəddəsləri uğrunda fədakar olan və can yandıran olduğunu heç zaman görməmişik, tarix boyu hər kim deyibsə də özündən deyib və təcrübə də onların yanıldığını göstərir. Vəlidlərin, Ümməyələrin, Asların və onlar kimilərin dinə hədsiz bağlılıqları mənasızdır; məsələn, belə deyil ki, onlar öz bütlərinə hədsiz bağlı olduqları üçün Peyğəmbərin (s) onların bütlərinə hörmətsizlik etdiyini gördükdə, o Həzrətlə müxalifət və mübarizəyə qalxarlar. Onlarda elə güclü iman da yox idi və ola bilməzdi də. Düzdür, bütlərə etiqad və təəssübkeşlikləri var idi, lakin onlar üçün ictimai məsələlər daha çox əhəmiyyət kəsb edirdi.

Onlar tövhid ideologiyasının öz hökmranlıqları və ağalıq saraylarına, bütlər və tanrılara qarşı çıxıdığını, tövhid cəmiyyətinin formalaşdığını, bu cəmiyyətdə yalnız ilahi qanunların hökm sürdüyünü və məhz Allaha itaət olunduğunu görürdülər.

Onlar görürdülər ki, ilahi cəmiyyətdə insanlar bərabər hüquqa sahibdirlər. Onlar tövhid ideologiyasına əsaslanan bir şəxsə, bir cəmiyyətə və bir sistemə ayrı-seçkilik, sosial təbəqələşmə və zülmkarlığın hakim olmamasını dərk edirdilər. Onlar hər şeyi anladıqları

üçün də bu sistemlə razılaşmır və müxalifətçilik edirdilər. Firon da, Nəmrud da, Həzrət İsanın dövründə Bəni-İsrail öndərləri də, Ad və Səmud qövmləri də onlar kimi idilər. Qurani-Kərimdə tutarlı və əsaslı şəkildə onlardan söz açılır. Peyğəmbərlər cəmiyyətə daxil olduqda, hər şeydən əvvəl Allahdan başqa, heç bir məbudun olmadığını dilə gətirirdilər. Onların ilk kəlməsi elə bu olurdu. Onlar bu kəlməni deyən kimi, səflər ayrılırdı, müxalifətçiliklər, ziddiyyətlər və onlara qarşı hiylələr başlayırdı; hətta bəzi hallarda müxalifətçiliklər onların ölümü ilə nəticələnirdi.

Peyğəmbərlərin dəvətinin ilk nəğməsi (nidası), missiyalarının başlanğıc nöqtəsi və son sözü tövhid kəlməsinin (Lə iləhə illəllah – Allahdan başqa, heç bir məbud yoxdur) elanı idi. Onlar son sözü işin əvvəlində deyirdilər. Dünyada Allah və dinlə əlaqəsi olmayan siyasi məktəb və partiyaların sözü olmadığından, bir müddət cəmiyyəti yalan və boş şüarlarla aldadır, onlara yersiz arzularla təskinlik verirlər. Sonda da məqsəd və məramlarının başqa şey olduğu üzə çıxır. Necə deyərlər, dava (Molla Nəsrəddinin) yorğan davası imiş.[1] Əsl həqiqətdə isə sözləri yoxdur. Peyğəmbərlər isə düzdanışan, səmimi və sözlərini elə işin başlanğıcında deyən olmuşlar. Onlar məqsəd və niyyətlərini elə əvvəlcədən xalqa – həm varlı, həm də yoxsul təbəqəyə çatdırırdılar. Elə əvvəlcədən xalqa deyirdilər ki, bizim məqsədimiz o yuxarıdakıları çəkib aşağı salmaq, aşağıdakıları yuxarı qaldırmaq və onları bərabərləşdirməkdir. Onlar bunu öncədən deyirdilər.

Görəsən, belə danışıq tərzinin (sədaqətin) faydası nədir? Əgər peyğəmbərlər də xalqı aldatsaydılar, nə baş verərdi ki? Onlar da bir müddət xalqın başını boş və mənasız sözlərlə qatsaydılar və sonda öz hədəflərinin təmin olunması istiqamətində məqsədlərində olmayanı öz məqsədləri kimi göstərməyə çalışsaydılar, nə eybi olardı? Eybi odur ki, din bəsirət və agahlıqla birgədir. Dində kor-koranə və cahilanə imanın faydası yoxdur. Din ona üz tutan və onun məntəqəsinə ayaq basan hər kəsin öncədən hara gedəcəyini və nə edəcəyini anlatmaq istəyir. Hər şeydən xəbərsiz o bədəvi ərəb Peyğəmbərin (s) hüzuruna gəlib İslamı qəbul etdikdə, elə ilk saatdan nə istədiyini yaxşı bilir, mütləq məchulluq

1. Bu atalar sözü o zaman işlənir ki, insan əsl məqsəd və niyyətini gizlədərək haray-həşir salır və istəyinə çatdıqdan sonra sakitləşir.

ardınca deyil, nə istədiyini anlayırdı. Bildiyi və anladığı üçün də hər şeyə dözür və səbir edir, bütün işgəncələrə və çətinliklərə sinə gəririrdi. Tarix boyu dünyanın hər hansı bir nöqtəsində kimsə agahsız, məqsəd və məramsız, nə edəcəyini və hansı məşuqa doğru addım atacağını anlamadan mübarizə və müharibəyə əl atsa, elə ilk anlarda da yorulub əldən düşəcək və bu, təbii bir haldır.

Bir qrup insan böyük coşğu və ruh yüksəkliyi ilə addımladığı halda, sən də bekar olduğun üçün küçədə yavaş qədəmlərlə addımlayırsan. Hamının qaçdığını gördükdə, sən də qaçmağa başlayırsan. Bir az qaçdıqdan sonra öz-özünə düşünür və özünə haqq qazandırıb deyirsən ki, axı mən nə üçün qaçıram? Hara qaçıram? Bir saat qaçıb təngnəfəs olduq, sonra? Bu düşüncə səndə süstlük hissini oyadacaq. Onlar isə nə üçün və hara qaçdıqlarını bilirlər. Fərz edin ki, avtomobilə minməyə kecikdikləri üçün qaçırlar ki, avtomobilə çatsınlar və yaxud filan mağazada satılan filan əmtəəni almaq üçün tələsirlər. Onların məqsəd və hədəfi aydındır. Onlar məqsədə çatmayınca yorulmaq bilməzlər, yorulsalar da, min bir zəhmətlə özlərini çatdıracaqlar; bu da hədəfin onlar üçün nə qədər qiymətli olmasından asılıdır. Sən isə onların qaçış səbəbindən və məqsədindən xəbərsiz olduğun və boş yerə onların ardına düşərək qaçdığın üçün az sonra öz-özünə fikirləşəcək və götür-qoy edəcəksən ki, mən niyə, nəyə və kimə görə qaçmalıyam? Bu zaman insan soyuyur. Agahlıq və bəsirət olduqda isə vəziyyət dəyişir.

Bir gəncin onun üçün əhəmiyyətli və qiymətli olan bir şeyə arxa çevirdiyini, arxayın bir insanın bütün rahatlıq və asayiş vasitələrindən asanlıqla üz çevirdiyini və əsla təəssüflənmədiyini, Yasir və Süməyyə kimi ər və arvadın, ata və ananın, iki nümunəvi müsəlmanın (Əmmarın ata və anası) həyatın bütün gözəlliklərinə göz yumub işgəncələr altında can verdiklərini və bu (islami) həyatın necə də şərəfli olduğunu görürüksə, səbəbi bəsirət və agahlıq idi.

Mən iki-üç il bundan öncə misirli bir yazıçının Əmmar və Yasir haqqında yazdığı bir kitabla rastlaşdım. Onu mütaliə edərkən bir-iki səhv də tutdum, amma çox maraqlı bir kitab idi. Adı “Doğru vədə”dir; bu kitabda Əmmar və onun ata-anası – Yasir və Süməyyənin həyatı qələmə alınmışdır. Səhv etmirəmsə, müəllifi Taha Hüseyndir. Əhməd Aram onu fars dilinə tərcümə etmişdir və tərcüməsi də çox gözəldir. Qeyd etdiyim kimi, kitabda bir neçə səhv olsa da, amma çox gözəl bir kitabdır. Bu

kitabı alın oxuyun, görün ki, bəsirət və agahlığa, şüur və düşüncəyə əsaslanan iman onların qəlbinə necə də nüfuz edibmiş! Müəllif Yasirin imanını, necə iman gətirdiyini və mübarizələrini çox gözəl şəkildə şərh etmişdir. Birinci onun xanımı iman gətirir, sonra isə ərini (Yasiri) mömin edir. Çox maraqlı bir macəradır. Əgər onların bəsirət və agahlığı olmasaydı, o işgəncələrə dözə bilməzdirlər.

Dinlərin son sözü elə əvvəldə deməsinin, məqsədlərini öncədən bəyan etməsinin səbəbi də budur: İnsanlar dinə əyləncə və başlarını qatmaq üçün yox, bəsirət və agahlıqla etiqad bəsləsinlər. Müasir dini dünyamızda isə bunun tamamilə əksini müşahidə edirik. Müasir dini dünyamızda sanki agah və bəsirətli olmaq günahdır, günah! Biri dindar, digəri isə dinə qarşı olan iki zümrə bəzi dini məsələlərdə eyni qənaətə gəlirlər. Həm dindar, həm də dinsiz – hər ikisi elə düşünür ki, din, yəni gözü və qulağı bağlamaq, heç nə düşünməmək və anlamamaq. Zahirdə deyirik və deyirlər ki, üsuli-dinə etiqad dəlil-sübuta əsaslanmalıdır, üsuli-dində heç kimə təqlid etmək olmaz, lakin cürətin varsa, təqlid etmə; üsuli-dində təqliddən azacıq o tərəfə keçən kimi, dərhal təzyiqlərə məruz qalacaqsan. Sanki hamımız dinin bəsirətsiz, agahsız, gözübağlı, dəlil-sübutsuz olduğunu qəbul etmişik. Fürui-dində mütləq mütəxəssisə (müctəhidə) müraciət etməyi, bu sahənin mütəxəssisinə təqlid etməyi eşidib bildiyimiz üçün elə təsəvvür etmişik ki, bu, dinin bütün sahəsinə aiddir. Halbuki, tamamilə bunun əksinədir, yüz səksən dərəcə bir-birilə fərqlənir.

Əsas etibarilə, din bəsirət və agahlığa əsaslanır. Heç kimə demirlər ki, sən hələlik bu dini qəbul et, sonradan təhqiq edərsən, əsla! Dində belə sözlər yoxdur. Fərz edək ki, əgər qəbul etmiş olsan da, qəlbən və agahlıqla qəbul etmədiyin üçün elə həqiqətən də qəbul etməmisən.Əgər sən dini qəbul etsən belə, agah və bəsirətli deyilsənsə, din səni qəbul etməyəcək. Çünki din agahlığa, bəsirətə qiymət verir, bəsirətli insanın məqamının daha da uca olduğunu bildirir; ona görə ki, hamının elə əvvəldən Allaha diqqətli olduğunu istəyir. Elə bu səbəbdən də peyğəmbərlər son məqsəd və hədəflərini elə işin başlanğıcında bəyan edirlər.

Bu zəmində əldə edə biləcəyimiz nəticə ilə bağlı mətləblərdən biri yuxarıda qeyd etdiyimiz mətləbdir. Belə ki, din bəsirət və agahlığı əsas şərt hesab edir, agah və ayıq olmayan müsəlmanı qəbul etmir. İkinci

mətləb isə odur ki, peyğəmbərlərin ardıcılları – özlərini peyğəmbərlərin varisi hesab edənlər, peyğəmbərlərin varisləri olan ilahiyyatçı alimlər, tövhid yolunun yolçusu olan, tövhidi bir qətnamə olaraq qəbul edən, Həzrət İbrahim (ə), Musa (ə) və İsanın (ə) və Allahın digər əziz və böyük peyğəmbərlərinin tərəfdarları hansı yolla hərəkətə keçməli, haradan başlamalıdırlar? Görəsən, ən yaxşı, ən qətiyyətli və ən səmərəli başlanğıc nöqtə peyğəmbərlərin başladığı nöqtə deyilmi?

Biz nə üçün bu gün dindən söz düşdükdə, öncə tövhiddən başlamırıq? Nə üçün? Bəlkə belə deyil? Nə üçün cəmiyyəti və dünyamızı dindar etmək üçün peyğəmbərlərin başladığı nöqtədən başlamırıq? Biz dünya xalqlarını İslam dininə dəvət etmək istədikdə, peyğəmbərlərin yoluna əməl etmirik. Peyğəmbərlər kimi, tövhid prinsipini izah etməliyik. Əgər dünya miqyasında, beynəlxalq səviyyədə peyğəmbərlərin cəmiyyətdə yaratdığı inqilab və dönüşü yarada bilmiriksə, heç olmasa, dünya miqyasında və beynəlxalq səviyyədə insanlara çatdıraq ki, peyğəmbərlərin məqsəd və hədəfi belə bir inqilab və dönüş yaratmaqdır. Bunu deməyə imkanımız varsa, nə üçün demirik?

Nə üçün dindən danışanlar əməli və ideoloji baxımdan tövhiddən başlamaq əvəzinə, ikinci və üçüncü dərəcəli məsələlərdən başlayırlar? Bu, olduqca önəmli və diqqətəlayiq bir məsələdir. Adətən, bizə deyirlər ki, əgər bəzi dini-məzhəbi təbliğatlara etirazınız varsa, bunu nə üçün təbliğatçıların özləri ilə müzakirə etmirsiniz? Cavab odur ki, biz təbliğatçıları haradan tapaq? Çıxış və danışıqlarına irad bildirəcəyimiz şəxsləri haradan tapaq? Bizim səmimi və xeyirxah nəsihətimizin icrasına zəmanət varmı?

Əlbəttə, bunu diqqətinizə çatdırım ki, burada iştirak edənlərin əksəriyyəti məni tanıyır, mənim düşüncələrim və bəhslərimlə tanışdır. Bu məclis içtirakçıları içərisindən məni təzə tanıyanların sayı azdır, yoxsa, çoxunuz uzun müddətdir ki, həm o biri məsciddə, həm də bu məsciddə bizim söhbətlərimizdə iştirak etmişdir. Mənim qəti fikrim budur ki, dini təbliğatların orijinallığı qorunub saxlanılmalıdır. Din öndərlərinin, yəni görkəmli şiə ruhanilərinin varlığı zəruridir. Məncə, bu gün bu təbəqə və sinifdən olan əziz ruhanilərimiz, İslam dünyasında “şiə” adlı elmi-dini cəmiyyət olmasaydı, müsəlmanlar bundan da acınacaqlı duruma düşəcəkdi. Odur ki, İslam maarifini dərk edib öyrədən elmi-dini bir zümrənin varlığı zəruridir. Əlbəttə, hansısa bir gənc və tacir ixtisası

İslam maarifi olmadığı halda, bu sahədə nəsə bir tədqiqat aparıb bir fikir bildiribsə, çıxış edibsə, yazı yazıbsa, İslama xidmət üçün hansısa bir addım atıbsa, Allah-Taala onu qorusun və dəyərləndirsin, lakin bu həmişəlik deyil və o, sadəcə bu işin həvəskarıdır. Bunun üçün bu sahə üzrə peşəkar adamlara ehtiyac var, onlar da şiənin "ruhani" adlı elmi-dini camiəsidir.

Deməli, onlara böyük ehtiyac var. Bu məclisdə iştirak edənlər, mənim gənc dostlarım, bildiyiniz kimi, mən təəssübkeşlik mövqeyindən çıxış etmirəm, həqiqətə söykənib danışıram. Şübhəsiz, "ruhanilik" adlı vahid bir qurumun olması ən böyük zərurətdir. Lakin bunları bu gün bu yolun öndərləri və bu libasın sahiblərinə deməyi özümüzə bir vəzifə bilirik.

Əlbəttə ki, bəzi ruhanilər və təbliğatçılar, həqiqətən də, istədiyimiz kimi, hər şeyə layiqincə əməl edirlər, bəziləri isə bu gün fəaliyyətlərinin başlanğıc nöqtəsinin peyğəmbərlərin fəaliyyətlərinin başlanğıc nöqtəsi olmadığının fərqinə varmırlar. Onlar üçün onuncu, səkkizinci və beşinci dərəcəli məsələlərin dəyər və qiyməti tövhid məsələsindən, Quranın, dinin əsaslarının və İslamın ali təlimlərinin bəyanından daha çoxdur.

Nəkir və Münkərin məzara necə gələcəkləri, insanın sağ tərəfində, yoxsa sol tərəfində, yoxsa da üz-üzə dayanacaqları və bu məsələnin təfərrüatı haqda saatlarla müzakirə etməyə hazırdırlar. Halbuki, bu və bu kimi məsələləri öyrənib-öyrənməmək insanın müsəlman olmasına, bizim əməllərimizə və islami öhdəliklərimizə azacıq belə təsiri yoxdur. Hətta bunları dinin zəruri məsələləri sırasında gətirir və dinin birinci dərəcəli məsələləri tək bəyan edirlər. Lakin tövhid prinsipinin cəmiyyətin və ictimai sistemin formalaşması üçün nə təklif etdiyi, ümumiyyətlə, təklifinin olub-olmadığı haqqında düşünmək istəmirlər. Sözümüz budur ki, ilk növbədə bu kimi məsələlərə önəm verilməlidir. Peyğəmbərlərin fəaliyyət və dəvətinin başlanğıc nöqtəsindən aldığımız dərslərdən biri də budur ki, biz də fəaliyyətimizin başlanğıc nöqtəsini peyğəmbərlərin dəvətinin başlanğıc nöqtəsi ilə eyniləşdirməliyik. Əgər peyğəmbərlər kimi inqilab edə bilməsək də, heç olmasa, peyğəmbərlərin inqilabı, hədəfi və yolunun nədən ibarət olduğunu açıqlayıb izah edə və bu işi görə bilərik.

Son Peyğəmbər (s) haqqında söz düşdükdə, o Həzrətin həyatı ilə bağlı dördüncü və beşinci dərəcəli məsələlərə, misal üçün, o Həzrətin kölgəsinin olmaması kimi məsələlərə üstünlük verilir. Şeyx Səduqun

“Xisal” kitabında nəql olunur ki, Allah Rəsulu (s) yeriyərkən arxasını da görürdü. Əlbəttə, mərhum Şeyx Səduq özü haşiyədə bu məsələni belə şərh edir: “Allah Rəsulu (s) daim öz ətrafını diqqətdə saxlayan bir şəxs kimi olduqca ayıq və diqqətcil idi.” Bəziləri küçədə gəzərkən fikri o qədər dağınıqdır ki, bir nəfər onun arxasınca düşüb bir saat müddətində onu yamsılayaraq ədabazlıq etsə də anlamayacaq. Bəzilərinin arxasınca isə bu hərəkətləri etmək çətindir. Çünki o, çox ayıqdır, dərhal anlayır, heç bir şeyi diqqətindən yayındırmır, ətrafında və arxasında baş verən kiçik bir işarə və hərəkət diqqətini cəlb edir. Min neçə yüz il bundan öncə yaşamış ən böyük şiə alimlərindən sayılan, kitabları o vaxtdan indiyə kimi həmişə şöhrət zirvəsində olan “Üyunu əxbarir-Riza (ə)”, “Kəmalud-din”, “Mən-lə yəhzuruhul-fəqih”, “Xisal” və “Əmali” kimi on dəfələrlə çap olmuş dəyərli kitabın müəllifi Şeyx Səduq (Məhəmməd ibn Əli ibn Babəveyh Qummi) Peyğəmbəri-Əkrəmin (s) ayıq və zirək bir insan olduğunu qeyd edir, bu məsələdə öz fikrini bildirir və onun düz olub-olmadığı bizim müzakirə mövzumuzdan kənardır. Lakin bəziləri bu kimi məsələlərə önəm verir, onlar öz fikir və tənqidlərini qeyd, başqa bir hədis aliminin nəzəri ilə müqayisə də edir, lakin “Peyğəmbəri-Əkrəm (s) nə üçün göndərilib? İctimai quruluş haqqında təklifi nədir? Hökumət haqqında nə buyurub? O Həzrətin insan tərbiyəsinin keyfiyyəti haqqında nəzəri nədir? O Həzrət fərdi tərbiyəni, yoxsa, ictimai tərbiyəni zəruri hesab edirdi?” və s. bu kimi məsələlərə əsla önəm vermirlər.

Bu gün elə bir gün deyil ki, İslam dünyası bu məsələlərdə geridə qalsın. Vaxtımız və fürsətimiz də çox azdır. Bu gün xəstəmiz can üstədir, onun üçün bir saat belə gecdir. Bu gün lazım olan hər bir işi önə atmalıyıq, bu günün bir saatı belə bizim üçün önəmli və vacibdir.

Bəli, İslamın ikinci, üçüncü və dördüncü dərəcəli maarifi haqqında geniş bəhs etməyi bekar vaxtımıza saxlamalı, bu gün isə, ən azından, ilkin işləri həll etməliyik. Son sözümüz budur ki, bu nəsihəti bizdən qəbul etmirsənsə, heç olmasa, nəsihət etdiyim üçün acığın gəlməsin. Bu da başqa bir önəmli məsələdir. Ən yaxşı insan o insandır ki, nəsihəti dinləməkdən acığı gəlməsin.

Bir sözlə, peyğəmbərlərin dəvətinin başlanğıc nöqtəsi tövhiddir. Buna aid Qurandan dəlil gətirdik. Sözü uzatmaq istəmirəm. Həmin surələrdən biri “Nəhl” surəsidir. Ayə belədir:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً

***"Biz hər ümmətə peyğəmbər göndərdik."***

Bu peyğəmbərin sözü nə idi? Onun sözü bundan ibarət idi:

أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ

***"Allaha ibadət edin və tağutdan çəkinin!"***

Bu, peyğəmbərlərin ilk sözüdür. Onların peyğəmbərliyə seçildikləri ilk andan sözləri bu olub: ***"Allaha ibadət edin və tağutdan çəkinin!"***

Tağut Allahın rəqibi, qarşı tərəfidir; Allahın və əmrlərinin müqabilində buynuz-buynuza dayanan, kəllə-kəlləyə gələnlərə "tağut" deyilir. Bəzən bu tağut elə sən özünsən:

أَعْدَي عَدُوِّكَ نَفْسَكَ الَّتِي بَيْنَ جَنْبَيْكَ

*"Sənin ən böyük düşmənin sinənin ortasındakı nəfsindir."*[1]

Bəzən tağut sənin yersiz və boş-boş danışan nəfsin, bəzən şəhvətin və nəfsinin istəkləri, bəzən təkəbbürlülüyündür. Bəzən də tağut insanın varlığının xaricində günü-gündən genişlənən və güclənən qüdrətlər və hakim dairələrdir. Hər halda, peyğəmbərlər gəldiyi zaman tağut deyil, Allah dedilər. Onların dedikləri ilk cümlə bu idi: ***"Allaha ibadət və bəndəçilik edin, tağutdan çəkinin və uzaqlaşın."***

فَمِنْهُم مَّنْ هَدَى اللّهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ الضَّلالَةُ

***"Onlardan bir qismini Allah hidayət etmiş, bir qismi isə azğınlığa düçar olmuşdur."***

فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ

***"Yer üzündə gəzib dolanın, görün ki, (azğınlığa yuvarlanıb peyğəmbərləri) təkzib edənlərin (və onların hidayət və haqq yolunu qəbul etməyənlərin) axırı necə oldu!"***

Çökən sivilizasiyalara, dağılan ölkələr və şəhərlərə baxın! Tarixin sütununda adlarından başqa, heç bir şey qalmayan və məhv edilən Babil, Aşşur və Kəldə şəhərlərinə baxın! Misir cəmiyyətini bir tumar kimi yıxan Misir fironlarının gücünə baxın! Bunlar Quranda buyurulur; baxın görün ki, Peyğəmbərin sözlərinə qulaq asmayan ümmət və ölkələrin axır-aqibəti necə oldu?! Onlar məhvə məhkum oldular. Möcüzədən söz getmir. Əlbəttə, ilk günlərdə möcüzələr gəlirdi; çünki tez bir vaxtda məhv olunmalı idilər. Misal üçün, Ad kimi bir qövmün zamanla cəhənnəmlik olması məsləhət deyildi, odur ki, dərhal zəlzələ, tufan və bu kimi digər əzablara məruz qalıb məhv oldular.

---

1. "Biharul-ənvar", "İman və küfr" başlığı, Məkarimul-əxlaq bölməsi, "Məratibun-nəfs" bölməsi, hədis 1.

Ümumiyyətlə, dünyanın sonuna qədər bu belədir; dini qanunlara riayət etməyən, dinə əsasən hərəkət etməyən hər bir millət məhv olacaq; nəinki onun bütün üzvləri öləcək, xeyr, ümmətin məhvi onların milli təşkilatlarının məhvi deməkdir. Hanı Kəldə xalqı? Siz bu gün Kəldə xalqını ayırd edə bilərsinizmi? Aşşur xalqının harada olduğunu deyə bilərsinizmi? Babil xalqının harada olduğunu müəyyənləşdirə bilərsinizmi? Onlar bəşər tarixinin böyük və ilkin sivilizasiyaları idilər. Onlar hardadırlar? Onlar haqqında bir məlumat varmı?

فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ

***"Baxın görün, (peyğəmbərləri) təkzib edənlərin axırı necə oldu!"***

Bu, "Nəhl" surəsindən idi. İndi isə "Əraf" surəsinə müraciət edək.

"Nəhl" surəsində ümumi olaraq belə buyurulur: وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً ***"Biz hər ümmətə peyğəmbər göndərdik."*** "Əraf" surəsində isə peyğəmbərlərin bir-bir adı çəkilir; öncə Nuhdan (ə) başlanılır və buyurulur:

لَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ

***"Biz Nuhu öz qövmünə (peyğəmbər) göndərdik."***

فَقَالَ يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ

***"O dedi: "Ey qövmüm! Allaha ibadət edin."*** Onun ilk sözü "Allaha ibadət edin." – oldu.

مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ

***"Sizin Ondan başqa heç bir məbudunuz yoxdur." Həqiqi məbud Odur.***

إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ

***"Mən böyük günün sizə üz verəcək əzabından qorxuram!"***[1]

Qövmü isə onu qəbul etmədikdə, tufan vasitəsilə əzaba düçar oldular. Bu isə bizim bəhsimizdən kənardır. Nəhayət, növbə Ad qövmünə çatdıqda, belə buyurulur:

وَإِلَى عَادٍ أَخَاهُمْ هُوداً

***"Ad tayfasına da qardaşları Hudu (peyğəmbər göndərdik)."***[2]

Ad qövmü də qədim tayfalardandır ki, düzgün kəşf edilməmiş, kim və nə zaman olduqları aydın deyildir; Nuh tufanından sonra yaşamış və çox qədim tarixə malik olmuşlar.

وَتَنْحِتُونَ مِنَ الْجِبَالِ بُيُوتًا فَارِهِينَ

1. "Əraf" surəsi, ayə 59.
2. "Əraf" surəsi, ayə 65-71.

***“Dağlardan məharətlə (və ya təkəbbürlə) evlər yonub düzəldəcəksiniz?”***[1]

Bu ayə Ad qövmü haqqında bəhs edir. Zahirən, onlar dağlar arasında ev tikirmişlər. Bəzi alimlərin qeyd etdikləri kimi, düşünürəm ki, daş dövrünün sonlarında yaşamışlar. Bir sözlə, məqsədimiz budur ki, bu qövm çox qədim tarixə malik olmuşdur və peyğəmbərlərinin adı da Huddur. O da digər peyğəmbərlər kimi, eyni sözü deyirdi.

قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ

***“O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin ondan başqa, heç bir məbudunuz yoxdur.””***

Həm də görün ki, tövhid və ümumiyyətlə, dinin insanların təbii vəziyyətindən, onların cahilliyindən yaranıb dinin tədricən tövhidə çatdığını deyənlərin fərziyyələri nə qədər yanlış və batildir. Əzbərdən danışan bu sosioloqlardan bəzilərinin dediklərinə görə, ilk tayfalar müşrik olmuşlar. Məsələn, İmam Həsən Müctəba (ə) məscidini təsvir etmək istəyən bir şəxsin bu binaya bir dəfə belə yaxınlaşmadığı və onu yaxından görmədiyi halda təsvir etməsi gülüncdür. Bəli, mən burada İmam Həsən Müctəba (ə) məscidini belə görürəm; eyvan mərmər daşlarla döşənmiş, çilçıraqlar bir-birinə uyğun asılmış və divarlar gözəl şəkildə rənglənmişdir. Amma görmədən, İmam Həsən Müctəba (ə) məscidinə böyük sayda insanın toplaşdığını eşitdiyi üçün xəyallara qapılaraq məscidi belə təsəvvür edir, halbuki, içəri girəndə tam başqa bir mənzərə ilə rastlaşır; nə divar görür, nə də tavan.

Sosioloji məsələlərdə kimsə mütaliə etmədən əzbər danşanın, tarixin mühüm bir hissəsini, habelə, dini məsələləri araşdırmadan şərh edənin sözləri, təbii ki, gülüş doğuracaq və gülünc görünəcəkdir. Axı, bu dinin tarixi bəlkə də on min illər əvvələ qayıtdığı, bu məşhur tarixin mötəbər rəvayətlərdə Həzrət Adəmin (ə) yer üzünə endiyi vaxtdan 7-8 il, bəlkə də 5-7 il keçdiyi halda, onlar heç bir tədqiqat aparmadan ilk insan cəmiyyətinin müşrik, sonra isə allahpərəst olduğunu düşünürlər. Halbuki, araşdırdıqdan sonra, elə qədimdən və əzəldən insanın allahpərəst olduğunu görürük.

Bir sözlə, sözügedən ayənin davamında buyurulur:

أَفَلاَ تَتَّقُونَ

***“(Ey mənim qövmüm!) Məgər (Allahdan) qorxmursunuz?”***

---

1. “Şüəra” surəsi, ayə 149.

Peyğəmbər öz qövmünə tövhidi başa salmaq və qəbul etdirmək istəyir. Mən burada Hud peyğəmbərin öz qövmü ilə müzakirəsini qeyd etdim. Ayələri üzündən oxuyub tərcümə ilə kifayətlənirəm:

قَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي سَفَاهَةٍ و إِنَّا لَنَظُنُّكَ مِنَ الْكَاذِبِينَ

***“(Hud) tayfasının kafir başçıları ona belə cavab verdilər: “Biz səni səfehlik içində (ağılsız) görür və yalançılardan hesab edirik!””***

Bu, həqiqət iddiaçıları haqqında hər zaman söylənilən yalan fərziyyə və ittihamlardan biridir. Mənim peyğəmbərliklə bağlı müzakirələrimdən biri də budur və bəlkə də sonuncu fəsildir. “Peyğəmbərlərə yaxılan iftiralar necə və nədən ibarət idi?” – sualı ayrıca və mövzumuzdan kənar bir məsələdir. Onlar deyirdilər ki, sən səfehsən və onu nadanlıqda günahlandırırdılar.

قَالَ يَا قَوْمِ لَيْسَ بِي سَفَاهَةٌ وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ

***“(Hud) dedi: “Ey qövmüm! Mən heç də səfeh (və ağılsız) deyiləm, lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!””***

Onların ittihamları və nalayiq iftiraları müqabilində, sözünü yenə təkrarladı:

أُبَلِّغُكُمْ رِسَالاتِ رَبِّي وَأَنَاْ لَكُمْ نَاصِحٌ أَمِينٌ

***“Mən sizə Rəbbimin əmrlərini təbliğ edirəm. Mən sizin xeyrinizi istəyən əmanətdaram.”***

Mən sizin doğru yolda olmağınızı, tərəqqi etməyinizi istədiyim üçün, sizi Allaha və allahpərəstliyə dəvət edirəm.

أَوَ عَجِبْتُمْ أَن جَاءكُمْ ذِكْرٌ مِّن رَّبِّكُمْ عَلَى رَجُلٍ مِّنكُمْ لِيُنذِرَكُمْ

***“Yoxsa sizi (Allahın əzabı ilə) qorxutmaq üçün içərinizdən olan bir nəfər (peyğəmbər) vasitəsilə Rəbbinizdən sizə bir xəbərdarlıq gəlməsinə təəccüb edirsiniz?”***

Yəni, sizin içərinizdən olan, sizin kimi yaşayan adi bir insanın peyğəmbərlik məqamına yüksəlməsinə təəccüb edirsinizmi? Bundan sonra onların diqqətini tarixi bir hadisəyə yönəldir və buyurur:

وَاذكُرُواْ إِذْ جَعَلَكُمْ خُلَفَاء مِن بَعْدِ قَوْمِ نُوح

***“Yadınıza salın ki, Allah sizi Nuh qövmündən (o günahkar qövmdən) sonra onun yerinə gətirdi.”***

وَزَادَكُمْ فِي الْخَلْقِ بَسْطَةً

***“Sizi xilqətcə (onlardan) daha qüvvətli (və üstün) etdi.”***

فَاذْكُرُواْ آلاء اللّهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

***“Allahın nemətlərini yada salın ki, bəlkə, uğur qazanıb nicat***

***tapasınız!"***

Baxın, düşmənlər də dərhal Allaha məxsus ibadətin hansı anlamda olduğunu başa düşürlər.

قَالُواْ أَجِئْتَنَا لِنَعْبُدَ اللّهَ وَحْدَهُ وَنَذَرَ مَا كَانَ يَعْبُدُ آبَاؤُنَا فَأْتِنَا بِمَا تَعِدُنَا إِن كُنتَ مِنَ الصَّادِقِينَ

***"Dedilər: "Sən bizə yalnız Allaha ibadət etməyimiz və atalarımızın tapındıqları (canlı və cansız) bütlərdən əl çəkməyimiz üçünmü gəldin? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyini bir gətir görək!"***

قَالَ قَدْ وَقَعَ عَلَيْكُم مِّن رَّبِّكُمْ رِجْسٌ وَغَضَبٌ

***"(Hud) onlara belə dedi: "Artıq Rəbbinizin nifrət (əzab) və qəzəbi sizi əhatə edib.""*** Siz bədbəxtsiniz.

أَتُجَادِلُونَنِي فِي أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَآؤكُم

***"Sizin və atalarınızın (özlərindən uydurub) verdiyi adlar (bütlər) barəsində mənimlə mübahisəmi edirsiniz?"*** Öz əllərinizlə düzəltdiyiniz və güclü olduqlarını düşündüyünüz varlıqlara görəmi mənimlə mübahisə edirsiniz?

مَّا نَزَّلَ اللّهُ بِهَا مِن سُلْطَانٍ

***"Halbuki, Allah onlara heç bir güc verməmişdir (və onlar barəsində heç bir dəlil endirməmişdir)."*** Ayədə qeyd olunan "soltan" sözü həm "qüdrət", həm də "dəlil" mənasını ifadə edir. Biz burada hər iki mənanı qeyd etmişik və hər ikisi də doğru ola bilər: Biri budur ki, Allah-Taala sənin pərəstiş etdiyin bu bütlərin doğruluğuna heç bir dəlil-sübut nazil etməmişdir, digəri isə budur ki, Allah-Taala aciz olan bu bütlərə heç bir qüdrət vermədiyi halda, onları Allah-Taala ilə bərabər tutursunuz.

فَانتَظِرُواْ إِنِّي مَعَكُم مِّنَ الْمُنتَظِرِينَ

***"Gözləyin. Doğrusu, mən də sizinlə birlikdə gözləyənlərdənəm!"*** O, bunu dedikdən sonra Allahın əzabı nazil oldu.

## Xülasə

**Bazar günü – Ramazan ayının 19-cu günü**

## DƏVƏTİN İLKİN NƏĞMƏLƏRİ

Peyğəmbərlərin dəvətində ilk şüar tövhid nəğməsidir və bu, onların məktəbinin ən önəmli nöqtəsi, ruhu və təməlidir. Əgər digər məktəblərin inqilabi proqramlarında iş strukturu tədrici canlanmaya əsaslanırsa və ilkin şüarları yalnız hədəflərin gerçəkləşməsidirsə, peyğəmbərlərin proqramlarında isə son söz elə əvvəldə deyilir və hər kəs iman və bağlılığın başlanğıcında işin hədəfi, cəhət və sonunu anlayır, tamamilə bəsirət və ayıqlıqla ona üz tutur.

Peyğəmbərlərin dəvətini istər qəbul edənlər, istərsə də ondan boyun qaçırıb müxalifətə qalxanlar "tövhid" ifadəsini eşitməklə bu yeni məktəbdə bəşəri meyarlar, sosial təbəqələşmə, istismar və hər növ zülmkarlıqla mübarizəni açıq-aydın anlayırdılar; eynilə, sosial quruculuq və ideal quruluşun təşkili zamanı insan azadlığı və aliliyi, ictimai ədalət, ümumi rifah, zülm və haqsızlıqla mübarizə təbii olaraq diqqət mərkəzində saxlanıldığı kimi.

Elə peyğəmbərlərin hədəfi və məktəb yolu onlarla müxalifətə qalxan düşmənlərini də eyni şəkildə müəyyənləşdirir. Peyğəmbərlərin ardıcıllarının mövqeyi, mükəlləfiyyət və məsuliyyətləri onların özlərindən sonra da aydın olduğundan, elə buna görə də onların din və məktəbinin inhirafa yuvarlanmasının qarşısını alırlar.

Qurani-Kərimin müxtəlif ayələrinə əsasən, peyğəmbərlərin dilinin ilk şüarı Allaha bəndəçilik və tağutdan çəkinmək, yəni tövhiddir:

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً – ***Biz hər ümmətə peyğəmbər göndərdik ki,***

أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ – ***Allaha ibadət edəsiniz və tağutdan***

*çəkinəsiniz!*

فَمِنْهُم مَّنْ هَدَى اللّهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ الضَّلالَةُ – ***Onlardan bir qismini Allah hidayət etmiş, bir qismi isə azğınlığa düçar olmuşdur.***

فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ – ***Yer üzündə gəzib dolanın, görün ki, (azğınlığa yuvarlanıb peyğəmbərləri) təkzib edənlərin axırı necə oldu!***

(“Nəhl” surəsi, ayə 36.)

لَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ – ***Biz Nuhu öz qövmünə (peyğəmbər) göndərdik.***

فَقَالَ يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ – ***O dedi: “Ey qövmüm! Allaha ibadət edin.***

مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ – ***Sizin Ondan başqa, heç bir məbudunuz yoxdur.***

إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ – ***Həqiqətən, mən böyük günün sizə üz verəcək əzabından qorxuram!***

(“Əraf” surəsi, ayə 59.)

Bir neçə ayədən sonra, yenə başqa bir peyğəmbərin dili ilə belə buyurulur:

وَإِلَى عَادٍ أَخَاهُمْ هُوداً – ***Ad tayfasına da qardaşları Hudu (peyğəmbər göndərdik).***

وَتَنْحِتُونَ مِنَ الْجِبَالِ بُيُوتًا فَارِهِينَ – ***“Dağlardan məharətlə (və ya təkəbbürlə) evlər yonub düzəldəcəksiniz?***

قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَـهٍ غَيْرُهُ – ***O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin ondan başqa, heç bir məbudunuz yoxdur.***

أَفَلاَ تَتَّقُونَ – ***Məgər (Allahdan) qorxmursunuz?”***

قَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي سَفَاهَةٍ و إِنَّا لَنَظُنُّكَ مِنَ الْكَاذِبِينَ – ***(Hud) tayfasının kafir başçıları ona belə cavab verdilər: “Biz səni səfehlik içində (ağılsız) görür və yalançılardan biri hesab edirik!***

قَالَ يَا قَوْمِ لَيْسَ بِي سَفَاهَةٌ – ***(Hud) dedi: “Ey qövmüm! Mən heç də səfeh (və ağılsız) deyiləm.***

وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ – ***Lakin mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!”***

أُبَلِّغُكُمْ رِسَالاتِ رَبِّي وَأَنَاْ لَكُمْ نَاصِحٌ أَمِينٌ – ***Mən sizə Rəbbimin əmrlərini təbliğ edirəm. Mən sizin xeyrinizi istəyən əmanətdaram.***

أَوَعَجِبْتُمْ أَن جَاءكُمْ ذِكْرٌ مِّن رَّبِّكُمْ عَلَى رَجُلٍ مِّنكُمْ لِيُنذِرَكُمْ – ***Yoxsa, sizi (Allahın əzabı ilə) qorxutmaq üçün içərinizdən olan bir nəfər (peyğəmbər) vasitəsilə Rəbbinizdən sizə bir xəbərdarlıq gəlməsinə təəccüb edirsiniz?***

وَاذكُرُواْ إِذْ جَعَلَكُمْ خُلَفَاء مِن بَعْدِ قَوْمِ نُوحٍ – ***Yadınıza salın ki, Allah sizi Nuh qövmündən sonra onun yerinə gətirdi.***

وَزَادَكُمْ فِي الْخَلْقِ بَسْطَةً – ***Sizi xilqətcə (onlardan) daha qüvvətli (üstün) etdi.***

فَاذْكُرُواْ آلاء اللّهِ لَعَلَّكُمْ تُفْلِحُونَ – ***Allahın nemətlərini yada salın ki, bəlkə, qələbə qazanıb nicat tapasınız!***

قَالُواْ أَجِئْتَنَا لِنَعْبُدَ اللّهَ وَحْدَهُ وَنَذَرَ مَا كَانَ يَعْبُدُ آبَاؤُنَا فَأْتِنَا بِمَا تَعِدُنَا إِن كُنتَ مِنَ الصَّادِقِينَ – ***Dedilər: "Sən bizə yalnız Allaha ibadət etməyimiz və atalarımızın tapındıqları bütlərdən əl çəkməyimiz üçünmü gəldin? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyini bir gətir görək!***

قَالَ قَدْ وَقَعَ عَلَيْكُم مِّن رَّبِّكُمْ رِجْسٌ وَغَضَبٌ – ***"(Hud) onlara belə dedi: "Artıq Rəbbinizin nifrət (əzab) və qəzəbi sizi əhatə edib.""***

أَتُجَادِلُونَنِي فِي أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَآؤُكُم – ***"Sizin və atalarınızın (özlərindən uydurub) verdiyi adlar (bütlər) barəsində mənimlə mübahisəmi edirsiniz? "***

مَّا نَزَّلَ اللّهُ بِهَا مِن سُلْطَانٍ – ***"Halbuki, Allah onlar heç bir güc (və dəlil) göndərməmişdir."***

فَانتَظِرُواْ إِنِّي مَعَكُم مِّنَ الْمُنتَظِرِينَ – ***"Elə isə gözləyin, mən də sizinlə birlikdə gözləyənlərdənəm!"***

("Əraf" surəsi, ayə 65-71.)

## ON DOQQUZUNCU MƏCLİS

## MÜXALİF QRUPLAR

Bazar ertəsi – 1974/10/07
Ramazan ayının 20-si.

بسم الله الرحمن الرحيم

وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوًّا شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُورًا وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ. وَلِتَصْغَى إِلَيْهِ أَفْئِدَةُ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ وَلِيَرْضَوْهُ وَلِيَقْتَرِفُواْ مَا هُم مُّقْتَرِفُونَ

***“Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər qərar verdik. Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər ilham (və təlqin) edirlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər! Nəticədə, axirətə inanmayanların qəlbləri onlara meyil etsin, onlar ondan (həmin sözlərdən) xoşlansın və gördükləri çirkin işləri bir daha görsünlər.”***

“Ənam” surəsi, ayə 112-113.

Qeyd etdik ki, peyğəmbərlik ictimai bir inqilabdır və sosial təbəqələrin inkarı bu inqilabın əsaslarından biridir; belə ki, ilahi peyğəmbərin yaratdığı mühitdə həm zəif, kölə, möhtac və yoxsul təbəqəni, həm də zalım, güclü və varlı təbəqəni görə bilməzsən. İslam və hətta digər dinlərdə, İslam hökumətində və ilahi sistemdə zəif və gücsüz olan, öz qanuni haqqını tələb edə bilməyən bir şəxs belə təsəvvür edə bilməzsən. Elə buna görə də bir hədisdə belə buyurulur:

لا تُقدَّسُ أمَّةٌ لا يأخذُ الضَّعيفُ حقَّه من القويِّ غيرَ مُتَعتَع

*"Qorxmadan (və dili topuq vurmadan) zəifin haqqını güclüdən ala bilməyən cəmiyyət pak və müqəddəs (xoşbəxt) deyildir."*[1]

Yəni, əgər bir cəmiyyətdə böyük və mühüm ictimai bir vəzifədə çalışmayan zəif bir insan dili topuq vurmadan öz haqqını tələb edə bilmirsə, bilin ki, belə bir cəmiyyətdə doğruluqdan, xoşbəxtlikdən, müvəffəqiyyətdən və qurtuluşdan söz gedə bilməz. Əgər həmin zəif şəxs dili topuq vura-vura, üzü-gözü qızara-qızara öz haqqını ala bilirsə belə, yenə faydasızdır. Əgər bir evdə bir ailənin üzvü, övladı öz haqqı olan yeməyi almaq üçün mətbəxə gedərək yeməyini götürüb yeyərsə, heç xəcalət çəkərmi, utanarmı, həqarət hissi keçirərmi? Şübhəsiz ki, xeyr! İslamın bizə öyrətdiyi və öyrəndiyimizə əməl etməyimizi tələb etdiyi kimi, cəmiyyətə də belə bir vəziyyət hakim olmalıdır; cəmiyyətin bütün üzvləri və övladları heç bir fərq qoymadan və ayrı-seçkilik etmədən bir bədəni xatırladır. Yəni, İslam cəmiyyətində Əmirəlmöminin Əli (ə) kimi bir İslam hakiminin haqqı-hüququ nə qədərdirsə, onun rəiyyətinin haqqı-hüququ da elə o qədərdir.

İslam cəmiyyətində böyük vəzifə sahibləri sravi bir insana zor tətbiq

---

1. "Biharul-ənvar", Əmirəlmöminin Əlidən (ə) nəql olunan hədislər / o Həzrətin Malik Əştərə məktubu.

edə bilməzlər. Hətta bizim nəzərimizcə, İslam cəmiyyətinin yolu dəyişdirildiyi, ilahi xilafət və Əmirəlmöminin Əlinin (ə) imamətindən uzaq salındığı zaman belə, hansısa bir vali və güc sahibinin özü yox, hətta oğlu hansısa bir ərəbə zor tətbiq edərdisə, həmin ərəb ciddiyyətlə o uzaq məsafəni qət edib paytaxt Mədinəyə gələrək məhkəmədə öz haqqını və ədalətin icrasını tələb edirdi. Xəlifə də valiyə məktub yazaraq həm onun özünün, həm də oğlunun paytaxta gəlməsini əmr edirdi. Cavab vermək üçün təkcə oğlunu deyil, valinin özünü də çağırırdı. Hər ikisi getməli olurdu. Xəlifə ondan: "Nə üçün bu ərəbi incitdin və döydün?" – deyə soruşduqda, valinin oğlu da cavabında deyirdi: "Ey möminlərin əmiri, ey xəlifə, de ki, şahid gətirsin." O da buyururdu ki, onun nə zəhmətlə Misirdən durub Mədinəyə gəlməsi bu məsələyə şahid kimi kifayətdir. Sən onu səhralıqda döyübsən. Səhralıqda şahid nə gəzir? Sən onu səhralıqda döydüyünə görə dörd nəfər şahid gətirməlidirmi? Sən onu gözlərdən uzaq səhralıqda döyübsən, bəs o, nə etməlidir? Əgər sən onu döyməsəydin, o, şikayət üçün heç vaxt bu qədər yolu Misirdən Mədinəyə piyada qət edib gəlməzdi. Xəlifə onu cəzalandırır. Valinin oğlu məsciddə yerə uzadılır və ona qırmanc vurulur. Oğul ayağa qalxdıqdan sonra, xəlifə buyurur ki, indi atanı uzadın. (Ata – Misirin valisi Əmr As idi.) Əmr Asın səsi ucalır: "Axı mən niyə? O ərəbi mən yox, oğlum döyüb. Axı mənə niyə qırmanc vurmaq istəyirsiniz?" Xəlifə deyir: "Çünki oğlun sənin güc və qüdrətinə güvənib. Əgər sən onun atası olmasaydın, hakimiyyətdə olmasaydın, onun hamisi olmasaydın, bu ərəbi heç vaxt səhrada döyə bilməzdi. Odur ki, sən də cəzalanmalısan." Bu haçana aiddir? Hələ bu, o zamana aiddir ki, İslam cəmiyyəti ilahi yoldan çıxmışdı, hakimiyyətdə olanlar Əmirəlmöminin Əli (ə) deyil, xilafətə layiq bilmədiyimiz şəxslər idi. Eyni zamanda belə idilər.

Bir sözlə, İslam cəmiyyəti budur. Bunu deməkdə məqsədim odur ki, bugünkü bəhsimizdən nəticəni mən yox, siz özünüz çıxara biləsiniz, bəhsimizin nəticəsini qeyd etməzdən öncə, onu siz özünüz əldə edəsiniz. İslamın istədiyi cəmiyyət budur. Digər ilahi dinlər də İslam kimidir; yəni, elə bir cəmiyyət istənilir ki, onda zülm və quldurluq olmasın, cəmiyyətdə məhrum və yoxsul təbəqə ola-ola, bir dəstə sərvət yığmaqla məşğul olmasın. Bu dinin və məktəbin rəhbəri Əmirəlmöminin Əli (ə) belə buyurur:

ما رَأَيْتُ نِعْمَةًمَوفورَةً إلّا و بِجانِبِها حقٌ مُضَيَّعٌ

*"Elə böyük bir nemət görmədim ki, onun kənarında bir haqq zay edilməsin."*[1]

Əgər insanlar arasında sərvəti bölüşdürmək istəyirsinizsə, Rokfellerə[2] bu qədər sərvət çatmamalıdır. Onun bu qədər sərvətə sahib olduğunu görürsünüzsə, səbəbi on-iyirmi milyon insanın payını mənimsəməsidir.

İlahi dinlərin məntiqində İslam və ideal cəmiyyət budur: bu cəmiyyətdə zorakılıq və zülmkarlıq yoxdur; İslam cəmiyyətində başqasına zülm etmək, sosial təbəqələşmə yaratmaq istəyənə imkan verilməz. Nə üçün? Çünki Peyğəmbər (s) tərəfindən təsis edilmiş bir sistem idi. Mahir dərzilər görübsünüzmü? Onlar qatı açılmamış parçaları kəsib-doğrayır, dəlik-deşik edirlər. İslam cəmiyyətinə çoxlu zərbələr endirsələr də, onu kəsib-doğrasalar da onun təməlini sarsıda bilmədilər. Çünki onun dərzi və memarı Peyğəmbər (s) idi. Allahın iradəsi və o Həzrətin güclü əlləri ilə qurulmuş bir sistem idi. İslam belə bir sistemdir; onda zorakılıq və quldurluqdan, istismar və müstəmləkədən, bir fərdin və yaxud cəmiyyətin digər insanlara hakimiyyətindən söz gedə bilməz. Allahın istəyi ilə təşkil olunmuş belə bir cəmiyyətdə nadanlıq, məlumatsızlıq və xurafatçılıq yoxdur; belə bir cəmiyyətdə hamı fikirləşməyə və öz haqq yolunu tapmağa məcburdur və onu tapdıqdan sonra da mütləq onu ötüb-keçməlidir.

Belə bir cəmiyyətdə zəiflər, məhrumlar və məzlumların haqqını müdafiə etmək hamının borcudur; heç kimin öz mənafeyini güdməyə: "Mənim mənafeim təmin olursa bəsimdir, öz problemlərim və işlərim mənə kifayətdir, başqalarının işləri və problemlərini həll etməyə vaxtım yoxdur, nəyimə lazımdır!" – kimi sözlər danışmağa haqqı yoxdur. Çünki hamı birdir və bir bədənin üzvləridir. Belə bir cəmiyyətdə tənbəllik, ixtilaf, təfriqə və ikitirəlik, Zeyd, Əmr və Bəkr kimilərin ardınca kor-koranə hərəkət etməkdən söz gedə bilməz. Peyğəmbər (s) belə bir cəmiyyət qurmaq istəyirdi. Diqqət yetirin! Unutmayın ki, Peyğəmbərin (s) öz güclü əli, ilahi vəhy və ilhamla qurmaq istədiyi bu cəmiyyətin ən

1. "İmam Əli (ə) – insan ədalətinin səsi".

2. Con Rokfeller ABŞ-ın ən böyük kapitalist və milyarderlərindən biridir. Onun öz adına təsis etdiyi müəssisə sonralar sionist cərəyanlarının təsiri ilə dünyada baş verən siyasi hadisələrdə təsirli bir rol oynadı. Məsələn, Məhəmməd Rza şahın bu müəssisə ilə yaxın əlaqəsinə işarə edə bilərik.

böyük və əsaslı xüsusiyyəti elm, agahlıq, ədalət və bərabərliklə yanaşı sosial təbəqələrin, istismarın, sərvət yığmağın, müstəmləkənin, mütləq hakimiyyətin və batili müdafiə etməyin inkarı, habelə, haqq və həqiqəti himayə etməyin zəruriliyindən ibarətdir. İslam cəmiyyətinin xüsusiyyəti bunlardır.

Bugünkü bəhsimizlə əlaqədar əsas sözüm odur ki, bir peyğəmbər cahil cəmiyyətdə öz sözü və hədəfini deyib, necə bir cəmiyyət və sistem quracağını dilə gətirərkən onunla mübarizəyə qalxan kimlər olacaq?

Peyğəmbərin necə bir cəmiyyət qurmaq istədiyinə toxunduq. Burada peyğəmbərlə hansı şəxslərin mübarizə aparacağı aydındır. Onunla mübarizə aparacaq ilkin şəxslər sosial təbəqələşmədən bəhrələnib canlanan, müəyyən bir zümrənin qanını soran, günahsız insanların qüvvələrindən haqsız istifadə edənlərdir. Əgər onlar da bu insanlarla eyni səviyyədə, eyni təbəqədə və bərabər hüquqa sahib olacaqlarsa, bəs, kimlərdən istifadə edəcəklər? Bundan sonra kimlərin qanını soracaqlar? Odur ki, müxalifətə qalxırlar. Peyğəmbərin dəvəti və təşkil etdiyi cəmiyyətlə müxalifət və mübarizəyə qalxan digər qruplar onun-bunun kisəsindən oğurluq edən, hansısa qoca bir qadının bağlı dəsmalına göz dikən, hansısa dükan sahibinin cibinə girən və sərvətlərini daha da artıran varlı təbəqədir. Hansı ki, onlar təsis etdikləri korrupsiya müəssisələrində pul al-veri ilə məşğul olur, bütün ticari əlaqələr və iqtisadi faliyyətləri öz xeyirlərinə tamamlayırlar. Məgər belə deyilmi? Sizin peşəniz nədir? Əgər bazarda ticarətlə məşğul olursunuzsa, qazandığınızın yarısı sizin, yarısı isə hansısa müəssisə və qurumlarındır. İndi bax, gör, nə qədər qazanc verir və səhərdən axşama qədər kimlərə görə çalışırsan.

Korrupsiya üzərində qurulduğu, hamının sələmlə məşğul olduğu, birinin sələm verdiyi, digərinin isə sələm aldığı bir cəmiyyətdə bütün ticarətlər korrupsiya müəssisələrinin xeyrinə tamamlanır. Belə bir cəmiyyətdə sərvət yığmaqla məşğul olan və sərvəti ilə ağalıq edənlərin sərvət toplamağı qadağan edən islahatçı peyğəmbərlə müxalifətçilik etməsi təbii bir məsələdir. Deməк, peyğəmbərlə mübarizə aparan qruplardan biri də sərvət sahibləridir.

Peyğəmbərin dəvəti və ilahi risalətlə mübarizə aparan növbəti qrup zalım hakimlərdir. Çünki "Lə ilahə illəllah" (Allahdan başqa, heç bir məbud yoxdur) – kəlməsi həqiqi mənada hansısa bir cəmiyyətə daxil olardısa, bu, Fironun həmin cəmiyyətdən silinməsi, aradan qalxması,

yaxud da sıravi bir insana çevrilməsi deməkdir. "Lə ilahə illəllah" (Allahdan başqa, heç bir məbud yoxdur) – kəlməsinin mənası budur! Əgər "Lə ilahə illəllah" (Allahdan başqa, heç bir məbud yoxdur) – kəlməsi həqiqi mənada cəmiyyətdə quruculuğa səbəb olarsa və bu cəmiyyətin təməli "Lə ilahə illəllah" (Allahdan başqa, heç bir məbud yoxdur) – kəlməsi əsasında qurularsa, onun başında Firon, Haman, Nəmrud, Şəddad, Müaviyə yox, Allah duracaqdır. Aydındır ki, Firon, Nəmrud və tarixin digər zalımları peyğəmbərlərin dəvəti və təşkil etdiyi cəmiyyətlə mübarizəyə qalxacaqlar. Bəli, peyğımbərlərlə mübarizə aparan digər qrup hegemon qüvvələrdir.

Növbəti qrup isə insanların beyinləri və təlim-tərbiyəsi ilə məşğul olub öz ictimai mövqelərini möhkəmlədən yəhudi alimləri və xaçpərəst rahiblərdir. Tarixən onlar daim insanların nadan qalmasına çalışmışlar. Həzrət İsa Məsih (ə) kimlərlə mübarizə aparırdı? O dövrün yəhudi cəmiyyətində Həzrət İsa Məsihin (ə) dəvətinə qarşı çıxanlar kimlər idi? Elə yəhudi alimləri idilər, halbuki, onlar Həzrət İsa Məsihi (ə) yaxşı tanıyırdılar.

İslam zühur etdikdən sonra, Peyğəmbəri-Əkrəmin (s) inqilabı və hərəkatı ilə razılaşmayanlar, İslam inqilabının ayaq tutması və kök atmasına maneçilik törədənlər kimlər idi? Məlum məsələdir ki, Peyğəmbəri-Əkrəm (s) və onun təşnəliyi aradan qaldıran, zehnlərə işıq saçan, gözləri açan, cəhalət və nadanlıqlara son qoyan ləzzət və həyat bəxş edən təlimləri olan yerdə onlar ağalıq edə bilməz, İslam olan yerdə Kəbül-Əhbar[1] və Abdullah ibn Salamın[2] uydurmaları, sözsüz, öz rəngi və rövnəqini itirəcəkdir. Aydındır ki, beyinlərə və düşüncələrə həqiqət günəşi işıq saçırsa, artıq xurafatlar və qaranlıqlar da öz-özünə aradan

---

1. Əbu İshaq Kəb ibn Mate Himyəri – yəmənli yəhudi alimlərindəndir və İslam Peyğəmbərindən (s) sonra ikinci xəlifənin xilafətinin əvvəllərində İslam dinini qəbul etdi və Mədinədə məskunlaşdı. Qurani-Kərimi səhabələrdən öyrəndi. Yəhudi alimlərinin kitabları ilə tanış olduğu üçün "Kəbül-Əhbar" ləqəbi ilə məşhurlaşdı. O, Tövrata istinadən bir çox hədislər qondardı ki, onun saxta hədisləri "İsrailiyyat" adlanır.

2. Abdullah ibn Salam ibn Haris İsraili – Bəni-Qinqa yəhudilərinin başçıları və alimlərindən idi. Deyilənlərə görə, hicrətin birinci ilində İslamı qəbul etdi. O, Kəbül-Əhbarla birlikdə ikinci xəlifənin xilafəti dövründə onun müşaviri və yaxınlarından idi və bu, İslam cəmiyyətində bir çox azğınlıqların yaranması ilə nəticələndi. O, Müaviyənin dövründə onun yaxınlarından oldu və Əmirəlmöminin Əliyə (ə) beyətdən boyun qaçırdı.

qalxacaqdır. Odur ki, Peyğəmbər (s) zühur edib, elmə, agahlığa, azad düşüncəyə, ziyalılığa, ilahi dəyərlərə əsaslanan bir cəmiyyət təşkil etdikdə, təhlükə hiss edən ilk zümrələrdən biri də yəhudi və xristian alimləri – insanların ayıqlığının həm onların özləri, həm də əlbir olduqları qüdrət sahiblərinin zərərinə olan kəslər – idi. Siyasi güclər də zərər görür, təhlükə hiss edirdilər.

Eynilə, dördüncü İmam (ə) Məhəmməd ibn Şahab Zöhriyə yazıdğı məktubda onu elə təsvir edir ki, biz bu gün iyirminci əsrdə tarixə nəzər saldıqda, xalqları əzən, onların tərəqqi etməsi və istedadlarının çiçəklənməsinə maneçilik törədən və hüquqlarını əlindən alan dini və siyasi güclərin koalisiyasını mülahizə etdikdə, İmam Səccadın (ə) həmin məktubda o günə hakim vəziyyəti necə də gözəl şəkildə təsvir etdiyini dərk edirik:

وَاعلَم أنَّ أدنى ما كَتَمتَ وأخَفَّ مَا احتَمَلتَ أن آنَستَ وَحشَةَ الظّالِمِ وسَهَّلتَ لَهُ طَريقَ الغَيِّ بِدُنُوِّكَ مِنهُ حينَ دَنَوتَ وإجابَتِكَ لَهُ حينَ دُعيتَ

*"Bil ki, gizlədə biləcəyin ən kiçik həqiqət və ya boynuna yükləyəcəyin ən yüngül yük o zamandır ki, zülmkar şəxs səni özünə çəkdikdə, dəvətini qəbul edərək ona qoşulasan, ona munis olaraq azğınlığı üçün yolu hamar edəsən."*[1]

Beləliklə, peyğəmbərin gəlişindən qorxuya düşən zümrələrdən biri də qeyri-həqiqi və batil dinlərin rəhbərləri idi. Onlar da peyğəmbərlərin azadlıq bəxş edən dəvətləri ilə kəskin mübarizə aparırdılar. Dini mətnlərimizdə də buna dair nümunələr vardır. İbrahim peyğəmbərin macərasında nəql olunur ki, bütxananın xidmətçiləri bütlərin sındığını gördükdə, "Onları kim sındırıb?" – deyə hay-küy salmağa başladılar və Nəmrudu məcbur etdilər ki, Həzrət İbrahimi (ə) oda atsın. Bütxana barəsində məlumat sahibi olanlar adi camaat deyil, bütxananın kahin və xidmətçiləri idi. Fironun vaxtında Musa ibn İmrana (ə) görə Firona təsəlli verənlər, öz sehr-caduları ilə onun sehrlərini batil edəcəkləri ilə təskinlik verənlər də elə onlar idilər. İsa peyğəmbərin dəvəti zamanı o Həzrətlə müxalifət və mübarizəyə qalxan ən böyük düşmənlər də elə onlar idilər. Camaatın əlində olan İncil kitabına bir baxın, bu kitab nə qədər təhriflərə məruz qalsa da tarixin bu hissəsini və həqiqətini bizim üçün aydınlaşdırır. Yenə görürük ki, İslamın dəvəti ilə bağlı eşitdiyiniz çoxlu sayda hekayələrdə göstərilir ki, insanları ardıcıl olaraq Peyğəmbərə (s) sual

1. "Tuhəful-uqul", səh.274.

vermək, onu sınaqdan keçirmək üçün o Həzrətin canına salırdılar. Nəcran xristianları ilə bağlı "Mübahilə" (qarğış) cərəyanını və bu kimi digər hadisələrin ortalığa atılması buna bir misaldır. Onlar insanları öz çürük və köhnə inanclarında qalmağa məcbur edirdilər.

Bir cəmiyyətə yeni təfəkkür tərzi aşılandıqda və insanların təfəkkür yolunu daha çox idrak, şüur və agahlığa doğru çəkib apardıqda, onları – istər yaşlı olsun, istərsə də gənc – bu ideoloji cərəyana doğru yönəltdikdə, istər-istəməz ona tərəf üz tutacaq. İnsanlar daim yeni söz istəyir, həzm edə bildiyi sözü daha tez qəbul edirlər. Həm də yalan sözün işığı olmaz. Xurafat, dini təhrif və dəyişikliklər yalandır. Əgər bu xurafatın batilliyi aydın bəyan və dəlillə sübut olunarsa, insanlar onu asanlıqla qəbul edərlər.

Tarix boyu yəhudi və xristian alimləri peyğəmbərlərin aydın söz sahibi olmalarına rəğmən, insanların peyğəmbərlərə qoşulmasına maneçilik törətmişlər. Peyğəmbərlərin sözü aşkar, dəlil-sübutları tutarlı, özləri isə nur olub. Hər zaman insanları maarifləndirmiş, insanları çaşdıracaq bir söz danışmamış, filosoflar kimi anlaşılmaz fəlsəfi terminlərdən istifadə etməmiş, insanlara qarşı düz olmuş, aydın danışmışlar. Məhz bu səbəbdən də insanlar onlara tez bir zamanda iman gətirməli, sözləri dəqiq və tutarlı olduğu üçün dərk etməli idilər. Lakin insanların bu qədər inadkarlıq və təəssübkeşlik edib peyğəmbərlərin dəvətini qəbul etməmələrinə nə səbəb oldu? Qurani-Kərimdə "əhbar" və "rahib" adlandırılan yəhudi və xaçpərəst alimləri maneçilik törədir, insanları ata-babalarından qalmış yanlış ənənələrə və xurafat dolu əqidələrdən əl çəkməməyə təşviq edirdilər. Onlar da peyğəmbərlərin gəlişindən qorxuya düşürdülər. Çünki yaxşı bilirdilər ki, peyğəmbərin gəlişi ilə cəmiyyətə agahlıq, aydınlıq, ideoloji tərəqqi bəxş ediləcək, cəmiyyət ya öyrənəcək, ya da öyrədəcək; artıq belə bir meydanda savadsızların, özündənrazı insanların, səbəbsiz hörmətə layiq görülənlərin, cəmiyyətin savadsız və xurafat içərisində qalmasını istəyənlərin yeri yoxdur. Elə buna görə də, peyğəmbərlər, ilahi dəvətlər və tarixi inqilablarla var gücləri ilə mübarizə aparırdılar. Bu da dördüncü təbəqə! Qurani-Kərimə müraciət etsəniz, bu məsələyə də rast gələcəksiniz.

Bura qədərki söhbətimizdə Qurani-Kərimə istinad etmədən, yalnız peyğəmbərlərin dünyanı və cəmiyyəti islah etmək üçün gəldiklərinə aid

məsələləri şərh etdik. Sonra isə peyğəmbərlərin dəvətindən qorxuya düşən təbəqələrdən danışdıq. Aydındır ki, sərvət toplamağın qadağan olunduğu yerdə sərvət toplayanlar, sosial təbəqələşmənin günah olduğu cəmiyyətdə elit təbəqə və eyş-işrət içində yaşamağa adət edənlər qorxacaqlar. Əgər bir cəmiyyətdə yoxsul təbəqə varlı təbəqə ilə bərabər hüquqa sahib olacaqsa, onların arasında heç bir fərq qoyulmayacaqsa, kölə ilə ağa bərabər tutulacaqsa, hamı ağa olub, özünün isə ağa olmadığını görəcəksə, əlbəttə ki, müxalifətçilik etməyə başlayacaq. Ağalar özlərini o zaman ağa hesab edirlər ki, özlərindən başqa, heç kim ağa olmasın, başqaları kölə olsun, ağaların sayı az olsun. Bir cəmiyətdə kölələr də ağalıq edəcəksə, ağaların sayı artacaqsa, ağalıq qiymətdən düşəcəksə, ağaların məqamı enəcəksə, kölələri ilə fərqlənməyəcəksə, kölələrin məqamı böyüyüb ona tay olacaqsa və ağalar əzizlik məqamını itirəcəksə, təbii ki, ağalar müxalifətə qalxacaqlar.

Belələri mütləq hakimiyyət və qüdrət istəyir; mərhum Mirzə Naininin [1] "Tənbihul-ummət" kitabında qeyd etdiyi kimi, daim istədiklərini yerinə yetirən və icra edənlər, Qurani-Kərimin ifadəsi ilə desək, yerinə yetirdiyi işə görə sorğu-suala tutulmaq istəməyənlər[2], hər zaman istədiklərini icra edənlər, istədiklərini danışanlar, istədikləri yerə gedənlər (və heç kimin ondan: "Hara getmişdin?" – deyə soruşmadığı kəslər) peyğəmbərlərin dəvəti və hökumətini heç vaxt xoş qarşılamaz. Çünki peyğəmbərin gəlişi ilə ilk zərbəni alacaq şəxsin özü olduğunu yaxşı bilir. Bəli, peyğəmbərlərlə mübarizə aparan təbəqələrdən biri də yəhudi və xaçpərəst alimləri olublar.

Bizim qeyd etdiyimiz bu dörd təbəqənin adı Qurani-Kərimdə də qeyd edilir. Lakin vəzifə sahibləri, rəislər, hakimlər, məmurlar təbəqəsi, qüdrət sahibləri və rejimlər Qurani-Kərimdə "mələ`" (başçı) ifadəsi ilə yad edilir:

---

1. Mirzə Məhəmmədhüseyn Naini (1858-1936) Nain şəhərində dünyaya göz açmışdır. O, İsfahan alimlərindən bəhrələndikdən sonra Nəcəfi-Əşrəfə yola düşür və Mirzə Şirazinin dərslərində iştirak edir. İranda baş vermiş "Məşrutə" inqilabının tərəfdarı olduğunu elan edir və "Tənbihul-ummət və tənzihul-millət" kitabını qələmə alır. O, bu kitabda məsum imamın qeybə çəkildiyi dönəmdə fəqih alimin mütləq vilayəti (hakimiyyəti) məsələsini isbat edir. Mərhum Naini İranın "Məşrutə" inqilabındakı böyük rolu ilə bərabər, ingilislərin İraq üzərindəki müstəmləkəçiliyi qarşısında da nüfuz sahibi olmuşdur.

2. "Ənbiya" surəsi, ayə 23.

قَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِ

***"(Hud) tayfasının kafir başçıları ona belə dedilər..."***[1]

Dəbdəbəli həyat tərzi sürən, təmtəraqlı həyata sahib olan və hamıya həqarət gözü ilə baxanlara "mələ`" deyilir. Peyğəmbərlərlə mübarizə aparan təbəqələrdən biri də onlar idi. Bu təbəqəyə kimi misal çəkmək olar? Fironun cahilanə rejimində özündən deyən Haman bu təbəqənin bir nümunəsidir.

وَقَالَ فِرْعَوْنُ يَا هَامَانُ ابْنِ لِي صَرْحًا

***"Firon dedi: "Ey Haman! Mənim üçün bir uca qəsr tik…""***[2]

Haman Fironun işlərini görür və ona dəllallıq edirdi. Ona nökərçilik və dəllallıq etdiyi üçün hamıya ağalıq (və hökmranlıq) edirdi. Sədi demişkən:

مگسی را که تو پرواز دهی شاهین است

"Sənin uçurtduğun milçək şahindir (yırtıcı quşdur)."

Haman Fironun uçurtduğu və yetişdirdiyi milçək idi və "şahin" adlı yırtıcı quşun işini görürdü. O, zəif və bədbəxt idi, lakin Firona güvəndiyi üçün bütün işlərin sahibi olmuşdu. Odur ki, yoldan təmtəraqla ötüb-keçirdi, ona görə yolları boşaldır, insanları yolun kənarından uzaqlaşdırırdılar. Soruşanda nə olub? Kim gəlir? Bu qədər hay-küy nə üçündür? Deyirdilər ki, Haman gəlir.

Müaviyənin cahilanə rejimində çalışan Müğeyrə ibn Şöbə və Ziyad ibn Əbih də belə idi. Onlar ayədə qeyd olunan "mələ`"lər (başçılar) idilər. Müaviyənin taxtından elə möhkəm yapışırdılar ki, Müaviyə ətrafına baxanda, yalnız dost və tərəfdar görürdü. Qurani-Kərimdə belələri – bədbəxtliklər, cinayətlər və haqsızlıqların mənşəyi olan əyan-əşraf, mütrüf və elitar təbəqə – "mələ`" ifadəsi ilə qeyd edilir. Burada bununla bağlı ayəni qeyd etmişəm və sizin üçün tilavət edəcəyəm. Həmin ayədə deyilir ki, Biz hər ümmətə peyğəmbər göndərdikdə, onlarla mübarizəyə qalxan və müxalifət səsini ucaldan ilk şəxslər həmin ümmətin mütrüfləri, əyan-əşrafı olurdu.

Qurani-Kərimdə bu zümrədən olan ideoloji rəhbərlər "əhbar" (yəhudi alimləri) və "rahib" (xaçpərəst rahibləri) adı ilə qeyd edilir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّ كَثِيرًا مِّنَ الأَحْبَارِ وَالرُّهْبَانِ...

***"Ey iman gətirənlər! (Yəhudi) alimlərindən və (xaçpərəst)***

1. "Əraf" surəsi, ayə 66.
2. "Mumin" surəsi, ayə 36.

***rahiblərindən..."***[1]

Sonda bu ayənin oxuyacaq və tərcüməsini də qeyd edəcəyik. Bu təbəqə də "tağut" adlanır. Ötən məclisdə qeyd etdiyimiz kimi, tağut geniş məna daşıyır və Allahın müqabilində dayanan qüdrət sahiblərinə deyilir. Bəzən tağut elə insanın öz nəfsidir.

أَعْدَي عَدُوِّكَ نَفْسَكَ الَّتِي بَيْنَ جَنْبَيْكَ

*"Sənin ən böyük düşmənin sinənin ortasındakı nəfsindir."*[2]

Ola bilər ki, sənin öz canın, nəfsin, nəfsinin istəkləri, övladın, həyat yoldaşın və sevimli dostun sənin tağutun olsun. Böyük qüdrətlər də tağut ola bilər. Bəli, tağutun geniş mənası var. Lakin Qurani-Kərimin hər yerində tağutun Allahın müqabilində dayanan mühüm vəzifə və qüdrət sahibləri hesab edilməsindən anlayırıq ki, tağut cahilanə rejimin ən böyük məqamına deyilir. Bir yerdə belə buyurulur:

الَّذِينَ آمَنُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ كَفَرُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ الطَّاغُوتِ

***"İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar."***[3]

اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ

***"Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə tağutdur, onları (kafirləri) nurdan ayırıb zülmətə salar."***[4]

Quranın əvvəlindən sonuna qədər, təqribən, səkkiz ayədə "tağut" ifadəsi işlədilir ki, həmin ayələrə nəzər yetirdikdə, "tağut" ifadəsindəki məqsədin "zalım rəhbərlər" olduğu anlaşılır.

Bəli, bu dörd zümrə yalnız Həzrət Musanın, Həzrət İbrahimin və Həzrət Peyğmbəri-Əkrəmin (s) zamanında deyil, tarixin bütün zamanlarında peyğəmbərlərə qarşı müxalif mövqedən çıxış edib. Haçan haqq söz deyilirdisə, ilahi peyğəmbərlərə və səmavi kitablara itaət səsi ucalırdısa, bu dörd zümrə, ya birlikdə, ya da biri digərindən sonra sıraya düzülürdü. Bu, Quran ayələrinin bizə öyrətdiyi bir mətləbdir. İndi isə, icazənizlə ayələri tilavət edək.

---

1. "Tövbə" surəsi, ayə 34.
2 . "Biharul-ənvar", "İman və küfr" başlığı, "Məkarimul-əxlaq" bölməsi, "Məratibun-nəfs" bölməsi, hədis 1.
3. "Nisa" surəsi, ayə 76.
4. "Bəqərə" surəsi, ayə 257.

Birinci ayənin ilk hissəsində belə buyurulur:

وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوًّا شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ

***“Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər qərar verdik.”***[1]

وَكَذَلِكَ – “Beləcə” sözündə məqsəd nədir? Yəni, sənin kimi! Ey Peyğəmbər, sənin başına gələnlər keçmiş peyğəmbərlərin də başlarına gəlmişdir.

“Şeytan”ın mənasını izah etmişdik və bu ayə bizim izahımızı bir daha təsdiqləyir. İnsanın varlığının xaricindəki şər yaradan qüvvəyə “şeytan” deyilir. Bəşərin atası Həzrət Adəmə səcdə etməyən İblis onun bir növüdür və o, şeytanların ən pisidir. Digər şeytanların şər işləri onun ayağına da yazılır. Dünyada mövcud olan hər bir şeytan, istər insan, istərsə də cin şeytanlarından olsun, fəsad və çirkin bir işə əl atdıqda, insanların dediyi lənətlər ona qayıdır və onu bütün şər işlərin səbəbkarı bilirlər. Halbuki, bu şeytanlardan bəziləri o şeytanların müəllimi hesab edilirlər.

يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ

***“Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə ilham (və təlqin) edirlər.”***

Peyğəmbərin düşmənləri olan bu şeytanlar bir-birinə təlqin edir və öyrədirlər. Bəzən, yəhudi alimləri və xaçpərəst rahibləri “mələ`” (elit) təbəqəsinə dərs keçir, bəzən də bu zümrə o biri zümrəyə dərs keçirdi. Bəzən də mütrüflər hər iki təbəqəyə dərs keçirdi və adətən, hər üç təbəqə tağutdan ilhamlanırdı. يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ ***“Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təlqin edirlər.”***

زُخْرُفَ الْقَوْلِ غُرُورًا

***“Təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təlqin edirlər.”***

Mən nübuvvətlə bağlı gələcək söhbətlərimizdə zahiri xoş olan sözlərə bir fəsil ayıracağam. Zahiri xoş olan sözlər aldadıcıdır. Firon deyirdi:

وَقَالَ فِرْعَوْنُ ذَرُونِي أَقْتُلْ مُوسَى

***“Buraxın məni Musanı öldürüm.”***[2] Axı niyə öldürmək istəyirsən?

إِنِّي أَخَافُ أَن يُبَدِّلَ دِينَكُمْ

Cavab verir ki: ***“Mən onun sizin dininizi dəyişdirəcəyindən qorxuram.”***

---

1. “Ənam” surəsi, ayə 112.
2. “Mumin” surəsi, ayə 26.

Bu, Fironun sözü idi. Firon qorxur ki, Həzrət Musa (ə) camaatın dinini korlasın. Sözügedən ayədə belə zahiri xoş sözlər زُخْرُفَ الْقَوْلِ “ zuxrufəl-qəvl”, nadanlıqdan insanları və bir-birini məğrur etmək isə غُرُورًا “ ğurur” adlanır.

وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ

***“Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər”,*** imkan tapa bilməzdilər. Əgər Allah istəsəydi, bu müxalif qrupların hamısını bir anda külə çevirib göyə sovurardı, lakin bu, ilahi qanuna uyğun deyil. İlahi qaununauyğunluğa əsasən, onlar düşmənçilik etməlidirlər ki, mömin qeyri-mömindən seçilsin və tanınsın. İnsan kələ-kötür yollarda möhməklənməlidir ki, yeriyə və qaça bilsin. Asfalt yolda bir neçə addımlıq yolu hamı ötüb-keçə bilər. وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ – Əgər Rəbbin istəsəydi, onlar bu düşmənçiliyi edə bilməzdilər. Lakin Allah-Taala Özü təyin etdiyi qanuna zidd iradə etməz.

فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ

***“Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!”***

“Boşla getsinlər” nə deməkdir? Yəni, onların yalanlarına görə qəmgin olma, üzülmə, süst olma, öz yoluna davam et.

وَلِتَصْغَى إِلَيْهِ أَفْئِدَةُ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ

***“Nəticədə, axirətə inanmayanların qəlbləri onlara meyil etsin.”***[1]

Onların aldadıcı və zahiri gözəl sözlərinin nəticəsi budur ki, qəlbləri axirətə inanmır, haqq söz, həqiqi tövhid sədası və peyğəmbərlərin dəvətinin əleyhinə olan yalan və zahiri xoş təbliğatlara uyurlar. Bu yalan və aldadıcı təbliğatlar onların qəlblərini ovlamış, özünə cəlb etmişdir. Kimlərin qəlblərini? Axirətə inanmayanların qəlblərini. Elə buna görə də onlar axirətə inanmır və dərhal yalan təbliğatların əsarətinə düşüb aldanırlar.

وَلِيَرْضَوْهُ وَلِيَقْتَرِفُواْ مَا هُم مُّقْتَرِفُونَ

***“Onlar ondan (həmin sözlərdən) xoşlansın və gördükləri çirkin işləri bir daha görsünlər.”***

Baxın, bu ayədə icmali şəkildə işarə olunur ki, bütün peyğəmbərlərin aşkar və gizli, cin və insanlardan olan düşmənləri vardır və onlar bir-birinə ilham edir, dərs keçir və öyrədirlər.

Vaxt az olduğundan vərəqdə qeyd etdiyim ayələri oxuyub diqqətinizə çatdırıram:

---

1. “Ənam” surəsi, ayə 113.

وَلَقَدْ أَرْسَلْنَا مُوسَى بِآيَاتِنَا وَسُلْطَانٍ مُّبِينٍ

***“Həqiqətən, Biz Musanı ayələrimizlə, açıq-aşkar dəlil və qüdrətlə göndərdik.”***[1]

Açıq-aşkar dəlil və yaxud qüdrət nə idi? Həzrət Musanın (ə) güclü məntiqi, haqq sözü, əlindəki əsası, nurlu əli! Bu qədər nişanə və dəlildən sonra adi və qeyri-adi insanlardan hər kəs onun sözlərini qəbul etməli idi. Odur ki, Musanı (ə) göndərdik. Kimlərə göndərdik? Kimlərlə döyüşmək üçün göndərdik? Cəmiyyətdə Həzrət Musanın (ə) qarşı tərəfində duranlar kimlər idi? O, kimlərlə mübarizə aparmalı idi? Kimlərə tərəf göndərilirdi? Ayədə açıq-aşkar buyurulur:

إِلَى فِرْعَوْنَ

***“Firona tərəf.”***

Ondan sonra kimə tərəf?

وَهَامَانَ

Fironun vəziri, onun məmləkətinin rəislərindən, əyan-əşrafından və elit təbəqəsindən olan ***“Hamana tərəf.”***

Ondan sonra kimə tərəf?

وَقَارُونَ

***“Qaruna tərəf.”***

Qarun kimdir? Qarun rəis və hakim deyildi, pullu və var-dövlətli bir şəxs idi. Əslində, Qarun Firon və Hamandan sonrakı təbəqənin üzvü idi. Bununla belə, Allah-Taala buyurur ki, Həzrət Musanı (ə) ona tərəf və onunla da mübarizəyə göndərdik. Yəni, Həzrət Musa (ə) üçün Harun, Haman və Qarun eyni adamlardır, Firon və Hamanla döyüşdüyü kimi, onunla da döyüşürdü.

Qarunun günahı xaqın malını mənimsəmək, sərvətinin miqdarını artırmaq idi. Fərz edin, bir süfrədə əlli nəfərlik yemək qoyulubsa, əlli nəfər insan əyləşib süfrədəki yeməklərdən yeyərək doyur və hətta yeməkdən artıq da qalır. Qarun isə diz çökərək qırx doqquz nəfərin yeməyini qarşısına qoyurdu. Aydındır ki, qırx doqquz insanın yeməyini bir nəfər yeyə bilməz, ancaq başqalarına da ondan yeməyə icazə vermirdi. Qırx doqquz nəfər bir nəfərin yeməyini yediyi halda, bu bir nəfər qırx doqquz nəfərin yeməyini mənimsəyir və heç kimə vermirdi. Qarun belə bir şəxs idi. O, ümumi sərvətləri mənimsədiyindən, Həzrət Musa (ə) onunla vuruşmağı qərara aldı.

1. “Mumin” surəsi, ayə 23-25.

Maraqlıdır ki, hökumət başçısı olan Firon bir təbəqə, onun yanında işləyən Haman başqa bir təbəqədən hesab edilirdi. Qarunun isə onlarla heç bir əlaqəsi yox idi, sərvət sahibi idi və tamamilə başqa bir təbəqədən sayılırdı. Üç fərqli təbəqənin məntiqi isə bir idi: Hər üçü Həzrət Musanın (ə) müqabilində mövqe tutur və eyni sözü təkrarlayırdı. Nə deyirdilər?:

فَقَالُوا سَاحِرٌ كَذَّابٌ

***“Bu sehrbazdır, yalançıdır!”***

فَلَمَّا جَاءهُم بِالْحَقِّ مِنْ عِندِنَا

Həzrət Musa (ə) Allah tərəfindən onlara haqq ilə gəldikdə, onlar nə dedilər? Sakit qaldılarmı? Həzrət Musa (ə) onların varlıq fidanlarını kökündən qırmaq və çürük həyat ağaclarını kəsmək istədikdə, susub qaldılarmı? Əsla! Həzrət Musanın (ə) təklif etdiyi sistem onların həyatına zərbə olduğundan, onlar da Həzrət Musa (ə) ilə mübarizə aparıb belə deyirdilər:

قَالُوا اقْتُلُوا أَبْنَاء الَّذِينَ آمَنُوا مَعَهُ

***“Onunla birlikdə iman gətirənlərin (yəhudilərin) oğlanlarını öldürün.”***

Bu peyğəmbərin yeni və ilahi düşüncəsi ilə mübarizə meydanına yenicə qədəm qoymuş şəxslərin oğullarını öldürün ki, sabah bir daha bizi təhdid edə bilməsinlər. Öldürün ki, onların varlığı qığılcım verməsin! Öldürün onların gənclərini!

وَاسْتَحْيُوا نِسَاءهُمْ

***“Qadınlarını isə diri saxlayın!”***

Qadınları nə üçün diri saxlamaq lazımdır? Səbəbsiz deyildi. Çünki nəsillər bir-birinə qarışacaq, cəmiyyətdə fəsad, pozğunluq, əxlaqsızlıq və cinsi azğınlıqlar artacaqdı.

Ayənin davamında isə belə buyurulur:

وَمَا كَيْدُ الْكَافِرِينَ إِلَّا فِي ضَلَالٍ

***“Kafirlərin hiyləsi ancaq boşa çıxar.”***

Kafilər nə qədər planlar cızsalar və hiylələr işlətsələr də hamısı puç oldu, nəticə vermədi; eynilə küləyin düşmənə və hədəfə atılan oxu yayındırdığı kimi, “ilahi qanunauyğunluq” adlı külək də onların oxlarını hədəfdən uzaqlaşdırdı. Qoy, onlar Həzrət Musanın (ə) əleyhinə nə qədər planlar cızırlarsa cızsınlar, hiylələr işlədirlərsə işlətsinlər, hamısı boşa çıxacaq!

Mülahizə etdiyiniz kimi, bu ayədə üç təbəqədən söz açılır: Firon

təbəqəsi, Haman təbəqəsi və Qarun təbəqəsi.

Başqa bir ayədə isə yenə mütrüflərdən, xüsusən, Qarun təbəqəsindən söz açılır və buyurulur:

وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّذِيرٍ إِلَّا قَالَ مُتْرَفُوهَا إِنَّا بِمَا أُرْسِلْتُم بِهِ كَافِرُونَ

***"Biz hər hansı bir məmləkətə elə bir qorxudan (peyğəmbər) göndərmədik ki, oranın mütrüfləri, əyan-əşrafı və sərvətliləri deməsinlər: "Həqiqətən, Biz sizə göndərilənləri inkar edirik (və qəbul etmirik).""***[1]

Görəsən, nə üçün qəbul etmirdilər? Səbəb nə idi?

وَقَالُوا نَحْنُ أَكْثَرُ أَمْوَالًا وَأَوْلَادًا

***"Onlar (Peyğəmbərə) dedilər: "Bizim var-dövlətimiz və övladımız (sizinkindən) daha çoxdur."***

وَمَا نَحْنُ بِمُعَذَّبِينَ

***"Bizə əzab da verilməyəcəkdir."***

"Tövbə" surəsindən olan son ayə yəhudi alimləri və xaçpərəst rahiblərinə aiddir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّ كَثِيرًا مِّنَ الأَحْبَارِ وَالرُّهْبَانِ لَيَأْكُلُونَ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ وَيَصُدُّونَ عَن سَبِيلِ اللّهِ

***"Ey iman gətirənlər! Yəhudi alimlərindən və xaçpərəst rahiblərindən çoxu insanların mallarını haqsızlıqla yeyir və (onları) Allah yolundan döndərirlər."***[2]

Ayənin davamı yenə mütrüflər, sərvət yığanlar və rifah içində yaşayanlar təbəqəsindən söz açılır:

وَالَّذِينَ يَكْنِزُونَ الذَّهَبَ وَالْفِضَّةَ وَلاَ يُنفِقُونَهَا فِي سَبِيلِ اللّهِ فَبَشِّرْهُم بِعَذَابٍ أَلِيمٍ

***"Qızıl-gümüş yığan və onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!"***

Bir sözlə, qeyd etdiyimiz bir neçə ayə və digər ayələrdə bu dörd təbəqə və onların düşmənçilikləri ilə tanış olduq.

1. "Səbə" surəsi, ayə 34-35.
2. "Tövbə" surəsi, ayə 34.

## Xülasə

## Bazar ertəsi – Ramazan ayının 20-ci günü

## MÜXALİF QRUPLAR

Öyrəndik ki, “besət” sosial dönüş – cəmiyyətdə əsaslı və köklü dəyişiklikdən ibarətdir. Bu isə məzlum və məhrum təbəqənin xeyrinə, elit təbəqənin və yersiz hörmətə layiq görülənlərin zərərinədir.

Aydındır ki, sosial təbəqələşmə ilə müxalifət səsi tarixdə və dünyanın heç bir nöqtəsində cavabsız qalmamış, (adətən, məhrum təbəqələrdən) hamilər və tərəfdarlar qazandığı kimi, hücuma məruz qalmış təbəqələrdən düşmənlər və müxaliflər də yaradır. Bu isə iki cəbhə arasında qarşıdurmaya səbəb olur və elə bu nöqtədən nübuvvətlə bağlı onlarla mühüm məsələlər ortaya çıxır. (Onlardan bəzilərinə işarə edəcəyik.)

İndi isə bu qruplarla geniş tanışlıq əldə etmək üçün Qurani-Kərimə müraciət edirik. Qurani-Kərimin bir yerində ümumi intonasiya ilə peyğəmbərlərin dəvəti ilə müxalifətə qalxanlardan söz açılırsa, başqa bir yerində üç təbəqə (Firon, Haman və Qarun – başçı, məmur və əşraf-əyan təbəqələrin simvolu olaraq) yanaşı qeyd edilir. Digər bir yerində isə növbəti təbəqədən – dini şəxsiyyətlər və alimlərdən söz açılır və ümumilikdə, peyğəmbərlərlə müxalifət və mübarizəyə qalxan dörd təbəqə diqqəti özünə cəlb edir.

Aşağıdakı ayələrdə qeyd edilən “tağut, “mələ`”, “mütrüf”, “alim və rahib”ləri buna misal göstərmək olar:

وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوًّا شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ – ***Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər qərar verdik.***

يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُورًا – ***Onlar (biri digərini) aldatmaq***

***məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər ilham (və təlqin) edirlər.***

وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ – ***Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər.***

فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ – ***Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər (onlara etina etmə və onların hiylələrindən qorxma)!***

وَلِتَصْغَى إِلَيْهِ أَفْئِدَةُ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ – ***Nəticədə , axirətə inanmayanların qəlbləri onlara (onların sözlərinə) meyil etsin.***

وَلِيَرْضَوْهُ وَلِيَقْتَرِفُواْ مَا هُم مُّقْتَرِفُونَ – ***Onlar ondan (həmin sözlərdən) xoşlansın və gördükləri çirkin işləri bir daha görsünlər (onların aqibətinə düçar olsunlar.)***

(“Ənam” surəsi, ayə 112-113.)

وَلَقَدْ أَرْسَلْنَا مُوسَى بِآيَاتِنَا وَسُلْطَانٍ مُّبِينٍ – ***Həqiqətən, Biz Musanı ayələrimizlə, açıq-aşkar dəlil və qüdrətlə göndərdik.***

إِلَى فِرْعَوْنَ وَهَامَانَ وَقَارُونَ – ***Firona, Hamana və Qaruna tərəf.***

فَقَالُوا سَاحِرٌ كَذَّابٌ – ***Onlar isə dedilər: “Bu sehrbazdır, yalançıdır!”***

قَالُوا فَلَمَّا جَاءهُم بِالْحَقِّ مِنْ عِندِنَا – ***Onlara Allah tərəfindən haqq ilə gəldikdə dedilər:***

اقْتُلُوا أَبْنَاء الَّذِينَ آمَنُوا مَعَهُ – ***Onunla birlikdə iman gətirənlərin (yəhudilərin) oğlanlarını öldürün.***

وَاسْتَحْيُوا نِسَاءهُمْ – ***Qadınlarını isə diri saxlayın!***

وَمَا كَيْدُ الْكَافِرِينَ إِلَّا فِي ضَلَالٍ – ***Kafirlərin hiyləsi (və planı) ancaq boşa çıxar (və təsirsiz olar).***

(“Mumin” surəsi, ayə 23-25.)

وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّذِيرٍ إِلَّا قَالَ مُتْرَفُوهَا إِنَّا بِمَا أُرْسِلْتُم بِهِ كَافِرُونَ – ***Biz hər hansı bir məmləkətə elə bir qorxudan (peyğəmbər) göndərmədik ki, oranın mütrüfləri (əyan-əşrafı və sərvətliləri) deməsinlər: “Həqiqətən, Biz sizə göndərilənləri inkar edirik (və qəbul etmirik).***

وَقَالُوا نَحْنُ أَكْثَرُ أَمْوَالًا وَأَوْلَادًا – ***Onlar (peyğəmbərə) dedilər: “Bizim var-dövlətimiz və övladımız (sizinkindən) daha çoxdur.***

وَمَا نَحْنُ بِمُعَذَّبِينَ – ***Bizə əzab da verilməyəcəkdir.***

(“Səbə” surəsi, ayə 34-35.)

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّ كَثِيرًا مِّنَ الأَحْبَارِ وَالرُّهْبَانِ لَيَأْكُلُونَ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ – ***Ey iman gətirənlər! Yəhudi alimlərindən və xaçpərəst rahiblərindən çoxu insanların mallarını haqsızlıqla yeyir***

وَيَصُدُّونَ عَن سَبِيلِ اللّهِ – ***və (onları) Allah yolundan döndərirlər.***

وَالَّذِينَ يَكْنِزُونَ الذَّهَبَ وَالْفِضَّةَ وَلاَ يُنفِقُونَهَا فِي سَبِيلِ اللّهِ فَبَشِّرْهُم بِعَذَابٍ أَلِيمٍ – ***Qızıl-***

***gümüş yığan və onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!***

(“Tövbə” surəsi, ayə 34.)

# İYİRMİNCİ MƏCLİS

## NÜBUVVƏTİN SONU-1

Çərşənbə axşamı – 1974/10/08
Ramazan ayının 21-i.

بسم الله الرحمن الرحيم

أَنزَلَ مِنَ السَّمَاء مَاء فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا فَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاء حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاء وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ

***“Allah göydən bir yağış endirdi, vadilər öz tutumları qədər onunla dolub daşdı. (Vadilərdə axan) sel, üstünə çıxan köpüyü götürüb apardı. Bəzək şeyləri və ya əşya (qab-qacaq) düzəltmək məqsədilə insanların od üzərində qızdırıb əritdikləri (qızıl, gümüş və s. filizlərin) üstündə də buna bənzər bir köpük vardır. Allah haqq ilə batili (sizə) ayırd etmək üçün belə misallar çəkir. Köpük heç bir şey olmadığı üçün uçub gedər. İnsanlara fayda verən bir şey isə yer üzündə qalar. Allah belə misallar çəkir!”***

“Rəd” surəsi, ayə 17.

Keçən məclislərdə şərh etdiyimiz kimi, peyğəmbərlər böyük və mütərəqqi hədəflərə sahib olublar. Aydınlıq və ayıqlıq əsri adlandırılan iyirminci əsrin mədəniyyəti ilə müqayisədə onların hədəfləri olduqca mütərəqqidir. İnsanları bərabərləşdirmək, nadanlığı, yoxsulluğu, zülmkarlığı, istismarı və sosial təbəqələşməni aradan qaldırmaq onların ən başlıca hədəflərindəndir. Peyğəmbərlər bu dəyərli, mütərəqqi və ali hədəflərlə cəmiyyətə göndərilmişlər.

Fəaliyyət, təlaş və mübarizə ilahi peyğəmbərlərin həyatının hasilidir. Onlar peyğəmbərliyə seçildiyi ilk gündən heç vaxt rahat yatmadılar, xoş gün görmədilər və daim mübarizə apardılar. Bu, ilahi peyğəmbərlərin sərgüzəştinin xülasəsidir. Sonda da dini mətnlərdən oxuduğumuz kimi, dövrün tağut və zalımları ilə mübarizə apardıqları üçün bəzilərinin başları bədənlərindən ayrıldı, bəziləri ağacın koğuşuna qoyulub mişar ilə doğrandı, bəziləri qürbətdə ikən ağrı-acı ilə dünyadan köçdülər. Heç biri azacıq belə sərvət yığmadı, özlərindən sonra dünyəvi və dünyapərəst rəhbərlər kimi saray və böyük sərvətlər qoymadı. İlahi peyğəmbərlərin, səfirlərin, məmurların və elçilərin həyatının xülasəsi budur. Bunları öyrəndik. İndi bir sual qarşıya çıxır: Peyğəmbərlərin tarixində oxuduğumuz kimi, onların həyatı mübarizə və içgəncələrlə keçmiş, çoxu da şəhadətə yetmişdir. Elə isə onların fəaliyyət və mübarizəsi faydasız və səmərəsiz olubmu? Peyğəmbərlər tarixdə məğlub olubmu? Sadəlövh insanlar və peyğəmbərlərə müxalif qüvvələr daim ümumi xalq kütləsinə təbliğat aparmışlar ki, peyğəmbərlər öz fəaliyyətlərində faydalı nəticəyə nail olmamış və tarixə həmişə zülm, haqsızlıq, ədalətsizlik və küfr hakim olmuşdur. Belə deyilmi? Bizim nəzərimizcə, belə deyildir. Adəm (ə), Nuh (ə) və İbrahimdən (ə) tutmuş son Peyğəmbərə (s) qədər bu əziz ilahi elçilər nəinki məğlub olmamış, həm də bütün bəşəriyyət aləmində bir

hədəfi izləyən və ona doğru addımlayan insanlar içərisində heç kim peyğəmbərlər qədər uğur və müvəffəqiyyət qazanmamışdır. Bu, bizim əqidəmizdir. Nəzərimizcə, keçmişdə peyğəmbərlərin fəaliyyət və mübarizələrinin sonu həmişə istəklərinə uyğun tamamlandığı kimi, gələcəkdə də belə olacaqdır və bizim buna dəlil-sübutumuz vardır.

Burada iki mətləb, iki bəhs mövcuddur: Biri budur ki, nübuvvət və risalət adı ilə məşhur olan peyğəmbərlər silsiləsi, yəni Həzrət Adəmdən (ə) Həzrət Muhəmmədə (s) qədər bütün peyğəmbərlər nə iş gördülər? Fəaliyyətləri nədən ibarət oldu? Bu bir mətləb!

İkinci mətləb isə budur ki, böyük ilahi peyğəmbərlərin hər biri öz zamanında müvəffəq oldular, yoxsa məğlubiyyətə uğradılar? Burada iki məsələ var. Mən bu məclisdə hər iki məsələni izah edib tamamlamaq istəyirəm, inşallah! Siz də bu məsələləri öyrənməkdə maraqlısınız. Bu o məsələlərdəndir ki, onları öyrənməyimiz faydalıdır. Faydalı dedikdə, yalnız məlumatımızın artırılmasını nəzərdə tutmuram, insanın məlumatını artırsa da, amma faydasız olan sözlər həddən artıq çoxdur. İndi hamınız bilmək istəyərmi ki, Ayda vulkanik dağlar necə formalaşıb? Amma bunun sizə nə faydası var? Bizim öyrəndiyimiz bir çox məlumatların vaxtımızı almaqdan başqa, bir nəticəsi olmayıb. Günlərlə zəhmət çəkib mütaliə edirik, araşdırırıq, danışırıq, yazıb-pozuruq, ömrümüzü sərf edirik, sonra diqqətlə baxanda, görürük ki, puç və faydasız məlumatlarla yüklənmişik; nə bizi bir addım Cənnətə və Allahın razılığına, nə də bu dünyada bir addım sağlam və islami cəmiyyətə yaxınlaşdırıb. Yalnız bu qədər faydası olub ki, özümüzlə öyünmüşük, özümüzü çox savadlı, alim və ziyalı hesab etmişik və bu niyyətlə öyrənmək qapısını üzümüzə bağlamışıq və heç kimdən də öyrənmək istəməmişik. Yalnız bu qədər!

Həqiqi mənada faydalanmağı nəzərdə tuturam, həqiqi mənada faydalanmaq 3-5-ci məclislərdə izah etdiyimiz həqiqi iman kimi, insana həm agahlıq bəxş edir, həm də öhdəlik və məsluyyət yaradır. Birinci məsələ odur ki, peyğəmbərlər silsiləsi birincidən sonuncuya qədər bəşəriyyət üçün nələr etdilər? Cavab odur ki, peyğəmbərlər heyvan qədər yolunu tanımayan, istedadlarından məlumatı olmayan bir varlığı o qədər ucalatdılar ki, səmavi mələklər belə ondan nəsə öyrənməli oldular. Onlar bəşəriyyəti alçaqlıqdan, yırtıcılıqdan və nadanlıqdan çıxarıb onlara mədəniyyət aşıladılar. Onların təlimlərinə əməl edənlər həyatın şirinliyi

və gözəlliyini duydular. Peyğəmbərlər insanların üzərində heç nə bilməyən, hərfləri belə tanımayan şagird tək bir il zəhmət çəkib onu ikinci sinifə yola salırdılar. Birinci sinif müəllimi həmin şagirdin ikinci sinifə keçməsi üçün bu yolda canını fəda edirdi. Onun üçüncü sinifə keçməsi üçün müəyyən bir müddət zəhmət çəkən müəllim yenə bu yolda öz canını əldən verirdi. Dördüncü sinifin qayğıkeş müəllimi – o mehriban ata şagirdlərinin yüksək pillələrə yüksəlməsi üçün nə qədər zəhmətlərə qatlaşır, həyatını qurban verirdi. Bu körpə uşağı addım-addım sinifdən sinifə keçirərək yüksəklərə qaldırdılar. Bu günümüzü iki əsr öncə ilə müqayisə etdikdə, elm, şüur, düşüncə və mədəniyyətin nə qədər tərəqqi və inkişaf etdiyinin şahidi oluruq.

İndi isə baxıb görürük ki, həmin müəllimlər yoxdur. Onlar haradadırlar? Biri birinci sinifin bir hərf belə tanımayan şagirdlərinə dərs keçərkən elə həmin ilin ortasında dünyasını dəyişir, digəri ilin sonunda həmin şagirdlərə öyrədərkən bir ixtilaf nəticəsində şagirdləri onun əleyhinə əlbir olur və elə onların əli ilə qətlə yetirilir. Üçüncü sinifin müəllimi bir cür, dördüncü sinifin müəllimi isə başqa cür canlarını qurban verməli olurlar. İndi həmin müəllimlər aramızda yoxdur. Hər müəllim öz risalət və vəzifəsini icra etdikdən sonra, zahirən, hədəfinə çatmadan dünyadan köçdü. Görərsən, həqiqətədən də, hədəfinə çatmadımı? Yaxşı düşünün. Həmin müəllimlər hədəflərinə nail olmadılarmı? Onların hədəfləri nə idi? Görəsən, bu qayğıkeş müəllimlərin istəkləri nə idi? Onlar şagirdlərinin qara torpaqdan ayaq götürüb elm, mərifət və mədəniyyət zirvəsinə yüksəlməsini istəyirdilər. İndi belə deyilmi? Elə isə bu müəllimlər hədəflərinə çatmışlar. Düzdür, dünyadan köçüb gertmişlər! Düzdür, onlar bu dünyada rifah içində yaşamadılar! Düzdür, onlar bu fidanın bar verdiyini öz gözləri ilə görmədilər! Lakin hədəfləri gerçəkləşdi. Onların hədəfi bu idi ki, bəşəriyyət – heç nə bilməyən bu şagirdlər birinci və ikinci sinifi bitirib çətinliklə də olsa, zirvəni fəth etsinlər.

Peyğəmbərlərin məqsədi bu idi. Tarix boyu Həzrət Adəm, Nuh, Lut, Hud, Saleh, Şüeyb, İbrahim, İsmail, Musa, İsa və digər peyğəmbərlərin missiyası bəşəriyyəti zirvəyə çatdırmaq, elm və mərifət öyrətmək, axirət həyatına hazırlamaq və ona lazımi istedadları aşılamaq olub. Onlardan bəziləri yolun əsnasında faciəli şəkildə qətlə yetirilərək bu nəticəni görmədilər, lakin (onların zəhmətləri sayəsində) bəşəriyyət hələ də

irəliləməkdədir.

Bu gün dünya min il bundan öncə ilə müqayisədə İslamın haqq sözünü eşitməyə daha çox hazırdır. Bu gün bəşəriyyət ilahi hökuməti qəbul etmək üçün min il, min üç yüz il bundan əvvəllə müqayisədə daha da təşnədir. İmam Zaman (ə.f) gözlərdən uzaqlaşıb qeybə çəkildiyi gün bəşəriyyət islahatçı və inqilabçı imamı qəbul etməyə hazır deyildi. Əgər o Həzrət inqilab etmək və cəmiyyətdə dəyişiklik yaratmaq istəsəydi belə, sözsüz, o dövrə hakim qeyri-münasib şəraitə görə bacarmayacaq və istədiyi cəmiyyəti formalaşdıra bilməyəcəkdi.

Peyğəmbəri-Əkrəmin (s) Əhli-beytindən (ə) olan məsum imamların dönəmində cəmiyyət inhirafa yuvarlanmışdı, Əməvilər və Abbasilər kimi zalım və hegemon qüvvələr bu əkin sahəsini elə acınacaqlı vəziyyətə qoymuş, elə zəhərləmişdilər ki, sağlam bitki belə orada bitmirdi. Elə buna görə də, İmam (ə.f.) qeybə çəkildi. O Həzrətin gələcəyi gün necə? Dəqiq vaxtını bilmədiyimiz zühur edəcəyi gün isə bəşəriyyət İslamın haqq sözünü eşitmək və qəbul etmək, mütərəqqi İslam cəmiyyətini öz çiynində daşımaq, Quran ayələrini icra etmək üçün hazır olacaq. Amma İmam Zaman (ə.f.) qeybə çəkildiyi vaxt bəşəriyyət buna hazır deyildi.

İmamət və onun fəlsəfəsi bölməsində imamın varlıq fəlsəfəsinin nə olduğunu qeyd edəcək və bunu açıqlayacağıq. Bir sözlə, peyğəmbərlər tarixdə müvvəffəq olublar. Bəşəriyyətin günü-gündən tərəqqi etdiyini, təkamül zirvəsinə yaxınlaşdığını görürüksə, bundan artıq nə istəyirik ki? Peyğəmbərlər nə istəyirdilər? Aləmlərin Rəbbi istəyir ki, bu xam maye öz təbii seyri ilə təbii və fitri məqsədinə – təkamülə, ali insanlıq məqamına nail olsun. Aləmlərin Rəbbi bunu iradə etmişdir və şübhəsiz ki, bəşəriyyət son qayəsinə və təkamül nöqtəsinə çatacaqdır. Bu, tarixi determinizmdir.

Bu mətləblər diqqət tələb edir. Diqqətli olmağınızı və sözlərə diqqət yetirməyinizi xahiş edirəm. Bəşəriyyətin yolu təkamülə, ali insanlıq məqamına və bu dünyanın vəd edilmiş Cənnətinə doğrudur. Yəni, insanlığın hökm sürəcəyi bir gün gələcək. O gün zülm, pislik və çirkinlik olmayacaq, hər şey insanın ürəyincə olacaq. Dünyanın və insanın yaradılışında məqsəd elə budur! Bu varlıq, nəhayət ki, belə bir məqsədə çatacaq və mütləq çatmalıdır. O gün bəşəriyyət təkamülə çatmaq üçün hazır olacaq, təkamül və tərəqqi mərhələsinə qədəm qoyacaq, sürətlə və

var qüvvəsilə Allaha – mütləq kamala doğru irəliləyəcək. Bəşəriyyət tarixinin ilk günündən bu günümzə qədər ona daha da yaxınlaşırıq. Bu tarixi determinizmdir, dünyanın və insanın yaradılışı bunu tələb edir. Allah belə yaradıb ki, insanlar istər-istəməz təqərəqqi və təkamülə doğru hərəkət etməlidir. Uyğun məsələləri izah etdikcə, "istər-istəməz" ifadəsi də aydınlaşacaq. Əlbəttə, insanların istək və iradəsi bu məsələdə şərtdir və onların öz istəyi ilə tərəqqi əldə ediləcək və bu istək gerçəkləşəcək.

Bu, islami bir qanundur. İslam dünyagörüşündə bəşəriyyətin sonunun yaxşılıqla bitməsi danılmaz həqiqətdir. Nə üçün? Çünki Allah-Taala yeri və göyü haqq olaraq, insanı da haqtələb fitrətlə yaratmışdır. İnsan iradə sahibi olduğundan, məqsədə çatmaq üçün fitrəti ilə uyğun gələn yolla hərəkət etməlidir. Bu yolu ona kim tanıtdırmalı və fitrətinə uyğun əməl etməyi kim başa salmalıdır? Peyğəmbərlər! Onlar, məhz, buna görə gəliblər. Onlar gəliblər ki, insana fitrət yolunu göstərsinlər, onun gözəl aqibətə doğru seyrini asanlaşdırıb sürətləndirsinlər. Demək, insanlar irəliyə doğru hərəkət edirlər və günbəgün səadətə və gözəl məqsədə daha da yaxınlaşırlar. Bu da peyğəmbərlərin onlara öyrətdiyi fəaliyyətin bərəkətindəndir. Əgər onlar tarixi hərəkatın əsnasında və yaxud tarixin hansısa bir mərhələsində azacıq təxir etmişlərsə, bunun səbəbi onların peyğəmbərlərin təlimlərindən uzaq qalmaları olub. Amma yenə də bu hərəkat baş tutub. Bu da ümumi bir mətləb idi.

Birinci məsələ ilə bağlı bu qənaətə gəlirik ki, böyük ilahi peyğəmbərlər hər biri ayrı-ayrılıqda məhrumiyyətlər və işgəncələrə məruz qalsalar da, ümumilikdə, bəşəriyyətin tərəqqi və təkamülə doğru hərəkətinin səbəbkarı idilər. Onları həqiqi məqsədə və səadətə doğru aparan və onlara bu istiqamətdə yardımçı olanlar peyğəmbərlər idi. Bu birinci məsələ!

İkinci məsələ isə əksəriyyətin diqqət mərkəzində saxladığı bir məsələdir. O da budur ki, hər hansı bir peyğəmbər inqilab və hərəkata başladıqda, onun axır-aqibətinin yaxşı olduğunu demək olar, ya yox? Ümid edə bilərikmi ki, onun işi səmərəli olacaq? Bu məsələdə ümumi qayda nədir?

Bəzilərinin sözlərinə görə, kim harada dilinə haqq söz gətiribsə, haqq səsini kiminsə qulağına çatdırıbsa, sonda onun səsini boğaraq nəticəsiz və səmərəsiz qoymuşlar. Onlar bu qənaətə gəlmişlər ki, bəşəriyyətin tarixi təcrübəsi həmişə bizə peyğəmbərlərin işgəncələrə məruz qaldığı,

uğur qazanmadığını göstərmişdir. Əgər onların uğur qazandıqlarını desəniz belə, inqilabları səmərəli olmamışdır. Bir dəfə olsun belə, haqqı hakim edib batili aradan qaldıra bilməmişlər. İndi biz nə etməliyik? Bundan sonra heç bir iş görməməliyikmi? Böyük ilahi peyğəmbərlər öz dövrlərində bir iş görə bilmədikləri və (müəyyən vaxtlarda) batilin haqqa qələbə çaldığını nəzərə alıb əlimizi-əlimizin üstünə qoyaraq peyğəmbərlərin yolunu davam etdirməməliyikmi? Onda, haqq axtarışında olanlar və haqqı deyənlər qeybi yardımlar gələnə qədər qılınclarını qınına salıb gedib yatsınlarmı? Bu, bir çox insanların məntiqidir və qeyd etdiyimiz kimi, tarixin zalımları, quldurları da həmişə bu məntiqi xoş qarşılamış və bu əqidədə olan insanları dəstəkləmişlər; yəni insanlar bu əqidədə olsunlar ki, haqq uğrunda heç bir mübarizə aparmasınlar, onsuz da haqq uğrunda mübarizə hər zaman nəticəsiz qalıb. Bu əqidəni dünyanın zalım hakimləri həmişə dəstəkləyiblər.

Dünya xəbərlərini dərc edən qəzetlərdə oxuduğunuz kimi, dünya rəhbərlərinin siyasi blefləri də elə bu məqsədi izləyir. Hansısa bir padşahın hökumətinin aradan qaldırılması, sona yetməsi və özünün də sıravi bir insana çevrilməsinə bir neçə gün qalmış yenə blef edir, yalançı jestlərlə çıxış edir: "Biz öz düşmənlərimizi əzəcəyik, müxaliflərimizi aradan qaldıracağıq və öz hakimiyyətimizə davam edəcəyik." Eynilə, bu son zamanlarda dünyada baş vermiş böyük hadisəni öz gözlərinizlə gördüyünüz və yaxud oxuyub xəbərdar olduğunuz kimi. Böyük qüdrət sahibi birdən birə tənəzzül edir, sıravi bir insana çevrilir. Lakin az öncə səs-küy salaraq deyirdi ki, heç kim bizə toxuna bilməz, bizi vəzifəmizdən kənarlaşdıra bilməz. Sonra isə aradan qaldırıldığını gördük. Bleflərdə məqsəd budur: Həmişə cəmiyyətə başa salmaq istəmişlər ki, sizin əlinizdən bir iş gəlməz. Çünki biz o qədər güclüyük ki, siz onu təsəvvür belə edə bilməzsiniz. Bütün imkanlar sizdə yox, bizim ixtiyarımızdadır.

Siz elə təsəvvür edirsiniz ki, bu cür şəxslər bugünkü günümüzdə baş qaldırıblar? Xeyr! Tarixən belə olub. Tarixdə maraqlı bir hadisə baş verir və mən Mənsur Abbasinin məharətini haçan xatırlayıramsa heyrətlənirəm. Bildiyiniz kimi, Mənsur Abbasilərin ikinci xəlifəsidir və onların ən böyük, ən güclü xəlifəsi olub. Təsadüfən, onun dövründə dindar cəmiyyət müxalifətə qalxmışdı. Abdullah Məhzin[1] Məhəmməd

---

1. Abdullah ibn Həsən Müsənna – "Abdullah Məhz" adı ilə məşhurdur. Atasının adı "Həsən Müsənna"dır. Həsən Müsənna İmam Həsənin (ə) oğludur və anası İmam

ibn Abdullah və İbrahim ibn Abdullah adlı iki oğlu Mənsur Abbasiyə təzyiq göstərən və onunla kəskin mübarizə aparan şəxslərdən idi. Mənsur hər şeyə sahib olduğu halda, aciz qalmışdı. Bu iki fədakar qardaşin isə imandan və bir neçə mömin tərəfdarından başqa, heç nəyi yox idi. Eyni zamanda, Mənsur onların amansız fəaliyyət və mübarizələri müqabilində çaşbaş qalmışdı. Camaat arasında Mənsurun böyük güc və hakimiyyəti ilə bağlı hər tərəfdə şayiələr yayılırdı ki, həqiqi möminlər və sədaqətli şiələr bu iki qardaşa qoşulmaqdan çəkinsinlər. O cümlədən, Mənsur özü şayiə yaymışdı ki, məndə bir ayna var, ona baxdıqda, İbrahim ibn Abdullahın harada olduğunu görürəm. Vay olsun o kəslərin halına ki, mən aynaya baxdıqda, onları İbrahimin evində və yaxud da onunla birlikdə fərar edən halda görüm.

Ayna hekayəsinin keçmişi Mənsur Abbasidən min-iki min ilə öncəyə gedib çıxır. Onu tarixdə Cəmşid və onun kimi bəzi dünyamiqyaslı qüdrətli zalım padşahların adına qondarmışdılar və onun vasitəsilə müxalif qüvvələri qorxuya salır və onlarda elə təsəvvür yaradırdı ki, heç kim heç zaman bu qüdrət sahiblərinin gözündən yayına bilməz. Onlar bura qədər hiylələrə əl atırdılar.

Bir sözlə, dünyadakı zalımlar daim insanlara böyük ilahi peyğəmbərlərin, haqq və həqiqət səfirlərinin daim məğlubiyyətə məhkum olduqlarını və təbiət müqabilində haqpərəstlərin səsinin cavabsız qaldığını təlqin etmişlər. Onlar daim çalışmışlar ki, heç bir hərəkatın batil qarşısında tab gətirmədiyi, qalib olmadığı və hər zaman məğlub olduğunu insanların beyninə yeridib onları naümid etsinlər. Görəsən, həqiqət belədirmi? Çünki bəzi məlumatsız insanlarda belə təsəvvürlər yaranırdı. Onlar elə güman edirdilər ki, peyğəmbərlər, imamlar və onların tərəfdarları həmişə məğlub olmuş və bu istiqamətdə dünyada baş qaldıracaq hər bir hərəkatın məğlubiyyətə uğrayacağı da aydındır. Biz bu sözü qəbul etməyə məcburuqmu? Qurani-Kərimin bu məsələ ilə bağlı buyurduqlarından üz çevirəkmi? Bu məntiqin əksini

---

Hüseynin (ə) qızı Fatimədir. Elə buna görə də onu "Ələviye-Məhz" (yəni, xalis Ələvi) çağırırdılar. Onun "Məhəmməd" (Nəfsi-Zəkiyyə) və "İbrahim" adlı iki oğlu Mənsur Dəvaniqinin əleyhinə qiyam edərək məxfi yerdə gizlənirlər. Mənsur onların yerini öyrənmək üçün Abdullah Məhzə təzyiq göstərir və onu neçə dəfə Mədinə və Kufədə zindana atır. Onun iki oğlu qiyam etdikdən sonra, Mənsur onların hər ikisinin başını bədənindən ayırır və ona göndərir. Abdullah 75 yaşında ikən Mənsurun əmri ilə 145-ci hicri-qəməri ilində öldürülür.

bəyan edən Qurani-Kərimin buyruqlarına deyil, batil sözəmi qulaq asaq? Xeyr! Biz bu işi görmür və Qurani-Kərimə müraciət edirik. Peyğəmbərlərin və onların tərəfdarlarının fəaliyyətlərinin nəticəsini və inqilabi hərəkatlarının sonunu öncə Qurani-Kərimdən öyrənməli, sonra isə tarixi mətnlərə və şahidlərə üz tutmalıyıq.

Qurani-Kərimin sizə tilavət etdiyim ayələrində buyurulur ki, dünyada həm haqq var, həm də batil; haqq yaşayır, batil isə məhv olur. (Misal üçün:) Dağlardan çaylar axır, çayların sularının üzərində köpük yaranır. Köpüklər yox olub gedir, sular isə qalır. Batil həmin yox olan köpük, haqq isə əbədi qalan sudan ibarətdir.

Bura qədər Qurani-Kərimin bizə öyrətdiyi və tarixi həqiqətlərin də təsdiqlədiyi odur ki, bu dünyaya göndərilmiş hər bir peyğəmbər – əvvəldən sonuna qədər hər silsilədə özü müvəffəq olduğu kimi, bəşəri də bir addım irəli atıb. Mənsur Abbasinin camaatın qulağına pıçıldayıb: "Ey camaat, mənim gücümün qarşısında heç nə edə bilməzsiniz!" – deməsi də boş sözdən başqa, bir şey deyildi. Tarix boyu qüdrət sahibləri insanları aldadıb haqqın batil qüvvələr müqabilində aciz qaldığını təlqin etsələr də, həqiqət tamamilə bunun əksinədir. Peyğəmbərlər hər zaman müvəffəq olduqları kimi, onların tərəfdarları da hər yerdə müvəffəq olmuş və sözsüz, bundan sonra da müvəffəq olacaqlar, lakin bunun iki şərti vardır. Odur ki, gələcək tarixin formalaşmasında insanın iradəsinin mühüm rol oynadığını qeyd etdik. Bu iki şərt mövcud olduğu zaman dinə, Quran və İslam təfəkkürünə əsaslanan bütün hərəkatlar müvəffəqiyyət qazanacaq, qələbə çalacaq. Burada dinin tərəfdarlarının müvəffəq və qalib olması üçün möcüzəyə də ehtiyac yoxdur. Qeybi yardım olmadan, bu iki şərt gerçəkləşdikdə, Quran və islami təfəkkür həqiqi mənada qalib olacaqdır. Həmin iki şərt nədir?

Onlardan biri iman, agahlığa əsaslanan etiqad, öhdəlik və məsuliyyət, təlaş və hərəkətlə yanaşı inancdır. Bu, birinci şərtdir. İkinci şərt isə səbirdir. Səbir nədir? Yəni, müqavimət göstərmək, meydandan qaçmamaq, həssas və təhlükəli anlarda işi yarıda qoymamaq.

Tarixə nəzər salsanız, heç bir peyğəmbərin öz dövründəki tağuta və zalım hakimə məğlub olduğunu görə bilməzsiniz. Çünki onların ardıcılları və tərəfdarları kifayət qədər iman və səbir sahibi idilər. Haçan haqqın irəlilədiyini görsəniz, bilin ki, səbəbi həqiqi iman və lazımi səbirdir. Görəsən, buna Qurandan bir şahid vardırmı? Bəli! Qurani-

Kərimdə buna aid bir neçə şahid vardır. Bu gün oxuyacağımız ayələr bu təfəkkürün təməlidir və digər ayələr də onu təsdiqləyir. İki ayəni sizin üçün oxuyuram. Onlardan biri budur:

وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا وَأَنتُمُ الأَعْلَوْنَ إِن كُنتُم مُّؤْمِنِينَ

***“Ruhdan düşməyin və qəmgin olmayın. Halbuki, əgər möminsinizsə, siz çox üstünsünüz!”***[1]

Bu, artıq Quran ayəsidir və heç kim ona irad tuta və sənədinin zəif olduğunu deyə bilməz. Həm də bu ayə “mütəşabeh”[2] ayələrdən də deyildir ki, kimsə onun mənasını anlamasın və buna görə öz iradını bildirsin. Xeyr, ayə aydındır! وَلاَ تَهِنُوا وَلاَ تَحْزَنُوا Yəni, ey müsəlmanlar, ***“ruhdan düşməyin və qəmgin olmayın.”*** وَأَنتُمُ الأَعْلَوْنَ ***“Halbuki, siz çox üstünsünüz!”*** Sizin qolunuz güclüdür, siz düşmənə qalib gələcəksiniz və nəhayət, sizin təfəkkürünüz bütün dünyaya hökmranlıq edəcək. Lakin bunun şərti var. O nədir? إِن كُنتُم مُّؤْمِنِينَ ***“Əgər möminsinizsə!”***

Deyə bilərsiniz ki, İmam Sadiq (ə) öz zəmanəsinin zalımları ilə o qədər mübarizə aparsa da yenə hakimiyyəti ələ keçirə bilmədi. Düzdür, lakin səbəbi dostları, tərəfdarları və şiəlik iddiası edənlərin əksəriyyətinin bizim kimi imanlarının zəif, səbirsiz və dözümsüz olması idi. Siz İmam Sadiqin (ə) ilahi qanunauyğunluğa və tarixi ənənəyə zidd hakimiyyətə çatmasını istəyirsiniz? Fəthlər və qələbələrdə möcüzə və qeybi yardımlar rol oynamır. Əgər möcüzə və qeybi yardımlar rol oynasaydı, İmam Sadiqin (ə) hakimiyyətə çatmasında rol oynayardı. Axı, İmam Sadiq (ə) və İmam Kazim (ə) elə öz dövrünün zalım hakiminin vasitəsilə qətlə yetirildi! Bəli, dostları və tərəfdarları lazımi səbrə, müqavimətə, öhdəliklə yanaşı imana sahib deyildilər. Əgər bu gün də dostlar və tərəfdarlar onlar kimi olarlarsa, nəticəsi müsəlmanların məğlubiyyəti və məhkumiyyətidir. Peyğəmbəri-Əkrəmin (s) dövründəki müsəlmanlar isə güclü və qətiyyətli imana, sarsılmaz səbir və əzmkarlığa sahib idilər; elə bir səbrə sahib idilər ki, səma mələkləri özlərini onların müqabilində kiçik hesab edirdilər; onlar Ramazan ayında, Hicazın qızmar günündə, oruc ağıza xəndək qazıb düşmənlərlə döyüşürdülər. O dövrün müsəlmanlarının səbir və müqaviməti belə idi.

---

1. “Ali-İmran” surəsi, ayə 139.

2. Müxtəlif mənaları olan ayələrə deyilir ki, onların zahiri və tərcüməsindən anlaşılan məna nəzərdə tutulmur. Mütəşabih ayələr mənası aydın olan möhkəm ayələrə müraciət etməklə məna və təfsir edilməlidir.

اسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلاَةِ ***“Səbir və namaz vasitəsilə (Allahdan) kömək diləyin.”*** [1] Səbir vasitəsilə düşmənlərə qələbə çalın, hədəflərinizi gerçəkləşdirin. Səbrin möcüzəsi budur. İnsanın vuran əli və onu irəli aparan səbridir. Səbrin mənasını izah etdik. Biz səbrin oturub hadisələri izləmək mənasında olduğunu təsəvvür edirik. İndi isə mən sizə səbrin mənasını deyirəm. Oturub hadisələri izləməyin vaxtı deyil. Əgər hərəkət etməsən, fəaliyyət göstərməsən, qəlbin döyünmədən otursan, sonu bədbəxtlik, zillət, xarlıq, dinsizlik və dünyasızlıqdır. خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ ***“Beləsi dünyanı da əldən verər, axirəti də. Açıq-aşkar ziyan budur, bu!”*** [2] Əgər səbirlə irəliləsən, sonda həm dini, həm də dünyanı qazanacaqsan.

Qurani-Kərimin bizə buyurduğu aqibət budur. Bu məclisdə tilavət edəcəyimiz ayələr “Əraf” surəsindəndir. Mövzumuzla bağlı ayələrin hamısını qeyd etməmişəm, gedin özünüz baxın və onların üzərində dərindən düşünün, dini təfəkkür tərzi tək qəbul edin və onlara əməl edin. “Əraf” surəsinin 120-ci ayələrindən əvvəlki və sonrakı ayələrə müraciət edin. Mənim nəzərdə tuduğum ayələr həmin surənin 126-127-ci ayələridir. Mətləb Fironun macərası ilə başlayır və Həzrət Musa (ə) ona ilahi çağırışı çatdırır. Firon isə qəbul etmir, hətta onu təhdid edir. Bütün bu söz-söhbətdən sonra, Fironun sehrbazları gəlir və onların sehr-cadular Həzrət Musanın (ə) möcüzəsi müqabilində aciz qalır və sonda, onların özləri Həzrət Musaya (ə) iman gətirirlər. Firon onları da təhdid edib deyir: “Sizi öldürəcəyəm. Nə üçün Musaya iman gətirdiniz?” Bütün bu hadisələrdən və Fironun sehrbazlarının Həzrət Musaya (ə) məğlubiyyətindən sonra belə bir hadisə baş verir:

وَقَالَ الْمَلأُ مِن قَوْمِ فِرْعَونَ أَتَذَرُ مُوسَى وَقَوْمَهُ لِيُفْسِدُواْ فِي الأَرْضِ وَيَذَرَكَ وَآلِهَتَكَ

***“Firon qövmünün əyan-əşrafı (Firona) dedi: “Musanı və onun qövmünü (ona iman gətirənləri, onun ətrafındakıları) fitnə-fəsad törətmək, səni və sənin tanrılarını atıb getmək üçünmü buraxacaqsan?”*** [3]

Firon onların sözünün qarşısında dedi: “Xeyr, Musanı arandan götürməcəyəm.” O, Həzrət Musaya (ə) qarşı kəskin hücuma keçdi. Misirdə onu və onun ətrafındakıları cəzalandırmaq üçün yeni plan cızdı.

---

1. “Bəqərə” surəsi, ayə 153.
2. “Həcc” surəsi, ayə 11.
3. “Əraf” surəsi, ayə 127.

O plan nə idi?

قَالَ سَنُقَتِّلُ أَبْنَاءهُمْ وَنَسْتَحْيِـي نِسَاءهُمْ

***"Firon dedi: "Biz (Musanı yox,) onların oğullarını öldürəcək, qadınlarını isə (bizə xidmət etmələri üçün) diri saxlayacağıq."***

Bu, onun yeni planı idi.

Həzrət Musanı (ə) aradan aparmağı düşünən Firon ona iman gətirən sehrbaz və cadugərlərin Həzrət Musa (ə), başqa sözlə, sehrin möcüzə ilə əlbir olmaması üçün şiddətli cəza tədbiri haqda qərar çıxardı. Qərar nə idi? Həzrət Musaya (ə) iman gətirən bütün gəncləri öldürmək, onların qadınlarını fəsada sürükləmək, nəsli korlamaq məqsədilə və yaxud da bu kimi digər səbəblərdən diri saxlamaq. Məsələ daha da çətinləşdi. Həzrət Musanın (ə) tərəfdarları Fironun hakimiyyətinin ağır cəza tədbiri ilə üz-üzə qaldılar. Bura sümüklərin titrədiyi, möhkəm qəlblərin lərzəyə gəldiyi bir yer idi. Zarafatdırmı? Firon kimi bir şəxs deyir ki, mən onlara od qoyacaq, onları elə cəzalandıracağam ki, nəsillərindən bir gənc belə qalmasın. سَنُقَتِّلُ أَبْنَاءهُمْ ***"Onların oğullarını öldürəcəyik."***

Bu həssas və təhlükəli məqamda Həzrət Musanın (ə) tərəfdarları möhkəm olmalı, özlərini itirməməli və məğlub olacaqlarını düşünməməli idilər.

Təqribən, yüz il bundan qabaq öz tariximizin görkəmli şəxsiyyətlərindən birindən nəql olunan bir cümlə yadıma düşdü. "Məşrutə" inqilabında onun adı dillər əzbəridir. Deyilənlərə görə, o, öz dostları və tərəfdarlarına deyirmiş: "Döyüşün, mübarizə aparın, işin çətinləşdiyini gördükdə, yenə mübarizə aparın. Sonda məğlub olacağınızı yəqin etsəniz də, yenə mübarizədən əl çəkməyin. O zaman qələbə çalacaqsınız." Bu, bir həqiqətdir. Bəzən, öz islahı və inkişafı üçün çalışmaq istəyən bir fərd, yaxud bir millət və cəmiyyət bu çalışqanlığın səmərəli nəticə verəcəyinə ümid edir. Özünə qarşı təzyiqlərin artdığını gördükdə, ümidi azalıb çalışmaqdan əl götürərsə, sözsüz, nəticəsiz qalacaqdır. Amma yenə çalışarsa, çalışqanlığını davam etdirərsə və məğlubiyyətinə əmin olacağı vaxta qədər çalışmağından əl götürməzsə, yenə çalışarsa, müvəffəqiyyətə nail olacaqdır.

Həzrət Musa (ə) da Bəni-İsraili səfərbər etmək üçün bu plandan istifadə edir. Məğlubiyyətə uğrayacağını və Fironun bütün gəncləri öldürəcəyini gördükdə, Həzrət Musa (ə) Fironun yeni planı müqabilində öz yeni planını təqdim edir. Nə deyir? O, bu ağır vəziyyətdə Fironun

qərarı ilə üzləşdikdə, قَالَ مُوسَى لِقَوْمِهِ – *“öz tayfasına belə deyir:*

اسْتَعِينُوا بِاللّهِ وَاصْبِرُواْ

***“Allahdan kömək diləyin və səbir edin.”***[1] Mübarizədən əl çəkməyin, müqavimət göstərin, zəhmətinizi yarımçıq qoymayın. Həzrət Musa (ə) onlara ümid verir və onlara deyir:

إِنَّ الأَرْضَ لِلّهِ يُورِثُهَا مَن يَشَاء مِنْ عِبَادِهِ

***“Həqiqətən, yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər.”*** Yəni, bizik Allahın bəndələri!

Həzrət Musa (ə) Bəni-İsrailə deyir ki, siz Allahın bəndələrisiniz, Fironun bəndələrinin işlərinin sonu və nəticəsi yoxdur, yer üzü Allahın bəndələrinə qalacaq.

وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ

***“Aqibət təqvalılarındır!”***

Bu, Quranın sözüdür. Tarixi həqiqətlər də bunu deyir. Bir gün İbrahim peyğəmbəri oda atdılarsa, başqa bir gün Məkkədə, Allahın evində ilahi cəmiyyət təşkil etdi və onun özündən neçə əsrlər sonra həmin cəmiyyət hələ də yaşayır.

Bir gün Musa peyğəmbər və Bəni-İsrail Fironun təzyiqlərinə məruz qalırdısa, başqa bir gün onun Müqəddəs Torpağa daxil olmasına dair göstəriş verilir:

يَا قَوْمِ ادْخُلُوا الأَرْضَ المُقَدَّسَةَ

***“Ey qövmüm! Müqəddəs torpağa daxil olun”***[2] və orada ilahi cəmiyyət yaradın.

Yer üzündə insanlar arasında yaşadığı az müddətdə təlaş və fəaliyyətinin zahiri nəticəsi olmayan İsa peyğəmbər insanlardan ayrılıb yer üzündən səmaya aparıldıqdan iki-üç əsr sonra o dövrün ən böyük qüdrəti, yəni böyük Rum imperiyası onun ideyalarına xidmət etməyə başlayır; Rum imperatoru özü məsihi dinini qəbul edir və Həzrət İsa Məsihə iman gətirir.

Məkkədə on üç il ağır əzab-əziyyətlər və işgəncələrə məruz qalan bizim İslam Peyğəmbəri (s) Mədinəyə gəldikdən sonra, hökumət qurur, cəmiyyət yaradır, insanları kamilliyə sövq edir, əsas düşmənlərini məğlub edir və aradan qaldırır. Amma nəyin sayəsində? İman və səbrin sayəsində! بَلَى إِن تَصْبِرُواْ وَتَتَّقُواْ – Bəli, səbirli və təqvalı, əməllə yanaşı iman

---

1. “Əraf” surəsi, ayə 128.
2. “Maidə” surəsi, ayə 21.

sahibi olsanız, o zaman qələbə qazanacaqsınız. Bu, tarixdə ilahi ənənələrdən biridir. Dünən də, bu gün də, sabah da ilahi ənənə və qanunauyğunluq eynidir. Bütün dini qüdrətlər iman və səbir sayəsində qüdrətə çatıb və qüdrətdə qalıblar. Bu gün də Quranın, İslamın, tövhidin, nübuvvətin, İslamın müqəddəs qanunlarının dünyaya və insanların həyatına hakimliyini, Allahın dünyaya rəhbərliyini istəyənlər özlərində mütləq iki xüsusiyyəti gücləndirməlidirlər: iman və səbir xüsusiyyətlərini. Əgər bizdə iman və səbir xüsusiyyətləri güclənərsə, o zaman gözəl sonluq da bizim olacaqdır:

إِنَّ الأَرْضَ لِلّهِ يُورِثُهَا مَن يَشَاء مِنْ عِبَادِهِ وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ

***“Həqiqətən, yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər və aqibət təqvalılarındır!”***

Bizim bu iki suala verdiyimiz cavab budur: Birinci sual bu idi ki, ilahi peyğəmbərlər fəaliyyətlərində müvəffəq oldularmı? Cavab verdik ki, bütün peyğəmbərlər müvəffəq oldular; onlar bəşəriyyəti kamillik zirvəsinə yüksəltmək istəyirdilər və bunu da bacardılar. Əlbəttə, təfsir dərslərimizdə, digər yığıncaqlarımızda və namazdan sonrakı məclislərimizdə bu mətləbə toxunmuşam və hər dəfə də bir misal çəkmişəm. Burada həmin misalların hamısını çəkmək əlavə vaxt tələb etdiyindən, onun birinə işarə etdik, o da məktəb şagirdlərinin pillə-pillə yuxarı siniflərə keçməsidir.

Peyğəmbərlər, ümumilikdə, müvəffəq olmuş və uğur qazanmışlar. Lakin “Bütün ilahi hərəkatlar müvəffəq olubmu?” – sualına gəldikdə isə ona da ümumi bir qanunla cavab veririk. Ümumi qanun odur ki, hər bir hərkatın üzvləri həqiqi imana və lazımi səbrə sahib olublarsa, müvəffəq olublar, lazımi iman və səbri olmayanlar isə müvəffəq olmayıblar.

İndi isə ayələri tilavət edək. Bugünkü bəhsimizə aid ayələr Quranın iki surəsində yer alıb: Biri “Rəd” surəsində, digəri isə “Saffat” surəsində.

قُلِ اللّهُ خَالِقُ كُلِّ شَيْءٍ

***“De: Allah hər şeyin xaliqidir.”***[1] Hər şeyi O yaratdığı üçün hər şeyin sonunu da O bilir.

Bundan sonra haqq ilə batilin aqibətindən söz açılacağı üçün öncədən buyurur ki, Biz bu dünyanı yaratmışıq, tarixin qanunları və ənənələrini Biz yaxşı bilirik, onları bizdən eşidin.

قُلِ اللّهُ خَالِقُ كُلِّ شَيْءٍ

1. “Rəd” surəsi, ayə 16.

***“De: “Allah hər şeyin xaliqidir.””***

وَهُوَ الْوَاحِدُ الْقَهَّارُ

***“O, birdir, qüdrətlidir!”***

أَنزَلَ مِنَ السَّمَاء مَاء

***“Allah göydən yağış endirdi.”***[1]

Allah-Taala bizim üçün misal çəkir; bu ayə cümlə quruluşu baxımından o qədər gözəldir ki, çox təəssüf, ərəb dili ilə tanış olmayanlar bu gözəlliyi dərk edə bilmirlər. Allah-Taala öncədən misal çəkəcəyini demir; insan onu dinləyən zaman təmsil olduğunu anlamır, məsələnin necə yekunlaşacağını təxmin edə bilmir, sonda məsələdən xəbərdar olub misal olduğunu başa düşür:

أَنزَلَ مِنَ السَّمَاء مَاء

***“Allah göydən yağış endirdi.”***

فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا

***“Vadilər öz tutumları qədər onunla dolub daşdı.”***

فَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا

***“(Vadilərdə axan) sel, üstünə çıxan köpüyü götürüb apardı.”***

Siz bir axar çayın qırağında dayansanız, selin üzərində su deyil, köpük görəcəksiniz, su isə köpüyün altındadır. Bu köpüklər çayda axan suyun üzərində coşub-daşır, sanki selin suyu özünü nümayiş etdirir. Siz orada köpük görürsünüz, su isə köpüyün altındadır.

Ayənin davamında isə başqa bir misal çəkilir:

وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاء حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ ***“Bəzək şeyləri və ya əşya (qab-qacaq) düzəltmək məqsədilə insanların od üzərində qızdırıb əritdikləri (qızıl, gümüş və s. filizlərin) üstündə də buna (sel suyunun üzərindəki köpüyə) bənzər bir köpük vardır.”***

Hər bir dəmir və filizi əritdikdə, özünəməxsus köpüyü olur. Suyun üzərində də köpük olur. Amma həyat bəxş edən sudur, yoxsa köpük? Sudur. Amma gözə görünən və özünü göstərən nədir? Köpükdür.

Burada da əridilən dəmirdir, yoxsa köpük? Qızıldır, yoxsa köpük? Əlbəttə ki, dəmir və qızıldır. Köpük boş və artıq bir şeydir. Amma hansı daha çox görünür? Dəmir və qızılmı? Xeyr, köpük!

Bu mətləbdən dərhal sonra buyurulur:

كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ

***“Allah haqq ilə batili (sizə) ayırd etmək üçün belə misallar çəkir.”***

---

1. “Rəd” surəsi, ayə 17.

Sizin gördüyünüz isə köpükdür, o da batildir, heç bir şey deyil. Amma köpüyün altındakı su, dəmir və qızıl haqdır, həqiqətdir.

Misalın davamını Allahdan eşidək və görək onun aqibəti, sonu necə olacaq?

فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاء

***"Köpük puç bir şey olduğu üçün uçub gedər."***

Çayın üzərindəki köpük həmişəlik deyil, indi var, az sonra isə yox olacaq. Əkin sahəsinə yönləndirdiyin çaydan sənə qalacaq sudur, köpük isə uçub aradan gedəcəkdir.

وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ

***"İnsanlara fayda verən bir şey (su, dəmir, qızıl) isə yer üzündə qalar."***

كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ

***"Allah (sizə) belə misallar çəkir"*** və haqqın həmişəlik olduğunu bildirmək istəyir. Peyğəmbərlərin dəvəti və hərəkatı da haqdır və əbədi olaraq yaşayacaqdır. Onlara qarşı çıxan batil qüvvələr isə yalnız özlərini göstərib dikbaşlıq və haqsızlıq etdilər. Onlar ilğım və su üzərindəki köpükdürlər, məhv olub aradan gedəcəklər. Budur Allahın çəkdiyi misal!

Növbəti ayədə bu misal tətbiq edilir və müsəlmanların ictimai mübarizələri zəminində buyurulur:

لِلَّذِينَ اسْتَجَابُواْ لِرَبِّهِمُ الْحُسْنَى

***"Rəbbinin dəvətini qəbul edənləri ən gözəl nemət gözləyir."***[1] Gözəl aqibət peyğəmbərin hərəkatını qəbul edənlərindir.

وَالَّذِينَ لَمْ يَسْتَجِيبُواْ لَهُ لَوْ أَنَّ لَهُم مَّا فِي الأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لاَفْتَدَوْاْ بِهِ

***"Rəbbinin dəvətini qəbul etməyənlər (və batil yolda addım atanlar) isə yer üzündə olan hər şeyə, üstəlik bir o qədərinə də malik olsaydılar, onu (canlarını qurtarmaq üçün) fidyə verərdilər."***

Siz tarixdə bunun nümunəsinə rast gəlməyibsiniz? Haqq ilə batilin mübarizəsində batil rəhbərlərin tumar tək büküldüyünü, öz canlarını xilas etmək və məqamlarını qoruyub-saxlamaq üçün bütün dünyanı verməyə hazır olduqlarını görməyibsiniz?

أُوْلَـئِكَ لَهُمْ سُوءُ الْحِسَابِ

***"Onları çox pis (və ağır) bir haqq-hesab gözləyir."***

وَمَأْوَاهُمْ جَهَنَّمُ

***"Onların məskəni Cəhənnəmdir."***

---

1. "Rəd" surəsi, ayə 18.

وَبِئْسَ الْمِهَادُ

***"O, necə də pis yerdir!"***

"Saffat" surəsində də belə buyurulur:

وَلَقَدْ سَبَقَتْ كَلِمَتُنَا لِعِبَادِنَا الْمُرْسَلِينَ

***"Həqiqətən, peyğəmbər olan bəndələrimiz haqqında əvvəlcədən bu sözümüz (və əmrimiz) deyilmişdi."***[1] Onların barəsində lazımi qərar verilmişdi. O qərar nədən ibarət idi?

إِنَّهُمْ لَهُمُ الْمَنصُورُونَ

***"Həqiqətən, onlar yardım olunmuşlardır."*** Onlar yalnız Allah tərəfindən yardım olunurlar.

وَإِنَّ جُندَنَا لَهُمُ الْغَالِبُونَ

***"Şübhəsiz, Bizim dəstəmiz qalibdir!"***

Qeyd etdiyimiz kimi iman və səbir bu qələbənin şərtidir.

Peyğəmbəri-Əkrəm (s) peyğəmbərlik meydanında, Əmirəlmöminin Əli (ə) imamət meydanında insanları səbrə dəvət edir. Onlar həmişə insanlara səbirli olmağı tövsiyə edərdi. Döyüş və mübarizə meydanında səbir etməyin mənası nədir? Yəni, mübarizə meydanında süst olmamaq, tələşı yarımçıq qoymamaq və onu tamamlamaq. Səbrin mənası budur! Əgər müsəlmanlar bu gün də mədəni, iqtisadi və siyasi inkişaf uğrunda bu iki amilə – iman və səbrə sahib olarlarsa, İslam cəmiyyəti həm mədəni, həm iqtisadi, həm də siyasi müstəvidə kafirlərə və din düşmənlərinə zəfər çalacaqlar.

Müsəlmanlar öz alınlarına batillik, mürtəcelik, yoxsulluq və zəlillik damğasının vurulduğunu təsəvvər belə etməsinlər. Əsla, təsəvvür etməyin ki, dünyanın hər bir nöqtəsində yaşayan din və İslam düşmənləri, dünyanın müxalif qüvvələri həmişə müsəlmanların boynuna minəcək, onlara zor tətbiq edəcək, onları işlədəcəklər. Xeyr, heç vaxt belə olmayacaq. Əgər İslam ölkələri, bütün müsəlmanlar və böyük İslam ümməti iman və səbir qüvvələrini zəxirə edib qorusalar, bütün dünyaya qalib gələrlər. Qurani-Kərimin hər zaman bütün müsəlmanlara tövsiyəsi budur və bizim bugünkü bəhsimizin xülasəsi bu idi. Bu mətləbi Qurana istinadən diqqətinizə çatdırdım ki, peyğəmbərliyin aqibəti gözəldir, peyğəmbərlər və onların hərəkatının sonu qələbədir. Biz isə bu gün peyğəmbərimizin davamçılarıyıq. Axı, nə üçün müsəlman millətləri zəiflik və süstlük hiss etməlidirlər? Nə üçün təhqir olunduğunuzu

---

1. "Saffat" surəsi, ayə 171-173.

düşünürsünüz? Nə üçün təsəvvür edirsiniz ki, din düşmənləri hər zaman İslam ölkələri və müsəlman millətlərinə zəfər çalacaqlar? Nə üçün? Əslində, məsələ tamamilə əksinədir. Lakin şərti var və şərti də odur ki, imanlı və səbirli olmalıyıq. Səbrin də mənasını anladıq. Bugünkü məclisimizdə, ən azından, səbrin mənasını öyrəndik və imanımızın da kamilləşməsi üçün çalışmalıyıq.

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, bizi peyğəmbərlərin davamçıları sırasına qat!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, iman və səbrimizi daha da artır və zənginləşdir!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, bizi iman və səbrin təsirlərindən bəhrələndir!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, bütün dünya müsəlmanlarını düşmənlərinə qalib et!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, dünyanın hər hansı bir nöqtəsində müsəlmanları zəiflətmək, təhqir etmək və alçaltmaq üçün fəaliyyət göstərənləri məhv et!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, dünyanın hər hansı bir nöqtəsində müsəlmanların, İslamın və ilsami düşüncələrin xeyrinə fəaliyyət göstərənləri müvəffəq et və onlara yardımçı ol!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, İslam ölkələri və millətlərinə doğru uzanan din düşmənlərinin əllərini qır!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, dinə, müsəlmanlara və bütün bəşəriyyətə doğru uzanan inadkar düşmənlərin, yəni yəhudilərin əllərini qır!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, bizi Muhəmməd (s) və ali-Muhəmmədin (ə) həqiqi tərəfdarları və davamçılarından et!

İlahi, ömrümüzün hər bir günü bizi əvvəlkindən daha da ayıq, daha da əzmli, daha da imanlı, daha da səbirli et!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, dünyanın bütün məzlumlarını və zülmə məruz qalanlarını Öz himayəndə yerləşdir! Bütün zalımları və hegemonları məhv et, aradan qaldır! Qəlblərimizi Özünə doğru hidayət et! Ruhlarımızı Öz zikrinlə abadlaşdır! Danışığımız, dinləməyimiz və oturub-durmağımızda

niyyətimizi Özün üçün xalis et, şirki, nifaqı və riyanı bizdən uzaqlaşdır!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, dünyanın hər bir yerində günahsız yerə həbs olunanlar varsa, onlara tezliklə azadlıq nəsib et!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, müsəlman cəmiyyətinin doğru, ağıllı və məntiqli arzu və istəklərini rəva qıl! Müsəlmanlar arasından bütün şəxsi və fərdi çətinlikləri aradan qaldır!

**Xülasə**

**Çərşənbə axşamı – Ramazan ayının 21-ci günü**

## NÜBUVVƏTİN SONU-1

Peyğəmbərlərin dəvət etdiyi yol insanların təbii və fitri yoludur və onların bu yolda hərəkəti təbii hərəkətdir. Elə buna görə də bu yolda hərəkət sürət və asanlıqla baş verir. İnsanları bu yoldan çəkindirən zalım və cahil rejimlər insanların fitrət və təbiətinə zidd rəftar etdiklərindən, müvəqqətidir və məhvə məhkumdurlar. Elə buradan da peyğəmbərlərin dəvətinin aqibətini öyrənmək olur...

Dar və səthi düşüncələrin əksinə, peyğəmbərlərin hərəkatı uğursuz olmamışdır. Peyğəmbərlərə müxalif olan batil yollar bəşər tarixi və seyrinə hakim ola bilməmişdir və ilahi peyğəmbərlər elə əzəldən indiyə kimi, həmişə müvəffəq olmuş və bəşəriyyəti istədikləri kimi hidayət etmişlər.

Bundan sonra da dünyanın sonuna kimi, bu qanun qüvvədən düşməyəcək. Haqq carçılarının hər biri bəşər tarixini zirvəyə qaldırmış və onun yaradılış hədəfinə – təkamül və ali insanlıq məqamına doğru seyrini sürətləndirmişdir. Onlar bir müddət amansız təlaş və mübarizədən sonra, hər hansı bir səbəbdən bu dünyadan köçüb getmişlər. Onlar öz vəzifə və missiyalarının son nöqtəsində "bəşərin hidayəti" adlı ilahi əmanəti özündən sonrakı elçi və məmura tapşırmış, özü isə uğur və müvəffəqiyyətlə əbədiyyətə qovuşmuşdur. Beləcə, bəşər tarix boyu peyğəmbərlərin dəvət və fəaliyyətinin nəticəsi olaraq düşüncə və agahlıq üzündən onların yoluna daha da nikbin olmuş və hədəfinə daha da yaxınlamışdır.

Bu minvalla, bu təbii seyr davam edib son ilahi höccətə həvalə

ediləcək, bəşərin tərbiyəsi və hidayəti uğrunda son addım atılacaq, bəşəriyyət sonsuz təkamül və tərəqqi yolunda heç bir maneə olmadan sürətlə irəliləyəcək, öz mübarək yolunu ötüb keçəcək... Peyğəmbərlərin və onların yolunun həqiqi sonluğu budur!

Daha önəmli məsələ isə mərhələli müvəffəqiyyət qazanmaq üçün iki amilin həlledici rola sahib olmasıdır: İman və səbir. Yolun yarısında bu iki amil unudulduğu zaman məğlubiyyətlər, onlara əməl olunduqda isə parlaq qələbələr baş vermişdir.

Aşağıda qeyd edilən ümidverici ayələr sözügedən mövzuda Qurani-Kərimin müjdələyici ayələrinin bir qismini təşkil edir:

قُلِ اللّهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ الْوَاحِدُ الْقَهَّارُ – ***De: Allah hər şeyin xaliqidir. O, birdir, qüdrətlidir!***

أَنزَلَ مِنَ السَّمَاء مَاء فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا – ***Allah göydən yağış endirdi. Vadilər öz tutumları qədər onunla dolub daşdı.***

فَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا – ***(Vadilərdə axan) sel, üstünə çıxan köpüyü götürüb apardı.***

وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاء حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ – ***Bəzək şeyləri və ya əşya (qab-qacaq) düzəltmək məqsədilə insanların od üzərində qızdırıb əritdikləri (qızıl, gümüş və s. filizlərin) üstündə də buna bənzər bir köpük vardır.***

كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ – ***Allah haqq ilə batili (sizə) ayırd etmək üçün belə misallar çəkir.***

فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاء – ***Köpük puç bir şey olduğu üçün uçub gedər.***

وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ – ***İnsanlara fayda verən bir şey (su, dəmir, qızıl) isə yer üzündə qalar.***

كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ – ***Allah (sizə) belə misallar çəkir.***

لِلَّذِينَ اسْتَجَابُواْ لِرَبِّهِمُ الْحُسْنَى – ***Rəbbinin dəvətini qəbul edənləri ən gözəl nemət gözləyir.***

وَالَّذِينَ لَمْ يَسْتَجِيبُواْ لَهُ لَوْ أَنَّ لَهُم مَّا فِي الأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لاَفْتَدَوْاْ بِهِ – ***Rəbbinin dəvətini qəbul etməyənlər isə yer üzündə olan hər şeyə, üstəlik bir o qədərinə də malik olsaydılar, onu (canlarını qurtarmaq üçün) fidyə verərdilər.***

أُوْلَـئِكَ لَهُمْ سُوءُ الْحِسَابِ – ***Onları çox pis (və ağır) bir haqq-hesab gözləyir.***

وَمَأْوَاهُمْ جَهَنَّمُ– ***Onların məskəni Cəhənnəmdir.***

وَبِئْسَ الْمِهَادُ – ***O, necə də pis yerdir!***

"Rəd" surəsi, ayə 17-18.

وَلَقَدْ سَبَقَتْ كَلِمَتُنَا لِعِبَادِنَا الْمُرْسَلِينَ – ***Həqiqətən, peyğəmbər olan bəndələrimiz haqqında əvvəlcədən bu sözümüz (və əmrimiz) deyilmişdi.***

إِنَّهُمْ لَهُمُ الْمَنصُورُونَ – ***Həqiqətən,** o**nlar yardım olunmuşlardır.***

وَإِنَّ جُندَنَا لَهُمُ الْغَالِبُونَ – Şübhəsiz, ***Bizim dəstəmiz qalibdir!***

فَتَوَلَّ عَنْهُمْ حَتَّى حِين – ***Sən bir müddət onlardan üz çevir!***

وَأَبْصِرْهُمْ فَسَوْفَ يُبْصِرُونَ – ***Onlara bax! Onlar da (gələcəkdə) mütləq (küfrlərinin aqibətini) görəcəklər!***

أَفَبِعَذَابِنَا يَسْتَعْجِلُونَ – ***Onlar əzabımızın tezliklə gəlməsini istəyirlər?***

فَإِذَا نَزَلَ بِسَاحَتِهِمْ فَسَاء صَبَاحُ الْمُنذَرِينَ – ***(O əzab) onlara yetişdikdə, qorxudulanların sabahı necə də pis olacaq!***

وَتَوَلَّ عَنْهُمْ حَتَّى حِينٍ – ***Sən bir müddət onlardan üz çevir!***

وَأَبْصِرْ فَسَوْفَ يُبْصِرُونَ – ***Onlara bax! Onlar da (gələcəkdə) mütləq (küfrlərinin aqibətini) görəcəklər!***

سُبْحَانَ رَبِّكَ رَبِّ الْعِزَّةِ عَمَّا يَصِفُونَ – ***Sənin Rəbbin – yenilməz qüvvət sahibi olan Rəbbin (müşriklərin) Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır!***

(Saffat" surəsi, ayə 171-180.)

## İYİRMİ BİRİNCİ MƏCLİS

## NÜBUVVƏTİN SONU-2

Çərşənbə – 1974/10/09
Ramazan ayının 22-si

بسم الله الرحمن الرحيم

إِنَّا لَنَنصُرُ رُسُلَنَا وَالَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ يَقُومُ الْأَشْهَادُ يَوْمَ لَا يَنفَعُ الظَّالِمِينَ مَعْذِرَتُهُمْ وَلَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ وَلَقَدْ آتَيْنَا مُوسَى الْهُدَى وَأَوْرَثْنَا بَنِي إِسْرَائِيلَ الْكِتَابَ هُدًى وَذِكْرَى لِأُولِي الْأَلْبَابِ

***“Şübhəsiz ki, Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gündə yardım edəcəyik! O gün ki, zalımlara üzrxahlıqları heç bir fayda verməyəcəkdir. (O gün) onları lənət və pis aqibət gözləyir. Həqiqətən, Biz Musaya hidayət verdik və İsrail oğullarını kitaba varis etdik, (ki, o,) ağıl sahiblərinə hidayət və agahlıqdır!”***

“Mumin ” surəsi, ayə 51-54.

Ötən məclisdə qeyd etdik ki, Allah-Taalanın Öz peyğəmbər və elçilərinə verdiyi vədi ümidvericidir; yəni Allah-Taala vəd edib ki, peyğəmbərləri və risalət əmanətinin daşıyıcıları, həmçinin dinə və haqq-həqiqətə dəvət edən bütün carçıları bu dünyada düşmənlərinə qalib etsin, axirətdə də savab və mükafata layiq görsün. Ümumiyyətlə, peyğəmbərlərin qələbəsi ilə bağlı mətləbləri iki qismə böldük: Birincisi budur ki, biz peyğəmbərlik silsiləsini birincidən sonuncuya qədər mülahizə etdikdə, bu bəşər müəllimlərinin müvəffəq və qalib olduqlarını görürük. Düzdür, onlardan bəziləri dəvət əsnasında, yaxud dəvətin sonunda insanlar tərəfindən bir sıra nankorluqlar və hörmətsizliklərə məruz qalsalar da, ümumilikdə, əziz peyğəmbərlər birincidən sonuncuya qədər öz istəklərini həyatda gerçəkləşdirmişlər. Peyğəmbərləri şagirdlərin birinci sinifdən sonuncu sinifə qədər təlim-tərbiyəsi ilə məşğul olan, onları nadanlıqdan çıxarıb aşağı mərtəbədən yuxarı mərtəbəyə yüksəldən və elmi nailiyyətlər qazandıran müəllimlərə bənzətdik. Birinci sinif müəllimi bu körpə şagirdin qarşısındakı yolu ötüb keçməkdə rolu və köməyi az olduğu, onun kamal zirvəsini fəth etdiyini görmədən dünyasını dəyişdiyi halda, biz onun – birinci sinif müəlliminin müvəffəqiyyət qazanıb-qazanmadığı haqda hökm yürüdə bilərikmi? Bu körpə şagirdi sonuncu sinifə çatdıra bilmədiyi üçün onun müvəffəq olmadığını deyə bilərikmi? Cavab mənfidir! Çünki o, öz missiyasını yerinə yetirmiş, əmanəti özündən sonrakı şəxsə təhvil verdikdə, öz məsuliyyət payını layiqincə icra etmişdi.

Bu mövzuya aid növbəti misal budur: Fərz edək ki, bir ağır yükü buradan məscidin o başına qədər aparmaq lazımdır. Onu bir nəfərin tək-tənha, heç kimin köməyi olmadan belinə götürüb aparması qeyri-mümkün olduğu kimi, bütün insanların birgə köməyi və iştirakı da

mümkün deyil. Bir yol qalır, o da güclü insanların mərhələli şəkildə bir-birinə kömək etməsidir; belə ki, onlardan hər biri həmin yükü bir neçə addım aparacaq, yükü addımbaaddım birinci şəxs ikinciyə, ikinci üçüncüyə, üçüncü dördüncüyə və bu minvalla, bir-birinə ötürərək, nəhayət, məqsədə çatdıracaqlar. Bu yükün daşınması və məqsədə çatmasında, sözsüz ki, həmin şəxslərin hamısının rolu və köməyi olmuşdur və onların hər biri yükü çiyninə aldıqdan sonra, yalnız bir addım ata bilmişdi. Yük hədsiz dərəcədə ağır olduğu üçün bir addımdan sonra canını fəda etmiş və yükün məqsədə çatdığını görməmişdir. Amma bundan əldə edilən nəticə budur ki, canlarını fəda edənlərin o bir addımları olmasaydı, o ağır yük məqsədə yaxınlaşmazdı.

Peyğəmbərlər güclü və dözümlü insanlar olduğundan, həmin ağır yükü bir addım daşıya bildilər. Həzrət Nuh (ə) gəlib hidayət yükünü çiyninə alaraq insanı mədəniyyət və fəzilət zirvəsinə bir addım yaxınlaşdırdı və bu bir addıma görə çətinliklər gördü. O, doqquz yüz əlli il dəvət etdi və yenicə irəliyə doğru azacıq addım atmışdı ki, öz canını qurban verdi. Amma görəsən, öz vəzifəsini icra etdimi? Bu ağır yükü bir addım məqsədə yaxılaşdırdımı? Görürük ki, bəli, yaxınlaşdırmışdır. Həzrət Nuhdan (ə) sonra gələn peyğəmbərlər də növbə ilə həmin yükü çiyinlərinə almış və addımbaaddım irəli aparmışlar və nəhayət, sonuncu Peyğəmbər (s) peyğəmbərliyə seçilir və müəyyən qədər daşınmış həmin yükü yol əsnasında elə dığırladır ki, hələ də irəliyi doğru hərəkətdədir. Odur ki, peyğəmbərlər birincidən sonuncusuna qədər müvəffəq olmuşlar.

Axır-zamanda da bəşəriyyət aləmi sonuncu ilahi səfir – Həzrət Sahibəz-Zamanın (ə.f) zühuru ilə müjdələnəcək. “Öz Zəmanəmizin İmamı” adlandırdığımız və intizarında olduğumuz sonuncu ilahi məmur gələcək və bu yükü zirvənin qülləsinə qaldıracaq. İmam Zamanın (ə.f) işi kimin işinin davamıdır? Həzrət Nuhun (ə), İbrahimin (ə), Musanın (ə), İsanın (ə), öz Peyğəmbərimizin (s) və onun pak Əhli-beytinin (ə) işidir. Əgər bu yük məqsədə çatmazsa, Nuhun, İbrahimin və digər peyğəmbərlərin işi uğursuz qalacaq. Lakin bu yükün məqsədə çatacağı qaçılmazdır. Elə buna görə də onun məqsədə yaxınlaşmasında onların da payı olduğundan, nə Nuh, nə İbrahim, nə mişarla iki hissəyə ayrılmış Zəkəriyya, nə də quyuya atılmış o peyğəmbər nakam olmadı. Düzdür, quyuya atıldı, dünyada istədiyini görə bilmədi, Həzrət Yəhyanın (ə)

zalım padşahın vasitəsilə başı bədənindən ayrıldı və hədiyyə göndərildi, lakin bunlar məğlubiyyət amili deyil. Nə üçün? Çünki onlar bu bəla və müsibətlərə o ağır əmanəti irəli aparmaq və məqsədə yaxınlaşdırmaq üçün sinə gərdilər. Ötən məclisdə toxunduğumuz mətləblər bunlardan ibarət idi.

Keçən məclisdə işarə etdiyimiz növbəti mətləb nübuvvətin aqibəti ilə əlaqədar idi. Qeyd etdik ki, peyğəmbərlər əsla məğlub olmadılar, əksinə hamısı məqsədinə nail oldular. Lakin peyğəmbərlərdən bəziləri öhdələrinə götürdükləri ağır yükü son məqsədə bir addım yaxınlaşdırmaqla bərabər, digər müvəffəqiyyətlər də əldə etdilər; belə ki, ilahi cəmiyyət qura bildilər. Bizim Peyğəmbər (s) bunun aşkar nümunəsidir. O Həzrət ilahi, islami və qurana mənsub təfəkkür əsasında bir cəmiyyət təşkil etdi. Ötən məclisdə qeyd etdiyimiz kimi, bizim Peyğəmbər (s) kimi bəzi keçmiş peyğəmbərləri misal çəkmək olar. Həzrət İsadan (ə) sonra Rum imperiyası ona iman gətirdi. Həzrət Musadan (s) sonra Bəni-İsrail vətəndaş cəmiyyətini və Həzrət İbrahim (ə) öz həyatı zamanı ilahi cəmiyyəti təşkil etdi. Bəni-İsrail peyğəmbərlərindən olan Həzrət Süleymanın (ə) qurduğu ilahi hökumət bütün dünyanı əhatə etdi. O, bütün dünyanı ilahi cəmiyyət adı altında bir ideya ətrafında birləşdirdi. Bir sözlə, bəzi peyğəmbərlərin öz həyatında ikən qazandıqları uğur və müvəffəqiyyətlər "ilahi cəmiyyət" adı ilə yekunlaşırdı.

Bəzi peyğəmbərlərin dövründə isə bu şərait yaranmadı. Buna Zəkəriyya (ə), Yəhya (ə) və onlardan öncəki bəzi peyğəmbərləri misal çəkə bilərik. Onlar ilahi cəmiyyət təşkil edə bilmədilər. Bu barədə nə demək olar? Bunu necə yozmaq olar? Nə üçün bəzi peyğəmbərlər ilahi hökumət qura bildilər, bəziləri isə buna müvəffəq ola bilmədilər? Nə üçün onların hamısı ilahi hökumət qura bilmədi? Nə üçün bəziləri üçün belə bir şərait yarandı, bəziləri üçün isə yox? Cavab qısa və bir cümlədən ibarətdir: İlahi şəxsiyyətlər və rəhbərlərin, haq-həqiqət carçılarının uğur və müvəffəqiyyətləri hər zaman iman və səbrə əsaslanıb. Onların ətrafındakılar və onlara iman gətirənlər lazımi iman və səbrə sahib olmadıqları zaman, sözsüz, məğlubiyyətə uğrayıblar. Bu qanun həmişə işlək olub. Haçan möminlər peyğəmbərlərin düşmənləri ilə mübarizədə səbirli və dözümlü olublarsa, qalib olublar. Peyğəmbərlərin səsi və dəvəti həmişə qalib və mütərəqqi olub. Çünki onlar həmişə haqq söz deyib,

haqq əsasında rəftar ediblər. Haqq isə hər zaman qalibdir. Dünyanın fitrət və təbiəti haqqa əsaslanır. Elə buna görə də həmişə qalibdir. Peyğəmbərlər də dünyanın fitrətinə uyğun olaraq danışıblar. Odur ki, onların inqilab və hərəkatında uğur və müvəfəqiyyət potensialı həmişə mövcud olub. Əgər tarixdə hansısa bir peyğəmbərin məğlub olduğunu görürsənsə, səbəbi haqq sözün həmişə məğlub olması anlamında deyil. Xeyr, haqq söz, haqq sistem mütləq qələbə çalacaq, haqq batili həmişə əzəcək. Elə isə nə üçün bəzi peyğəmbərlər məğlub olublar? Çünki onların tətəfdarlarının ya kifayət qədər imanı, ya da səbri və dözümü olmayıb. Yoxsa, ötən məclisdə tilavət etdiyim ayədə belə buyurulur:

وَلَقَدْ سَبَقَتْ كَلِمَتُنَا لِعِبَادِنَا الْمُرْسَلِينَ. إِنَّهُمْ لَهُمُ الْمَنصُورُونَ. وَإِنَّ جُندَنَا لَهُمُ الْغَالِبُونَ

***“Həqiqətən, peyğəmbər olan bəndələrimiz haqqında əvvəlcədən bu sözümüz (və əmrimiz) deyilmişdi. Həqiqətən, onlar yardım olunmuşlardır. Şübhəsiz, Bizim dəstəmiz qalibdir!”***[1]

Allahın bu kəlamı haqdır və toxunulmazdır. Əgər haçansa haqq carçılarının məğlub olduğunu görsən, bil ki, Allahın dəstəsi deyillər və onlarda ilahi dəstənin şərtləri yoxdur. İslam cəmiyyəti “Allahın dəstəsi” adını daşıdığı gün qalib idi, məğlub olduğu gün isə Allahın dəstəsi və ordusu hesab edilmirlər.

Mətləbi – zəfər və məğlubiyyətlərin səbəbini iki cümlədə xülasə etmək olar: Haçan peyğəmbərlərin tərəfdarları kamil iman və yəqinə sahib oldularsa və haqq sözün üstündə möhkəm dayandılarsa, şübhəsiz, uğur və müvəffəqiyyət qazandılar və heç zaman məğlub olmadılar. Ötən məclisdə müasir tarixçilərin birinin öz dostlarına ünvanladığı bir sözə toxunmuşdum. O deyirdi: “Bacardığınız qədər mübarizə aparın. Məğlub olduğunuzu gördükdə, mübarizədən əl çəkməyin, mübarizəni davam etdirin. Məğlub olacağınıza əmin olduğunuz anda belə mübarizədən əl çəkməyin, yenə də mübarizə aparın, fəaliyyətinizdən əl götürməyin, geri çəkilməyin, mübarizənizi davam etdirin, o zaman zəfər qazanacaqsınız.” Quran ayəsində də elə bu mətləb aşılanır və buyurulur:

حَتَّى إِذَا اسْتَيْأَسَ الرُّسُلُ وَظَنُّواْ أَنَّهُمْ قَدْ كُذِبُواْ

***“Nəhayət, peyğəmbərlər ümidsizliyə qapıldıqda və (insanlar tərəfindən) təkzib olunduqlarını güman etdikdə, köməyimiz onlara yetdi.”***[2]

---

1. “Saffat” surəsi, ayə 173.
2. “Yusuf” surəsi, ayə 110.

Düşmənlər və müxalif dəstələr peyğəmbərlərlə o qədər müxalifətçilik etdilər, onlara o qədər zərbələr endirdilər ki, peyğəmbərlərin özləri belə naümid oldular, peyğəmbərlər və onlarla birgə olanların qəlbləri titrəməyə başladı. Əlbəttə, Allaha iman və etiqadlarını əldən vermədilər, qələbə çalacaqlarına əmin olduqları halda, qələbəyə nail ola bilmədiklərini gördükdə, qələbəyə iman və etiqadları tədricən azalmağa başladı və yanlış düşündüklərini təsəvvür etdilər. Onlar Allahın: *"Siz mütləq qələbə çalacaqsınız"* – kəlamına yəqin etmişdilər. Lakin ağır vəziyyətlə üzləşdikdə, yanıldıqlarını və Allahın onlara belə bir vəd vermədiyini düşündülər. Onlar düşmənin şiddətli zərbələrinə məruz qaldığını və bütün yolların onların üzünə bağlandığını gördükdə, habelə haqq cəbhəsinin mütləq məğlubiyyətə uğrayacağını və düşmənin onlara zəfər çalacağını hiss etdikdə, yenə elə bir şəraitdə müqavimətdən əl çəkmədilər, mübarizəyə davam etdilər və elə buna görə də Allahın yardımı onlara nəsib oldu!

Əgər biz tarix böyu bəzi haqq carıçılarının hərəkatının məğlub olduğunu – Kufə məscidində Zeyd ibn Əlinin alnına ox dəyib şəhid olduğunu, "Nəfsi-Zəkiyyə" adı ilə məşhur olan Məhəmməd ibn Abdullahın Mənsur Abbasi ilə mübarizəsində məğlubiyyətə uğradığını, Fəxx şəhidi Hüseyn ibn Əli Həsəninin Mədinə yaxınlığında bütün tərəfdarları ilə birlikdə öldürüldüyünü, İbrahim ibn Abdullahın Kufə və yaxud Bəsrədə qətlə yetirildiyini gördükdə, ümumi təcrübə və qənaətə gələrək elə təsəvvür edirik ki, batil əleyhinə qalxan haqq cəbhəsi hər zaman məğlubiyyətə məhkumdur. Lakin bu, Qurani-Kərimin mətnindən xəbərsiz qalan bir qrup nadanın təsəvvürüdür. Qeyd etdiyim kimi, bu təsəvvür tarixin zalım və hegemon qüdrətlərinin qəlbinə hopan sərin su kimidir. Onlar daim insanların belə düşünmələrini arzulamışlar. Əlbəttə, aydındır ki, bu təfəkkür tərzini elə onların özləri yayırlar. Həqiqət isə bu təfəkkür tərzinin tamamilə əksinədir.

Əgər Zeyd ibn Əli acınacaqlı şəkildə şəhid edilirsə, səbəbi haqqın məğlubiyyətə uğraması deyil, əksinə haqq uğrunda (haqq olmasına rəğmən,) daim zəhmət çəkmək, çalışmaq və fəaliyyət göstərmək lazımdır. Belə təsəvvür etməməliyik ki, sözümüz haqdırsa, onun yolunda çalışmamalıyıq. Belə düşünməməliyik ki, bizi haqqa dəvət edən Qurandırsa, demək, Allah Özü Quranı irəli aparmalıdır. Xeyr! Düzdür ki, haqq haqdır, hal-hazırda məhkum olsa da, dünya gələcəkdə ona təslim

olacaq, lakin zəhmət və fəaliyyət tələb edir, bir dəstə onun yolunda səbir edib müqavimət göstərməli, bir dəstə onun bərpası uğrunda ağrı-acılara sinə gərməlidir.

Zeyd ibn Əlinin macərası bizə haqqın məğlubiyyətə uğramasını deyil, haqq uğrunda çalışmağın zəruriliyini öyrədir. Zeyd ibn Əli haqq idi. İmam Sadiq (ə) də onun Hüşam ibn Əbdülməliklə mübarizədə haqq olduğunu təsdiqləmiş, ona mübarizə aparmaq üçün icazə vermişdi. Tarix də bunu sübut edir. O, yaxşı mübarizə aparırdı, lakin bir qrup nadan və yaxud qərəzli insan ayıq düşmənin əks təbliğatından təsirlənərək həssas mövqedə onu tək-tənha qoydu. Bizim bu macəradan öyrəndiyimiz dərs odur ki, haqq (Zeyd ibn Əli kimi) haqq olsa da, əgər dostlar və tərəfdarlar tərəfindən tək-tənha buraxılacaqsa və onun uğrunda mübarizə aparılmayacaqsa, məğlubiyyətə uğrayacaq. Amma mübarizə aparılacaqsa, zəfər qazanacaq. Bu, bir qanundur və bütün dünyaya hakimdir. Siz dünyada elə şəxs, elə bir məktəb və ideya tanıyırsınızmı ki, onun tərəfdarları mübarizə sayəsində həmin şəxsi və yaxud məktəbi məqsədə çatdırmasınlar? Batil, nahaq, dünyanın və insanın fitrətinə zidd sözlər mübarizə sayəsində qələbəyə nail olduğu halda, nə üçün haqq söz mübarizə sayəsində buna nail olmasın?

Əmirəlmöminin Əli (ə) "Nəhcül-bəlağə"nin bir xütbəsində bu məsələni açıqlayır. Həzrət bu xütbədə Peyğəmbəri-Əkrəmin (s) dövründə İslam ordusunun tərəqqi prosesinə toxunur və buyurur:

لَقَدْ كُنَّا مَعَ رَسُولِ اللَّهِ (صلى الله عليه و آله) نَقْتُلُ آبَاءَنَا وَ أَبْنَاءَنَا وَ إِخْوَانَنَا وَ أَعْمَامَنَا

*"Biz Allahın Peyğəmbəri (s) ilə olduğumuz vaxt (İslam dininə kömək üçün şirk və küfr cəbhəsində olan) öz atalarımızı, övladlarımızı, qardaş və əmilərimizi (döyüş meydanında) öldürürdük."*

Əgər atamız, əmimiz, oğlumuz və qardaşımız küfr bayrağını qaldırıb Peyğəmbəri-Əkrəmlə (s) döyüşə gəlirdisə, "Bu, mənim qardaşımdır, onu öldürə bilmərəm, o isə mənim oğlumdur, ona da toxuna bilmərəm." – demirdik. İslam və İslam Peyğəmbəri (s) ilə döyüşdüyü üçün Allah yolunda öldürürdük. Onları öldürdükdən sonra vətənə geri dönərkən azacıq belə sarsılmazdıq, heç vaxt deməzdik ki, bu yeni dinə görə nə üçün əziz oğlumu öldürdüm. Bu məsələlərə görə imanımız əsla azalmır, əksinə artırdı.

مَا يَزِيدُنَا ذَلِكَ إِلَّا إِيمَاناً وَ تَسْلِيماً وَ مُضِيّاً عَلَى اللَّقَمِ وَ صَبْراً عَلَى مَضَضِ الْأَلَمِ

*"Belə rəftar yalnız iman və etiqadımızı (təslimçiliyimizi), doğru yolda*

*hərəkət və dönməzliyimizi, ağrıların yanğısına səbir və dözümümüzü çoxaldırdı.”*

وَ جِدّاً فِي جِهَادِ الْعَدُوِّ وَ لَقَدْ كَانَ الرَّجُلُ مِنَّا وَ الْآخَرُ مِنْ عَدُوِّنَا يَتَصَاوَلاَنِ تَصَاوُلَ الْفَحْلَيْنِ يَتَخَالَسَانِ أَنْفُسَهُمَا أَيُّهُمَا يَسْقِي صَاحِبَهُ كَأْسَ الْمَنُونِ...

*“Düşmənlə mübarizə yolunda səylərimizi daha da artırırdı. (Peyğəmbər (s) dövrünün müharibələrində döyüş üslubu belə idi ki,) bizlərdən biri düşmənlərdən biri ilə bir-birinə hücum edirdi və onlardan biri başqasına ölümü daddırana qədər iki erkək heyvanın bir-birinin canına düşdüyü kimi, bir-birinin üstünə düşürdülər...”*

Əmirəlmöminin Əli (ə) bu qısa xütbənin sonunda belə buyurur:

فَلَمَّا رَأَى اللَّهُ صِدْقَنَا أَنْزَلَ بِعَدُوِّنَا الْكَبْتَ وَ أَنْزَلَ عَلَيْنَا النَّصْرَ

*“Allah bizim sədaqətimizi (Onun yolunda mübarizəmizi, düzgünlüyümüzü, həqiqi müsəlman və mömin olmağımızı, öz dərin imanımızı əməllərimizlə göstərdiyimizi) gördükdə, düşmənlərimizi xar, qələbəni isə bizə nəsib etdi.”*

Bir-iki cümlədən sonra belə buyurur:

وَ لَعَمْرِي لَوْ كُنَّا نَأْتِي مَا أَتَيْتُمْ مَا قَامَ لِلدِّينِ عَمُودٌ وَ لَا اخْضَرَّ لِلْإِيمَانِ عُودٌ

*“Öz canıma and olsun, əgər (İslam dininə köməkdə) rəftarımız sizin kimi olsaydı, (düşmənlə döyüşdə sizin kimi süstlük və səhlənkarlıq etsəydik) dinin bünövrəsi qalmazdı və iman ağacının budağı göyərməzdi.”*

Əmirəlmöminin Əli (ə) bu xütbəni xilafətdə olduğu zaman söyləmişdir. O zaman o Həzrət bir qrup tənbəl, səhlənkar və rahattələb insanla üz-üzə qalmışdı və onlara “Müaviyə ilə döyüşə getməliyik!” – dedikdə, bəhanə gətirir, Təlhə və Zübeyrlə döyüşə yollandıqda, döyüşə qatılmamalarına şəri-dini don geyindirir, min cür yozurdular. Bir sözlə, o Həzrət ilahi maarifdən uzaq qalan, rahat və əziyyətsiz həyat tələb edən, zəif, süst, tənbəl, alçaq, zillətə boyun əyən və rahatlıq ardınca olan insanlarla üz-üzə qalmışdı. Onlara müraciət edərkən, öz canına and içir və buyurur ki, ey müsəlmanlar, biz də o zaman Peyğəmbərlə (s) sizin bugünkü rəftarınız kimi rəftar etsəydik, dinin sütunları qurulmaz və iman budaqları göyərməzdi.

Siz bu xütbədən nə anlayırsınız? Əmirəlmöminin Əlinin (ə) kəlamı Peyğəmbərin (s) kəlamından başqa, bir şey deyil, onun getdiyi yol qardaşı Peyğəmbərin (s) getdiyi yol idi. Nə üçün o gün Peyğəmbər (s) sürətlə irəlilədi, Əmirəlmöminin Əlinin (ə) zamanında isə hər şey

dayandı? Nə üçün? Əmirəlmöminin Əli (ə) bunun sirrini açıqlayır. Buyurur ki, o gün biz döyüş meydanlarında səbir etdik, müqavimət göstərdik; o gün rahat döşəklərimizdən qalxıb meydana qədəm qoyduq; o gün Allaha xatir maddi mənafeyimizə, işimizə, ticarətimizə arxa çevirdik, bu gün isə siz buna hazır deyilsiniz. O gün irəlilədik, bu gün isə gerideyik. Bu, çox sadə və aydın bir məsələ, Əmirəlmöminin Əlinin (ə) ictimai təhlilidir.

Bir sözlə, ilahi peyğəmbərlər peyğəmbərlik silsiləsində fəaliyyətləri qələbə ilə birgə olduğu kimi, işin sonunda da əbədi, son qələbə və zəfər də onlarladır. Peyğəmbərlərin elə bu dünyada qələbə və zəfər qazanması, həm özləri, həm də məktəblərinin istəklərinə nail olması qaçılmazdır, lakin bu şərtlə ki, onların ardıcılları, tərəfdarları və dostları həqiqi imana sahib olsunlar, bir-birilə əlbir və mübarizə meydanında səbirli, dözümlü olsunlar. İman və səbir şərtdir. Bəhsimizin xülasəsi bundan ibarətdir.

İndi isə Quran ayələrinə müraciət edək: Mən bu gün üçün Qurani-Kərimin fərqli yerlərindən bir neçə ayə seçib qeyd etmişəm, yoxsa, Qurani-Kərimdə uyğun mövzu ilə bağlı müjdələyəci ayələr çoxdur. Biri “Muminun” surəsindədir və orada belə buyurulur:

إِنَّا لَنَنصُرُ رُسُلَنَا وَالَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ يَقُومُ الْأَشْهَادُ

***“Şübhəsiz ki, Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gündə yardım edəcəyik!”***[1]

Ayədə qeyd olunan “innə” ifadəsi təkidi, “lənənsuru” ifadəsindəki “ləm” hərfi də həqiqəti bildirir. Yəni, həqiqətən və heç bir şəkk-şübhə omadan, Öz peyğmbərlərimizə yardım edəcəyik. Yalnız peyğəmbərlərəmi? Xeyr! Peyğəmbərlərin yolu ilə hərəkət edən, onların dəvətini qəbul edib yola düşən pak möminlərə də yardım edəcəyik. Allahın yardım vədi möminlərə də aiddir. Onlara harada yardım edəcəyik? Həm bu dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə yardım edəcəyik. Bəzi təfsirlərdə şahidlərin şəhadət verəcəyi günün Qiyamət günü olduğu qeyd edilmişdir.

Bu mübarək ayənin təfsirində bir hədis nəql olunur və həmin hədisdə İmam Sadiq (ə) Cəmil ibn Dərraca buyurur ki, Allahın peyğəmbərlərə yardımında məqsəd “rəcət” günüdür;[2] yəni Həzrət Sahibəz-Zaman (ə.f)

---

1. “Mumin” surəsi, ayə 51-55.
2. “Nurus-Səqəleyn”, “Mumin” surəsinin 51-i ayəsinin təfsirində.

zühur edib bu dünyada dünyamiqyaslı ilahi hökumət təşkil edəcək, bütün dünyada Quran və İslam bayrağını dalğalandıracaq, bütün insanlar Allaha və tövhid dininə doğru hərəkət edəcək, vahid ilahi hökuməti bərpa edəcək. Ondan sonra Allah-Taala peyğəmbərləri, vəsiləri, şəhidləri və əməlisaleh möminləri dirildəcək. Bu həqiqət bəzi Quran ayələri və rəvayətlərə əsaslanır. Biz burada "rəcət" haqqında danışmaq istəmirik. İmam (ə) bu hədisdə bu ayənin və möminlərə yardımın "rəcət"ə aid olduğunu söyləyir. Mənim nəzərimcə, İmamın (ə) ayədə qeyd olunan فِي الْحَيَاةِ الدُّنْيَا (dünya həyatında) – ifadəsindəki məqsədi "rəcət" deyil. İmam (ə) Allah-Taalanın ***"Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə dünya həyatında yardım edəcəyik"*** – kəlamında göstərilən dünya həyatındakı ifadədə məqsədin "rəcət" olduğunu bildirmək istəmir. Zənnimcə, يَوْمَ يَقُومُ الْأَشْهَادُ ***(şahidlərin şəhadət verəcəyi gün)*** – ibarəsində Qiyamət yox, "rəcət" nəzərdə tutulur. Yoxsa, Qiyamətdə yardım etməyin nə mənası var? Allah-Taalanın Öz peyğəmbərlərinə yardım edəcəyi gün "rəcət" günüdür. Əlbəttə, bu məsələni ehtimal olaraq qeyd edirəm və bu rəvayətdən də əldə etdiyim nəticə ehtimala əsaslanır. Hər halda, bu ehtimaldan üz çevirsək belə, sonrakı ayələrə əsasən, فِي الْحَيَاةِ الدُّنْيَا (dünya həyatında) – ifadəsindən zahirən belə başa düşülür ki, Allah-Taala peyğəmbərlərə və möminlərə "Biz sizə elə bu dünyada ikən yardım edəcəyik." – deyə vəd verir.

يَوْمَ يَقُومُ الْأَشْهَادُ ***"Şahidlərin şəhadət verəcəyi gün"*** – hansı gündür?:

يَوْمَ لَا يَنفَعُ الظَّالِمِينَ مَعْذِرَتُهُمْ

***"O gün ki, zalımlara üzrxahlıqları heç bir fayda verməyəcəkdir."***

Qurani-Kərimin başqa bir ayəsində belə buyurulur:

يَوْمَ يَأْتِي بَعْضُ آيَاتِ رَبِّكَ لاَ يَنفَعُ نَفْسًا إِيمَانُهَا لَمْ تَكُنْ آمَنَتْ مِن قَبْلُ

***"...Rəbbinin bəzi əlamətlərinin gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanından bir xeyir qazanmamış şəxsə (sonrakı) imanı heç bir fayda verməz!..."***[1]

Bu ayə də İmam Zamanın (ə.f) zühur edəcəyi vaxta aid edilir.

وَلَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

***"(O gün) onları lənət və pis aqibət gözləyir."***

Daha sonra Allah-Taala ***"Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə yardım edəcəyik"*** – vədinə şahid olaraq Həzrət Musanı (ə) misal çəkir. Çünki bu ayədən öncə ("Mumin" surəsinin ilk ayələrində)

---

1. "Ənam" surəsi, ayə 158.

deмək olar ki, Həzrət Musa (ə) və onun Fironla mübarizəsindən söz açıldığından, bütün peyğəmbərlərə yardım vədi verilir və nümunə olaraq belə buyurulur:

وَلَقَدْ آتَيْنَا مُوسَى الْهُدَى وَأَوْرَثْنَا بَنِي إِسْرَائِيلَ الْكِتَابَ

***“Həqiqətən, Biz Musaya hidayət verdik və İsrail oğullarını kitaba varis etdik!”***

Bəni-İsrailin kitaba, ilahi maarif və qanunlara sahib olmasının davamlılığı onların müvəffəqiyyətinin göstəricisidir, yoxsa dövrün tağut və kafirləri Bəni-İsrailə qələbə çalır və onların səmavi kitaba əməl etməsinə icazə vermir, onların arasında kitabın (ilahi qanunların) icrasına maneçilik törədirdilər.

هُدًى وَذِكْرَى لِأُولِي الْأَلْبَابِ

***“(Belə ki, bu kitab) ağıl sahiblərinə hidayət və agahlıqdır!”***

Bundan sonrakı ayədə İslam Peyğəmbərinə (s) xitab olunur və belə buyurulur:

فَاصْبِرْ

***“Elə isə səbir et!”*** Dözümlü ol, irticaçı fikirlər müqabilində müqavimət göstər.

إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ

***“Şübhəsiz, Allahın vədi haqdır.”***

Allahın sizin zəfər qazanacağınızla bağlı verdiyi vədi gerçəkləşəcək; Həmin vədə “Saffat surəsində (və Quranın digər ayələrində) işarə edilib:

وَلَقَدْ سَبَقَتْ كَلِمَتُنَا لِعِبَادِنَا الْمُرْسَلِينَ. إِنَّهُمْ لَهُمُ الْمَنصُورُونَ

***“Həqiqətən, peyğəmbər olan bəndələrimiz haqqında əvvəlcədən bu sözümüz (və əmrimiz) deyilmişdi. Həqiqətən, onlar yardım olunmuşlardır.”***[1]

Bu, haqq və həqiqətdir. Ey Peyğəmbər, Allahın vədinə əsasən, sən, həqiqətən də zəfər qazanacaqsan! Lakin zəfərin şərti səbirli və dözümlü olmaqdır; müqavimət göstərməli, tutduğun bu müqəddəs və ağrılı-acılı yoldan dönməməlisən.

فَاصْبِرْ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ وَاسْتَغْفِرْ لِذَنبِكَ

***“Elə isə səbir et! Şübhəsiz, Allahın vədi haqdır. Günahına görə bağışlanma dilə.”***

Əlbəttə, Peyğəmbərin günahı yalnız onlar üçün günah sayılır, bizim günahlar kimi deyil. Şübhəsiz ki, Peyğəmbər (s) məsumdur. Quran

1. “Saffat” surəsi, ayə 171-172.

ayələrinin aşkar mətninə və əqlin hökmünə əsasən, Peyğəmbər günah etmir. Əgər Peyğəmbər üçün günah sayılanları biz yerinə yetirəriksə, bizim üçün günah və xəta hesab edilməz. Peyğəmbərin günahı dedikdə, bu növ xətalar nəzərdə tutulur.

وَاسْتَغْفِرْ لِذَنبِكَ

***"Keçmiş kiçik xətalarına görə bağışlanma dilə."***

وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ بِالْعَشِيِّ وَالْإِبْكَارِ

***"Axşam-səhər Rəbbini həmd-səna ilə təqdis et!"***

Bu ayə çox aydındır və bizə peyğəmbərlərin işinin Allahın yardımı ilə uğurla bitəcəyini aşılayır.

İndi isə "Ənbiya" surəsindən olan ayələri tilavət edək. Bu ayələrə də qısa şəkildə toxunacağam. "Ənbiya" surəsi "Taha" surəsindən sonra, Quranın 17-ci cüzündə yerləşir. Olduqca dərin məzmuna malik bir surədir. Quranla ünsiyyyətdə olan dostlara tövsiyə edirəm ki, "Ənbiya" surəsini diqqətlə oxusunlar. Surənin başlanğıcından Allah-Taala peyğəmbərlərin qələbə çalacağı, düşmənlərin məğlub olacağı və axirət əzabından öncə elə bu dünyada ikən əzaba düçar olacaqlarını buyurur. Surənin başlanğıcından elə bu haqda danışılır və bu mətləblər təkrar olunduqdan sonra, tarixi hadisə, Həzrət Musanın (ə) əhvalatı, onun qələbəsi və ona müxalif qüvvələrin isə məğlubiyyəti nəql olunur. Həmçinin, Həzrət İbrahimin (ə) əhvalatı, onun mövqeyi və qələbəsi, ona müxalif qüvvələrin məğlubiyyəti, Həzrət Nuhun (ə), Həzrət Süleymanın (ə) və digər peyğəmbərlərin başlarına gələn hadisələr də qeydə alınır. Bu surədə nəql olunan bütün əhvalatlarda peyğəmbərlərin irəliləyişi, müvəffəqiyyəti və qələbəsi, onlara, onların inqilabi hərəkat və yeni sözlərinə müxalif olan mürtəce qüvvələrin isə məğlubiyyətindən söz açılır və bu, tarixin ənənəsidir.

Surənin əvvəllərindən belə buyurulur:

وَمَا أَرْسَلْنَا قَبْلَكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ

***"(Ey Peyğəmbər!) Biz səndən əvvəl də hər bir ümmətə*** yalnız vəhy nazil etdiyimiz ***kişilər (kişi peyğəmbərlər) göndərmişdik..."***[1]

وَمَا جَعَلْنَاهُمْ جَسَدًا لَّا يَأْكُلُونَ الطَّعَامَ وَمَا كَانُوا خَالِدِينَ

***"Biz onları (mələk kimi) yemək yeməz bir bədən yaratmadıq. Onlar (dünyada) əbədi də deyillər."*** Onlar da əcəli çatdıqda əbədiyyətə qovuşdular.

1. "Ənbiya" surəsi, ayə 7-18.

ثُمَّ صَدَقْنَاهُمُ الْوَعْدَ فَأَنجَيْنَاهُمْ وَمَن نَّشَاء وَأَهْلَكْنَا الْمُسْرِفِينَ

***“Sonra onlara verdiyimiz vədi (zəfər vədini) yerinə yetirdik və istədiyimiz kəslərə nicat verdik, həddi aşanları (təcavüzkarları) isə məhv etdik.”***

لَقَدْ أَنزَلْنَا إِلَيْكُمْ كِتَابًا فِيهِ ذِكْرُكُمْ أَفَلَا تَعْقِلُونَ

***“(Ey möminlər!) Həqiqətən, sizə elə bir kitab (Quran) nazil etdik ki, sizin agahlığınız ondadır. Məgər düşünmürsünüzmü?”***

Onbirinci ayədə isə peyğəmbərlərin zəfərindən və onların bu dünyanın bətnindəki ilahi və qeybi yardımlar vasitəsilə necə zəfər qazandıqlarından xəbər verilir. Qeybi yardım dedikdə, geniş xalq kütləsi elə təsəvvür edir ki, qeybdən bir əl gələrək düşmənin sinəsinə vurub onu yerə yıxmalıdır. Xeyr! Məqsəd bu dünyanın özündə yerləşdirilən, onun fitrət və təbiətilə uzlaşan qeybi yardımlardır. Allah-Taala Öz peyğəmbərlərinə bu qeybi yardımlar vasitəsilə nə qədər qələbə bəxş etmişdir!

وَكَمْ قَصَمْنَا مِن قَرْيَةٍ كَانَتْ ظَالِمَةً

***“Biz zalım olan neçə-neçə məmləkəti (və cəmiyyəti) məhv etdik.”***

Zalım cəmiyyət, zalım sistem və zalım sivilzasiyanın quruluşu zülm və təbəqələşməyə, istismar və müstəmləkəyə əsaslanır. Bu, zalım məmləkət və cəmiyyətin xüsusiyyətidir. Ayədə buyurulur ki, Biz neçə-neçə belə məmləkət və cəmiyyətləri məhv etdik, dağıtdıq.

وَأَنشَأْنَا بَعْدَهَا قَوْمًا آخَرِينَ

***“Onlardan sonra başqa bir qövm (və başqa bir camaat) yaratdıq.”***

فَلَمَّا أَحَسُّوا بَأْسَنَا إِذَا هُم مِّنْهَا يَرْكُضُونَ

***“Onlar əzabımızı (və qəzəbimizi) hiss etdikdə, dərhal oradan (öz yurdlarından) qaçmağa üz qoydular.”***

Bu ayədə ilahi əzab zamanı zülmkarların halı bəyan olunur. Onlar Allahın qəzəbini, misal üçün, səmavi əzabın nazil olduğunu, yaxud da möminlərin peyğəmbərlərlə birlikdə onların müqabilində dayandığını və Allahın qəzəb qılıncının onların başlarının üstünü aldığını hiss etdikdə, öz məmləkətlərini və cəmiyyətlərini tərk edib qaçmağa başladılar.

لَا تَرْكُضُوا وَارْجِعُوا إِلَى مَا أُتْرِفْتُمْ فِيهِ وَمَسَاكِنِكُمْ

***“Qaçmayın, kef çəkdiyiniz yerə, məskənlərinizə və saraylarınıza qayıdın.”*** Hara qaçırsınız? Öyündüyünüz və ağalıq etdiyiniz şəhər və cəmiyyətə dönün.

لَعَلَّكُمْ تُسْأَلُونَ

***“Ola bilsin ki, (hara getmişdiniz deyə) sorğu-suala tutulasınız!”***

قَالُوا يَا وَيْلَنَا إِنَّا كُنَّا ظَالِمِينَ

***“Onlar dedilər: “Vay halımıza! Biz, həqiqətən, zalım olmuşuq.”***

فَمَا زَالَت تِّلْكَ دَعْوَاهُمْ حَتَّى جَعَلْنَاهُمْ حَصِيدًا خَامِدِينَ

***“Biz onları biçənədək (ölümə yem edənədək) elə bu sözləri deyib dururdular.”***

Növbəti ayələr həqiqətdə bu tarixi həqiqətin təməli fikrini bəyan edir. Axı, nə üçün onlar bu vəziyyətə düşdülər? Nə üçün zülmkarlar məhv olmalı və onların yerini məzlumlar tutmalıdır? Nə üçün peyğəmbərlərin dəvəti gerçəkləşməli, düşmənləri isə məhv olmalıdır? Nə üçün? Səbəb budur:

وَمَا خَلَقْنَا السَّمَاء وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا لَاعِبِينَ

***“Biz göyü, yeri və onların arasında olanları oyun-oyuncaq (əbəs yerə) yaratmadıq.”***

لَوْ أَرَدْنَا أَن نَّتَّخِذَ لَهْوًا لَّاتَّخَذْنَاهُ مِن لَّدُنَّا إِن كُنَّا فَاعِلِينَ

***“Əgər Biz yersiz iş görmək istəsəydik, onu mütləq Öz dərgahımızdan edərdik. Lakin Biz (bunu) etmədik.”***

Aləmlərin Rəbbi boş-boşuna iş görmür, gördüyü işlər puç deyil. Bu, nə deməkdir? Bu, o deməkdir ki, göy, yer və onların arasındakılarını yaratmışıqsa, səbəbsiz deyildir, müəyyən məqsəd və hədəfə çatmaq üçün yaratmışıq. Haqq, yəni göy, yer və onların arasında olanların həmin hədəfə doğru hərəkət etməsi. Göy, yer və onların arasındakı varlıqların yaradılış hədəfinə doğru hərəkət etdikləri yol “haqq” adlanır. Bir sözlə, insanı məqsədə çatdıran hər bir vasitə haqdır. Bu mətləb Quran ayəsində açıq-aşkar göstərilməsə də ayədən anlaşılan budur. Yəni, ayə üzərində dərindən düşündükdə, bu mətləb, açıq-aydın başa düşülür. Quranın metoduna görə, adətən, rahatlıqla başa düşülən, insan əqlinə aydın olan bir çox məsələlərə açıq-aşkar toxunulmur.

Sonrakı ayədə belə buyurulur:

بَلْ نَقْذِفُ بِالْحَقِّ عَلَى الْبَاطِلِ

***“Xeyr, Biz batili haqq vasitəsilə rədd edərik (məhv edib aradan apararıq).”***

Haqq, doğru, dünya və insanın fitri və təbii yolu sonda batilə qələbə çalacaq, haqqı batilə qalib edəcəyik.

فَيَدْمَغُهُ

***“Beləcə, haqq batili tamamilə yox edər.”***

فَإِذَا هُوَ زَاهِقٌ

***"(Bir də baxıb görərsiniz ki,) batil yox olub getmişdir."***

وَلَكُمُ الْوَيْلُ مِمَّا تَصِفُونَ

***"(O zaman ey zülmkarlar, batilə üz tutanlar və haqsızlar! Vəsf etdiklərinizə görə vay halınıza!"***

Növbəti ayələrdə, yenə Quranın bəyan tərzi daha maraqlı və cəlbedicidir; odur ki, insan Quranın incəlik və gözəlliklərini düzgün anlamaq üçün Quranla ünsiyyətdə olmalıdır. Adətən, Quranın bu incəlik və gözəlliklərini duymayanlar Quranla ünsiyyətdə olmayanlardır. Əgər insan Quranla ünsiyyət qurarsa, Quranın söz üslubu ilə tanış olarsa, Quranın danışıq tərzini anlayacaqdır. Haqqın gəlişi ilə batilin getməsi, haqqın qələbəsi və batilin məğlubiyyəti Quranın qəti fikridir. Daha sonra göylə yerin yaradılışı haqqında yenidən buyurulur ki, aləmlərin Rəbbi göyün, yerin və bütün kainatın malikidir. Məhz bu səbəbdən, insanın həyatı ilə bağlı hökm də Ona məxsusdur, onun həyat sistemində qanunverici Odur. O, hər şeyi idarə etməli, sahmana salmalıdır. Bir sözlə, peyğəmbərlərin müqabilində hökmranlıq edən və qüdrət nümayiş etdirənlər batildir və məhvə məhkumdur.

İlahi, Səni Muhəmməd və ali-Muhəmmədə and veririk, bizi Muhəmməd (s) və ali-Muhəmmədin (ə) həqiqi ardıcıllarından et!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, bizi dünya və axirət həyatında onlardan ayrı salma!

İlahi, Səni Muhəmməd (s) və ali-Muhəmmədə (ə) and veririk, bizi Öz lütf və mərhəmətinə şamil et!

İlahi, bizi Qurana itaət və əməl edənlərdən qərar ver!

**Xülasə**

**Çərşənbə günü – Ramazan ayının 22-ci günü**

## NÜBUVVƏTİN SONU-2

Peyğəmbərliyin sonu ilə bağlı qısa şəkildə deyə bilərik ki, tarixin müxtəlif mərhələ və dönəmlərində haçan peyğəmbərlərin dəvəti özü və tərəfdarlarının kamil iman və səbri ilə yanaşı olubsa, uğur və qələbə qazanmış, münasib mühit və uyğun sistemin yaranmasında, habelə, cahilanə sistemin aradan qaldırılmasında müvəffəqiyyət əldə etmişlər. Ümumiyyətlə, peyğəmbərlər, hətta mərhələli şəkildə, zahirdə məğlubiyyətlə üzləşən peyğəmbərlər nübuvvətin ümumu hərəkət xəttində hədəf və məqsədlərinə çatmış – insanların ruhiyyəsi və düşüncə tərzini yüksəltmiş və onların sonrakı mərhələyə çatmasını təmin etmişlər.

İstər Qurani-Kərimdə olsun, istərsə də İslam Peyğəmbəri (s) və ya digər peyğəmbərlərin əhvalatları ilə bağlı məlumatlarda bu həqiqət müxtəlif ifadələrlə İslam Peyğəmbərinə (s), müsəlmanlara və peyğəmbərlərin yolu ilə hərəkət edən bütün şəxslərə agahlıq və təsəlli vermək məqsədilə aşkar şəkildə bəyan olunur:

إِنَّا لَنَنصُرُ رُسُلَنَا وَالَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ يَقُومُ الْأَشْهَادُ – ***Şübhəsiz ki, Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gündə yardım edəcəyik!***

يَوْمَ لَا يَنفَعُ الظَّالِمِينَ مَعْذِرَتُهُمْ – ***O gün ki, zalımlara üzrxahlıqları heç bir fayda verməyəcəkdir.***

وَلَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ – ***(O gün) onları lənət və pis aqibət gözləyir.***

وَلَقَدْ آتَيْنَا مُوسَى الْهُدَى – ***Həqiqətən, Biz Musaya hidayət verdik.***

وَأَوْرَثْنَا بَنِي إِسْرَائِيلَ الْكِتَابَ هُدًى وَذِكْرَى لِأُولِي الْأَلْبَابِ – ***İsrail oğullarını kitaba varis etdik (ki, o,) ağıl sahiblərinə hidayət və agahlıqdır!***

فَاصْبِرْ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ – *Elə isə səbir et! Şübhəsiz, Allahın vədi haqdır.*

وَاسْتَغْفِرْ لِذَنبِكَ وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ بِالْعَشِيِّ وَالْإِبْكَارِ – *Günahına görə bağışlanma dilə, axşam-səhər Rəbbini həmd-səna ilə təqdis et!*

("Mumin" surəsi, ayə 51-55.)

"Ənbiya" surəsi peyğəmbərlərin zəfər, zalımların, düşmənlərin və müxaliflərin isə məğlubiyyət nəğməsidir:

وَكَمْ قَصَمْنَا مِن قَرْيَةٍ كَانَتْ ظَالِمَةً – *Biz zalım olan neçə-neçə məmləkəti (və cəmiyyəti) məhv etdik.*

وَأَنشَأْنَا بَعْدَهَا قَوْمًا آخَرِينَ – *Onlardan sonra başqa bir qövm (və camaat) yaratdıq.*

فَلَمَّا أَحَسُّوا بَأْسَنَا إِذَا هُم مِّنْهَا يَرْكُضُونَ – *Onlar əzabımızı (və qəzəbimizi) hiss etdikdə, dərhal oradan qaçmağa üz qoydular.*

لَا تَرْكُضُوا وَارْجِعُوا إِلَى مَا أُتْرِفْتُمْ فِيهِ وَمَسَاكِنِكُمْ – *Qaçmayın, kef çəkdiyiniz yerə, məskənlərinizə qayıdın.*

لَعَلَّكُمْ تُسْأَلُونَ – *Ola bilsin ki, (hara getmişdiniz deyə) sorğu-suala tutulasınız!*

قُلْنَا يَا نَارُ كُونِي بَرْدًا وَسَلَامًا عَلَى إِبْرَاهِيمَ – *Biz buyurduq: "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!*

وَأَرَادُوا بِهِ كَيْدًا فَجَعَلْنَاهُمُ الْأَخْسَرِينَ – *Onlar (İbrahimə) hiylə qurmaq istədilər, lakin Biz onları daha çox ziyana düçar etdik.*

وَنَجَّيْنَاهُ وَلُوطًا إِلَى الْأَرْضِ الَّتِي بَارَكْنَا فِيهَا لِلْعَالَمِينَ – *Biz onu da (İbrahimi də), Lutu da aləmlər üçün mübarək etdiyimiz yerə qovuşdurub nicat verdik.*

وَوَهَبْنَا لَهُ إِسْحَقَ وَيَعْقُوبَ نَافِلَةً – *Biz ona (İbrahimə) İshaqı, üstəlik (nəvəsi) Yəqubu da bəxş etdik.*

وَكُلًّا جَعَلْنَا صَالِحِينَ – *Onların hamısını saleh kimsələr etdik.*

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا – *Biz onları əmrimizlə (insanları) hidayət edən imamlar (rəhbərlər) etdik.*

وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ – *Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik.*

وَكَانُوا لَنَا عَابِدِينَ – *Onlar yalnız Bizə ibadət edirdilər.*

("Ənbiya" surəsi, ayə 69-73.)

## İYİRMİ İKİNCİ MƏCLİS

## NÜBUVVƏTƏ İMANIN ÖHDƏLİKLƏRİ

Cümə axşamı – 1974/10/10
Ramazan ayının 23-ü.

بسم الله الرحمن الرحيم

وَالَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُولَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا لَّهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ

“***İman gətirib (Məkkədən Mədinəyə) hicrət edənlər, Allah yolunda cihad edənlər və sığınacaq verib kömək göstərənlər – məhz onlar – həqiqi möminlərdir. Onlar üçün bağışlanma və böyük ruzi vardır!***”

“Ənfal” surəsi, ayə 74.

Nübuvvət bəhsləri arasında bir məsələyə mütləq toxunmaq lazımdır. Əgər onu anlayıb öyrənməsək, nübuvvətlə bağlı bir çox bəhslərin, demək olar ki, bizə əməl baxımından heç bir təsiri olmayacaq. Bu sonuncu bəhs bizi əməl meydanına istiqamətləndirmək və həyatımıza daxil olmaq üçün zəmanət rolunu ifa edir. Bu sonuncu bəhs nədir? Budur: Biz "Əşhədu ənnə Muhəmmədər Rəsulullah" (Şəhadət verirəm ki, Muhəmməd Allahın Peyğəmbəridir) – deyiriksə, elan edirik ki, namaz qılırıq, özümüzü Peyğəmbərin (s) ümməti hesab edirik və onun peyğəmbərliyinə iman gətirmişik. Belə olan halda, görəsən, dilimə gətirdiyim bu şəhadət kəlməsi mənim üzərimə bir öhdəlik və məsuliyyət qoyurmu? Bu əqidə və şəhadətin mənim üçün bir öhdəliyi varmı?

Fərz edin ki, siz Nərgiz gülünün Şam gülündən ətirli olduğunu qəbul edirsiniz. Ola bilsin ki, bəzilərinin heç bu haqda məlumatı olmasın. Bəziləri də ola bilər ki, sizin fikrinizin əksini düşünsün. Siz düz, ya da səhv, bu gülün o biri güldən daha ətirli və gözəl olduğunu düşünürsünüz. İndi bundan sonra nə baş verə bilər ki? Tələbələrin dili ilə desək, nə olsun ki! Bəs sonra? Sonrası yoxdur, heç nə! Gördüyünüz kimi, bu gülün o biri güldən ətirli olub-olmamasının bizim həyatımızda heç bir faydası, heç bir öhdəlik və məsuliyyəti yoxdur.

Başqa bir misala nəzər yetirək: Xristian aləmində ən yüksək ruhanilik məqamı "Papa" adlanır. Bildiyiniz kimi, "Papa" həqiqətdə xristianların ehtiram göstərdiyi bir simvoldur; xristianlıqla bağlı nə yeni tendesiya, nə də yeni bir hökmdür. Onun olub-olmaması qonaq otağında qoyulan gözəl bir heykəl və ikonanı xatırladır; əgər otaqdan asılarsa, otağın dekorasiyası mükəmməl olacaq, əgər asılmazsa, elitar təbəqənin nəzərində otaq qüsurlu görünəcək. Papanın olub-olmamasının xristian aləmi və təfəkkürü üçün bundan artıq təsiri yoxdur. Bizim yaşadığımız bu çağdaş dünyamızda bir nəfər xristian indiki Papanın vəfat etdiyini, başqa bir Papanın onun yerinə təyin olunduğunu və onun neçənci Papa olduğunu eşitsə, bu, onun həyatına heç bir təsir bağışlamayacaq. Əgər bir xristian şəhadət versə ki, mənim yaşadığım dövrdə Zeyd Papadır, bu şəhadət ona heç bir öhdəlik və məsuliyyət gətirməyəcək. Yəni, onun halı ucqar bir yerdə yaşayan, əldən düşmüş yaşlı bir xristianın halı ilə fərqlənməyəcək; onun da Papanın vəfat etdiyini və onun yerinə başqa bir Papanın seçildiyini bilməyən bu məlumatsız qoca ilə birgə düşüncəsi dəyişilməyəcək. Papanın ölümündən sonra onun həyatında heç bir

dəyişiklik olmadığı kimi, Papanın ölümünü bilən bu xristianın həyatında da heç bir dəyişiklik baş verməyəcək. Onun “Şəhadət verirəm ki, bu gün Papa filankəsdir.” – deməsi də ona heç bir öhdədəlik gətirməyəcəkdir.

Mənim namazın “təşəhhüd”ündə “Əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh” (Şəhadət verirəm ki, Muhəmməd Allahın bəndəsi və peyğəmbəridir.) – dediyim bu kəlmə və yaşadığım cəmiyyətin ümumi simasını göstərən və məscidin minarəsindən ucalan “Əşhədu ənnə Muhəmmədər-Rəsulullah” (Şəhadət verirəm ki, Muhəmməd Allahın Peyğəmbəridir) – şüarı, peyğəmbərliyə şəhadət vermək, ona iman gətirmək və bu imanı elan etmək mənim və şəhadət kəlməsini özünə şüar seçən cəmiyyətin üzərinə bir öhdəlik və məsuliyyət qoyurmu? Sual budur!

Cavab müsbətdir! Bəli, cəmiyyətin üzərinə öhdəlik qoyur. Bu öhdəlik nədir? Mən bu öhdəliyi bir cümlədə xülasə edirəm: “Peyğəmbəri (s) qəbul edən insanın üzərinə qoyulan öhdəlik və məsuliyyət Peyğəmbərin (s) yolunu davam etmək və onun yükünü məqsədə çatdırmaqdan ibarətdir.” Bu cümləni dilə gətirmək çox asan, məsuliyyəti isə olduqca ağırdır. Peyğəmbərin ümməti olmaq və onun peyğəmbərliyinə şəhadət verməyin mənası da elə budur!

Bəziləri elə düşünürlər ki, filankəsin peyğəmbər olduğunu qəbul ediriksə və peyğəmbərin qəlbimizdə yer tutduğunu dilimizdə deyiriksə, elə bununla da iş bitir və özümü Cəhənnəm sərhədindən uzaqlaşdırıb Cənnətin sərhədinə yaxınlaşdırırıq. Yaxşı qulaq asın! Baxın, görün, mənim dediyim bu əqidə sizin beyninizdə var, ya yox? Mənim kimin hansı əqidəyə sahib olub-olmaması ilə işim yoxdur. Bəziləri elə təsəvvür edirlər ki, insanlar sanki Allahın qəzəb odunda yanırdılar, sonra son Peyğəmbərin (s) peyğəmbərlik məsələsi meydana çıxdı. Allahın qəzəb odunda yanan bir dəstə “Əşhədu ənnə MuhəmmədərRəsulullah” (Şəhadət verirəm ki, Muhəmməd Allahın Peyğəmbəridir.) – deməklə, sanki Allahın əzab məntəqəsindən xaric olaraq ilahi rəhmət diyarına qədəm qoymuş oldular. Əgər onlar namaz qılacaqlarsa, rəhmət diyarına bir az yaxınlaşacaq, əgər oruc tutacaqlarsa, daha da yaxınlaşacaq, əgər xüms və zəkat verəcəklərsə, yaxşılığa dəvət edib pislikdən çəkindirəcəklərsə və digər yaxşı işləri yerinə yetirəcəklərsə, lap yaxınlaşacaqlar; əks halda, yenə rəhmət diyarında qalmış olacaqlar. Diqqət yetirdinizmi? Bəziləri belə düşünürlər.

Bu təfəkkür tərzinin nəticəsi odur ki, əgər bu gün bir şəxsin pasportunda (keçmişdə olduğu kimi) müsəlman və İslam Peyğəmbərinin (s) davamçısı yazılarsa, artıq cənnətlikdir və yaxud sual-cavab zamanı bir şəxsdən: "Dinin-məzhəbin nədir?" – deyə soruşduqda, "İslam" – deyə cavab verirsə, barmağını "İslam" sözünün üzərinə qoyaraq xristian, yəhudi, materialist və yaxud hansısa bir dinə mənsub olmadığını bildirirsə, ona İslam dinini təyin etdiyi üçün Cənnətə gedəcəyi deyiləcək. Bununla belə, namaz qılsan, oruc tutsan, digər xeyirxah işlər yerinə yetirsən, lap yaxşı! Əgər bunları yerinə yetirməsən də eybi yoxdur, sənin yerin Allahın Cənnətidir, sadəcə Qiyamətdən öncə yaxşıca əzişdirəcəklər. Bu, bir qrup insanın düşüncəsi və sözüdür.

Biz isə bu sözün yanlış olduğunu deyirik. Peyğəmbərə (s) iman gətirmək lazımdır. Lakin ona iman gətirmək öhdəliklər gətirir. İnsan həmin öhdəliklərə nə qədər əməl edirsə, imanı da elə o qədər düzdür. Yalnız dilində, yaxud da qəlbində iman gətirən və imanın heç bir öhdəliyinə, peyğəmbərliyi qəbul etməyin insan üzərinə qoyduğu məsuliyyətin heç birinə əməl etməyən insan zahirdə mömin olsa da həqiqi mömin deyildir. Allah-Taala onunla Qiyamətdə necə rəftar edəcək? – sualının cavabını bilmirəm və bilmək də istəmirəm. Lakin belə bir insanın iman sahibi olub-olmadığını dünyəvi meyarlarla mühakimə etmək istəsək, onu iman sahibi adlandıra bilmərik.

Əlavə olaraq qeyd etməliyik ki, insanın "şəhadət kəlməsini" dilə gətirməsi və zahirdə öz etiqadını göstərməsi canı və malının qorumasına səbəb olması və İslam məntəqəsinə daxil olmasına baxmayaraq, əsas məsələ onun mömin olub-olmamasıdır. Bizim aşağıda diqqətinizə çatdıracağımız Quran ayələrinə əsasən, imanın öhdəliklərinə əməl etməyən insanı "mömin" adlandıra bilmərik. O insan "mömin" adlanır ki, peyğəmbərliyə imanın öhdəlik və məsuliyyətlərinə əməl etsin.

Bu öhdəlik nədir? Bu öhdəlik odur ki, görək, Peyğəmbər (s) bu dünyada hansı işləri yerinə yetirmək istəyirdi? Peyğəmbər (s) ağır bir yükü, ağır bir daşı yerdən qaldırmaq, böyük bir bina tikmək istəyirdi. Mən də öz zamanımda baxıb görməliyəm ki, Peyğəmbərin (s) qaldırmaq istədiyi o yük və daş tamamilə yerdən qaldırıldımı, o bina tikildimi? Əgər cavabın mənfi olduğunu, yəni o yükün və daşın hələ də yerdə qaldığını və o binanın hələ də tikilib qurtarmadığını görsək, o zaman onun yerinə yetirmək istədiyi həmin işi yerinə yetirməli, yerindən qaldırmaq istədiyi

həmin yükü qaldırmalıyıq. Əgər sümüklərim zəifdirsə və gücüm çatmırsa, gücüm çatacaq qədər güc vurmalı, onu yerdən qaldırmaq üçün on nəfərdən yardım istəməli, həmin binanı tamamilə tikib tamamlamaq üçün digər bir dəstə də axtarıb tapmalıyam. Əgər onu tamamlaya bilməsəm, heç olmasa, on ədəd kərpic daşımağa gücüm çatırmı? Həmin binanın divarının hörgüsünü azacıq qaldırmağa imkanım varmı? İlkin işləri yerinə yetirməyə gücüm çatırmı? Əgər "yox" desəm, onda yalan danışmış olaram.

Bu öhdəliklərin icrası vacibdir, əks-təqdirdə, Allahın Peyğəmbərinin (s) peyğəmbərliyinə verdiyim şəhadət də yalan və səthidir – bu ifadə məqsədə daha uyğundur. Yalnız şəhadət verirəm ki, o, Allahın peyğəmbəridir, amma münafiqlər kimi onun peyğəmbərliyinə etiqad bəsləməyimə şəhadət verməyim düzgün deyildir:

إِذَا جَاءكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ إِنَّكَ لَرَسُولُ اللَّهِ وَاللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ إِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

***"(Ey Peyğəmbər!) Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz sənin, doğrudan da, Allahın Peyğəmbəri olduğuna şəhadət veririk!" – deyirlər. Allah sənin Onun həqiqi Peyğəmbər olduğunu bilir. Allah həm də münafiqlərin xalis yalançı olduqlarına şəhadət verir."***[1]

Münafiqlər Peyğəmbəri (s) dildə qəbul etsələr də ona qəlbən iman gətirməmişdilər.

Peyğəmbərliyin öhdəlikləri dünyanı İslamın buyurduğu kimi qurub yaratmaqdır. Peyğəmbərliyin öhdəlikləri budur. Peyğəmbər (s) dünyanı İslamın təklif etdiyi meyarlarla qurmaq üçün gəlmişdir. Onun gəlişinin səbəbi odur ki, insanların həyatını Allah istəyən tərzdə tənzimləsin. Əgər siz öz zamanınızda bəşəriyyətin Allah buyurduğu kimi yaşamadığını, ilahi cəmiyyətdən məhrum qaldığını, müxtəlif məktəblərin öz mənsublarını o tərəf-bu tərəfə çəkib apardığını, İslamın isə yalnız beyinlərdə və qəlblərin bir guşəsində qaldığını görsəniz, Peyğəmbərin (s) peyğəmbərliyinə verdiyiniz şəhadətə əsasən, sizin vəzifə və məsuliyyətiniz dünyanı İslam rənginə boyamaqdır. Nübuvvətin öhdəlik və məsuliyyəti budur!

Bu xülasə vərəqdə[2] qeyd etdiyimiz kimi, İslam yeni ideya təqdim edir. Yeni cəbhələr və sıralar da elə bu yeni ideya əsasında təşkil olunur.

1. "Munafiqun" surəsi, ayə 1.
2. Məclisin sonunda qeyd edilən xülasə nəzərdə tutulur.

Biz Quran ayələrini mütaliə edərkən dəfələrlə bu qənaətə gəlmişik ki, dinin əsasını yeni cəbhələr və sıralar təşkil edir.

Peyğəmbər gələrkən cahil cəmiyyətdə (zəlalət içində) yaşayan insanlar iki dəstəyə bölünürlər: Bir dəstəsi bu azğınlıq və sərgərdanlıqdan nicat tapıb yolunu dəyişir, bəziləri isə zəlalət yolundan əl çəkmirlər. Peyğəmbərlərin gəlişi ilə insanlar arasında ixtilaf və ikitirəlik yaranır. Bu ixtilaf və ikitirəliyin mənası var. Bunu unutmayın. Bu mətləbi hardasa nəql etmək istəsəniz, deməyin ki, filankəs belə deyirdi: "Peyğəmbər cəmiyyətdə ixtilaf və ikitirəlik yaratdı." Bu ixtilafın mənası var. Fərz edin ki, hamı qatarın vaqonlarına minib və qatar da uçuruma doğru hərəkətdədir və qəzaya uğrayacaq. Bu zaman Peyğmbər (s) arxadan vaqonları tutub saxlayır. Bəzi vaqonların sərnişinləri əllərini Peyğəmbərin (s) əlindən çəkib süqut edir, bəziləri isə Peyğəmbərin yardım əlindən yapışıb nicat tapırlar. Bir sözlə, vaqonlardakı sərnişinlər arasında ixtilaf yaranır.

Peyğəmbər (s) uçuruma, oğru və quldur dəstəsinə doğru hərəkət edən karvana "Ayaq saxlayın, getməyin!" – deyə müraciət edir. Bir dəstə onun sözünə qulaq asıb ayaq saxlayır, bir dəstə isə qulaq asmır və irəliyə doğru addımlayır. Burada ixtilaf yaranır, karvan iki cəbhəyə bölünür. Bəli, peyğəmbərlər azğınlıq içində çapalayan cəmiyyətin hamısını Allaha tərəf çağırdığı halda, onlar iki cəbhəyə ayrılır, onların arasında ixtilaf düşür, bəziləri Allaha tərtəf üz tutur, bəziləri isə Allahdan üz çevirirlər.

Peyğəmbərin gəlişi ilə cəmiyyətdə yeni cəbhə, yeni dəstə və yeni mövqe sərgilənir. Bir tərəfdə Peyğəmbər və onun tərəfdarları, bir tərəfdə də müxaliflər və düşmənləri qərar tutur. Mənim təsvir etdiyim bu iki dəstəyə yaxşı diqqət yetirin. Peyğəmbər (s) əvvəldə tək-tənha idi, hamı onun müqabilində dayanmışdı. Peyğəmbər (s) zəhmətlərə qatlaşaraq qarşısında dayanmış insanları bir-bir, iki-iki özünə tərəf çəkib və nəhayət, azğın olan qarşı dəstə müqabilində yeni bir dəstə yaradıb. İndi bir-birinə qarşı iki cərgə var, biri Peyğəmbərin cərgəsi, digəri isə onun düşmənlərinin cərgəsi.

Peyğəmbər (s) bununla nə etmək istəyirdi? İnsanları Cənnətə aparmaq istəyirdi; həm bu dünyadakı, həm də axirətdəki Cənnətə. Cənnət istəyən mütləq Peyğəmbərlə getməlidir. Əgər getməsə, Cənnətə də qovuşmayacaq. Peyğəmbər insanları səadət mənzilinə çatdırmaq istəyir. Əgər insanlar onunla birgə getməsə və yola düşməsə, səadət mənzilinə

çata bilməyəcəklər. Bu mətləbi unutmayın. İndi, bu iki cərgə arasında bir nəfər Peyğəmbərə baxıb onun düz danışdığını, nə qədər qulaq assa da, onun doğru və gözəl danışdığını görür. Digər tərəfdən də, Peyğəmbərin cərgəsinə qoşulduğu təqdirdə, digər cərgə ilə üz-üzə dayanacağını və onlara qarşı çıxacağını görür. Həmin cərgədə qalmaq da istəmir. Çünki orada qaldığı halda, Cəhənnəmə gedəcəyini görür. Peyğəmbərin cərgəsinə də qoşulmaq istəmir, çünki bu cərgənin də problemləri olduğunu görür. Nə etsin? Özünə iki cərgə arasında təhlükəsiz bir yer seçir və orada özünə bir çadır qurub oturur. Siz deyin. Bu iki cərgə arasında çadır qurub rahat əyləşən bu şəxs Cənnətə çata biləcəkmi? Aydındır ki, çata bilməyəcək. Çünki Peyğəmbər Cənnətə getmək istəyir və Cənnətə getmək istəyən mütləq onunla birgə yola düşməlidir. O isə Peyğəmbərlə birgə yola düşmədiyi üçün Cənnətə çatmayacaq. İki cərgə arasında olan şəxs Peyğəmbərlə birgə ola bilməz. Hər kim Peyğəmbərə qoşulmayıbsa, Peyğəmbərin əleyhinədir. Hər kim Əli (ə) ilə deyilsə, Əliyə (ə) qarşıdır. Hər kim haqq ilə deyilsə, haqqa qarşıdır. Bunu bizə Quran buyurur. Lakin İmam Əlinin (ə) kəlamı daha aydın, dərkimizə daha yaxındır. Bu hədisi öyrənin. “Biharul-ənvar” kitabının “Moizələr” bölməsində nəql olunan bir hədisdə o Həzrət belə buyurur:

اَلسَّاكِتُ أَخُو اَلرَّاضِي

*“Batil qarşısında susan ona razı olanın qardaşıdır.”*[1]

Bu hədisdə daha batilə razı olanın keyfiyyətindən söz açılmır, çünki onun necə bir insan olması məlum bir məsələdir.

مَن رَضِيَ بِعَمَلَ قَومٍ فَهوَ مِنهُم

*“Hər kim bir tayfanın əməlinə (həyat tərzinə) razı olsa, onlardandır.”*

Belə bir şəxsi də həmin tayfanın bağlandığı axurda bağlayacaqlar. Susan, amma qəlbində narazı olan və narazılığını dilə gətirməyən şəxs də razı olan şəxsin qardaşıdır. Hədisin davamında buyurulur:

وَ مَنْ لَمْ يَكُنْ مَعَنَا كَانَ عَلَيْنَا

*“Bizimlə olmayan bizə qarşıdır.”*

Bu iki cərgənin arasında İslamın fərz etdiyi bir yer yoxdur.

Abdullah ibn Məsud və Xorasanda dəfn olunan Rəbi ibn Xüsəym[2]

---

1. “Biharul-ənvar”, “Rövzə” başlığı, “Moizələr və hikmətlər – Əmirəlmöminin Əlinin (ə) moizələri” bölməsi.

2. Zahid və abid idi. Tabein zümrəsindən (səhabələrdən sonrakı zümrə) sayılırdı. “Vəqətus-Siffeyn” kitabında nəql olunur ki, onlar bir dəstə ilə birlikdə Əmirəlmöminin

kimilər "Siffeyn" döyüşündə Əmirəlmöminin Əli (ə) ilə birlikdə döyüşə getməkdən imtina etdilər və dedilər ki, Əli müsəlmanların qanını tökmək istəyir. Onlar Əmirəlmöminin Əlinin (ə) hüzuruna gəlib xahiş etdilər ki, xidmət üçün bizi sərhəd məntəqələrindən birinə göndərsin. Onlar elə düşünrdülər ki, (Sasani hökmdarı) üçüncü Yəzdəgirdlə Rum imperatoru Heraklyusdan hər hansı biri məğlub olsa, insanların dini və dünyasına heç bir faydası olmayacaq. Onlar sülh və barışıq məqsədilə düşmənlə üz-üzə gəlməkdən, döyüşdə iştirak etməkdən imtina edib bir guşəyə çəkilmək istəyir. Onlar elə təsəvvür edirdilər ki, xalqlar arasında baş verən dünya müharibəsi qüdrət və hakimiyyət üstündədir və bu müharibədə hər hansı ölkə özünü kənara çəkib müdaxilə etməsə, qalibdir. Lakin müharibənin haqq ilə batil arasında baş verdiyini və bu müharibənin qaçılmaz olduğunu anlamırdırlar. Dərk edə bilmirdilər ki, haqq ilə batilin müharibəsində haqqın tərəfində deyilsənsə, batilin tərəfindəsən. Batilin tərəfində olmağın mənası yalnız haqq ilə döyüşmək deyil; əgər haqq uğrunda döyüşmürsənsə, elə batilin tərəfindəsən. Onlar bunu anlamırdılar.

Peyğəmbər (s) cərgələri ayırd etmək və *"Kim bizimlə bir olmaq istəyirsə, gəlsin."* – sözünü demək üçün gəlmişdi.

گفت ای گروه هر که ندارد هوای ما
سر گیرد و برون رود از کربلای ما

**"Dedi: Ey camaat, hər kim bizi istəmirsə, bizim Kərbəlamızdan çıxıb getsin."**[1]

Həzrət Hüseyn ibn Əli (ə) yol əsnasında onu yanına çağırır və ondan kömək istəyir. O isə deyir: "Ey Peyğəmbərin (s) övladı! Atımı və qılıncımı sənin ixtiyarında qoyuram." Aydındır ki, o, artıq Hüseyn (ə) ilə deyil, Hüseynin (ə) əleyhinədir. Odur ki, hədis alimlərimiz həmin şəxsi "bədbəxt" ifadəsi ilə qeyd etmişlər. Düz də qeyd etmişlər. O, doğrudan da, bədbəxtdir. Vay olsun onun kimi dövrün bədbəxt insanlarına! Ey bədbxt! Peyğəmbərlər gəlmişlər ki, yolu ayırd etsinlər və göstərsinlər. Əgər mərdliyin çatırsa, haqq axtarışındasansa, Allaha görəsənsə, bizim peyğəmbərliyimizə şəhadət verirsənsə, ya Allah, bizim yolumuz budur!

---

Əlinin (ə) hüzuruna gedib dedilər: "Bu döyüşün haqq olmasına şəkk edirik." Onlar xahiş etdilər ki, İmam (ə) onları kafirlərlə döyüşmək üçün sərhəd məntəqələrindən birinə ezam etsin.

1. Nəyyir Təbrizi.

Yox, əgər bir kənarda əyləşib əlində təsbeh, "Şəhadət verirəm ki, siz Peyğəmbərsiniz, şəhadət verirəm ki, siz Peyğəmbərsiniz." – zikrini təkrar-təkrar dediyin halda, bizim yolumuzu və yolçularımızı görüb çətin olduğunu düşündünsə, çətin olduğu üçün kömək etmədinsə və üzünü o tərəfə çevirdinsə, o şəhadətin faydası yoxdur, heç onu deməsən yaxşıdır, onu dilinə gətirmə, əksinə ona əməl et (və əməl etmədiyin bir şeyi dilinə gətirmə):

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِمَ تَقُولُونَ مَا لَا تَفْعَلُونَ. كَبُرَ مَقْتًا عِندَ اللَّهِ أَن تَقُولُوا مَا لَا تَفْعَلُونَ

***"Ey iman gətirənlər! Etmədiyiniz bir şeyi niyə deyirsiniz? Etmədiyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olur."***[1]

Nə üçün dilinə gətirdiyinə və inandığına əməl etmirsən? Vay olsun mənə! Özümü deyirəm. İnsanın danışdığı və etiqad bəslədiyi şeyə əməl etməməsi böyük günahdır. Nə üçün Əbu Cəhlə itaət etdiyim halda, Peyğəmbərə (s) itaət etdiyimi deyirəm?! Nə üçün şirkə tabe olduğum halda, İslama tabe olduğumu deyirəm?! Nə üçün Ələvi olduğumu (İmam Əli (ə) şiəsi) olduğumu dediyim halda, Müaviyə və Əbu Cəhl tərəfdarıyam?!

Həzrət Əli (ə) ilə Müaviyənin fərqi nə idi? Sizi Allaha and verirəm, bu gün cəmiyyətdə Əli ilə Müaviyəni təsvir edin, bir nəfər tapın ki, şəxsi mənafeyini və rifahını düşünməsin, ağır məsuliyyətlərin öhdəsindən layiqincə gəlsin, yorulmaq bilmədən çalışsın, yalanı xoşlamasın, rüşvətdən və rüşvət qoxusu verən hədiyyədən acığı gəlsin, Allah yolunda və Allaha xatir qəzəblənsin, Allah və Onun hökmünə xatir heç kimə rəhm etməsin, beytül-maldan (ümumi gəlirdən) pul istəyən qardaşının ovcuna odlu dəmir qoysun. Cəmiyyətdə belə bir şəxs – mövqeyində qəti, diqqətcil, islami hökm və tədbirlərin icrasında ehtiyata əməl edən varmı? Bir nəfər də onun qarşı tərəfindədir; gününü eyş-işrət, rifah və rahatlıqla keçirmək istəyir, bir şərt müqabilində ondan nə istəsən, sənə verəcək; o da budur ki, Əliyə yox, mənə kömək et və mənim səndən istəyim elə də böyük istək və kömək deyil, bəzən məni təriflə, elə bu qədər kifayət edər! Sizi Allaha and verirəm, indiki zamanda siz bu iki nəfərdən hansına müsbət cavab verərsiniz? Tarixin bu çağında onlardan hansı birini qəbul edərsiniz? Əlbir və birgə olduğun, əmrinə baş əydiyin şəxs sənə problem, baş ağrı, məsuliyyət, zəhmət olacaqsa, onunla birgə olarsanmı? İnsan ona pul, məqam, rahatlıq, ad-san və nüfuz qazandıran qüdrət sahibindən üz

1. "Səff" surəsi, ayə 2-3.

çevirməyə razılıq verərmi? Əgər üz çevirməyə razılıq verərsənsə, xoş olsun sənin halına! Əgər sən Əlinin (ə) zamanında da olsaydın, Əli şiəsi olardın. Yox, əgər qəlbinin rahatlıq, naz-nemət, eyş-işrət, pul, məqam, abır-həya, özünügöstərmə və özünüöymək üçün döyündüyünü görsən, bil ki, elə o dövrün məqbul (və mötəbər) simaları tək Şama tərəf üz tutacaq və Əlini (ə) tək-tənha qoyacaqdın.

Həm Peyğəmbəri-Əkrəmin (s), həm də Əmirəlmöminin Əlinin (ə) əmisi oğlu, çoxlu sayda hədislərin ravisi, Quran müfəssiri, şiə və sünninin qəbul etdiyi məşhur sima Abdullah ibn Abbas Əmirəlmöminin Əlini (ə) tərk etdi, tək qoydu. O Həzrət "Nəhcül-bəlağə"də ona iki məktub ünvanlayır. Axı, Abdullah ibn Abbas kim idi? Necə oldu ki, Peyğəmbərdən (s) dörd-beş hədis nəql etməklə hamı – şiə və sünnilər tərəfindən məqbul simaya çevrildi? Halbuki, Peyğəmbərin (s) səhabəsi belə deyildi, tabein zümrəsindən hesab edilirdi, Peyğəmbəri görməmişdi və o Həzrət vəfat edərkən hələ uşaq idi. Amma Salman, Əbuzər və Əmmar Yasir kimi hamı tərəfindən qəbul edilirdi. Mən tarixi bir qədər mütaliə etdikdə, Abdullah ibn Abbasın ikinci xəlifənin ətrafında və ona yaxın insanlar içərisində olduğunu gördüm. O, ikinci xəlifəyə böyük məhəbbət bəsləyirdi. Peyğəmbərin (s) dövrünü görməyən, tabein zümrəsindən sayılan bir şəxsin həm şiə, həm də sünnilər tərəfindən qəbul olunduğu təəccüb doğurur! Belə bir şəxs maraqlı və qəribə bir şəxs olmalıdır! İslam cəmiyyətində belələrinə – şiə və sünnidən ibarət bir-birinə müxalif iki dəstə tərəfindən qəbul edilənlərə nə deyilir? O, Bəsrənin hakimi olduğu halda, beytül-maldan olan pulları götürüb qaçdı. Hara qaçdı? Məkkəyə – Allahın əmin-amanlıq evinə! Pulları fəqir-füqəraya xərcləmək üçünmü? Bəli, amma kəniz satan fəqirlərə verdi Və bir neçə gözəl kəniz aldı ki, onlarlala xoş güzəran keçirsin, eyş-işrətlə məşğul olsun.

Əgər Abdullah ibn Abbas bu gün bizim aramızda olsaydı, Əmirəmöminin Əli (ə) haqqında nə deyərdi? Əlinin (ə) fəziləti haqqında nəql olunmuş birincidərəcəli hədislər ona mənsubdur. O, Əlini (ə) xatırlayıb ağlayırdı. Əli (ə) ilə birgə olduğu üçün ondan xatirələr nəql edirdi. Lakin özümüzü zirək və tədbirli hesab edən bizlər onun şiə olduğunu qəbul edərdikmi? Şiə olan kəs imtahan zamanı özünü göstərməlidir:

عند الامتحان يُكرِمُ الرجل أو يهان

*"İmtahan zamanı insan ya əziz tutular, ya da xar olar."*[1]

فِي تَقَلُّبِ اَلْأَحْوَالِ عُلِم جَوَاهِرُ اَلرِّجَالِ

*"İnsanların həqiqəti vəziyyətin dəyişildiyi zaman bilinər."*[2]

Əgər sən Əli şiəsi olsaydın, onu o qədər incitməzdin, onun nalə səsini o qədər ucaltmazdın! Abdullah ibn Abbasın qaçıb Müaviyəyə qoşulması ilə Əlinin (ə) ah-naləsi ucaldı. Axı, qohumlarım içərisindən mənə ən yaxın sən idin, sənə ümid bəsləyir və güvənirdim. Belə bir şəraitdə əmin oğlunu yalqız buraxıb getdinmi? Əli (ə) bu məktubu Abdullaha xitabən yazmışdır. Lakin Abbasilər xilafəti dövründə yaşayan Mərhum Seyid Rəzi ya qorxduğu, ya da xəcalət çəkdiyi üçün "Nəhcül-bəlağə"də məktubun Abdullah ibn Abbasa deyil, hakimlərdən birinə ünvanlandığını qeyd edir:

مِن كِتابٍ لَهُ اِلي بَعضِ عُمّالِهِ

"O Həzrətin bəzi hakimlərinə yazdığı məktub."

Seyid Rəzi onun kim olduğunu qeyd etmir. Lakin məktubu oxuduqda, onun Abdullah ibn Abbas olduğu aydın bilinir. Bununla yanaşı, "Nəhcül-bəlağə"dən başqa, digər mənbələrdə onun Abdullah ibn Abbasa aid olduğu nəql olunur və ona xitabən deyilir ki, sən əmin oğlunu tək-tənha qoydun və filan işlərə əl atdın...

Bəli, nübuvvətə etiqadın öhdəlikləri budur: Peyğəmbərin ardınca getmək, onun göstərişlərini qəbul etmək və onun istədiyi kimi əməl etmək. Vaxt azlığını nəzərə alıb ayələrin bir qismini oxumaq və İslamın öhdəliklərinin nədən ibarət olduğunu qeyd etməklə kifayətlənirəm:

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ

***"İman gətirib hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər..."***[3]

Bu ayənin Peyğəmbəri-Əkrəmin (s) zamanına aid olmasına baxmayaraq, başqa zamanlara aid olmadığını deyə bilmərik. Bu hökm ümumi xarakter daşıyır, lakin Peyğəmbəri-Əkrəmin (s) zamanında deyilmişdir və ayədə qeyd edilən hicrət (İslam diyarına köç etmək) məsələsi də həmin zamana aiddir. O zaman bəziləri müsəlman olsa da, Peyğəmbəri-Əkrəmin (s) təfəkkür tərzini qəbul etsə də Məkkədən çıxmaq istəmirdi və bəziləri belə düşünürdülər: "Nə üçün çıxmalıyam,

1. "Əl-İmam Əli – sovtul-ədalətil-insaniyyə."
2. "Qurərul-hikəm", 52-ci fəsil, hədis 7.
3. "Ənfal" surəsi, ayə 72-74.

mənim Məkkədə iki-üç dükanım vardır, tanınmış və ziyalı müştərilərim, qohum-əqrəbam və dost-tanışım var, bunları necə tərk edib Peyğəmbərin (s) yanına gedə bilərəm? Axı necə? Ona iman gətirməkdirsə, iman gətirmişəm, bunu yüz dəfə də deyirəm, həm qəlbimdə, həm də dilimdə, hətta yavaşca da deyirəm ki, heç kim eşitməsin: Allah birdir, Peyğəmbər haqdır, Peyğəmbər məndən namaz qılmağımı istəyir və mən namaz qılıram, məndən oruc istəyir, otuz gün əvəzinə altmış gün tuturam. Daha Mədinəyə nə üçün getməliyəm?" O zaman hicrət lazım idi, İslam cəmiyyəti yeni qurulmuşdu, mütləq köç etməli, güclənməli və həmin cəmiyyət düşmənlər müqabilində möhkəm qalaya çevrilməli idi. Odur ki, hicrət imanın qəti şərtlərindən idi.

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ
أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ

***"İman gətirib (Mədinəyə) hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər və (mühacirlərə) sığınacaq verib kömək edənlər (ənsar) – məhz onlar – bir-birinin dostudurlar (cəbhə yoldaşıdırlar)."***

Onlar mömindirlər və bir-birini birləşdirən kərpiclərə bənzəyirlər. Bir binanı nəzərdən keçirin. Həmin binada kərpiclər və taxtalar bir-birinin içinə keçmiş, binanın bütün avadanlıqları bir-birilə sıx bağlanmışdır. İslam cəmiyyətində möminlər də eynilə belədirlər; bir-birinə düyünlənmiş və bir-birilə sıx əlaqədə idilər. Ayədə qeyd olunan "əvliya" sözünün mənası da elə budur, yəni "tam bağlılıq" və "bir-birinə yapışmış" mənasını ifadə edir. Vilayətin mənası budur.

أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ

***"Onlar bir-birinin dostudurlar (cəbhə yoldaşlarıdırlar)."***

Ayənin bu hissəsinə isə diqqətlə qulaq asın:

وَالَّذِينَ آمَنُواْ وَلَمْ يُهَاجِرُواْ مَا لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ حَتَّى يُهَاجِرُواْ

***"İman gətirən (və qəlbində səni peyğəmbər olaraq qəbul edən), lakin hicrət etməyənlər (və imanın məsuliyyətini çiyinlərində daşımayanlar), onların hicrət etməyənə qədər sizinlə heç bir şeydə bağlılıqları (və əlaqələri) yoxdur."***

Onlar hicrət etməyincə, sizə ögeydir və sizinlə onlar arasında islami bağlılıq və qardaşlıqdan söz gedə bilməz.

Lakin burada bir hökm qüvvəyə minir, o da budur ki, hicrət etməyib öz şəhərlərində qalanlarla başqa zümrələr arasında döyüş baş verdikdə,

sizdən yardım istəsələr, siz də mütləq onlara yardım etməlisiniz. Çünki sizinlə eyni fikirdə olduqları üçün (hücuma məruz qalıb) döyüşürlər. Əgər bir müsəlman kafirlərlə döyüşürsə, sizdən və vətəninizdən uzaq olsa da, sizinlə birlikdə hicrət etməsə də, gedib ona kömək etmək sizə vacibdir. Əlbəttə, bunun da bir istisna halı vardır, o da budur ki, siz müsəlman şəxsin döyüşdüyü tərəflə sülh sazişi bağlamış olasınız, bu zaman həmin müsəlmana kömək etmək sizə vacib deyil. Ayənin bu hissəsi bizə nəyi başa salmaq istəyir? Əvvəla, bizə başa salmaq istəyir ki, müsəlman şəxsə kömək etmək dünyanın hər hansı bir nöqtəsində olsa da vacibdir, hətta hicrət etməsə belə. İkincisi, hicrət etməyən (İslam cəmiyyətinin təşkili üçün köç etməyən) və küfr diyarında qalan həmin müsəlman şəxs sizin sülh sazişi bağladığınız kafir dəstəsi ilə döyüşərsə, ona kömək etməyə haqqınız yoxdur. Nə üçün? Çünki sizinlə birgə hicrət etməyib və sizin qardaşınız deyildir.

وَإِنِ اسْتَنصَرُوكُمْ فِي الدِّينِ فَعَلَيْكُمُ النَّصْرُ إِلاَّ عَلَى قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ

***“Əgər onlar din yolunda (kafirlərə qarşı) sizdən kömək istəsələr, aranızda saziş olan bir tayfa əleyhinə yardım istisna olmaqla, onlara kömək göstərmək sizə vacibdir.”***

وَاللّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

***“Allah nə etdiklərinizi görəndir!”***

وَالَّذينَ كَفَرُواْ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ

***“Kafirlər də bir-birinin dostlarıdırlar.”*** Kafirlərin iki fərqli ordu sıralarında olmalarına baxma, sizinlə düşmənçilikdə əlbir və eyni cəbhədədirlər.

إِلاَّ تَفْعَلُوهُ تَكُن فِتْنَةٌ فِي الأَرْضِ وَفَسَادٌ كَبِيرٌ

***“Əgər siz bunları etməsəniz, yer üzündə böyük bir fitnə-fəsad olar.”*** Bəlkə də məqsəd odur ki, əgər sıralar və cəbhələr ayrılmazsa, sizin hansı cəbhə ilə döyüşdüyünüz və hansı cəbhənin üzvü, dost və yaxud düşmən tərəfində olduğunuz bilinməzsə, yer üzündə fitnə-fəsad baş verər, dindən ayrılıq fitnəsi yaranar və cəmiyyətə ilahi qanunlar hakim olmaz. (Bu, bir ehtimaldır.)

Qeyd etdiyimiz mətləblərə şahid olaraq bu ayəyə də diqqət yetirin ki, çox maraqlıdır:

وَالَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُولَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا

***“İman gətirib (Məkkədən Mədinəyə) hicrət edənlər, Allah yolunda***

***cihad edənlər və sığınacaq verib kömək edənlər – məhz onlar – həqiqi möminlərdir.”***

Diqqət yetirdinizmi? Həqiqi möminlər bunlardır! İman gətirən, lakin hicrət və cihad etməyən, sığınacaq verməyən və kömək etməyənlər necə? Onlar həqiqi möminlər deyil, yalançı möminlərdir. Ayədən başa düşülən bunlardır.

Bir ayə də “Ali-İmran” surəsindən[1] oxumaq istəyirəm. Məqsədimiz tamamilə aydınlaşsın deyə, azacıq şərh də edəcəyəm:

وَإِذْ أَخَذَ اللّهُ مِيثَاقَ النَّبِيِّيْنَ لَمَا آتَيْتُكُم مِّن كِتَابٍ وَحِكْمَةٍ ثُمَّ جَاءكُمْ رَسُولٌ مُّصَدِّقٌ لِّمَا مَعَكُمْ لَتُؤْمِنُنَّ بِهِ وَلَتَنصُرُنَّهُ قَالَ أَأَقْرَرْتُمْ وَأَخَذْتُمْ عَلَى ذَلِكُمْ إِصْرِي قَالُواْ أَقْرَرْنَا قَالَ فَاشْهَدُواْ وَأَنَاْ مَعَكُم مِّنَ الشَّاهِدِينَ

***“O vaxtı yadınıza salın ki, Allah peyğəmbərlərdən: “Sizə verdiyim kitab və hikmətdən sonra, sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz”, – deyə əhd almış və onlara: “Bunu təsdiq edib, ağır olan əhdimi qəbul etdinizmi? – buyurmuşdu. Onlar da: “Təsdiq etdik!” – deyə cavab vermişdilər. (Bu zaman) Allah: “Elə isə (bir-birinizə) şahid olun! Mən də sizinlə bərabər şahidlərdənəm” – deyə buyurmuşdu!”***

Ayədə buyurulur ki, Biz keçmiş peyğəmbərlərdən, misal üçün, Həzrət Musadan (ə) əhd-peyman aldıq və ona dedik ki, sənə verdiklərimi səndən sonra gələn peyğəmbər təsdiqləyərsə, ona iman gətirmək və yardım etmək sənə vacibdir. Yəni, keçmiş peyğəmbər özündən sonra gələcək peyğəmbəri təsdiqləməli, ona iman gətirməli, bunlardan əlavə, ona yardım da etməlidir.

Peyğəmbərə necə yardım etməlidir? Peyğəmbərə yardımın mənası nədir? Mənası odur ki, öz ümməti və dostlarına belə tövsiyə etməlidir: Bu əlamətlərə sahib olan bir peyğəmbər gəldikdə, (mütləq onun yanında olmalısınız və) məbada, onunla müxalifətçilik edəsiniz.

Allah həmin peyğəmbərlərə buyurmuşdu: ***“Bunu təsdiq etdinizmi? Mənim əhdimi qəbul etdinizmi?*** Sizdən əhd-peyman alıram ki, özünüzdən sonrakı peyğəmbərlərə də iman gətirəsiniz, həm də bu əhd-peymanı Qiyamət gününə qədər öz ümmətinizdən də almalısınız. Yəni, indiki yəhudilər Həzrət Musa ibn İmranla bağladıqları əhd-peymana görə sorğu-suala tutulacaqlar. İndi də Həzrət Musa (ə), sanki onlara deyir ki, ey narmərdlər, məgər sizdən əhd-peyman almadımmı ki, əbədi olaraq

---

1. “Ali-İmran” surəsi, ayə 81.

mənə iman gətirən hər bir kəs son Peyğəmbərə də iman gətirməli və ona yardım etməlidir?! Axı, Həzrət Musa (ə) özü də son Peyğəmbərə (s) iman gətirmişdi!

## Xülasə

## Cümə axşamı – Ramazan ayının 23-cü günü

# NÜBUVVƏTƏ İMANIN ÖHDƏLİKLƏRİ

Nübuvvət bəhsinin sonunda əməli bir məsələyə işarə olunur; belə ki, nübuvvətin fəlsəfəsi, həqiqət və mənasına diqqət yetirdikdə, peyğəmbərin dəvəti ilə bərabər onun öhdəliklərinin qəbulu da zəruri və qaçılmazdır. Yəni, peyğəmbərin dəvətini qəbul edən şəxs onun addım atdığı yolu izləməli, öhdəsinə götürdüyü məsuliyyətin icrasında ona yardımçı olmalıdır. Bu isə, həqiqətdə, onun peyğəmbərə olan imanına bir nişanədir.

Nübuvvət yeni təfəkkür dairəsi formalaşdırır, yeni yol və yeni hədəf göstərir. Bu təfəkkürü qəbul edən, həmin hədəfi izləyən və həmin yolu ötüb-keçən şəxs "mömin" adlanır. Müxalif olmaq üçün dildə müxalifət etməyə ehtiyac yoxdur, elə onunla birgə olmamaq kifayət edir. Peyğəmbərlə "onun müxalifləri" adlı iki cəbhənin ortasında dayanan şəxs də Peyğəmbərdən deyil və onunla birgə olmayan şəxs onun əleyhinədir. Bu həqiqət onlarla Quran ayəsində şübhəsiz bir məsələ kimi göstərilir:

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ – ***İman gətirib (Mədinəyə) hicrət edənlər,***

وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ – ***Allah yolunda malları və canları ilə cihad edənlər***

وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ – ***və sığınacaq verib kömək edənlər***

أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***məhz onlar bir-birinin dostudurlar (cəbhə yoldaşıdırlar).***

وَالَّذِينَ آمَنُواْ وَلَمْ يُهَاجِرُواْ مَا لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ حَتَّى يُهَاجِرُواْ – ***İman gətirən və hicrət etməyənlər isə, onların hicrət etməyənə qədər sizinlə heç bir***

***şeydə bağlılıqları (və əlaqələri) yoxdur.***

وَإِنِ اسْتَنصَرُوكُمْ فِي الدِّينِ فَعَلَيْكُمُ النَّصْرُ إِلاَّ عَلَى قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ – ***Əgər onlar din yolunda sizdən kömək istəsələr, aranızda saziş olan bir tayfa əleyhinə yardım istisna olmaqla, onlara kömək göstərmək sizə vacibdir.***

وَاللّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ – ***Allah nə etdiklərinizi görəndir!***

وَالَّذينَ كَفَرُواْ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***Kafirlər də bir-birinin dostlarıdırlar.***

إِلاَّ تَفْعَلُوهُ تَكُن فِتْنَةٌ فِي الأَرْضِ وَفَسَادٌ كَبِيرٌ – ***Əgər siz bunları etməsəniz, yer üzündə böyük bir fitnə-fəsad olar.***

وَالَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ – ***İman gətirib (Məkkədən Mədinəyə) hicrət edənlər, Allah yolunda cihad edənlər***

وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُولَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا – ***və sığınacaq verib kömək edənlər – məhz onlar – həqiqi möminlərdir.***

لَّهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ – ***Onlar üçün bağışlanma və böyük ruzi vardır!***

وَالَّذِينَ آمَنُواْ مِن بَعْدُ وَهَاجَرُواْ وَجَاهَدُواْ مَعَكُمْ فَأُوْلَـئِكَ مِنكُمْ – ***Sonradan (sizdən sonra) iman gətirib hicrət edənlər və sizinlə bərabər cihad edənlər də sizdən (və sizinlə)dirlər.***

("Ənfal" surəsi, ayə 72-75.)

وَإِذْ أَخَذَ اللّهُ مِيثَاقَ النَّبِيِّيْنَ – ***O vaxtı yadınıza salın ki, Allah peyğəmbərlərdən belə əhd almışdı:***

لَمَا آتَيْتُكُم مِّن كِتَابٍ وَحِكْمَةٍ ثُمَّ جَاءكُمْ رَسُولٌ مُّصَدِّقٌ لِّمَا مَعَكُمْ لَتُؤْمِنُنَّ بِهِ وَلَتَنصُرُنَّهُ – ***"Sizə verdiyim kitab və hikmətdən sonra, sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə, ona mütləq inanıb yardım edəcəksiniz."***

قَالَ أَأَقْرَرْتُمْ وَأَخَذْتُمْ عَلَى ذَلِكُمْ إِصْرِي – ***Onlara buyurmuşdu: "Bunu təsdiq edib, ağır olan əhdimi qəbul etdinizmi?***

قَالُواْ أَقْرَرْنَا – ***Onlar da belə cavab vermişdilər: "Təsdiq etdik!"***

قَالَ فَاشْهَدُواْ وَأَنَاْ مَعَكُم مِّنَ الشَّاهِدِينَ – ***(Bu zaman) Allah buyurmuşdu: "Elə isə (bir-birinizə) şahid olun! Mən də sizinlə bərabər şahidlərdənəm.***

فَمَن تَوَلَّى بَعْدَ ذَلِكَ فَأُوْلَـئِكَ هُمُ الْفَاسِقُونَ – ***Bundan (bu əhd-peymandan) sonra üz döndərən kəslər fasiqlərdir.***

("Ali-İmran" surəsi, ayə 81-82.)

مَثَلُ الَّذِينَ حُمِّلُوا التَّوْرَاةَ ثُمَّ لَمْ يَحْمِلُوهَا كَمَثَلِ الْحِمَارِ يَحْمِلُ أَسْفَارًا – ***Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona (onun öhdəliklərinə) əməl etməyənlər belində çoxlu kitab daşıyan ulağa bənzəyərlər.***

بِئْسَ مَثَلُ الْقَوْمِ الَّذِينَ كَذَّبُوا بِآيَاتِ اللَّهِ – ***Allahın ayələrini təkzib edənlər barədə çəkilən məsəl necə də pisdir!***

وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ – ***Allah zalım qövmü hidayət etməz!***

("Cümə" surəsi, ayə 5.)

# İYİRMİ ÜÇÜNCÜ MƏCLİS

## VİLAYƏT

Cümə günü – 1974/10/11
Ramazan ayının 24-ü.

بسم الله الرحمن الرحيم

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا عَدُوِّي وَعَدُوَّكُمْ أَوْلِيَاءِ تُلْقُونَ إِلَيْهِم بِالْمَوَدَّةِ وَقَدْ كَفَرُوا بِمَا جَاءكُم
مِّنَ الْحَقِّ يُخْرِجُونَ الرَّسُولَ وَإِيَّاكُمْ أَن تُؤْمِنُوا بِاللَّهِ رَبِّكُمْ إِن كُنتُمْ خَرَجْتُمْ جِهَادًا فِي سَبِيلِي
وَابْتِغَاء مَرْضَاتِي تُسِرُّونَ إِلَيْهِم بِالْمَوَدَّةِ وَأَنَا أَعْلَمُ بِمَا أَخْفَيْتُمْ وَمَا أَعْلَنتُمْ وَمَن يَفْعَلْهُ مِنكُمْ فَقَدْ
ضَلَّ سَوَاء السَّبِيلِ

***“Ey iman gətirənlər! Mənim düşmənimi və öz düşməninizi özünüzə vəli (qəyyum) tutmayın! Onlar (kafirlər) (Allah tərəfindən) sizə gələn haqqı inkar etdikləri halda, siz onlara dostluq mesajı ötürməyin. Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırdılar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa (onları özünüzə dost və köməkçi tutmayın). Siz onlarla gizlində dostluq edirsiniz. Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi bilirəm. Sizdən kim bunu etsə, o, şübhəsiz ki, haqq yoldan azmışdır!”***

“Mümtəhinə” surəsi, ayə 1.

Biz bu gün “vilayət” haqqında söz açacağıq. “Vilayət” məsələsinə biz qeyd etdiyimiz və Qurani-Kərimdən əldə etdiyimiz kimi, demək olar ki, çox az toxunulub. Əlbəttə, “vilayət” adı və sözü şiənin qulağına tanışdır. Bizim dualarımızda, Allahla raz-niyazlarımızda, rəvayətlərimizdə, ümumxalqın düşüncəsində “vilayət” adı həqiqi mənada müqəddəs və ehtirama layiqdir, arzu və istəklərin təminində ondan vasitə olaraq istifadə olunur. Biz şiə olaraq özümüzü həmişə vilayət sahibi bilmişik. Şiə olan hər kəs həmişə Allahdan onu vilayətlə yaşadıb vilayətlə öldürməsini və vilayəti anlamasını istəyir. Demək, şiə “vilayət” sözü ilə tanışdır. Mən öncə “vilayət” sözü və onun anlamı, sonra da Əli ibn Əbitalibin (ə) vilayəti haqqında fundamental şəkildə danışmaq istəyirəm. İlkin mərhələdə Qurani-Kərim ayələrinə müraciət və istinad etməliyik. Qurani-Kərim ayələrinə əsasən, vilayətin necə modern, mütərəqqi və maraqlı bir prinsip olduğunu, vilayətdən uzaq bir əqidə və düşüncəyə sahib olan hansısa bir millət və cəmiyyətin çaşğınlıqda olduğunu görəcək və dərk edəcəyik.

Bu bəhsin sayəsində “Nə üçün vilayətə sahib olmayanın namazı namaz, orucu oruc və ibadəti ibadət deyil?” – sualının cavabı aydınlaşacaq və başa düşüləcək ki, nə üçün vilayəti olmayan ümmət və cəmiyyət ömrü boyu namaz qılıb oruc tutsa da, bütün malını sədəqə versə də yenə Allahın lütf və məğfirətinə şamil olmayacaq. Bir sözlə, bu bəhsdə vilayət hədislərinin mənası anlaşılacaq. Həmin hədislərdən biri də budur və mən həmin hədisin bir qismini diqqətinizə çatdırıram:

لَوْ أَنَّ رَجُلًا قَامَ لَيْلَهُ وَصَامَ نَهَارَهُ وَتَصَدَّقَ بِجَمِيعِ مَالِهِ وَحَجَّ جَمِيعَ دَهْرِهِ وَلَمْ يَعْرِفْ وَلَايَةَ
وَلِيِّ اللَّهِ فَيُوَالِيَهُ وَيَكُونَ جَمِيعُ أَعْمَالِهِ بِدَلَالَتِهِ إِلَيْهِ مَا كَانَ لَهُ عَلَى اللَّهِ حَقٌّ فِي ثَوَابِهِ

*“Əgər insan gecələri (sübhə qədər) ibadətlə məşğul olarsa, (yalnız Ramazan ayı deyil,) bütün günləri oruc tutarsa, bütün malını (Allah*

*yolunda) sədəqə verərsə, ömrü boyu həccə gedərsə, lakin Allahın vəlisinin (yer üzündəki höccətinin) vilayətini tanımazsa, ona itaət etməzsə, bütün əməllərini onun göstərişi ilə yerinə yetirməzsə, onların savabı ilə bağlı Allahın üzərində heç bir haqq yoxdur (onlara savab verilməz, həmin işlərin faydası və səmərəsi olmaz).”*[1]

Vilayət məsələsi nübuvvət məsələsindən sonra gəlir və nübuvvət bəhsindən fərqli bir bəhs deyil. Vilayət məsələsi, həqiqətdə, nübuvvət bəhsinin tamamlayıcısıdır. Burada görəcəyik ki, əgər vilayət olmasa, nübuvvət də naqis qalacaq. Odur ki, nübuvvətlə bağlı ötən bəhslərin küliyyatına azacıq işarə etmək məcburiyyətindəyik. Bunu da qeyd etməliyik ki, bu məsələnin bəyanı olduqca çətin və ağırdır. Çünki vilayət bəhsi ilə bağlı insanların zehnləri elə zəif, süst və qeyri-məntiqi sözlərlə doldurulub ki, düz söz dedikdə, Quran və hədisə istinad etdikdə belə, iki iraddan biri ilə üzləşirsən: Ya zehnindəki mətləblə bağlı yanıldığını düşünürsən, ya da “vilayət” adı ilə qeyd olunan sözlərə qarşı özündə ögeylik hiss edirsən. Bu cəhətdən sözügedən bəhs çox çətindir. Amma Allah-Taalanın fəzlindən bu bəhsi iki-üç məclisdə yekunlaşdırmaq istəyirəm, inşallah! Siz də diqqətinizi artırın və bəhsin eyniliyindən bezməyin ki, mən də bəhsi kamil şəkildə sona yetirə bilim.

İlahi peyğəmbərlərin gəlişində məqsəd nədir? Qeyd etdiyimiz kimi, peyğəmbərlər insanı təkamülə yetirmək, ilahi əxlaqı aşılamaq və əxlaqi gözəllikləri tamamlamaq üçün gəlmişlər. Qeyd etdiklərimiz (Peyğəmbəri-Əkrəmin (s) buyurduğu) bu hədisin məzmununu təşkil edir:

إِنَّمَا بُعِثْتُ لِأُتَمِّمَ مَكَارِمَ الْأَخْلَاقِ

*“Həqiqətən, mən əxlaqi gözəllikləri tamamlamaq üçün göndərilmişəm.”*[2]

Peyğəmbər (s) insan adlı varlığa gözəllik bəxş etmək, onu tərbiyə və islah etmək üçün gəlmişdir.

Peyğəmbər (s) insanın islahında hansı yol və vasitələrdən istifadə edirdi? Hansı insanları islah edirdi? Məktəb təsis etdimi? Fəlsəfi bir məktəb açdımı? Qeyd etdik ki, xeyr! Peyğəmbər (s) insanı islah etmək üçün insan yetişdirən fabrik təsis etdi. O, on il, iyirmi il gec uğur və müvəffəqiyyət qazanmağa üstünlük versə də onun yetişdirdiyi insanın

1. “Əl-kafi”, “İman və küfr” başlığı, “İslamın sütunları” bölməsi, hədis 5.
2. “Biharul-ənvar”, “İman və küfr” başlığı, “Əxlaqi gözəlliklər – gözəl əxlaq” bölməsi, hədis 1.

sayı 10-15 nəfər deyil, kütləvi oldu. Onun təsis etdiyi insan yetişdirən fabrik peyğəmbər bəyənən tərzdə öz-özünə kamil insan təhvil verdi. Deməli, peyğəmbər insanları islah etmək və insan mayasına davamlılıq bağışlamaq üçün insan yetişdirən fabrikdən istifadə etmişdir.

İnsan yetişdirən fabrik nə deməkdir? İnsan yetişdirən fabrik dedikdə, İslam cəmiyyəti və sistemini nəzərdə tuturuq. Bu da bizim sözümüzün ən əsas məqamını təşkil edir. Hamı Peyğəmbərin (s) insan yetişdirdiyi və təlim-tərbiyə vermək üçün gəldiyini deyir və hamı da bunu başa düşür. Lakin başa düşüləsi və diqqət yetiriləsi məsələ odur ki, Peyğəmbər (s) insanları bir-bir xəlvətə çəkərək islah etmir, onun qulağına ilahi sevgini zümzümə etmir. Peyğəmbər (s) elmi-fəlsəfi məktəb təsis etmir ki, bir dəstə şagird yetişdirib insanlara təbliğat aparmaq və onları hidayət etmək üçün başqa məntəqələrə ezam etsin. Peyğəmbərin işi və missiyası daha da möhkəm, daha da köklü, daha da əsaslıdır. O, nə edir? O, bir fabrik təsis edir və orada yalnız insan yetişdirilir. Həmin fabrik "İslam cəmiyyəti" adlanır.

İslam cəmiyyəti nədir? Onun mahiyyəti və strukturu necədir? Bunlar başqa məsələlərdir. Amma bunun da bir qədər aydınlaşması üçün müəyyən mətləblərə toxunmalıyam. Onu da qeyd edim ki, bəhsimizin gedişatında qeyri-mütənasib mətləb yoxdur. Allahın hakim olduğu, Onun qanunları və hökmlərinin icra olunduğu, vəzifədən azad etmə və vəzifəyə təyin etmələrin Allah tərəfindən baş verdiyi cəmiyyətə "İslam cəmiyyət"i deyilir. Sosial konusun (bəzi sosioloqların qeyd etdiyi kimi, onu konus olaraq fərz etdikdə,) başında Allah, Ondan aşağıda isə insanlıq və bütün insanlar dayanır. Təşkilatı Allahın dini formalaşdırır, sülh və müharibə meyarlarını ilahi qanunlar tənzimləyir, ictimai və iqtisadi əlaqələri, hökumət və hüquq parametrlərini bütünlüklə ilahi din təyin və bütün qanunları Allahın dini icra edir. İslam cəmiyyəti budur!

Buna misal çəkə bilərikmi? Bəli! Mədinə bunun bir nümunəsidir. Peyğəmbəri-Əkrəm (s) Mədinəyə hicrət etdikdən sonra İslam cəmiyyəti təşkil etdi. O Həzrət və müsəlmanlar Məkkədə ikən ayrı-ayrı şəhərlərə köç edib Allaha ibadətlə məşğul ola bilərdilər, lakin bu kifayət etmirdi. Mədinəyə gəlib cəmiyyət qurdular və onun başında ilahi hökumət dayandı. Allah tərəfindən hökmranlıq edən kim idi? Peyğəmbər! Qanunları kim tənzimləyir və çıxarırdı? Peyğəmbər! Qanunları kim icra edirdi? İnsanları həmin qanunlara riayət etməyə kim dəvət edirdi?

Peyğəmbər!

Hər bir şeyin Allah tərəfindən olduğu bu cəmiyyətdə camaat namazı və camaat namazından sonra söylənilən xütbə ilə döyüş marşı eyni idi. Peyğəmbərin (s) məsciddə camaat namazı qıldığı, minbərə çıxıb xütbə söylədiyi, tədris etdiyi, təlim-tərbiyə ilə məşğul olduğu yerdə cihad bayrağını qaldırıb Zeyd ibn Üsaməyə[1] verərək deyirdi: انْطَلِقُوا عَلَى اسْمِ اللَّهِ – "Allahın adı ilə hərəkət edin. Düşmənlə filan məntəqədə rastlaşmalı və filan-filan işləri yerinə yetirməlisiniz." Peyğəmbər (s) cəza tədbirlərini elə həmin məsciddə icra edir, elə həmin məsciddə məhkəmə qurur, hökm oxuyur, işləri idarə edir və iqtisadi problemləri aradan qaldırırdı. Elə həmin məsciddə zəkat yığıb paylayır, həm tədris edir, həm namaz qılıb raz-niyaz edir, həm də döyüş əmri verirdi. Bir sözlə, dünya və axirətlə bağlı hər bir məsələ Peyğəmbərin (s) rəhbərliyi ilə Allah evində öz həllini tapırdı. İslam cəmiyyəti budur!

Peyğəmbərlər belə cəmiyyətin təşkili üçün gəlmişlər. Bu cəmiyyətə qədəm qoyan hər bir şəxs insan olur (insanlıq məqamına yüksəlir), hamı kamil insan olmasa da insanların rəftarlarına uyğun hərəkət etmək məcbiriyyətində qalır. Yaxşı insan olmaq istəyən şəxs peyğəmbərin təşkil etdiyi cəmiyyətdə yaxşı ola bilər. Qeyri-ilahi cəmiyyətlər isə belə deyildir.

Qeyri-islami və qeyri-ilahi cəmiyyətlərdə insanlar yaxşı olmaq istəsələr də ola bilmirlər. Siz dindar olmaq istəyirsiniz, lakin ola bilmirsiniz, sələm vermək və sələm yemək istəmirsiniz, amma görürsünüz ki, mümkün deyil. Qadın islami iffətdən çıxmaq istəmir, lakin ətraf mühit onu təzyiq altında saxlayır. Bütün amillər və stimullar insanı Allahı yad etməkdən uzaqlaşdırır. Filmlər, şəkillər, əlaqələr, gediş-gəlişlər, alış-verişlər, danışıqlar – bütünlüklə hər bir şey insanı Allahdan uzaqlaşdırır, Allah zikrini insanın qəlbində yadlaşdırır. İslam sistemində isə tamamilə bunun əksi baş verir. İslam sisteminin bazarı, məscidi, hakim dairələri, dostu, qohumu, valideyni, qocası və gənci – hamılıqla

---

1. Zeyd ibn Harisənin oğlu Üsamə Peyğəmbərin (s) vasitəsilə azad olmuş bir qul idi. Peyğəmbər (s) "Vida" həccindən qayıtdıqdan sonra onu gənc yaşlarında rumlularla döyüşmək üçün müsəlman ordusuna sərkərdə təyin etdi. Əmirəlmöminin Əlinin (ə) zamanında o Həzrətlə beyət etsə də, o Həzrətin döyüşlərində iştirak etmədi. Ömrünün sonunda isə bu işinə görə peşman oldu. İmam Baqirdən (ə) nəql olunan bir hədisdə tövsiyə olunur ki, onun haqqında yalnız yaxşı söz danışılsın.

insana Allahı xatırladır, onu Allaha doğru çəkir, Allahla barışdırır, Allaha bəndə edir, Allahdan qeyrisinə bəndəçilikdən uzaqlaşdırır və onun Allahla rabitəsini möhkəmlədir. Əgər Peyğəmbərin (s) təsis etdiyi İslam cəmiyyəti elə o Həzrətin öz rəhbərliyi əlli il davam etsəydi və yaxud ondan sonra Əli ibn Əbitalib (ə) Peyğəmbərin (s) müəyyən etdiyi rəhbərliklə o Həzrətin yerində əyləşsəydi, əmin olun ki, əlli ildən sonra münafiqlərin hamısı həqiqi mömin olacaqdılar. Nəbəvi və Ələvi hökumətinin bir-birinin ardınca gəlişinə imkan versəydilər, o insan yetişdirən sistem, şübhəsiz, bütün qüsurlu insanları qüsursuz hala gətirəcəkdi, münafiqlərin qəlblərini dəyişdirib iman nuru ilə dolduracaqdı, ruhu imanla tanış olmayanları Allahla tanış edəcək və "mömin" adına layiq görəcəkdi. Bu isə İslam quruluşunun səciyyəvi xüsusiyyətidir.

Peyğəmbərlər belə bir sistemin təşkili üçün gəlmişlər. Belə bir sistem təşkil olduqda, insan yetişdirən fabrik tək insanlar İslamı bir-bir, on-on, yüz-yüz yox, kütləvi şəkildə, dəstə-dəstə qəbul etməli olurlar; həm zahirən müsəlmançılığı qəbul edir və zahirdə islami qanunlar icra olunur, həm də həqiqi mənada qəlbən müsəlman və mömin olurlar. Deməli, peyğəmbərin gəlişində məqsəd budur.

Qeyd etdiyimiz kimi, vilayəti əsaslı-köklü şəkildə araşdırmaq istəyirik. İslami təfəkkürü gətirən və İslama dəvət edən Peyğəmbər (s) təklikdə cəmiyyəti idarə edə bilərmi? Bu təşkilatı idarə edən zümrələrə ehtiyac yoxdurmu? Bu cəmiyyəti müdafiə edən və onun düşmənlərini öz yerində oturdan əsgərlərə ehtiyac yoxdurmu? Peyğəmbərə (s) yardım və onun dəvətini təbliğ edənlərə ehtiyac yoxdurmu? Aydındır ki, ehtiyac vardır və bütün işlər adi qaydada yerinə yetirilməlidir. Peyğəmbərlər fəaliyyətlərinin böyük bir qismində adi səbəblərdən istifadə etmişlər. Peyğəmbər zühur edib nəzərdə tutduğu cəmiyyətin – insan yetişdirən fabrikin təsisi üçün vahid, mütəşəkkil, möhkəm iman sahibi, onun məktəbinə dərindən etiqad bəsləyən, qəlbən inanan, möhkəm, yorulmaz və iradəli addımlarla irəliləyən bir topluma etiyac duyur. İşin başlanğıcında Peyğəmbərin belə bir topluma ehtiyacı zəruridir. Elə buna görə də, Peyğəmbər Quran ayələri və gözəl moizə ilə belə bir toplumu formalaşdırmağa başlayır:

ادْعُ إِلى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ

"***(Ey Peyğəmbər!) İnsanları hikmətlə və gözəl moizə ilə Rəbbinin***

***yoluna dəvət et!...”*[1]**

İşin başlanğıcında Quran ayələri, gözəl öyüd-nəsihət, tutarlı peyğəmbər kəlamı ilə müsəlman qəlbləri öz ətrafında birləşdirir və mütəşəkkil bir cəmiyyət təşkil edir. Deməк, Peyğəmbər missiyasının icrasına başladığı ilk günlərdə küfr cəbhəsi müqabilində bir cəbhə yaradır. Bu cəbhənin üzvləri kimlərdir? Etiqadı möhkəm olan və qəlbən inanan müsəlmanlar – o kəslər ki: لَا تَأْخُذُهُمْ فِي اللَّه لَوْمَةُ لَائِمٍ – *“Heç bir qınayanın qınağı onları Allah yolundan döndərə bilmir.”*[2] Onlar birinci dəstənin müsəlmanları idilər.

Bu dəstə hansı cəmiyyətdə yaşayırdı? Cahil cəmiyyətdə. Misal üçün, İslamın ilkin müsəlmanları cahil Məkkə cəmiyyəti arasında yaşayırdılar. “İslam” və “müsəlmanlar” adı ilə baş qaldıran bu kiçik cərəyan və cəbhə o cahil, inadkar və qəddar cəmiyyət içərisində yaşamaq, eyni zamanda məhv olmamaq və aradan getməmək istəyirsə, mütləq qızmar şəkildə döyəclənən və şəkilləndirilən polad tək bir-birindən elə yapışmalıdır ki, heç bir amil onları bir-birindən ayıra bilməsin; mütləq mütəşəkkil qanun ətrafında birləşməli, bir-birindən möhkəm yapışdıqca, digər müxalif cəbhə və cərəyanlardan uzaqlaşmalıdır. Çünki azlıq təşkil edirlər. Azlıqda olan cəmiyyətin düşüncəsi, əməl və rəftarları, heysiyyət və şəxsiyyətləri çoxluq təşkil edən müxalif cəmiyyətin düşüncəsindən, əməl və rəftarlarından, heysiyyət və şəxsiyyətlərindən təsirlənib aradan qalxa bilər. Təsirlənməmək, sıradan çıxmamaq və gələcəkdə öz möhkəm əlləri ilə İslam quruluşu və islami idarəçilik sistemi qurmaq üçün cəmiyyət tək yaşayıb formalaşmalıdır. Bu cəmiyyətə Peyğəmbərin (s) səhabələri və dostları deyilir ki, birgə yaşayıb-yarada bilsinlər, bir-birilə əlaqələrini daha da möhkəmlətsinlər, bir-birinin ətrafında daha da birləşsinlər, digər cəbhələrdən daha da uzaqlaşsınlar. Buna kimləri misal çəkmək olar? Çətin yolları ötüb keçən alpinistləri buna misal çəkmək olar. On nəfər alpinist əllərində əsa, qarlı dağları, təhlükəli və dolanbac cığırları qət edib dağın qülləsinə çatmalıdır. Onlara tövsiyə olunur ki, kəmərlərini kəndir vasitəsilə bir-birinə bağlasın, ayrı-ayrı, bir-bir hərəkət etməsinlər. Bu yolda tək-tənha hərəkət etmək süqut ehtimalını artırır. Elə buna görə də, zirvəyə qalxarkən bir-birinə möhkəm bağlanır, eyni zamanda özləri ilə ağır yük götürməmələri, o tərəf-bu tərəfə baxmamaları və diqqətlə

---

1. “Nəhl” surəsi, ayə 125.
2. “Nəhcül-bəlağə”, Sübhi Saleh, xütbə 192, məşhur “Qasiə” xütbəsi.

yollarına davam etmələri tövsiyə olunur. Onlar bir-birinə ona görə bağlanırlar ki, əgər onlardan biri və yaxud ikisi sürüşdükdə, qalanları onları saxlaya bilsinlər. Alpinistlər bir-birinə möhkəm bağlandıqları kimi, ilkin müsəlmanlar da bir-birinə möhkəm bağlanmışdırlar. Bu bağlılığın adı varmı? Quran ayələri və hədislərdə dinin başlanğıcında yaranmış müsəlman cəbhəsinin bir-birilə bağlılığı, digər cəbhələrlə əlaqələrinin qırılması və öz aralarında sıx əlaqədə olmasının adı göstərilirmi? Bəli, onun adı “vilayət”dir.

Əlin ibn Əbitalibin vilayətinin və وَلَايَةُ عَلِيِّ بْنِ أَبِى طَالِبٍ حِصْنِى – *“Əli ibn Əbitalibin vilayəti Mənim qalamdır”*[1] – ifadəsinin araşdırlmasına hələ çox qalır. Diqqətlə qulaq asın.

Qurani-Kərimin ilk terminində vilayətin mənası nədir? Qurani-Kərimin ilk terminində “vilayət” “bir-birinə bağlılıq”, “bir cəbhədə olmaq”, “vahid təfəkkür və hədəfə sahib olan bir zümrənin möhkəm əlaqəsi”, “eyni yolda hərəkət etməsi”, “eyni məqsədi izləməsi” və “eyni əqidəyə sahib olması” mənasını ifadə edir. Bu cəbhənin üzvləri bir-birilə əlaqə və vəhdətini möhkəmlətməli, digər cəbhə və qüvvələrdən kənarlaşmalıdırlar. Nə üçün? Çünki məhv olub aradan getməsinlər. Qurani-Kərimdə buna “vilayət” deyilir.

Peyğəmbər (s) ilkin müsəlmanlar arasında bu bağlılıq və birliyi yaratdı, onları bir-birinə birləşdirdi, bir-birilə qardaş etdi, onları vahid bir bədənə çevirdi, onların vasitəsilə İslam ümməti və cəmiyyətini formalaşdırdı. İnşaallah, qeyd edəcəyimiz ayələrdə görəcəyik ki, bu birlik onların düşmənlərə, müxalif cəbhələrə qoşulmasına maneçilik törədir, onlarla yəhudi, xaçpərəst və müşrik qüvvələri arasında ayrılıq salır. Peyğəmbər (s) onların arasındakı əlaqə və birliyi daha da möhkəmlətmək üçün çalışırdı. Nə üçün? Çünki onlar bir olmasaydılar, vilayət kəndirinə bağlanmasaydılar, bir-birinə bağlılıqları möhkəm olmasaydı, aralarında ixtilaf düşsəydi, çiyinlərinə götürdükləri əmanət yükünü məqsədə və mənzil başına çatdırmaqdan aciz qalacaqdırlar.

Əlbəttə, İslam ümməti sonralar böyük ümmətə çevrilsə də yenə vilayətə ehtiyacı vardır. “İslam ümmətinin vilayətə necə və nə üçün ehtiyacı vardır?” – sualının cavabına gəldikdə, diqqətinizi şiənin etiqad bəslədiyi “vilayət” ifadəsinə yönəltmək istəyirəm. Qeyd etdik ki, kiçik bir dəstə qaranlıq və cahil dünyada yaşamaq üçün birləşməli və bir-birilə

---

1. “Üyunu əxbarir-Riza (ə)”, “İmam Rzadan (ə) nadir xəbərlər” bölməsi, hədis 1.

sıx əlaqədə olmalıdır. Əks-təqdirdə, onların yaşaması və həyatlarına davam etməsi qeyri-mümkündür. Buna Məkkədə cahil cəmiyyət arasında yaşayan və yaxud Mədinəyə köç edən ilkin müsəlman toplusunu misal çəkdik.

Başqa misallar da çəkmək olarmı? Bəli! İslamın başlanğıc tarixində İslam və şiəçiliyə zidd xilafət dövründə şiənin asanlıqla yaşadığını təsəvvür edirsinizmi? Elə güman edirsiniz ki, bir tərəfdən təbliğat vasitələri, bir tərəfdən boğunuq siyasi durum, bir tərəfdən də həbslər, işgəncələr və qətllər bir toplumun yaşamasına icazə verərdimi? Şiə kimi bir cərəyan necə oldu ki, öz zəmanəsinin inadkar və qəddar qüdrətlərinin əlində sağ qaldı? Onları vilayət yaşatdı. İmamlar (ə) xəlifələr zamanı şiə arasında qəribə bağlılıq yaratmışdı və bu vilayət (və bağlılıq) sayəsində şiə cərəyanını müxtəlif cərəyanlar arasında qoruyub-saxlaya bildilər.

Siz bir neçə tərəfdən su ilə qovuşan böyük bir çayı nəzərdən keçirin. Belə ki, sular sürətli axınlarla hərəkət edir. Çayın səviyyəsi qeyri-bərabərdir. Burulğan yaranır, sular üs-üstə yuvarlanır. Çayda əks cərəyanlar baş verir, sular bir-birinə hücum çəkir, bir-birini zərərsizləşdirir, bir-birinin üstünə tökülürlər. Amma irəliyə doğru hərəkətdən dayanmırlar. Bu cərəyanlar və zir-zibilli, çirkli sular arasından şirin və duru su cərəyanı da öz yoluna davam edir və bu təlatüm içərisində irəliyə doğru hərəkət edir. Bəzi dənizlər və çaylarda bu incə cərəyan baş verir. Bəlkə də bəziləriniz görmüsünüz, təbii amillər səbəbindən iki fərqli rəngdə su yanaşı hərəkət edir. Maraqlı burasıdır ki, bir-birinə qarışmır, rəngi dəyişmir, şirin və şor suların tamı dəyişilmir, şirin su öz şirinliyi, duruluğu və saflığını qoruyub-saxladığı halda, irəliyə doğru hərəkət edir.

Siz Əməvi və Abbasi xəlifələri dövründəki İslam dünyasını həmin çaya təşbeh edin. Belə ki, o zaman müxtəlif ideoloji, siyasi və əməli cərəyanlar bir-birinə əks olduqları halda irəliyə doğru hərəkət edirlər. Bu hərəkətin əvvəlindən sonuna kimi baxdıqda, şiə cərəyanını – qəribə fırtına arasında özünü qoruyub-saxlayan, heç vaxt çirklənməyən, tamını və saflığını itirməyən, digər suların rəngi, dadı və qoxusunu almayan, öz əsilliyi ilə yoluna davam edən nazik və kiçik su axınını görəcəksiniz. Görəsən, onu qoruyub-saxlayan nədir? Şiə cərəyanını hansı amil yaşadıb? Öz ardıcılları arasında vilayəti tövsiyə edən, onları bir-birinə bağlayan, onların arasında ülfət və mehribanlıq yaradan, vilayəti təbliğ

edən vəli – imam. Bu, elə Peyğəmbərin (s) dövründəki vilayətin mənası ilə eynidir. Bu qədər təkidlə vurğulanan şiə vilayətinin bir yönü bundan ibarətdir, digər yönləri də vardır ki, onları da qeyd edəcəyik. Bu qeyd etdiklərimiz uyğun mövzu ilə bağlı bütün məsələləri ehtiva etmir, yalnız onun bir yönünü təşkil edir. Vilayət, yəni bağlılıq.

Qurani-Kərimdə möminlər bir-birinin vəlisi adlandırılır. Rəvayətlərdə həqiqi iman sahibləri, eyni cəbhədə və bir-birinə bağlı olanlar, "şiə" adını daşıyanlar "mömin" ifadəsi ilə göstərilir. Həm keçmiş fəqihlərin kəlamlarına, həm də rəvayətlərə baxsanız, bəzi İslam məqamları üçün bir sıra şərtlər, o cümlədən, birinci "İslam", sonra isə "iman" ifadəsi qeyd olunur. İman nə deməkdir? İman dedikdə, şiəyə xas təfəkkür tərzinə sahib olmaq nəzərdə tutulur; başqa sözlə, iman İslama şiə gözü ilə baxmaq və onu şiə məntiqi ilə isbat etməkdir. İmamların (ə) zamanına nəzər yetirdikdə, belə şiələrin mənsub olduqları şiə cərəyanını tarixdə qoruyub-saxlamaq üçün bir-birilə daha sıx əlaqədə olduqları, bir-birinə daha möhkəm bağlandıqları və bir-birilə yaxın dost və qardaş olduqlarını görürük. Yoxsa, şiə digər bəzi firqələr tək min dəfə aradan getmiş, min dəfə əqidə və xüsusiyyəti dəyişilmiş, məhvə məhkum olmuşdu.

Bir sözlə, bu, vilayətin bir yönünü təşkil edir ki, inşallah, növbəti məclisdə onun daha önəmli olan digər bir yönünə toxunacağıq; o da Allah vəlisinin vilayətidir. "Şiələrin vilayəti" dedikdə, məqsədin nə olduğu aydınlaşdı. Allahın vəlisinin vilayətinin mənası nədir? İmam Əli ibn Əbitalibin (ə), İmam Sadiqin (ə) bizim bu gün qəbul etdiyimiz imamların vilayəti nə deməkdir? Bəziləri elə güman edirlər ki, imamların vilayəti dedikdə, yalnız onlara sevgi göstərmək nəzərdə tutulur. Halbuki, böyük səhvə yol verirlər. Vilayət yalnız imamları sevmək demək deyil, yoxsa, İslam dünyasında məsum imamları – Peyğəmbərin (s) Əhli-beytini sevməyən varmı? Elə isə hamı vilayət məqamına sahibdir. Onlara düşmən olan kimsə varmı? Məgər İslamın başlanğıcında onlarla döyüşənlərin hamısı onların düşmənləri idimi? Çoxları onları sevirdilər, lakin dünyalarına görə onlarla döyüşməyə razılıq verdilər. Çoxları onların hansı məqam və dərəcəyə sahib olduqlarını yaxşı bilirdilər. İmam Sadiqin (ə) vəfat xəbəri Mənsura[1] verildikdə, Mənsur zahirdə ağlamağa

---

1. Adı "Abdullah ibn Əhməd", ləqəbi isə "Mənsur"dur. Hədsiz dərəcədə paxıl və simic olduğu üçün "Mənsur Dəvaniqi" adı ilə məşhurlaşmışdı. Qardaşı Səffahın

başladı. Kimin qarşısında? Kölələrinin qarşısında özünü göstərirdi. Rəbi ibn Hacibin yanındamı? O, özünü göstərmirdi, doğrudan da, ürəyi yanır və İmam Sadiqin (ə) vəfat edəcəyindən təəssüflənirdi. Amma onu qətlə yetirən kim idi? Elə özü! Özü göstəriş verdi ki, İmam Sadiqi (ə) zəhərləsinlər. Lakin hər şeyin üstü açıldıqda, Mənsurun qəlbi döyünməyə başladı. Bəs, Mənsurun da vilayəti var idimi?

Elə bu baxımdan, bəziləri yanılaraq deyirdilər ki, Məmun Abbasi[1] şiə idi. Şiə nə deməkdir? İmam Rzanın (ə) haqq olduğunu bilən şəxsə "şiə" demək olarmı? Şiəlik yalnız budurmu? Əgər budursa, onda, Məmun Abbasi, Harun ər-Rəşid, Mənsur, Müaviyə, Yezid və digərləri də şiə imişlər. Məgər Əmirəlmöminin Əlinin (ə) rəqibləri "Səqifə"də o Həzrətin haqq olduğunu bilmirdilərmi? Hamı bilirdi. Onda şiə idilərmi? Əmirəlmöminin Əli (ə) ilə müxalifətçilik edənlər onu sevmirdilərmi? Əlbəttə, sevirdilər. Onda onlar şiə sayılırlarmı? Onda vilayətə inanırdılarmı? Xeyr! Vilayətin mənası tamamilə başqadır və üstün bir məna ifadə edir. Əli ibn Əbitalibin (ə) və digər imamların vilayətini başa düşə bilsək, o zaman bu sualı özümüzdən soruşmağa haqqımız çatır: "Vilayətə sahibikmi?" Əgər sahib olmadığımızı görsək, onu Allahdan istəməli və imamların vilayətini qazanmaq üçün çalışmalıyıq.

Bir qrup özünü aldatmaqla məşğuldur; onlar imamları sadəcə sevdikləri və qəbul etdikləri üçün, həqiqətən də onların vilayət məqamına inandıqlarını güman edirlər. Elə bilirlər ki, vilayət elə budur! Halbuki, vilayət bundan ibarət deyil, yüksək bir məqamdır. Əlbəttə, növbəti məclisdə izah edəcəyik ki, məsum imamların vilayətinin mənası nədir, onları özümüzə "vəli" bilmək üçün nə etməli və onların vilayətinə necə etiqad bəsləməliyik? Bu zaman nə qədər vilayət iddiaçısı olduğumuzu

---

ölümündən sonra, 136-cı hicri-qəməri ilində xəlifə oldu və 158-ci ilə qədər hakimiyyətdə oldu. O, İmam Sadiqi (ə) şəhadətə yetirdi, Nəfsi-Zəkiyyə və onun qardaşı İbrahimin qiyamını yatırdı, Əbu Müslim Xorasanini qətlə yetirdi və bütün İslam ərazilərində Abbasilər hakimiyyətini möhkəmləndirdi.

1. Ləqəbi "Məmun Abbasi", adı isə "Abdullah ibn Harun"dur. Öz qardaşı Əmini qətlə yetirdikdən sonra, 198-ci hicri-qəməri ilində hakimiyyətə gəldi. O, Abbasi xəlifələrinin ən elmli və ağıllısı hesab edilirdi. Ələviləri kontrolda saxlamaq üçün İmam Rzanı (ə) özünə vəliəhd seçdi və o Həzrəti Mədinədən Xorasana gətirtdi. O, elmi müzakirələr təşkil etməklə insanların nəzərində İmam Rzanı (ə) gözdən salmaq istəyirdi, lakin hər dəfə İmamın (ə) haqq və elmli olduğu daha da sübuta yetir, aşkar olurdu. Məmun 218-ci ilə qədər hakimiyyətdə oldu.

anlayacağıq.

Adətən, hər il "Qədir-Xum" bayramı ərəfəsində camaat bu duanı oxuyur:

اَلْحَمْدُ للهِ الّذى جَعَلَنا مِنَ الْمُتَمَسِّكينَ بِوِلايَةِ اَميرِ الْمُؤْمِنينَ

*"Həmd olsun Allaha ki, bizi Əmirəlmöminin Əlinin (ə) vilayətinə sığınanlardan qərar vermişdir."*[1]

Mən, adətən, dostlarıma bunu deməyi tövsiyə etmirəm, qorxuram ki, onların dedikləri yalan olsun. Onlara belə deməyi tövsiyə edirəm:

اللهم اجعَلنا مِنَ الْمُتَمَسِّكينَ بِوِلايَةِ اَميرِ الْمُؤْمِنينَ

*"İlahi, bizi Əmirəlmöminin Əlinin (ə) vilayətinə sığınanlardan qərar ver!"*

İndi baxıb görək, vilayətə sığınanlardanıqmı? Bu da vilayətin başqa bir yönüdür.

Bu gün qeyd etdiklərimizin xülasəsi belədir: Müsəlman ümmətinin, Allah yolunda və Allaha görə çalışan cəbhənin vilayətinin mənası bu cəbhənin üzvləri arasında birlik və bağlılığın daha da möhkəm olmasıdır. Onların qəlbləri bir-birinə nə qədər yaxın, bir-birinə bağlılığı nə qədər möhkəm və müxalif qüvvələr, onların əleyhinə düşünən və rəftar edənlərdən nə qədər uzaq olarsa, vilayət öz həqiqi mənasını ifadə edəcəkdir.

Elə düşünürəm ki, bu mənanı aşılayan "Mümtəhinə" surəsinin adını "Vilayət" surəsi də qoymaq olar. "Mümtəhinə" surəsində bu məna daha aydın şəkildə bəyan edilir. İndi isə həmin ayələri oxuyub məna edirəm və siz də diqqətlə qulaq asın:

بسم الله الرحمن الرحيم. يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا عَدُوِّي وَعَدُوَّكُمْ أَوْلِيَاء

***"Rəhman v Rəhim Allahın adı ilə! Ey iman gətirənlər! Mənim düşmənimi və öz düşməninizi özünüzə vəli tutmayın!"***[2] Həm Mənim düşmənim, həm də sizin düşməniniz olan kafirləri əsla özünüzə vəli seçməyin. Bu dolğun ifadədir və bu ifadə bizim zehnimizdəki məna ilə tam uzlaşır. Bəziləri bu ayəni belə tərcümə edirlər: "...Mənim düşmənimi və öz düşməninizi özünüzə dost tutmayın!" Bu tərcümə dəqiq tərcümə deyil, çünki ayədə qeyd olunan "əvliya" sözü yalnız "dost" mənasını daşımır. Bu söz daha geniş mənanı ehtiva edir; özünüzə vəli tutmayın –

---

1 . "Məfatihul-cinan", Zil-hiccə ayına məxsus əməllər, Qədir-Xum gününün əməlləri.

2. "Mumtəhinə" surəsi, ayə 1-4.

öz cəbhənizdən hesab etməyin, onların sırasına qoşulmayın, qəlbinizdə nə özünüzü, nə də düşmənlərinizi bir cərgədə bilməyin, Allaha və sizə düşmən olanları öz yanınızda deyil, əksinə öz qarşınızda görün, özünüzə düşmən və müxalif bilin.

تُلْقُونَ إِلَيْهِم بِالْمَوَدَّةِ وَقَدْ كَفَرُوا بِمَا جَاءكُم مِّنَ الْحَقِّ

***“Onlar (kafirlər) (Allah tərəfindən) sizə gələn haqqı inkar etdikləri halda, siz onlarla eyni cəbhədə və sırada durmayın (onlara dostluq mesajı ötürməyin).”***

يُخْرِجُونَ الرَّسُولَ وَإِيَّاكُمْ أَن تُؤْمِنُوا بِاللَّهِ رَبِّكُمْ

***“Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırdılar.”*** Elə buna görə də, Mənə və sizə düşmən olanları öz cəbhənizdən özünüzə dost və köməkçi seçməyin.

إِن كُنتُمْ خَرَجْتُمْ جِهَادًا فِي سَبِيلِي وَابْتِغَاء مَرْضَاتِي

***“Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, (Mənim düşmənlərimi və öz düşmənlərinizi öz sıralarınızdan bilməyiniz, özünüzə dost və köməkçi tutmağınıza haqqınız yoxdur).”***

Bu surə, həqiqətən də, maraqlı və önəmli bir surədir. Bu surənin digər ayələrini oxuduqda, Allah-Taalanın hansı kafirləri nəzərdə tutduğu aydın olur; bütün kafirlərlə dostluq əlaqələrinin qırılmasını demir, əksinə, bir qrup kafirlərlə əlaqələrin kəsilməsini deyir. Yəni, kafirləri qruplara bölür. (Əgər vaxtımız çatsa, həmin ayələri elə bu məclisdə, əks-təqdirdə, növbəti məclisdə oxuyarıq.) Ayənin davamında buyurulur:

تُسِرُّونَ إِلَيْهِم بِالْمَوَدَّةِ

***“Siz onlarla gizlində dostluq edir, məhəbbət göstərirsiniz.”***

وَأَنَا أَعْلَمُ بِمَا أَخْفَيْتُمْ وَمَا أَعْلَنتُمْ

***“Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi bilirəm.”***

وَمَن يَفْعَلْهُ مِنكُمْ فَقَدْ ضَلَّ سَوَاء السَّبِيلِ

***“Sizdən kim bunu etsə (düşmənlərlə dostluq planı çəksə, özünü onların sırasında bilsə və göstərsə), o, şübhəsiz ki, haqq yoldan azmışdır! ”***

Ondan sonra müsəlmanları ideoloji baxımdan qane edir ki, nə üçün kafirlərlə əlaqələri qırmaq lazımdır? Sonrakı ayədə bu səbəblər açıqlanır. Əlbəttə, bunu da qeyd etməyimiz pis olmazdı ki, ayələr Hatib ibn Əbi Bəltəə haqqında nazil olmuşdur. O, imanca zəif bir müsəlman idi. Peyğəmbəri-Əkrəm (s) Qüreyş kafirləri ilə döyüşə getmək istədikdə, o,

Peyğəmbəri-Əkrəmin (s) bu döyüşdə məğlub olacağını, özü müsəlman əsgərləri sırasında olduğu halda, öz qohum-əqrəbasının kafirlərin cərgəsində olduğu üçün onlara zərər toxunacağını düşünüb zirəklik etmək istədi: İndi ki biz Peyğəmbərin (s) yanında və onunla birlikdə cihad edirik, Allah yolunda cihad edənlərin savabını qazanırıq, ehtiyatı əldən vermədən kafirlərə bir məktub yazıb onlara öz sevgi və vəfadarlığımızı bildirməyimizin nə eybi var? Uşaqlar demişkən, nə olar ki, həm Xudanı istəyək, həm də xurmanı?! Kədxuda ilə birinin ağası arasında dava düşmüşdü. Soruşdular ki, hansı düz deyir? Dedi: "Həm ağa düz deyir, həm də kədxuda." Nə eybi var ki, hər ikisini əlimizdə saxlayaq!

Hatib ibn Əbi Bəltəə Qüreyş başçılarına bir məktib yazıb altını imzaladı, özünü də yaxşıca tanıtdırdı ki, onlarla dost olduğunu bilsinlər. Məktubu bir qadına verdi. O da onu paltarlarının arasında gizləyib Məkkəyə doğru yola düşdü.

Əziz Peyğəmbərimiz (s) ilahi vəhy vasitəsilə macəradan xəbərdar oldu. Əmirəlmöminin Əlini (ə) bir neçə nəfərlə birlikdə həmin qadının ardınca göndərdi və onlar yolun yarısında qadına çatıb hədə-qorxu gəldilər və nəhayət, məktubu ondan aldılar. Hatib ibn Əbi Bəltəə Peyğəmbərin (s) hüzuruna gətirildikdə, Peyğəmbər (s) ondan: "Nə üçün bu işə əl atdın? Nə üçün bizim hərbi və döyüş sirlərimizi düşmənə xəbər verirsən?" – deyə soruşduqda, belə cavab verdi: "Ey Peyğəmbər, mənim orada dostlarım və qohum-əqrəbam vardır. Onların əziyyətə düşməsindən qorxuram. Bu məktubu yazmaqla onların qəlbini yumşaltmaq, diqqət və sevgilərini özümə çəkmək istədim." Sözügedən ayədə ona cavab olaraq belə buyurulur: "Yanılmayın, onların sizə qarşı qəlbləri yumşalmayacaq. Sizinlə eyni düşüncədə olmayan, dininiz və imanınıza qarşı çıxan, sizi məhv etmək istəyən şəxslər sizinlə heç vaxt dost və mehriban ola bilməzlər." Növbəti ayədə belə buyurulur:

إِن يَثْقَفُوكُمْ يَكُونُوا لَكُمْ أَعْدَاء

***"Əgər onlar (müşriklər) sizi ələ keçirsələr, sizə düşmən olarlar."***

Ey nadan Hatib ibn Əbi Bəltəə! Elə güman etmə ki, onlara kömək etdiyin üçün sabah da onlar sənə kömək edəcəklər. Əsla! Allaha and olsun ki, kömək etməyəcəklər. Əksinə, onlara kömək etdikcə, sənə daha da hakim kəsiləcəklər, sənin əleyhinə öz zülmlərini daha da artıracaqlar. يَكُونُوا لَكُمْ أَعْدَاء – ***"Sizə düşmən olarlar."***

وَيَبْسُطُوا إِلَيْكُمْ أَيْدِيَهُمْ وَأَلْسِنَتَهُم بِالسُّوءِ

***"Sizə pisliklə əlləri və dillərini uzadarlar."***

Sizə təzyiqlərini daha da artırar, sizi dilləri ilə incidər, təhqir edər, şərəf və ləyaqətinizi aparar, dəyərli insan kimi tanımazlar. İndi onlara kömək etmək istəyirsiniz? Elə güman etməyin ki, sizin onlara etdiyiniz yardımlar haçansa karınıza gələcək.

وَوَدُّوا لَوْ تَكْفُرُونَ

***"Onlar sizin kafir olmağınızı istəyərlər."***

Onlar sabah sizə hakim kəsildikdə, azacıq olan qəlbi inancınızı da əlinizdən alacaq, kafir olmağınızı istəyəcəklər. Elə güman etməyin ki, müsəlman kimi qalmağınız və islami vəzifələrinizə əməl etməyiniz üçün sizi rahat və azad buraxacaqlar.

Növbəti ayədə Hatib ibn Əbi Bəltəə və tarixdə onun kimilərin qohum-əqrəbası ilə bağlı qəti bir cümlə işlədilir: Siz övladlarınızın, qohum-əqrəbanızın və yaxınlarınızın rahatlığı naminə Allahla düşmənçilik etməyə hazırsınızmı? Allahın zəif bəndələrinin sevgisini qazanmaq, özünüz və yaxınlarınızın mənafe və maraqları uğrunda Allahın əmrinə qarşı çıxmağa və Onun düşməni ilə dostluq etməyə hazırsınızmı? Görəsən, bu qohum-əqrəba və yaxınlar insanın dərdinə nə qədər dəyəcək? Qüreyş kafirləri ilə birgə olan gəncin peşəsi, təhsili və ticarətinə görə Qüreyş kafirləri ilə həmkarlıq etməyə hazır olduğun halda, həmin gənc sənə nə qədər fayda verəcək? Ey zavallı! Səni Allahın əzabından nicat verə biləcəkmi?

Hatib ibn Əbi Bəltəə öz qohum-əqrəbası, yaxınları və övladlarının zərər görməməsi üçün kafirlərlə, Peyğəmbərin (s) düşmənləri ilə münasibət qurur. Görəsən, qohum-əqrəba insanı Allahın əzabı və qəzəb odundan uzaqlaşdırmaq üçün nə qədər faydalı ola biləcək?

لَن تَنفَعَكُمْ أَرْحَامُكُمْ وَلَا أَوْلَادُكُمْ

***"Sizin qohum-əqrəbanız və övladlarınız sizə heç bir fayda verməyəcəkdir."***

يَوْمَ الْقِيَامَةِ يَفْصِلُ بَيْنَكُمْ

***"(Allah) Qiyamət günü sizi bir-birinizdən ayıracaqdır."***

Bu cür də oxuyub məna edə bilərik:

لَن تَنفَعَكُمْ أَرْحَامُكُمْ وَلَا أَوْلَادُكُمْ يَوْمَ الْقِيَامَةِ

***"Qiyamət günü qohum-əqrəbanız və övladlarınız sizə heç bir fayda verməyəcəkdir."***

يَفْصِلُ بَيْنَكُمْ

***"(Allah) Qiyamət günü sizi bir-birinizdən ayıracaqdır."***

يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ. وَأُمِّهِ وَأَبِيهِ. وَصَاحِبَتِهِ وَبَنِيهِ.

***"O gün insan öz qardaşından anasından, atasından, zövcəsindən və oğullarından qaçacaq!"***[1]

Bil ki, Qiyamət günü qəm-qüssəsini bu qədər çəkdiyin həmin övlad səndən qaçacaq, sən də ondan qaçacaqsan, hər ikiniz bütün insanlardan qaçacaqsınız, hamı bir-birindən qaçacaq, bir-birinin halından xəbər tutmağa vaxt ayırmayacaq.

لِكُلِّ امْرِئٍ مِّنْهُمْ يَوْمَئِذٍ شَأْنٌ يُغْنِيهِ

***"O gün onlardan hər birinin öz işi olacaq."*** Hər kəs öz hayında olacaq, öz işlərinə başı qarışacaq, giriftar olacaq, bu giriftarçılıq onun özünə kifayət edəcək. Qiyamət günü insanın başı öz işlərinə o qədər qarışacaq ki, başqaları, hətta öz övladı onu maraqlandırmayacaq. Bu dünyada övladının barmağına tikan batanda, dünya və axirətini qurban vermək istəyirsən. Ey zavallı! Qiyamət günü ondan qaçacaqsan. Əgər öz övladlarının rahatlığı üçün dünya və axirət xoşbəxtliyinə arxa çevirib bədbəxtliklərə üz tutanlar (bizimlə bərabər) Quranın bu məntiqini anlasalar, bəlkə özlərinə gələrlər. İnsan onu Cəhənnəmə sürükləyən oğlu, qızı və hansısa bir yaxınına görə ağır çətinliklərə və ağrı-acılara dözməyə razı olduğu halda, Qiyamətdə nə qədər onunla bir yerdə olacaq? O, nə qədər Sənin yanında olacaq? Nə qədər sənə fayda verəcək? Qiyamət günü sənin hansı ağır yükünü daşımağa razı olacaq?

لَن تَنفَعَكُمْ أَرْحَامُكُمْ وَلَا أَوْلَادُكُمْ يَوْمَ الْقِيَامَةِ يَفْصِلُ بَيْنَكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

***"Sizin qohum-əqrəbanız və övladlarınız sizə heç bir bir fayda verməyəcəkdir. (Allah) Qiyamət günü sizi bir-birinizdən ayıracaqdır. Allah nə etdiklərinizi görəndir!"***

قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْرَاهِيمَ وَالَّذِينَ مَعَهُ

***"Həqiqətən, İbrahim və onunla birlikdə olanlar sizin üçün gözəl örnəkdir."***

Bu ayə sizin üçün oxuduğum ayələrin zirvəsidir. Ayədə möminlərə deyilir: "Ey möminlər, İbrahim (ə) və onunla birgə olanların rəftarında sizin üçün gözəl örnək vardır." Baxın, görün İbrahim (ə) və onun yanında olanlar nə edirdilər? Onlar nə edirdilərsə, siz də onları yerinə yetirin. Onlar çəkinmədən, açıq-aşkar öz azğın qövmünə, zəmanənin tağutuna

1. "Əbəsə" surəsi, ayə 34-37.

kölə olanlara, yalançı tanrılara üz tutub dedilər: “Biz sizdən və tanrılarınızdan uzağıq, üz döndəririk, sizi inkar edirik, həmişə aramızda düşmənçilik, ədavət, qəzəb və kin-küdurət hökm sürəcək. Yalnız bir barışıq yolumuz var, o da budur ki, bir olan Allaha iman gətirin, bizim ideoloji məntiqimizi qəbul edin. Ey möminlər, siz də İbrahim kimi rəftar edin!”

قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْرَاهِيمَ وَالَّذِينَ مَعَهُ

***“Həqiqətən, İbrahim və onunla birlikdə olanlar sizin üçün gözəl örnəkdir.”***

إِذْ قَالُوا لِقَوْمِهِمْ إِنَّا بُرَاء مِنكُمْ وَمِمَّا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء أَبَدًا حَتَّى تُؤْمِنُوا بِاللَّهِ وَحْدَهُ

***“O zaman onlar öz qövmünə belə demişdilər: “Şübhəsiz ki, biz sizdən və sizin Allahdan başqa, ibadət etdiklərinizdən uzağıq (üz döndərmişik). Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə, bizimlə sizin aranızda həmişə ədavət və kin-küdurət olacaqdır!”***

Qurani-Kərimdə buyurulur:

لَقَدْ كَانَ لَكُمْ فِيهِمْ أُسْوَةٌ حَسَنَةٌ لِمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ

***“(Ey möminlər!) Həqiqətən, onlar (İbrahim və onunla birlikdə olanlar) sizin üçün, Allaha və axirət gününə ümid bəsləyənlər üçün gözəl örnəkdir.”***

وَمَن يَتَوَلَّ فَإِنَّ اللَّهَ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

***“Kim (bu göstərişdən) üz döndərsə (bilsin ki,) Allah qənidir və tərifə layiqdir!”***[1]

Şair demişkən:

گر جمله کائنات کافر گردند
بر دامن کبریاش ننشیند گرد

**“Əgər bütün kainat kafir olsa, Onun (Allahın) uca məqamına toz qona bilməz.”**[2]

Əgər sən Onun düşmənləri ilə saziş bağlasan, bunun Allaha bir zərəri olmayacaq, sənin şərəf və insanlıq ləyaqətin ləkələnəcək.

Həzrət İbrahim (ə) və onun dostlarının öz zəmanəsinin kafirləri və azğınlarına buyurduqları bu cümləni yaddan çıxarmayın: إِنَّا بُرَاء مِنكُمْ ***“Biz sizdən uzağıq.”***

---

1. “Mumtəhinə” surəsi, ayə 6.
2. Babaəfzəl Kaşani.

İmam Səccad (ə) və dostları öz zəmanəsinin azğın zümrələri ilə belə danışırdı. "Biharul-ənvar" kitabında nəql olunan hədisdə belə deyilir: "Dördüncü İmamın (ə) həvarisi (yaxın səhabəsi) Yəhya ibn Ümmü Təvil Mədinə məscidinə gəlir və üzünü camaata tutub həmin sözü deyirdi. O camaat ki, İmam Həsən (ə) və İmam Hüseyn (ə) iyirmi il onların arasında yaşamışdı. O camaat nə Əməvilərdən, nə də Əməvilərin yaxınlarından idi. Bəs hansı dəstədən sayılırdı? Qorxaq insanlar idi. Onlar Kərbəla və Aşura faciəsi zamanı zalım Əməvi rejiminin qorxusundan Peyğəmbərin (s) övladlarını tək qoydular, eyni zamanda Allaha inanır, ibadətlə məşğul olurdular.

Yəhya ibn Ümmü Təvil həmin camaatın müqabilində dayanıb Quranın sözünü təkrarlayırdı: كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء – ***"Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə, bizimlə sizin aranızda ədavət və kin-küdurət olacaqdır!"***[1] Yəni, Həzrət İbrahimin (ə) öz zəmanəsinin kafirlərinə, müşriklərinə və azğınlarına buyurduğu sözü təkrarlayırdı. Baxın, vilayətin mənası budur! – Bir-birinizlə sıx rabitə saxlamalı və düşmənlərdən üz döndərməlisiniz. Əgər İmam Səccadın (ə) şiələrindən hər kim o Həzrətin zəmanəsində qorxudan və yaxud tamahkarlıqdan düşmən tərəfə keçsəydi, İmam Səccadın (ə) vilayətindən çıxarılar və o Həzrətin cəbhəsinə aid edilməzdi. Elə bu səbəbdən də, o Həzrətin şagirdi camaata belə deyirdi: كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء – ***"Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə, bizimlə sizin aranızda ədavət və kin-küdurət olacaqdır!"***

Yəhya ibn Ümmü Təvil İmam Səccadın (ə) vəfalı və seçilmiş səhabəsi idi.

Bu vəfalı səhabənin aqibəti belə oldu ki, Həccac ibn Yusif onu tutub sağ əlini, sol əlini, sağ ayağını və sol ayağını kəsdi. Amma o, haqqı deməkdən çəkinmədi. Onun dilini də kəsdi və nəhayət, əbədiyyətə qovuşdu. Bu, o vaxt idi ki, şiəni təşkilatlandırmış və İmam Səccaddan (s) sonra şiə cəmiyyətinin təməllərini möhkəmlətmişdi.

1. "Biharul-ənvar", "İmam Əli ibn Hüseynin (ə) həyatı", "Xəlifələrin dövründə onun vəziyyəti" bölməsi, hədis 29.

## Xülasə

## Cümə günü– Ramazan ayının 24-cü günü

# VİLAYƏT

Allah tərəfindən, Peyğəmbərin (s) vasitəsilə bəyan olunan və həyat mesajı verən yeni təfəkkür tərzi mütəşəkkil toplumun düşüncəsi, psixologiyası və rəftarlarında gerçəkləşdiyi zaman, həyatı son məqsədə çatdıra biləcəkdir.

Möhkəm və yenilməz cəbhədən ibarət olan bu toplum vəhdət və birliyini qorumalı, müxalif ideoloji və əməli cərəyanlardan təsirlənməmək və onların vasitəsilə sıradan çıxmamaq üçün möhkəm dayanmalı və müqavimət göstərməlidir. Elə bu məqsədlə mömin cəbhənin zəifliyinə səbəb olan hər bir bağlılıqlardan çəkinməli, imkan daxilində və zərurət zamanı onlarla adi rabitələri belə azaltmalıdır. Qurani-Kərim leksikonunda bu ideoloji və əməli cəbhələnmə və sıralanmaya “vilayət” və “təvəlli” deyilir.

İslam ümməti və cəmiyyətinin əsasını və təməl daşını təşkil edən bu mütəşəkkil cəbhə qüdrətli ümmətə və İslamın bəyəndiyi cəmiyyətə çevrildiyi gün kimi, vəhdət, birlik və həmrəyliyini qorumaq, düşmənlərin nüfuzuna mane olmaq üçün “vilayət” prinsipinə əməl etmək zəruridir. Qurani-Kərimin müxtəlif ayələrində vilayətlə bağlı buyurduğu incəliklərdən bəzilərinə həm burada, həm də növbəti söhbətlərimizdə toxunacağıq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّخِذُوا عَدُوِّي وَعَدُوَّكُمْ أَوْلِيَاء – ***Ey iman gətirənlər! Mənim düşmənimi və öz düşməninizi özünüzə vəli tutmayın!***

تُلْقُونَ إِلَيْهِم بِالْمَوَدَّةِ وَقَدْ كَفَرُوا بِمَا جَاءكُم مِّنَ الْحَقِّ – ***Onlar (kafirlər) (Allah tərəfindən) sizə gələn haqqı inkar etdikləri halda, onlara dostluq mesajı***

***ötürməyin.***

يُخْرِجُونَ الرَّسُولَ وَإِيَّاكُمْ أَن تُؤْمِنُوا بِاللَّهِ رَبِّكُمْ – ***Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırdılar.***

إِن كُنتُمْ خَرَجْتُمْ جِهَادًا فِي سَبِيلِي وَابْتِغَاء مَرْضَاتِي – ***Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa (onları özünüzə dost və köməkçi tutmayın)."***

تُسِرُّونَ إِلَيْهِم بِالْمَوَدَّةِ – ***Siz onlarla gizlində dostluq edirsiniz.***

وَأَنَا أَعْلَمُ بِمَا أَخْفَيْتُمْ وَمَا أَعْلَنتُمْ –***Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi bilirəm.***

وَمَن يَفْعَلْهُ مِنكُمْ فَقَدْ ضَلَّ سَوَاء السَّبِيلِ – ***Sizdən kim bunu etsə, o, şübhəsiz ki, haqq yoldan azmışdır!***

إِن يَثْقَفُوكُمْ يَكُونُوا لَكُمْ أَعْدَاء – ***Əgər onlar (müşriklər) sizi ələ keçirsələr, sizə düşmən olarlar.***

وَيَبْسُطُوا إِلَيْكُمْ أَيْدِيَهُمْ وَأَلْسِنَتَهُم بِالسُّوءِ – ***Sizə pisliklə əlləri və dillərini uzadarlar.***

وَوَدُّوا لَوْ تَكْفُرُونَ – ***Onlar sizin kafir olmağınızı istəyərlər.***

لَن تَنفَعَكُمْ أَرْحَامُكُمْ وَلَا أَوْلَادُكُمْ – ***Sizin qohum-əqrəbanız və övladlarınız sizə heç bir bir fayda verməyəcəkdir.***

يَوْمَ الْقِيَامَةِ يَفْصِلُ بَيْنَكُمْ – ***(Allah) Qiyamət günü sizi bir-birinizdən ayıracaqdır.***

وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ – ***Allah nə etdiklərinizi görəndir!***

قَدْ كَانَتْ لَكُمْ أُسْوَةٌ حَسَنَةٌ فِي إِبْرَاهِيمَ وَالَّذِينَ مَعَهُ – ***Həqiqətən, İbrahim və onunla birlikdə olanlar sizin üçün gözəl örnəkdir.***

إِذْ قَالُوا لِقَوْمِهِمْ إِنَّا بُرَاء مِنكُمْ وَمِمَّا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ – ***O zaman onlar öz qövmünə belə demişdilər: "Şübhəsiz ki, biz sizdən və sizin Allahdan başqa, ibadət etdiklərinizdən uzağıq (üz döndərmişik).***

كَفَرْنَا بِكُمْ وَبَدَا بَيْنَنَا وَبَيْنَكُمُ الْعَدَاوَةُ وَالْبَغْضَاء أَبَدًا حَتَّى تُؤْمِنُوا بِاللَّهِ وَحْدَهُ – ***Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə, bizimlə sizin aranızda həmişə ədavət və kin-küdurət olacaqdır!***

("Mumtəhinə" surəsi, ayə 1-4.)

## İYİRMİ DÖRDÜNCÜ MƏCLİS

## İSLAM ÜMMƏTİNİN ƏLAQƏLƏRİ

Cümə günü – 1974/10/12
Ramazan ayının 25-i.

بسم الله الرحمن الرحيم

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْيَهُودَ وَالنَّصَارَى أَوْلِيَاء بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ وَمَن يَتَوَلَّهُم مِّنكُمْ فَإِنَّهُ مِنْهُمْ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ. فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ يُسَارِعُونَ فِيهِمْ يَقُولُونَ نَخْشَى أَن تُصِيبَنَا دَآئِرَةٌ فَعَسَى اللّهُ أَن يَأْتِيَ بِالْفَتْحِ أَوْ أَمْرٍ مِّنْ عِندِهِ فَيُصْبِحُواْ عَلَى مَا أَسَرُّواْ فِي أَنْفُسِهِمْ نَادِمِينَ

***“Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) həmrəy və dost tutmayın! Onlar bir-birilə həmrəy və dostdurlar. Sizdən kim onlarla əlaqə qursa, şübhəsiz, o da onlardandır. Həqiqətən, Allah zalım tayfanı hidayət etməz! Qəlblərində mərəz (və xəstəlik) olanların onlara (din düşmənlərinin cəbhəsinə) tərəf tələsdiyini görərsən. Onlar (Bəhanə gitirib) deyəcəklər: “Bizə bir fəlakət üz verməsindən qorxuruq!” Ümid var ki, Allah (möminlərə) bir zəfər gətirsin və yaxud Öz tərəfindən elə bir iş qursun ki, onlar qəlblərində gizlətdiklərindən peşman olsunlar!”***

“Maidə” surəsi, ayə 51-52.

Bəhsə başlamazdan öncə Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan bir hədisi möhtərəm dostlar və qardaşların diqqətinə çatdırmaq istəyirəm. Bu hədisdə Peyğəmbəri-Əkrəm (s) belə buyurur:

رَحِمَ اللّهُ امرَءً عَمِلَ عَمَلاً فَأتقَنَه

*"İşini möhkəm görən şəxsə Allah rəhmət etsin."*[1]

Yəni, insan hansısa bir işə başladıqda, ehtimal və təhlükələri də nəzərə almalıdır. Nə yaxşı olar ki, insan işə başlamazdan öncə ehtimal verdiyi təhlükələr haqqında da düşünsün. Əmirəlmöminin Əli (ə) "Nəhcül-bəlağə"nin bir xütbəsində elə bu mətləbə işarə edərək buyurur: "Mən ovçunun ovuna tuş gələn yatmış heyvan (kaftar) kimi deyiləm."[2] Əksinə, gələcəkdə baş verə biləcək hadisələri anlayıb analiz etmək üçün keçmişdə baş vermiş hadisələrdən təcrübə olaraq istifadə edirəm.

Bu hədis həyatımızın bütün sahələrində keçərli ola biləcək bir dərsdir. Odur ki, gələcək üçün keçmişin təcrübəsindən bəhrələnməli, qarşıya çıxacaq hadisələrin hesabını da aparmalıyıq.

İndi isə ötən məclisimizin xülasəsinə bir nəzər yetirək. Bəhs olduqca genişdir. Mən lazım bildikcə, bəzi məsələləri şərh edəcək və bu mövzunu da bir-iki məclisə aydınlaşdırıb yekunlaşdıracağam. Bir sözlə, vilayət bəhsinin davamında qeyd etməliyik ki, "İslam" adı ilə təşkil olunan ümmət və cəmiyyət ilahi qanunlar, ilahi təfəkkür tərzi və ilahi qüdrət vasitəsi ilə idarə olunan bir ümmət və cəmiyyətdir. Biz buna "İslam ümməti" deyirik. İslam ümməti Qurani-Kərimin buyurduğu mənada vilayətə sahib olmaq və onu təmin etmək istəyirsə, iki konsepsiyaya mütləq riayət etməlidir: Biri İslam cəmiyyətinin daxili, digəri isə xarici əlaqələri, yəni İslam ümməti və cəmiyyətinin digər cəmiyyətlərlə

---

1. "Şəvahidut-tənzil", Müqəddimə.
2. "Nəhcül-bəlağə", xütbə 6.

münasibətlərindən ibarətdir.

Daxili əlaqələr konsepsiyasında İslam ümməti bütün qövmlər və tayfalar arasında vəhdət, birlik, həmrəylik və sıx bağlılığı təmin etdiyi, böyük İslam ümməti arasında ixtilaf olmadığı və onun daxilində müxtəlif cərgələrin yaranmadığı zaman vilayətə sahib olur.

Əgər İslam ümmətinin daxilində iki zümrə bir-birilə döyüşə qalxarsa, fərz edin ki, İslam məmləkətinin şərqindən bir dəstə şimal-şərqindən başqa bir dəstə ilə müharibəyə başlayarsa, Quranın əmrinə əsasən, digər müsəlmanların vəzifəsi onların arasında sülh və barışıq yaratmaq, döyüşə son qoymaqdır. Əgər bir-birilə döyüşən bu iki dəstədən birinin sülhə razılıq verdiyini, digərinin isə razılıq vermədiyini, yaxud bir tərəfin zor tətbiq etdiyini və haqqa təslim olmadığını, o biri tərəfin isə haqlı olduğunu gördükdə, bütün İslam dünyası əl-ələ verib zor tətbiq edən tərəfi susdurmalı, onunla döyüşüb onu təslim olmağa vadar etməlidir.

Qurani-Kərimdə buyurulur:

وَإِن طَائِفَتَانِ مِنَ الْمُؤْمِنِينَ اقْتَتَلُوا فَأَصْلِحُوا بَيْنَهُمَا فَإِن بَغَتْ إِحْدَاهُمَا عَلَى الْأُخْرَى فَقَاتِلُوا الَّتِي تَبْغِي حَتَّى تَفِيءَ إِلَى أَمْرِ اللَّهِ

***“Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri digərinə təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə qayıdana (Onun əmrini qəbul edənə) qədər vuruşun.”***[1]

İslam cəmiyyətinin daxilində birlik və həmrəyliyin qorunması ilə bağlı Allahın əmri budur!

Xarici əlaqələrə gəldikdə isə İslam dünyası və İslam ümməti qeyri-müsəlman dünyası ilə əlaqələrini elə tənzimləməlidir ki, azacıq belə onların əmrinə təslim olmamalı, düşüncələrindən təsirlənməməli və özünün müstəqil xarici siyasəti olmalıdır. İslam ümmətinin onlarla birlik və həmrəyliyi müsəlmanların təsir altına düşməsi ilə nəticələnərsə, bu, qəti qadağandır.

Bu məsələ ilə bağlı mötəbər şiə kitablarında nəql olunan məşhur bir rəvayətdə belə buyurulur: İmam Baqir (ə), yaxud İmam Sadiqin (ə) zamanında İslam məmləkətinin sikkə pulları Rum ölkəsindən gətirilirdi. Bir gün Rum imperiyası İslam məmləkətini təhdid etdi və onlar da çıxılmaz vəziyyətdə qaldılar. İmam (ə) ölkə rəhbərliyinə yol göstərdi. Çox qəribədir. Burada bir incə məqam var. Bir-iki yerdə məsum

1. “Hucurat” surəsi, ayə 9.

imamlarımız (ə) xilafət aparatı ilə bir qədər mülayim rəftar etmişlər ki, biri də bu məsələdədir. İmam (ə) xilafət aparatına sikkə pulların necə istehsal olunmasını öyrətdi. Onlar pul düzəldə bilmirdilər və sikkə pulların (bir dirhəm, yarım dirhəmin) necə təmin olunacağı və hansı yolla hazırlanıb düzələcəyində sərgərdan qalmışdılar. İmam (ə) bunun yolunu öyrətdi.

Beləliklə, xarici münasibətlərdə azacıq belə qeyri-islami, xüsusən də, İslama zidd cərəyanlar və qüvvələrin təsirinə düşmək qadağandır. İslam ümməti və cəmiyyəti İslamdan xaric dünya ilə əlaqələrində öz izzət və əzəmətini qoruyub-saxlamalıdır. Əgər İslam ümməti ilə qeyri-müsəlman cəmiyyəti əlaqə qurmağı qərara alsa belə, izzət mövqeyindən çıxış etməlidir. Fərz edin ki, "Tənbəki" və "Rijiy şirkəti"[1] kimi macərada İslam dünyasının belə əlaqələri qırmağa haqqı yoxdur. Yaxud da, Hindistanın Moğol hökmdarları xarici dövlətlərə İslam məmləkətinin vilayət prinsipinə zidd olaraq şirkət təsis etmək üçün icazə verdi. Onlar buna icazə verməməliydi. Çünki bilirdilər (bilmirdilərsə, öyrənməli idilər) ki, Şərqi Hindistan Şirkəti[2] Hindistana daxil olduqdan sonra Hindistan əhalisinin başına hansı bəlaları gətirəcək, müstəmləkə xərçəngi Böyük Hindistan Yarımadasına qədər yayılacaq. Onlar bunu anlamalı idilər, lakin anlaya bilmədilər. İslam ümməti və cəmiyyəti isə belə əlaqələrə əsla icazə vermir.

Qeyd etmək lazımdır ki, biz, qeyri-müsəlman dövlətlər və cəmiyyətlərlə əlaqələrin qırılması dedikdə, İslam ümməti və İslam dünyasının özünü siyasi baxımdan təcrid etməsini nəzərdə tutmuruq. Xeyr! Siyasi təcrid və İslam dünyasının ticari-iqtisadi, siyasi və diplomatik sahədə heç kimlə əlaqə qurmaması, nə səfir göndərmək, nə

---

1. Nəsrəddin şahın Avropaya üçüncü səfərində İran dövləti ilə Rijiy şirkətinin təsisçisi Cerald F. Talbot arasında tütün və tənbəki ticarəti ilə bağlı əlli illik müqavilə imzalandı. Bu müqaviləyə əsasən, Cerald F. Talbotun illik ödənişinin müqabilində tütün və tənbəki onun inhisarı və istismarına keçdi. Bu şirkət ticari fəaliyyət bəhanəsi ilə İrana bir çox əcnəbi vətəndaşlar gətirirdi ki, onların əksəriyyətini də xaçpərəst təbliğatçıları təşkil edirdi. Ayətullah əl-üzma Mirza Şirazi tütün və tənbəkinin istehsalı, istifadəsi və ticarətinin haram olması ilə bağlı fətvasından sonra bu müqavilə (və imtiyaz) ləğv edildi.

2. Şərqi Hindistan Şirkəti İngiltərəyə məxsus ictimai səhmdar şirkət idi. Bu şirkət İngiltərənin kraliçası və Hindistan hökmdarından aldığı inhisari imitiyazlarla çoxlu qazanc əldə etdi, yavaş-yavaş öz əmlakını müdafiə etmək bəhanəsi ilə Hindistana hərbi qüvvə yerləşdirdi və bu böyük ölkəni Britaniyanın müstəmləkəsinə çevirdi.

də səfir qəbul etmək məsələsi müzakirə mövzusu deyil, adi əlaqələrin heç bir eybi yoxdur, lakin onlarla bir və həmrəy olmaq qadağandır. Onların öz istədikləri kimi, İslamı öz təsir dairələrinin altına salmalarına icazə verilməməlidir. Demək, Quranın buyurduğu vilayətin iki tərəfi vardır: Biri odur ki, İslam cəmiyyətinin daxilində bütün qüvvələr mütləq bir hədəf, bir yol və bir istiqamət üzrə hərəkət etməli, İslam cəmiyyətinin xaricində isə İslama zidd bütün blok və cinahlarla öz əlaqələrini qırmalıdır.

Burada bir incə məqam vardır; belə ki, Quranda bu mənanı aşılayan vilayət elə biz şiələrin etiqad bəslədiyi vilayət mənasındadır. Diqqətlə qulaq asın ki, bu məqamı sizə çatdıra bilim. Şiənin etiqad bəslədiyi vilayətin Quranın buyurduğu vilayətlə eyni olduğunu necə anlayaq? Ola bilsin ki, dörd nəfər və yaxud keçmiş nəsil vilayətlə bağlı məsələləri (dəlil-sübutsuz) qəbul etsin, lakin Qurana istinadən anlamaq istəyən (müasir) gənc şiənin qəbul etdiyi vilayəti Qurana istinadən isbat etmək istəyirsə, onu haradan əldə etməlidir? Biz imamla rabitənin bu qədər önəmli və imamın əmrinin cəmiyyətin bütün sahələrində keçərli olduğunu deyiriksə, bunu nəyə istinadən deyirik?

Quranın buyurduğu vilayətin mənasını qəbul etmək, yəni bütün daxili qüvvələrini İslama zidd xarici qüdrətlərin əleyhinə səfərbər etmək istəyən islami ümmət və cəmiyyətin mütəşəkkil qüdrət mərkəzinə ehtiyacı vardır ki, bütün daxili qüvvələr həmin mərkəzdə birləşməli, ondan ilhamlanmalı, onu dinləməli və onun əmrini qəbul etməlidir. Bu mərkəz cəmiyyətin bütün xeyir və zərərlərini bilməli, güclü qollara və iti gözlərə sahib keşikçi tək bütün hadisələri öz nəzarətində saxlamağı bacarmalı, cəmiyyətin üzvlərinin ayrı-ayrılıqda hansı potensiallara sahib olduğunu müəyyənləşdirməlidir ki, onlardan düzgün şəkildə bəhrələnsin, hər kəsə bacardığı işi və vəzifəni həvalə etsin.

Təşbeh məqamında bir misala diqqət yetirək: Toxuculuq emalatxanası görübsünüzmü? Bir qrup adam – böyük-kiçik əyləşib gün batana qədər toxuculuqla, öz işi ilə məşğul olub gündəlik bir neçə manat məvacib alır. Mərkəzi rəhbərliyin xüsusi nəzarəti altında bütün işçilər bir-birilə əlaqədə olmalı, xüsusi təlimatlara uyğun olaraq hansı ipdən necə və harada istifadə etmə qaydalarını, iplərin və ilmələrin necə döyülüb bərkidilməsini bir-bir bilməlidirlər. Onlara nəzarət edən mərkəzi rəhbərlik olmasa, toxuculuq emalatxanasının və orada toxulan xalçaların

hansı vəziyyətə düşəcəyi aydındır; biri şərq, biri qərb, biri kürd, biri də türkmən ilmələrindən istifadə edərək, xalçaları uyğunsuz və qarmaqarışıq hala salacaqlar.

Toxuculuq emalatxasına hakim nizam-intizamın səbəbi nədir? Səbəbi odur ki, bütün təlimatlar mərkəzi rəhbərlik tərəfindən verilir və bütün işçilər həmin rəhbərliyin əmrinə tabedir.

Əgər cəmiyyətdə hamının fəal qüvvəyə çevrilməsini, eyni istiqamətdə fəaliyyət göstərməsini, qüvvələrin boş yerə sərf olunmamasını, cəmiyyətin bütün qüvvələrinin sıx şəkildə kollektiv maraqların təmini istiqamətində çalışması üçün bir yumruq kimi birləşməsini istəyiriksə, mərkəzi qüdrət və rəhbərliyə (bir ürəyə) ehtiyac vardır. Əlbəttə, belə qüdrət və rəhbərlik bir sıra şərtlərə də sahib olmalıdır; agah, diqqətli, iradəli və qətiyyətli olmalı, Allah yolunda heç nədən qorxmamalı və lazım gəldikdə, özünü belə fəda etməlidir. Biz belə varlığa "İmam" deyirik.

Allah tərəfindən cəmiyyət üçün təyin olunan hakim və rəhbərə "İmam" deyilir. Allahın təyin etməsi nə deməkdir? Bəzən, Allah-Taala rəhbəri adı və əlaməti ilə təyin edir; buna Əmirəlmöminin Əlini (ə), İmam Həsəni (ə), İmam Hüseyni (ə) və digər imamları misal göstərə bilərik. Peyğəmbərin özü də imamdır. Allah-Taala İbrahim peyğəmbərə buyurur:

إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا

***"Mən səni insanlara imam təyin etdim."***[1]

Bəzən bu imamı Allah-Taala adı və əlaməti ilə tanıtdırır və buyurur ki, Peyğəmbərdən (s) sonra imam Əlin ibn Əbitalibdir (ə). Bəzən də İmam Həsən Əskərinin (ə) kəlamında buyurulduğu kimi, ad və əlamət göstərilmir:

فَأَمَّا مَنْ كَانَ مِنَ الْفُقَهَاءِ صَائِنًا لِنَفْسِهِ حَافِظًا لِدِينِهِ مُخَالِفًا عَلَى هَوَاهُ مُطِيعًا لِأمْرِ مَوْلَاهُ فَلِلْعَوَامِّ أَنْ يُقَلِّدُوهُ

*"Fəqihlərdən hər kəs öz nəfsinə hakim olsa, dinini qorusa, nəfsinin istəklərinə müxalif olsa və mövlasının əmrlərinə itaət etsə, avamların vəzifəsi ona təqlid etməkdir."*[2]

Bu xüsusiyyətlərə sahib şəxsin imam (rəhbər) olmasını elə İmam (ə)

1. "Bəqərə" surəsi, ayə 124.
2. "İmam Həsən Əskəriyə (ə) mənsub təfsir kitabı", "Bəqərə" surəsinin 78-79-cu ayələrinin təfsiri.

özü buyurmuşdur. Ayə və rəvayətlər vasitəsilə təyin olunan imamın canişini də imamdır, lakin bu fərqlə ki, o, ad və əlamətlərlə təyin edilməmişdir. Qeyd edilən xüsusiyyətlərə sahib olan hər kəs imamdır. Mən burada "imam" sözünü aydınlaşdırmaq istədim. İmam rəhbər və hakim mənasını ifadə edir. İnsanların müti olduğu həmin şəxs mütləq Allah tərəfindən təyin edilməli, ədalətli, insaflı, dindar və iradəli olmalıdır. Digər xüsusiyyətlər də vardır ki, imamət bəhsinə aiddir və bəhsimizdən xaricdir.

Beləliklə, Quranın buyurduğu vilayət prinsipinin tələbi nədir? İmamın varlığıdır. "İslam ümməti" adlı bu böyük bədənin yaşamasını, uğur qazanmasını, daim sabit qalmasını istəyən cəmiyyət nə etməlidir? Bu mərkəzə, bu döyünən ürəyə bağlı, möhkəm və güclü olmalıdır. Bəs, "vilayət" nə deməkdir? Hamı diqqətlə qulaq assın! Vilayətin digər konsepsiyası nədən ibarətdir? İslam ümmətinin bütün üzvlərinin hər zaman ümmətin döyünən ürəyi ilə möhkəm və güclü əlaqəsi onun digər konsepsiyasını təşkil edir. Hansı sahədə əlaqə saxlamalıdır? İntellektual və əməli sahədə; yəni, ondan düzgün bəhrələnməli, elmi və etiqadi sahədə onun ardınca getməli, əməlləri, rəftarları, hərəkətləri və fəaliyyətlərində ona itaət etməlidir.

Bəs, Əli ibn Əbitalibin (ə) vilayəti nə deməkdir? O deməkdir ki, düşüncələrinizdə, əməl və rəftarlarınızda Əli ibn Əbitalibə (ə) itaət etməli, onunla güclü, möhkəm və qırılmaz əlaqə yaratmalı, ondan ayrılmamalıyıq. Vilayətin mənası budur. Vilayətin mənasını yaxşı başa düşdünüzmü? Elə buradan, bu hədisin – Allah-Taalanın kəlamının mənasını da anlayırıq:

وَلاَيَةُ عَلِيِّ بْنِ أَبِى طَالِبٍ حِصْنِى فَمَنْ دَخَلَ حِصْنِى أَمِنَ مِنْ عَذَابِى

*"Əli ibn Əbitalibin vilayəti Mənim qalamdır, hər kim Mənim qalama daxil olsa, əzabımdan amanda qalar."*[1]

Maraqlı bir sözdür. Bu, nə deməkdir? Yəni, müsəlmanlar və Quran ardıcılları həm etiqadi, həm də əməli baxımdan Əli ibn Əbitalibə bağlı olduqları təqdirdə, Allahın əzabından amanda qalacaqlar. Bəlkə, belə deyil? Bəlkə, məsələ bundan başqa bir şeydir? Əgər bu gün Əli ibn Əbitalibi tanısaq, hamımız onun kimi rəftar edərik, o zaman vilayətə sahaib olacağıq. Vilayətin mənası budur.

Kim Quranı başa düşülən hesab etmirsə, necə deyə bilər ki, mən Əli

1. "Üyunu əxbarir-Riza (ə)", "İmam Rzadan (ə) nadir hədislər" bölməsi, hədis 1.

ibn Əbitalibin vilayətindəyəm, etiqadi və əməli baxımdan ona bağlıyam?! Halbuki, Əli ibn Əbitalib (ə) "Nəhcül-bəlağə"də belə buyurur:

وَ اعْلَمُوا أَنَّ هَذَا الْقُرْآنَ هُوَ النَّاصِحُ الَّذِي لَا يَغُشُّ وَ الْهَادِي الَّذِي لَا يُضِلُّ وَ الْمُحَدِّثُ الَّذِي لَا يَكْذِبُ وَ مَا جَالَسَ هَذَا الْقُرْآنَ أَحَدٌ إِلَّا قَامَ عَنْهُ بِزِيَادَةٍ أَوْ نُقْصَانٍ زِيَادَةٍ فِي هُدًى وَ نُقْصَانٍ مِنْ عَمًى

*"Bilin ki, bu Quran xəyanət etməyən öyüdverən, azdırmayan bələdçi və yalan deməyən natiqdir. Bu Quranla oturan elə bir kəs yoxdur ki, onun yanından duranda, ya ona bir şey artırmasın, ya da ondan bir şey azaltmasın; hidayəti artırar, korluğu (azğınlığı) isə azaldar."*[1]

Əmirəlmöminin Əli (ə) insanları bu şəkildə Qurana yönəldir və sövq edir. Quranın başa düşülə bilməyəcəyini söyləyən o Allah bəndəsi, görəsən, Əli ibn Əbitalibin (ə) vilayətinə sahibdirmi? Heç vax! Əli ibn Əbitalib (ə) Allaha xatir bütün varlığını qurban verməyə hazırdır. Əli ibn Əbitalibin (ə) əməli budur! O, isə Allah yolunda bir qəpik pulundan, canından, ictimai ləyaqətindən, rahatlığından və ağalığından keçmək istəmir. O, heç Əli ibn Əbitalibin (ə) vilayətinə sahibdirmi? Əli ibn Əbitalibin (ə) vilayətinə daim onunla birgə olan, etiqad və əməldə onunla qırılmaz əlaqə quran sahibdir.

Qardaşlar, yaxşı qulaq asın, mənim vilayətlə bağlı qeyd etdiyim məna və şərh ən dəqiq və ən incədir. Bunu Qurani-Kərimdən də əldə etmək olur. İndi isə ayələri sizin üçün oxuyuram, qulaq asın. Qurani-Kərimin "Maidə" surəsində olan bu ayələrdə vilayətin həm müsbət tərəfi, yəni daxili münasibətələrin möhkəmlənməsi, həm mənfi tərəfi, yəni xarici münasibətlərin qırılması, həm də vilayətin üçüncü tərəfi, yəni mərkəzi rəhbərlik (imam və rəhbər) ilə sıx əlaqəyə işarə olunur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْيَهُودَ وَالنَّصَارَى أَوْلِيَاء

***"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) vəli tutmayın!"***

"Övliya" sözü "vilayət" sözündən götürülmüş və "vəli" sözünün cəm formasıdır. "Vilayət" sözü də "bağlılıq", "müttəfiqlik" və "həmrəylik" mənasını ifadə edir. Ayədə buyurulur ki, yəhudiləri və xaçpərəstləri özünüzə yaxın bilməyin, özünüzə bağlamayın, özünüzə həmrəy və müttəfiq seçməyin.

بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ

1. "Nəhcül-bəlağə", Sübhi Saleh, xütbə 175.

***“Onlar bir-birilə müttəfiqdirlər.”***

Onlara baxsanız, görəcəksiniz onların blokları bir-birindən ayrı olsa da, həqiqətdə, siz müsəlmanlara qarşı müttəfiq və eyni cəbhədədirlər.

وَمَن يَتَوَلَّهُم مِّنكُمْ فَإِنَّهُ مِنْهُمْ

***“Sizdən kim onlarla müttəfiq olsa (onların vilayət və rəhbərlik vadisinə qədəm qoysa, onlarla əlaqə yaratsa), şübhəsiz, o da onlardandır.”***

إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

***“Həqiqətən, Allah zalım tayfanı hidayət etməz!”***

فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ يُسَارِعُونَ فِيهِمْ

***“Qəlblərində mərəz (xəstəlik) olanların onlara (din düşmənlərinin cəbhəsinə) tərəf tələsdiyini görərsən.”***

Onlara tərəf getməklə kifayətlənməzlər, əksinə sürətlə onlara tərəf tələsərlər. Əgər ondan: “Nə üçün din düşmənləri və dinə müxalif olanlarla bu qədər əlaqə yaradırsan? Onunla müxalifətçilik etmirsənsə, heç olmsa, dostluq etmə!” – deyə soruşsanız, cavabında belə deyəcək:

يَقُولُونَ نَخْشَى أَن تُصِيبَنَا دَآئِرَةٌ

***“Deyəcəklər: “Bizə bir fəlakət üz verməsindən qorxuruq!””*** Əgər onlarla dostluq etməsək, qorxuruq ki, bizə bir zərər yetirsinlər. Bu sözlər insan qulağına nə qədər tanışdır! Qorxuruq bizə başağrı olsunlar! Qorxuruq bizi çətinlikdə saxlasınlar! Görün, bu sözlər nə qədər tanışdır! ***“Bizə bir fəlakət üz verməsindən qorxuruq!”***

Görəsən, Allah-Taalanın onlara cavabı nədir? Allah-Taala buyurur:

فَعَسَى اللّهُ أَن يَأْتِيَ بِالْفَتْحِ

***“Ümid var ki, Allah (möminlərə) bir zəfər gətirsin!”***

أَوْ أَمْرٍ مِّنْ عِندِهِ فَيُصْبِحُواْ عَلَى مَا أَسَرُّواْ فِي أَنْفُسِهِمْ نَادِمِينَ

***“Öz tərəfindən elə bir iş qursun ki, onlar qəlblərində gizlətdiklərindən peşman olsunlar”*** və bir-birinə desinlər ki, gördün, nə böyük səhvə yol verdik? Əgər möminlərin belə güclü olacaqlarını və zəfər qazanacaqlarını bilsəydik, heç Allahın və dinin düşmənləri ilə əlaqə qurmaz və öz abrımızı aparmazdıq!

Onlar düşmənlərlə münasibət qurub öz abırlarını apardıqdan sonra, möminlər nə dedilər?

وَيَقُولُ الَّذِينَ آمَنُواْ أَهَـؤُلاء الَّذِينَ أَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ إِنَّهُمْ لَمَعَكُمْ

***“İman gətirənlər dedilər: “Sizinlə birlikdə olacaqları barədə Allaha möhkəm andlar içən kəslər bunlarmıdır?””***

Biz onlara hər dəfə bir söz deyirdiksə, onlar “Bəli!” deyib bizimlə eyni əqidədə olduqlarını, sizinlə müxalif olmadıqlarını etiraf edir, elə onların sözlərini deyirdilər. Onlar bu sayaq danışırdılar. Amma sonradan məlum oldu ki, onların qəlblərində xəstəlik var, zahirləri gözəl görünsə də çirkin, qara və nifaq dolu qəlbə sahibdirlər. O dövrün möminləri də onların bu rəftarlarına təəccüblənir və deyirdilər: Baxın, necə də and içirdilər?! Bunlar elə həmin adamlar idilər? ***“Sizinlə birlikdə (sizinlə eyni əqidə və düşüncədə) olacaqları barədə Allaha möhkəm andlar içən kəslər bunlardırmı?”***

حَبِطَتْ أَعْمَالُهُمْ فَأَصْبَحُواْ خَاسِرِينَ

***“Onların əməlləri puça çıxdı və (həqiqi) zərərçəkənlərdən oldular.”***

Bu qeyd etdiklərimiz xarici əlaqələrə aid idi. İndi isə daxili əlaqələrə nəzər yetirək:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ

***“Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə (mürtəd olsa), (bilsin ki,) Allah (onun yerinə) başqa bir cəmiyyət gətirər.”***

Allah-Taalanın gətirmək istədiyi cəmiyyət islami, daxili və xarici münasibətlərdə idealdır, belə ki;

يُحِبُّهُمْ وَيُحِبُّونَهُ

***“(Allah) onları, onlar da (Allahı) sevərlər.”***

Görəsən, biz Allahı sevirikmi? Bəzən Allaha olan azacıq sevgi etirafımızda belə sadiq deyilik. “İlahi, Sənə qurban olum” – ifadəsini deməyə haqqımız yoxdur. Çünki yalan danışmış oluruq. Axı, Ona qurban olmağa hazır deyilik! Buna sevgi və dostluq deməzlər. Allaha sevgi budur:

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ

***“(Ey Peyğəmbər!) De: “Əgər siz Allahı sevirsinizsə, Mənə tabe olun ki, Allah da sizi sevsin...””***[1]

Bu, Quranın sözüdür. Demək, həmin ideal və Allaha təslim olan cəmiyyəti Allah da sevir. Onlarla Allahın arasındakı sevgi xüsusiyyəti qarşılıqlıdır: ***“Həm Allah onları, həm də onlar Allahı sevirlər.”***

أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ

***“Onlar möminlərə qarşı mehriban”*** və təvazökardırlar. Bu xüsusiyyət möminlər qarşısında səmimi münasibətin zirvəsidir. İslam cəmiyyətini təşkil edən bu müsəlman kütlədə xudbinlik, məğrurluq,

1. “Ali-İmran” surəsi, ayə 31.

təkəbbürçülük, yersiz gözlənti və puç iddia olmaz. Yəni, onlarla üzləşdikdə, onların xalqdan olduğunu, xalqla bir olduğunu, xalq uğrunda çalışdığını görürsən, özlərini heç vaxt xalqdan ayrı bilmir və sehrli göydələndə gizlənmirlər ki, xalqa uzaqdan tamaşa etsin və xalqa ürək yandırmasınlar. Onlar möminlərə qarşı mehribandır, özlərini Allaha iman gətirənlər qarşısında kiçik sanır, təvazökarlıq edirlər.

أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ

***"Kafirlərə (dinin düşmənləri və Quranın müxaliflərinə) qarşı isə güclüdürlər."***

"Əizzə" sözü "yenilməz" və "başıuca" mənasını ifadə edir; yəni, onlar öz ətrafını islami düşüncələrlə hasara almışlar ki, heç kim onlara nüfuz edə bilməsin.

يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ

***"Allah yolunda mübarizə aparарlar."***

Onların başqa bir xüsusiyyəti də Allah yolunda amansız, qeyd-şərtsiz cihad etmək və mübarizə aparmaqdır. Ayənin davamında buyurulduğu kimi:

وَلاَ يَخَافُونَ لَوْمَةَ لآئِمٍ

***"Heç kəsin tənəsindən qorxmazlar."***

ذَلِكَ فَضْلُ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ

***"Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (Öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir!"***

Növbəti ayədə İslam cəmiyyətinin qəlb rolunu ifa edən mərkəzi qüdrətlə – imam və rəhbərlə əlaqəsindən söz açılır. Baxın, necə də mütənasib və gözəldir. Quranın buyurduğu bu məsələlər üzərində düşünmək insanı necə də aydınladır! Bəziləri elə təsəvvür edirlər ki, bu cür məsələlər Quranda yoxdur. Quran necə də aydın danışır; xarici və daxili münasibətlərdən danışdığı kimi, daxili münasibətlərin qəlbi və mərkəzindən – imam, rəhbər və öndərdən də söz açır və buyurur:

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ

***"Sizin vəliniz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir."***

Vəli (qəyyum və rəhbər) o kəsdir ki, İslam cəmiyyətinin bütün təlaş və fəaliyyətləri ona qayıtmalı və ondan ilhamlanmalıdır, o da Allahdır. Cisim olmayan Allah əmr etmək və qadağa qoymaq üçün insanlarla cismani əlaqə saxlamaqdan uzaq olduğu üçün bəs kimdən ilham

almalıdır? Onun Peyğəmbərindən. Aydındır ki, Allahla Peyğəmbər arasında heç vaxt rəqabət, qarşıdurma və nifrət olmaz. Peyğəmbər Onun tərəfindən göndərilib. Sizin qəyyum və rəhbəriniz Allah və Onun Peyğəmbəridir. Axı, Peyğəmbər də insanlar arasında həmişə yaşamayacaq, hamı kimi, Peyğəmbər (s) də dünyadan gedəcək. إِنَّكَ مَيِّتٌ وَإِنَّهُم مَّيِّتُونَ – ***"(Ey Peyğəmbər!) Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər!"***[1] Peyğəmbərdən (s) sonra necə olacaq? Ondan sonra da rəhbər olmalıdırmı? Bəli! وَالَّذِينَ آمَنُواْ – ***"Möminlər."*** Hansı möminlər? İman gətirən hər kəsmi? Xeyr! Həmin möminlərin bir sıra xüsusiyyətləri olmalıdır:

الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***"O kəslər ki, namaz qılır və rükuda olduqları halda, zəkat verirlər."***

Təfsir alimləri وَهُمْ رَاكِعُونَ – "və hum rakiun" ifadəsindəki "vav" (və) bağlayıcısının "halbuki" bağlayıcısı mənasında olduğunu qeyd etmişlər: "Zəkat verirlər, halbuki, rükudadırlar." Rüku halında zəkat verən kimdir? Əmirəlmöminin Əli (ə). O, bu ayədə vəli, qəyyum və rəhbər olaraq tanıtdırılır.

Biz bu mətləbi bu ayədən başa düşür və "vav" (və) bağlayıcısının "halbuki" mənasında olduğunu deyirik. Fərz edin ki, kimsə buna irad bildirib onun uyğun xüsusiyyətlərə sahib olan bütün möminlərə aid olduğunu da deyə bilər. Sizdən soruşuram: "İslam cəmiyyətində belə ümumi ifadələrə simvol olaraq kimi göstərmək olar?" Əli ibn Əbitalibdən başqa, hansısa birini tanımırıq. O dövrün İslam cəmiyyətində möhkəm və yenilməz imanın simvolu yalnız Əli ibn Əbitalib ola bilərdi, hətta ayənin o Həzrətə aid olmadığını fərz etsək belə, yenə onun həqiqi nümunəsi o Həzrətdir və nəql olunmuş tarixi həqiqətə əsasən, ayə elə o Həzrətin məqamı haqqında nazil olmuşdur.

Dünənki və bugünkü bəhsimizlə bağlı bir mətləbi məclis iştirakçılarının diqqətinə çatdırmağı lazım biliriəm. İmamət və vilayət bəhsini şiə nöqteyi-nəzərindən araşdırsaq da məsələnin mənfi tərəfini deyil, müsbət tərəfini nəzərdə tuturuq. Dəfələrlə qeyd etmişik, indi də qeyd etməyi lazım bilirəm ki, şiə özünü tanımalı və öz əqidəsi ilə tanış olmalıdır ki, imanı daha da artsın, daha da möhkəmlənsin!

Bəhs əsnasında şiəni isbat etmək istəyiriksə, bu, başqalarını inkar etmək anlamında deyildir. Boş yerə fikirayrılığı yaratmaq istəmirəm.

1. "Zumər" surəsi, ayə 30.

Xeyr! Lakin siz şiənin kimliyini başa düşməlisiniz. "Şiə" dedikdə, öz-özünə: "Hələ birinci İslamı isbat edin, sonra şiəlikdən də danışarıq!" – demə! Mənin dediyim şiə İslamdan, İslam da şiəçilikdən başqa bir şey deyil. İslama (misal üçün) on cür baxış var və bəziləri onu şiə görür. Həqiqi İslam da elə budur! Şiənin İslam və Qurandan anlayışı düzgündür, məntiqə, ədalətə və ağıla söykənir. Diqqət yetirdinizmi? Beləliklə, biz öz təsəvvürümüz və nəzər nöqtəmizdən deyil, əksinə İslamın ideoloji əsaslarından danışırıq. Güman etmirəm ki, siz də bu nəzərin əksinə bir söz deyəsiniz. Bu baxımdan biz burada yalnız məsələlərin müsbət yönünü nəzərdə tuturuq.

Biz İslamı şiə məktəbində oxuyub tanıdığımız kimi bəyan edirik. Digər cinahların başqa cür tanımaları və anlayışları ilə də işimiz yoxdur. Hal-hazırda onlarla müzakirə və mübahisə etmək fikrində də deyilik, bir-birimizlə qardaşıq və dostluq əlimizi də onlara tərəf uzadırıq. Nə üçün? Çünki düşmənimiz var, kənarda düşmən pusquda dayanıb. Biz iki qardaşın bir-birimizlə dalaşmağa haqqımız yoxdur. Bu, bizim yolumuzdur ki, diqqətinizə çatdırmaq istədim. Bir sözlə, uyğun mövzunu şiə kontekstindən araşdırırıq və etiqadımız da budur. Elə buna görə də İslama şiə prizmasından baxırıq. Yoxsa, şiə ilə sünni arasında ixtilaf salmaq istəmirik və hətta onu haram bilirik.

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***"Sizin vəliniz (və rəhbəriniz) ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda, zəkat verirlər."***

Vilayətə sahib olmağın bizə faydası və təsiri varmı? Bura qədər vilayətin üç konsepsiyası haqqında söz açdıq: Biri daxili əlaqələrin qorunması və möhkəmlənməsi, biri İslama zidd xarici qüvvələrlə əlaqələrin qırılması, biri də İslam ümmətinin qəlbi və mərkəzi rəhbərliyi ilə, yəni imam və rəhbərlə əlaqələrin davamlılığı və dərinləşməsi. Sual budur: Əgər bu üç konsepsiyaya riayət etsək, nə baş verəcək? Quran ayəsinin bizə cavabı budur:

وَمَن يَتَوَلَّ اللّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُواْ فَإِنَّ حِزْبَ اللّهِ هُمُ الْغَالِبُونَ

***"Hər kəs Allahı, Onun Peyğəmbərini və iman gətirənləri özünə vəli (rəhbər, qəyyum, köməkçi, dost) tutarsa (onlarla əlaqə və münasibətləri qoruyub-saxlayarsa), şübhəsiz ki, (qələbə çalacaq və) qələbə çalanlar, məhz, Allahın dəstəsidir."*** Belələri bütün dəstələrə qələbə çalacaqlar.

## Xülasə

## Cümə günü – Ramazan ayının 25-ci günü

# İSLAM ÜMMƏTİNİN ƏLAQƏLƏRİ

İslam ümmətinin əlaqələri, həqiqətdə, İslam əxlaqı və sivilzasiyasının banisi olan vahid bir cəbhədir. Bu, möminlər və dinə inananlardan ibarət böyük vahid ümmətin təşkilindən sonra genişlənir və "vilayət" prinsipi İslam ümmətinin daxili və xarici əlaqələri və mövqelərində təcəlli edir.

Daxili əlaqələr konsepsiyasında cəmiyyətin bütün üzvləri və dəstələri tam diqqət və ehtiyatla qüvvələri bir istiqamət və hədəfə doğru səfərbər etməli, qüvvələrin bir qisminin sıradan çıxmasına səbəb olan ixtilaf və təfriqədən şiddətlə çəkinməlidirlər.

Aydındır ki, "vilayət"in hər iki konsepsiyasının qorunması (daxili əlaqələrin möhkəmlənməsi, İslama zidd xarici əlaqələrin qırılması) İslamın bütün müsbət və qurucu qüvvələrinin parlaq nümunəsi olan mərkəzi qüdrətin (İmam və İslam hakiminin) varlığını tələb edir. Həmçinin, ümmətin bütün üzvləri imam və İslam hakimi ilə, yəni cəmiyyətin əmək və fəaliyyətinin əsas mərkəzi ilə möhkəm və dərin rabitədə olması da zərurətdir. Elə buradan "vilayət"in digər bir konsepsiyası da aydın olur, o da İslam dünyasının imamı və öndərinin vilayətidir. Aşağıdakı ayələrdə Qurani-Kərimin qeyd edilən incə və dəqiq həqiqətlərə işarələrini mülahizə etmək olar:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الْيَهُودَ وَالنَّصَارَى أَوْلِيَاء – ***Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri (özünüzə) həmrəy və dost tutmayın!***

بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***Onlar bir-birilə həmrəy və dostdurlar.***

وَمَن يَتَوَلَّهُم مِّنكُمْ فَإِنَّهُ مِنْهُمْ – ***Sizdən kim onlarla əlaqə qursa, şübhəsiz, o da onlardandır.***

إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ – *Həqiqətən, Allah zalım tayfanı hidayət etməz!*

فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ يُسَارِعُونَ فِيهِمْ – *Qəlblərində mərəz (xəstəlik) olanların onlara (din düşmənlərinin cəbhəsinə) tərəf tələsdiyini görərsən.*

يَقُولُونَ نَخْشَى أَن تُصِيبَنَا دَآئِرَةٌ – *(Bəhanə gətirib) deyəcəklər: Bizə bir fəlakət üz verməsindən qorxuruq!*

فَعَسَى اللّهُ أَن يَأْتِيَ بِالْفَتْحِ – *Ümid var ki, Allah (möminlərə) bir zəfər gətirsin!*

فَيُصْبِحُواْ عَلَى مَا أَسَرُّواْ فِي أَنْفُسِهِمْ نَادِمِينَ أَوْ أَمْرٍ مِّنْ عِندِهِ – *Öz tərəfindən elə bir iş qursun ki, onlar qəlblərində gizlətdiklərindən peşman olsunlar.*

وَيَقُولُ الَّذِينَ آمَنُواْ أَهَـؤُلاء الَّذِينَ أَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ إِنَّهُمْ لَمَعَكُمْ – *İman gətirənlər dedilər: "Sizinlə birlikdə olacaqları barədə Allaha möhkəm andlar içən kəslər bunlardırmı?"*

حَبِطَتْ أَعْمَالُهُمْ فَأَصْبَحُواْ خَاسِرِينَ – *Onların əməlləri puça çıxdı və (həqiqi) zərər çəkənlərdən oldular.*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ – *Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə (mürtəd olsa), (bilsin ki,) Allah (onun yerinə) başqa bir cəmiyyət gətirər.*

يُحِبُّهُمْ وَيُحِبُّونَهُ – *(Allah) onları, onlar da (Allahı) sevərlər.*

أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ – *Onlar möminlərə qarşı mehriban və təvazökar olarlar.*

أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ – *Kafirlərə qarşı isə güclü və yenilməz olarlar.*

يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ وَلاَ يَخَافُونَ لَوْمَةَ لآئِمٍ – *Allah yolunda mübarizə aparar və heç kəsin tənəsindən qorxmazlar.*

ذَلِكَ فَضْلُ اللّهِ يُؤْتِيهِ مَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ – *Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (Öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir!*

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ – *Sizin vəliniz (və ictimai əlaqələr mərkəziniz) ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir."*

الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ – *O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər.*

وَمَن يَتَوَلَّ اللّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُواْ فَإِنَّ حِزْبَ اللّهِ هُمُ الْغَالِبُونَ – *Hər kəs Allahı, Onun Peyğəmbərini və iman gətirənləri özünə vəli tutarsa (onlarla əlaqə və münasibətləri qoruyub-saxlayarsa), şübhəsiz ki, (qələbə çalacaq və) qələbə çalanlar, məhz, Allahın dəstəsidir."*

("Maidə" surəsi, ayə 51-56.)

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ حَقَّ تُقَاتِهِ – ***Ey iman gətirənlər! Allahdan layiqincə qorxun (təqvalı olun).***

وَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنتُم مُّسْلِمُونَ – ***Yalnız müsəlman (Allaha həqiqi mənada təslim) olduğunuz halda ölün!***

وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعًا وَلاَ تَفَرَّقُواْ – ***Hamılıqla Allahın ipindən möhkəm yapışın və pərakəndə olmayın!***

("Ali-İmran" surəsi, ayə 102-103.)

## İYİRMİ BEŞİNCİ MƏCLİS

## VİLAYƏT CƏNNƏTİ

Bazar günü – 1974/10/13
Ramazan ayının 26-sı.

بسم الله الرحمن الرحيم الَّذِينَ

إِن مَّكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ وَآتَوُا الزَّكَاةَ وَأَمَرُوا بِالْمَعْرُوفِ وَنَهَوْا عَنِ الْمُنكَرِ وَلِلَّهِ عَاقِبَةُ الْأُمُورِ

***“O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namazı bərpa edər, zəkat verər, (insanları) yaxşı işlərə əmr edib pis işlərdən çəkindirərlər. Bütün işlərin sonu Allaha aiddir.”***

“Həcc” surəsi, ayə 41.

Keçən bəhslərin davamı olaraq, bu məclisimizdə də vilayətlə bağlı qeyd olunması zəruri olan məsələyə toxunacağıq. Ötən iki-üç məclisdə vilayətçi fərd və cəmiyyət haqqında qısa danışdıq, uyğun mövzu ilə əlaqədar Əhli-beyt (ə) maarifindən ilham alaraq, bəzi Quran ayələri üzərində düşündük; həm Quran ayələrinə, həm də hədislərə istinadən yekun nəticəni diqqətinizə çatdırdıq.

Qeyd etdiklərimizin xülasəsi bu oldu ki, vilayət bir neçə konsepsiyadan ibarətdir. Onlardan biri budur ki, müsəlman cəmiyyəti (Allaha zidd) xarici qüvvələrə və qeyri-müsəlmanlara bağlı olmamalıdır. İzah etdik ki, bağlı olmamaqla əlaqə yaratmaq ayrı-ayrı kateqoriyalardır. İslam aləminin özünü siyasi və iqtisadi əlaqələrdən təcrid etməsini, qeyri-müsəlman millətlər, ölkələr və qüdrətlərlə münasibət yaratmamasını əsla demirik. Məsələ fərqlidir, belə ki, digər qüdrətlərə bağlı və müti olmamalı, müstəqil olmalı və öz ayağı üstə durmağı bacarmalıdır.

Vilayətin başqa bir konsepsiyası müsəlman qüvvələrin bir-birilə (daxili) əlaqə və bağlılıqlarının möhkəmliyindən ibarətdir. Yəni, İslam

cəmiyyətində vilayətin mənası birlik və həmrəylikdir. Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan bir hədisdə belə buyurulur:

مَثَلُ المُؤمُنينَ في تَوادِّهم وتَراحُمِهِم كَمَثَلِ الجَسَدِ

*"Möminlərin bir-birinə sevgi və qayğıkeşliyi bir bədənin misalı kimidir..."*[1] Onların bir-birinə bağlılığı bir binanı və onun hissələrini bir-birinə bağlamış materiallarını xatırladır. Müsəlmanlar da bir-birinə bağlanmalı, bir-birilə birləşməli və əlbir olmalı, müxalif qüdrətlərin düşmənçilikləri qarşısında vahid bir yumruğa çevrilməlidirlər. Bu mətləbi dünənki məclisimizdə tilavət etdiyimiz ayədə tamamilə müşahidə etdik. "Maidə" surəsində buyurulur:

أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ

***"Onlar möminlərə qarşı mehriban, kafirlərə qarşı isə güclüdürlər."***[2]

مُّحَمَّدٌ رَّسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ أَشِدَّاء عَلَى الْكُفَّارِ رُحَمَاء بَيْنَهُمْ

***"Muhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, öz aralarında isə mehribandırlar."***[3]

Möminlər xarici cəbhə ilə üzləşdikdə, müstəqil, möhkəm və yenilməz, öz aralarında isə mülayim, mehriban və təvazökar olarlar, hamı bir-birindən təsirlənər, bir-birini xeyirxahlıq, yaxşılıq, haqqa tabe olmaq və haqq uğrunda mübarizə aparmağa, habelə pisliklər, pozğunluqlar və azğınlıqlar müqabilində müqavimət göstərməyə dəvət edərlər. Bir sözlə, İslam cəmiyyətində hamı bir-birini qoruyub-saxlayır. Keçən məclislərin birində buna dolambac yollarla dağlara dırmaşan on nəfər alpinisti misal çəkdik. Belə ki, əgər onlar dağa dırmaşarkən birinin ayağı sürüşərsə, 300-500 metr hündürlükdən aşağı süqut edir. Burada bütün alpinistlərin dağın qülləsinə sağ-salamat qalxmaları üçün yeganə yol onların kəndirləri bir-birinə möhkəm bağlamaları, bir-birini özlərinə tərəf çəkib aparmaları, əllərindən tutmaları və bir-birini "Filankəs, yolu azmadınmı? Gələ bilirsənmi? Acmayıbsanmı?" – deyə səsləmələridir. Beləcə, onlar bir-birinin maddi və psixoloji baxımdan hazırlığını, yolu tanıyıb-tanımadığını, zəif olub-olmadığını öyrənir, ailənin bütün üzvləri arasındakı səmimi rəftarlar tək, bir-birinə yardım etməyə və yolu

1. "Biharul-ənvar", "İnsan və ruh" başlığı, "Ruhların bədəndən öncə yaradılışı" bölməsi, hədis 29.
2. "Maidə" surəsi, ayə 54.
3. "Fəth" surəsi, ayə 29.

göstərməyə çalışırlar. Bu da İslam cəmiyyətinə hakim vilayət prinsipinin başqa konsepsiyasıdır.

Yenə ötən məclislərin birində qeyd etdiyimiz daha mühüm, eyni zamanda vilayətin birinci və ikinci konsepsiyasının gerçəkləşməsinə zəmanət verən növbəti konsepsiya İslam cəmiyyətinin xüsusi şərtlərə sahib idarəetmə mərkəzinə ehtiyac duymasıdır. Çünki İslam cəmiyyəti vahid bədən hökmünü daşıyır; həm daxili münasibətlərdə cəmiyyət bir-birilə sıx əlaqə saxlamalı, həm də xarici münasibətlərdə vahid yumruq və bədən tək (İslama zidd) xarici cəbhələr qarşısında möhkəm dayanmalıdır. Çünki bu vəhdət və birlik İslam cəmiyyəti üçün bir zərurətdir və mərkəzi idarəetmə qüvvəsinə sığınmadan vəhdətin formalaşması qeyri-mümkündür. Əgər İslam dünyasının hər bir guşəsinə ayrı-ayrı amillər və qüdrətlər hakim olarlarsa, təbii ki, bu bədənin üzvləri parçalanacaq, bir-birindən ayrılacaq və bir istiqamət üzrə hərəkət edə bilməyəcəklər. Buna insanın beyninin mövcud idarəetmə mərkəzi sinir sistemini biri sağ, digəri isə sol tərəfə çəkən iki növ sinir sistemi ilə əvəz edilməsi kimi misal göstərə bilərik. Əgər mən hər iki əlimi eyni vaxtda və eyni istiqamətdə tərpətmək istəsəm, bunu bacararam. Çünki hər iki əlim eyni mərkəzdən əmr alır. Ağırlığı qaldırıb yerini dəyişən şəxsin hər iki əli bir mərkəzin (eyni sinir mexanizminin) əmrinə tabe olduğundan, hər iki əl birgə işləyir və ağırlığı mütənasib şəkildə qaldırır. Lakin insanın bədənində iki mərkəzi sinir sistemi olarsa, biri sağ, digəri isə sola hökm verər və sağ-sol bir-birilə həmahəng olmaz; ağırlığı qaldırmaq üçün sağ əl barmaqlarını açacaqsa, sol əl başqa mərkəzin hökmünə tabe olduğu və ondan əmr aldığı üçün barmaqlarını daha da möhkəm yumacaq. Sağ əl sol əli həmkarlığa və ağırlığı qaldırmağa çağırsa da eşitməyəcək. Sağ əl ağırlığı qaldırmağa hazır olsa da sol əl möhkəm yumulacaq və ağırlığı qaldırmağa hazır olmadığını bildirəcək. Yumulmuş və yumruğa çevrilmiş bu əl düşmənə zərbə endirməyi qərar alıb o biri əldən kömək istədikdə, başqa sinir sisteminə tabe olduğu üçün həmkarlıq etməyəcək, yumruğa çevrilib düşmənə zərbə endirməyə hazır olmadığını bildirəcək. Görün, insanın bədəninə iki fərqli sinir sistemi hakim olarsa, insan hansı gülünc vəziyyətə düşər! Elə buna görə də bir ağırlığı qaldırmaq, onun yerini dəyişmək, habelə düşmənin hücumunu dəf etmək istədikdə aciz qalar, bunu bacarmaz.

Əgər düşmənlərin hücumunu dəf etmək üçün İslam cəmiyyətində

pərakəndəlik yaranıb bir dəstəsi bu gün, digər dəstəsi isə sabah hücuma keçməyi qərar alarsa, faydası olmayacaq (və istənilən nəticə əldə edə bilməyəcək). Öz düşməni ilə döyüşə başlamaq istəyən bir cəmiyyət (və bir bədənin) mütləq bütün dəstələri eyni vaxtda düşmənə müqavimət göstərməli və hücuma keçməlidir. Bu gün bir dəstə, sabah isə başqa dəstə, o biri gün başqa bir dəstə yuxudan ayılacaqsa, düşmən çox rahatlıqla qələbəyə nail olacaq. Bir macərada nəql olunur ki, üç nəfər üzüm bağına girir. Bağban onları üzüm bağından qovmaq üçün xüsusi məharətlə hiylə işlədir və onların arasında ayrılıq salaraq onları elə öz əlləri ilə cəzalandırır. [1] İslam tarixində belə hadisələr dəfələrlə baş vermişdir.

Əgər İslam cəmiyyəti vaxtında öz mənafeyinə sahib çıxmaq və zərərləri dəf etmək istəyirsə, daxili münasibətlərdə bir-birilə sıx rabitə qurmalı, bir olmalıdır. Xarici münasibətlərdə də düşmən müqabilində bir yumruğa çevrilməlidir. Bir sözlə, vilayətin iki konsepsiyasını təmin etmək istəyirsə, daxildə güclü mərkəzi rəhbərliyə ehtiyacı vardır ki, cəmiyyətin bütün fəal qüvvələri əməli və ideoloji qidalarını, fəaliyyətlərini, düşmənlə mübarizə metodunu və sevgi münasibətlərini həmin mərkəzdən ilham almaqla əldə edə bilsin. İslam cəmiyyətində bütün qüvvələr bu mərkəzin rəhbərliyi ilə idarə olunur, hər kəs öz layiqli missiyasını icra edir, qarşıdurmadan çəkindirilir, qüvvələr bir istiqamətə yönəldilir. Həmin rəhbər mütləq Allah tərəfindən seçilməli, alim və məlumatlı olmalı, İslamın bütün ali göstərişlərinin və Quranın təzahürünə çevrilməlidir. Qeyd etdiyimiz iki konsepsiyanın icrası üçün cəmiyyətdə "vəli" adını daşıyan ilahi rəhbərin varlığı vacibdir. Bu da vilayətin üçüncü konsepsiyasından ibarətdir. Vilayət bəhsi ilə bağlı ötən məclislərimizin xülasəsi bundan ibarət idi.

Növbəti məsələ isə budur: Biz vilayətçiyik, ya yox? Mən və sən vilayətçi ola bilərik, amma xalq kütləsi necə? Bunun fərqi varmı? Əlbəttə ki, var! Ola bilər ki, bədənin hansısa bir üzvü sağlam olsun, amma onun sağlam olması bütün bədənin sağlam olması mənasında deyil. Bundan əlavə, əgər sağlam üzvün yerləşdiyi bədən sağlam deyilsə, sağlam üzvün bütün funksiyalarını icra edə bilməyəcək. Əvvəla, vilayətçi insanın necə bir insan olduğunu araşdırmalıyıq ki, onun həqiqətən də vilayətçi olub-olmadığını anlayaq. Bu, bizə sabit və aydın olduqdan sonra, inşallah,

---

1. "Məsnəvi", Mövləvi.

cəmiyyətin də vilayətçi olması üçün necə olacağını araşdırmalıyıq.

Vilayətsiz cəmiyyətdə bir insanın vilayətçi olmasını fərz etməyimizin heç bir eybi yoxdur. Amma görəsən, bu insanın bununla məsuliyyəti bitirmi? Onun özü vilayətçi olduğu halda, vilayətdən məhrum bir cəmiyyətdə yaşayırsa, onun yaşayışı arzu olunandırmı? Əgər vilayətçi bir şəxs vilayətsiz bir cəmiyyətdə yaşadığı halda cəmiyyətin vilayətsiz olmasına laqeyd yanaşırsa, onun laqeydliyi vilayətçi olmasını sual altına atmırmı, ona zərər yetirmirmi? Bu, siz müsəlman gəncin, kişi və qadının düşünülməsi zəruri olan məsələ deyilmi? Bunların hər birini ayrı-ayrılıqda geniş şəkildə şərh etmək üçün vaxt lazımdır. Bu qədər vaxtımız olmadığından, hər bir məsələ haqqında bir saat danışmağı qərara almışıq.

Birinci məsələ odur ki, əvvəla, görək, vilayətçi insan necə olmalıdır? Vilayətçi insanla vilayətçi olmayan insan arasında fərq nədir? Bu, bir mətləb!

İkincisi, biz – cəmiyyət, (vilayət eşqilə) daim bir yerə toplaşan ictimai heyətlər axı nə üçün vilayətçi olmamalıdır? Hansı hallarda ilahi rəhbəri olan cəmiyyətin vilayəti islami göstərişlərə əsaslanır, hansı hallarda isə islami vilayətdən məhrumdur?

Üçüncüsü, vilayətçi insanın vilayətçi olması ilə mükəlləfiyyəti sona yetirmi? Cəmiyyəti vilayətçi etmək onun mükəlləfiyyət və vəzifəsi deyilmi?

Dördüncüsü, əgər vilayətdən məhrum bir cəmiyyətdə yaşayan vilayətçi bir şəxs öz cəmiyyətini vilayətçi etmək üçün məsuliyyət hissi daşımırsa, onun özünün vilayətçi olmasını sual altına atmırmı? Bu məsuliyyətsizlik hissi onun vilayətçi olmasını zəiflətmirmi? Bu da başqa bir məsələdir.

Bu məsələləri araşdırmaq lazımdır. İndi bir-ikisini araşdıracaq və haqqında söz açacağıq. Söhbətdən sonra özünüz Quran ayələri və hədislərin buyurduğu vilayətin mütərəqqi və məntiqli mənasını rahattələb, səhlənkar və işdən yayınan tənbəl bir şəxsin öz təsəvvüründəki vilayətin mənası ilə bir müqayisə aparın.

Bəziləri elə təsəvvür edirlər ki, insanın vilayətçi olması yalnız Əhli-beyt (ə) məclislərində ağlaması, Əhli-beytin (ə) adı çəkiləndə dərhal "ələyhis-salam" (və salavat) deməsi deməkdir, elə bu qədər! Onlara görə, vilayətçi olmaq yalnız qəlbində Əhli-beytə (ə) sevgini daşımaqdır. Bəli, Əhli-beytə (ə) sevgi vacibdir, onların adlarını ehtiramla çəkmək və

yaşatmaq, xatirəsinə məclis qurmaq, əza və şad günlərindən ibrət almaq, onların sevincini danışmaq, məzlumiyyətinə ağlamaq və şücaətindən danışmaq, onlara əza saxlamaq – bütünlüklə, bu məsələlər lazımıdır. Amma bu məsələlər insanı vilayətçi etmir. Vilayət daha üstün bir məqamdır. Şəhidlər sərvəri İmam Hüseynin (ə) məclisində əyləşən və ağlayan şəxs ağladığı üçün yaxşı iş görür, lakin vilayətçi olması üçün yalnız ağlamaqla kifayətlənməsi yaxşı hal deyil, bəyənilmir.

Nə dediklərimi düzgün anlayın. Zehni bəzi muzdurların və qərəzli insanların qərəzli və yaxud cahilcəsinə təlqinləri ilə dolu olan şəxslər yaxşı diqqət yetirsinlər. Deməyin ki, kimlərsə şəhidlər sərvəri İmam Hüseynə (ə) ağlamaqla müxalifdir. Xeyr! Kim müxalif olsa da biz müxalif deyilik, onun tərəfdarıyıq! Biz deyirik ki, İmam Hüseynə (ə) ağlamaq bəzən bir millətə nicat verə bilər. "Təvvabin" dəstəsi İmam Hüseynin (ə) qəbrinin üstündə əyləşib bir gün, yaxud iki gün, yaxud da üç gün yalnız ağladı. Bu ağlamağın nəticəsi nə oldu? Nəticədə həmin dəstənin üzvləri bir-birilə ölüm-qalım barədə əhd-peyman bağladı, döyüş meydanına üz tutub bir də sağ-salamat geri dönməmək üçün qəti qərara gəldi. İmam Hüseynə (ə) ağlamaq budur və kimsə bununla müxalif deyil.

Heç bir ağıllı, heç bir şiə, heç bir əhli-sünnə, hətta kafir də İmam Hüseyinin (ə) və Əmirəlmöminin Əlinin (ə) adının izzət və əzəmətlə çəkilməsinə qarşı deyil. Onları tanıyan hər kəs təsdiq edir ki, onların adını izzət və əzəmətlə çəkmək lazımdır. İyirmi ikinci məclisimizdə qeyd etmədik ki, mirası şəhidlik və Allah yolunda fədakarlıq olan ailə izzət və əzəmətlə yad edilməlidir? Əlbəttə ki, yad edilməlidir.

Mən sizə söz verirəm, Avropaya, Amerikaya, küfr ölkələrindən hər birinə, İslama yad olan və "İslam" adını eşitməyən hər bir məntəqəyə səfər edin və onlara Həzrət Əli ibn Əbitalibin (ə) sərgüzəştini əvvəldən axıra kimi, xülasə şəkildə danışın. O zaman görəcəksiniz ki, həyatı iftixarlarla dolu olan bu simanın ehtiramına əl çalacaq, onu ehtiramla yad edəcək, baş əyəcək, onun adını sizdən yadigar qalmış əziz bir xatirə tək qoruyub-saxlayacaqlar. Həzrət Əli ibn Əbitalibin adı çəkildikdə, onun ardınca dərhal "ələyhis-salam" (ona salam olsun) – deməklə hünər göstərməmisiniz, mühüm bir iş görməmisiniz, çünki bu, yalnız şiəyə məxsus deyil. Elə təsəvvür edirsiniz ki, vilayət elə budurmu? Bu cür düşünmək, böyük yanlışlıqdır və bu vilayət insanı Cənnətə aparmaz. Əlbəttə, İmam Hüseynə (ə) ağlamaq "vilayət" adlı mühüm prinsipin ən

kiçik hissələrindən biridir. Bəziləri qərəz üzündən yox, cəhalətdən ağlamaq məsələsini önə çəkirlər. Heç Əhli-beytin (ə) ideoloji düşmənləri və onların düşmənçiliklərindən danışan yoxdur. Amma vilayət və şiəliyin səthi məsələlərini daha çox qabardır və vilayəti bu kimi məsələlərə həsr edirlər. Maraqlıdır ki, vilayəti yaxşı dərk edənləri, yaxşı tanıyanları və həqiqi vilayətçiləri məhkum etmək üçün elə bu silahdan istifadə edirlər. Vilayət prinsipini aradan qaldırmaq və onu kiçik çərçivədə məhdudlaşdırmaq necə də əla, ləzzətli görünür, amma İslamın bu mühüm prinsipinə layiq deyil.

İnsanın vilayətçi olması onun ilahi rəhbərlə etiqadi və əməli rabitəsinin günü-gündən daha da artması anlamındadır. İslam cəmiyyətinin həqiqi ilahi rəhbərini axtarıb tapdıqdan və tanıdıqdan sonra, etiqadi, əməli, ruhi-psixoloji və digər sahələrdə özünü ona yaxınlaşdırmalı, onunla daim rabitədə olmalı və ardınca hərəkət etməlisən. Əgər sənin təlaşın onun təlaşı, sənin mübarizən onun mübarizəsi, sənin sevgin onun sevgisi, sənin düşmənçiliyin onun düşmənçiliyi və sənin cəbhən onun cəbhəsi ilə eynilik təşkil edirsə, sən vilayətçisən. Nə dediyimi başa düşdünüzmü? İlahi rəhbəri tanımaq, onun fikirlərini öyrənmək, onunla həmfikir və əməlləri ilə tanış olmaq, onun yerinə yetirdiyi əməlləri yerinə yetirmək, ona tabe olmaq, özünü etiqadi və əməli baxımdan ona yaxınlaşdırmaq vilayətçi insanın xüsusiyyətləridir.

Kim əlini qaldırıb deyə bilər ki, mən vilayətçiyəm? Kim vilayətçi olmadığını etiraf edə bilər? Vilayəti yalnız Əli ibn Əbitalibə (ə) məhbbətdə məhdudlaşdırmışıq. Özümüz üçün bir əfsanə və xurafat düzəltmişik. Əməlimiz və etiqadımız Əli ibn Əbitalibin (ə) əməlinə və etiqadına zidd olsa da o Həzrətə azacıq göz yaşı axıdır, adını "vilayət" qoyur və ürəyimizi bununla sevindiririk. Adımızı da həqiqi vilayətçi və Əli ibn Əbitalibin (ə) tərəfdarı qoymuşuq. Bu isə cəfadır, Əli ibn Əbitalibin (ə) və İslamın haqqına qarşı böyük zülmdür. Çünki vilayət İslamın bir prinsipidir. Vilayəti anlamağa hazır olmadığımız halda, bu mühüm prinsipə qarşı böyük zülmü rəva görürük.

İmam Sadiq (ə) hörmətə layiq gördüyü vilayətçi tərəfdarlarını əməl sahibi kimi tanıtdırırdı. Elə buna görə də buyururdu: *"Hər kim əməl sahibidirsə, bizim dostumuzdur, hər kim əməl sahibi deyilsə, bizim düşmənimizdir."* Çünki İmam Sadiq (ə) vilayəti belə məna edirdi. O

Həzrətin təfəkküründəki vilayət o Həzrətin adı ilə yaşayan qərəzli və yaxud cahil insanın təfəkküründəki vilayətin mənası ilə tamamilə fərqlənirdi. Axı nə üçün vilayətin mənasını anlamamalıyıq? Nə üçün İslamdan, dünya və axirətdən uzaqlaşmamaq, geridə qalmamaq və irticadan qurtulmaq üçün İslamın bu prinsipini dərindən dərk etməməliyik? Qorxuram ki, özümüzü Cənnət şövqü ilə bir ömür dünya Cəhənnəmində saxlayaq, can verdiyimiz zaman – uzun-uzadı arzularımızın təcəssüm etdiyi bir vaxtda Cənnətdən uzaq düşək. Bir insanın vilayətçi olması "ilahi rəhbərə mütləq şəkildə bağlılığı" deməkdir. Odur ki, ona bağlı olmaq lazımdır.

Amma bir cəmiyyətin vilayətçi olması nə deməkdir? O deməkdir ki, həmin cəmiyyətdə, əvvəla, ilahi rəhbər müəyyən olmalı və hamı onun ilahi rəhbər olmasını bilməlidir. İkincisi, həmin cəmiyyətin bütün qüvvələri, əmək və fəaliyyətləri bir mərkəzə əsaslanmalı, bir mənbədən ilham almalı və qidalanmalıdır. Bütün əmrlər həmin mərkəzdən verilməli, bütün qanunlar onun vasitəsilə icra olunmalı, hər bir məsələ həmin mərkəzdə birləşməli, hamı diqqətini ona yönləndirməli, ona tabe olmalı və həyat mühərriki onun əli ilə işə salınmalıdır. O, bu cəmiyyətin sürücüsü və həyat karvanının öncülü olmalıdır. Belə bir cəmiyyət "vilayətçi cəmiyyət" adlanır.

Əmirəlmömin (ə) Peyğəmbəri-Əkrəmdən (s) sonra iyirmi beş il cəmiyyətin rəhbərliyindən kənar saxlanıldı. İslam cəmiyyəti Peyğəmbəri-Əkrəmdən (s) sonra iyirmi beş il vilayətsiz qaldı. Bununla da hər bir şey bitdi. Həmin cəmiyyətdə Salman, Əbuzər, Miqdad və digər bir neçə nəfər vilayətçi olsa da İslam cəmiyyəti vilayətçi idimi? Peyğəmbəri-Əkrəmdən (s) sonra İslam cəmiyyəti iyirmi beş il vilayətsiz qaldı. Əmirəlmöminin Əli (ə) hakimiyyətə gəldikdən sonra, İslam cəmiyyəti vilayətçi oldu. Haçana qədər? Həzrət Əli (ə) hakimiyyətdə olub qanunların, bilik və maarifin qaynağı olduğu vaxta qədər! Vilayətçi cəmiyyətin mənası budur! Cəmiyyət o zaman vilayətçi adlanır ki, həmin cəmiyyətə İmam (ilahi rəhbər) hakim olsun, bütün göstərişlər, əmr və qadağalar onun tərəfindən verilsin, cəmiyyəti əməli olaraq İmam idarə etsin, döyüş bayrağını İmam dalğalandırsın, hücum əmrini İmam versin və sülh müqaviləsini İmam imzalasın. Əks-təqdirdə, vilayətçi cəmiyyətdən söz gedə bilməz.

Əgər siz vilayətçi və bu nemətə sahibsinizsə, Allaha şükür edin.

Vilayətdən böyük nemət yoxdur. İndi vilayətdən böyük bir nemət olmadığını sizə izah edəcəyəm. Əgər vilayətçi deyilsinizsə, vilayətçi olmaq üçün çalışın. Özümüz və cəmiyyətimizdə vilayət ruhiyyəsini təmin etmək, Həzrət Əlinin (ə) həyatını özümüzə örnək bilmək və o Həzrətin arxasınca hərəkət etmək üçün çalışmalı, Allahın vəlisi (ilahi rəhbər) olan Əli (ə) ilə rabitəmizi möhkəmlətməliyik. Bunun üçün çalışmaq, mübarizə aparmaq və çətinliklərə sinə gərmək lazımdır. Deməliyəm ki, məsum imamlar Əmirəlmöminin Əlinin (ə) şəhadətindən sonra daim vilayət yolunda çalışmışlar. Onların bütün zəhmət və səyləri vilayətin yaşaması, İslam cəmiyyətinin dirçəlişi, bu bağda əkilən "insan" adlı fidanın saf və həyatverici vilayət suyu ilə canlanması və çiçəklənməsinə həsr olunmuşdu.

Bir cəmiyyətin vilayətçi olması üçün çalışmağın mənası daim oturub höcətləşmək, mübahisə etmək, ağzına gələni danışmaq və onu-bunu söymək deyil. Bu işlərlə vilayətçi olmaq olmaz, əksinə bu işlər insanı vilayətdən daha da uzaqlaşdırır. Yolu isə İslam rəhbərinin – Allahın buyurduğu rəhbərin qüdrətli olması üçün çalışmaqdır. Ötən məclisdə ilahi rəhbərin xüsusiyyətləri haqda danışdıq və qeyd etdik ki, bəzən, ilahi rəhbər Allah tərəfindən adı və xüsusiyyətləri ilə təyin edilir, misal üçün, İmam Əli ibn Əbitalib (ə), İmam Hüseyn ibn Əli (ə), Həsən ibn Əli (ə) və digər imamların bir-bir adları və xüsusiyyətləri müəyyən edilir, bəzən də Allah tərəfindən təyin olunmuş rəhbərin kəlamında buyurulduğu kimi, adı ilə deyil, (ümumi) xüsusiyyətləri ilə göstərilir:

فَأَمَّا مَنْ كَانَ مِنَ الْفُقَهَآءِ صَآئِنًا لِنَفْسِهِ، حَافِظًا لِدِينِهِ، مُخَالِفًا عَلَي هَوَاهُ، مُطِيعًا لِاَمْرِ مَوْلَاهُ؛
فَلِلْعَوآمِّ أَنْ يُقَلِّدُوهُ

*"Fəqihlərdən hər kəs öz nəfsinə hakim olsa, dinini qorusa, nəfsinin istəklərinə müxalif olsa və mövlasının əmrlərinə itaət etsə, avamların vəzifəsi ona təqlid etməkdir."*[1]

Hər ikisi Allah tərəfindən seçilir, lakin birini adı ilə, digərini isə adını çəkmədən təyin edir. Misal üçün, bütün xüsusiyyət və meyarları nəzərdən keçirib onun Ayətullah əl-üzma Bürucerdi olduğunu görürsən. Diqqət yetirdinizmi?

Əgər cəmiyyət vilayətçi olarsa, nə baş verəcək? Bunu bir cümlədə bəyan etmək istəyirəm: "Ölü cəmiyyət cana gələcək." Bu cümlə

1. "İmam Həsən Əskəriyə (ə) mənsub təfsir kitabı", "Bəqərə" surəsinin 78-79-cu ayələrinin təfsiri.

kifayətdir. Cansız bir ölünü nəzərdən keçirin. Onun beyni olsa da fəaliyyət göstərmir, gözü olsa da görmür, ağzı olsa da yeməyi çeynəmir, uda bilmir. Qaraciyəri, mədəsi və həzmedici orqanı var, amma yeməyi cəzb etmir, damarı var, amma qan cərəyan etmir, qan var, amma dövr etmir. Nə üçün? Çünki cansızdır. Əli var, amma üstündəki qarışqanı dəf etmir, ayağı var, günəşin altından kölgəli yerə keçə bilmir; çünki ölüdür. Ona can verildikdə, beyin və sinir sistemi fəaliyyətə başlayır, əl hərəkətə gəlir, ağız işləyir, mədə həzm edir, mədə-bağırsaq sistemi və qan dövranı fəaliyyətə başlayır və bədənin bütün orqanları güclənir, bədənə istilik gəlir, onu hərəkətə gətirir, yeriməyə, düşmənlə mübarizə aparmağa, dostluqları bərpa etməyə başlayır və özünü tez bir zamanda daha da kamil və gümrah vəziyyətə çatdırmaq istəyir.

Bir cəmiyyətdə vilayət prinsipinin anlaşılması üçün bu misalı zehninizdə canlandırıb ölü insan bədəninin yerinə insan cəmiyyətini və ruhun yerinə vilayəti qoyun. Vilayətsiz cəmiyyətdə mövcud istedadlar ya məhv olub aradan gedir, ya da daha acınacaqlı vəziyyətdə insanın zərərinə tamamlanır. Beyni və düşüncə qabiliyyəti var, amma onu fəsad və pozğun yolda, insan qətli, dünyanı yandırmaq, insanları bədbəxt etmək, zülm və müstəmləkə sütunlarını möhkəmlətmək uğrunda sərf edir. Onun gözü olsa da lazım olmayanları yaxşı görür, lazım olanları isə əsla görmür. Qulağı olsa da haqq sözü eşitmir, sinir sistemi haqq sözü beyinə ötürmür, bədən üzvləri haqq əsasında mühakimə yürütmür, haqq əsasında rəftar etmir və işləməyə icazə vermir. Vilayətsiz cəmiyyətin vəziyyəti budur!

Vilayətsiz cəmiyyətdə çıraqlar nəinki işıq saçmır, hətta onun içindəki azacıq yağ belə tükənib quruyur.

Peyğəmbərin (s) hidayət çıraqları və məşəllərə tökdüyü yağların necə quruduğunu gördünüzmü? Onlar Peyğəmbərin (s) vəfatından sonrakı günlərdə necə alışıb yanır və işıq saçırdı, çünki yağını Peyğəmbər (s) tökmüşdü. Amma bu məşəllər və çıraqların üzərində vilayət əli olmadığı üçün işığı azaldı, yağı dibinə çökdü, tükəndi, tüstüləndi və iyləndi. Osmanın, ondan sonra isə Müaviyənin hakimiyyəti dönəmində gördünüzmü hansı vəziyyətə düşdü? Axı, Fatimeyi-Zəhra (s.ə) bu haqda ənsar və mühacir qadınlara xəbərdarlıq etmişdi! İlk günlərdə o Həzrətə qulaq asan olmadı. Həzrət Fatimeyi-Zəhranın (s.ə) proqnozlarını o günün

qafil müsəlman cəmiyyəti anlaya bilmədi. [1] Bütün xəbərdarlıqlar gerçəkləşdi. Bütün fəzilətləri öldürən həmin qanlı ülgüc, insanları və insanlığı boğan həmin əl haqqında o Xanım məlumat vermişdi. O Xanımdan öncə Peyğəmbər (s) məlumat vermişdi. Onlar özləri bunu görür və anlayırdılar, lakin İslam cəmiyyəti anlamadı. Qulaqlar ağırlaşdı, karlaşdı. Bu gün də Xanım Fatimeyi-Zəhranın (s.ə) səsi hələ də qulaqlarda cingildəyir. Ey həssas və ayıq qulaqlar! Eşidirsinizmi?

Vilayətçi cəmiyyətdə bütün insani istedadlar inkişaf edir, insanın təkamülə və ali dəyərlərə yiyələnməsi üçün Allahın ona bəxş etdiyi bütün vasitələr hazırlanır, insanlıq fidanı çiçəklənir, insan təkamülə yetir və insanlıq güclənir. Bu cəmiyyətdə bütün qüvvələrin dönüş mərkəzi olan, siyasi baxımdan xalqı Allaha yönəldən və Allahı xatırladan, iqtisadi baxımdan isə sərvəti ədalətlə bölən ilahi rəhbər yaxşılıqları artırmağa, pislikləri isə məhv etməyə çalışır.

Qurani-Kərimdə buyurulur:

الَّذِينَ إِن مَّكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ

***“O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namazı bərpa edərlər.”***[2] Allaha tərəf addımlayarlar, hərəkət istiqamətləri Allaha doğru olar, ilahi göstərişlər əsasında hərəkət edərlər. Namaz insanların Allahı zikr etməsi, cəmiyyətin Ona diqqət yetirməsi və Ona üz tutması üçün bir simvoldur.

وَآتَوُا الزَّكَاةَ

***“Zəkat verərlər.“*** Sərvəti ədalətli şəkildə bölərlər. Qurani-Kərimdə zəkatın əhatə dairəsi çox genişdir. Mənim zənnimcə, Qurani-Kərimdə “zəkat” ifadəsi bütün mali sədəqələrə və infaqlara (Allah yolunda sərf olunmuş mallara) şamildir və bununla bağlı bəzi arqumentlər də əldə etmişəm. (Bunu bir ehtimal olaraq qəbul edin.)

***“Zəkat verərlər.“*** – ifadəsində məqsəd odur ki, onlar sərvətdə ədalətə və ədalətli bölgü prinsipinə əməl edirlər. Zəkatla bağlı rəvayətlərdə deyilir ki, zəkat sərvətin ədalətlə bölgüsünə səbəb olur.

وَأَمَرُوا بِالْمَعْرُوفِ

***“Yaxşılığa əmr edər“*** və yaxşı işləri artırarlar.

وَنَهَوْا عَنِ الْمُنكَرِ

1. “Biharul-ənvar”, “Tarixi-Fatimə (s.ə)”, “Fatiməyə (s.ə) rəva görülən zülmlər” bölməsi, hədis 9.

2. Həcc” surəsi, ayə 41.

***"Pislikdən çəkindirər"*** və onu kökündən kəsərlər.

Biz elə təsəvvür edirik ki, yaxşılığa əmr etmək və pislikdən çəkindirmək buna bənzəyir: "Misal üçün, mən sizə əmr edirəm ki, filan pis işdən çəkinməli və filan yaxşı işi yerinə yetirməlisiniz." Yalnız sözdə əmr etmək və çəkindirməyin kifayət etdiyini düşünürük. Halbuki, dildə əmr etmək yaxşılığa dəvətin və pislikdən çəkindirməyin nümunələrindən biridir. Əmirəlmöminin Əlidən (ə): "Nə üçün Müaviyə ilə döyüşürsən?" – deyə soruşduqda, o Həzrət buyurdu: "Çünki yaxşılığa dəvət və psilikdən çəkindirmək vacibdir." Hədis geniş olduğu üçün hamısını demirəm. Diqqətlə qulaq asın ki, bir nəticə çıxara biləsiniz. Əmirəlmöminin Əli (ə) Siffeyndə Müaviyə ilə nə üçün döyüşməlidir? Nə üçün özü Kufəyə qayıdıb, Müaviyənin də Şama qayıtmasına icazə verməməli, onunla müharibə etməlidir? O Həzrət özü buyurur ki, yaxşılığa dəvət və pislikdən çəkindirmə vacibdir. İmam Hüseyn (ə) Mədinədən çıxıb gedir. "Ağa, hara gedirsən?"– deyə soruşanda, belə buyurur:

أُرِيدُ أَنْ آمُرَ بِالْمَعرُوفِ وَ أَنْهى عَنِ الْمُنْكَرِ

***"Yaxşılığa əmr etmək və pislikdən çəkindirmək istəyirəm."***[1]

Baxın, görün o Həzrətin dünyagörüşünün dairəsi nə qədər böyük, bizim dünyagörüşümüzün dairəsi isə nə qədər kiçik, dar və cılızdır. Bir sözlə, vilayətçi cəmiyyət bu xüsusiyyətlərə sahibdir: Namaz qılır, zəkat verir, bir-birini yaxşılığa dəvət edir, çirkinlikdən çəkindirir; xülasə, cansız bədən cana gəlir, həyata qədəm qoyur. Belələri bütün dəstələrə qələbə çalacaqlar.

---

1. "Biharul-ənvar", "İmam Hüseynin (ə) həyatı", 37-ci bölmə, İmam Hüseynin (ə) Məhəmməd Hənəfiyyəyə vəsiyyəti.

## Xülasə

## Bazar günü – Ramazan ayının 26-cı günü

# VİLAYƏT CƏNNƏTİ

Bir cəmiyyət o zaman vilayətçi olur ki, həmin cəmiyyətdə rəhbər həqiqi mənada bütün insani qüvvələr və həyati fəaliyyətlərin ilhamverici mənbəyinə çevrilsin. Bir fərd də o zaman vilayətçi olur ki, Allahın vilayət məzhəri olan rəhbəri düzgün tanısın, onunla əlaqələrini möhkəmlətsin. İlahi rəhbər yer üzündə Allahın canişini, Onun qüdrət və ədalətinin təcəllisi olduğundan, insanları təkamül və ali insanlıq məqamına yetirmək üçün onların daxilində qoyulmuş bütün imkan və istedadlardan onların öz xeyrinə istifadə etməlidir. Bu imkan və istedadlardan elə istifadə etmək lazımdır ki, insanlıq məqamına azacıq belə zərər və xələl dəyməsin. Çünki bunun özü böyük ziyandır və insan fidanını çiçəkləndirən ədalət və əmniyyətə manedir. İlahi rəhbər insanların həyat şəraitini təmin edən münbit torpaq, şirin su və əlverişli havanı xatırladır, müxtəlif növ zülmkarlıq nümunələrinin (şirk, özünə və başqalarına təcavüzkarlığın) baş qaldırmasının qarşısını alır, hamını Allaha bəndəçiliyə sövq edir, insan əqlini və düşüncəsini yetkinləşdirir, onu iş və fəliyyətə cəlb edir. Onun ən önəmli proqramı Allahı yad etmək (namaz), sərvəti ədalətli şəkildə bölmək (zəkat), yaxşılıqları artırmaq (əmr be məruf), pisliklərin və pozğunluqların kökünü kəsmək, (pisliklərdən çəkindirmək), bir sözlə, insan və insanlıq fenomenini yaradılış hədəfi və qayəsinə daha da yaxınlaşdırmaqdır.

Aşağıdakı ayələr üzərində düşünmək insanda vilayət cənnəti haqda geniş təsəvvür yaradır və agahlıq bəxş edən bu sözü işıqlandırır: “Dini

əmrlərin heç biri vilayətin əhəmiyyəti qədər deyildir.”

لُعِنَ الَّذِينَ كَفَرُواْ مِن بَنِي إِسْرَائِيلَ عَلَى لِسَانِ دَاوُودَ وَعِيسَى ابْنِ مَرْيَمَ – ***İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu.***

ذَلِكَ بِمَا عَصَوا وَّكَانُواْ يَعْتَدُونَ – ***Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi.***

كَانُواْ لاَ يَتَنَاهَوْنَ عَن مُّنكَرٍ فَعَلُوهُ – ***Onlar etdikləri pis əməldən əl çəkmirdilər.***

لَبِئْسَ مَا كَانُواْ يَفْعَلُونَ – ***Onların gördükləri iş necə də pis idi!***

تَرَى كَثِيرًا مِّنْهُمْ يَتَوَلَّوْنَ الَّذِينَ كَفَرُواْ – ***Onların bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən.***

لَبِئْسَ مَا قَدَّمَتْ لَهُمْ أَنفُسُهُمْ أَن سَخِطَ اللّهُ عَلَيْهِمْ – ***Gör nəfslərinin əvvəlcədən onlar üçün hazırladığı şey necə pisdir ki, Allahın onlara qəzəbi tutmuşdur.***

وَفِي الْعَذَابِ هُمْ خَالِدُونَ – ***Onlar əbədi əzaba düçar olanlardır!***

وَلَوْ كَانُوا يُؤْمِنُونَ بِالله والنَّبِيِّ وَمَا أُنزِلَ إِلَيْهِ مَا اتَّخَذُوهُمْ أَوْلِيَاء – ***Əgər onlar Allaha, Peyğəmbərə və ona nazil olana (onun dininə) inansaydılar, onları (kafirləri) özlərinə vəli (rəhbər, dost, köməkçi) tutmazdılar.***

وَلَـكِنَّ كَثِيرًا مِّنْهُمْ فَاسِقُونَ – ***Lakin onların çoxu itaətdən çıxmış fasiqdirlər!***

(“Maidə” surəsi, ayə 78-81.)

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ الَّذِينَ اتَّخَذُواْ دِينَكُمْ هُزُوًا وَلَعِبًا مِّنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ مِن قَبْلِكُمْ وَالْكُفَّارَ أَوْلِيَاء – ***Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə vəli (rəhbər, dost, köməkçi) tutmayın.***

وَاتَّقُواْ اللّهَ إِن كُنتُم مُّؤْمِنِينَ – ***Əgər möminsinizsə, Allahdan qorxun!***

وَإِذَا نَادَيْتُمْ إِلَى الصَّلاَةِ اتَّخَذُوهَا هُزُوًا وَلَعِبًا – ***Siz (bir-birinizi) namaza çağırdığınız zaman onlar onu oyun-oyuncaq sayarlar.***

ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْقِلُونَ – ***Bu, onların anlamaz bir tayfa olmalarındandır.***

قُلْ يَا أَهْلَ الْكِتَابِ هَلْ تَنقِمُونَ مِنَّا إِلاَّ أَنْ آمَنَّا بِاللّهِ وَمَا أُنزِلَ إِلَيْنَا وَمَا أُنزِلَ مِن قَبْلُ وَأَنَّ أَكْثَرَكُمْ فَاسِقُونَ – ***(Ey Peyğəmbər!) De: “Ey kitab əhli! Bizdən xoşunuz gəlməməyiniz yalnız bizim Allaha, bizə nazil edilənə (Peyğəmbərimizin dininə) və bizdən daha əvvəl nazil edilənlərə (keçmiş peyğəmbərlərin dininə) inanmağımıza və sizin əksəriyyətinizin fasiq olmasına görədirmi?!***

قُلْ هَلْ أُنَبِّئُكُم بِشَرٍّ مِّن ذَلِكَ مَثُوبَةً عِندَ اللّهِ – ***De: “Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi?”***

مَن لَّعَنَهُ اللّهُ وَغَضِبَ عَلَيْهِ وَجَعَلَ مِنْهُمُ الْقِرَدَةَ وَالْخَنَازِيرَ وَعَبَدَ الطَّاغُوتَ – ***Onlar***

***Allahın lənətlədiyi, qəzəbləndiyi, bəzisini meymunlar və donuzlar surətinə saldığ və tağuta pərəstiş etmiş kəslərdir.***

أُوْلَـئِكَ شَرٌّ مَّكَاناً وَأَضَلُّ عَن سَوَاء السَّبِيلِ –Y***erləri daha pis olan və düz yoldan daha çox azanlar onlardır!***

(“Maidə” surəsi, ayə 57-60.)

# İYİRMİ ALTINCI MƏCLİS

## VİLAYƏT HAQQINDA–1

Bazar ertəsi – 1974/10/14
Ramazan ayının 27-si.

بسم الله الرحمن الرحيم
إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ إِنَّ اللّهَ
نِعِمَّا يَعِظُكُم بِهِ إِنَّ اللّهَ كَانَ سَمِيعًا بَصِيرًا. يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ
وَأُوْلِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ
الآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً

***"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir. Şübhəsiz, Allahın bununla sizə verdiyi öyüd necə də gözəldir! Həqiqətən, Allah (hər şeyi) eşidəndir, görəndir! Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."***

("Nisa" surəsi, ayə 58-59.

Bu gün ötən məclislərin davamı olaraq vilayətlə bağlı nəzərdə tutduğumuz məsələlərdən bir neçəsinə toxunacağıq. “Vilayət nədir, onun isbatı üçün Quranın hansı ayələrinə istinad olunur, onun neçə konsepsiyası var?” və bu kimi vilayətlə bağlı məsələlər keçən məclislərdə qeyd olundu. Lakin onun təfərrüatını təşkil edən digər məsələlər də vardır. Əslində, bu məsələlərin də hər biri ayrı-ayrılıqda İslamın və müsəlman cəmiyyətinin siyasi xəttini müəyyənləşdirməkdə əsas və təyinedici məsələlər sırasındadır və biz burada həmin məsələlərdən bir neçəsini ardıcıllıqla qeyd edirik, bir-ikisini də, inşallah, növbəti məclisdə qeyd edəcəyik!

Ötən məclisdə qeyd etdik ki, Qurani-Kərimə əsasən, müsəlman cəmiyyətində daxili əlaqələr möhkəmlənməli, (İslama zidd) xarici əlaqələrə son qoyulmalıdır və İslam cəmiyyətinin bu iki konsepsiyasının icrasında mərkəzi qüdrət və rəhbərliyə ehtiyacı vardır; belə ki, cəmiyyətin bütün qüvvələri, fəaliyyətləri, istiqamətləri, mövqeləri və müxtəlif qurumlarına mərkəzi qüdrət rəhbərlik etməlidir. Bu mərkəzi qüdrət “vəliyy” – “ilahi hakim” və “rəhbər” adlanır; yəni bütün qüdrətlər ondan ilhamlanmalı və bütün işlər onun nəzarəti ilə icra olunmalıdır. Bir sözlə, İslam cəmiyyətinə həm ideoloji, həm də əməli baxımdan rəhbərlik edən şəxsə “vəliyy” (ilahi rəhbər) deyilir. Biz bu mətləbləri Qurani-Kərimə istinadən isbat etdik. İndi isə, görək, İslam cəmiyyətinin rəhbəri kimdir? Kim rəhbər ola bilər? Onu necə tanıya bilərik? İslam cəmiyyətinin bütün qüvvələrinə kim rəhbərlik etməlidir? Əgər bizdən bu suallar soruşularsa, cavab verə bilərikmi? Cavab müsbətdir. Bəli! Əlbəttə, ötən söhbətlərimizin əsnasında bu sualın cavabı ilə bağlı bəzi məsələlərə işarə etdik. Siz də bunu bilirsiniz və naməlum bir məsələ

deyil. Lakin məsələni məntiqi üslub və təbii ardıcıllıq baxımından da araşdırmağı zəruri hesab edirik.

Qurani-Kərimin bu suala cavabı bir kəlmədir: İslam cəmiyyətinin həqiqi rəhbəri Allahdır. İslam cəmiyyətinin hakimi Allah-Taaladan başqa, heç kim ola bilməz. Bunu bizə tövhid ideologiyası deyir. Nübuvvət də onu bizə qəti və danılmaz bir məsələ kimi təqdim edir. Gördüyünüz kimi, vilayət bəhsi də bu mətləbi təsdiqləyir. Burada bu məsələyə qısa şəkildə toxunub keçmək istəyirəm: Hər zaman hər bir məktəb və məsləkin bütün prinsipləri eyni nəticəni təqdim etməlidir. Məktəbimizin pinsiplərindən birinin bir nəticə, digərinin isə ona zidd bir nəticə təqdim etməsi qeyri-mümkündür. Təəssüf ki, günümzdə bəzi sadəlövh müsəlmanların bir prinsipdən aldığı nəticə o biri prinsipdən aldığı nəticə ilə ziddiyyət təşkil edir.

Deməк, İslam cəmiyyətində əmr və qadağalar, siyasi xətt və hüquq prinsiplərinin tənzimlənməsi, insanların həyat sürüb-sürməməsi hökmü Allaha məxsusdur.

وَاللّٰهُ وَلِيُّ الْمُؤْمِنِينَ

***"Allah möminlərin rəhbəridir."***[1]

Qurani-Kərimdə işlənən "vəliyy" və "övliya" sözlərini icmali şəkildə araşdırdıqda, "İslam cəmiyyətinin rəhbəri Allahdır", "Möminlərin Allahdan başqa, rəhbər və dostu yoxdur", "Bəşəriyyətin bütün işlərinin hakimi Allahdır" – ifadələrinin zəruri və danılmaz məsələ kimi qeyd olunduğunu gördüm. Əlbəttə, qardaşlar bu məsələni bilsələr də bəzilərinə qaranlıq qalmasın deyə, xatırlatmaq istəyirəm ki, Allah-Taalanın təkvini hakimiyyətindən söz getmir. Aydın məsələdir ki, yer və göyün idarəsi Allah-Taalanın qalib iradəsinə tabedir. Söz budur ki, bəşər cəmiyyətinin həyat qanunları, fərdi və ictimai münasibətləri də Allah-Taaladan ilhamlanmalıdır; yəni, həmişə "Ələvi hökuməti" ifadəsi ilə işlətdiyimiz Quranın hakim olduğu İslam cəmiyyəti və ilahi quruluşun qanuni hakim və rəhbəri Allahdır. "Ələvi hökuməti" və "Ələvi quruluşu" ifadəsini unutmamağınızı istəyirəm. "Ələvi hökuməti", "İslam sistemi" və Quranın hakim olduğu cəmiyyətdə hakim və rəhbər Allahdır.

Burada başqa bir məsələyə çatırıq: "Allahın hakim olması nə deməkdir?" Axı, Allah-Taala əmr və qadağaların icrasında insanlarla üz-üzə gəlmir. İnsanlar onlara rəhbərlik edən və onların işlərinin icrasını

1. "Ali-İmran" surəsi, ayə 68.

öhdəsinə götürən bir şəxsə ehtiyac duyurlar. “Bir şəxs” dedikdə, bir zümrənin (şura) rəhbərliyini inkar etmək istəmirəm. Cəmiyyətdə bütün işləri icra edə biləcək bir şəxsin varlığı mütləqdir. Yoxsa, insan cəmiyyətinin arasında yalnız qanun olarsa, özü də həmin qanun Allah-Taala tərəfindən göndərilərsə belə, Əmirəlmöminin Əlinin (ə) ifadəsi ilə desək, həmin cəmiyyətin əmiri və hakimi, rəhbərlik edən heyəti, bir sözlə, qanunun icrasına nəzarət edən bir qurum olmazsa, cəmiyyətin nəzmi pozulacaq, bir-birinə dəyəcək. Bu (rəhbər) insan kim olmalıdır?

İnsan cəmiyyətinə rəhbərlik və hökmranlıq edən insan və yaxud insanlar kimlər olmalıdır? Müxtəlif məktəblərin və tarixi həqiqətlərin bu suala cavabı fərqlidir. Bəziləri “الملک لمن غلب” – “Kim qalibdirsə, o da hakimdir” – ideyası ilə cəngəllik hökmranlığına üstünlük verirlər. Bəzilərinin nəzərincə, kim daha çox tədbirlidirsə, o da hakim olmalıdır. Bəziləri deyirlər ki, hakim xalq tərəfindən qəbul olunan bir şəxs olmalıdır. Bəziləri deyirlər ki, müəyyən bir nəsildən hər kim təyin olunmuş xüsusiyyətlərə sahibdirsə, o da hakim olmalıdır. Bəziləri də başqa nəzəriyyələr, məntiqlər və şəxsi zövqləri irəli sürmüşlər.

İslam məktəbinin bu suala cavabı budur:

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ

***“Sizin rəhbəriniz yalnız Allah və Onun Peyğəmbəridir.”***[1]

Cəmiyyətdə əmr sahibi, əmr və qadağaların icraçısı Allah-Taala tərəfindən seçilmiş Peyğəmbərdir. Elə bu səbəbdən, cəmiyyətə peyğəmbər göndərilibsə, onun varlığı ilə başqa bir şəxsin xalqa hakim olması mənasızdır. Peyğəmbər, yəni cəmiyyətin rəhbəri, hakimi və qüdrət sahibi. Bəs, Peyğəmbər dünyadan köçdükdən sonra necə olacaq? İlahi peyğəmbər digər insanlar kimi, əbədiyyətə qovuşduqdan sonra cəmiyyətin vəzifəsi nədir? Bu sualı yenə də Quran ayəsi cavablandırır:

وَالَّذِينَ آمَنُواْ

***“Sizin rəhbəriniz möminlərdir.”*** Hansı möminlər? İslam məktəbinə iman gətirən hər kəs İslam cəmiyyətinin rəhbəri ola bilərmi? Əgər məqsəd budursa, onda bütün möminlərin sayı qədər hakim də olmalıdır. Bəs nə etməliyik? Cavab odur ki, xüsusi əlamətlərə sahib olan möminlər nəzərdə tutulur. Aydındır ki, burada Quran müəyyən xüsusiyyətlərə sahib bir şəxsin hakim və rəhbər olduğunu, şəriət sahibinin nəzərində onun kimliyini tanıtdırmaqla bərabər, həm də meyarı təqdim etmək

---

1. “Maidə” surəsi, ayə 55.

istəyir. Yəni, demək istəyir ki, filan meyara – Allah-Taala tərəfindən seçildiyinə – görə sizin rəhbəriniz filankəsdir. وَالَّذِينَ آمَنُواْ – ***"Sizin rəhbəriniz möminlər",*** həqiqi iman gətirən kəslərdir. Ayədə işlənən "iman" sözündə zahiri iman deyil, həqiqi iman, "həyatı boyunca iman sahibi olduğunu və imanını öz əməli ilə təsdiqlədiyi" şəxslər nəzərdə tutulur. Deməк, iman gətirənlərin ilk şərti həqiqi mömin olmaqdır. Digər şərtləri də vardır:

الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ

***"O kəslər ki, namazı bərpa edərlər."*** Namaz qılmaqdan söz getmir. Namaz qılmaqla namazı bərpa etmək arasında fərq vardır. Əgər ayədə namaz qılmaqdan söz getsəydi, onda, ("yuqimunə" (bərpa edirlər) ifadəsi yox,) "yusəllunə" (namaz qılırlar) ifadəsi işlənməli idi.

Namazın bərpası cəmiyyətdə namazın ruhu və həqiqətinin yaşaması, cəmiyyətin namazqılan cəmiyyətə çevrilməsi anlamındadır. Bildiyiniz kimi, namazqılan cəmiyyət o cəmiyyətə deyilir ki, hər bir yerdə Allahın adı və zikri kamil şəkildə dalğalanır. Allahın adı və zikrinin dalğalandığı cəmiyyətdə faciə, cinayət, xəyanət və insani dəyərlərə hörmətsizlik baş vermir. Belə bir cəmiyyətdə hamı yalnız Allahı xatırlayır, bütün işlər ilahi istiqamət alır və Allaha xatir yerinə yetirilir.

Oğurluqların və sui-istifadələrin, zülmlərin və zülmə boyun əymələrin, təcavüzkarlıqların və təcavüzkarlıqlara razılıqların səbəbi cəmiyyətin Allahın adı və zikrindən uzaq qalmasıdır. Allahı zikr edən cəmiyyətin hakimi Əli ibn Əbitalibdir. O, heç vaxr zülm etmədi, həmişə də zülmü pislədi. Əbuzər Qifari işgəncələrə məruz qalsa da, sürgün və təhdid olunsa da, qərib və kimsəsiz qalsa da, zülmə boyun əymədi, Allahın yolundan dönmədi. Allahı zikr edən və namazı bərpa edən cəmiyyət belə bir xüsusiyyətə sahib olur.

Cəmiyyətdə namazı bərpa edən, cəmiyyəti Allaha doğru yönəldən, cəmiyyətdə ilahi zikrin rövnəq tapmasına çalışan bir mömin bu işi ilə kifayətlənməz, həm də sərvəti ədalətli şəkildə bölər:

وَيُؤْتُونَ الزَّكَاةَ

***"(Möminlər o ksələrdir ki,) zəkat verərlər",*** Allah yolunda infaq edərlər (mallarını Allah yolunda xərcləyərlər). Ayənin davamında buyurulur:

وَهُمْ رَاكِعُونَ

***"Rükuda olduqları halda zəkat verərlər."***

Bu ayə xüsusi bir hadisəyə işarədir. Bəzi təfsir alimləri qeyd edirlər ki, وَهُمْ رَاكِعُونَ (və hum rakiun) ifadəsi xüsusi bir hadisəyə deyil, möminlərin daim rüku halında olmasına işarədir. Lakin ərəb qrammatikası bu ehtimalı inkar edir. وَهُمْ رَاكِعُونَ (Və hum rakiun) ifadəsinin mənası budur ki, möminlər rüku halında zəkat verən kəslərdir. Bu da ötən məclisdə diqqətinizə çatdırdığım mətləbi təsdiqləyir. O da budur ki, mənim nəzərimcə, bütün infaqlara – Allah yolunda çəkilən bütün xərclərə “zəkat” deyilir. Əmirəlmöminin Əlinin (ə) rüku halında yoxsula verdiyi üzük dini terminologiyada işlənən “zəkat” deyil, Allah yolunda infaq idi və bu da zəkata aid edilir.

وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***“(Möminlər o ksələrdir ki,) rükuda olduqları halda zəkat verərlər.”***

Baxın, bir insan bərabərliyə nə qədər üstünlük verirsə, infaqı nə qədər sevirsə, yoxsulluq və yoxsulluğu görmək ona nə qədər ağır gəlirsə, namazın bitməsini və bu yoxsulun gedib başqa bir yoxsulun gəlişini gözləmir, barmağındakı üzüyünü sonradan yoxsula verəcəyini düşünmür. Onun infaqa – Allah yolunda xərc çəkməyə sevgisi və bu təklifi yerinə yetirmək şövqü o qədər çoxdur ki, yoxsul və yoxsulluq gördükdə, bir an belə səbir etmir, dözmür, Allahın bəyənmədiyi bir hadisəni (möhtac bir şəxsin əliboş qayıtmasını) bəyənmir. Eyni zamanda (infaq etmək üçün) üzükdən başqa, heç bir şeyə sahib olmadığından, elə namazda ikən üzüyünü barmağından çıxarıb möhtaca verir.

Bu ayə Əmirəlmöminin Əlinin (ə) tarixdə yaratdığı məxsus və məlum bir hadisəyə işarədir. Yəni, o Həzrət namazda ikən bir yoxsul içəri daxil olur və o Həzrət üzüyünü verməli olur. Bu hadisədən sonra uyğun ayə nazil olur. Mülahizə etdiyiniz kimi, ayədə Əli ibn Əbitalibin (ə) ilahi rəhbər olması məsələsinə işarə ilə toxunulur. Tarixin zalımları kimi, ayədə canişin açıq-aşkar dilə gətirilmir. Misal üçün, Müaviyə özünə canişin təyin etmək istədikdə, açıq-aşkar deyirdi ki, mənim canişinim oğlumdur, o, mənim oğlum olduğu üçün məndən sonra bu məqam mütləq onun olmalıdır. Lakin Allah-Taala Peyğəmbər üçün canişini belə təyin etmir, rəhbərlik meyarlarını təqdim edir və həmin meyarlara da məhz Əli ibn Əbitalib sahib olur. Həmin meyarlar nədir? “Allaha kamil iman”, “cəmiyyətdə namazı bərpa etmək”, “infaqa sevgi” və “rüku halında zəkat vermək”. Bu ifadələrlə həm xəlifəni təyin edir və Əli ibn Əbitalibin xəlifə olduğunu bildirir, həm də xilafətin meyar və fəlsəfəsini

bəyan edir. Bu, Quran ayəsidir. Deməkk, İslamda rəhbər Allah tərəfindən göndərilir və Onun vasitəsilə təyin edilir. Çünki yaradılış aləminin təbiətinə görə, heç kim hakimiyyət haqqına sahib deyil. Hakimiyyət haqqı Allaha məxsusdur. Hökm və hakimiyyət haqqı Ona məxsus olduğundan, insanların mənfəət və məsləhətini nəzərə alaraq Öz haqqını istədiyi şəxsə verə bilər. Bildiyimiz kimi, Allahın işləri məsləhətdən kənar deyil, diktatorluq, quldurluq və zorakılıqdan uzaqdır. Onun işləri insanların məsləhət və xeyrinə əsaslanır. Elə buna görə də, təyin edən Odur və biz də Ona təslimik. Peyğəmbəri, imamı və imamdan sonra ilahi xüsusiyyətlərə və xas meyarlara sahib olan kəsləri İslam cəmiyyətinin rəhbərləri təyin edir. Demək, rəhbəri Allah seçir. Həm Özü, həm Peyğəmbəri, həm də imamlar rəhbərdirlər. Peyğəmbərin (s) ailəsindən on iki nəfər imam və rəhbər seçilmişdir. Onlardan sonra isə bir sıra xas meyarlarla uyğun gələnlər hökumət və xilafətə layiq görülürlər. İslamda rəhbər seçimi belədir. Əlbəttə, uyğun məsələ ilə bağlı bir ayəyə toxunduq. Qurani-Kərimdə digər ayələr də vardır ki, onlardan bir neçəsini əlinizdəki vərəqdə qeyd etmişəm, qalan ayələri də özünüz axtarıb tapın. Bu məsələ ilə bağlı ayələrin sayı çoxdur.

İslamda təkidlə vurğulanan məsələ odur ki, xalqa rəhbərlik işini insanları Cəhənnəmə sürükləyən şəxsə həvalə etmək olmaz. Məgər tarixdə belələrini görmədikmi? Məgər İslamın ilkin parlaq dövründən sonra İslam cəmiyyəti ilə nələr etdiklərini, onların başlarına nələr gətirdiklərini görmədikmi? Həmin cəmiyyətdə yaxşı insanların qədri bilinmədi, yaxşı meyarlar dəyişdirildi, cəmiyyətin xeyri və məsləhətinə iş görən xeyirxahlar və xilaskarları unutdular. Cəmiyyəti bu vəziyyətə salmaq üçün nə qədər çalışdılar. İslam cəmiyyətində zalım və hegemon qüdrətlərin zəhərli təbliğatları ilə cəmiyyətin təfəkkür tərzini dəyişdirdilər, elə bir iş gördülər ki, cəmiyyət ağı qara, qaranı isə ağ görürdü. Cəmiyyət belə bir hala salınmışdı. Tarixə nəzər saldıqda, təqribən, ikinci və üçüncü əsrlərdə, qüdrət və xilafət aparatının cinayətlərini gördükdə, xalqın etinasızlığı və laqeydliyi təəccüb doğrur. Yəni, bu xalq həmin xalq deyildimi? Bu xalq Osmanın müqabilində səbir edə bilmədi, hər tərəfdən onu mühasirəyə aldı, sonra da acınacaqlı şəkildə onu xilafətdən kənarlaşdırdı. Bu xalq o xalqdımı? Abbasi xəlifəsinin toy gecəsində xərclənən o qədər pulla İslam cəmiyyətinin böyük bir hissəsini idarə etmək olardı, amma müsəlmanlara məxsus

"beytül-mal" (ümumi gəlir) şəxsi işlərə və maraqlara, min nəfərin pulu bir nəfərin yolunda xərclənirdi. Görəsən, bu iş doğrudurmu? Bu işlər İslam cəmiyyətində baş verdiyi halda, xalq heç nədən xəbərsiz kimi, dinib danışmırdı.

Bəlkə də, haçansa bu hadisəni danışmışam. Harun ər-Rəşidin sevimli gənc vəziri Cəfər Bərməki 28-30 yaşında evlənir və 34-35 yaşında da qətlə yetirilir. O, xalqın sevgisini qazandığı bir vaxtda ailə həyatı qurur. Harun ər-Rəşid də onu çox sevirdi. Onun toy mərasimində bəylə gəlinin başına şirniyyat, konfet-noğul səpmək əvəzində, Harun ər-Rəşidin və Bərməkilərin əziz qonaqları şirniyyata oxşamayan başqa şeylərin səpildiyini gördülər. Qızıl sikkələr də deyildi. Bir neçəsini açıb baxdıqda, barmaq bəndi boyda çox kiçik xalis qızıl qutular olduğunu gördülər. Həmin qutuların içində bükülmüş kiçik və nazik vərəqlər qoyulmuşdu. Vərəqlər açıldıqda, böyük vərəqlərə çevrilirdi. Həmin vərəqlərdə ölkənin şəhər və məntəqələrinin malikiyyət və rəhbərlik əmri imzalanmışdı. Hər kim həmin qutulardan birini götürsəydi, qutunun içindəki vərəqdə hansı bölgənin adı qeyd olunmuşdusa, həmin şəxs oranın maliki və hakimi olurdu.

Bir gecədə Allah bilir ki, nə qədər insanın – beş yüz, səkkiz yüz nəfərin hakimlik əmri kiçik qızıl qutulurın içində bəylə gəlinin başına səpildi. Xəlifə o qutulara kimlərin sahib olacağını bilmədiyi halda, hərə bir bölgəyə hakim oldu; hətta bəzi bölgələr hansısa bir uşağın, bəziləri bir sərxoşun, bəziləri bir bıçaq çəkən quldurun, bəziləri də bir şərəfsizin ixtiyarına keçdi. Xəlifənin onların kimliyi haqqında xəbəri belə yox idi. Əmrləri bəylə gəlinin başına səpirdi, kim götürürdüsə, gedib hakim olurdu. Təsəvvür edin, hansısa bir bölgəyə hakimiyyət edən belə ləyaqətsizlər nə qədər insanların haqqını mənimsədi, nə qədər sərvətlər çapıb taladı, nə qədər haqsızlıqlar etdilər! Onlar bu haqda əsla düşünmürdülər. Elə buna görə də, hədsiz dərəcədə sosial təbəqələşmə yaranmışdı. Onlar hədiyyələr və bəxşişlər paylayarkən, israfçılıqlar edərkən, eyş-işrətlə məşğul olarkən, Yəhya Ələvi[1] Təbəristan dağlarında

---

1. Yəhya ibn Abdullah İmam Həsənin (ə) nəvələrindən idi və Harun ər-Rəşidin hakimiyyəti dönəmində müxtəlif İslam bölgələrində xalqdan özünə beyət toplamağa başladı və Təbəristanda öz dəvətini aşkar şəkildə elan etdi. Harun ər-Rəşid onun qiyamını yatırmaq üçün Fəzl ibn Yəhya Bərməkini məmur etdi. Yəhya işin ağırlaşdığını gördükdə, Harun ər-Rəşiddən aman istədi. Harun ər-Rəşid aman verdi və nəhayət,

zülm və sitəmlə döyüşürdü. Özü və ailəsinin yalnız bir dəst paltarı var idi. Namaz vaxtı özü namaz qıldıqdan sonra, paltarını çıxarıb zövcəsinə verirdi ki, o da bədənini örtüb namazını qılsın. Xalq Peyğəmbərin (s) ailəsinin zülm və haqsızlıqla döyüşdüyünü və ağır günlər keçirdiyini gördüyü halda, laqeyd yanaşır və dil açıb dillənmirdi.

Harun ər-Rəşiddən gileylənmirəm. Əgər o, bu işləri yerinə yetirməsəydi, Harun olmazdı. Harun və onun adamları işin gedişatını belə istəyirdi, nə qədər ki, onlar var idi, belə də olmalı idi. Onlardan giley-güzar etmirik. Giley-güzarımız xalqdandır. Xalq İslamın ilkin çağlarının həssaslığını və ayıqlığını unutmuşdu. Belə acınacaqlı vəziyyətdə heç də məsuliyyət hiss etmir, acımırdı. Görəsən, nə üçün? Zərərli, zəhərli və rəzil təbliğatlarla xalqın üzərində işləmişdilər. İslam cəmiyyəti və ölkəsinin hər bir yerində təbliğat əlləri uzun illər boyu dayanmadan xalqın beyni, ruhu və ruhiyyəsi üzərində işləmiş və bu yerə gətirib çıxarmışdı. Elə isə, baxın görün, İslam cəmiyyətinin hakiminin kim olması nə qədər önəmlidir?! İslam cəmiyyətinin hakimini Allah təyin etməlidir.

Quran ayəsində buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

***“Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”***[1]

Əmr sahibləri nə deməkdir? Nadan müsəlmanlar əmr verən və qüdrət sahibi olan hər kəsin (ayədə qeyd olunan ulil-əmr) “əmr sahibi” olduğunu güman edirdi. Biz deyirik ki, xeyr! Qüdrət sahibi olan hər kəs əmr sahibi deyil. Məgər hər əmr verən əmr sahibi ola bilərmi? Həmin şəxs Quran tərəfindən rəsmi olaraq tanına bilərmi? Əgər dağda yaşayan bir quldur və oğru orada hər şeyə sahib olduğu üçün “əmr sahibi” adlanıbsa, əmrinə itaət vacib ola bilərmi?

Bəzi tarixi nəqllərə əsasən, Səfəvi şahlarından birinin İsfahanda “üç gecə-gündüz karvansaralarda, mağazalarda, bazarlarda və hər bir yerdə kişilərin deyil, yalnız qadınların və qızların çölə çıxmağa və işləməyə haqqı vardır. Şəhərdə heç bir kişi görünməməlidir. Sahibkarlar, hakim dairələr, onların dostları və ətrafındakılar isə istisnadır.” – deyə verdiyi əmri Allahın əmrimi hesab etməliyik? Bu insanlar əmr sahibidirmi?

---

Harunun zindanlarının birində şəhadətə yetdi.

1. “Nisa” surəsi, ayə 59.

Onlara itaət etmək düzgündürmü? Onların əmri Allahın əmridirmi?

Şiənin etiqad bəslədiyi əmr sahibi Allah-Taalanın əmr nizamnaməsini onun adı ilə möhürlədiyi kəsdir. Həmin şəxs insanların ***"özündən"*** – olsa da, vilayət və rəhbərliyi böyük vilayət və rəhbərlik sahibi olan Allahdan almışdır.

Əbu Hənifə kobudluğu, bədəxlaqlığı, israfçılığı və qətl-qarətləri ilə seçilən, Cəfər Bərməki və tayfasını, bir çox mömin və müsəlmanları bir gündə qətlə yetirən Harun ər-Rəşidi "əmr sahibi" adlandırır, eyni zamanda İmam Sadiqlə (ə) daim dalaşır, mübahisə edirdi ki, sən nə üçün zəmanənin əmr sahibi ilə, yəni yalançı Harunla müxalifətçilik edirsən? Diqqət yetirdinizmi?

Şiənin bu məsələdə məntiqi incə və dəqiqdir; Qurana istinadən əmr sahibinin Allah tərəfindən seçilməsini bildirməklə yanaşı, meyarları da insanlara təqdim edirdi ki, aldanmasın və belə deməsinlər: "Əli ibn Əbitalibin (ə) başımız və gözümüz üstə yeri var, onu qəbul edirik, eyni zamanda Harun ər-Rəşidi də onun canişini hesab edirik." Bu düşüncə tərzi yanlışdır. Necə ki, belə düşünənlər var idi. Mənsur Abbasi deyirdi ki, İmam Həsənin (ə) xəlifə olduğunu qəbul edirik, amma o, xilafəti pula satdı. Mənsur Abbasinin məntiqi bundan artıq olmaz ki? O, xilafəti satdığı üçün, artıq xilafətdə haqqı yoxdur. Biz də xilafət məqamını xilafətin satıldığı şəxslərdən zorla aldıq. İndi isə bu məqam bizə aiddir. Bu, onların sözüdür. Zahirdə Həzrət Əli ibn Əbitalibi (ə) qəbul edir, başı və gözlərinin üstünə qoyurdular, eyni zamanda o Həzrətin hakimiyyəti ilə Harun ər-Rəşidin hakimiyyəti arasında fərq qoymurdular.

Şiə isə deyir: Xeyr! Bu söz düz deyil! Sən Həzrət Əli ibn Əbitalibin (ə) hakimiyyətini qəbul edirsənsə, vilayət və xilafətin meyarlarını da qəbul etməli və bilməlisən ki, o Həzrət bu meyarlar əsasında ilahi rəhbər seçilmişdir. Odur ki, hər kim bu meyarlara sahib deyilsə, yaxud həmin meyarların ziddinə sahibdirsə, özünü Həzrət Əli ibn Əbitalibin (ə) canişini, şiənin rəhbəri və əmr sahibi adlandıra bilməz. Heç kəsin də onu qəbul etməyə haqqı yoxdur. Vilayət məsələsi ilə bağlı birinci mətləb budur!

İkinci mətləbi də ayəsi ilə birlikdə (əlinizdəki) vərəqdə qeyd etmişəm: Allahın vilayət və rəhbərliyi nə üçündür? Hər kim: "Nə üçün vilayət və rəhbərlik Allaha məxsusdur?" – deyə sual versə, cavabı budur ki, bu, İslam dünyagörüşündə təbii bir fəlsəfədən meydana çıxır. İslam

dünyagörüşünə əsasən, dünyada hər bir şey Allahın qüdrətindən qaynaqlanır.

وَلَهُ مَا سَكَنَ فِي اللَّيْلِ وَالنَّهَارِ

***“Gecə və gündüzdə mövcud olan hər bir şey Onundur.”***[1]

Bütün yaradılış aləmi və təkvini hakimiyyət Onun ixtiyarındadırsa, qanuni və şəri hakimiyyət də Onun ixtiyarında olmalıdır. Bundan başqa, yol yoxdur. Bu da ikinci mətləb!

İndi isə, diqqətlə qulaq asın ki, ayələri oxuyub tərcümə edək:

إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ

***“Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir.”***[2]

إِنَّ اللّهَ نِعِمَّا يَعِظُكُم بِهِ

***“Şübhəsiz, Allahın bununla sizə verdiyi öyüd necə də gözəldir!”***

إِنَّ اللّهَ كَانَ سَمِيعًا بَصِيرًا

***“Həqiqətən, Allah (hər şeyi) eşidəndir, görəndir!”***

Onun sizə verdiyi əmrlər kamil elm və agahlığa əsaslanır. O, sizin daxili ehtiyaclarınızın səsini eşitdiyi və taleyinizi gördüyü üçün ehtiyac duyduqlarınızı bəxş edir və bağışlayır.

Bu ilk ayədə əmanətdən söz açılır və göstəriş verilir ki, əmanətləri sahibinə qaytarın. Bu ayə, həqiqətdə, ikinci ayə üçün bir müqəddimədir. Əmanət yalnız sizin əlinizdə olan mənim bir manatımı geri qaytarmaqdan ibarət deyil, əmanətin ən mühüm əlamət və nümunəsi insanın Allahın insanlar arasındakı əmanətini öz yerinə çatıdrması və sahibinə təhvil verməsidir. Allahın insanla bağladığı əhd-peymana əsasən, insanın layiqincə Ona itaət etməsi və Onun buyruqlarına əməl etməsi əmanətin ən mühüm nümunəsidir.

Sonrakı ayədə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

***“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”***

Buradan İslamın nəzərinin bəzi məktəblərin nəzərləri ilə fərqləndiyi də məlum olur. İslam cəmiyyətdə haçansa hakimiyyətə ehtiyac duyulmayacağını demir və bunu proqnozlaşdırmır. Halbuki, bəzi məktəblərin proqnozlarına görə, ideal cəmiyyətin xüsusiyyəti odur ki,

1. “Ənam” surəsi, ayə 13.
2. “Nisa” surəsi, ayə, 58-60.

həmin cəmiyyətdə hakimiyyət olmasın. İslam isə bunu demir.

Xəvaric zümrəsi ilahi hakimiyyət bəhanəsi ilə Həzrət Əli ibn Əbitalibin (ə) hakimiyyətdə olmamasını deyirdi. Onların şüarı bu idi:

لَا حُكْمَ إِلَّا لِلَّهِ

*"Hökm (hakimiyyət) yalnız Allahındır."*

İmam (ə) isə bunun cavabında buyurur:

كَلِمَةُ حَقٍّ يُرَادُ بِهَا بَاطِلٌ

*"Bu, batil məqsəd üçün işlədilən haqq sözdür."*[1]

Söz, düz sözdür və həqiqi hakim Allahdır. Qanun göndərən və həyat bəxş edən həqiqətən də Allahdır. Qanun və hakimiyyət Allaha məxsusdur, amma o qanunu icra edən şəxs kim olmalıdır? Yenə deyəcəksiniz ki, Allahdan qeyri, heç kim qanunu icra edə bilməz? Bu sözün cavabında belə deməyə məcburuq:

لابُدَّ لِلنَّاسِ مِن أَمِيرٍ

*"İnsanlar üçün rəhbərin olması zəruridir."*

Bu, insanın təbiətidir və həyatında qanun icraçısına ehtiyacı vardır. Qanunun olması kifayət etmir, onu icra edən, ona düzgün şəkildə və zərafətlə nəzarət edən bir şəxs mütləq olmalıdır. Sözügedən ayədə də elə bundan söz açılır: ***"Özünüzdən olan əmr sahiblərinə itaət edin."***

Lakin söz budur ki, əmr sahibi olan və hökm verən hər kəsə itaət vacibdirmi? Bəzən iki nəfər bir-birinə zidd əmr verir, onların hər ikisi əmr sahibidirmi? Bəzən də bir nəfər əmr verir, lakin insan əqli və şüuru onun əmrini inkar edir. Yenə də o, əmr sahibi adlanırmı? Elə buradan bizimlə əhli-sünnə təfəkkür tərzi arasında əsaslı ixtilaf yaranır. Biz əmr sahibinin ilahi meyarlarla uzlaşan bir şəxs olduğunu dediyimiz halda, onlar əməli olaraq belə bir şərtin olmadığını deyirlər. Yəni, onların məşhur nəzərinə görə, rəhbərlik vəzifəsinə sahib olan hər bir kəs möhtərəm və mötəbərdir.

فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ

***"Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!"***

ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً

***"Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."***

Baxın, ayədə insanların diqqəti yaxşı rəhbərlərin yaxşı, pis rəhbərlərin də pis aqibətinə yönləndirilir. Bu da bir ayə!

---

1. "Nəhcül-bəlağə", xütbə 40.

Üçüncü ayədə isə bu ümumi əmrdən boyun qaçıranlar məzəmmət olunur:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ يَزْعُمُونَ أَنَّهُمْ آمَنُواْ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ

***“(Ey Peyğəmbər!) Sənə nazil edilənə (sənin şəriətinə) və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmürsənmi?”***

Onlar özlərini mömin hesab edirlər, halbuki, yerinə yetirdikləri iş Allaha imanla ziddiyyət təşkil edir. O iş nədir?

يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ

***“Onlar tağutun hüzurunda mühakimə olunmaq istəyirlər.”***

Yəni, öz işlərinin həlli üçün tağuta – zalım rəhbərə müraciət etmək, onun nəzərini öyrənmək və əmrinə tabe olmaq, habelə onun nəzəri və əmri əsasında öz həyatını tənzimləmək istəyirlər. Bu da imana qarşıdır.

يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ وَقَدْ أُمِرُواْ أَن يَكْفُرُواْ بِهِ وَيُرِيدُ الشَّيْطَانُ أَن يُضِلَّهُمْ ضَلاَلاً بَعِيدًا

***“Onlar tağutun hüzurunda mühakimə olunmaq istəyirlər. Halbuki, onlara (tağutu) inkar etmələri əmr olunmuşdur. Şeytan isə onları (doğru yoldan) çox uzaq olan zəlalətə sürükləmək istəyir.”***

Ehtimal edirəm ki, şeytan elə tağutun özüdür və başqa bir şey deyil. Onlar tağutun arxasınca getmək istəyirlər, lakin Qurani-Kərimdə onlar “tağut” adı ilə tanıtdırılan şeytanın vasitəsilə doğru yoldan uzaqlaşıb, azğınlıqlardan və sərgərdan qalmış vadilərdən baş qaldırırlar. Tağut və şeytan onları doğru yoldan elə uzaqlaşdırır ki, azacıq belə geriyə dönüş yoxdur. Onların hidayət yoluna bir də qayıtmaları çox çətindir. Bu, Quran ayəsidir.

Əlbəttə, diqqətinizə çatdırmaq istədiyim məsələ budur: Allahın vilayət məqamı və onun möminlər tərəfindən qəbulu İslam dünyagörüşündə təsbit olunmuş bir fəlsəfədən qaynaqlanır. Deməli, bu, təbii bir məsələdir. Biz Allaha itaət etməyi və əmr sahibinin Allah olduğunu deyiriksə, bunun təbii bir fəlsəsi var. Çünki hər bir şey Allahındır.

وَلَهُ مَا سَكَنَ فِي اللَّيْلِ وَالنَّهَارِ

***“Gecə və gündüzdə mövcud olan hər bir şey Onundur.”***[1]

İnşallah, növbəti məclisimizdə bu bəhsin davamını qeyd edəcəyik.

---

1. “Ənam” surəsi, ayə 13.

## Xülasə

### Bazar ertəsi – Ramazan ayının 27-ci günü

### VİLAYƏT HAQQINDA–1

Qurai-Kərimdə geniş yer tutan vilayət prinsipinin müxtəlif məsələləri haqqında söz açılır ki, həmin məsələlər də ayrı-ayrılıqda İslamın siyasi xəttinin tanınmasında mühüm rol oynayır. Aşağıdakı ayələrdə onlardan bəziləri diqqət və təfəkkürlə əldə edilir:

1. İslam cəmiyyətinin rəhbəri dedikdə, bütün ideoloji və əməli fəaliyyətlərə rəhbərlik edən qüdrət, yəni Allah-Taala və Onun ad və əlamətlərlə təyin etdiyi şəxs nəzərdə tutulur:

إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ – ***Sizin rəhbəriniz yalnız Allah, Onun Peyğəmbəri vı möminlərdir. O kəslər ki, namazı bərpa edər və rükuda olduqları halda zəkat verərlər.***

(“Maidə” surəsi, ayə 55.)

إِنَّ اللّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ – ***Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir.”***

إِنَّ اللّهَ نِعِمَّا يَعِظُكُم بِهِ – ***Şübhəsiz, Allahın bununla sizə verdiyi öyüd necə də gözəldir!***

إِنَّ اللّهَ كَانَ سَمِيعًا بَصِيرًا – ***Həqiqətən, Allah (hər şeyi) eşidəndir, görəndir!***

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ – ***Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!***

فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ – ***Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə***

***inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!***

ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً – ***Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.***

("Nisa" surəsi, ayə, 58-59.)

أَلَمْ تَرَ إِلَى الَّذِينَ يَزْعُمُونَ أَنَّهُمْ آمَنُواْ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ – ***(Ey Peyğəmbər!) Sənə nazil edilənə (sənin şəriətinə) və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmürsənmi?***

يُرِيدُونَ أَن يَتَحَاكَمُواْ إِلَى الطَّاغُوتِ – ***Onlar tağutun hüzurunda mühakimə olunmaq (öz işlərini tağutun hüzurunda həll etmək) istəyirlər.***

وَقَدْ أُمِرُواْ أَن يَكْفُرُواْ بِهِ – ***Halbuki, onlara (tağutu) inkar etmələri əmr olunmuşdur.***

وَيُرِيدُ الشَّيْطَانُ أَن يُضِلَّهُمْ ضَلاَلاً بَعِيدًا – ***Şeytan isə onları (doğru yoldan) çox uzaq olan zəlalətə sürükləmək istəyir.***

("Nisa" surəsi, ayə, 58-59.)

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ – ***Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, Allaha itaət etmiş olur.***

وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا – ***Kim (Peyğəmbərə itaətdən) üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik.***

("Nisa" surəsi, ayə, 80.)

2. İlahi rəhbərlik və onun möminlər tərəfindən qəbulu İslam dünyagörüşündə təsbit olunmuş ideoloji bir fəlsəfədən qaynaqlanır. Bu da təbii bir məsələdir.

وَلَهُ مَا سَكَنَ فِي اللَّيْلِ وَالنَّهَارِ – ***Gecədə və gündüzdə mövcud olan hər bir şey Onundur.***

وَهُوَ السَّمِيعُ الْعَلِيمُ – ***O, (hər şeyi) eşidəndir, biləndir.***

قُلْ أَغَيْرَ اللّهِ أَتَّخِذُ وَلِيًّا فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ وَهُوَ يُطْعِمُ وَلاَ يُطْعَمُ – ***(Ey Peyğəmər!) De: "Mən göyləri və yeri yaradan və (başqalarını) yedizdirib Özü yedizdirilməyən Allahdan başqasını özümə rəhbərmi götürüm?!"***

قُلْ إِنِّيَ أُمِرْتُ أَنْ أَكُونَ أَوَّلَ مَنْ أَسْلَمَ وَلاَ تَكُونَنَّ مِنَ الْمُشْرِكَينَ – ***De: "Mənə İslamı qəbul edən ilk şəxs və müşriklərdən olmamaq əmr edildi!"***

("Ənam" surəsi, ayə 13-14.)

# İYİRMİ YEDDİNCİ MƏCLİS

## VİLAYƏT HAQQINDA–2

Çərşənbə axşamı – 1974/10/15
Ramazan ayının 28-i.

بسم الله الرحمن الرحيم

فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ. إِنَّهُ لَيْسَ لَهُ سُلْطَانٌ عَلَى الَّذِينَ آمَنُواْ
وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ. إِنَّمَا سُلْطَانُهُ عَلَى الَّذِينَ يَتَوَلَّوْنَهُ وَالَّذِينَ هُم بِهِ مُشْرِكُونَ

***“Quran oxuduqda, qovulmuş Şeytandan Allaha sığın! Həqiqətən, iman gətirən və öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmranlığı yoxdur! Şeytanın hökmranlığı yalnız ona itaət (və onun hökmranlığını qəbul) edib Allaha şərik qoşanlar üzərindədir!”***

(“Nəhl” surəsi, ayə, 98-100.)

Bugünkü məclisdə qeyd edilən ayələrə istinadən, sübut və şərh etmək istədiyimiz mətləblərə toxunacağıq. Qeyd etdik ki, hər bir müsəlman və Allaha bəndəçilik iddiası edən hər bir şəxsin öz həyatı boyunca, bütün rəftar və fəaliyyətlərinə Allah tərəfindən seçilmiş rəhbər və hakim nəzarət etməli, özü də Allahdan ilahi rəhbərə itaət etmək müvəffəqiyyəti istəməlidir. Başqa sözlə, o, həyatın bütün fəaliyyətlərində Allahı və Allahın Özünə canişin təyin etdiyi şəxsi hakim və rəhbər bilməlidir. Ötən məclislərdə Allahın canişin təyin etdiyi şəxslərin kimlər olduğunu da nəzərinizə çatdırdıq. Onların peyğəmbərlər və onlardan sonra isə övliyalar – sizin "övliya" adı ilə tanıdığınız ilahi hakim və rəhbərlər – olduğunu dedik və qeyd etdik ki, ilahi rəhbər ya adı və əlamətləri ilə, ya da adı ilə deyil, yalnız əlamətləri ilə təyin olunur. Bunlar ötən məclislərdə toxunduğumuz mətləblər idi. Nəzərdə tutduğumuz bugünkü mətləb isə budur: Əvvəla, Allahın vilayət və rəhbərliyini inkar edən və Ondan qeyrisinin rəhbərliyini qəbul edən insanın hökmü nədir? İkincisi, bu işin adı nədir? Üçüncüsü, bu işin nəticəsi nədir? Uyğun mövzuda bu bəhslərə də yer ayrılmalıdır. Aydındır ki, ilahi vilayət və rəhbərliyi zehnimizdə qəbul etdikdən sonra, növbə onun İslamın danılmaz əməli üsullarından hesab olunacağına çatır. Əlbəttə, bu bəhs vilayətin ikincidərəcəli məsələsinə aid edilsə də onun əsası və tərkib hissəsidir.

Qurani-Kərimdə Allahın hakimiyyətindən başqa, bütün hakimiyyətlər "tağut" adlanır. Allahın hakimiyyəti altında olmayan hər kəs tağutun hakimiyyəti altındadır. Tağut nə deməkdir? "Tağut" sözü "tüğyan" sözündən götürülüb "üsyan etmək" və "insan həyatının fitri və təbii dairəsindən kənarlaşmaq" mənasını daşıyır. Misal üçün, bütün insanların kamilliyə çatmaq üçün yaradıldığını fərz etsəniz, insanlığı kamillikdən məhrum edən kəs "tağut"dur. Fərz edin ki, insanlar ilahi

qanunlar əsasında yaşamalıdır və bu, təbii, həmçinin, insan fitrətinə uyğun bir məsələdir. İnsanları qeyri-ilahi qanunlara sövq edən və onların qeyri-ilahi qanunlar əsasında yaşamasına şərait yaradan şəxs "tağut"dur. İnsan öz varlığını səmərəli bir mövqeyə yetirmək üçün davamlı şəkildə çalışmalıdır. Onu çalışmamaq, ciddi olmamaq, tənbəllik, süstlük və rahatçılıq ardınca olmağa təşviq edib rəğbətləndirən hər bir amil "tağut"dur.

İnsan Allahın əmrinə itaət etməlidir, onu Allahın əmrindən yayındıran və onun Allaha üsyan etməsinə səbəb olan hər bir şey "tağut"dur. Demək, tağut xüsusi isim deyil; bəziləri elə güman etməsinlər ki, tağut hansısa bir bütün adıdır. Əlbəttə, büt adı olsa da, amma müəyyən bir bütün adı deyil; bəzən bu büt sənin öz varlığın, bəzən pulun, bəzən rahat həyat tərzin, bəzən məqsəd və məramındır. Bəzən gözünü bağlayıb başını aşağı dikərək əlini başqa birinin əlinə qoyduğun, o da səni istdəyi yerə aparan şəxsdir. Bəzən bu büt qızıl-gümüş kimi cansız və metaldır, bəzən də insan kimi canlıdır, bəzən də ictimai nizam və qanunlardır. Bütün bunlar "tağut" adlanır. Demək, tağut xüsusi isim deyil. Əlbəttə, nübuvvət bəhsinin "Sosial təbəqələşmələr" mövzusunda qeyd etdiyimiz kimi, Quran ayələrindən anlaşılır ki, mütrüblər, "mələ`" adı ilə qeyd olunan hakimlər və məmurlar, eləcə də, insanları Allahdan uzaqlaşdıran alim və rahiblərlə yanaşı, "tağut" daha böyük və daha geniş bir ifadədir. Bir sözlə, Allahın vilayət və hakimiyyətindən çıxan hər bir kəs tağut və şeytanın vilayət və hakimiyyəti altına keçir. Şeytanla tağut arasında fərq varmı? Onların bir-birilə rabitəsi varmı? Bəli, onların arasında böyük rabitə var. Şeytan elə tağut, tağut da elə şeytandır. Bunu Quran ayəsi açıqlayır. Şeytanla tağutun eyni olduğunu sübut etmək və aydınlaşdırmaq üçün yalnız bir ayəyə istinad etmək istəyirəm:

الَّذِينَ آمَنُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ كَفَرُواْ يُقَاتِلُونَ فِي سَبِيلِ الطَّاغُوتِ

***"İman gətirənlər Allah yolunda, kafir olanlar isə tağut yolunda vuruşurlar."***

Ayənin davamında buyurulur:

فَقَاتِلُواْ أَوْلِيَاء الشَّيْطَانِ

***"O halda Şeytanın dostları (cəbhə yoldaşları, ona bağlı olan və qoşulanlar) ilə vuruşun!"***

إِنَّ كَيْدَ الشَّيْطَانِ كَانَ ضَعِيفًا

***"Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir!"***[1]

Gördüyünüz kimi, bu ayədə şeytanın yerinə "tağut", tağutun yerinə isə "şeytan" ifadəsi işlədilmişdir. İnsanın varlığının xaricində onu çirkinliyə, pozğunluğa, tənəzzülə, alçaqlığa, pisliyə, zülmkarlığa və əyriliyə sövq edən qüvvəyə "şeytan" deyilir.

Həm insanlar, həm cinlər, həm qohumlar, yadlar, qadınlar və böyüklərdən, həm də hiss və duyğulardan ibarət şeytanlar vardır. Onun xarici nümunələrindən biri Həzrət Adəmin (ə) qarşısında müxalif və müstəqil mövqedən çıxış edən, o sözləri deyən, ömrümüz boyunca lənətlədiyimiz ilk şeytan, o bədbəxt və zavallı İblisdir. Halbuki, şeytan yalnız İblisdən ibarət deyil, bəlkə də şeytan nə onunla başlamış, nə də onunla bitəcəkdir. Dünyada nə qədər istəsən şeytanlar vardır; həm onlara toxunmaq olur, həm onları (yuxarıda izah etdiyimiz kimi, qızıl, gümüş, pul və sairə qəlibində) əldə etmək olur, həm də onlar gözə görünürlər. Bəzən də insan onlarla münasibət qurur, gediş-gəliş edir. Şeytan şeytandır; insanı Allah yolundan uzaqlaşdırıb fəsada, pozğunluğa, azğınlığa, pisliyə və alçaqlığa sürükləyən hər bir şey şeytandır.

Bütün qeyri-ilahi hakimiyyətlər şeytani və tağuti (tağutamənsub) adlanır. Həqiqi (və ilahi) rəhbərin əmri altında yaşamayan hər bir kəs tağut və şeytanın əmri altında yaşadığını bilməlidir. Soruşa bilərsiniz: "Məgər şeytan və tağutun əmri altında yaşamaq və onun əmrinə təslim olmağın acı nəticəsi varmı?" Bugünkü ayələrdən anlaşılan incə məqamlardan biri də budur. Qurani-Kərim bu zəmində bizə bir neçə cavab verir.

Birinci cavab odur ki, əgər şeytanın hakimiyyətinə boyun əydinsə, şeytan sənin varlığının bütün potensial və səmərəli enerjilərinə hakim kəsiləcək. Bu başlanğıcdır. Əgər boynunu ona tərəf çevirsən, öz hakimiyyət kəndirini boynuna atacaq və bir daha onun əlindən xilas ola bilməyəcəksən; varlığındakı bütün qüvvələr, potensiallar, fəaliyyətlər və parlaq cilvələr tağut və şeytanın çənginə keçəcək. Bütün varlığın onun çənginə keçdikdə, o, səni asanlıqla özünəməxsus alət və vasitələrlə istədiyi yola və istədiyi yerə çəkib aparacaq. Aydındır ki, şeytan və tağut insanı nura, mərifətə, asayişə, rifah və mənəviyyətə doğru yönəltməz. Bu kimi işlər onun marağında deyil, onun əsas hədəfini öz şəxsi maraqları və onların təmini təşkil edir. Elə buna görə də, səndən öz şəxsi

1. "Nisa" surəsi, ayə 72.

maraqlarının təmini yolunda istifadə edəcək.

Əgər qeyd etdiyim silslə bəhslərə, dəqiq kəlmələr və cümlələrin hər birinin mənasına diqqət etsəniz, görəcəksiniz ki, bu məna əvvəldən bu günə kimi xəbərdar olduğumuz bütün tarixi həqiqətlərə uyğundur. Tağutun hakimiyyətini qəbul etdiyin təqdirdə, bütün qüvvələrin, enerjilərin, istedad və potensialların onun ixtiyarına keçəcək. Onun ixtiyarına keçdiyi zaman sənin xeyrinə işləməyəcək, çünki tağut və şeytan üçün sənin maraq və xeyrin əhəmiyyət kəsb etmir. Şeytan üçün onun özü, öz yolu və öz maraqları önəmlidir. Əgər sənin onun yolu və maraqları uğrunda qurban olmağın lazımdırsa, olmalısan, azğınlığa düşməyin lazımdırsa, düşməlisən. Şeytanın işi budur, qüdrət onun ixtiyarındadır, sən də özünü ona həvalə edibsənsə, səni istədiyi yerə çəkib aparacaq.

Bu, Quran ayəsidir. "Nisa" surəsindən sizin üçün oxuduğum bu ayə üzərində düşünmək lazımdır. Mən özüm, demək olar ki, Quranı düşünmədən oxumuram, çox vaxt ayələr üzərində düşünürəm; bəzən daha çox düşündüyüm zaman hiss edirəm ki, yeni mətləblər əldə etmişəm. Bununla belə, yenə də Quran üzərində az düşünürük. Bu təəssüfedici bir haldır. Burada qeyd etdiyimiz ayəni tərcümə etmişik, indi isə onu şərh edəcəyəm:

وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى

***"Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən (nübuvvət yolundan) üz döndərib möminlərdən (İslam cəmiyyətindən, imanın hədəflərindən, düzgün və məqsədli müsəlman toplusundan) qeyrisinin yoluna tabe olarsa, onu istədiyi (özünün yönəldiyi) yola yönəldərik."***[1] Onun özünün qəbul etdiyi çirkin hakimiyyət yolunda, bədbəxtlik içində saxlayarıq. O, özü öz əli ilə həmin məntəqəyə üz tutduğu və orada məskunlaşdığı üçün Biz də onu elə orada zəlil edərik:

إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ

***"Hər hansı bir tayfa özündə olanlarını (öz əhvalını) dəyişmədikcə, Allah da onda olanları (onun əhvalını) dəyişməz."***[2]

Sən özün öz cilovunu şeytana tapşırdın, indi də qoy sənin cilovun onun əlində qalsın. Bu, bizim və yaradılışın qanunudur. Bunlar bu dünyaya aiddir. Bəs, axirətdə necə olacaq?:

---

1. "Nisa" surəsi, ayə 115.
2. "Rəd" surəsi, ayə 11.

وَنُصْلِهِ جَهَنَّمَ وَسَاءتْ مَصِيرًا

***“Biz onu Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir!”***

Sən bu dünyada (zülm və haqsızlıqlara) gözünü yumduğun üçün birbaşa Rəbbin qəzəb oduna, əbədi Cəhənnəm əzabına atılacaqsan. İnsan tarixə baxdıqda, eynilə bunun şahidi olur.

Bu, ən önəmli sosial məsələlərdəndir və biz bu məsələni Qurana istinadən çox az araşdırmış, İslam tarixi ilə çox az tətbiq etmişik. Nə yaxşı olardı ki, Quransevərlər və təfəkkür əhli Quranın sosial-ictimai, xüsusən, tarixi məsələləri üzərində daha çox düşünsün. Sonra isə onları tarixi həqiqətlərlə tətbiq etdikdə, tarixi təfsir və yozumların hansı birinin həqiqətə uyğun olduğunu aydınlaşdıracaqdır. Bu tarixi hadisə uyğun ayənin təfsiri ilə əlaqədardır. Bildiyiniz kimi, belə xüsusi məclislərdə tarix demək mənim adət və metodum deyil, bu gün isə azacıq tarixə toxunacağam:

Kufə şəhəri İslam tarixinin ən maraqlı şəhərlərindən biridir. Sizin yaddaşınızda Kufə ilə bağlı bir neçə xatirə vardır və mənim burada Kufə haqqında qeyd etdiyim hadisə təzə deyil. Yadınızdadırsa, Kufə elə bir yerdir ki, Əmirəlmöminin Əli (ə) öz xilafəti üçün o qədər İslam ölkələri və böyük İslam məmləkətinin şəhərləri arasından bu şəhəri seçdi. Yenə yadınızdadırsa, Kufə əhli Əmirəlmöminin Əlinin (ə) döyüşlərində – “Cəməl”, “Nəhrəvan” və (və bəzi qəbilələrin iştirakı ilə) “Siffeyn” döyüşlərində iştirak etmişdi. Bu döyüşlər elə bu şəhərin mərd və cəngavər insanlarının vasitəsilə sona yetmişdi. Yenə də yadınızda olan başqa bir məqam budur ki, Əmirəlmöminin Əli (ə) elə bu Kufə camaatının əlindən şikayət edir və gileylənirdi ki, nə üçün sizi döyüşə çağırdıqda gəlmirsiniz? Yenə də həmin camaatın böyükləri İmam Həsən Müctəbaya (ə) məktub yazır və o Həzrətdən istəyirlər ki, Kufəyə təşrif gətirsin və biz bu şəhəri sizin ixtiyarınızda qoyacağıq. Yenə də həmin camaatın böyükləri – Süleyman ibn Sürəd Xüzai, Həbib ibn Məzahir, Müslim ibn Ovsəcə[1] və başqaları İmam Hüseynə (ə) məktub yazıb bildirirlər ki, bizim imamımız, rəhbərimiz və hakimimiz yoxdur. Bizə bu zülmkar şəxs hakim olmuşdur, siz gəlin (və bizi xilas edin). Onlar həqiqətən də düz deyirdilər. Yenə həmin camaat İmam Hüseynin (ə)

1. Bu üç nəfər Kufə şiələrinin böyüklərindən sayılırdı. Həbib ibn Məzahir və Müslim ibn Ovsəcə özlərini Kərbəlaya yetirib İmam Hüseynin (ə) yanında şəhadətə nail oldular. Süleyman ibn Sürəd Xüzai isə sonralar “Təvvabin” qiyamına rəhbərlik etdi.

müqabilində səf çəkir və sonda həmin faciə (Aşura faciəsi) baş verir. Yenə həmin Kufə camaatı həmin faciədən az sonra İslam tarixinin nadir hadisələrindən birinə imza atır. “Təvvabin” (tövbə edənlər) macərası baş qaldırır. Onlar Kərbəla və Aşura hadisəsində iştirak edə bilmədiklərindən tövbə etmək və canlarını qurban vermək məqsədilə yola düşürlər. Əməvilər və Abbasilərin hakimiyyəti dönəmində əksər inqilabların toxumu yenə həmin camaatın vasitəsilə əkilir, cücərir və səmərə verirdi. Onlar çox qurban verdilər, qətlə yetirildilər, canfəşanlıq etdilər və fədakarlıq göstərdilər. Görürsünüz ki, yenə həmin camaat bəzi hadisələr müqabilində ruhi və psixoloji süstlük, tənbəllik və zəiflik göstərir.

Bunun səbəbi nədir? Bu insanlarda iki üz, ik ruhiyyə var idimi? Xanım Zeynəbi-Kübra (s.ə) onları يا أَهْلَ الْكُوفَةِ، يا اَهْلَ الْخَتْلِ وَ الْغَدْرِ *“Ey Kufə əhli, ey hiyləgər və vəfasız camaat!”*[1] – ifadəsi ilə yad edir.

Mənim nəzərimcə, Kufə şəhəri və tarixdə onun psixoloji durumu haqqında mütaliə edib araşdırma aparılsa, çox maraqlı bir araşdırma olar. Mütəxəssislər, sosioloqlor və psixoloqlar Kufə və onun bu qədər maraqlı və qəribə bir əhalisinin olması haqqında düşünsünlər, tədqiqat aparsınlar və bəhs etsinlər. Görəsən, bir yerdə təəssüfdoğuracaq şəkildə uca insanlıq nümayişi etmələri, başqa bir yerdə isə süstlük və tənbəllik etmələrinin səbəbi nədir? Yəni, kufəlilər iki qrupa bölünürdülərmi? Kufə cəmiyyəti ikiüzlü idimi? Kufə Əmirəlmöminin Əlinin (ə) dolğun kəlamları sayəsində elə yetişmiş və təcrübə qazanmış bir məntəqə idi ki, orada nə əkilirdisə, dərhal cücərib yaşıllaşır, hidayət və tərbiyəyə layiq bir fidana çevrilirdi. Kufəyə insan yetişdirən ab-hava hakim olmuşdu. Elə buna görə də, şiə tarixinin böyük və görkəmli şəxsiyyətləri hətta Mədinədən də çox Kufədə yetişirdi. Görəsən, səbəb nə idi? Səbəb Əmirəlmöminin Əlinin (ə) dörd il hakimiyyəti dövründəki təlimləri və təbliğləri idi. Əli ibn Əbitalib (ə) kimi bir şəxsiyyətin bir şəhərdə hakimiyyətdə olması kiçik bir məsələ deyil. Bu hakimiyyət dörd il ərzində İslam dünyası miqyasında uğur qazanmasa da, sözsüz ki, Kufədə uğur qazanmış, Kufə cəmiyyətində qəribə təsirlər qoymuş, nəticədə Kufə şəhəri şiə məzhəbinin beşiyi və fəzilətlər diyarına çevrilmişdi. Bəlkə, belə deyil?

Fəzilətlər diyarı olan bir yerdə hamının ideal və fəzilət sahibi olması mütləq deyil. Həmişə bir cəmiyyətdə müəyyən bir zümrə xas əməlləri və fədakarlıqları ilə başqalarından seçilir. Milyonlarla insan arasında bəzən

1. “Biharul-ənvar”, “İmam Hüseynin (ə) həyatı”, bölmə 39, hədis 1.

minlərlə insan (yəni, az bir qisim) qəhrəmanlıq və fədəkarlıq nümunəsinə, cəmiyyətdə faydalı qüvvəyə çevrilir. Kufə əhalisi içərisində də bir zümrə diqqəti cəlb edirdi. Sosioloqların ifadəsi ilə desək, bir təbəqə deyil, bir dəstə və bir qrup özəl xüsusiyyətlərə sahib idi. Lakin ümumxalq kütləsi digər şəhərlərin əhalisindən fərqlənmirdi və onlardan pis deyildi. Məşhəd, Tehran, İsfahan, Mədinə və digər şəhərlərin əhalisi kimi idi, amma İslam məmləkətinin bir guşəsində, yəni Kufə şəhərində azlıq təşkil edən bir zümrə dövrün hakimlərinin qorxu və vəhşətinə səbəb olmuşdu. Ən çirkin qüvvələr və hakimlər həmişə özlərinin ən alçaq insanlarını, nökər və cəlladlarını həmin şəhərə hakim təyin edirdilər ki, əhalini həm siyasi və maddi baxımdan təzyiqlərə məruz qoysun, həm də zəhərli təbliğatlar vasitəsilə xalq kütləsini qəflətə düçar edib azğınlıq və ətalətə sürükləsinlər.

Onlar nə üçün belə edirdilər? Çünki həmin mübariz və fədakar insanlar başqa şəhərlərdə deyil, yalnız Kufə şəhərində idilər. Onlar bu pak və mübariz insanların vasitəsilə yaranmış zəmin və şəraiti tamamilə pozmaq və aradan qaldırmaq istəyir, zəhərli təbliğatlar aparır, insanları təzyiqlər altında və maddi-iqtisadi sıxıntıda saxlayırdılar. Bir sözlə, Kufə camaatını müxtəlif vasitələrlə xüsusi şərait və nəzarətdə saxlayırdılar, halbuki, digər şəhərlər belə deyildi. Elə bu səbəbdən, xalq kütləsi zalım və qəddar hakim dairələrin fəaliyyətlərindən təsirlənib bir sıra yaramaz işlərə əl atsaydı belə, onun mənşəyi Kufə camaatının pis olması deyildi. Bu qısa şərh Kufə haqqında idi. Bu zəmində düşünüb mütaliə edən və tədqiqat aparmaq istəyənlər, nəzərimcə, maraqlı məqamlarla rastlaşarlar.

Əməvi xəlifəsi Əbdülməlik Həccac ibn Yusifi Kufəyə göndərdi. O bilirdi ki, heç kim Həccac ibn Yusif kimi Kufənin mübariz və fədakar insanlarının öhdəsindən gələ bilməz. Elə buna görə də bu işə ən qəddar və ən cəllad nökərini məmur etdi. O da Həccac ibn Yusif idi. Həccac ibn Yusif gecəyarı Kufəyə daxil oldu və onun şəhərə gəlişindən heç kim xəbər tutmadı. Zahirən, camaat sabiq hakimi şəhərdən qovmuşdu. O, özü ilə bir qrup döyüşçü gətirmişdi. Onlar məscidi mühasirəyə aldı. Məsciddən ibadət edənlərin və gecə ibadəti ilə məşğul olanların zümzüməsi eşidilirdi. Həccac nökərlərinə lazımi təlimatlar verib məscidin bir guşəsində əyləşdi.

Camaat sübh azanı vaxtı sübh namazını məscidin imamı ilə birgə qılmaq, ibadət və raz-niyazla məşğul olmaq üçün Kufə məscidinə

toplaşdı. Amma görünürdü ki, məscidə gələn ibadət əhli agah və ayıq insanlar deyildi. Səbəbi isə budur: Həccac ibn Yusif məscidə daxil olur, amma camaat kimin gəldiyini, nə üçün və hansı məqsədlə gəldiyini anlamır. O, məscidə daxil olub heç kimin diqqətini cəlb etmədən camaatın arasından keçərək mənbərə çıxır. Kufə məscidinin nə qədər böyük olduğunu görübsünüz. Camaat əvvəlcə diqqət etmədi. O isə bir söz demədən mənbərdə əyləşmişdi. Camaat arasından bir nəfər başını qaldırıb Həccacı mənbərdə gördü, amma tanımadı. Mənbərdə kimin əyləşdiyini soruşdu. Həccac çox qəribə geyinmiş, başına qırmızırəngli yun əmmamə qoymuş, əmmamənin bir ucunu boğazının altından keçirib çiyninə atmış və üzünü də burnunun üstünə qədər niqabla bağlamışdı, yalnız gözləri görünürdü. Bir sözlə, özünə qəribə bir görkəm vermişdi. Əlində qılınc, çiynində əba və başında qırmızı əmmamə Kufə məscidinin mənbərində sakitcə əyləşmişdi. Onun görünüşü və sükutu camaatın diqqətini çəkdi. Camaat bir-birilə pıçıldaşmağa başladı. Məsciddə pərakəndə halda əyləşən camaat yavaş-yavaş mənbərə tərəf yaxınlaşdı ki, onun kim olduğunu öyrənsin.

Diqqət yetirin, görün Quran nə buyurur:

نُوَلِّهِ مَا تَوَلَّى

***“Hər kəs iman yolundan, möminlərdən qeyrisinin yoluna tabe olarsa, onu istədiyi (özünün yönəldiyi) yola yönəldərik”***[1], öz boynuna atdığı kəndiri boynuna sarıyarıq. Sən müsəlmansan, məscidinin mənbərində tanımadığın bir şəxs əyləşib. Nə üçün onun haqqında maraqlanmırsan? Sən onun yanına gedib onun kim olduğunu soruşmalı, onun özünü təqdim etməsini istəməliydin. İçərilərindən bir neçə nəfər onu sorğuya tutmalıydı. Əgər onlar onu sorğu-suala tutsaydı, tamamilə başqa vəziyyət yaranacaqdı. Lakin onlar süstlük, iradəsizlik və zəiflik nümayiş etdirdilər və mənbərin qarşısında əyləşib onun sözlərinə qulaq asmağa başladılar.

O da camaatın ona tamaşa etdiyini gördükdə dedi: “Deyəsən, Kufə camaatı məni tanımır!” Camaat bir-birinə baxmağa başladı. Məlum idi ki, tanımırdı. O isə: “İndi özümü tanıtdırıram.” – deyib, əmmaməni başından götürdü, niqabı üzündən çəkdi. Camaata baxıb bir şeir dedi:

أَنا اِبنُ جَلا وَطَلاعِ الثَنايا
مَتى أَضَعِ العِمامَةَ تَعرِفوني

1. “Nisa” surəsi, ayə 115.

*"Mən səhər oğluyam, dağları aşan! Əmmaməmi götürdükdə, tanıyacaqsız məni."*[1]

Bəziləri – bir-iki nəfər onun Həcac olduğunu ehtimal verdi. Məsciddə pıçıltı səsləri dolanmağa başladı: "Deyəsən Həccacdır, deyəsən Həccacdır." Camaat birdən qorxuya düşdü. Hamını vahimə bürüdü ki, Həccac gəlib mənbərdə əyləşib. Həccac dedi: "Bəli, mənəm Həccac, düz tanıdınız." Camaat vahimə içində əyləşmişdi. O qədər insan içərisindən bir nəfər tapılmadı ki, desin: "Həccac da kişidir, mən də kişiyəm. O, yuxarıda əyləşib, mən isə aşağıda. Onun nəyi vardırsa, mənim də var." Burada camaat zəiflik göstərdi.

Həccac dedi: "Ey Kufə camaatı! Mən meyvə tək yetişən, boyunlardan asılan və dərilmə vaxtı çatan başlar görürəm. Bu başlardan bəzilərinin bədənlərdən ayrılmasını zəruri hesab edirəm." Camaat onun puç sözlərindən daha da vahiməyə düşdü. Axı, Həccac atom bombası ilə Kufəyə daxil olmamışdı. Əgər atom bombasına sahib olsaydı belə, partlamayacaqdı. Çünki partlasaydı, onlara hökmranlıq edən bir şəxs belə qalmayacaqdı. Odur ki, hamını öldürməyəcək, bir qrupu sağ saxlayacaqdı. Əgər hamını öldürsəydi, bəs, kimə hökmranlıq edəcəkdi? Qapıyamı? Divaramı? Bunun nə ləzzəti olacaqdı? Gedib səhralıqdamı hökmranlıq edəcəkdi? Camaat bunu düşünə bilmirdi.

Bəli, Həccac dedi ki, başların bədənlərdən asıldığını, onların yetişib bədənlərdən ayrılma vaxtının çatdığını görürəm. Bundan sonra kimin başının kəsildiyini mən ayırd edəcəyəm. Qulamını çağırdı və əmr etdi ki, ayağa qalxsın. Qulamı ayağa qalxıb mənbərin qarşısında dayandı. Həccac ona dedi: "Cənablar üçün möminlərin əmirinin məktubunu oxu." Möminlərin əmiri, yəni xəlifə Əmdülməlik ibn Mərvan. Qulam xəlifə Əmdülməlik ibn Mərvanın məktubunu açıb oxumağa başladı:

"Bismillahir-Rəhmanir-Rəhim. Möminlərin əmiri Əbdülməlik ibn Mərvandan Kufə əhalisinə! Ey Kufə əhalisi, salam olsun sizə!" Qulam bura çatdıqda, birdən Həccac üzünü qulama tutub dedi: "Sakit ol, dayan!" Qulam sakit dayandı. Həccac üzünü camaata tutub dedi: "Siz çox tərbiyəsizləşibsiniz! Möminlərin əmiri sizə salam verir, siz isə cavab vermirsiniz. Qulam, yenidən oxu!" Qulam yenidən oxumağa başladı: "Bismillahir-Rəhmanir-Rəhim. Möminlərin əmiri Əbdülməlik ibn Mərvandan Kufə əhlinə! Ey Kufə əhalisi, salam olsun sizə!" Birdən

1. "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 475-ci hikmətin şərhində.

məsciddə olanların hamısı uca səslə: "Salam olsun mömünlərin əmirinə!" – deyib, qulamın salamını cavablandırdılar. Həccac təbəssüm edib razılığını bildirdi və hər şeyin bitdiyini düşündü. Doğrudan da, Kufə camaatının işi bununla da bitmiş oldu.

وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى

***"Hər kəs özünə doğru yol aşkar olandan sonra, Peyğəmbərdən (nübuvvət yolundan) üz döndərib möminlərdən qeyrisinin yoluna tabe olarsa, onu istədiyi (özünün yönəldiyi) yola yönəldərik."***[1]

Həccacı qəbul etdinizmi? Möminlərin deyil, kafirlərin və fasiqlərin əmirinin salamına cavab verdinizmi? Yaxşı, onu qəbul etdinizsə, Həccac da sizin hakiminiz olsun! Həccacı özünüz bəyəndiniz. Bilin ki, Allah onu möcüzə ilə aradan götürüb, Həzrət Zeynəlabidini (ə) onun yerinə qoyan deyil! Həccacı istəmədiyiniz vaxta qədər o sizinlədir. Həccacı qəbul etdiyiniz vaxta qədər bütün həyatınız, fikriniz və ruhunuz onun ixtiyarına keçəcək. Bu isə tarixin və yaradılışın qanunauyğunluğudur.

Bu, bir tarixdir. Tarix ibrət dərsidir, Quranın təfsiridir. Quranı tarixdə axtarıb tapın. Bizim keçmiş ömrümüz tarixin təcrübəsidir. Tarixə diqqətlə yanaşın və onunla ünsiyyət yaradın. Çalışın, tarixi və onun həqiqətlərini mənimsəyin. Tarixi bir hadisə və hekayəni nəql etməklə kifayətlənməyin. Baxın, görün, tarix nə demək istəyir? Tarixdə Həcacın əhvalatı bizə nəyi aşılayır?

Bu sözü deməyim də yerinə düşər. Həmin Həccac qətl və faciələri kimlərə görə törətmişdisə, elə onların vasitəsilə ən faciəli şəkildə Cəhənnəmə vasil oldu. Bunu da bilin ki, من أعان ظالماً سلّطه الله عليه – hər kim bir zalıma kömək etsə, Allah həmin zalımı ona müsəllət edər.[2] Bu da başqa bir ilahi qanunauyğunluqdur. Tarixə baxın, görün bizə hansı ibrətləri aşılayır? Nə demək istəyir? Mesajları nədir? Öyüd-nəsihətləri nədən ibarətdir? Son dərəcə diqqətlə tarixi araşdırın, o zaman Quran ayələrini asanlıqla anlayacaqsınız. Mən bir tarixi hadisəyə toxundum, onun Quran ayəsi ilə rabitəsini isə sizin öz öhdənizə buraxıram.

İndi də ayələri məna və tərcümə edək:

فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

***"Quran oxuduğun zaman qovulmuş Şeytandan Allaha sığın!"***[3]

---

1. "Nisa" surəsi, ayə 115.
2. "Nəhcül-fəsahə", hədis 2945.
3. "Nəhl" surəsi, ayə 98-100.

Qardaşlar, indi ki Quranı oxuya bilirsiniz, İslam maarifi ilə tanışsınız, əgər bu vaxta qədər bunu bilmirdinzsə, bilin, Quran öyrənməyinizi və onu anlamağınızı istəməyən Şeytanın şərindən özünüzü qoruyun! Özünüzü qorumaq nə deməkdir? Çalışın, qəlbinizdə yer tutmuş Quran maarifini əlinizdən almasın, əməl və təfəkkür yolunu üzünüzə bağlamasın. Odur ki, فَاسْتَعِذْ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ – ***Qovulmuş Şeytanın şərindən Allaha sığının!***

Məgər Allaha sığına bilərəmmi? Şeytanın şərindən qaçıb qurtara bilərəmmi? Əlbəttə ki, bəli!

إِنَّهُ لَيْسَ لَهُ سُلْطَانٌ عَلَى الَّذِينَ آمَنُواْ وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ

***“Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmranlığı yoxdur!”*** Allahın vilayət və hökmranlığı altında olan və bunun üçün çalışanlar və Allahın vilayət və hökmranlıq məntəqəsinə doğru tələsənlərə şeytan hökmranlıq edə bilməz.

إِنَّمَا سُلْطَانُهُ عَلَى الَّذِينَ يَتَوَلَّوْنَهُ

***“Şeytanın hökmranlığı yalnız ona itaət (və onun hökmranlığını qəbul) edənlərin üzərindədir!”*** Həccacın hökmranlığı yalnız onun yoğun səsini qəbul edənlərə, boynunun kəndirini öz əli ilə onun əlinə tapşıranlara aiddir.

إِنَّمَا سُلْطَانُهُ عَلَى الَّذِينَ يَتَوَلَّوْنَهُ وَالَّذِينَ هُم بِهِ مُشْرِكُونَ

***“Şeytanın hökmranlığı yalnız onun hökmranlığını qəbul edib Allaha şərik qoşanlar üzərindədir!”***

وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى

***“Hər kəs özünə hidayət yolu aşkar olduqdan sonra, Peyğəmbərdən (nübuvvətə şəhadət verməkdən və ona imanın öhdəliklərindən) üz döndərib (həqiqi) möminlərdən qeyrisinin yoluna tabe olarsa, onu istədiyi (özünün yönəldiyi) yola yönəldərik”,*** hökmranlığını qəbul etdiyi şəxsi ona hakim edərik.

وَنُصْلِهِ جَهَنَّمَ

***“Onu Cəhənnəmə varid edərik.”***

وَسَاءتْ مَصِيرًا

***“Cəhənnəm necə də pis yerdir!”***

إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ

***“Allah Ona şərik qoşmağı əsla bağışlamaz.”*** Tövhid bəhsinə qayıdın, tövhidlə şirkin mənasına baxın, görün şirk nədir, tövhid nədir?

Allahın bağışlamadığı günah nədir? ***"Allah Ona şərik qoşmağı əsla bağışlamaz."*** Daha dəqiq ifadələr də işlədə bilərik. Allah öz məğfirətini şirki qəbul edənlərin halına əsla şamil etməz. Allaha şərik qoşan, Allahdan qeyrisinin vilayət və hökmranlıq məntəqəsinə daxil olub Allahın nüfuz məntəqəsini Ondan qeyrisinə tapşıranı əsla bağışlamaz; günah, üsyan, pislik, çirkinlik və bədbəxtlik nəticəsində ruhun üzərində əyləşən yaralar heç zaman sağalmaz, məğfirətə tuş gəlməz. Məğfirətin mənasını sizə şərh etmişəm. Günahın bağışlanması dedikdə, günah, xəta, azğınlıq və inhiraf ucbatından insan ruhunda yaranan yaraların sağalması nəzərdə tutulur. Yaralar sağaldıqda, məğfirət də insanın halına şamil olur. Çirkin əməldən, əyrilikdən və qeyri-ilahi yoldan sənin ruhunda yaranan yaralar və narahatlıqlar sağaldığı zaman bağışlanacaq, ilahi məğfirətə şamil olacaqsan. Məğfirətin mənası budur. Əgər Allahdan qeyrisinin vilayət və hökmranlığı altında olsan, günah nəticəsində yaranan yaralar heç zaman sağalmayacaq, günahın acı təsiri heç vaxt aradan qalxmayacaq.

وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء

***"Bundan başqa (aşağı və kiçik) olan günahları isə istədiyi kimsə üçün bağışlayar."***

Allahın istəyi isə hesab-kitabsız deyil; kim tövbə edərsə, günaha son qoyarsa və Allaha doğru üz tutarsa, Allah da onun məğfirətə şamil olmasını, bağışlanmasını istəyər. Ayənin davamında yenidən şirk məsələsinə qayıdılır və buyurulur:

وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

***"Allaha şərik qoşan şəxs, şübhəsiz ki, (hidayət yolundan) çox azmışdır."***

Bəzən, səhralıqda yolu itirir və yoldan yalnız bir kilometr uzaqlaşmış olursan. Bəzən də, itirdiyin yolun məsafəsi onlarla kilometr olur. Bu qədər yolu qayıtmaq asan deyil, əlavə təlaş, zəhmət, zirəklik və yaxşı bələdçi tələb edir. Allaha şərik qoşanlar da doğru və orta yoldan – hidayət yolundan çox-çox uzaq düşmüş, böyük azğınlıq və sərgərdanlığa düçar olmuşlar.

إِن يَدْعُونَ مِن دُونِهِ إِلاَّ إِنَاثًا وَإِن يَدْعُونَ إِلاَّ شَيْطَانًا مَّرِيدًا

***"Onlar Allahdan başqa, yalnız qadınları çağırır və yalnız azğın (itaətsiz, yaxşılıqdan uzaq) Şeytanı səsləyirlər."***

Ayədə qeyd olunan "mərid" sözünü "azğın" mənasında tərcümə

etmişik. Onunla yanaşı "yaxşılıqlardan uzaq" mənasını da qeyd edə bilərsiniz. Bu da "mərid" sözünün başqa bir mənasıdır.

لَّعَنَهُ اللّهُ

***"Allah ona (Şeytana) lənət etdi",*** onu Öz rəhmət dərgahından uzaqlaşdırdı.

وَقَالَ لَأَتَّخِذَنَّ مِنْ عِبَادِكَ نَصِيبًا مَّفْرُوضًا

***"O isə dedi: "Əlbəttə, mən Sənin bəndələrindən (özüm üçün) müəyyən bir pay götürəcəyəm.""***

Şeytan elə o vaxtdan and içdi ki, öz cəbhəsi ilə Allahın cəbhəsi arasında sülh və barışıq olmayacaq. Şeytan dedikdə, təbii ki, şeytanlar və şeytansifətlər nəzərdə tutulur. Bütün şeytanlar və onların bütün təbəqəsi bu xüsusiyyətə sahibdir. Onlar Allahın dərgahında and içib ki, Sənin bəndələrindən bir qismini doğru yoldan uzaqlaşdırıb azğınlığa çəkəcək, ağıllarını alacaq, düşüncələrini korlayacağıq. Onları Sənin vilayət və hökmranlıq altında olmaq əvəzinə, öz vilayət və hökmranlığımız altına çəkəcəyik.

وَلأُضِلَّنَّهُمْ

***"Onları mütləq azdıracağam."***

وَلأُمَنِّيَنَّهُمْ

***"(Uzun-uzadı) arzulara düçar edəcəyəm."***

"Arzular" üzərində bir az düşünün. Uzun-uzadı arzular insanı Allah yolunda çalışmaqdan saxlayır. Xoş, rahat və rifah həyat tərzi, böyük oğula toy etmək, qızları köçürmək, kiçik evi və mağazanı böyütmək, hansısa təşkilat və müəssisənin rəhbəri olmaq, filan qədər pul qazanmaq, özümə və yaxud oğluma mühəndis deyilmək və bu kimi digər uzun-uzadı arzular insanın başına düşən dəyirman daşı tək insanın başını üzər, belini bükər və onu diz çökdürər;, əgər həmin arzulara olan tamah dişini çəkib tullasan, azad və rahat olduğunu, Allah yolunda əl-qolunun bağlı olmadığını görəcəksən.

وَلأُمَنِّيَنَّهُمْ

***"(Uzun-uzadı) arzulara düçar edəcəyəm."***

وَلآمُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ آذَانَ الأَنْعَامِ

***"Onlara əmr edəcəyəm ki, heyvanların qulaqlarını deşsinlər."***

Bu, cahil və yanlış bir adət-ənənə nümunəsi idi. Ola bilsin ki, bu cümlədə daha böyük sirlər qoyulsun. Mən onun üzərində çox düşünmədim. Bu haqda qeyd edilənlərin hamısını araşdırmağa da vaxtım

olmadı. Bəlkə də yeni mətləblər əldə etmək olardı, amma maraq göstərmədim. Bununla bağlı diqqətinizə çatdıracağım mətləbdən daha da yeni mətləblərin olmasını ehtimal edirəm. Siz də bu haqda düşünün. Hadisənin zahiri bundan ibarətdir: Peyğəmbərin (s) dövründəki cahilanə adət-ənənəyə əsasən, heyvanların qulaqlarını deşir və kəsirdilər. Onlar bunu ruzi-bərəkətlərinin artması və sağlıqlarının təmin olunması məqsədilə yerinə yetirirdilər. Bu da cahilanə bir adət idi. Ayədə də bu məsələ qeyri-ilahi bir ənənə və təfəkkür tərzi kimi aşılanır. Görün, bu ənənə nə qədər də puç, absurd və məntiqdən kənar bir məsələdir. Bütün şeytani ənənələr bu qəbildəndir. Bu ənənə onun ardıcıllarının nəzərində puç olmasa da ağıllı insanların nəzərində isə puçdur.

وَلآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ اللّهِ

***"Onlara Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm!"***

Ayənin bu hissəsi daha maraqlıdır. Yəni, ilahi, mənim (şeytanın) hökmümə müti olan, Sənin vilayət və hökmranlıq əyalətində ovlayıb öz əyalətimə çəkib apardığım insanları məcbur edərəm ki, ilahi fitrət və yaradılışdan üz çevirsinlər, Sənin onlar üçün təyin etdiyin istiqamət xəttindən uzaqlaşsınlar. Onlar üçün fitrətəzidd qanunlar çıxarıb təbiətə zidd göstərişlər verər, onlara insanlıq təbiətindən başqa bir yola doğru aparan bir yol göstərərəm:

وَلآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ اللّهِ

***"Onlara Allahın yaratdıqlarını (ilahi fitrəti) dəyişdirməyi əmr edəcəyəm!"***

Bu da şeytanın Allah qarşısındakı andından ibarətdir.

Şeytanın Allaha andı düşmənçilik və inadkarlıqdır. O, Allah dərgahında özünü belə təqdim edir və bütün şeytanların iş sərlövhəsi və proqramı budur. Əmin olun ki, ilahi fitrət əsasında yaşamaq istəyənləri şeytan azdırmaq istəyəcək. Şeytanın hakim olduğu insanların bu yolda addım atması qeyri-mümkündür; hər bir vasitə ilə onları ilahi fitrət və yaradılışdan uzaqlaşdıracaq. Çünki belə olmazsa, şeytanın şeytanlığı yarımçıq qalar. Elə bu səbəbdən də Allah-Taala ayənin davamında bizə xitabən buyurur:

وَمَن يَتَّخِذِ الشَّيْطَانَ وَلِيًّا مِّن دُونِ اللّهِ فَقَدْ خَسِرَ خُسْرَانًا مُّبِينًا

***"Allahı qoyub Şeytanı özünə rəhbər bilən şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır."***

يَعِدُهُمْ

***"(Şeytan) onlara (ömrünüz, həyatınız və gələcəyinizlə bağlı yalan) vədlər verir."***

وَيُمَنِّيهِمْ

***"Onları uzun-uzadı arzulara düçar edir."***

وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا

***"Lakin Şeytan onlara yalnız yalan vədlər verir."***

## Xülasə

**Çərşənbə axşamı – Ramazan ayının 28-ci günü**

## VİLAYƏT HAQQINDA–2

Allahın və canişinlərinin vilayət və hökmranlığından başqa, bütün vilayət və hökmranlıqlar "tağut" və "şeytani" adlanır. Hər kim şeytanın hökmranlığını qəbul edərsə, şeytan onun varlığındakı bütün qurucu qüvvələr və potensiallarına hakim kəsiləcək, onu öz maraqları və nəfsinin istəkləri yolunda sərf edəcək. Tağut üçün hər şeydən mühüm öz mənfəət və xeyridir, cəmiyyətin xeyri və mənafeyinə, əsas etibarilə, insanlıq təməllərinə və onun təbiətdəki imkanlarına yalnız öz şəxsi prizmasından yanaşır. Şeytanın insan cəmiyyətinə hökmranlığında əsas qayə zərər və ziyan, böyük dəyərlərin aradan qaldırılmasıdır. İnsanlar məlumatsızlıq və etinasızlıq ucbatından tağutun hökmranlıq etdiyi cəmiyyətdə mərifət nurundan, insanlıqdan və həyatın ilahi ayinlər vasitəsilə işıqlanmasından məhrum qalmış, nadanlıq, ehtiras, şəhvət, məğrurluq və eqoistlik əsarətində həbs olunmuşlar.

فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ – ***Quran oxuduqda, qovulmuş Şeytandan (və onun şərindən) Allaha sığın!***

إِنَّهُ لَيْسَ لَهُ سُلْطَانٌ عَلَى الَّذِينَ آمَنُواْ وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ – ***Həqiqətən, iman gətirən və yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmranlığı yoxdur!***

إِنَّمَا سُلْطَانُهُ عَلَى الَّذِينَ يَتَوَلَّوْنَهُ وَالَّذِينَ هُم بِهِ مُشْرِكُونَ – ***Şeytanın hökmranlığı yalnız ona itaət (və onun hökmranlığını qəbul) edib Allaha şərik qoşanlar üzərindədir!"***

("Nəhl" surəsi, ayə 98-100.)

وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى وَنُصْلِهِ جَهَنَّمَ – ***Hər kəs özünə hidayət yolu aşkar olduqdan sonra Peyğəmbərdən (nübuvvətə şəhadət verməkdən və ona imanın öhdəliklərindən) üz döndərib möminlərdən (imanlı cəmiyyətdən) qeyrisinin yoluna tabe olarsa, onu istədiyi (özünün yönəldiyi) yola yönəldər və onu Cəhənnəmə varid edərik.***

وَسَاءتْ مَصِيرًا – ***Cəhənnəm necə də pis yerdir.***

إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ – ***Həqiqətən, Allah Ona (vilayət və rəhbərlikdə) şərik qoşmağı əsla bağışlamaz.***

وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء – ***Bundan başqa (aşağı və kiçik) olan günahları isə istədiyi kimsə üçün bağışlayar.***

وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا – ***Allaha şərik qoşan şəxs, şübhəsiz ki, (hidayət yolundan) çox azmışdır.***

إِن يَدْعُونَ مِن دُونِهِ إِلاَّ إِنَاثًا وَإِن يَدْعُونَ إِلاَّ شَيْطَانًا مَّرِيدًا – ***Onlar Allahdan başqa, yalnız qadınları çağırır və yalnız azğın (itaətsiz, yaxşılıqdan uzaq) Şeytanı səsləyirlər.***

لَّعَنَهُ اللّهُ – ***Allah ona (Şeytana) lənət etdi (Öz rəhmət dərgahından uzaqlaşdırdı).***

وَقَالَ لَأَتَّخِذَنَّ مِنْ عِبَادِكَ نَصِيبًا مَّفْرُوضًا – ***O isə dedi: "Əlbəttə, mən Sənin bəndələrindən (özüm üçün) müəyyən bir pay götürəcəyəm."***

وَلأُضِلَّنَّهُمْ وَلأُمَنِّيَنَّهُمْ وَلآمُرَنَّهُمْ فَلَيُبَتِّكُنَّ آذَانَ الأَنْعَامِ وَلآمُرَنَّهُمْ فَلَيُغَيِّرُنَّ خَلْقَ اللّهِ – ***Onları mütləq azdıracaq, (uzun-uzadı) arzulara düçar edəcək və heyvanların qulaqlarını deşməyi və Allahın yaratdıqlarını dəyişdirməyi (insanlara fitrət yolundan çıxmağı) əmr edəcəyəm!***

وَمَن يَتَّخِذِ الشَّيْطَانَ وَلِيًّا مِّن دُونِ اللّهِ فَقَدْ خَسِرَ خُسْرَانًا مُّبِينًا – ***Allahı qoyub Şeytanı özünə rəhbər bilən şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır.***

يَعِدُهُمْ وَيُمَنِّيهِمْ – ***(Şeytan) onlara vədlər verir və onları uzun-uzadı arzulara düçar edir."***

وَمَا يَعِدُهُمُ الشَّيْطَانُ إِلاَّ غُرُورًا – ***Lakin Şeytan onlara yalnız yalan vədlər verir.***

("Nisa" surəsi, ayə 115-120.)

اللّهُ وَلِيُّ الَّذِينَ آمَنُواْ يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّوُرِ – ***Allah (Ona) iman gətirənlərin rəhbəridir, onları zülmətdən (nadanlıqdan, məğrurluqdan, nəfsin istəklərindən, şirkdən və zülmdən) çıxarıb işığa (mərifətə, elmə və hikmətə) tərəf yönəldər.***

وَالَّذِينَ كَفَرُواْ أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ – ***(Allahın dininə qarşı)*** k***afir olan kəslərin***

***rəhbəri isə tağutdur.***

يُخْرِجُونَهُم مِّنَ النُّورِ إِلَى الظُّلُمَاتِ – ***Onları (kafirləri) nurdan (dindən, hikmətdən və insani keyfiyyətlərdən) ayırıb zülmətə (nadanlıq və azğınlığa) salarlar.***

أُوْلَـئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ – ***Onlar Cəhənnəm əhlidirlər və orada həmişəlik qalacaqlar!***

("Bəqərə" surəsi, ayə 257.)

# İYİRMİ SƏKKİZİNCİ MƏCLİS

## VİLAYƏT HAQQINDA-3 (HİCRƏT)

Çərşənbə günü – 1974/10/16
Ramazan ayının 29-u.

بسم الله الرحمن الرحيم

وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيرًا وَسَعَةً وَمَن يَخْرُجْ مِن بَيْتِهِ
مُهَاجِرًا إِلَى اللّهِ وَرَسُولِهِ ثُمَّ يُدْرِكْهُ الْمَوْتُ فَقَدْ وَقَعَ أَجْرُهُ عَلى اللّهِ وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا

***“Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik (geniş yer) tapar. Kim evindən çıxıb Allaha və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə (mənzil başına çatmadan) ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər! Allah bağışlayandır, rəhm edəndir!”***

(“Nisa ” surəsi, ayə 100.)

Hicrət məsələsi vilayət bəhsinə aid bir məsələdir. Biz bəhslərimizdə vilayətin geniş mənada müxtəlif konsepsiyalarına toxunduq və qeyd etdik ki, vilayət mömin qüvvələrin bir-birilə rabitə və bağlılıqlarının sıxlaşması, mömin cəmiyyətin qeyri-mömin cəmiyyətlə hər növ bağlılığının qırılması, növbəti mərhələdə isə mömin qüvvələrin İslam cəmiyyətinin idarəçilik öhdəçiliyini icra edən mərkəzi qüdrətlə, yəni imam, ilahi rəhbər və hakimlə əlaqələrinin möhkəmlənməsi deməkdir. Burada "İslam cəmiyyətinin imam və rəhbəri kimdir?" – sualını Quranın bu ayəsinə istinadən də cavablandırdıq:

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***"Sizin rəhbəriniz yalnız Allah, Onun Peyğəmbəri və möminlərdir. O kəslər ki, namazı bərpa edər və rükuda olduqları halda, zəkat verərlər."***

Bu ayənin Əmirəlmöminin Əlinin (ə) haqqında nazil olduğunu da qeyd etdik. Əgər biz vilayəti bu geniş əhatəsi ilə başa düşüb onu bəziləri kimi diqqətsizlikdən cüzi və ikincidərəcəli məsələlərə həsr etməsək, o zaman hicrət məsələsi də vilayət prinsipinin fonunda bəhs olunacaqdır. Bununla nə demək istəyirik? Onu demək istəyirik ki, (vilayət prinsipinə əsasən,) Allahın vilayət dairəsində və ilahi rəhbərin nəzarəti altında yaşamağı qəbul edən, bütün qüvvələri – cismani, ideoloji və psixoloji potensialları – ilə Allah tərəfindən təyin olunmuş rəhbərin iradəsinə xidmət etməyi, var qüvvəsi ilə tağuta deyil, yalnız Allaha bəndə olmağı özünə borc bilən (və bunu bütün varlığı ilə qəbul edən) hər kəs bilməlidir ki, varlığı, qüvvələri və potensialları ilahi rəhbərin itaətindən çıxdığı zaman tağut və şeytanın itaətinə keçir. İlahi öhdəçiliyimizə əsasən, özümüzü tağuta itaətdən xilas və azad etməli və Allahın nemət dolu vilayət kölgəsində durmalıyıq. Zalım hakimin vilayət və itaətindən çıxıb

ədalətli hakimin vilayət və itaətinə daxil olmağa "hicrət" deyilir. Gördüyünüz kimi, hicrət məsələsi vilayət prinsipinin fonunda bəhs olunan bir məsələdir. Odur ki, bugünkü bəhsimiz vilayət prinsipinin dördüncü məsələsidir. Keçən məclislərdə üç məsələ haqqında danışdıq, bu gün isə dördüncü məsələ haqqında danışacağıq.

İnsan nə üçün tağut və şeytanın vilayət və itaətindən qaçmalıdır? İrəli sürdüyümüz bu sual, doğrudan da, diqqəti cəlb edir. Mən bu sualı ünvanladıqda, istərdim ki, siz dostlar onu eşitcək, öz zehninizdə analiz edib cavabını İslam təlimlərinə əsasən əldə edəsiniz. Əgər cavabınız mənim qeyd edəcəyim cavabla fərqlənərsə, sizinlə söhbətimiz öz qüvvəsində qalacaq. Sual budur: "Müsəlman olduğumuz halda tağutun vilayət və rəhbərliyini qəbul etmək olmazmı?" Bir müsəlmanın şeytanın hakimiyyətini qəbul etdiyi halda, Allaha da bəndəçilik etməsi mümkün deyilmi? İnsan həyatına qeyri-ilahi bir şəxs hökmranlıq etdiyi, cəmiyyətin yaşayış tərzi, düşüncəsi, hiss və duyğuları qeyri-ilahi bir şəxs – şeytan və tağut tərəfindən idarə edildiyi, o tərəf-bu tərəfə yönləndirildiyi və onun qüdrət dairəsində yaşadığı halda, müsəlman və Allaha bəndə olması mümkün deyilmi? Sizdən xahiş edirəm ki, bu sualı cavablandırasınız; uca səslə cavablandırmağınıza ehtiyac yoxdur, elə zehninizdə cavablandırın, görün mümkündür, ya qeyri-mümkün? Onun mümkün olub-olmamasını anlamaq və cavabı aydınlaşdırmaq üçün sualı bir qədər çək-çevir edib araşdırmalıyıq. Biz soruşuruq: Bir insanın həm şeytanın vilayətində olması, həm də müsəlman kimi qalması mümkündürmü? İki hissədən olan bu sualın mənasını başa düşmək üçün onu düzgün şəkildə təhlil etməliyik.

Birinci hissə şeytanın vilayətində olmaqdır; şeytanın vilayətində olmaq nə deməkdir? Ümumiyyətlə, vilayət nə deməkdir? "Vilayət" sözü üçün Quranın müxtəlif ayələrinə istinadən qeyd etdiyimiz mənaya diqqət yetirdikdə, "şeytanın vilayəti"nin mənası tamamilə aydınlaşır. Şeytanın vilayətinin mənası onun (geniş mənada) insanın bütün varlığı, qüvvələri, istedad və potensiallarına hakim olmasıdır. Bu zaman insanın həyat yolunu, bütün işlərini, düşüncə, məram və məqsədlərini şeytan təyin edir. Eynilə çayın axınında hərəkət edən insan kimi; insan dağdan sürətlə gələn selə yaxalanır, təbii ki, o, selin axını ilə birgə hərəkətdə olmasını və hərəkət zamanı başı və bədəninin dağa-daşa çırpılmasını və su dalğaları arasında boğulub ölməsini istəmir. O, bunu istəməsə də sürətlə

axan çay onu qeyri-ixtiyari olaraq özü ilə götürüb aparır. O, əl-qol atır və hər şeydən yapışıb özünü saxlamaq istəyir. Lakin su sürətlə axdığından, onu da ixtiyarsız olaraq götürüb aparır.

Tağut və şeytanın vilayəti də bu qəbildəndir. Odur ki, Quran ayəsində belə buyurulur:

وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَدْعُونَ إِلَى النَّارِ

***“Biz onları (dünyada) Cəhənnəm oduna çağıran rəhbərlər etdik...”***[1]

Bu dünyada elə rəhbər və hakimlər var ki, onlara müti olan insanları Cəhənnəm oduna və bədbəxtliyə çəkib aparırlar. Qurani-Kərimin başqa bir ayəsində belə buyurulur:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ بَدَّلُواْ نِعْمَةَ اللّهِ كُفْرًا

***“Məgər Allahın nemətini küfrə dəyişənləri (və Allahın nemətinə nankor olanları) görmürsənmi?”***[2]

Onların nankorluq etdikləri nemət nə idi? O nemət hər bir şey olar bilər. Qüdrət (və hakimiyyət) neməti Rəbbin qüdrət təzahürüdür; dünyəvi qüdrətlər, hakimiyyət və minlərlə insanın işlərinin idarəsi, çoxlu istedadlar, potensial və düşüncələr, qüvvə və enerjilərə sahib olmaq – bunların hamısı bütövlükdə nemətdir. Bu sərmayələr insanlıq üçün xeyir və bərəkət mənbəyinə çevrilə bilər.

Uyğun ayədə işarə olunan insanlar böyük insanlara və Allahın həqiqi bəndələrinə çevrilib kamilliyə və ali insanlıq məqamına yüksələ bilərdilər. Onlar isə bu nemətə qarşı nankor oldular, ondan düzgün şəkildə bəhrələnmədilər. Ayənin davamında buyurulur:

وَأَحَلُّواْ قَوْمَهُمْ دَارَ الْبَوَارِ.

***“Ümmətini ölüm yurduna sövq edənləri görmürsənmi?”***

Onların özləri cəhənnəm, öz tayfalarını da ölüm və həlakət diyarına çəkib apardılar.

جَهَنَّمَ يَصْلَوْنَهَا وَبِئْسَ الْقَرَارُ

***“Onlar Cəhənnəmə daxil olacaqlar. Ora necə də pis sığınacaqdır!”***[3]

İmam Kazim (ə) bu ayəni Harun ər-Rəşidə oxudu və ona anlatdı ki, sən həm özünü, həm də öz qövmünü həlakətə, ən pis yerə doğru

1. “Qəsəs” surəsi, ayə 41.
2. “İbrahim” surəsi, ayə 28.
3. “İbrahim” surəsi, ayə 29.

sürükləyirsən. O Həzrət bu ayəni Haruna açıq-aydın şəkildə izah etdi.

Harun İmamdan (ə) soruşdu: “Məgər biz kafirikmi?” Onun bu sualda məqsədi bu idi ki, məgər biz Allaha, Peyğəmbərə (s) və dinə inanmırıqmı? İmam (ə) onun cavabında bu ayəni tilavət etdi və bildirdi ki, təkcə Allahı açıq-aşkar danan, Quranı yalan və Peyğəmbəri (s) əfsanə hesab edən insana kafir deyilməz. Bu, kafirin bir növüdür, özü də ən yaxşı növüdür, çünki sözünü aşkara deyir, hamı onu tanıyır və onunla öz rəftarı və mövqeyini doğru-düzgün şəkildə tənzimləyir.

Ən pis kafir isə sahib olduğu böyük nemətlərə qarşı nankor olanlar, onlardan düzgün şəkildə bəhrələnməyənlərdir. Belələri özləri ilə bərabər öz tabeçiliyi altında olan insanları da Cəhənnəmə çəkib aparır. Tağutun vilayətinin mənası budur!

Tağutun vilayət və hakimiyyətində yaşayan şəxsin sanki ixtiyarı öz əlində olmur. Onun tamamilə ixtiyarsız olduğunu demirəm, lakin selin hərəkət istiqaməti üzrə o da hərəkət edir, əl-qol atmaq istəsə də bacarmır; Cəhənnəm yolundan qayıtmaq istəsə də, ətrafındakılarının hamısının Cəhənnəmə doğru hərəkət etdiyini və onu da özləri ilə götürüb apardığını görəcək. Cəmiyyətin çox olduğu yerə gedibsinizmi? Bəzən insan bir istiqamət üzrə hərəkət etmək istəyir, amma cəmiyyət onu ixtiyarsız olaraq yüngül bir kağız tək istədiyi yerə götürüb aparır. İnsan yaxşı olmaq, yaxşı yaşamaq, müsəlman kimi yaşamaq və müsəlman kimi ölmək istəyir, amma ictimai cərəyan onu öz ardınca çəkib aparır, həm də elə aparır ki, heç əl-qol belə ata bilmir. Əl-qol atsa da yalnız enerjisini itirmiş olur və başqa bir şey qazanmır. Ən ağrılı yer orasıdır ki, bəzən, bu cərəyanı anlaya bilmir.

Bilmirəm, balıq ovlayanları görübsünüz ya yox? Bəzən minlərlə balıq dənizin ortasından, neçə kilometrlər uzaqdan sahilə atılmış tora doğru hərəkət edir. Tor onları özünə tərəf çəksə də balıqların diqqəti ondan yayınır. Əgər həmin balığa: “Hara gedirsən?” – deyə soruşsan, öz ixtiyarı ilə məqsədə doğru hərəkət etdiyini düşünəcək. Həqiqətdə isə ixtiyarı özündə deyil, onun gedəcəyi yer elə tor sahibi olan ovçunun məqsədinə xidmətdir.

Cahilanə rejimin gözəgörünməz toru insanı özünə və onu idarə edənlərə tərəf elə çəkir ki, insan hara gedəcəyini anlamır, bəzən də Cəhənnəmə doğru irəlilədiyi halda, səadət və xoşbəxtlik mənzilinə doğru hərəkət etdiyini güman edir:

جَهَنَّمَ يَصْلَوْنَهَا وَبِئْسَ الْقَرَارُ

*"Onlar Cəhənnəmə daxil olacaqlar. Ora necə də pis sığınacaqdır!"*[1]

Bu vilayət tağut və şeytan vilayətidir. Bu, birinci cümlə və qeyd etdiyimiz sualın iki hissəsindən biridir. Sual bu idi ki, tağutun vilayətində yaşadığımız halda, müsəlman kimi də yaşaya bilərikmi? Bu, mümkündürmü? Tağutun vilayətində yaşamağın nə olduğunu qısa şəkildə anladıq, geniş şəkildə anlamaq istəyiriksə, tarixə müraciət etməliyik.

Əməvilər və Abbasilər dövründə İslam dünyasına hakim dirçəliş və canlılığa baxsanız, o günün İslam cəmiyyətində geniş bilik və məlumat dalğasının olduğunu, İslam dünyasında böyük təbiblərin, dünyada dilçilik və ümumi maarifçilik qəhətliyi olduğu bir zamanda güclü tərcüməçilərin meydana çıxıb qədim mədəniyyətlərin möhtəşəm əsərlərini ərəb dilinə tərcümə və müsəlmanlar arasında nəşr etdiklərini görəcəksiniz. O dövrün müsəlmanları bütün sahələrdə – tarix, hədis, təbiət elmləri, tibb və astronomiya, hətta incəsənət sahəsində nümunə olmuşdular. İndi də Qustav Le Bon[2] kimi fransız bir alim, yaxud başqa bir yazıçı və şərqşünas belə nümunələri gördükdə, İslamın ikinci, üçüncü və dördüncü əsrlərini "İslamın çiçəklənmə əsri" adlandırırlar. Adam Metzin[3] qələmə aldığı "hicri-qəməri dördüncü ildə İslam sivilzasiyası" adlı kitabda bu sivilzasiyanı görüb təəccüblənir və hicri-qəməri dördüncü əsri böyük sivilzasiya əsri kimi təsvir edir. Ümumiyyətlə, bir fransız və alman şərqşünası həmin əsrlərə nəzər saldıqda, gözləri bərəlir. Görəsən, bunun səbəbi nədir? Səbəbi odur ki, bütün fəaliyyətlər və canlanmalar İslam cəmiyyətindən qaynaqlanırdı. Sizdən soruşuram: "Görəsən, bütün bu fəaliyyətlər və canlanmalar İslam cəmiyyətinin və insanlığın xeyrinə tamamlandımı?"

---

1. "İbrahim" surəsi, ayə 29.

2 . Fransız sosioloqu Qustav Le Bon (1841-1931) müsəlmanlar və İslam sivilzasiyası haqqında geniş tədqiqatlar aparmışdır. Onun əsərlərində qərəzli nəzər və şərhlər çox az gözə çarpır. "Hind mədəniyyəti", "Misir mədəniyyəti", "Ərəb mədəniyyəti" və "Əndəlüsdə ərəb mədəniyyəti" adlı kitablar onun qələmə aldığı kitablardır.

3. Adam Metz (1869-1917) alman şərqşünasıdır və İsveçrənin Bazel şəhərində məskunlaşımışdı. Onun kitabı ərəb dilinə tərcümə olunmuş və "Əl-Huzzarətul-islamiyyə fil-Qrunir-rabiil-hicri" adı ilə nəşr olunmuşdur.

O dövrdən on əsr keçsə də ona qarşı qəsdi-qərəzliyimiz yoxdur. Qeyri-müsəlman dünyası müqabilində deyə bilərik ki, bəli, həmin universitetləri və fəlsəfi məktəbləri təsis edən, tibb və təbiət elmlərində nailiyyətlər qazanan İslam dünyası idi. Amma öz aramızdır, haqq və insafla danışaq, o qədər güc və potensiallar insanlığın və İslam cəmiyyətinin xeyrinə tamamlandımı? İslam cəmiyyəti on əsrdən sonra həmin mirasdan nəyə sahibdir? Nə üçün ona sahib deyil? Nə üçün həmin elmi və mədəni sərvətlər bizə qalmadı? Nə üçün biz on əsr bundan öncə o qədər potensiala sahib bir cəmiyyət olduğumuz halda, bu gün dünyada parlamır və gözə çarpmırıq? Nə üçün? Çünki bütün insani fəaliyyət və qüvvələr tağuta xidmət edirdi. Şair demişkən:

من آن نگین سلیمان به هیچ نستانم
که گاه گاه بر او دست اهرمن باشد

"Mən Həzrət Süleymanın (padşahlıq) qaşını əsla mədh etmirəm, çünki bəzən, o, əhrimənin – tağut və zalımın da əlinə keçir."[1]

Bu əhrimənlər İslam cəmiyyəti ilə oynadılar. Onlar (İslamdan) danışıb kitablar tərcümə etsələr də hansısa Abbasi xəlifəsinin – Mənsurun, Harunun və yaxud Məmunun xəllifəliyi dönəmində öz adlarının həmin əsərlərdə qeyd olunması özlərinin məşhurlaşması və adlarının tanınması məqsədi daşıyırdı. Təbiət, riyaziyyat, astronomiya, ədəbiyyat, fiqh (hüquq), Quran elmləri və s. sahələrdəki fəaliyyətlərin yerinə, Ələvi hökumətinin qurulmasına, İmam Sadiqin (ə) hakimiyyətə gəlib bütün fəaliyyət və potensialları öz nəzarəti altına almasına icazə versəydilər, elmi və ədəbi sahədə, habelə dünyanın bu gün iftixarla öyündüyü işlərdə yüz il geridə qalmış olsaydılar belə, sözsüz, insanlıq inkişaf edəcək və insanlığın xeyrinə olacaqdı. İslam çiçəklənəcək, potensial və istedadlar doğru-düzgün istiqamətdə sərf olunacaqdı. Amma onlar kitablar tərcümə edib elmi-tibbi sahədə nailiyyətlər qazandıqları halda, fərdi və ictimai əxlaq baxımından o qədər acınacaqlı vəziyyətdə idilər ki, onların arasındakı sosial təbəqələşmə hələ də tarixin əfsanələrindən hesab edilir. Müasir dünyamızın alçaq və çirkin sivilzasiyası da bu qəbildəndir. Dünyanın hegemon qüdrətləri elmi nailiyyətləri, ağılları mat qoyan ixtiraları ilə öyündükləri, "iftixarla və uca zirvələri fəth etdiklərini bildirərək filan dərmanı kəşf etdik, filan formulu yaratdıq, filan elmi işlərə imza atdıq" – deyib özlərini

1. Hafiz.

təriflədikləri halda, əxlaq və insanlıq baxımından hələ də minlərlə il öncəki tarixdə yaşayırlar və hələ də əfsanəvi aclar və yoxsullarla bərabər əfsanəvi sərvət sahibləri vardır. Hələ də bir fiaz təşkil edən çox kiçik bir dəstə kübar həyata sahib olduğu halda, məhrum ölkələrdə minlyonlarla insan acından ölür. Amma onlar bununla öyünürlər. Bu da eynilə ikinci, üçüncü və dördüncü əsrlərdəki böyük İslam sivilzasiyasını xatırladır. Bəli, o zaman da belə idi; elmi sahədə böyük nailiyyətlər olsa da insanlıqdan, əsillikdən və yaxşılıqlardan uzaq aristokrat həyat tərzi, hədsiz sosial təbəqələşmə və ölümcül toxluqlar qarşısında ölümcül aclıqlar o gün də gözə çarpırdı. Bu bədbəxtliklərin səbəbi nə idi? Nə üçün o günün İslam cəmiyyəti o qədər elmi nailiyyət və fəaliyyətləri ilə fəzilət və insanlıq bostanında gülə çevrilə bilmədi? Nə üçün?

İndi də biz hicri-qəməri tarixi ilə ikinci və üçüncü əsrlərə nəzər saldıqda, adlarını şərəf və ləyaqətlə xatırlayb dünyanın layiqli insanları sırasında dünya rəhbərlərinə təqdim edə biləcəyimiz insanların həmin sivil rejimə qarşı yorulmadan mübarizə aparan kəslər olduğunu görərik. Müəlla ibn Xüneysi[1] bazarda dar ağacından asıb qətlə yetirirlər. Yəhya ibn Ümmü Təvilin əl-qolunu və dilini kəsirlər. Məhəmməd ibn Əbu Ümeyrə[2] yüz şallaq vururlar. Yəhya ibn Zeydi[3] on səkkiz yaşında ikən

1. Müəlla ibn Xüneys Kufi İmam Sadiqin (ə) xüsusi səhabəsi və ailələrə yardım məsələsində o Həzrətin nümayəndəsi idi. Mədinə şəhərinin hakimi şiələr haqqında məlumat əldə etmək üçün onu həbs edib ölümlə hədələdi. Müəlla onun cavabında belə dedi: "Məni ölümlə təhdid edirsənmi? And olsun Allaha, əgər İmam Sadiqin (ə) şiələri mənim ayağım altında gizlənmiş olsalar belə, ayağımı heç vaxt onların üzərindən çəkmərəm. Əgər məni öldürsən, məni xoşbəxt, özünü isə bədbəxt edərsən." O, bu yolda şəhadətə nail oldu.

2. Məhəmməd ibn Əbu Ümeyr Əzdi üç məsum imamımızın – İmam Kazim (ə), İmam Rza (ə) və İmam Cavadın (ə) xüsusi səhabəsi olub. Onun İmam Sadiqi (ə) görməsi və o Həzrətin səhabəsi olması haqqında fikir ayrılığı vardır. Harun ər-Rəşid İmam Kazimin (ə) şiələrinin adları və yerlərini öyrənmək üçün onu həbs edir və bəzi nəqllərə əsasən, ona yüz şallaq vurur ki, bu haqda bir xəbər ala bilsin. Lakin o, dil açıb dillənmir. O, hakimiyyətlə həmkarlıq etmədiyi üçün həm Harunun, həm də Məmunun hakimiyyəti dövründə dəfələrlə həbs olunur və nəhayət, 217-ci hicri-qəməri ilində əbədiyyətə qovuşur.

3. Yəhya ibn Zeyd – Zeyd ibn Əli ibn Hüseynin (ə) oğludur (İmam Zeynəl-Abidinin (ə) nəvəsidir). O, atası Zeydin Əməvi xəlifəsi Hişamın əleyhinə etdiyi qiyamda iştirak etmiş, atası 121-ci hicri-qəməri ilində şəhadətə yetdikdən sonra, Xorasana köçmüşdü. O, özünə dost və tərəfdar yığdıqdan sonra Hərata doğru yola düşüb oranı ələ keçirdi. Lakin növbəti döyüşdə Xorasan ordusuna məğlub oldu və 125-ci ildə şəhadətə yetdi.

Xorasan dağlarında öldürürlər. Zeyd ibn Əlinin cəsədini dörd il dar ağacında saxlayırlar. Onlar bu gün adlarını bəşəriyyət dünyasının şərəf və ləyaqət lövhəsində iftixarla qeyd edə biləcəyimiz insanlardır. Onların fransız alimi Qustav Le Bonun yad etdiyi o şanlı mədəniyyət və sivilzasiya ilə heç bir əlaqəsi yoxdur, əksinə ona qarşı mübarizə aparan şəxslər idi. Cəmiyyətə hakim olan və rəhbərlik edən tağut və şeytan vilayətində də insani qüvvələrdən istifadə olunur, istedadlar çiçəklənir, amma necə? Müasir və sivil dünyamızdakı kimi! 10-11 əsr bundan öncə də İslam dünyasında onlardan istifadə olunurdu, amma düzgün məntiqin, həqiqi dəyərlərin, insani keyfiyyət və meyarların qara qəpik qədər qiyməti yox idi. Budur tağutun vilayəti!

Belə bir mühitdə kimsə tağutun vilayətində müsəlman kimi yaşaya bilərmi? Müsəlman kimi yaşamaq nə deməkdir? Müsəlman kimi yaşamaq bir insanın bütün imkanları, potensial, qüvvə, qüdrət və istedadlarının, hər bir şeyinin, malı və canının, gündəlik iş və fəaliyyətlərinin, yatıb-durmasının, təfəkkür və düşüncəsinin birbaşa Allahın ixtiyarında olması deməkdir. Buna bir misal göstərmək olarmı? Əlbəttə ki, bəli! Həm cəmiyyət və mədəniyyətlə bağlı ictimai, həm də tağut rejimlərdən qaçıb Allaha doğru hicrət edən inqilabçı qruplara aid bir misal göstərə bilərik.

Birinci misal: Peyğəmbəri-Əkrəmin (s) həyatı zamanı Mədinə cəmiyyəti müsəlman və Allaha bəndəçilik edən bir cəmiyyət idi. O cəmiyyətdə bütün addımlar Allah yolunda idi, İslam torpağında yaşayan yəhudi və məsihilər də islami həyat sürürdü. İslam cəmiyyətində həm yəhudilər, həm də məsihilər "zimmə"[1] şəraitinə əsasən, İslam yolunda hərəkət edirdilər. Şəxsi əməllərində yəhudi olsa da cəmiyyətin bir üzvü olaraq müsəlman idi. Hətta cahilanə rejimdə yaşayan bəzi müsəlmanlardan da yaxşı (müsəlman) idi. Peyğəmbəri-Əkrəmin (s) zamanında pul, qılınc, dil və danışıq, təfəkkür və düşüncə, duyğu və emosiyalar – insandan baş verən hər bir iş Allaha xatir və Allah yolunda idi. Əmirəlmömininin Əlinin (ə) zamanında da bu vəziyyət az-çox davam etdi. Çünki o Həzrətin özü də ilahi rəhbər və hakim olaraq Peyğəmbəri-

---

Onun başını bədənindən ayırdıqdan sonra bədənini dar ağacından asdılar və Əbu Müslimin qiyamına qədər dar ağacında qaldı.

1. "Zimmə" "aman" və "əhd" mənasını ifadə edir. Zimmə şəraitini qəbul edən və İslam hökuməti tərəfindən aman verilən kitab əhlinə "zimmə əhli" deyilir.

Əkrəmdən (s) fərqlənmirdi, amma varis olduğu cəmiyyət yaxşı deyildi, o cəmiyyətə hərc-mərcliklər hakim idi. Peyğəmbəri-Əkrəmin (s) özü də iyirmi beş ildən sonra Əmirəlmöminin Əlinin (ə) yerində olsaydı, şübhəsiz, o Həzrətin üzləşdiyi problemlərlə üzləşəcəkdi. Bu, cəmiyyətə aid bir misaldır.

Amma qruplara gəldikdə, tarix boyu məsum imamların (ə) ətrafında olan şiə zümrələrini misal çəkə bilərik.

Ramazan ayı bitdi və imamət prinsipini geniş şəkildə bəhs edə bilmədik. Yoxsa, vilayət bəhsindən sonra imamət bəhsinə başlayacaqdıq. Əgər bu bəhsə çata bilsəydim, məsum imamların (ə) zamanında şiələrin vahid bir cəmiyyət olduğu haqda danışacaq və imamın (ə) şiələrlə, şiələrin də yaşadığı cəmiyyətlə əlaqə və ünsiyyətinin necəliyinə aydınlıq gətirəcəkdim. İndi isə bu məsələyə qısa şəkildə toxunacağam. Şiə zahirdə tağut rejimində yaşayırdı, lakin batində ona qarşı idi. Kərbəlada İmam Hüseyn ibn Əli (ə) ilə birlikdə olan kiçik bir dəstəni buna misal göstərə bilərik. Onlar bu seli yarıb onun əks istiqamətinə doğru hərəkət edirdilər. Bəli, tarixdə həm cəmiyyətlə, həm də zümrələrlə bağlı uyğun nümunələr mövcuddur. Adi insanlara gəldikdə isə qeyd etdiyimiz cəmiyyətlə – tağut rejimi ilə razılaşdığı (və onu qəbul etdiyi) halda, bütün varlığı, imkanları, potensiallar, güc və istedadlarının Allaha təslim olması, başqa sözlə, fərd olaraq müsəlman olması qeyri-mümkündür. Əgər bir nəfər tağut mühiti və rejimində yaşayırsa, müsəlmançılığının bir qismi tağuta xidmətdə, həyatının bir guşəsi tağuta bəndəçilikdə keçəcək və onun yüz faiz Allaha bəndə olması qeyri-mümkündür.

“Kafi” kitabında müxtəlif ifadələrlə şərif bir hədis nəql olunmuşdur. Dəyərli “Üsuli-kafi” kitabı şiənin ən mötəbər və ən qədim mənbələrindəndir. Bu hədisi bir neçə fərqli ifadə ilə nəql etmişdir və burada qeyd edəcəyimiz ifadə onlardan biridir. “Kafi” kitabının “Hüccət” bölməsinə[1] müraciət edə bilərsiniz. Diqqəti cəlb edən bir hədisdir. Hədis İmamdan (ə) nəql olunur, İmam (ə) da Allah-Taalanın belə buyurduğunu nəql edir:

لَأُعَذِّبَنَّ كُلَّ رَعِيَّةٍ فِي الْإِسْلَامِ دَانَتْ بِوَلَايَةِ كُلِّ إِمَامٍ جَائِرٍ لَيْسَ مِنَ اللَّهِ وَ إِنْ كَانَتِ الرَّعِيَّةُ فِي أَعْمَالِهَا بَرَّةً تَقِيَّةً وَ لَأَعْفُوَنَّ عَنْ كُلِّ رَعِيَّةٍ فِي الْإِسْلَامِ دَانَتْ بِوَلَايَةِ كُلِّ إِمَامٍ عَادِلٍ مِنَ اللَّهِ وَ إِنْ كَانَتِ الرَّعِيَّةُ فِي أَنْفُسِهَا ظَالِمَةً مُسِيئَةً

1. “Allaha itaət edən Allah tərəfindən seçilməyən hakimin hakimiyyətini qəbul etməz“ fəsli.

*"Həqiqətən, İslamda Allah tərəfindən olmayan zülmkar bir rəhbərə itaət etdiyi halda, dindarlıq edən rəiyyətə öz əməllərində xeyirxah və təqvalı olsa da belə əzab verərəm. Şübhəsiz, İslamda Allah tərəfindən olan hər bir ədalətli rəhbərə itaət etdiyi halda, dindarlıq edən rəiyyəti özünə zülm və pislik etsə belə bağışlayaram."*[1]

Bu hədisdə deyilir ki, ilahi rəhbərin vilayət və rəhbərliyi altında yaşayan cəmiyyət şəxsi və xüsusi işlərində nöqsan və günahları olsa da xoşbəxt və nicat əhlidir. Lakin şeytan və tağutun vilayət və hakimiyyəti altında yaşan cəmiyyət şəxsi və xüsusi işlərində yaxşı və xeyirxah olmasına baxmayaraq, bədbəxt və əzab əhlidir. Bu, doğrudan da qəribə bir məsələdir. Əlbəttə, hədisin müxtəlif ifadələrlə nəql olunduğunu diqqətinizə çatdırsam da bütün nəqllər eyni mənanı ifadə edir.

Mən bu hədisi həmişə bu məsələyə bənzətmişəm: Təsəvvür edin ki, avtomobilə minib müəyyən bir məqsədə doğru, məsələn, Nişabura tərəf hərəkət edirsiniz. Avtomobil Niaşbura tərəf hərəkət edərsə, sözsüz ki, məqsədə çatacaqsınız, yox, əgər Nişabura doğru hərəkət əvəzinə, başqa istiqamətə, misal üçün, Sərəxs və yaxud Quçana doğru gedərsə, aydındır ki, siz məqsədə çata bilməyəcəksiniz. Əgər Nişabura və məqsədinizə doğru hərəkət edən avtomobildə sizinlə birgə ədəb-ərkanlı, əxlaqlı, tərbiyəli və mehriban bir insan əyləşərsə, çox gözəl; əgər əxlaqsız və insanlıqdan uzaq olan, sizinlə yaxşı və mülayim rəftar etməyən biri ilə birgə olsanız, yol əsnasında onun yaramaz rəftarı sizin narahatlığınıza səbəb olsa da, sizə pislik etsə də və onun özü bu pisliyinin acı nəticəsini görüb onu dadmağa məcbur olsa da, yenə Nişabura və məqsədinizə çatacaqsınız. Lakin sizi Nişabura aparmaq əvəzinə, başqa istiqamətə doğru aparan avtomobildə bütün sərnişinlər mehriban və gülərüz olub bir-birilə ədəb-ərkanla, nəzakətlə, qayğı və sayğı ilə davransalar və onun Nişabura deyil, başqa istiqamətə – Quçana tərəf hərəkət etdiyini görüb heç bir reaksiya verməsələr, onlar məqsədə çata biləcəklərmi? Aydındır ki, xeyr!

Birinci misalda sürücü mötəbər, yola bələd və Allah tərəfindən (təsdiqlənmiş) bir rəhbər olduğundan, sərnişinləri bədəxlaq olmalarına baxmayaraq, məqsədə çatdıra bildi. İkinci misalda isə sürücü yola bələd olmadığı, nəfsinə uyub yolu itirdiyi və öz istəyini camaatın istəyindən

1. "Kafi","Hüccət" bölməsi – "Allaha itaət edən Allah tərəfindən seçilməyən hakimin hakimiyyətini qəbul etməz" fəsli, hədis 4.

üstün tutduğu üçün şəxsi işinə görə yolunu Sərəxs və Quçana doğru dəyişdi. Onlar avtomobildə bir-birilə nə qədər mehriban və əxlaqlı olub isti münasibət qurmalarına baxmayaraq, məqsədə çatmamaları aydın məsələdir. Beləliklə, tağutun hökmranlığı ilə idarə olunan cəmiyyət də mötəbər olmayan və yolu tanımayan sürücünün idarə etdiyi avtomobilə bənzəyir; aydındır ki, belə idarəçilikdə insanlar məqsədə nail olmayacaq və müsəlman kimi yaşaya bilməyəcəklər.

Bəs nə etməli? Çarə nədir? Bu suala Quran ayəsində belə cavab verilir:

إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ

***“Mələklər öz nəfslərinə (öz canlarına, öz gələcəklərinə və hər şeylərinə) zülm edənlərin canlarını alarkən (onlara) deyəcəklər: “Siz nə iş görürdünüz? (Nə üçün müsəlman olduğunuz halda, kafir sıralarında yer almışdınız?)”***[1] Mələklərin belələrinin vəziyyətinin ağır olmasını görməsi eynilə bir cərrahı xatırladır ki, xəstənin başı üstə gəldikdə, onun vəziyyətinin nə qədər ağır və acınacaqlı olduğunu görüb ondan soruşur: “Sən harada yaşayırsan? Niyə bu günə düşübsən?” Mən bu ayədən belə qənaətə gəlirəm ki, mələklər bu zavallının vəziyyətinin ağırlığından, ruhunun çirkinliyindən, onun intizarında olan bədbəxtlik və əzabdan təəccüblənəcək və ona deyəcəklər: “Axı, sən harada yaşayırdın, ay yazıq! Sən harada idin ki, özünə bu qədər zülm edibsən? Özünə zülm etdiyin halda dünyadan gedirsən?”

قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ

***“Onlar (mələklərin cavabında) belə deyəcəklər: “Biz yer üzərində zəif salınmışlar idik.”*** Biz ixtiyarsız cəmiyyətin bir hissəsinə çevrilmişdik.

Cəmiyyətdə o kəslərə “zəif salınmışlar” deyilir ki, cəmiyyətin ixtiyarı onların əlində deyil; onlar cəmiyyətin idarəçiliyində, taleyində, fəaliyyətində, hərəkət və sükunətində heç bir səlahiyyət və ixtiyara sahib deyillər. Ötən məclisdə qeyd etdiyimiz kimi, onların boyunlarına kəndir atıldığı üçün heç bir ixtiyarları yoxdur və istənilən yerə çəkilib aparılacaqlar, özləri isə hara gedəcəkləri və nə edəcəklərini də bilməyəcəklər.

Bağçaya gedən dörd-beş yaşlı uşaqları nəzərdən keçirin. Birinci sinifə gedən 6-7 yaşlı şagirdlərdən söz açmıram. Çünki indiki uşaqlar

---

1. “Nisa” surəsi, ayə 97-100.

keçmişlə müqayisədə olduqca gözüaçıqdırlar. Keçmişdə, bizim vaxtımızda uşaqlar elə də gözüaçıq deyildilər, biz uşaqlarla birgə məktəbə necə gedib-qayıtdığımızı, haradan getdiyimizi və haradan qayıtdığımızı əsla bilmirdik. Hər gün müəllimlərdən biri əlində çubuq bizi yoldan keçirir, bizə: "Ordan keçməyin, burdan keçin, ehtiyatlı olun ki, maşın gəlir, gözləyin, keçin!" – deyə yol göstərirdi. Heç kim nə edəcəyini, hara gedəcəyini bilmirdi, bir də evə çatdığını görürdü və yaxud bir də xəbər tuturdu ki, yolu səhv salmış və sinif yoldaşının evinə getmişdir.

Yer üzündə zəif salınmışların vəziyyəti də bu qəbildəndir; onlar da cəmiyyətdə baş verən hadisələrdən, nəyin nə yerdə qaldığı və harada olduğundan xəbərsizdir, hara və hansı istiqamətə gedəcəklərini, kimlər tərəfindən aparılacaqlarını anlamırlar. "Nə etmək olar ki, yola düşdükləri halda, onlarla birgə getməsinlər, qarşıda nələr baş verəcək?" – sualı haqqında əsla düşünmürlər. Elə gözlərini yumub başlarını aşağı salaraq dəyirman daşının ətrafına dolanan at kimi bir ox ətrafında fırlanır, hey addım atır, yol gedir və dövr edir. Əgər bu heyvan bir şey anlasaydı, fırlandığı bu qədər yolla Parisə çatdığını təsəvvür edərdi, halbuki, günbatan çağı gözünü açıb elə sübh çağı harada dayanmışdısa, elə orada da dayandığını görür. Heç hərəkət etdiyi zaman hara getdiyindən xəbəri belə olmayıb. Bunlar cəmiyyətin zəif salınmışları adlanır. Cəmiyyət kütləsinin əksəriyyəti hər şeydən xəbərsizdir. Düzgün sistemlə idarə olunan, insana qiymət verən, insan və insan idarəsini uca tutan – Peyğəmbərin (s) rəhbərlik etdiyi cəmiyyətdən söz getmir. Bununla belə Qurani-Kərimdə o Həzrətə belə buyurulur:

وَشَاوِرْهُمْ فِي الأَمْرِ

***"İşdə onlarla məsləhətləş."***[1]

O Həzrət peyğəmbər olmasına, camaatla məşvərətə ehtiyacı olmadığına rəğmən, yenə ona əmr olunur ki, camaatla məsləhətləşməli, onları əzizləməli, onlara hörmət etməli və dəyər verməlisən. Belə cəmiyyətdən söz getmir. Belə cəmiyyətdə zəif salınmış olmaz. Lakin bir fərd (və bir ailə) vasitəsilə idarə olunan cəmiyyətdə, zalım və cahilanə rejimlərdə xalqın əksəriyyəti zəif salınmışdır.

قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ

***"Onlar (mələklərin cavabında) belə deyəcəklər: "Biz yer üzərində***

1. "Ali-İmran" surəsi, ayə 159.

***zəif salınmış kəslər idik."***

Bizi çəkib çirkaba atdılar, zəlil və xar etdilər, amma anlamadıq. İndi isə ölüm vaxtımız gəlib çatmışdır. Bu, zəif salınmışların üzrü və cavabıdır. Onların cavabının müqabilində, görək, mələklər nə deyəcəklər:

قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا

***"(Mələklər də onlara:) "Allahın yeri geniş deyildimi ki, siz də hicrət edəydiniz?" – deyəcəklər."***

Orada zəif salınmışdınız, axı Allahın yeri yalnız həmin yerlə bitmirdi. Siz isə bütün dünyanı zəif salınmışların yaşadığı cəmiyyətlə yekunlaşdırmışdınız. Məgər Allahın yeri dar idi ki, siz o zindanda özünüzü həbs etmişdiniz? Niyə azad bir məntəqəyə köçmədiniz? Elə bir yerə gedərdiniz ki, Allaha ibadət etməyinizə, öz qüvvələrinizi doğru yolda xərcləməyinizə maneçilik törədən olmasın, orada zəif salınmış olmasın. Dünyada belə bir yer yox idimi?

أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا

***"Allahın yeri geniş deyildimi ki, siz də hicrət edəydiniz (başqa bir yerə köçüb gedəydiniz?)"***

Burada onlar cavab verə bilmirlər. Axı bu zavallılar nə desinlər? Düz sözə nə deyəsən? Elə buna görə də Qurani-Kərimdə bu zavallıların axır-aqibəti haqqında belə buyurulur:

فَأُوْلَـئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ

***"Onların sığınacaqları yer Cəhənnəmdir."***

وَسَاءتْ مَصِيرًا

***"O, necə də pis yerdir!"***

Bu da onların sonu!

Əlbəttə, bunun bir istisna yeri də var. Hamı hicrət edə bilmir, hamı özünü cahilanə rejimdən xilas edə bilmir. Onlardan bəzilərini aciz insanlar, bəzilərini yaşlılar, bəzilərini uşaqlar, bəzilərini də qadınlar təşkil etdiyindən, bu imkana sahib deyillər. Odur ki, onlar istisnadırlar:

إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً

***"Yalnız hicrət etməyə (nur diyarına, İslam və bəndəçilik məntəqəsinə doğru) yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar istisnadır."***

فَأُوْلَـئِكَ عَسَى اللّهُ أَن يَعْفُوَ عَنْهُمْ

***"Ümid var ki, Allah onları əfv etsin."***

وَكَانَ اللّهُ عَفُوًّا غَفُورًا

***“Allah əfv edəndir, bağışlayandır!”***

Növbəti ayədə hicrət edənlərə xitab olunur ki, hicrəti bədbəxtlik amili hesab etməyin. “Necə olacaq? Bacaracağıq və ya bacarmayacağıq? Bir yerə çata biləcəyik və ya çata bilməyəcəyik?” – deyə əsla düşünməyin. Ayədə onlara belə cavab verilir:

وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيرًا وَسَعَةً

***“Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik (geniş yer) tapar.”***

Onlar (hicrət etdikdən sonra) dünyanı heyrətamiz şəkildə uçuş (pərvaz) meydanı, İslam cəmiyyətini azad və qəlb rahatlığı tək görəcək, çox qəribə və geniş bir mühitlə rastlaşacaqlar. Halbuki, Məkkədə namazlarını güclə qılırdılar. Bir az müqavimət göstərib Məscidül-Həramda iki rükət namaz qılmağı bacarsaydılar, onun şallağına tuş gələrdilər. Bu, müsəlmançılığın son həddi idi, ondan artıq bir iş görmək mümkün deyildi. Lakin azad bir mühitə hicrət edib İslam cəmiyyətinə daxil olduqdan, Allah və Onun Rəsulunun (s) vilayət və hakimiyyəti altında qərar tutduqdan sonra təəccübləndilər, qəribəliklərlə üzləşdilər, oranın yaxşılıqlara doğru müsabiqə meydanı olduğunu gördülər. Orada insanların məqam və dərəcələri yalnız Quran ayəsi, təqva və ibadətlə tanınırdı. Belə bir cəmiyyətdə Allaha görə daha çox çalışan, ibadət edən, zəhmət çəkən, mübarizə aparan, infaq edən daha çox ucalır və izzət tapırdı.

Əgər İslamın ilkin müsəlmanları dünən Məkkədə Allah yolunda xərc çəkdikləri bir dirhəmə görə əzab-əziyyətlərə və işgəncələrə məruz qalırdılarsa, Allah yolunda Allah Rəsulunun (s) şəhərinə – Mədinəyə hicrət etdikdən sonra necə də azad, rahat və könüloxşayan bir yer olduğunu gördülər.

وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيرًا وَسَعَةً

***“Allah yolunda hicrət edən şəxs yer üzündə (ilahi və islami cəmiyyətdə) çoxlu sığınacaq və genişlik (geniş yer) tapar.”***

Allaha xatir Məkkədən – küfr diyarından hicrət diyarına doğru hərəkət edib yol əsnasında canını Allaha tapşıran və vəfat edənlər necə? Onlara da deyiləcək ki, sizin savab və mükafatınız Allahın öhdəsinədir; çünki siz də öz missiyanızı, vəzifənizi və lazımi işləri icra etdiniz.

به راه بادیه رفتن به از نشستن باطل

و گر مراد نيابم به قدر وسع بكوشم

**“Səhralıqda yol getmək batil oturuşdan yaxşıdır. Hətta öz məqsədimə çatmasam da, ən azından gücüm qədər çalışmışam.”**[1]

İslamın istəyi də elə budur. İslam hər kəsdən öz gücü qədər Allah yolunda çalışmasını istəyir.

وَمَن يَخْرُجْ مِن بَيْتِهِ مُهَاجِرًا إِلَى اللّهِ وَرَسُولِهِ ثُمَّ يُدْرِكْهُ الْمَوْتُ فَقَدْ وَقَعَ أَجْرُهُ عَلى اللّهِ

***“Kim evindən çıxıb Allaha və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə (mənzil başına çatmadan) ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər!”***

وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا

***“Allah bağışlayandır, rəhm edəndir!”***

Bu məqama da diqqət yetirin; çünki bu, bizim son bəhsimiz və tilavətimizdir. Bu bəhsimiz də, təqribən, yarımçıq qalır. Diqqətinizə çatdırmalıyam ki, küfr diyarından – qeyri-ilahi, tağut və şeytani vilayət və hakimiyyətdən iman yudruna, Allahın, Peyğəmbərin (s), imamın və ilahi rəhbərin vilayət və hakimiyyətinə doğru köçmək zəruri bir məsələdir. Buna “hicrət” deyilir. Dünyada belə bir diyar olmadığı zaman nə etmək lazımdır? Küfr diyarında qalmalıyıq, yoxsa hicrət yurdu yaratmaq üçün bir çarə qılmalıyıq? Məgər Peyğəmbərin (s) özü də hicrət edənlərdən biri deyildimi? Peyğəmbər (s) də hicrət etdi, amma hicrətdən öncə, demək olar ki, hicrət yurdu yox idi. O Həzrət hicrət yurdunu öz hicrəti ilə yaratdı.

Bəzən bir qrup insanın öz hicrəti ilə hicrətin başlanğıc nöqtəsini qoyması, ilahi və isalmi bir cəmiyyət təşkil etməsi, hicrət yurdu yaratması zəruridir. Belə olduqda, möminlər də hicrət edərlər. Qeyd etdiklərimiz hicrət bəhsinin xülasəsindən ibarət idi.

1. Sədi.

## Xülasə

### Çərşənbə günü – Ramazan ayının 29-cu günü

### HİCRƏT

Cahilanə rejimdə tağut və şeytanın vilayət və hakimiyyəti mömini müxtəlif vasitələrlə tağutun qüdrətinə bağlayır, onu cahilanə rejimin görünməz torları ilə mühasirə edir, onun azadlığını əlindən alaraq qeyri-ixtiyari şəkildə həmin rejimin intizarında olan aqibətə düçar edir, onun öz qüvvəsini Allah yolunda, dini ayinlərin və islami göstərişlərin icrası uğrunda sərf etməkdən saxlayır.

Bu həqiqət danılmazdır və hicrət məsələsini qarşıya qoyur. Hicrət insanın cahilanə rejimə bağlılıqdan qaçıb qurtarması və özünü azad İslam cəmiyyətinə yetirməsidir; çünki (hicrət və İslam cəmiyyəti) insanın bütün amil və stimullarını Allah bəyənən hədəfə yaxınlaşdırır, cəmiyyətin maddi, ideoloji, ruhi-mənəvi təkamülə doğru təbii seyrini təmin edir, yaxşılıq yollarını genişləndirir, pislik və şərarət yollarını bağlayır.

Elə buna görə də “vilayət” prinsipi möminin cahilanə mühitdən İslam cəmiyyətinə köç etməsi və ilahi vilayətin hökm sürdüyü diyara qədəm qoyması üçün zəruri və təxirəsalınmaz bir vəzifə formalaşdırır. Qurani-Kərimin hicrət ayələrini mülahizə etdikdə, bu haqda müxəlif mətləblər əldə olunur. İndi isə bu ilhamverici ayələri dinləyək:

وَدُّواْ لَوْ تَكْفُرُونَ كَمَا كَفَرُواْ فَتَكُونُونَ سَوَاء – ***Onlar özləri kafir olduqları kimi, sizin də kafir olub özlərilə bərabər (küfr cərgəsində) olmağınızı istərlər.***

فَلاَ تَتَّخِذُواْ مِنْهُمْ أَوْلِيَاء حَتَّىَ يُهَاجِرُواْ فِي سَبِيلِ اللّهِ – ***Onlar Allah yolunda hicrət etməyənə (tağutla həmkarlıq etdiyi vaxta) qədər onları (özünüzə) rəhbər tutmayın!***

فَإِن تَوَلَّوْاْ فَخُذُوهُمْ وَاقْتُلُوهُمْ حَيْثُ وَجَدتَّمُوهُمْ – ***Əgər onlar üz çevirsələr (öz düşmənçilik və küfrlərindən əl çəkməsələr), onları harada görsəniz, tutub öldürün.***

وَلاَ تَتَّخِذُواْ مِنْهُمْ وَلِيًّا وَلاَ نَصِيرًا – ***Onlardan özünüzə rəhbər və köməkçi tutmayın!***

("Nisa" surəsi, ayə 89.)

إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ – ***İman gətirib (Mədinəyə) hicrət edənlər,***

وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ – ***Allah yolunda malları və canları ilə cihad edənlər***

وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ – ***və sığınacaq verib kömək edənlər***

أُوْلَـئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***məhz, onlar bir-birinin dostu və həmkarıdırlar (cəbhə yoldaşıdırlar).***

وَالَّذِينَ آمَنُواْ وَلَمْ يُهَاجِرُواْ مَا لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ حَتَّى يُهَاجِرُواْ –***İman gətirib hicrət etməyənlərə gəldikdə isə, nə qədər ki hicrət etməyiblər, sizin onlar qarşısında heç bir öhdəliyiniz və dostluğunuz yoxdur.***

وَإِنِ اسْتَنصَرُوكُمْ فِي الدِّينِ فَعَلَيْكُمُ النَّصْرُ إِلاَّ عَلَى قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ – ***Əgər onlar din yolunda sizdən kömək istəsələr, aranızda saziş olan bir tayfa əleyhinə yardım istisna olmaqla, onlara kömək göstərmək sizə vacibdir.***

وَاللّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ – ***Allah nə etdiklərinizi görəndir!***

وَالَّذينَ كَفَرُواْ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ – ***Kafirlər də bir-birinin dostlarıdırlar.***

إِلاَّ تَفْعَلُوهُ تَكُن فِتْنَةٌ فِي الأَرْضِ وَفَسَادٌ كَبِيرٌ – ***Əgər siz bunları etməsəniz, yer üzündə böyük bir fitnə-fəsad olar.***

وَالَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُولَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا – ***İman gətirib (Məkkədən Mədinəyə) hicrət edənlər, Allah yolunda cihad edənlər və sığınacaq verib kömək edənlər – məhz onlar – həqiqi möminlərdir.***

لَّهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ – ***Onlar üçün bağışlanma və böyük ruzi vardır!***

"Ənfal" surəsi, ayə 72-74.

إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ – ***Mələklər öz nəfslərinə zülm edənlərin canlarını alarkən (onlara) deyəcəklər: "Siz nə iş görürdünüz? (Nə üçün müsəlman olduğunuz halda, kafir sıralarında yer almışdınız?)"***

قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ – ***Onlar deyəcəklər: "Biz yer üzərində zəif salınmışlar idik."***

قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا – ***(Mələklər də onlara:) "Allahın yeri geniş deyildimi ki, siz də hicrət edəydiniz?" – deyəcəklər.***

فَأُوْلَـئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَسَاءتْ مَصِيرًا – ***Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir!***

إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً – ***Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar istisnadır.***

فَأُوْلَـئِكَ عَسَى اللّهُ أَن يَعْفُوَ عَنْهُمْ – ***Ümid var ki, Allah onları əfv etsin.***

وَكَانَ اللّهُ عَفُوًّا غَفُورًا – ***Allah əfv edəndir, bağışlayandır!***

وَمَن يُهَاجِرْ فِي سَبِيلِ اللّهِ يَجِدْ فِي الأَرْضِ مُرَاغَمًا كَثِيرًا وَسَعَةً – ***Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik (geniş yer) tapar.***

وَمَن يَخْرُجْ مِن بَيْتِهِ مُهَاجِرًا إِلَى اللّهِ وَرَسُولِهِ ثُمَّ يُدْرِكْهُ الْمَوْتُ فَقَدْ وَقَعَ أَجْرُهُ عَلى اللّهِ – ***Kim evindən çıxıb Allaha və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə (mənzil başına çatmadan) ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər!***

وَكَانَ اللّهُ غَفُورًا رَّحِيمًا – ***Allah bağışlayandır, rəhm edəndir!***

(“Nisa” surəsi, ayə 97-100.)